AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

AZƏRBAYCAN FOLKLORU KÜLLİYYATI

XV cild

DASTANLAR

V kitab

BAKI - 2010

AMEA Folklor İnstitutu
Elmi Şurasının qərarı ilə çap olunur

REDAKSİYA HEYƏTİ

Hüseyn İsmayılov, filologiya elmləri doktoru **(sədr);**
Teymur Bünyadov, akademik;
Azad Nəbiyev, AMEA-nın müxbir üzvü;
Tofiq Hacıyev, AMEA-nın müxbir üzvü;
İsrafil Abbaslı, filologiya elmləri doktoru, professor;
Qara Namazov, filologiya elmləri doktoru, professor;
Məhərrəm Cəfərli, filologiya elmləri doktoru, professor;
Muxtar İmanov, filologiya elmləri doktoru;
Füzuli Bayat, filologiya elmləri doktoru;
Ramil Əliyev, filologiya elmləri doktoru;
Oruc Əliyev, filologiya elmləri namizədi;
Əziz Ələkbərli, filologiya elmləri namizədi;
Ağaverdi Xəlil, filologiya elmləri namizədi;
Seyfəddin Rzasoy, filologiya elmləri namizədi **(məsul katib).**

TƏRTİB EDƏNLƏR: **f.e.d. Hüseyn İSMAYILOV**
f.e.n. Əziz ƏLƏKBƏRLİ

NƏŞRİNƏ MƏSUL: **f.e.n. Əziz ƏLƏKBƏRLİ**

Azərbaycan folkloru külliyyatı, XV cild, Dastanlar (V kitab), "Koroğlu" dastanı, Bakı, "Nurlan" nəşriyyatı, 2010, 428 səh.

Oxuculara təqdim olunan "Koroğlu" dastanının bu variantı uzun illərdən bəri adı elmi ictimaiyyətdə hallanan "Koroğlu" dastanının Tiflis nüsxəsi - Təbriz variantıdır. Tıarixi faktların zənginliyi, bitkin süjeti, dolğunluğu ilə seçilən bu variant "Koroğlu" dastanlarının hələlik ən qədim əlyazması sayılır. Dastanın bu variantının əlyazmasının transletirasiyası **Dilarə Əliyeva** və **Elnarə Tofiq qızına**, izah, lüğət və şərhlər **Elnarə Tofiq qızına**, müəlliflik hüququ isə **Folklor İnstitutuna** məxsusdur.

© "Səda", 2005.
© Folklor İnstitutu, 2010

KOROĞLUNUN BİRİNCİ MƏCLİSİ

Dəmirçioğlunun Telli xanımın ardınca Ərzuruma getməsi və Cəfər Paşaya əsir düşməsi. Koroğlunun onun dalınca gedib onu azad etməsi

Bəglərün qulluğuna hardan ərz eyləyək, Çardaqlınun Çamlıbeldən. Cəlali Koroğlu deyəllər, yeddi yüz yetmiş yeddi dəlisi var idi və neçə sövdagərləri var idi. Koroğlunun o sövdagərləri ticarət malı gətirürdilər. Belə ki, hər yerdə yaxşı, gözəl qızlardan və yaxşı, cavan şüca adamlardan Koroğluya xəbər gətirürdilər. Cəlali Koroğlu Qıratın minərdi və gedərdi gətirürdi.

Bir qardaşlığı var idi, adına Xacə Yəqub deyərdilər. Bu Xacə vilayətləri gəzdi, bir vəqt yolu düşdü Ərzuruma. Gördü bir aşıq meydanda söhbət eylər. Bu aşıq ki, söhbətin təmam eylədi, durdu Ömər adına pul istəməgə. Xacə xəbər aldı ki, ey aşıq, sən əhli-sünnətsən və ya əhli-şiə?

Aşıq dedi:

– Şiəyəm.

Xacə dedi:

– Pəs Ömər adına niyə pul istərsən?

Aşıq dedi:

– Bu vilayət sünnü vilayətidir. Əgər Əli adına pul istəsəm, məni həlak edəllər.

Xacə dedi:

– Ey aşıq, mənim bir qardaşlığım var, adına Cəlali Koroğlu deyəllər, gəl, səni onun yanına göndərüm, nə qədər malidünya istərsən, sana versin.

Aşıq bu Xacənin sözinə etimad edib, o şəhərdən gəlüb evinə, əyalının tədarükün görüb və bəd əz an atın minüb gəldi Çardaqlının Çamlıbelə.

Bəd əz an daxil oldu Koroğlunun məclisinə. Gördü yeddi yüz yetmiş yeddi nəfər əgləşüblər səndəlilər üstündə və təmamən keyf aləmindədürlər. Koroğlu başın yuxarı götürdü. Gördü, bir aşıq əlində bir saz durub qapı bərabərində. Səslədi:

– Aşıq, adın nədür?

Aşıq dedi:

– Adım, Aşıq Cünun.

Koroğlu dedi:

– İmdi ki, sən Aşıq Cünunsan, mən də cünunam, sənlən qardaş olaq.

Bəd əz an Aşıq Cünun iki ay müddəti Koroğlunun məclisində məşğuli-söhbət və işrət oldu.

Cəlali Koroğlunun bir mehtəri var idi, adına Dəli Mehtər deyərdilər, dedi:

– Ey Mehtər, Qıratı zin eylə.

Mehtər atı zin edüb, çəküb yeddi yerdən təngin möhkəm edüb. Bəd əz an Koroğlu hökm eylədi ki, təmam yeddi yüz yetmiş yeddi dəli atlarına səvar olub çıxdılar şikara. Bular bir neçə ədəd ceyran və durna urdular və kəbab edib məşğuli-şərab oldular. Cəlali Koroğlu səda eylədi ki, Aşıq Cünun söhbət eyləsün.

Cavanlardan biri ərz eylədi ki, qurbanın olum, Aşıq Cünun yol ayrımında oturub ağlırdı.

Koroğlu dedi:

– Bir nəfər cavanlardan onu gətürsün, ta görüm, dərdi nədür və niyə ağlır?

Çün Aşıq Cününu gətürdilər Koroğlunun bərabərinə. Koroğlu dedi:

– Ey Aşıq Cünun, mənə de görüm, dərdün nədür və nədən ötri ağlırsan?

Aşıq Cünun ərz eylədi ki, qurbanın olum, bən də evimi bitədarük qoyub gəlmişəm, əhli-əyalımun bu tədarüklığ qüssəsin edib ağlıram.

Koroğlu çün bunu eşidib, hökm eylədi ki, pul gətirün. Ağ puldan və qızıldan bir xurcun və bir qədər zərrinə libasdan bu Aşıq Cününun tədarükün gördü və vədə qoydu ki, iki ay müddət qal əyalın yanında və onları rahət edüb genə mənim yanıma müraciət edüb gəl. Əgər vədə xilaf olsan, bu dəlilərdən birin göndərüb, başıvun dərisinə saman təpüb gətirür və ərəbi atlardan bir yaxşı at verüb, yola saldı.

Aşıq Cünun Koroğlu qulluğundan mürəxxəs olub və (Ərzurum) yolun dutub mənzilbəmənzil gəlməgə məşğul oldu.

Bir neçə gündən sora yetişdi Ərzuruma və daxil olub öz evinə. Bir neçə gündən sora ki, əhli-əyalın rahət edüb öz-özünə fikr edüb ki, bir neçə gündən sora Koroğlu səni istər, dur ayağa, get Ərzurumun meydanına. Bir qədər söhbət edüb, pul tədarük edüb, qoy əhli-əyalun yanında.

Sazını götürüb çıxdı Ərzurumun meydanına. Qəribə nəqillərdən söhbət edirdi, ta Cəfər Paşanın qızı Telli xanım yengiçərilərdən birinə deyüb, mənim üçün bir yanşaq gətür. Yangiçərilərdən biri meydana çıxıb gördü Aşıq Cünun söhbət eylər. Dedi:

– Ey Aşıq, bu gecə hərəmxanayi-Cəfər Paşadə vədün var.

Aşıq Cünun vədə verüb şam vəqti sazın götürüb, gəldi hərəmxana qapısına. Yengiçərilərdən biri aşığı apardı məclisə.

Bəd əz təam Telli xanım yüzin dutub Aşıq Cünuna dedi:

– Ey Aşıq, bir qəribə hekayət söhbət eylə.

Aşıq Cünun bir qəribə nəql Telli xanım [illegible]

[illegible]

lu Sərdardur. Cəlali Koroğlunun hansı vilayətdə adı deyilüb, ismi və rəsmi var?

Aşıq Cünun dedi:

– Xanım, qoy mən ərz edüm, sən gör necə cavandur.

Urumdan, xondkardan, paşadan, xandan,
Həmişə alurdı bacı, Koroğlu.
Aldan, qumaşdan, zərdən, zibərdən,
Əynə geyər zər, qumaşı Koroğlu.

Telli xanım dedi:

– Ey Aşıq, deyillər onun yaxşı dəliləri vardur, gedüb meydandan baş gətirüllər. Onun özünün heç hünəri yoxdur.

Aşıq Cünun dedi:

– Xanım,

Həmişə ona ər deyillər, ər,
Meydana girəndə bir əsrəmiş nər,
Qorxar bəzirganlar, titrəşür dağlar,
Yeddi min dəlinin başı, Koroğlu.

Telli xanım dedi:

– Ey Aşıq, bəlkə bunun cavanlığın tərif edəsən. Deyillər Koroğlu ac adamdır.

Aşıq ərz eylədi:

– Xanım,

Hay deyəndə, ağır dəstə basılur,
Qancığədən qanlı başlar asılur,
Hər işkidə beş yüz davar kəsilür,
Eylə tökər aş-çörəgi Koroğlu.

Aşıq Cünun bu diyara gəlməsə,
Gəldigini, keşdigini bülməsə,
Hər yerdə bir gözəl görüb almasa,
Eylər naçar dağu-daşı, Koroğlu.

Telli xanım çün Aşıq Cünundan bu tərifləri Koroğlunun barəsində eşidəndə xeyli xoşhal olub götürdü bir namə Cəlali Koroğlu üçün yazıb bu növ ilən ki, ey Cəlali Koroğlu, bül və agah ol ki, mənim adıma Telli xanım deyəllər – Cəfər Paşanın qızı. Əgər gəlib məni burdan aparsan, dünya üzündə cavansan.

Çün namə təmam oldu, Aşıq Cünun naməni alub və Telli xanıma gürnuş edib mürəxxəs oldu, gəldi öz evinə. Gecə fikir edərdi ki, nagah Koroğlunun vədəsi xatirinə düşüb, gördü ki, iki ay müddəti üç ay olub. Aşıq Cünun tədarükün görüb və əhli-əyalın vida edib, şəhri-Ərzurumdan çıxıb mənzilbəmənzil yüz qoydu Çamlıbelə, Koroğlu xidmətinə. Bu aşıq gəlməkdə qalsın, nəql eşit Koroğludan.

Belə ki, bir gün məclis arəstə edüb məşğuli-eyşü-nuş idi və yeddi yüz yetmiş yeddi dəli səndəlilər üstündə əgləşüb keyfə məşğul oldular və İsa balı və Musa balı və Eyvəz balı məclis arasında piyaləyi-şərab gəzdirməgə məşğul oldular. Cəlali Koroğlu bu əsnada baş yuxarı götürüb buyurdu:

– Aşıq Cünun niyə söhbət etməz?

Cavanlardan biri ərz eylədi ki, qurbanın olum, o vəqtdən ki, Aşıq Cünun mürəxxəs olub, hənuz gəlməyüb.

Cəlali Koroğlu buyurdu ki, hər kəs mənim başımı sevər, ayağa durub, gedüb Aşıq Cununun başını kəsüb, içinə saman doldurub mənim yanıma gətirsün, ondan ötri ki, o mənə xilə-fi-vədə olub, iki ay müddəti üç aydan çox oldu.

Bəlli Əhməd yerindən qalxub ərz eylədi ki, qurbanun olum, bu qulluq mənimdür.

Koroğlu ona təhsin edüb mürəxxəs eylədi. Bəd əz an Bəlli Əhməd atına səvar olub yüz qoydu Ərzurum şəhrinə get-mağa. İki mənzil Çamlıbeldən ketmişdi ki, nagah bir vəqt görüb ki, Aşıq Cünun gəlir.

Bəlli Əhməd dedi:

– Ey Aşıq Günun, dur ki, Koroğlunun fərmayişinə görə məhbussan.

Aşıq Cünun dedi:

– Ey Bəlli Əhməd, əgər sən mərdanə cavansan, get Gazi-roğlu Mustafa bəg davasına və Reyhan Ərəb davasına və Bo-lu Sərdar davasına. Mənim kimin aşıq biçarənin yüzün öld-ürmək, məhbus eyləmək sənin içün bir şan dəgül.

Bəlli Əhməd çün bunu eşidüb, ona rəhm edüb. Onu diri gə-tirüb Cəlali Koroğlunun bərabərinə. Koroğlu səda eylədi ki, ey Bəlli Əhməd, bu nəmək-bəhəramı diri mənim yanıma

gətürdün və mənim əmrimdən təcavüz etdün?

Aşıq Cünun biçarə bu sözü eşidəndə baş əgüb ərz eylədi:

– Qurbanın olum, aman ver ki, ta sənin üçün bir namə gətirmişəm.

Koroğlu buyurdu:

– Gətür.

Aşıq Cünun Telli xanımın naməsin götürüb ədəb ilən əlinün üstündə dutdu Cəlali Koroğlunun bərabərində. Koroğlu naməni alub ünvanın götürüb baxdı və məzmuni-namədən müttəle olub gördü, Telli xanım – Cəfər Paşanın qızı yazıb ki, ey Cəlali Koroğlu, mənim bu naməm sənin xidmətinə yetişən vəqtdə əgər məni burdan aparsan, Aşıq Cünunun vəsfi və tərifi sənün babunda səhihdür.

Cəlali Koroğlu bunu görəndə rəngi qəzəbdən qararub bədəni titrəyüb hökm eylədi ki, məclis arəstə olsun. Həman saat yeddi yüz yetmiş yeddi dəli hazır olub məclisdə əgləşdilər. Cəlali Koroğlu şərab istəyüb. Əvvəl bir piyalə özü içüb, bəd əz an bir piyalə doldurub əlində dutdu və buyurdu ki, ey əhli-məclis, hər kəs məni istər, başdan və qandan keçüb, bu piyaləni alub nuş eyləsün və bu şikarın seydinə iqdam eyləsün.

Telli Həsən adlu ki, Dəmirçioğlu deyirdilər, ayağa durub əvvəl baş endirib, ərz eylədi:

– Qurbanın olum, bu iş mənim işimdir.

Cəlali Koroğlu çün onu görüb büldü ki, bu işin sahibi o dəgül, qəzəbindən piyaləni yerə çalub, yüzin çevirib əhli-məclisə buyurdu ki, ey mənim atımı minüb, donumu geyən cavanlar! Bir nəfər mərd cavan istərəm ki, bu şikarın dalınca getsün.

Yeddi yüz yetmiş yeddi dəli təmamən başların aşağa salub bir əhəddən səda gəlmədi.

Genə yerindən Telli Həsən Dəmirçioğlu qalxub ərz eylədi ki, qurbanın olum, bu xidmət mənimdür.

Cəlali Koroğlu genə hirsindən piyaləni yerə urub yüzün dutdu hüzzari-məclisə, dedi:

– Cəmaət, məgər sizün aralığuzda bir nəfər cavan yoxdur ki, bu mehtər şagird cəsarət edüb davtələb olur?

Əhli-məclis genə başların aşağa salub, səs gəlmədi.

Genə Dəmirçioğlu ərz eylədi:

– Qurbanın olum, bu xidmət mənimdür.

Cəlali Koroğlu piyaləni doldurub verdi Dəmirçioğluna. Dəmirçioğlu istədi piyaləni alsun, yapışdı Koroğlunun əlindən. Belə ki, təkan verüb, Koroğlunun barmaqlarının başından qan cari oldu.

Koroğlu çün bu zərbü-şəsti ondan görüb təhsin və afərin deyüb. Dedi:

– Geyim və çarayinə gətirün!

Dəmirçioğlu qərqü-ahənü-fulad olub. Bəd əz an Koroğlu hökm edüb:

– At gətirün!

Bir at var idi ki, döl atdı, əmma Qıratnan həm pəhluy idi. Zin və nəməd qoyub, təngin möhkəm eylədilər. Dəmirçioğlu ayağun rikabə qoyub, səddi-zində qərar dutub. Həman saat atına bir rikab çəkib meydanda cövlan etdi. Cəlali Koroğlu bunun bu at dolandırmağından və meydanbazlığından gördü filhəqiqət, bir cavandur, manəndi-Rüstəmi-Dəstan. Əmma heyif ki, hənuz sinni şəbabdədür və dava görməyüb və rəsmi davaya bələdiyyəti yoxdur. Məqami-nəsihətdə buyurdu.

Dəmirçioğlu, Ərzuruma varanda,
Orada bir isbat satmağın gərək!
Əgər gördün isbat başa varmadı,
Qaydub at yanında yatmağın gərək!

Bəd əz an dedi ki, ey Dəmirçioğlu, xəlvət və birahə yollarnan getmə.

Əvvəl güzaranın düşsə hər kəndə,
Ala qarğa kimin sal pərakəndə.
Hər yandan üstüvə at tərpədəndə,
Sağdan, soldan qıyqac atmağın gərək!

Bəd əz an dedi:

– Çün meydana girərsən, bir para cula şagird vər ərzəl cavan ilən dava edib özün yorma. Əvvəl davada qoşunun sərdarın gözlə.

Əvvəl gözlə o meydanın sərdarın,
Bulud kimin dağıtgilən pərgarın,

Pərakəndə eylə lovu-ləşgərin,
Meydanda qol-qola çatmağın gərək.

Dar yerdə qalanda yad eylə bizi,
Qoç iyid nə bilir əllini, yüzü,
Dəmirçoğluna budur Koroğlu sözü,
O Telli xanımı tapmağın gərək!

Çün Koroğlu nəsihətin təmam eylədi, Dəmirçioğlu Koroğlunu və iyidləri vida edüb, yüz qoydu Ərzurum şəhərinə getmağa.

Mənzilbəmənzil gedüb, ta daxili-şəhər oldu, çün əhd eyləmişdi ki, hər yerdə gün qürub eyləsə, orda mənzil eyləyə. Qürub vəqti şəhərə yetişdi, (gəldi) bir xırda qapıya. Qapını dögüb gördü, bir qarı qəddi-xəmidə gəlüb qapının bərabərinə. Qarı dürüst baxanda gördü bir cavan – buğları binaguşindən keçüb, bir kuh peykər at üstündə durub, qolları manəndi-çinar, barmaqlar manəndi-xiyar. Xəbər aldı:

– Oğul, hardan gəlirsən, kimsən və adun nədir?

Dəmirçioğlu salam edib, dedi:

– Ana, qəribəm, bu gecə sənə mehmanam.

Qarı çün bunu eşidib, dedi:

– Oğul, özün mənə qonaqsan, əmma atuva yerim yoxdur.

Dəmirçioğlu çün bu sözü qarıdan eşidib şeşpər əlində qapının üstündən belə urdu ki, divar dağılub. Atın çəkdi içəri və qarı çün bunu görüb qorxusundan heç dinməyib. Dedi:

– Oğul, mən bir fəqir kimsənəyəm, heç zadım yoxdur.

Dəmirçioğlu bir qədər qızıl qarıya təslim edüb. Qarı gedüb bir qədər kah və cov onun atına alub gətürdi. Bəd əz an ki, təam tənavül eylədilər, qarı xəbər aldı:

– Oğul, mənə de görüm, sənin əsl-nəcabətin kimə yetişür və kimlərdənsən?

Dəmirçioğlu dedi:

– Ana, mən yanşağam, bu vilayətə gəlmişəm bir qədər para qazanım.

Gecə yatub, istirahət eylədi. Sübh vəqti durub sazın götürüb gəldi şəhərin meydanına. Bir neçə bənd Koroğlu türkülərindən söhbət eylədi. Əhli-sünnü çün Dəmirçioğlunun bu şü-

caətin və bu hüsnün və bu süxənvərlığın görüb təmam durdular tamaşaya. Bu səda şəhərdə şöhrət tapub. Ta bu səs yetişdi Cəfər Paşanın qulağına. Dedi:

– Cəmaət, gedün, o yanşağı gətirün bura, ta bizim üçün söhbət etsün.

Bir neçə yengiçəri gəlib Dəmirçioğlunun bərabərinə, dedilər ki, ey yanşaq, Paşa hökm edüb ki, gərək səni aparaq, ta Paşa məclisində söhbət edəsən.

Dəmirçioğlu bunlara vədə verib ki, şam vəqti məclisi-Paşada hazır ollam. Gəlüb atın rahət edüb, sazın götürüb ta gəldi Paşanın məclisinə, daxil oldu, baş endirüb durdu bərbərdə. Paşa yer göstərüb ki, ey yanşaq, əgləş!

Dəmirçioğlu əgləşib gördü bir ali məclisdir ki, təmam sərkərdələr və yengiçəri ağaları səndəlilər üstündə əgləşüb və saqilər məşğuli-piyalədür və müğənnilər xoşluxlən oxullar və bəzi mütrüblər bazigərlığ eyləllər. Bəd əz an təam hazır olub. Gördü ənvaü-əqsam nemətlər xanlarda vardur ki, xeyli qəribədülər. Təam sərf olannan sora qəhvə və qəlyan və çubuq gətürdilər. Bəd əz an Paşa hökm eylədi ki, yanşaq bir qədər söhbət eyləsün!

Vəzir ərz eylədi ki, qurbanın olum, əvvəl şərab gətirsünlər ki, hüzzari-məclis məsti-layəqil olub, ondan sora yanşaq söhbət eyləsün.

Çün şərab gətürdilər, dübarə vəzir ərz edüb ki, Paşam sağ olsun, bir piyalə şərab yanşaqa versünlər ki, keyf edüb yaxşı söhbət etsün.

Paşa yüzin Dəmirçioğluna dutub dedi:

– Yanşaq, şərab içərsən?

Ərz eylədi:

– Paşam sağ olsun, bizlər bülməruğ ki, şərab nədir.

Dübarə vəzir ərz eylədi ki, qurbanın olum, sən şərab ver, içsün ki, ta damağlı söhbət eyləsin.

Paşa əlindəki piyaləni verüb saqiyə, saqi verdi piyaləni Dəmirçioğluna. Onu alub içüb, ondan sora ikinci piyaləni alub içüb. Bəd əz an üçüncü piyaləni alub içdi. Paşa dedi:

– Yanşaq, bəsündür?

Dedi:

– Qurbanın olum, bu heç mənim buğlarımı tər etmədi. Əvvəl neməti vermə, çün verdün neməti, təmam eylə.

Paşa yüzin dutub saqiyə, dedi:

– Bu məthərəni ver yanşağa, içsün.

Dəmirçioğlu onu çəküb başına.

Paşa dübarə dedi:

– Yanşaq, bəsündür?

Dəmirçioğlu ərz eylədi:

– Paşam sağ olsun, əvvəl ərz eylədim ki, neməti təmam eylə.

Paşa hökm edib bir qürbə şərab gətürdilər. Dəmirçioğlu alıb onu içdi. Paşa dedi:

– Yanşaq, bəsündür?

Ərz eylədi:

– Bəli.

Vəzir çün bu əhvalı yanşaqdan görəndə qəlbində dedi ki, bu ya Cəlali Koroğludur, ya onun dəlilərindəndür.

Bəd əz an Paşa hökm edüb, buyurdu:

– Yanşaq, söhbət eylə!

Dəmirçioğlu sazın götürüb durdu ayağa, ta bir neçə kəlmə Paşanın xidmətində söhbət etsün. Ərz eylədi.

Çamlıbeldən dav deyibən yeridüm,
Canım, əcəl bazarına gəlmişəm.
Başım ətəgimdə, qılıc belimdə,
Telli xanım güzarına gəlmişəm.

Paşa çün bu sözü eşidüb, qəzəbalud olub dedi:

– Vay anasın satdığım, necə Telli xanım güzarına gəlmisən?

Cəllad istiyüb. Cəllad əlində qılıc daxil oldu. Vəzir çün bu əhvalı görüb dedi:

– Paşam sağ olsun, bu yanşaq sənin qızın Telli xanımı söyləməz, bəlkə şüəra Telli adına söz qoşub və bu yanşaq dildəndilə örgəşüb sölər. Bu sənin qızının sözü dəgül.

Paşa dedi:

– Hərgah, minbəd Telli adına yanşaq söz söləsə, verrəm, boğazına qurquşun tökəllər.

Vəzir dedi:

– Yanşaq, daxi bundan sora Telli adına söləmə, özgə adı-

na sölə.

Dəmirçioğlu sazın götürüb istədi söhbət eyləsün, gördü pəncərədən iki göz buna baxır. Dəmirçioğlu Telli xanımı görəndə onun tiri-eşqin yeyib, şüru eylədi söləməgə.

Əvvəli səfərim qürbətə düşdü,
Qərib vilayətdə bağrımız bişdi,
Telli xanım, namən gəldi yetişdi,
Mən də sənin iqraruva gəlmişəm.

Paşa çün dübarə bu sözü eşidüb qəzəbnak olub cəllad istədi və hökm eylədi ki, urun bunun boynun.

Bu tərəfdən vəzir genə toprağa düşüb ərz eylədi ki, qurbanın olum, yanşaq sənün qızın Telli xanımın sözin demədi, bəlkə şuəranın şeri neçə bənd olur ki, onda məşuqənin adın zikr eylər. Bundan sora qadağan eylərük Telli adı gətirməsün. Vəzir dedi:

Vəzir ərz eylədi ki, Paşam sağ olsun, səbr eylə ki, ta peyda edüm.

Çün o gün axşam oldu, Paşanın qızı Telli xanım adam göndərib vəzir yanına ki, o yanşaqı gərək hərəmxanaya göndərə, ta bizim üçün söhbət eyləsün.

Vəzir çün bu sifarişi istima etdi, bir qədər gecədən keçəndən sora bir nəfər yengiçəri o qarının evinə göndərüb, Dəmirçioğlunu tələb edüb gətürdi. Vəzir onu verüb hərəm qullarına. Apardılar hərəmxanaya.

Telli xanım çün Dəmirçioğlunun hüsn və camalın görüb aşiq oldu. Dəmirçioğlu həm Telli xanımun tiri-eşqin yeyüb.

Telli xanım səsləndi:

– Oğlan, doğrusun söylə, görüm, sən Cəlali Koroğlusan, ya onun cavanlarındansan?

Dəmirçioğlu dedi:

– Xanım, mən Koroğlunun bir əskik nökərlərindənəm.

Telli xanım dedi:

– Bəs imdi ki sən Koroğlu dəgülsən, bu vilayətə niyə gəlübsən?

Dedi:

– Mən gəlmişəm ki, bu canımı bu yolda qoyam, səni aparam Cəlali Koroğlu üçün.

Telli xanım gördü ki, bu yaxşı cavandır, əmma heyf ki, yalquzdur. Dedi:

– Oğlan, sən heyifsən ki, bu vilayətdə həlak olasan. Ondan ötrü ki, mənim atamın yüz min ləşkəri var və sən bir yalquz cavansan, qorxaram ki, səni dutub həlak edələr.

Dəmrçioğlu dedi:

– Xanım, əgər Allah yar olsa və sən doğru deyəsən, inşallah, səni bu vilayətdən aparram.

Telli xanım çün gördü ki, bu oğlan möhkəm durub. Zülfün saz əvəzinə götürüb, yüzin oğlana dutub dedi:

Yalquz iyid qürbət eldə bay olmaz,
Qalx get, əcəm oğlu, durma bu yerdə!
Bir iyid ki, min iyidə bab olmaz,
Qalx get, əcəm oğlu, durma bu yerdə!

Dəmirçioğlu bunu eşidəndə yüzin dutdu Telli xanıma, bu

cavabı verdi.

Telli xanım, gözümə tik gözüvü,
Ölü əcəm oğlu, getməz bu yerdən!
Mənim ilə bir eyləsən sözüvü,
Ölü əcəm oğlu, getməz bu yerdən!

Telli xanım gördü bu oğlan sabitqədəmdür, ta bunu aparmasa, bu şəhərdən dışra getməz. Dedi:

– Oğlan,

Atam yığar yüz min, yüz min çərisin,
Əgər yüz min olsa, qoymaz birisin,
Yalquz iyid yoxlar işin gerisin,
Qalx get, əcəm oğlu, durma bu yerdə!

Dəmirçioğlu çün bu sözü eşidüb, Telli xanımın cavabında dedi:

Dərin-dərin dəryaları boylason,
Xəncər alıb qara bağrım teyləsön,
Yüz min qarğa bir laçına neyləsün,
Ölü əcəm oğlu, getməz bu yerdən!

Telli xanım çün bu sözü oğlandan eşidüb şüru eylədi öz elləriylə qorxutmağa. Dedi:

Yığılıban gəlsə Təkəlü bəglər,
Qarğa-quzğun kimin əlusu paylar,
Telli xanım səndən iltimas eylər,
Qalx get, əcəm oğlu, durma bu yerdə!

Dəmirçioğlu bunu eşidüb dedi:

– Xanım, bu qədər öz ellərüvü tərif eylərsən, məgər mənim elim yoxdur?!

Dəmirçioğlu, bağladuram bəndləri,
Çapdıruram obaları, kəndləri,
Qabağımda durmaz Rum iyidləri,
Ölü əcəm oğlu, getməz bu yerdən!

Çün bir qədər gecədən keçüb, Telli xanım bir qədər qızıl və gümüş və ləl-cəvahir, vəzndə yüngül, qiymətdə ağır götürüb Dəmirçioğluynan belə gəldilər qarının mənzilinə. Əvvəl o qarını dünya malından sirab eylədilər. Bəd əz an Dəmirçioğlu atın çəküb dışra

zin-nəmədin qoyub, yeddi yerdən təngin möhkəm edüb, ata səvar olub Telli xanımı aldı tərkinə. Gəldilər dərvaza bərabərinə.

Qələbanlar gördülər bir oğlan ata səvar olub və bir qız alub tərkinə. Onlar mane oldular. İstədilər, onu dutsunlar. Dəmirçioğlu şeşpər əlində belə urdu ki, qələbanlar hər ikisi həlak oldular. Dərvazanın qıfılın sındırub şüru eylədilər getmağa.

İki ağac yol qələdən dişarı getmişdilər, Dəmirçioğlu özözünə fikr edüb ki, bu tövr, bidava və xəlvəti bu qızı aparmaq iyidlər arasında namnəngdür. Pəs ordan müraciət edüb genə daxili-şəhər oldu. Günün tüluunda Paşanın imarətinin bərabərinə gəldi. Səda eylədi ki, ey Cəfər Paşa, agah və xəbərdar ol ki, sənin qızın Telli xanımı aparıram, hərçi səyin var mənim babımda, müzayiqə etməgilən.

Bəd əz an atın başın çevirüb, qələ qapısından çıxub, bina eylədi getmağa.

Bu getməgdə qalsın, əmma nəql eşit Cəfər Paşadan. Həman saat Paşa hökm eylədi təbli-hazırbaş çalınub on iki min ləşkər, tib dağıdan, ələm yatırdan, baş götürən qoşun Dəmirçioğlunun dalınca yola salıb.

Ta qoşun gəlməkdə, Dəmirçioğlu üç ağac yol getmişdi. Telli xanımı qoyub bir təll üstə, özü gəlib yol üstə durub, nizəsinə təkyə edüb, müntəzir durmuşdu. Bir vəqt nə tamaşa eylədi ki, on iki pərgari-ələm nişaneyi-on iki min qoşun təblücəng çala– çala gəlüllər. Əmma qoşunun bərabərində vəzirin oğlu ki, Telli xanım onun namzədi idi, bir kuh peykər ata səvar olub və başdan əyağa qərqü-ahənü-fulad olub, nərə-zənan, ərbədə-cuyan, fəryad-künan gəlür. Çün yetişdi Dəmirçioğlunun bərabərinə, dedi:

– Əcəm oğlu, heç bir səvarə gördün ki, bir qız tərkində gedər?

Dəmirçioğlu dedi:

– Cavan, qulağım kardır, bir qədər irəli gəl.

Çün vəzirin oğlu irəli gəlüb. Dəmirçioğlu yapışıb onun boğazından o qədər sıxdı ki, can maliki-neyranə təslim etdi. Bu tərəfdən Cəfər Paşa yetişüb hökm eylədi ki, on iki min qoşun Dəmirçioğlunu negini-əngüştər kimi aldılar arayə və dedi:

– Anasın satdığım, bu qədər cəsarət edüb ki, tənha bu şə-

hərdən mənim qızımı aparırsan, imdi sənün başun qaldırıb, dərisinə saman təpdirüb göndərrəm Cəlali Koroğluya.

Dəmirçioğlu durub bərabərdə, dedi:

– Paşam sağ olsun, bizim qaydamızdur, dad günündə bir neçə bənd türkü deyərük. Qulaq ver, deyüm.

Bir qılıcım vardur, bir cüdam,
Onları tər saxlamışam.
Bayıtmaz can belə sərdən,
Qanımı zər saxlamışam.

Paşa dedi:

– Anasın satdığım xırsız, sən bir tək nəfər və bu qərib vilayət və bu qədər qoşun. Səni qoyaram ki, buradan qız aparasan?!

Dəmirçioğlu dedi:

– Paşa,

Güvənmə malı-dövlətə,
Lənət gəlsin müxənnətə,
Sərim qurban Ərəb ata,
Oynar-kişnər saxlamışam.

Paşa dedi:

– Əcəm oğlu, əgər atun zirək ola, özün neylərsən ki, səni imdi öldürrəm.

Dəmirçioğlu dedi:

– Paşam,

Ac qurd kimi qarpınmağa,
Düşmən üstə çarpınmağa,
Min iyidə təpinmağa,
Qolda qüvvət saxlamışam.

Paşa dedi:

– Əcəm oğlu, belə xəyal eylərsən ki, mənim qoşunum budur?! Bəlkə yüz min qoşunum vardır. Əgər min canın ola, biri salamat qurtulmaz.

Dəmirçioğlu dedi: – Paşam,

Dəmirçioğlu bu yerlərdə,
Vəsfi deyilər dillərdə,
Çardaqlı Çamlıbellərdə,
Qoç Koroğlu ər saxlamışam.

Paşa dedi:

– Vay anasın satdığım, Koroğluynan məni qorxudursan? Yüzin çevirib qoşuna dedi:

– Cəmaət, qoymuyun!

Pəs qoşun cəmaəti birdən nərəzənan töküldülər Dəmirçioğlunun üstünə. Əmma bu tərəfdən Dəmirçioğlu əl aparıb qılıcun qəbzəsinə qılafından çəküb, düşdü qoşun arasına – hər tərəfə ki, yüz çövürürdi, qoşun murüməlox kimi dağılurdı və tari-ənkəbut kimi davam eyləməzdi.

Əmma bu tərəfdən Paşa gördü ki, qoşun az qaldı təmam olsun, hökm eylədi ki, neçə nəfər tüfəngəndaz tüfəng xali edüb Dəmirçioğlunun atın urdular. O cavan piyadə qalub, meydanda piyadə davaya məşğul oldu. Paşa hökm edüb, neçə nəfər kəməndəndaz o cavana kəmənd atub onu axirüləmr dəstgir eylədilər, Paşanın hüzuruna gətürdilər. Paşa hökm eylədi ki, dar ağacı tikilsün.

Pəs Dəmirçioğlunun qolların bağlayub dar ağacının dibində hazır oldular. Əmma Paşa hökm edüb, ta üç günə kimin bunu cəzasına yetirsünlər. Əvvəl gün ta dizlərinə kimi cildin soydular.

Əmma bu hekayət burda qalsın, nəql eşit Cəlali Koroğludan ki həman gecə öz mənzilində yatmışdı. Bir vaqiyeyi-hövlnak görüb ki, bir qan dəryasının içində əl-ayaq çalar və hərçənd istər kənarə çıxsın, mümkün olmaz. Bu vaqiənin xofundan yuxudan bidar olub bir qədər fikr edüb, genə huş apardı. Gördü, aləmi-röyada dəllək bunun bir dişin çəkdi. Bu yuxunun hövlündən bidar olub büldü ki, Dəmirçioğlu dutulub. Yüzin çevirdi Eyvəz balıya, dedi:

Qalx ayağa, Eyvəz balım, dur imdi,
Dəmirçioğlu, gördüm, yaman haldadır.
Gətirin Qıratı, özüm gedərəm,
Kömək deyüb, onun gözü yoldadır.

Əmma çün Koroğlunun bu səsin iyidlər eşidüb yeddi yüz yetmiş yeddi nəfər cavan qərqü-ahənü-fulad atlarına səvar oldular. Koroğlu dedi:

Deyin, Telli Həsən çəksin qılıcı,
Yaman gündə min iyidə verici.

Qoymayın dağılsın qoşunun ucu,
Tutulubdur, bir sərdarım, əldədir.

Çağırın, siz, Halaypozan oyansın,
Qılıcın qəbzəsi qana boyansın,
Dəmirçioğlu bir zərbəyə dayansın,
Onun şəsti çoxdur, gücü qoldadır.

Pəs iyidlər ərz eylədilər ki, Cəlali Koroğlu, bu gecənin vəqtində nə xəbərdir?

Dedi: – Cəmaət!

Aləm-vaqədə çəkdilər dişimi,
Mən özüm bülürdüm öz öz işimi,
Hər kəs sevər qoç Koroğlu başını,
Tutulubdur, bir sərdarım, əldədir.

Ərz eylədilər:

– Qurbanın olum, bu gecənin vəqtində səfərün harıyadur?

Cəlali Koroğlu buyurdu:

– Cəmaət!

Səfər oldu Ərzuluma,
Mənim ilən gedən gəlsün.
Namərd girməsün meydana,
Başü-candan keçən gəlsün.

Qalxanın çəkər üzünə,
Baxmaz ləkənün sözinə,
Əcəl köynəyin özünə,
Öz əliynən biçən gəlsün.

Budur, gəldi bəglər, xanlar,
Yolunda qoyublar canlar,
Qılıc qəbzəsindən qanlar,
Şərbət deyin içən gəlsün.

Koroğlu diyər, dəm bu dəmdür,
Didəmdən axan nəmdür,
Dövüş bir toydu, bayramdur,
Qəmgin köylüm açan gəlsün.

Pəs həman saat Cəlali Koroğlu yeddi yüz yetmiş yeddi dəli ilən atlanub yüz qoydular Ərzuruma. Ta sübhə kimin manəndi-çapar at qovub, sübh vəqti düşüb namazların qıldılar. Bəd əz an atlanub, ta zöhrə kimin genə at sürüb, gördülər yolda bir kişi oturub, osmanlı cəmaətindən.

Eylə ki o kişi bu cəmaəti və bu atları görüb ki, hər biri bir pəhləvani-namdardular – bu kişi bir ah çəküb dedi:

Aşiqəm, axar haray,
Su gələr axar haray,
Qərib iyid, yad ölkə,
Çağırır axır haray.

Cəlali Koroğlu dedi:

– Canım qoca, bu söz kimin sözüdür?

Qoca dedi:

– Bu təllin o yüzində Cəfər Paşa Cəlali Koroğlunun xırsızlarından birin dutub və dizlərinin cildin soyub və hökm edib ki, bu gün kəmərinə kimi cildin soysunlar.

Çün Koroğlu o qocanın bu sözin eşidib, dedi:

– Cəmaət, hər kim məni istər, bu qocaya bir qədər pul ve

a kdnəbe
kQiSOhYp1m

On iki min ləşkər, bütün firəngi,
Çar tərəfdən ox atdılar üstümə.

Dəmirçioğluyam, sinəsi dağlı,
Dar dibində durub qolları bağlı,
Bu günümdə gəldi qoçaq Koroğlu,
Cəfər Paşa saman təpər pustuma.

Çün Cəlali Koroğlu Dəmirçioğlunun sədasın eşidüb xatircəm oldu ki, hənuz o cavanı öldürməyiblər, döndü bir iyidlərə tərəf baxdı, dedi:

– Cəmaət, nə durmusuz?! Tökülün bu ləşkərin üstünə!

Çün iyidlər istədilər ki, qoşuna həmlə eyləsinlər, Koroğlu buyurdu:

– Cəmaət, səbr edin ki, Cəfər Paşa bizim gəlməgimizdən xabərdar olsun ki, bu bir namünənglığdur ki, bixəbər qoşuna həmlə eyləyək.

Pəs Cəlali Koroğlu sazın götürüb basdı sinəsinə, bir uca avaz ilən səsləndi:

Cəfər Paşa, bu gün dəva qurulsun,
Baş kəsərəm, bir-bir üstən qalansın.
Qoç iyidlər yarasını görəndə,
Şərbət edib öz qanından yalansın.

Hay deyəndə, ağır dəstə basaram,
Qancığadan qanlı başlar asaram,
Qabırğova misri qılıc basaram,
Bağırsağın çəmdəgüvə dolansın.

Çün Telli xanım bu sədanı eşidəndə dönüb boylanub baxdı, gördü, Cəlali Koroğlu iyidlərlən təllün üstündə mükəmməl və müsəlləh beəzm-cəng durub. Əmma Koroğlu çün Telli xanımın hüsnü-cəmalın görəndə, səsləndi:

– Ey qız!

Eşitgilən, qoç Koroğlu sözünü,
Qoparduram meydanızun tozunu,
Telli xanım bir də göstər yüzünü,
Gözüm görsün, canım cələvələnsün.

Çün Koroğlu sözin təmam eylədi, hökm eylədi ki, iyidlər birdən Cəfər Paşanın qoşununa həmlə edüb, cilovriz töküldülər. Əmma bu tərəfdən Cəfər Paşa həm hökm edüb ki, on iki min ləşkəri-Rum təbil və cəng ura-ura davaya məşğul oldular.

O iki dərya kimin qoşun tələtümə gəlüb bir-birilən dava edirdilər. Pəs əsnayi-davada Koroğlu yetişdi dar ağacının yanına. Dar ağacın qələm edib Dəmirçioğlun dardan xilas edüb. Bəd əz an gərm-dava olub, başlar manəndi-bərgi-xəzan tökülüb. Cavanlar manəndi-şümşadü-ər-ər qəddləri yerdə yeksan olub və qanlar manəndi-nəhrcar olub, begiro-bebənd hər iki tərəfdən ucalıb və yerin qubarı fələkün yüzin tar edüb sədai-əhsən və afərin mələkələrdən ucalıb.

Pəs uç saat müddəti gərm-dava olub ki, nagah əsnayi-davada Cəlali Koroğlu Cəfər Paşaya müqabil olub onı diri dutub. Çün qoşun cəmaəti Paşaların dəstgir gördülər, yüz qaçmağa qoyub mütəfərriq oldular. Bəd əz dava Cəlali Koroğlu Cəfər Paşanı, hüzura istəyüb hökm eylədi ki, onu darə çəksinlər. Əmma bu tərəfdən çün Telli xanım bu əhvalı müşahidə qılub düşdü toprağa, ərz eylədi ki, ey Cəlali Koroğlu, əgərçi mənim atam təqsir edibdür, əmma səndən iltimasım budur ki, onun təqsirin əfv edüb, mənə bağışlayasan.

Pəs Cəlali Koroğlu Cəfər Paşanın təqsirin əfv edib, əmma bu şərtlən ki, hər il Cəfər Paşa məbləği-xətir Cəlali Koroğluya peşkəş göndərsün.

Bəd əz an Koroğlu hökm ebüb ki, iki təxt tərtib verdilər. Birində Dəmirçioğlu və Telli xanım əgləşdilər, o birində Dəmirçioğlunun ərəbi atı ki, yarə götürmüşdü, onu qoydular. Pəs Cəfər Paşanın təmam malü-dövlətin və ordusun zəbt edüb ordan köçüb mənzilbəmənzil bina qoydular Çamlıbelə gəlməgə.

Pəs bir neçə mənzil gəlmişdilər, əmma bir gün yetişdilər bir dərbəndə. Pəs o ərəbi at olan təxt üzərində bir daşə toxunub. O heyvan at təxtün içində bir zari edüb. Dəmirçioğlu çün o hevanın ah və zarın eşidüb, dedi:

– Heyvan, kaş o tüfəng gülüləsi mənə dəgəydi.

Çün Cəlali Koroğlu bu sözü eşidüb, yüzün dutub iyidlərə, dedi:

Səhər gülşənə varmıyan,
Gülün qədrini nə bilür.
Əsldən sərraf olmayan,
Ləlin qədrini nə bilür.

Cüft sürüb zəmi əkmiyən,
Nanın süfrəyə tökmiyən,
Arının qəhrin çəkmiyən,
Balın qədrini nə bilür.

Çəkilüb günəşdə yanan,
Bir gögnəgi vardur, kətan,
Alçaqdan bəgligə yetan,
Elün qədrini nə bilür.

Koroğlu bunu bülməsə,
Axan qan-yaşın silməsə,
Bir ağa nökər qədrin bülməsə,
Özü öz qədrin nə bilür.

Bunu deyib ordan keçüb mənzilbəmənzil gəlirdilər, tainki Çamlıbelə yetişüb mənzildə nüzül edüb. Bəd əz an Cəlali Koroğlu hökm edüb cərrahi-mahir və ustadi-kamil Dəmirçioğlunun müalicəsinə məşğul olub. Ta bir neçə gündən sora yaxşı oldu. Ondan sora Cəlali Koroğlu Eyvəz balını çağırıb dedi:

– Hərgah bir tərlan bir quş şikar edə, o şikarı onun çəngindən almaq necədür?

Eyvəz balı ərz eylədi:

– Qurbanın olum, yaxşı dəgül.

Cəlali Koroğlu buyurdu:

– Çün Dəmirçioğlu zəhmət çəküb və dava eyləyib və Telli xanımi şikar edüb, bizə lazımdur ki, o şikarı onun əlindən almayaq.

Pəs Cəlali Koroğlu hökm eylədi ki, məclisi-toy bərpa olsun!

Pəs yeddi gün və yeddi gecə iyidlərün başı badeyi-nabdən gərm olub eyşü-işrətə məşğul oldılar. Çün yeddi gün və yeddi gecə axıra yetişdi, Cəlali Koroğlu buyurdı ki, övrətlər Telli xanıma ziynət verüb və özi həm iyidlər ilən Dəmirçioğlına ziynət verüb və bir dəst libasi-malükanə geyindürüb o iki cavan növrəsi bir-birinə təslim etdi.

KOROĞLUNUN İKİNCİ MƏCLİSİ

Koroğlunun Sultan Mahmudun qızı Nigar xanımı gətirmək üçün İstambula getməsi və Xondkarın oğlu Bürcü Sultanla dava etməsi və Koroğlunun ona qalib gəlməsi

Belə rəvayət olunub ki, bir gün Cəlali Koroğlu kəmali-şökətü-şanilən Çardaqlının Çamlıbeldə əgləşmişdi və öz keyflərinə məşğul idilər və Koroğlunun neçə nəfər adamı vilayətləri gəzdi ki, qəribə qızdan və ondan oğlandan hər yerdə və hər şəhərdə olsa, ona xəbər gətirsin. O cümlədən, bir Bəlli Əhməd adlı nökəri vilayətləri gəzirdi, tainki onun güzarı İslambul şəhərinə düşüb bir hücrədə mənzil edüb və atını töylədə bağlayıb bir neçə gün istirahət edüb, ondan sora çıxıb İslambulun küçə və bazarın dolanurdu ki, bəlkə bir qəribə şey görsün.

Nagah onun güzarı bir səbzifuruşun dükkanına düşdü. Gördü bir qoca kişi əgləşib. Bəlli Əhməd əyləşdi o qoca kişinin yanında, bir qədər onlan söhbət edüb bir vəqt gördü ki, təmam əhli-bazar dükkanların bağlayıb bazardan kənara gedillər. O qoca dedi:

– Ey cavan, dur ayağa ki, mən həm dükkanımı bağlıyum.

Bəlli Əhməd dedi:

– Qoca, hənuz axşam olmayıb, əhli-şəhər neçün dükkanların bağlayıb gedəllər?

Qoca dedi:

– Bu gün car çəkilüb ki, Sultan Mahmud Xondkarın qızı Nigar xanım bazar seyrinə gələcək, bu səbəbə əgər bir əhl bazarda qala, Sultan onlan müaxizə edər.

Bəlli Əhməd dedi:

–Ey qoca, mən qəribəm və yerim yoxdur. Allah xatirinə məni qoy bu dükkan içində, sən özün get.

Qoca dedi:

– Cavan, hökmü-Sultandır ki, hər kəs dükkanda qala, onun dükkanın qarət edəllər.

Bəlli Əhməd dedi:

– Qoca, sənin dükkanında bir şey yoxdur ki, onu qarət et-

sinlər, məgər bir qədər səbzi.

Pəs bir neçə əşrəfi qocaya verüb, qoca onu dükkanda qoyub dükanın bağladı və getdi. Bəlli Əhməd bir qədər oturmuşdu gördü ki, səqqalar bazarı ab-paş edillər və onların dalınca bir neçə kəniz bazarı carub edəllər. Bəd əz an Bəlli Əhməd bir vəqt gördü ki, qırx nəfər incə qız əllərində dəf və saz bir-birilən söhbətə məşğul gəlüllər. Çün onlar da keçdi Bəlli Əhməd bir vəqt nə tamaşa eylədi, gördü bir nazənin-huri peykər ki, onun camalınun şuaından göz xirələnürdü. Bir kuh peykər ata səvar olub və onun saçları sağdan və soldan tökülüb təmam aramlan bazarı seyr edir və hər tərəfə ki, nəzər salırdı, onun camalın şüaından dükkan və bazar münəvvər olurdu. O nazənin seyr edə-edə ta gəldi o səbzifüruş dükkanının bərabərinə. Gördü iki göz dükkan taxtasının arasından baxar. O nazənin xəbər aldı qızlardan ki, bu dükkan kimindir? Dedilər, bir qoca səbzifüruşun. Pəs o nazənin hökm eylədi ki, cəmaət, bu dükkanı dağıdun. Pəs kənizlər dükkanın taxtaların sındırıb Bəlli Əhmədi ordan dışra çıxarıb.

Pəs Nigar xanım kənizlərə hökm eylədi ki, bu nəməkbəhəramı urun ki, Sultan Mahmud pərdəneşinlərinin tamaşasına gəlüb. Pəs kənizlər ətrafdan tökülüb Bəlli Əhmədi saldılar araya, çox urdular. Nigar xanımın bir dayəsi var idi. Ərz eylədi:

– Ey xanım, rəhm eylə, bəlkə bu cavan qəribdir, bir yeri yoxdur, bu dükkanda o səbəbə oturub.

Pəs Nigar xanım buyurdu:

– Kənizlər, bəsdir, urmayun.

Ondan sora Nigar xanım buyurdu:

– Cavan, adun nədür?

Bəlli Əhməd ərz eylədi:

– Xanım, mənim adıma Bəlli Əhməd diyəllər.

Nigar xanım buyurdu:

– Oğlan, Əhməd adı yaxşıdır, bəs Bəlli nəmənədür?

Ərz eylədi:

– Xanım, biz Azərbaycan vilayətində çörək verməklə məşhur olmuşuq, o cəhətə mənə Bəlli Əhməd deyəllər.

Pəs Nigar xanım dürüst Bəlli Əhmədə baxıb gördü xeyli

şücaətli cavandır. Dedi:

– Ey cavan, bu şücaətlən heyf sən çörək verməkdə məşhursan, əmma pəhləvanlığa məşhur dəgilsən. İyid odur ki, Cəlali Koroğlu kimin şücaətdə hər yerdə adı deyilsün.

Bəlli Əhməd ərz eylədi:

– Mən həm onun bir əksük nökərlərindənəm və özüm həm məlum dəgül ki, Cəlali Koroğludan əksük iyid olam.

Çün Nigar xanım bunu eşidüb, dedi:

– Cavan, əgər mən Koroğluya bir namə yazam, onu aparırsan?

Bəlli Əhməd ərz eylədi:

– Apararam.

Pəs Nigar xanım qələmdan istəyüb öz xəttilə götürdü bir namə Cəlali Koroğluya yazdı bu məzmun ilə ki, "ey Koroğlu, sənin şöhrətin və şücaətin mənim qulağıma yetişüb, əgər mənim naməm sana yetişən vəqtdə məni bu diyardan apardun, bülləm ki, bu ism və rəsmi şücaət sənə layiqdir və əgər gəlmiyəsən məlumdur ki, lafi-bicadur və əgər mənim adımı bülsən ki, mən kiməm, mən adıma Nigar xanım diyəllər, Sultan Məhmudun qızı".

Çün namə təmam oldu, sər bemöhr edüb, təslim eylədi Bəlli Əhmədə. Dedi:

– Kənizlər, bir yaxşı ərəbi at verün ba cavana.

Çün atı gətirdülər. Bəlli Əhməd ərz eylədi:

–Xanım, sən naməni Cəlali Koroğluya yazdun, əmma məni də görürsən.

Nigar xanım buyurdu:

– Kənizlər, urun bu cavanı.

Dayə ərz eylədi:

– Xanım, cəvandur, şuxi eylər.

Pəs Bəlli Əhməd atı alub bir qədər pul nəqqaşə verub Nigar xanımın surətin mənquş edüb şəhri-İslambuldan çıxıb mənzilbəmənzil gözləyüb Çardaqlının Çamlıbelin gəlməkdə. Çün özün yetirdi Koroğlunun məclisinə, gördü, yeddi yüz yetmiş yeddi dəli təmamən Koroğlunun mənzilində məşğuli eyşünuş olublar. Cəlali Koroğlu çün Bəlli Əhmədi gördü, dedi:

– Mərhabə, xoş gəldün, nə xəbər gətirübsən?

Ərz eylədi:

– Bir xəbər yoxdur.

Cəlali Koroğlu dedi:

– Şərab gətirün.

Çün neçə piyalə şərab Bəlli Əhməd nuş edüb, başı şərabinabdan gərm olub. Koroğlu dübarə xəbər aldı ki, ey Bəlli Əhməd, nə xəbərün var nə xəbər gətirübsən?

Pəs Bəlli Əhməd Nigar xanımun surətin çıxarub qoydu Koroğlunun bərabərinə. Çün Koroğlu mülahizə eylədi, gördü bu bir nazənin sənəmin surətidir ki, xəllaqi-aləm bunun mislü-manəndin yaratmıyıb və yaratmıyacaq. Koroğlu çün bu surəti görüb canu-dildən bu surətün sahibinə aşiqi-biqərar oldu.

Bəd əz an Bəlli Əhməd Nigar xanımın naməsin çıxarıb verdi Koroğluya. Çün Koroğlu məzmuni-namədən müttəle olub yüzin dutub Bəlli Əhmədə, dedi:

– Hərgah bu namə və bu surət səhih ola, səni özümə sərdar eylərəm və əgər yalan ola, səni rizə-rizə eylərəm.

Pəs Koroğlu həman saat Dəli Mehtəri çağırıb buyurdu:

– Qıratı zin eylə.

Çün Qıratı zin edüb yeddi yerdən təngin möhkəm edüb ata səvar oldu. Pəs Koroğlu hökm edüb ki, hər kəs mənim dalımca gəlsə, onu öldürrəm. Gərək mən özüm yekcə və tənha İslambul şəhrinə gedüb Nigar xanımı gətirəm. Pəs bunu deyib, yola düşdü.

Mənzilbemənzil, qəte-mənazil edüb Nigar xanımın eşqindən üç mənzili bir mənzilə gəlirdi, tainki bir gün yetişdi İslambulun dərvazasının bərabərinə. Pəs daxili-şəhr olub küçələrdə dolanırdı ki, bir mənzil özünə tapsın. Yetişdi bir kiçik qapının bərabərinə. Qapını döğüb

eyNOMOO1yKSSOhe1yVDQİNMNhYp1

Əlhasil, Koroğlu o gecə qarıya qonaq olub atın çəkdi içəri və onu rahət edüb dedi:

– Qarı, biz on beş nəfər adamıq, bizim tədarükümüzü gör.

Qarı dedi:

– Cavan, mən fəqirəm, heç zadə gümanım gəlməz.

Pəs Koroğlu bir qədər qızıl qarıya verüb, qarının gözü işıq olub getdi, on beş nəfər adamın tədarükün görüb hazır eylədi. Çün axşam oldu, qarı gördü qonaqlar gəlmədi. Özi-özinə dedi, əcəb oldı ki, bu tədarük təmam mənə qaldı, bir neçə gün bunilən təam eylərəm. Çün Korluğu namazın qılub, dedi:

– Qarı, qonaqlar gəlmədi, get təamı gətür, tənavül edək. Qarı bir dövrü götürüb ki, bir qədər təam gətürsün, Koroğlu dedi:

– Qarı, təamın hamusın gətür.

Qarı iki məcmuəyə təam çəküb və bir dəri süfrə saldı, məcməələri qoydı süfrənün üstinə. Koroğlu bina eylədi təam yeməgə. Qarı gördü ki, bu cəvan bir neçə tikədə məcməənün birin saldı içəri. Qarı dəst-paçə olub ki, bu pətyarə bu məcməəni də yeyir, qarı ac qalur. Koroğlu dedi:

– Qarı, gəl sən də bir neçə loqmə tənavül eylə.

Qarı əvvəlinci tikəni götürüb istədi ikinci loğmanı götürsün, gördü məcmuənün təamı təmam olub və o dəri süfrə həm yoxdur. Qarı dedi:

– Cavan, pəs dəri süfrə hanı?

Koroğlu dedi:

– Qarı, mən süfrə görməmişəm, əmma təam yeyəndə bir zad dişimün altında bərk oldu, pəs məlum o, süfrə imiş.

Əlhasil, çün qarı bu gödənligi bu cavandan gördü yoxdur.

Pəs o gecə Koroğlu qarınun mənzilində yatub. Çün sübh oldu, Koroğlu ayağa durub libasın geyüb çıxdı, İslambulun bazarını gəzdi. Güzarı düşdü bir həkkakun dükkanına, dedi:

– Usta həkkak, mənə bir möhür ver, Məhəmməd xan adına.

Usta dedi:

– Cavan, öz adun de ki, Məhmməd xan Sultan Məhmudun qızı Nigar xanımun namzədüdür.

Koroğlu dedi:

– Əgər sən verməzsən özgə həkkakdan aluram.

Pəs həkkak bir möhr Məhəmməd xan adına Koroğluya verüb. Koroğlu bir qızıl həkkakə verüb, ordan keçüb gördi bir faqqı durub, Koroğlu dedi:

– Ay faqqı, biz yeddi nəfər qardaşuq, atamız ölüb və bir qədər miras bizə yetişüb, gərək mənimlə gedüb onu qismət eyliyəsən.

Faqqı öz-özinə dedi, əcəb oldı ki, bir qədər parə mənim əlimə gəlür. Koroğlu qabaqca, faqqı dalıca, ta gəlüb qarınun mənzilə daxil oldılar. Koroğlu dedi:

– Faqqı, bir kağız yaz Məhəmməd xan adına ki, namzədi Nigar xanıma göndərüb. Bu tövrilə ki, bu cavuşa heç kəs qarollardan mane olmasun.

Faqqı dedi:

– Ey cavan, məni ölümə verirsən, mən bu kağızı yaza bülməm.

Koroğlu dedi:

– Mümkün dəgül, gərək yazasan.

Faqqı götürüb bir kağız yazdı ki, hər vəqt bu çavuş gəlür, gərək qarollar onu məhbus edələr, ta mən gəlincə. Çün Koroğlu kağızı oxıyub məzmunundan müttəle oldu şeşpəri götürüb istədi faqqını həlak eyləsün. Faqqı yalvarub dedi:

– Ey cavan, qələt etmişəm, hər tövr ki, sən deyirsən, o tövr yazaram.

Faqqı dübarə qələmdan götürüb yazdı ki, ay Nigar xanımun qarolları, hər vəqt ki, bu çavuş gəlür, mane olmayun daxili-hərəm olsun, ta mənim Məkkədən gəlmək xəbərimi Nigar xanıma aparsun.

Çün kağız təmam oldu, faqqı istədi getsün, Koroğlu onu şeşpər ilə həlak eylədi. Qarı çün gördü faqqı həlak oldu, yüzin dutub Koroğluya dedi:

– Ey cavan, bu nə işdür ki, sən gördün. Əgər Sultan Məhmud bunu bülə, məni həlak eylər.

Koroğlu bir qədər pul qarıya verüb, dedi:

– Qorxma, əgər mənim mətləbim əmələ gələ, səni dünya malından sirab edərəm.

Pəs Koroğlu bir dəst libasi-çavuşi alub əyninə geydi, bina eylədi Nigar xanımun hərəmxanəsinə getsün. Bazarnan gəlürdü, güzarı düşdü bir sazfüruşun dükkanına. Koroğlu özözinə dedi, gərək bir saz almaq, ta Nigar xanımun mənzilində özüvü tanıtmaq.

Pəs daxil oldu ustad Muradun dükkanına. Çün bu ustad Murad hər il bir saz Koroğluya göndərürdi və Koroğlu həm yüz tümən pul bu ustad Murada göndəriridi.

Koroğlu dedi:

– Ey ustad Murad, mənə bir yaxşı saz ver.

Ustad Murad şagirdinə deyüb, bir saz bu əcəm oğluna ver. Şagird bir saz gətürüb.

Koroğlu dedi:

– Ustad Murad, bu yaxşı saz dəgül.

Ustad Murad dedi şagirdinə, o biri sazı gətür.

Şagird gətürdi, genə Koroğlu dedi:

– Bu yaxşı saz dəgül, o saz ki, hər il Koroğluya göndərürsən, onun mislin ver.

Çün Koroğlu adı gəldi, ustad Murad qəzəbnak olub bir çəküc Koroğlunun sinəsindən urdu, dedi:

– Anasın satdığım, sən neylərsən eylə sazı?

Koroğlu çün ustad Muraddan bunu müşahidə eyləyəndə, sazı götürüb basdı sinəsinə, dedi:

– Usta,

Baş götürüb səni deyüb, gəlmişəm,
Usta, qulun olum, sazı düzəlt, yola sal məni.
Sazım sınub, mən sərgərdan qalmışam,
Usta, qulun olum, sazı düzəlt, yola sal məni.

Çün ustadun şagirdi Koroğlunu görüb dedi:

– Usta, bu cavan ya Koroğludur, ya onun nökərlərindəndür.

Koroğlu çün şagirddən bunu eşidəndə, gördü üstaddan sahibi-kamaldur, dedi:

Endirəydüm Çamlıbelün düzinə,
Xurda sədəf doğra sazun üzinə,
Qurban ollam şagirdün gözinə,
Usta, qulun olum, sazı düzəlt, yola sal məni.

Eylə ki ustad Murad Koroğludan bunu eşidəndə dedi:

-Vay həramzadə, mənim şagirdimə gözün düşdü.

Əlindəki çəküclən Koroğlunun sinəsindən urdu. Koroğlu dedi:

– Usta,

Sənə qurban ollam, qırqırı qoca,
Alçaq dayanmısan, danışma uca,
Nə zəhmət verirsən əgri qılıca,
Usta, qulun olum, sazı düzəlt, yola sal məni.

Usta bunu eşidəndə dübarə bir çəküc Koroğlunun sinəsindən urdu, dedi:

– Ey anasın satdığım, məni qılıclan qorxudursan?

Koroğlu dedi:

– Usta,

Koroğlu dedi, ucalardan endirdüm,
Endiribən sinəm üstə mindirdüm,
Eyvəz ilən sərxoşluqda sındırdum,
Usta, qulun olum, sazı düzəlt, yola sal məni.

Ustad Murad büldü ki, bu Cəlali Koroğludur, düşdü onun ayaqlarına, dedi:

– Qurbanun olum sənə, bağışla ki, səni tanımamışam.

Pəs Cəlali Koroğlu yüz tümən pul verdi onun şagirdinə, dedi:

– Ustad Murad, bu sənün şagirdün olsun, sənün məvacibün göndərrəm.

Pəs ustad Murad bir yaxşı saz Koroğluya verib. Koroğlu sazı götürüb, xudahafiz edüb yola düşdü, ta gəldi Nigar xanımun hərəmxanə qapusınun bərabərinə. Qarollar gördilər bir çavuş

durub qapu bərabərində. Qarollar onılan müsamixə edüb.

Koroğlu dedi:

– Gərək mən içərüyə gedəm, Nigar xanımun xidmətinə ki, Məhəmməd xandan kağızım var.

Qarollar kağızı alub gördilər möhür Məhəmməd xan adınadur.

Əmma dedilər:

– Kağız səhihdür, lakin sənə hərəmxanayə yol verməzlər.

Koroğlu çün bu cavabı eşidüb şərh edüb, dedi:

– Mən bir qədər əşya gərək alam, Məhəmməd xanun tədarükinə zəruridür. Əgər məne olasuz Məhəmməd xanun tədarükü təxirə düşər, ixtiyaruz var.

Qarollar çün tədarük adın eşidüb dedilər:

– Ey çavuş, daxil ol hərəmxanaya, tədarükün gör.

Çün Koroğlu daxil oldu səhnəyə bir parə kənizlər çavuşu görəndə qaçdılar Nigar xanımun xidmətinə. Ərz elədilər ki, ey xanım, bizə müjdə ver ki, Məhəmməd xanun çavuşu gəldi. Nigar xanım dedi:

– Kənizlər, hacılarun istiqbalı səvabdur.

Nigar xanım özü ayağa durub ki, çavuşun istiqbalına gəlsun, əmma bu tərəfdən Koroğlu çavuşluq libasın çıxarub qızılbaş libası əgnində durmuşdu ki, nagah gördü bir nazənin sənəm, bir neçə nəfər kəniz qabaqca və bir neçə kəniz sağda və solda gəlüllər. Çün Nigar xanım yetişdi, gördü, bir cavani-kuhpeykər, buğlar binaguşdan keçüb durub səhni-bağçada. Nigar xanım dedi:

– Kəniz, bəs hanı çavuş, bu cavan ki çavuş dəgül?

Kəniz ərz eylədi:

– Xanım, valla imdi çavuş burda durmuşdu.

Nigar xanım qəzəbnak olub dedi:

– Kənizlər, bu haramzadə mənə al edüb istir məni nameh-rəmlərə göstərə. Ağac gətürün!

Kənizlər o kənizi ətrafdan aldılar araya. Hər tərəfdən ağac tökirdilər. Çün Koroğlu bu əhvalı gördü, kənizə rəhmi gəldi ki, bu kəniz mənim səbəbimlə kötək yeyir. Sazın götürüb yüzin dutdu Nigar xanıma, ərz eylədi:

– Xanım, bir neçə söz gəlüb dilimə, onları ərz edüm, əgər xoşun gəlsə, bu kənizi mənə bağışla.

Nigar xanım dedi:

– Kənizlər, o kənizi urmuyun, ta görüm, bu yanşaq nə sölər.

Koroğlu dedi:

– Xanım,

Salam verrəm, salam almaz,
Görüm dutsun salam səni.
Axçasız, mülksüz aşığam,
Pulum yoxdur alam səni.

Çün Nigar xanım bu sözü Koroğlıdan eşidəndə acıqlanub dedi:

– Kənizlər, o kənizi daxi urmıyun, gəlün bu yanşaqı urun.

Kənizlər əllərində ağac töküldilər Koroğlınun üstünə, hər tərəfdən kötəkkarlıq elədilər. Koroğlu ərz eylədi:

– Xanım, qoy sözümü təmam edüm, ondan sora əgər müstəhəqq tənbih olam, tənbih eylə.

Nigar xanım buyurdu kənizlərə:

– Əl çəkün, qoyun görüm bu yanşaq daxi nə sölər.

Koroğlu dedi:

Yengə yağmış tazə qarsan,
Hansı bağçalarda barsan,
Vallai kağızdan ağsan,
Qələm dutmaz yazam səni.

Nigar xanım çün bunu eşidüb dübarə kənizlərə hökm edüb ki, bu yanşağı urun və özü həm bir silli Koroğlunun yüzindən urdu. Koroğlu dübarə ərz eylədi:

– Xanım, səbr eylə, ta sözümü təmam eyləyüm.

Nigar xanım buyurdu:

– De, görüm.

Koroğlu dedi:

– Xanım,

Pünhan yerlərdə bitərsən,
Süsən sünbül tər dutarsən,
Məni kökümdən ütərsən,
Görüm dutsun naləm səni.

Nigar xanım dedi:
– Yanşaq, nifr eyləmə, sözin təmam eylə, görüm, nə deyirsən.
Koroğlu genə ərz eylədi:

Uca dağların qarısan,
Yengi bağçalar barısan,
Nigar, Koroğlu yarısan,
Tanır küllü-aləm səni.

Nigar xanım çün bunu eşidüb dedi:
– Vay xirsiz, özün Koroğlu edüb və məni özüvə yar elədün?
Yüzün dutub kənizlərə, dedi:
– Cəmaət, qoymuyun, bu yanşaqı urun.
Koroğlu ərz eylədi ki, genə bir neçə bənd sinəmə söz gəlüb, qoy onları ərz edüm, əgər xoşun gəlməsə, ver, məni öldürsünlər.
Nigar xanım dedi:
– Söylə, görüm.
Koroğlu ərz eylədi:
– Xanım,

Səniylənəm, Nigar xanım,
Qoy görüm, bağrın daş olsun.
Baxmasan aşiq sözinə,
Gözlərin yaşilən dolsun.

Pərim, dil vermə yadlara,
Buyur məni cəlladlara,
Mindirrəm köhlən atlara,
Yollar ilən sərxoş olsun.

Nigar xanım dedi:
– Vay anasın satdığım xırsız, bu nə sözdür deyirsən? Kənizlər, urun!
Koroğlu ərz eylədi:
– Xanım, qoy sözümü təmam edim.
Nigar xanım buyurdu:
– De, görüm.
Koroğlu dedi:

Xiyabanlar çarsusunda,
Gözüm qaldı arzusunda,
Koroğlunun qarşusunda,
Nigar kimi on beş olsun.

Nigar xanım genə qəzəbnak olub, yüzin kənizlərə dutub, dedi:

– Urun bu yanşaqı.

Koroğlu kötək zərbindən qaçub taların bərabərində bir hovuz var idi, özün saldı o hovuza. Kənizlər hovuzun ətrafın alub.

Koroğlu dedi:

– Ey kənizlər, hər kəsi dutaram, sallam hövuza, ta həlak olur.

Bir qədər Nigar xanım və kənizlər Koroğlunun bu sözindən gülüb. Nigar xanım dedi:

– Kənizlər, gəlin gedək talara bir qədər şərab içək və tər dəmağ olaq, bəd əz an gəlüb bü yanşaqı tənbih edək.

Pəs onlar talara gedüb bir qədər eyşü-nuşə məşqul oldular.

Çün Koroğlu bu müddəti səfərdə şərab içməmişdi. Eylə ki şərab görüb qəlbi aram dutmuyub öz-özünə fikr eylədi ki, bu nadürüst Bəlli Əhmədin sözüylə özüvü ölüm ayağına gətirdün, bura hərəmsarayi-Sultandur, burdan xilas olmaq çox müşküldür.

Pəs bir qədər fikr edüb, dedi, bu dəfə həm bir uzaqdan bir neçə bənd söz Nigar xanıma de, əgər o namənin sihhətti var, burda zühur edər. Pəs hovuzdan çıxıb kənarə, sazın götürüb basdı sinəsinə, dedi:

Ey ağalar, cavan sevdüm,
Oldum dəli, divanə mən.
Nagah birdən mail oldum
Bir ala göz cavanə mən.

Bilseydim gəlməzüdüm,
Qəm-qüssəsin yeməzüdüm,
Car xəbərin verməzüdüm,
İmdi gəldim əmanə mən.

Gün doğdu Məşriq dağına,
Rağıb girməz dost bağına,
Gül düzəydim buxağına,
Gülün dərrəm nemanə mən.

Koroğlu söylər diləndən,
Heç qucan olmaz belindən,
Nigarım, sənin əlindən,
Qulam yaxşı-yamanə mən.

Nigar xanım çün bu sözü Koroğludan eşüdüb dedi:

– Qızlar, durun ağac götürün ki, bu yanşaq dilin kəsməz.

Qırx nəfər kəniz təmam əyağa durub kimisin əlində ağac və kimisinün əlində sixi-kəbab və kimisin mina qəlyan töküldülər Koroğlunun üstünə. Pəs Koroğlu genə sazın götürüb, dedi:

Ey ağalar, ey qardaşlar,
Nigar xanım genə gəldi.
Didəmdən tökülür yaşlar,
Nigar xanım yenə gəldi.

Ərməni süvər xaçını,
Alım ağ üzün maçını,
Hörübdür yana saçını,
Salub dal gərdənə gəldi.

Havadan çox ötər quşlar,
Xəyalım gönlümdə qışlar,
Bir əlində rizə daşlar,
Bir əlində mina gəldi.

Ağladuban güldürməgə,
Didəm yaşın sildirməgə,
Koroğlunu öldürməgə,
Nigar xanım genə gəldi.

Nigar xanım çün bunu eşidüb, dedi:

– Kənizlər, əl saxlayın.

Pəs yüzün çevirdi Koroğluya, dedi:

– Yanşaq, sən hər sözin axırın Koroğlu adına təmam edir-

sən. Mənim atam Sultan Məhmud hər il bir qəba Koroğluya xələt göndərür. İmdi genə o xələt təmam olub, onu gətirim, əgər sənün qamətivə rast gəldi, bülləm Koroğlusan və əgər gəlmədi, səni öldürrəm.

Pəs Nigar xanım hökm eyləyüb həman xələti gətürdilər. Nigar xanım o qəbanı verüb Koroğluya, onu əgninə geydi. Deyərsən bəs, xəyyat onu görüb o qəbanı biçmişdi. Çün Nigar xanım anladı ki, bu Cəlali Koroğludur, özün saldı onun ayaqlarına, dedi:

– Kənizlər hər biri sənə çox ağac urub, onların əvəzinə sən məni ur, əgər mən öldüm, sənə qurbanam və əgər qaldım, sənün maluvam və gərək məni bağışlayasan.

Pəs qolların saldı Koroğlunun boynuna, onu götürüb kəmali-ehtiramlan taların içində əgləşdürdi və özü həm əgləşüb, kənizlər bərabərdə durub bir qədər söhbət edüb. Əsnayi-söhbətdə Nigar xanım dedi:

– Ey Cəlali Koroğlu, sənin kimin cavan ruyi-zəmində yoxdur. Əmma heyf ki, bir qədər kəndümkünsən.

Çün Koroğlu bu sözü Nigar xanımdan eşidüb, dedi:

– Xanım, sən belə xəyal eylərsən ki, qara rəng adam yaxşı olmaz. Qulaq ver, deyim.

Mənə deyərsən qarasan,
Qaşların qara dəgülmü?
Tökülübdür dal gərdənə,
Saçların qara dəgülmü?

Açılıb həqqin eşigi,
Aləmə düşüb işığı,
Həsən, Hüseynin beşigi,
O rəngi-qara dəgülmü?

Koroğlu der, zülfü burma,
Ölərəm qarşıda durma,
Ala gözə siyəh sürmə,
Çəkdigin qara dəgülmü?

Çün Nigar xanım bunu eşidüb peşiman olub qolun saldı

Koroğlunun boynuna, bir neçə busə alıb, dedi:

– Məni əfv eylə.

Bəd əz an yüzün dutub kənizlərə, dedi:

– Cəmaət, şərab gətürün.

Çün şərab hazır oldu. Nigar xanım özü ayağa durub, piyaləni doldurub gətirdi Koroğlunun bərabərinə. Koroğlu alub nuş eylədi. Əlhasil, bu minvalinən bir həftə müddəti Nigar xanım və Koroğlu bir otağın içində məşğuli-eyşü-nuş və söhbət oldular. Bir həftədən sora Cəlali Koroğlunun Çamlıbel və iyidlər xatirinə düşüb, sazın götürüb basdı sinəsinə, yüzün dutdu Nigar xanıma, dedi:

– Xanım,

Uca dağların başında,
Nəmli-nəmli qar görünür.
Mənim şikəstə könlümə,
Ala gözlü yar görünür.

Bir gögnəgi var aləvdən,
Rəngi seçilməz lalədən,
İçib, məstdir piyalədən,
Gözləri xumar görünür.

Çun Koroğlu bunu deyüb gördü Nigar xanım sinəsin çak edüb iki danə pistanı Ərzistan narı kimin baş çıxarub. Koroğlu dedi:

Gəzəydim yarın kəndini,
Əməydim ləbin qəndini,
Dügmələ püstən bəndini,
Kəsilməmiş nar görünür.

Koroğlu der, əzənmədim,
Rəxtin geyub bəzənmədim,
Mən yar ilən gəzəmmədim,
Dünya mənə dar görünür.

Çün bu sözü deyüb təmam eylədi, Nigar xanım büldü ki, Cəlali Koroğlunun meyli getmaqdur. Həman gecənin nisfində kənizləri və dayələri yuxuya verüb bir qədər ləl və cəvahir

və qızıl və gümüş götürüb, dedi:

– Koroğlu, mənə de, görüm, Qıratı gətirübsən, ya nə?

Koroğlu dedi:

– Bəli gətirmişəm.

Dedi:

– Həman bu libasi-çavuşluqda sübh vəqti durarsan, at meydanında bir at alursan ki, Qırata bərabər ola. O atlarun hər ikisin zin edüb xarici-şəhrdə bir gülzar çəmən var, orada müntəzir olursan ki, mən həm sənün dalınca gəlləm.

Çün sübh oldu, Koroğlu libasi-cavuşluqda gəlüb bir yaxşı at alub gətirdi həman qarının mənzilinə. Pəs bir qədər mali-dünya o qarıya verüb onu məmnun eylədi. Bəd əz an qarıdan vida eyləyüb, Qıratı zin edüb və o aldığı atı cilovunda götürüb həman çəməndə ki, vədə qoyulmuşdu, əgləşdi. Müntəzir idi, ta Nigar xanım gəlsün. Bu dastan qalsun burda, nəql eşit Nigar xanımdan.

Çün Koroğlu Nigar xanımın hərəmsərasından dişra çıxdı, Nigar xanım hökm eylədi ki, bir təxt hazırlasunlar ki, mən beəzmi-səyahət şəhərdən kənara gedəcəgəm. Çün təxt hazır oldu, Nigar xanım bir neçə kənizlərdən yanınca götürüb beəzmi-səyahət şəhərdən kənarə gəlüb ta yetişdi həman çəmənə ki, Koroğlu o çəməndə müntəzir oturmuşdu. Təxtdən aşağa gəlib, dedi:

– Ey Cəlali Koroğlu, daxi durmaq vəqti dəgül.

Pəs Koroğlu atların təngin möhkəm edüb ayaq həlqeyi-rikabə qoyub xaneyi–zində qərar dutdular. Yüz qoyub Çamlıbel səmtinə getməgə. Pəs aramlan Koroğlu atın sürürdü. Nigar xanım dedi:

– Ey Koroğlu, atın tünd sür ki, məbadə, mənim qardaşım Bürci Sultan xəbərdar olub bizim dalımızca ləşkər götürüb gələ və səni həlak eyləyə.

Koroğlu dedi:

– Mənim atım kəm yerişdir, o qədər ki, taqəti vardur rəftar edər. Tainki ahəstə-ahəstə atların sürüb söhbət eyləyə-eyləyə iki ağac İslambulun şəhərindən kənar bir çeşmə var idi, Koroğlu orada atından aşağı gəlüb və Nigar xanımı həm

atından aşağı endirüb.

Nigar xanım ərz eylədi:

– Ey Cəlali Koroğlu, bura oturmalı yer dəgül ki, şəhri-İslambula yavuqdur, dur ayağa köç edək ki, məbadə, atam və qardaşım Bürci Sultan bizim dalımızca gələlər və fitnə-fəsad bərpa ola.

Koroğlu dedi:

– Xanım, mən çox bixabəm və aramım yoxdur, gərək bir qədər xab edəm, ta rahət olam.

Nigar xanım dedi:

– Ey Koroğlu, imdi ki, xab edərsən, bir qədər az xab eylə ki, tez köç edək.

Koroğlu dedi:

– Xanım mənim üç yuxum vardur; biri budur ki, yeddi gün və yeddi gecə yataram və biri budur ki, üç gün və üç gecə yataram və biri budur ki, bir gün, bir gecə yataram. Çün sən xof edərsən ki, məbadə, düşmən gələ və fitnə və fəsad bərpa ola, bir gün, bir gecə yataram.

Əlhasil, Nigar xanım oturub, Koroğlu başın qoyub Nigar xanımın dizi üstə, bina eylədi xab eyləsün. Dedi:

– Ey xanım, sənə vəsiyyətim budur ki, düşmən şəhərdən çıxanda mənim atım bir şiyhə çəkər. O vəqt məni yuxudan oyatma və çün düşmən yolu nisf edəndə mənim atım bir şiyhə həm çəkər. O vəqt genə məni yuxudan oyatma və çün üçüncü dəfə mənim atım dırnaqın yerə urub bir ucadan şiyhə çəkər. Bül və agah ol ki, düşməni görüb səda eylər, o vəqt məni yuxudan oyat.

Bunlar qalsın bu çeşmə başında, nəqli-dastan eşit ki, çün kənizlər və qulamsəralar və fərraşlar Nigar xanımlan seyrə gəlmişdilər, gördülər, çün Nigar xanımı Koroğlu ata səvar edüb, yüz Çamlıbelə qoydu. Onlar ağlaya-ağlaya və nərə ura-ura özlərin yetirüb Sultan Məhmud Xondkarın bərabərinə, ərz eylədilər ki, ey Sultani-adil, nə aramlan əgləşübsən ki, sənün qızun Nigar xanım bir səhraya çıxmışdı, nagah Cəlali Koroğluya düçar olub, onu bizim əlimizdən alub yüz qoyub Çamlıbelə getməgə.

Çün Sultan Məhmud bu sözü qulamsəralardan və xacəsə-

ralardan eşidüb əl naharından çəküb, qəzəbindən rəngi saralub həman saat öz oğlu Bürci Sultanı ehzar eyliyüb. Çün Bürci Sultan hazır oldu və gördü Sultanun əhvalı mütəğəyyir olub və rəngi saralub və rəşə əndazə dutub ərz eylədi ki, qurbanın olum, nə vaqe olub ki, belə mütəğəyyiri-ələhval olubsan?

Sultan macəranı deyüb hökm eylədi ki, qırx min ləşkər götürüb get Cəlali Koroğlunun dalınca. Çün Bürci Sultan minarəyə müttəle olub daxil oldu öz mənzilinə, əsnabi-hərbi töküb bərabərinə. Əvvəl bir xoftani-sorx əgninə geyüb və belin zəncirlən möhkəm qılub və bir taskulah başına qoyub ki, o taskulahı on iki zəncirlən başında möhkəm eylədi və bir şəmşiri-misri belinə bağlıyub və bir neçə cəbə ox götürüb və bir nizəi-cansitan manəndi mari-ərqəm əlinə alub və bir kuh peykər ata səvar olub. Çün Bürci Sultan atlandı, həman saat təbli-hazırbaşi-ləşkər çalınub. Ləşkəri-cərrar, yengiçəridən və səvarə və piyadədən qırq min götürüb İslambulun şəhərindən çıxub yüz qoydılar Cəlali Koroğlunun dalınca.

Bunları gəlməkdə qoy, nəql eşit Koroğlunun Qıratından ki, çün qoşun İslambul şəhərindən çıxub gəlürdi, şiyhə çəkdi. Nigar xanım büldü ki, qoşun gəlür. Koroğlunu yuxıdan bidar etməyüb və çün bir qədər keçdi, genə Qırat bir şiyhə çəküb. Nigar xanım genə Koroğlunu oyatmayub və çün bir qədər keçdi, Qırat ayaqların yerə urub bir ucadan şiyhə çəkdi. Nigar xanım dürüst baxub gördi ki, fərqi-pərkar-ələm-nişanə qırq min ləşkər İslambul tərəfindən nümayan oldı və qoşunun ğubarı günün yüzin tirəvü-tar edüb. Bir iztirab Nigar xanımın qəlbinə düşüb, gözlərin yaşla doldurub şuru eylədi Koroğlunu yuxıdan oyatmağa.

Çün Koroğlu gözlərin açub gördü Nigar xanım bahar buludu kimin ağlar. Koroğlu dedi:

– Xanım, neçün ağlarsan?

Nigar xanım dedi:

Qoşun gəldi çar tərəfdən bürüdi,
Dur qaçalım, qoç Koroğlım, nə dersən?
Gözüm yaşı sellər kimin yeridi,
Dur qaçalım, qoç Koroğlım, nə dersən?

Çün Koroğlu bu sözü Nigar xanımdan eşidüb dönüb baxanda gördü İslambul qoşunu təmam səhranı dolub, ələmlər açılub, təbili-cəng çala-çala gəlüllər. Pəs Koroğlu yüzin dutdu Nigar xanıma, dedi:

– Xanım,

Bir sözüm var, gözəl, sənə deyirəm,
Savaşuram, xan Nigarım, nə dersən?
Sənilən nanu-nəmək yiyərəm,
Savaşuram, xan Nigarım, nə dersən?

Nigar xanım dedi:

– Ey Koroğlu, heyifsən, qorxaram bu qədər qoşunun öhdəsindən gələ bülməyəsən, həm səni öldürələr, həm məni həlak edələr. Əlavə, bu qoşun, mənim qardaşım Bürci Sultan bir şücaətlü pəhləvandur. Qorxuram ki, sənə qələbə edüb, həlak eyliyə.

Çün Koroğlu bu sözü Nigar xanımdan eşidüb, bir güldü, dedi:

– Xanım, ar olsun mənə ki, mən bu qoşunun qabağından qaçam.

Çün Nigar xanım gördi Koroğlu bu sözlərnən şikəst tapmadı, dedi:

– Ey Koroğlu,

Mən harada, belə yerlər harada,
Qanlu müjganlarım qaldı yarada,
Cana yetdüm, yetüşmədim murada,
Dur qaçalım, qoç Koroğlum, nə dersən?

Bunu deyüb Nigar xanım, gördü bir neçə nəfər əmisi oğlu və qardaşı Bürci Sultan ləşkərün qabağınca gəlüllər. Onları Koroğluya nişan verdi. Koroğlu onları gördü, dedi:

– Xanım,

Sinəmə urmusan eşqün atəşin,
Yolunda qoymuşam canilə başım,
Dördü əmin oğlu, biri qardaşun,
Savaşuram, xan Nigarım, nə dersən?

Çün Nigar xanım bunu Koroğludan eşidüb, büldü ki, Koroğlunun qərəzi dava eləməkdür və davasız getməz. Dedi:

Hər yana gedərsən çağır Allahı,
Dadımıza yetsün şahlarun şahı,
Ölümə vermə sən, gözəl Nigarı,
Dur qaçalım, qoç Koroğlu, nə dersən?

Bunu deyəndən sora dedi:

– Ey Koroğlu, çün qaçmağa arun gəlür, dur ayağa, qılıcun sal boynuva, gedək atam Sultan Məhmud hüzuruna.

Koroğlu çün bunu eşidüb, dedi:

– Xanım,

Mən getmərəm o Xondkarun yanına,
Lənət gəlsün sultanına, xanına,
Koroğluyam, bir-birinün qanına,
Çulqaşdırram, xan Nigarım, nə dersən?

Çün Koroğlu bu sözü deyüb durdu ayağa, atının təngin möhkəm edüb Nigar xanımı qoydu o çeşmənün başında, özü Qırata səvar olub, nizəsin götürüb gəldi İslambul ləşkərinün yolın kəsdi. Bu tərəfdən Bürci Sultan qoşuna hey urdu ki, cəmaət, qoymuyun bu nəməkbəhəram, anasın satdığım əcəm oğlun ki, hərəmsarayi-Sultan Məhmuda xəyanət eyləyübdür. Qoşun cəmaəti istədilər ətrafdan Koroğlunu əhatə eyləsün. Bürci Sultan yüzün dutub Koroğluya, dedi:

– Cavan,

Səninlənəm, əcəm oğlı,
Ya sənindir, ya mənimdür.
Qol qüvvətli, qılıc savlı,
Ya sənindür, ya mənimdür.

Daldan gəlirlər xanlar,
Yolumda qoyublar canlar,
Meydanda tökülən qanlar,
Ya sənindür, ya mənimdür.

Bir kögnəgi vardır, çaklı,
Dağları əlvan çiçəkli,
Uzun boy, qara birçəkli,
Ya mənimdür, ya sənindür.

Xondkarın oğluyam, Bürci,
Düşməndən aluram bacı,
Çalarıq əgri qılıcı,
Ya sənindür, ya mənimdür.

Çün Cəlali Koroğlu bu sözü Bürci Sultandan eşidəndə qəzəbdən rəngi qaralub, gözləri hədəqədən çıxıb nizəsin bir çəkdi Bürci Sultanın üstünə, dedi:

– Ey sultanzadə, nə bu qədər lafü-gəzaf və minnət eylərsən? Qulaq ver, mən də özümü sənə nişan verüm.

Fərd :

Mən sənə deyərəm, bəli,
Mən Koroğluyam, Koroğlu.
Atım dəli, özüm dəli,
Mən Koroğluyam, Koroğlu.

Çün qoşun cəmaəti bu sözü eşidəndə büldilər ki, bu əcəm oğlu Koroğludur. Qoşunun bir dəstəsi qabaqdan sınub yüz həzimətə qoydu. Genə Koroğlu səsləndi:

– Cəmaət,

Fərd :

Bir sazım var, du sədalım,
Nigar ləbündən dad alım.
Misri qılıc, qarqu cidalım,
Mən Koroğluyam, Koroğlu.

Qoşunun genə bir dəstəsi qabaqdan sınub yüz qoydular qaçmağa. Genə Koroğlu səsləndi:

Koroğlu der, imdi çəkdirrəm,
Üstüvə qoşun tökdürrəm,
Yerində xəzəl əkdirrəm,
Mən Koroğluyam, Koroğlu.

Çün qoşun əhli yəqin eylədilər ki, bu Koroğludur, təmam mütəfərriq olub. Beqeyr əz Bürci Sultan, bir nəfər adam qoşun əhlindən qalmadı, Koroğlu dedi:

– Bürci Sultan, bəs qoşuna nə gəldi?

Bürci Sultan dedi:

– Mənim qoşuna ehtiyacım yoxdur. Məgər mən özüm səndən kəmşəst cəvanam?

Pəs o iki dilavər əl nizəyə atub bir-birinin üstünə neçə tümən nizə bir-birinin aralıqında rəddi-bədəl olub. Nizədən mətləbləri hasil olmadı. Pəs hər ikisi nizələrin sındırub atdılar. Pəs əl aparub kəmana, neçə ox bir-birinə atub. Hər iki dilavər oxları bir-birindən rədd edüb. Çün oxdan həm mətləb hasil olmadı, əl şeşpərə edüb və bir neçə şeşpər bir-birinə həvalə eylədilər. Koroğlu gördü ki, bu Bürci Sultan yaman hərifdür, buna müqabil olmaq məhaldur. Koroğlu hiylə edüb, dedi:

– Bürci Sultan atın təngi açılub, onu möhkəm eylə.

Pəs Bürci Sultan əgildi ki, atınun tənginə baxsun, Koroğlu fürsəti qənimət edüb, əl aparıb kəməndinə çin-çin edüb atdı. Bürci Sultanı kəmərində möhkəm edüb təkan verəndə, onu at üstündən yerə saldı. Pəs özü atdan düşüb çökdü onun sinəsinə, xəncərin çəküb qoydu Bürci Sultanın boğazına, istədi onun başın kəssin, Bürci Sultan bina eylədi hay-hayilən ağlamağa. Koroğlu dedi:

– Bürci Sultan, bir saat bundan irəli özün tərif edərdin, məgər sənin kimin şücaətli cavanlar bir qaşıq qanından (qorxar).

Bürci Sultan dedi:

– Ey Koroğlu, mərdanə adamlar basdığın kəsməz. Həm mənim bacımı aparırsan və həm məni həlak edirsən.

Çün Koroğlu bu sözü eşidüb onun sinəsinin üstündən durub ayağa, dedi:

– Bürci Sultan, çün sən öz acizlığuva iqrar eylədün, dur ayağa, yapış bacun əlindən apar öz şəhərinizə.

Çün Bürci Sultan bu mərdanəlığı və bu şücaəti Koroğludan görüb, çəküb onun əlindən öpdü. Dedi:

– Ey Koroğlu, mən rizavü-rəğbət ilən öz bacımı sənə verdüm.

Pəs Koroğlu onun alnından çəküb öpdü. Bir qədər söhbət edüb, ondan sora bir-birin vida eyləyüb. Koroğlu Nigar xanımı götürüb yüz qoydu Çamlıbelə getməgə. Ta bir neçə mənzil gedüb bir gün bir çeşmənin başında atdan düşüb bir qədər istirahətə məşğul oldular. Bular bu çeşmənün başında qalsun, bir neçə kəlmə nəql eşit Firəngi padşahının oğlundan ki, bir gün bir sövdagər Nigar xanımın surətin verüb nəqqaşə, onun

surətin çəkdirdi və o surəti Firəngi padşahının oğluna töhvə apardı. Çün Firəngi padşahun oğlu Nigar xanımın surətin görüb ona bir məhəbbət və bir təəşşüq yetirüb, gecə və gündüz onun eşqində biaram və bitab idi, tainki onun məfariqətinə tab etməyib bir qədri qoşun və bir qədri xəzanə götürüb bina eylədi İslambul şəhərinə gəlməgə, bu qəsdinən ki, əgər Sultan Məhmud Nigar xanımı riza və rəğbətlən ona verdi, fəbhəlmurad və illa dava edüb bezərbi-tiğ Nigar xanımı alsun.

Pəs bu Firəngi padşahunun oğlu bu əsas və bu cəlalilən mənzilbəmənzil, qəte–mənazil edüb gəlirdülər. Tainki bir gün yetişdilər həman çeşmənin yavuqluğuna ki, Cəlali Koroğlu Nigar xanımlan o çeşmənin başında istirahətə məşğul olmuşdular, mənzil edüb, xeyməvü-xərgah qurulub, sərapərdələr quruldu. Əmma bir nəfər qoşun əhlindən gəlüb o çeşmədən su aparsun, gördü bu çeşmənin başında bir oğlan və bir qız vardur. Əmma iki at var ki, hərgiz dünyada beylə at görməmişdi. Pəs o şəxs ordan qayıdub gəldi Firəngi padşahının oğlunun yanına, dedi:

– Ey padşahzadə, iki at bu çeşmənin başında vardur ki, hərgiz beylə at mən görməmişəm.

Pəs o Firəngi padşahın oğlu dedi:

– Get, gör, oların sahibi o atları satar, ya sövda eylər, ola-rı alun gətirün.

Pəs o şəxs gəlüb Koroğlunun yanına, dedi:

– Ey cavan, mənim ağam buyurur ki, bu atları ya bizə satsun bir ağır qiymətə, ya sövda eyləsün.

Koroğlu dedi:

– Sənin ağan kimdür?

Dedi:

– Cavan, Firəngi padşahının oğludur.

Koroğlu dedi:

– Harıya gedir?

Dedi:

– İslambul şəhərinə.

Koroğlu dedi:

– Niyə gedir?

Dedi:

– Valla, İslambul Xondkarının bir qızı var ki, onun adına Nigar xanım deyəllər. Onun surətin bir sövdagər gətirüb Firəngi padşahının oğluna. Pəs o padşahzadə o xanıma aşiq olub. Bir qədər qoşun götürüb istər ki, o qızı alsun.

Koroğlu öz-özünə dedi, əcəb oldu. Pəs yüzün dutub Nigar xanıma dedi:

– Dur ayağa, yüzü açıq gedək bu Firəngi padşahının oğlunun ordusuna.

Pəs Koroğlu və Nigar xanım hər ikisi atlarına səvar olub yüz qoydlular Firəngi ordusuna. Çün bargah bərabərinə yetişdilər. Firəngi padşahının oğlu gördü o surət ki, o sövdagər ki, o surəti ona gətirmişdi, həman surətin sahibi Nigar xanım at üstündə durub bargah qabağında. Firəngi dilincə dedi:

– Cəmaət, mənim mətləbim bu səfərdən bu qızdur ki, gedirəm, qoymuyun.

Koroğlu yüzün dutdu padşahzadəyə, dedi:

– Ey Firəngizadə,

Gəl, sənilən dolaşalım,
Firəng oğlu, Firəng oğlu.
Qoçlar kimi əlləşəlim,
Firəng oğlu, Firəng oğlu.

Saqi, doldur, ver piyalə,
Qurbanam ağ yüzdə xalə,
Nə göz dikmisən Nigarə,
Firəng oğlu, Firəng oğlu.

Gör, bü yüzündə tanıvu,
Ağlar qoyaram anuvu,
Dur yükləndür barxanuvu,
Firəng oğlu, Firəng oğlu.

Yoldan gəlmiş, yol oğluyam,
Bir mərd iyidin qulıyam,
Yəqin bül, mən Koroğluyam,
Firəng oğlu, Firəng oğlu.

Firəngi padşahının oğlu dedi:

– Cəmaət, qoymuyun ki, bu qızı aparsın.

Pəs qoşun cəmaəti ətrafdan Koroğluya at saldılar. Bu tərəfdən Koroğlu Nigar xanıma dedi:

– Sən dur, tamaşa eylə, ta mən bu qoşunu təmam edüm.

Pəs Koroğlu qılıcın çəküb özün vurdu Firəngi qoşununun içinə. Hər tərəfdən qoşunu sındırub küştələrdən puştələr tərtib verüb, hər kimin kəmərindən urardı, xiyari-tər kimi dünimə eylərdi və hər kimin çignindən urardı, başın və bir qolun yerə salurdı. Səhrada su əvəzinə qan cari olub, bir türfətülleyndə Firəngi qoşunun təmamən pamal edüb, ölən öldü və qaçan qaçdı. Pəs Koroğlu Firəngi padşahının oğlun zində dutub gətirdi Nigar xanımın bərabərinə. Dedi:

– Xanım, yaxşı saqidür, gərək bunu öz məclisimdə saqi eylərəm.

Pəs Firəngizadə hərçənd yalvardı ki, məni mürəxxəs eyləyün, nəticə vermədi. Pəs Koroğlu Firəngi padşahunun oğlunun mal və xəzanəsin götürüb atlarına səvar oldular, yüz qoydular Çamlıbelə. Pəs bir neçə mənzil getmişdilər, Nigar xanım bir gün ərz eylədi:

– Ey Cəlali Koroğlu, sən həmişə bu Qıratı tərif eylərsən. Mən bunun qaçmağın görməmişəm.

Pəs Koroğlu Qırata bir cövlan verib ta dörd ağac Qırat göz önündən napədid oldu. Pəs Firəngizadə Nigar xanıma ərz eylədi ki, qurbanın olum, mən qorxaram ki, bu Koroğlu məni axırüləmr həlak eyləyə, gərək məni mürəxxəs eyləyəsən.

Pəs Nigar xanım onu mürəxxəs eyləyüb. Firəngizadə yüz çevirdi getməgə. Pəs Nigar xanım daldan yetişdi Koroğluya. Koroğlu gördü Nigar xanım tənha gəlür, dedi:

– Xanım, pəs hanı Firəngizadə?

Dedi:

– Çox yalvardı, onu mürəxxəs eylədim.

Koroğlu dedi:

– Gərək onu mən öz məclisimdə saqi eyləyəm.

Pəs yüz qoydu ki, Firəngizadənin dalınca, Nigar xanım ərz eylədi:

– Ey Koroğlu, mən ona aman verüb mürəxxəs eyləmişəm, əgər onu gətirəsən, mən özümü həlak eylərəm.

Pəs Koroğlu Nigar xanımın iltimasın qəbul eyləyib. Pəs oradan genə yüz qoydular Çamlıbelə getməgə. Pəs mənzilbəmənzil gəlirdilər, tainki bir gün yetişdilər bir çeşmə başına ki, o çeşməyə Dəmir bulağı deyərdilər.

Bir qədər orda istirahətə məşğul oldular. Ravi der, həman gün bir sövdagər o çeşmənin həvalisində düşmüşdü. Onun adamlarından bir nəfər gəlüb bu çeşmədən su aparsın. Çün yetişdi çeşmənin başına, gördü bir cavan pətyarə, buğları binaguşindən keçüb və bir nazənin huriliqa bu çeşmənin başında əgləşüblər. O şəxs gəlüb sövdagərə macəranı deyüb. Sövdagər bir xonça şirni və yüz tümən nəqd Koroğluya göndərüb sifariş edüb ki, bu mühəqqər töhfəni alsun və o nazənini o gecə sövdagərə qonaq versün.

Çün bu töhfəni və nəqdi o şəxs gətirdi Koroğlunun bərabərinə və sövdagərin macərasın nəql edüb. Çun Koroğlu sövdagərin bu sifarişin eşidüb, aləm gözünə tirəvü-tar oldu. Dedi:

– Vay anasın satdığım sövdagər, mən İslambul şəhərindən bu qədər zəhmət çəküb və bu qədər qoşun həlak eyləyüb və adam öldürüb kəmali-məşəqqətlə Nigar xanımı öz vilayətimə gətirmişəm, heç kəs mənə bir beylə söz deməmişdi.

Pəs həman saat Qırata səvar olub nizəsin götürüb yüz qoydu sövdagərin üstünə. Çün yetişdi, səsləndi:

– Vay anasın satdığım sövdagər,

Başı uca qarlı dağlar,
Duman olur, çiskin olur.
Qar yağar, kirvələr bağlar,
Acı yellər əskin olur.

Bir iyidin zatı olsa,
Meydan görmüş atı olsa,
Qolunun qüvvəti olsa,
Misri qılıc kəskin olur.

Ceyran otları çöllərdə,
Ördək oynarı göllərdə,

Qərib iyid yad ellərdə,
Dinə bilməz, miskin olur.

Öyün, qoç Koroğlu, öyün,
Həqq təala verüb payun,
Deməgilən atım yeyin,
Əl var, əldən ötkün olur.

Çün sövdagərlər cəmaəti bildilər ki, bu Cəlali Koroğludur, təmam töküldülər Koroğlunun ayağına, ərz eylədilər:

– Bizi bağışla ki, biz səni tanımamışıq.

Pəs bir qədər təarüf yığıb və bir qədər peşkəş verdilər Koroğluya. Pəs Koroğlu onu qəbul edüb, onları əfv edüb. Pəs ordan köçüb yüz qoydu Çamlıbelə.

Mənzilbemənzil gəlürdü, çün az qaldı Çamlıbelə yetişsün, pəs bu tərəfdən yeddi yüz yetmiş yeddi dəli xəbərdar olub ki, Cəlali Koroğlu Nigar xanımı səhih və salim gətürüb, təmam atlarına səvar olub yüz qoydular Koroğlunun istiqbalına. Çün Cəlali Koroğlu gördü ki, təmam iyidlər gəlür, Nigar xanım dedi:

– Koroğlu, genə düşmən gəlür?

Koroğlu dedi:

– Qorxma, bular təmam mənim nökərlərimdür.

Nigar xanım dürüst baxanda gördü təmam bu iyidlər birbirindən yaxşı cavandur, dedi:

– Koroğlu, bunların içində Eyvəz hansıdır?

Koroğlu bir baxdı, dedi:

Ey ağalar, ey qardaşlar,
Bu gələn, Eyvəzdir, Eyvəz!
Didəmdən tökülür yaşlar,
Bu gələn, Eyvəzdir, Eyvəz!

Eyvəzim gəlür yolunda,
Qoşunu sağu-solunda,
Hər an qalxanı qolunda,
Bu gələn, Eyvəzdir, Eyvəz!

Eyvəzim on dört yaşında,
Qüdrət qələmi qaşında,
Altun araqçın başında,
Bu gələn, Eyvəzdir, Eyvəz!

Görükdü qoşunun başı,
Töküldü didəmin yaşı,
Koroğlunun qoç qardaşı,
Bu gələn, Eyvəzdir, Eyvəz!

Çün Koroğlunu bu cəlalnan gətürdilər Çamlıbelə. Bəd əz an ki atdan düşüb Koroğlu hökm eylədi ki, Bəlli Əhmədi gətürün. Çün hazır eylədilər, bir dəst libasi-şahanə Koroğlu ona xələt verüb onu məcmui cavanlara sərdar eylədi.

Pəs Bəlli Əhməd bir qədər qoşun götürüb, ətrafü-cəvanibə çapqın saldı. Bir qədər qızıl və gümüş cəm edüb gətirdü, tainki Nigar xanımın toyu dutuldu.

Pəs yeddi gün yeddi gecə Koroğlu özünə toy dutub məcmui cavanlar eyşü-nuşə məşğul oldular. Bəd əz an Nigar xanımlan mülaqat hasil olub kami vüsalə yetişdi.

KOROĞLUNUN ÜÇÜNCÜ MƏCLİSİ

Koroğlunun Eyvəzi gətirmək üçün Urfa şəhərinə getməsi və onun dayısı Reyhan Ərəblə davası

Raviyani-əxbar və naqilani-asar belə rəvayət eylər ki, bir gün Cəlali Koroğlu Çardaqlının Çamlıbeldə iyidlərilən belə məclis arastə edüb eyşü-nuşə məşğul olmuşdular, tainki məstlıx aləmində Koroğlu yüzin dutub cavanlara, dedi:

– Cəmaət, mənim atım kimi heç bir yerdə at sorağuz var?

Ərz eylədilər:

– Eşitməmişuq.

Dedi:

– Cəmaət, mənim bu məclisim kimi bir ali məclis bir adama müyəssər var?

Dedilər:

– Yoxdur.

Dedi:

– Cəmaət, mənim pəhləvanlarım kimi pəhləvan bir padşaha müyəssərdür?

Ərz eylədilər:

– Yoxdur.

Genə sordu:

– Cəmaət, mənim saqilərim kimi ki, İsa balı, Musa balı ola, heç saqi sorağuz var?

Ərz eylədilər:

– Yoxdur.

Xacə Yəqub adlu bir səyyah var idi ki, o gün Koroğlunun məclisində hazır idi, ərz eylədi:

– Qurbanın olum, o fərmayişlər ki, eylədin, həqiqət, heç padşaha müyəssər dəgül, əmma Urfa şəhərində Mirim qəssab oğlu Eyvəz adlu bir cavan var ki, o sənin saqilərin İsa balı və Musa balıdan yaxşıraqdur.

Koroğlu dedi:

– Xacə Yəqub, Eyvəz məgər necə cavandır ki, mənim saqilərimdən yaxşı olsun?

Ərz eylədi:

– Qurbanun olum, Eyvəz bir cavandur on dörd yaşında ki, on dörd gecəlik aya tənə urar, gözləri manəndi piyalə və qaşları manəndi kəman və müjganları manəndi peykan və yanağı manəndi güli-əhmər və ağzı manəndi qönçə və dodaqları manəndi ləli-rummani və dişləri manəndi mirvarit və əza və cəvarihi məcmui eybdən mübərra və müərra və qaməti mövzun və kakili manəndi dəstə və zülflərin çahar ətrafdan ciginü üstünə tökülüb.

Çün Xacə Yəqub bu qədər Eyvəzi tərif eylədi, Cəlali Koroğlu dedi:

– Xacə Yəqub təmam eylə ki, mən nadidə Eyvəzin camalına aşiq oldum.

Çün o gün məclis dağıldı, Koroğlu gəldi mənzilə. O gecə sübhə kimin yatmayub, ilan çalmış adam kimin gah sağa və gah sola dolanırdı. Çün sübh oldu, pəs Koroğlu ayağa durub, Dəli Mehtəri çağırıb, dedi:

– Qıratı zin eylə.

Çün Dəli Mehtər Qıratı zin edüb çəkdi Cəlali Koroğlunun rikabinə, Koroğlu atlandı və iyidlərdən vida eyləyib yüz qoydu Urfa şəhərinə getməgə. Pəs mənzilbəmənzil gəlüb, qəte mənazil edüb, tainki Urfa şəhərinin həvalisinə yetişüb, gördü bir şəban bir sürü qoyun otarır. Koroğlu şəbanə salam verdi. Şəban gördü bir pətyarə bir kuh peykər ata səvar olub. Dedi:

– Cavan, xoş gəldin.

Koroğlu dedi:

– Şəban, məsəldür, deyəllər ki, acdın şəbanə və yoruldun sarbanə.

Şəban büldü ki, cavan acdır. Pəs bir məthərə süd gətürdü.

Koroğlu onu yeyüb, qarnın möhkəm edüb, dedi:

– Gələsün mənlən libaslarun müavizə eyləyəsən ki, mənim bu şəhərdə sahib tələbim vardur, qorxuram mənim libaslarımı ala.

Pəs şəban libasın verüb Koroğluya və Koroğlu libasın verüb şəbana. Koroğlu dedi:

– Şəban, gərək mənim atımdan mütəvəccöh olasan.

Şəban dedi:

– Cavan, atlan qoyunun sazişi olmaz, mən atı saxlaya bilmənəm.

Koroğlu dedi:

– Şəban, qorxma, mənim atım nəcibdür, qoyundan ayrılmaz.

Əlhasil, Koroğlu atın qoydu şəbanın yanında, özü yüz qoydu şəhərə getməgə. Çün daxil oldu, küçə və bazarı dolanurdu ki, bəlkə özünə bir mənzil tapsun, ta yetişdi bir qəssabun dükanın bərabərinə. Gördü cəmi kəsir əhli-şəhrün qəssabın dükkanın əhatə eyləyüb. Pəs adamları kənarə eyləyüb gördü bir cavan qəssab. Durub dürüst baxanda gördü bü cavan Xacə Yəqub tərif eyləyən cavandur. Həqiqətən misli və manəndi yoxdur. Pəs Eyvəz bir silli Koroğlunun yüzindən urdu və dedi:

– Ey anasın satdığım, qaldır burdan ki, mənim müştərilərimi pərakəndə eylədün.

Koroğlu dedi:

– Cavan, mən codaram, bir qədər qoyun gətirmişəm ki, onların satım.

Eyvəz çün bunu eşidüb, çün qoyun kəmyab idi, ona məhəbbət edüb, onu dükkanda əgləşdirüb, dedi:

– Sən burda otur, mən atam Mirim qəssabə xəbər eyləyim.

Çün Eyvəz getdi atasına xəbər eyləsin, bir nəfər əhli şəhərdən gəlüb ət istədi, bir quruş verüb, Koroğlu ona bir şaqqa ət verdi. Pəs o şəxs yola düşdü. Əhli-şəhərə xəbər olub ki, bir əcəm oğlu çodar hər quruşa bir şaqqa ət verür. Pəs əhli-şəhər gəlüb o ətləri təmam alub apardılar. Çün Koroğlu gördü ki, qəssabun ətləri təmam oldu, əmma o qədər para yığılmadı. Pəs bir neçə əşrəfi çıxarub qoydu təxtənün üstünə. Əmma bu tərəfdən Eyvəz gəlüb öz atasına xəbər eylədi ki, bir çodar gəlüb və çox qoyun gətirüb və onu dükkanda qoymuşam. Pəs Mirim qəssab təcili-təmam ilə gəlüb gördü bir nəhəng pətyarə əgləşüb. Mirim qəssab xoşsəfa edüb, dedi:

– Çodar qardaş, nədən çoxdan qoyun gətürməzsən?

Koroğlu dedi:

– Qardaş, həqqi budur ki, Cəlali Koroğlunun qorxusun-

dan qoyun gətirə bilməzdüm. Əmma, əlhəmdüllah, Koroğlu öldü və yollar açıldı.

Mirim qəssab dedi:

– Nə sözdür bu ki, deyirsən?! Koroğlu nə vəqt öldü?

Dedi:

– Mən özüm onun təziyəsinə getmişdüm. Yəqin eylə ki, Koroğlu öldü.

Pəs Mirim qəssab xatircəm olub dedi:

– Çodar qardaş, çün çoxdandur ki, bu şəhərə gəlməmisən, sənin adun mənim yadımdan fəramuş olub.

Koroğlu dedi:

– Mənim adıma Roşan çodar deyəllər.

Pəs dübarə Mirim qəssab xoşsəfa edüb yüzin çevirdi oğlu Eyvəzə, dedi:

– Oğul, gəl Roşan əmüni apar evə ki, bir qədər rahat olub təam yesün, ondan sora gedək qoyun içinə.

Pəs Eyvəz qabaqca, Roşan əmi dalınca ta gəldilər mənzilə. Koroğlu çün daxil oldu, gördü bir otaqdur təmam aynəbənd. Koroğlu hər tərəfə baxdı öz şəklin görüb, ağacın götürüb təmam o aynələri sındırub. Eyvəz dedi:

– Roşan əmu, nə qırırsan?

Dedi:

– Balam, çün otağa daxil oldum, gördüm hər tərəfdən bir mənim kimin coban gəlür, o cəhətə oları öldürdüm.

Eyvəz dedi:

– Roşan əmü, olar coban dəgillər, bəlkə aynədülər ki, sənin şəklün göstərüb.

Pəs Eyvəz bir qədər təam gətürüb tənavül eylədilər. Bəd az an Eyvəz bir şişə şərab gətürdü, bir piyalə doldurub özü içdi, dedi:

– Roşan əmu, sən də içirsən?

Dedi:

– Bəli, bizim vilayətimizdə də doşabçıxanələrdə bulardan çox olur.

Eyvəz bir güldü, dedi:

– Roşan əmu, o doşabdur, əmma bu şərabdur.

Dedi:

– Bəs bir qədər ver, mən həm içüm.

Eyvəz dedi:

– Roşan əmu, sən içə bülməzsən ki, sənün adətün yoxdur, səni məst eylər və çıxarsan bazara, adam öldürürsən.

Koroğlu dedi:

– Bir az ver içüm, görüm necə zaddur.

Pəs Eyvəz bir piyalə verdi. Koroğlu onu nuş edüb, dedi:

– Eyvəz, əcəb zaddır, bir piyalə də ver.

Əlhasil, Koroğlu bir neçə piyalə şərab içüb, məsti-layəqil olub, əmma Eyvəz bu tərəfdən bir saz götürüb bina eylədi çalmağa. Pəs Koroğlu dedi:

– Eyvəz, balam, mən də uşaq vəqtində saz çalardım, o sazı ver mənə, görüm, çala bülləm.

Pəs Koroğlu sazı alub basdı sinəsinə, bir yandan şərabun keyfi və bir yandan Eyvəzın eşqi, dedi:

Saqi, doldur ver içəlim,
Mirim qəssabun oğlu.
İçəlim, sərdən keçəlim,
Canım, ey qəssabun oğlu.

Eyvəz çün bunu eşidüb, çün şərabın xumarı dutmuşdu, dedi:

– Roşan əmu, elə demə, degülən, canım, ey lotunun oğlu.

Koroğlu genə yüzin Eyvəzə dutub dedi:

Sirrimi salma dastanə,
Şəbnəm düşüb Gülstanə,
İçübən məstü-məstanə,
Canım, ey lotunun oğlu.

Çodaram, eylərəm haşa,
Yazılanlar gəlür başa,
Atar olsam keçər daşa,
Tirim, ey qəssabun oğlu.

Çün Koroğlu sözin buraya yetirdi, əmma bu tərəfdən Mirim qəssab bir xurcun pul ağdan, qızıldan gətürüb dedi:

– Roşan qardaş, dur gedək qoyun içinə. Nə qədər qoyun gətürübsən?

Koroğlu dedi:
– Beş yüz qoyun gətürmüşəm.
Çün Mirim qəssab bunu eşidüb, əqli başından çıxub, dedi:
– Roşan qardaş, hər bir qoyunun qiyməti neçədür?
Dedi:
– Üç hezar.
Mirim qəssab gördü əcəb xam çodardur, dedi:
– Durun gedək.
Koroğlu gördü Eyvəz gəlmədi, dedi:
– Eyvəz, bəs sən niyə gəlmirsən?
Mirim qəssab dedi:
– Eyvəz gələ bilməz, ona Reyhan Ərəb dayısı qədəğən eyləyüb ki, qələdən xaricə çıxmasun.
Koroğlu:
– Nədən ötəri?
Dedi:
– Koroğlunun qorxusundan ki, məbadə onu dəstgir edüb aparar.
Dedi:
– Koroğlu ölübdür və mən özüm onun təziyəsinə getmişdüm.
Mirim qəssab dedi:
– Eyvəz, imdi ki, Koroğlu ölüb, dur ayağa, sən də gedək qoyun içinə.
Eyvəz genə getmiyüb. Koroğlu dedi:
– Eyvəz, məgər sən qorxdun ki, mənim qoyunumun içinə gələsən və mən sənə bir on qoyun peşkəş eyləyəm?
Mirim qəssab çün bu vədəni çodardan eşidüb, yüzin çevirdi oğlu Eyvəzə, dedi:
– Oğul, dur ayağa, əgər on qoyun azdır, deyərəm Roşan qardaşım ki, sənə on beş qoyun peşkəş eylər.
Eyvəz genə gəlməyüb. Koroğlu dedi:
– Eyvəz, ixtiyarun var, əgər qoyun içinə gələsən, sənə igirmi qoyun peşkəş eylərəm.
Mirim qəssab dedi:
– Oğul, Eyvəz, dur ayağa, Roşan əmu mənim rəfiqimdür,

deyərəm, sənə iyirmi beş qoyun peşkəş eylər.

Koroğlu dedi:

– Mirim qəssab, məgər mənim malım sənün malun dəgül, otuz qoyun Eyvəzə peşkəş eylədüm.

Pəs Mirim qəssab genə yüzin Eyvəzə dutub dedi:

– Oğlu, dur ayağa, gedək.

Eyvəz genə gəlmədi. Çün Eyvəzə bir zad məlum olmuşdu ki, bu codar ya Koroğludur, ya Dəmirçioğlu Telli Həsəndü. Pəs Mirim içəri daxil olub bir neçə silli Eyvəzə urdu. Eyvəz gördü ki, bunu atası aparacaq, dedi:

– Ata,

Ata, mənim şünaxtımı itirmə,
Bu qılıqda çodar olmaz, hay olmaz.
Bir oğlun var, gəl yanınca götürmə,
Bu qılıqda çodar olmaz, hay olmaz.

Ata, sənün bazirganlarun işlər,
Neçə qul-qaravaş ağçavu xərclər,
Hesabı yox, beş-beş, on beş bağışlar,
Bu verimdə sultan olmaz, xan olmaz.

İtir getsün, heç kəs onu bulmasun,
Gəldigini, getdigini bülməsün,
Heç kafərün yuxusuna girməsün,
Bu qılıqda çodar olmaz, hay olmaz.

Mirim qəssab genə Eyvəzə bir silli urub dedi:

– Nadürüst, bu kişi neçə ildür mənimlən çörək yeyib və hər il mənə qoyun satar, buna xəyanət isnadı verirsən?

Eyvəz dedi:

– Ata,

Bu çodarın danışdığı sərsəmdür,
Dosluq ilən, düşmənligi bir dəmdür,
Ya Koroğlu, ya da Dəli Həsəndür,
Bu qılıqda çodar olmaz, hay olmaz.

Pəs Mirim qəssab Eyvəzi cəbrən və qəhrən yanınca götürüb, pəs qələdən dişra çıxub, bir qədər yol gəldilər. O şə-

banı ki, Koroğlu onun libasın alub və atın onun yanında qoymuşdu, nümayan oldu. Mirim qəssab dedi:

– Roşan qardaş, bəs qoyunların hanı?

Dedi:

– Bu sürü qoyun ki görünür, mənimdür. Əmma mənim qaydam budur ki, mən sürü içinə adam aparmaram, sən pulun say görüm nə qədər qoyun alacaqsan, ta mən gedüb gətirim.

Mirim qəssab xurcunu qoydu yerə, bina eylədi pulun saymağa. Koroğlu gördü bu Mirim qəssab o qədər pul götürüb ki, əgər iki sürü qoyun olsa, genə puldan artıq qalır. Pəs Koroğlu hərdəm beş əşrəfi götürüb əlində sürtüb sikkəsin malidə eyləyüb, deyirdi:

– Mirim qəssab, bu pulların sikkəsi yoxdur və qəlbdür.

Tainki o qədər pullarun sikkəsin malidə eyləyüb ki, nisfdən keçdi. Eyvəz çün gözünün guşəsilən baxardı, gördü ki, bu Roşan çodar pulları məcmui xərab eylədi, dedi:

– Roşan əmu, sən pulları təmam xərab eylədün.

Pəs Koroğlu qəhr eyləyüb, pulları tökdü yerə, dedi:

– Mirim qəssab, mən sənə demədim ki, bu köpək oğlunu götürmə, bu nadürüst qoymaz ki, biz sövda eyləyək.

Pəs Mirim qəssab bir neçə silli Eyvəzə urub, dedi:

– Köpək oğlu, sənin nə rücuun var, qoymazsan biz sövdamız eyləyək?

Pəs Koroğlu qəhr eyləyüb yüz çevirdi şəhərə tərəf, dedi:

– Gedim qəssablara xəbər eyləyüm və müştəri gətürüm, qoyunu satum ki, sənin pulun çoxu qəlb oldu və qoyunun qiyməti düzəlmədi.

Pəs Mirim qəssab dəst-paçə olub, dedi:

– Roşan çodar, sən Eyvəzlən burada otur ki, mən gedüb evdən dübarə pul gətürüm.

Pəs Mirim qəssab yüz qoydu evinə getməgə, əmma bu tərəfdən Koroğlu dedi:

– Eyvəz, dur ayağa gedək qoyun içinə.

Dedi:

– Roşan əmu, mən getmərəm.

Pəs Koroğlu hərçi səy eyləyüb, Eyvəz durmadı. Koroğlu

dedi:

– Eyvəz, pəs sən burda otur, mən gedüm qoyunu bir qədər yavuğa gətirüm.

Pəs Koroğlu gəldi şəbanun yanına. Şəban gördü Koroğlu gəldi, dedi:

– Qardaş, səni tələbdarın ki, tanımadı?

Dedi:

– Xeyir.

Pəs Koroğlu libasın şəbanla dəgişüb Qırata səvar olub gəldi. Eyvəz gördü bir atlu gəlür, qəribə cavandur və bir qəvi heykəl atı vardur. Ta Koroğlu yetişüb həman pulları götürüb və dedi:

– Eyvəz, dur ayağa, gedək.

Eyvəz dedi:

– Ey atlı, get, mənə sataşma, Roşan əmuni çağırram gəlür sənə bir ağac elə urar ki, daxi durmazsan.

Pəs Koroğlu dedi:

– Eyvəz, dürüst bax ki, həman Roşan əmu mənəm.

Pəs Koroğlu Eyvəzi çəküb tərkinə. Qəssab şagird istədi mane olsun, şeşpər əlində qəssab şagirdin başından elə urdu ki, başının məğzi dağılub həman saat öldü. Pəs Koroğlu Eyvəzi götürüb aparmaqda olsun, əmma nəql eşit Mirim qəssabdan ki, çün evinə gəlüb, bir qədər pul götürüb qayıtdı. Gəldi, gördü nə Eyvəz var, nə Roşan çodar var və nə pul var, əmma qəssab şagirdi həm ölüb. Pəs Mirim qəssab mat və mütəhəyyil qalub öz-özünə, başına urub ağladı.

Ta bu tərəfdən Reyhan Ərəb ki, Eyvəzin dayısı olsun, bir neçə nəfər cavanlan şikara getmişdi, çün şikardan qayıdub guzarı düşdü o yerdən ki, Mirim qəssab orda oturub ağlayırdı. Pəs xəbər aldı ki, ey Mirim qəssab, niyə ağlarsan?

Dili dutula-dutula dedi:

– Ey Reyhan Ərəb, Eyvəzi aparublar.

Pəs Reyhan Ərəb dedi:

– Ey səfih kişi, mən sənə nə qədər dedim ki, Eyvəzi qələdən xaricə götürmə ki, Koroğlu həmişə onun iştiyaqında dolanur.

Əlhasil, Reyhan Ərəb və onun cavanları yüz qoydular Ko-

roğlunun dalınca getməgə. Pəs bu burda qalsun, nəql eşit Cə-lali Koroğludan ki, çün Eyvəzi götürüb yola düşdü. Bir qədər yol getmişdilər, Eyvəz bir-bir dağlara, daşlara baxub, bir ah çəkdi və dedi:

Biz ki burdan gedər olduq,
Canım dağlar, gözüm dağlar.
Başdan əyağa laləzar,
Həm gülü, gülşənim dağlar.

Məni bu dərdə salan var,
Könlüm evində talan var,
Gözü yollarda qalan var,
Saxlıyun cananım, dağlar.

Gəlin, gedəlim bizlərlən,
Halallaşaq sizlərilən,
Taza, məhbub qızlarilən,
Keçirdüm dövranım dağlar.

Bağçası heyvalı, narlu,
Sinəsi zərlü, zivərlü,
Mən Eyvəzəm, bağrı dağlu,
Saxlıyun cananım, dağlar.

Bunu deyüb çox ağladı. Pəs Koroğlunun ona rəhmi gəlüb, onu atdan qoydu yerə və ona hər nə təsəlli verdi ki, bəlkə ağlamıya, mümkün olmuyub, Eyvəz şüru eylədi ucadan ağlamağa. Pəs Koroğlu sazın götürüb basdı sinəsinə, durdu Eyvəzə təsəlli vermağa, dedi:

– Eyvəz,

Gəl varaq bizim ellərə,
Ağlama Eyvəz, ağlama.
Qurbanam şirin dillərə,
Ağlama Eyvəz ağlama.

Çün Eyvəz bu sözü Koroğludan eşidüb, durdu Koroğlunun müqabilində, dedi:

Mənə deyərsən ağlama,
Necə ağlamım, Koroğlu.

Qəlbü-çigərim dağlama,
Necə ağlamım, Koroğlu?!

Koroğlu dedi:

– Eyvəz,

Bəg dəgüləm, xan dəgüləm,
Sənə qıyar can dəgüləm,
Atan, anan mən dəgüləm,
Ağlama, Eyvəz, ağlama.

Eyvəz dedi:

Axçanı xurcuna tökdün,
Məni at tərkinə çəkdün,
Atamın evini yıxdun,
Necə ağlamım, Koroğlu?!

Koroğlu dedi:

Gəlürdüm yazu yabandan,
Sorağın aldım çobandan,
Ayırdım qoca atandan,
Ağlama, Eyvəz, ağlama.

Eyvəz dedi:

Əvvəlindən gəldin fənd sən,
Ürəgimə urdun dərd sən,
Bülmərəm mərdsən, namərdsən,
Necə ağlamım Koroğlu?!

Koroğlu dedi:

Görünməz qoşunum başı,
Töküldü gözümün yaşı,
Koroğlunun qoç qardaşı,
Ağlama, Eyvəz, ağlama.

Bunu deyüb, genə Eyvəzi ata səvar edüb, yüz qoydular getməgə. Ta bir mənzil gəlüb, əmma Eyvəz o mənzili həmişə ağlardı. Çün yetişdilər bir nəhrün kənarına, Koroğlu Eyvəzi atdan endürüb qoydu o nəhrün kənarında. Bir qədər genə Eyvəzə təsəlli verdi, gördü mümkün dəgül ki, Eyvəz təsəlli tapsun. Həman saat gördü bir sürü duran havaylan keçər. Pəs Koroğlu qəlbində niyyət eylədi. Dedi:

– Xudavəndə, hərgah mən Eyvəzi öz vilayətimə aparam,

bu durnalarun biri mənim peykanıma gəlsün.

Pəs bunu deyüb bir ox kamana qoyub. Belə ki, ox onun şəstindən qurtulub durnalarun birinə dəgdi və durna yerə düşdü. Pəs Koroğlu o durnanun tüklərindən götürüb Eyvəzin ərəqçininə nəsb eylədi. Eyvəz dedi:

– Koroğlu, niyə mənim ərəqçinimi parə eylərsən? Bu qəribə yerdə mənim anam yox və bacım yox, kim vəslə eylər?

Koroğlu dedi:

– Eyvəz, bu ərəqçinlər sənə layiq dəgül.

Eyvəz genə ağladı. Koroğlu dedi:

– Eyvəz,

Başına döndügüm, qurban olduğum,
Səri durna tellim, Eyvəz, ağlama.
Şirin dillərinə qurban olduğum,
Səri durna tellim, Eyvəz, ağlama.

Qələm-qüdrət dedim sənin qaşuva,
İnci desəm, dür yaraşır dişüvə,
Altun araqçınlar qoyum başuvə,
Səri durna tellim, Eyvəz, ağlama.

Səni görcək ürək aldı təsəlli,
Sən oğul, mən ata, tapsın təcəlli,
Adım qoç Koroğlu, Rumidə bəlli,
Səri durna tellim, Eyvəz, ağlama.

Pəs bunu deyüb, genə Eyvəzi ata səvar eylədi, yüz qoydular getməgə. Pəs buları burda qoy, nəql eşit Reyhan Ərəbdən ki, çün bu xəbəri Mirim qəssabdan eşidüb, yüz nəfər atlı ilə Ağcaquzu ki, öz atunun adıydı, minib yola düşdü. Çün bir qədər qalmışdı ki, Koroğlu yetüşsün. Pəs Qırat madyan havası alub getmədi. Koroğlu hərçi rükab çəküb, getmədi. Eyvəz dedi:

– Ey Koroğlu, sənün bu atun tərifi məcmui-vilayətləri dutub, pəs niyə yoruldu?

Koroğlu dedi:

– Yorulmuyub, əmma bülmərəm başında nə var?

Bu əsnada Eyvəz gördü biyaban tərəfindən bir toz peyda

oldu. Tozun arasından Reyhan Ərəb – öz dayısı – Ağcaquzuya səvar olub gəlür, dedi:

– Ey Koroğlu, dayım Reyhan Ərəb gəlür.

Pəs Koroğlu gördü qabaq bir dərbənddür, atına rükab çəküb, çıxdı o dərbəndün üstünə. Gördü o dərbəndün üstündə yaxşı çəmən var və bir çeşmə var. Eyvəzi qoydu o çeşmənün yanında. Əmma dürüst baxdı, gördü dərbəndün fasiləsi qırx arşın yoldur. Pəs bu tərəfdən Reyhan Ərəb yetişüb, hərçi atına məhmiz urub ki, bəndə çıxsun, Aqçaquzu çıxmadı. Pəs Reyhan Ərəb gəlüb dərbənddün aşağı səmtin kəsüb. Koroğlu gördü düşmən yolun kəsdi və atı həm naxoş oldu. Pəs Koroğlu iki rükət hacət namazı qılub, sazın götürüb gəldi Qıratun yanına, dedi:

– Heyvan,

Başına döndüyüm, qurban olduğum,
Qırat, məni Çamlıbelə yetir, hey.
Ala gözlərinə qurban olduğum,
Qırat, məni Çamlıbelə yetir, hey.

Əsli məhmudidür, nərmayə dizlim,
Qüdrət qanadı qüvvətdə gizlim,
Bir hürü birçəklim, bir ala gözlüm,
Qırat, məni Çamlıbelə yetir, hey.

Tarı göstərməsün mənə dağuvu,
Məxməldən çullaram solu-sağıvu,
Qızıldan nallaram əl-ayağıvu,
Qırat, məni Çamlıbelə yetir, hey.

Dolu-dolu badələrin içdigüm,
Məsaf günü başu-candan keçdigüm,
Koroğlu der, beş yüz atdan seçdigüm,
Qırat, məni Çamlıbelə yetir, hey.

Çün Koroğlu bunu deyüb, gördü atına şəfa təri gəldi. Pəs şad olub atına səvar oldu, bir meydanbazlıq edüb, at dəmağ üstə gəldi. Pəs Eyvəzi aldı tərkinə, bir neçə cövlan edüb, istədi qırx arşın dərbəndi keçsün. Reyhan Ərəb bunu müşahidə

eyləyəndə öz-özünə dedi, əgər Koroğlunun Qıratı bu qırx arşın dərbəndi o tərəfə keçə, mən özüm Eyvəzi ona bağışlaram.

Pəs Koroğlu bir qamçı Qırata çəküb. O heyvan ceyran kimi o qırx arşın dərbəndi atılub, ayaqların dərbəndün o tərəfində möhkəm eylədi. Pəs Reyhan Ərəb təəccüb eyləyüb, afərin dedi. Pəs Koroğlunun dalıca at salub dedi:

– Ey Cəlali Koroğlu, əgər mərdi-mərdanəsən, dur və ayaq saxla.

Pəs Koroğlu atın cilovun çəküb, durdu. Çün Reyhan Ərəb yetişdi, əl nizəyə bir neçə föhş Koroğluya dedi. Koroğlu dedi.

– Ey Reyhan Ərəb, mərdanə adamlar dava günündə dillərin bağlar və əllərin açar, föhş demək övrətlərin şivəsidür.

Pəs o iki dilavər əl nizəyə bir-birinə həvalə eyləyüb. Çün neçə tən nizə aralarında rəddü-bədəl olub. Nizədən murad hasil olmadı. Bəd əz an əllərin uzadub kəmana, bir neçə ox bir-birinə atub, rəddü-bədəl eylədilər. Çün oxdan həm murad hasil olmuyub. Koroğlu əl uzadub at üstə yapuşdı Reyhan Ərəbin kəmərindən. Reyhan Ərəb dedi:

– Koroğlu, Eyvəzi qoy yerə, bir-birilən güşti tutaq.

Pəs Koroğlu Eyvəzi qoydu yerə. O iki dilavər bir-birilən güşti dutub. Koroğlu gördü Reyhan Ərəb yaman hərifdür, bunun çəngindən qurtulmaq mümkün dəgül. Pəs tədbir və hiylə edüb, dedi:

– Ey Reyhan Ərəb, əlün çək ki, bizim qaydamız dava günündə budur ki, rəcəz oxuruq, ta rəcəz oxuyum. Bəd əz an güşti dutaq.

Pəs Reyhan Ərəb əlin çəküb durdu. Koroğlu dedi:

İyid meydana varanda,
Əvvəl ərəb atı gərək.
Belində misri qılıcı,
Çəkməgə bay qatı gərək.

Reyhan Ərəb dedi:

– Ey Koroğlu, mənim atım ki, yaman at dəgül?

Koroğlu dedi:

– Bəli, yaxşı atdur.

Pəs Reyhan Ərəb qılıcın çəküb verdi Koroğluya, dedi:

– Koroğlu gör qılıcım necədür?
Koroğlu baxdı, dedi:
– Bəli, çox yaxşı qılıcdur.
Genə Koroğlu dedi:
– Ey Reyhan Ərəb,

Ac qurt kimin qapunmağa,
Düşmən üstə çapunmağa,
Ox güllədən sapunmağa,
Geyümün dörd qatı gərək.

Pəs Reyhan Ərəb geyimlərin Koroğluya nişan verüb. Koroğlu gördü yeddi geyim əgninə geyüb. Genə Koroğlu dedi:

Mərdün damənin dutmağa,
Namərdün daşın atmağa,
Dustağın azad etməgə,
İyidün mürvəti gərək.

Çün Reyhan Ərəb bunu eşidüb, dedi:
– Koroğlu, valla mən Eyvəzi sənə o vaxt bağışlamışam ki, sən o dərbəndi keçdün.
Genə Koroğlu dedi:

Koroğlu yəqin eyliyə,
Həm Əliyə, həm Vəliyə,
Ögüt neyləsin dəliyə,
Vücudunda zatı gərək.

Reyhan Ərəb dedi:
– Koroğlu, Eyvəzi sənə bağışladum, əmma namərdliknən aparma.
Koroğlu dedi:
– Ey Rehan Ərəb, valla ki, mənim nə qardaşım var və nə oğlum var. Mən Eyvəzi özümə qardaş aparıram.
Pəs Reyhan Ərəb dedi:
– Koroğlu, çün Eyvəzi sən aparırsan, imdi mənim iyidlərim daldan yetişür, mənə sərzəniş eyləllər ki, sən Eyvəzi özün verdün və namərdlıx eylədün. Pəs gəl mənim qollarımı bağla və başımı sındur, ta iyidlər mənə sərzəniş eyləməsün.
Pəs Koroğlu Reyhan Ərəbün qolların bağladı və başın sındırdı. Bəd əz an Eyvəzi çəküb Qıratın tərkinə, yola düşdü. Pəs

mənzilbəmənzil gedirdi, ta yetişdi Çamlıbelə. Pəs iyidlər xəbərdar olub ki, Koroğlu gəlür, təmam istiqbal eyləyüb, təmam izzətlən onu götürdülər mənzilinə. Pəs məclis arəstə olub, eyşü-nuşə məşğul oldular.

Bunlar burda qalsun, əmma nəql eşit Reyhan Ərəbdən ki, çün Koroğlu onun qolların bağlayub və başın sındurdı. Pəs Reyhan Ərəbün adamları daldan gəlüb gördülər Reyhan Ərəb qanına əlvan və qolları bağlı yıxılub. Xəbər aldular:

– Bu nə əhvaldur? Məgər Koroğluya hərif ola bilmədün?

Rehan Ərəb dedi:

– Koroğlu öylə dilavərdür ki, əgər əhli-Rum təmam yerindən qalxa, ona hərif olmazlar.

Pəs onun qolların açub, qayıdub öz mənzillərinə getdilər. Bir neçə gündən sora Rehan Ərəb on iki qoşun tədarük görüb, yüz qoydu Çamlıbelə gəlməgə. Dedi, gedim, görüm Eyvəzlən Koroğlunun müamiləsi harıya yetişdi və görüm Koroğlu aya özün tərif eylər ki, ya məni.

Mənzilbəmənzil gəlürdü, tainki bir gecənün nisfində yetişdilər Çamlıbelə. Gəldilər o çadıra ki Koroğlu özü o çadırda idi. Onun dalında Reyhan Ərəb qulaq verdi və baxdı gördü Koroğlu bir məclis arəstə eyləyüb ki, təmam iyidlər o çadırda cəm olublar və hər tərəfdən söhbət eyləllər. Əsnayi– söhbətdə iyidlərdən biri xəbər aldı ki, ey Koroğlu, Reyhan Ərəbi necə cavan gördün?

Koroğlu dedi:

Ay ağalar, ay qardaşlar,
İyid, Reyhan kimin gərək.
Didəmdən tökülür nəmlər,
İyid, Reyhan kimin gərək.

Dəli Mehtər durmuşdu, dedi:

– Ey Koroğlu, məgər sənün qüvvətün Reyhan Ərəbə yetişmədi ki, onu böylə tərif eylərsən?

Koroğlu dedi:

Qalxanını gümüşlədən,
Düşmən qanını daşladan,

Eyvəzini bağışladan,
İyid, Reyhan kimin gərək.

Dəli Mehtər dedi:

– Koroğlu, sənün bu sözindən belə məlum oldu ki, Reyhan Ərəb Eyvəzi sənə bağışlayub və sən onu zor ilə gətirməmisən.

Pəs Koroğlu dedi:

Dilim heç söyləməz yalan,
Ömrümə salıbdur talan,
Koroğlunu atdan salan,
İyid, Reyhan kimin gərək.

Çün Reyhan Ərəb bu sözləri Koroğludan eşidüb, şad olub daxili-məclis oldu. Pəs Koroğlu onu görəndə yerindən durub ona təvəccöh eyləyüb və xoşsəfa deyüb.

Əlhasil, qırx gün müddəti Reyhan Ərəb Koroğluya mehman olub. Bəd əz an vida eyləyüb, Rehlan Ərəb yüz qoydu Urfa şəhərinə. Mənzilbəmənzil gəlüb ta öz vilayətinə yetişdi.

KOROĞLUNUN DÖRDÜNCÜ MƏCLİSİ

Eyvəzin öz bəzi yaşıdları ilə Qazlı gölə ördək və qaz üçün getməsi və onun Həsən Paşaya əsir düşməsi. Koroğlunun Həsən Paşa ilə davası və Eyvəzlə onun yaşıdlarını azad etməsi.

Ravi rəvayət eylər ki, bir gün Cəlali Koroğlu Çamlıbeldə oturmuşdı və məcmui iyidlərilən məşğuli eyş və nuş olub guzəran eylərdilər ki, nagah Mustafa bəg iki yüz atlı ilə Koroğlunun mənzilinə mehman gəlüb. Pəs Cəlali Koroğlu bəd əz təarüfat hökm eylədi bir məclisi-ali tərtib verüb. Saqi əllərində piyaleyi-şərab əhli-məclisi sirab eyləyüb və iyidlərin başı şərabi-nabdan gərm olub məşğuli-keyf oldular. Pəs Cəlali Koroğlu aləmi-keyfdə yüzün dutub Mustafa bəg tərəfinə, dedi:

– Mustafa bəg, heç mənim məclisim kimi məclisi-ali görübsən və saqilərim kimi saqi görübsən və iyidlərim kimi iyid görübsən?

Mustafa bəg dedi:

– Ey Koroğlu, çox yaxşı ali məclisdür və heç eybü-nöqsanı yoxdur, məgər bircə eybi vardur.

Koroğlu dedi:

– O eyib nədir?

Mustafa bəg dedi:

– Bu məclis yaxşı məclisdir, heyif ki, durna əti yoxdur ki, bu şərabun üstündən kabab eyləyək.

Çün Koroğlu bu sözü Mustafa bəgdən eşidüb bir piyalə şərab doldurub dutdu əlində və yüzün çevirdi əhli-məclisə, dedi:

– Cəmaət, kimdür sizlərdən ki, ayağə durub bu piyaləni alub nuş eyləyə və atına səvar olub gedə Bəyazidə, Həsən Paşanun Qazlı gölündən bir neçə durna gətirə?

Pəs əhli-məclis təmam başların aşağa (tiküb), heç kəsdən səs gəlmədi, məgərinki Eyvəz balı ayağa durub ərz eylədi ki, qurbanın olum, bu iş mənim işimdür.

Pəs Koroğlu o piyaləni yerə urub, genə yüzün dutdu əhli-məclisə, dedi:

– Cəmaət, kimdür ki, bu xidməti yerinə yetirə?

Pəs genə heç kəsdən səs gəlmədi. Eyvəz balı ayağa durub ərz eylədi:

– Qurban olum, bu xidmət mənimdür.

Pəs Koroğlu genə qəhr edüb piyaləni yerə urdu. Üçüncü dəfə genə yüzün dutdu əhli-məclisə, dedi:

– Cəmaət, kimdür ki, bu xidmətə iqdam eyləyə?

Genə Eyvəz balı ayağa durub, ərz eylədi:

– Qurban olum sənə, bu xidmət mənümdür.

Pəs Koroğlu onu mürəxxəs eyləyüb. Eyvəz gəlüb öz mənzilinə əsbabi-davanı əgninə geyüb atın zin edüb, təngin möhkəm edüb atına səvar olub yüz qoydu Bəyazidə tərəf getməgə.

Pəs bu tərəfdən Dəmirçioğlu və Güyümçüoğlu və Bəlli Əhməd hər üçü ayağa durub geyim və çar əyinə geyüb atlarına səvar olub yüz qoydular Eyvəz balınun dalınca getməgə.

Çün yetişdilər, dedilər:

– Ey Eyvəz, sən qayıt ki, bu xidmət bizimdür.

Eyvəz dedi:

– Xeyr, gərək mən özüm gedəm və bu xidməti yerinə yetirəm.

Pəs onlar hərçi səy eyləyüb, Eyvəz qayıtmayub. Pəs labüdd qalub, hər dörd nəfər yüz qoydular Qazlı gölə getməgə. Çün yetişdilər Bəyazidə, Həsən Paşanun bağına daxil olub Qazlı göldən bir neçə durna şikar eyləyib bəd əz an gəldilər gölün kənarında oturub tüng piyalə qoyub məşğul oldular şərab içmağa. Pəs bir neçə piyalə şərab içüb, onlar məst olub aləmi-məstlıqda ayağa durub qılıcların çəküb şüru eylədilər bağun ağacların kəsməgə. Çün bağban bu əhvalı görüb gəldi Həsən Paşanın yanına, fəryad eyləyə-eyləyə dedi:

– Ey Həsən Paşa, dörd nəfər Cəlali Koroğlunun xırsızlarından gəlib təmam bağun ağacların qələm eylədilər.

Çün Həsən Paşa bu əhvalı bağbandan eşidüb, qəzəbnak olub Bolı Sərdarı istəyüb. Çün hazır oldu, hökm eylədi ki, on iki min ləşkər götürüb get o dörd nəfər adamı zində dutub gətür mənim yanıma.

Pəs Bolı Sərdar on iki min ləşkər götürüb gəldilər, bağun çahar ətrafın əhatə eylədilər. Çün Dəmirçioğlu və Güyümçüoğlu və Bəlli Əhməd və Eyvəz balı bu əhvalı gördülər, atlarına

səvar olub, bağdan çıxub bina eylədilər dava eyləməgə. Pəs çahar ətrafdan ləşkər onları əhatə eyləyüb məşğuli-dava oldular.

Pəs dilavərlər hey urub neçə min adam Həsən Paşanun qoşunundan həlak eylədilər. Pəs Bolı Sərdar gördü ki, bunların öhdəsindən gəlmək mümkün dəgül. Kəməndəndazlara hökm eylədi ki, onlara kəmənd atub dutsunlar. Çün hər dilavərə ki, kəmənd atardılar, o biri qılıc həvalə eyləyüb kəməndi parə eylərdi. Axirüləmr çün azilən çoxun sazişi olmaz, o dörd nəfər adamı dutub, qolların bağlıyub gətürdilər Həsən Paşanun xidmətinə. Pəs hökm eylədi ki, onları dara çəksünlər. Pəs dar ağacı qurulub o dörd nəfər adamı dar dibində hazır eylədilər.

Həsən Paşa hökm eyləyüb ki, təmam əhli-şəhər cəm olub tamaşa eyləsünlər. Çün Həsən Paşanın vəziri bu əhvalı gördü, büldi ki, Koroğlunun öhdəsindən gəlmək mümkün dəgül. Yüzün dutub Həsən Paşaya, dedi:

– Paşam sağ olsun, bunları imdi öldürmək məsləhət dəgül. On gün bunlar qalsun və sən həm hökm eylə ki, ətrafü-cəvanibdən təmam ölkənün əhli cəm olsun, ta bunları əziyyəti-təmamilən öldür ki, təmam xəlqə ibrət olsun, ta bundan sora daxi böylə xilaf hərəkət eyləməsünlər.

Pəs Həsən Paşa onu qəbul eylədi. Çün Eyvəz balı vəzirin bu sözin eşidib yüzün dutdu vəzirə, dedi:

– Ey vəzir, mənim bir borcum var, qoy mən Xacə Yəqubdan bir kağız yazım ki, Koroğlu mənim qərzimi versin.

Vəzir mürəxxəs eylədi. Pəs Eyvəz balı Xacə Yəqubu çağırub ki, kağız yazsun. Çün Xacə Yəqub gəldi Eyvəz balı sazın götürüb yüzün çevirib Xacə Yəquba, dedi:

Uca dağların başında,
Zülüm, hay mədət, hay mədət!
Düzülüb dalımca gəlir,
Ölüm, hay mədət, hay mədət!

Bir qılıcım var, bir atım,
Artıbdır qəmi-firqətim,
Hanı mənim məmləkətim,
Elim, hay mədət, hay mədət!

Gedirdim, gəldi qarşıma,
Ağular qatdın aşıma,
Gör nələr gəldi başıma,
Zülüm, hay mədət, hay mədət!

Eyvəz durar, oturur,
Mollasın dilə gətirür,
Mən ölsəm, kimlər götürür,
Elim, hay mədət, hay mədət!

Eyvəz balı çün sözin bura yetirdi, Həsən Paşa qəzəbnak olub hökm eylədi ki, urun bunların boynun. Vəzir genə toprağa düşüb, ərz eylədi:

– Paşam sağ olsun, bunları məxfi öldürmək məsləhət dəgül. Sən hökm eylə ki, təmam ölkələrin adamı cəm olsun ki, şöhrəti-təmamilən bunları öldür.

Pəs Paşa qəbul eyləyüb hökm eylədi ki, onları məhbus eyləsünlər. Pəs bunlar həbsdə qalsın nəql eşit ki, Xacə Yəqub Eyvəzdən kağızı alub təcili-təmamilən özün yetirdi Çamlıbelə.

Çün Cəlali Koroğlu Eyvəz gedəndən sora bir neçə saat gecədən keçüb gördü Eyvəz gəlmədi. Koroğlunun gözünün yaşı tökülüb. Əhli-məclis və Mustafa bəg ərz eylədilər ki, ey Koroğlu, niyə ağlarsan və niyə xəlqin damağın təlx eylərsən. Pəs Koroğlu kamali-qəmgin olub, ayağa durub gəldi Nigar xanımın çadırına.

Mustafa bəg və Dəli Mehtər çün gördülər ki, Koroğlu qəhr edüb getdi Nigar xanımın çadırına, onlar həm onun dalınca gəlüb gördülər Koroğlu genə ağlar. Ərz eylədilər:

– Ey Koroğlu, məgər nə var və niyə ağlarsan?

Koroğlu dedi:

– Ey Mustafa bəg, mənə yəqin olub ki, Eyvəz dutulub. Əgər sağ olsaydı, indi gəlmişdi. Pəs Koroğlu sazın götürüb durdu bu əşarı oxumağa:

Göndərdim durna ovuna,
Eyvəz əgləndi, gəlmədi,
Bəs kimlər getdi hovuna,
Eyvəz əgləndi, gəlmədi.

Mustafa bəg dedi:

– Ey Koroğlu, ğəm eyləmə ki, Dəmirçioğlu və Güyümçüoğlu və Bəlli Əhməd onun dalınca gedüb, qorxma.

Koroğlu dedi:

– Ey Mustafa bəg, qulaq ver:

Eyvəzi göndərdim Şama,
Qılıcından qanlar dama,
Vədə vermişdi axşama,
Eyvəz gəlmədi, gəlmədi.

Qələdən toplar atıldı,
Tənab tənaba çatıldı,
Ya dutdu, ya da dutuldu,
Eyvəz gəlmədi, gəlmədi.

Bağında açılub güllər,
Oxulla şeyda bülbüllər,
Koroğlu, başuva küllər,
Eyvəz gəlmədi, gəlmədi.

Mustafa bəg hərçi iltimas eyliyüb, Koroğlu qəbul (etsün) ki, Koroğlu ayağa durub məclisə gəlsün, Koroğlu gəlmədi. Mustafa bəg məclisə qayıdub. Koroğlu o gecə qaldı Nigar xanımın çadırında.

Eylə ki sübh oldu, Xacə Yəqub kağızı gətirüb verdi iyidlərin birisinə. Ta gətirdülər Koroğlunun xidmətinə. Çün kağızı verdi. Koroğlu kağızı alub, məzmunundan müttəle olub dedi:

– Bu kağızı kim gətirdi?

Dedi:

– Xacə Yəqub gətirüb.

Pəs Koroğlu ayağa durub, dedi:

Bolı bəg dutub Eyvəz balını,
Deyin, Təkəlüdən ellərim gəlsin.
Eyvəzsiz neylərəm dünya malını,
Deyin, Təkəlüdən bəglərim gəlsin.

Mustafa bəg bunu eşidüb ərz eylədi:

– Qurbanın olum, məgər Mustafa bəg və iyidlər ölüb ki,

sən Təkəlü elin mədədə çağırırsan?

Koroğlu dedi:

Qıratı çəkin yedəgə,
Püfkürrəm fuladı gögə,
Çərxçi olub düşərəm ögə,
Deyin, Təkəlüdən ellərim gəlsin.

Minərəm Qıratı gəzərəm düzü,
Düşmənə geydirrəm alu-qırmızı,
Eyvəzə yetincək qıraram sizi,
Deyin, Təkəlüdən ellərim gəlsin.

Şindi Bolı bəglər bizdən yeyindür,
Eyvəz dağı sinəm üstə dügündür,
Koroğlu der, dövri-məşhər bugündür,
Deyin, Təkəlüdən ellərim gəlsin.

Çün Mustafa bəg və iyidlər bu sözü Koroğludan eşidüb təmam at belinə səvar oldular və bu tərəfdən Cəlali Koroğlu özü həm əsbabi-dava geyüb Qırata səvar olub yüz qoydular Bəyazidə gəlməgə. Çün bir qədər yol gedüb düşdülər. Koroğlu gördü havadan bir sürü durna gedir, yüzün çevirdü durnalara, dedi:

Gögdən ötən beş durnalar,
Bax gör, Eyvəz görünürmü?
Bir-birindən piş durnalar,
Bax gör, Eyvəz görünürmü?

Durnam gedər düzün-düzün,
Boynu qanadından uzun,
Durnam, mənim iki gözüm,
Bax gör, Eyvəz görünürmü?

Durnam gedər nazı– nazı,
Gög yüzündə dutar sazı,
Allah olsun sizdən razı,
Bax gör, Eyvəz görünürmü?

Görünməz qoşunun başı,
Töküldü didəmin yaşı,
Koroğlunun qoç qardaşı,
Bax gör, Eyvəz görünürmü?

Bunu deyüb genə atlarına səvar olub yola düşdülər. Pəs o gün və o gecə at sürüb ta yetişdilər Bəyazid qalasının kənarına. Pəs Dəli Mehtər ərz eylədi ki, ey Koroğlu, qoy bir sorağ dutaq ki, Həsən Paşa Eyvəzi öldürüb ya nə.

Koroğlu dedi:

– Yaxşı, gedin, bir soraq dut.

Pəs Dəli Mehtər yüz qoyub qələyə ta bir soraq dutsun. Çün yetişdi qələnin yanına, gördü bir qoca kişi təcili-təmamilən gedir. Dəli Mehtər dedi:

– Qoca, harıya gedirsən?

Qoca dedi:

– Cavan, deyillər ki, Həsən Paşa neçə nəfər Koroğlunun iyidlərindən dutub və onları bu gün dara çəküb həlak eyləsün, mən gedirəm onların tamaşasına.

Dəli Mehtər dedi:

– Qoca, gəl gedək, mənim bir ağam var, onun yanına ki, sövdagərdir, bu müjdə xəbərin ona ver, bəlkə sənə bir qədər ənam verə.

Qoca dedi:

– Cavan, mənə ənamdan yaxşı onlarun tamaşasıdur.

Dəli Mehtər o qocanı zor ilə gətirdi Koroğlunun bərabərinə.

Koroğlu xəbər aldı:

– Qoca, Bəyaziddən nə xəbərün var?

Qoca macəranı Koroğluya deyüb. Koroğlu dedi:

– Bu, mənə ölüm xəbəri gətirüb, sən də buna ölüm müjdəsi ver.

Pəs Dəli Mehtər onu həlak eylədi. Koroğlu dedi:

– Dəli Mehtər, Qıratı minüb get bu şəhərə, bir dürüst xəbər mənə gətür.

Pəs Dəli Mehtər ata səvar olub, az qaldı ki, qələyə yetişsün, gördü bir cavan əlində bel qələdən çıxub, əmma ağlaya-ağlaya gedir. Dəli Mehtər xəbər aldı ki, ey cavan, sənə nə vaqe

olub ki, belə ağlarsan?

Cavan dedi:

– Valla ki, dörd nəfər Koroğlunun iyidlərindən Həsən Paşa dutub və onları dara çəküb, istər ki, bu gün onları həlak eyləsün. Mənim qeyrətimə güncidə olmadı ki, onlara tamaşa eyləyim. Pəs ağlıya-ağlıya bu şəhərdən xaric oldum.

Pəs Dəli Mehtər onu gətirdü Koroğlunun hüzuruna. Cavan macəranı Koroğluya nəql eylədi. Pəs Koroğlu bir ağlayub, ondan sora o cavana bir xələt verüb, dedi:

– Ey cavan, bir neçə sifariş gərək məndən Həsən Paşaya aparasan.

Cavan əlin qoydu gözünün üstə, ərz eylədi:

– Sənün sifarişüvü aparram.

Pəs Koroğlu dedi:

– Cavan,

Xəbər apar Bəyazidin şəhrinə,
Gətirrəm Eyvəzi, onu qoymaram.
Deyin bəglərinə, köç eyləməsün,
Bu qisası Rüstəm-Zala qoymaram.

Badasin içmişəm, bihuş olmuşam,
Piyalə içmişəm, sərxoş olmuşam,
Yuvada bəslənmiş bir tavar quşam,
Daxı ölkəsində bala qoymaram.

Başına döndüyüm, ver içim, saqi,
Mən olmuşam xan Eyvəzin dustaqı,
Çayu-çəmən Koroğlunun oylaqı,
Şah da gələ, Çamlıbelə qoymaram.

Bunu deyüb o cavanə yola saldı. Pəs özü hökm eylədi ki, təmam cavanlar atlanub yüz qoydular qələyə getməgə. Dəli Mehtər ərz eylədi:

– Ey Koroğlu, bu cəlalnan qələyə getmək məsləhət dəgül ki, məbadə, Həsən Paşa xəbərdar olub ki, Koroğlu gəlür, qələnin dərvazaların bağladub Eyvəzi öldürə. Bəd əz an ki Eyvəzi öldürdü, əgər sən təmam şəhri həlak eyləsən, daxi Eyvəz

zində olmaz.

Koroğlu dedi:

– Bəs məsləhət nədür?

Ərz eylədi ki, iyidlər mütəfərriq qələyə daxil olsun, bəd əz an ki daxil oldular, təmamən meydanda cəm olsunlar.

Pəs Koroğlu Dəli Mehtərə afərin deyüb, onun rəyin bəgəndi. Hökm eylədi ki, iyidlər təmam mütəfərriq hər dərvazadan daxili-şəhr oldular və Koroğlu özü Dəli Mehtəri götürüb daxili-şəhr oldu, gəldi meydana, gördü ki, Eyvəzi və Dəmirçioğlun və Güyümçüoğlun və Bəlli Əhmədi qolların bağladub dar kənarında saxlayublar və cəllad əllərində qılıc müntəzir durublar. Çün Koroğlu bunları belə görəndə ah nəhadindən çəküb, durdu. Əmma bu tərəfdən vəzir yüzün çevirib Həsən Paşaya, ərz eylədi:

– Paşam sağ olsun, bir yanşaq olaydı ki, Koroğlunun türki sözlərindən deyüb, bunları eyşü-işrətlən öldürəydük.

Çün Koroğlu bunu eşidib Qıratı verdi Dəli Mehtərə, dedi:

– Bu atı saxla və gözlərin məndə olsun ki, hər vəqti mən əlimi buğlarıma çəkdüm, o vəqt sən davanı sal.

Bunu deyüb, sazın götürüb gəldi vəzirin hüzuruna. Vəzir gördü bir pətyarə yanşaq durub, dedi:

– Ey yanşaq, bir qədər Həsən Paşaya söhbət eylə ki, bu gün onun şadlıq günüdür.

Pəs Koroğlu şüru eylədi bu əşarı oxumağa. Çün istədi oxusun, Həsən Paşa bir qədər şərab istəyüb, saqi bir neçə piyalə Həsən Paşaya şərab verüb. Vəzir ərz eylədi:

– Paşam sağ olsun, bir piyalə də yanşaqa ver ki, yaxşı söhbət eyləsün.

Çün saqi piyaləni Koroğluya verüb dedi:

– Bəsindür?

Koroğlu dedi:

– Yox.

Pəs saqi üç piyalə şərab Koroğluya verüb. Pəs vəzir gördü, bir ayrı yanşaq durub əlində bir at, gözü saqinün əlindədür.

Vəzir dedi:

– O əlində at olan yanşağa da şərab ver.

Saqi piyalə əlində gəldi Dəli Mehtərün bərabərinə. Dəli Mehtər alub içdi. Gördü bu piyalə çox pürqiymətdir. Dəli Mehtər o piyaləni qoydu qoynuna. Saqi piyaləni istədi, Dəli Mehtər vermədi. Saqi istədi ona föhş versün. Dəli Mehtər bir müşt saqinin başından urub ki, saqi həman saat öldü. Pəs vəzir yüzün çevirdi Koroğluya, dedi:

– Yanşaq, o at sənindür?

Koroğlu dedi:

– Bəli, sənə peşkəşdür.

Vəzir dedi:

– Yox, sövda eylərsən.

Koroğlu dedi:

– Bəli.

Vəzir dedi:

– Bir at, beş yüz tümən pul.

Koroğluya verüb, vəzirin mehtəri gəldi ki, Qıratı aparsun. Qırat o mehtərin başın alub ağzına, həman saat həlak eylədi. Vəzirin miraxuru gəldi ki, Qıratı dutsun. Pəs Qırat bir cift təpik miraxurun qarnından belə çaldı ki, o, həm həlak oldu. Vəzir dedi:

– Yanşaq, sənün həm atun və həm mehtərin dəlidür.

Koroğlu dedi:

– Vəzir, Dəli Mehtəri həm sənə verdüm.

Vəzir xoşhal oldu. Pəs Koroğlu öz-özünə dedi ki, mən bu Həsən Paşanın şərabın içdüm və pulun aldum, gəl Eyvəzi da istə, bəlkə verə və dava olunmaya. Pəs yüzün dutdu, dedi:

Səniylənəm, Həsən Paşa,
Salı ver gəlsün Eyvəzi.
Artsun dövlətün, yüz yaşa,
Salı ver gəlsün Eyvəzi.

Həsən Paşa dedi:

– Vay anasın satdığım, məgər sən Koroğlusan?

Dedi:

– Yox, mən bunu Koroğludan örgəşmişəm.

Həsən Paşa dedi:

– Yanşaq, Eyvəzi vermənəm, sən söhbətün eylə.

Koroğlu dedi:

Dəlilər doldu qalaya,
Qanlı qılıclar yalıya,
Boğdurram İsa balıya,
Salı ver gəlsün Eyvəzi.

Qolları var, salla-saçaq,
Kimi geyər dəmir qolçaq,
Atı yügrək, özü qoçaq,
Salı ver gəlsün Eyvəzi.

Hər gələnlər tərif eylər,
Dəldi bağrım, keçdi teylər,
Koroğlu iltimas eylər,
Sali ver gəlsün Eyvəzi.

Eylə ki Paşa bunu eşidüb dedi:

– Anasın satdığım yanşaq, Koroğlu nə büldü ki, mən Eyvəzi öldürrəm ki, məndən iltimas eyləyə.

Koroğlu (dedi):

– Paşam sağ olsun, qaydadur ki, yanşaqların hörmətin saxlallar, gəl Eyvəzi mənə bağışla.

Paşa çün bunu eşidüb qəzəbnak olub dedi:

– Cəmaət, Eyvəzi və yoldaşların çəkün dara!

Koroğlu gördü Eyvəzin rəngi saraldı, ərz eylədi:

– Paşa, qoy bir neçə bənd şeri-türki deyüm, ondan sora bunları dara çək.

Paşa dedi:

– Canım yanşaq, söhbət eylə.

Koroğlu dedi:

Sarıqın əyrı qoyanlar,
Danla günə iqrar olur.
Sarıq ki başdan aşanda,
Dağılır, tarimar olur.

Carçı ər meydanda carlar,
Düşmənin bağrını yarar,

Ərsələnür bədöv xorlar,
Bir tərəfə rüzgar olur.

Koroğlu bunu bilməsə,
Axan qan-yaşın silməsə,
İyid meydanda ölməsə,
Yarasız gəlsə, ar olur.

Paşa çün bunu eşidüb genə hökm eylədi:

– Cəmaət, çəkin bunları dara!

Koroğlu dedi:

– Paşa sağ olsun, Koroğlu nökəri Dəmirçioğlu ki, onu dutmusan, o da yaxşı söhbət eylər. Qoy, bir neçə bənd türkü desün, ondan sora bunları öldür.

Pəs Paşa hökm eylədi ki, sazı verdilər Dəmirçioğluna. Çün Dəmirçioğlu gördü ki, bu saz Koroğlunun sazıdur, dedi:

– Eyvəz, daxi qəm eyləmə ki Koroğlu gəlüb.

Pəs Dəmirçioğlu sazı basub bağrına, dedi:

Başına döndüyüm, qoçaq Koroğlu
Şindi girər bu meydana, əfəndi.
Xudam xub yaratmış, bu qəssab oğlu,
Şindi girər bu meydana, əfəndi.

Başına döndügüm belə haşadan,
Görüm, yüz yaşasın səni yaşadan,
Gurluyub, gurluyub çıxsa meşədən,
Tülki neylər ac aslana, əfəndi.

Onun iyidləri təmam əllidür,
Bütünüsü bir-birindən bəllidür.
Dəli Mehtər hamısından əllidür,
Şindi girər bu meydana, əfəndi.

Dindirün süz Dəmirçioğlun, dindirün,
Öz günahın öz boynuna mindirün,
Öldürürsüz, gəlin üç iyidi öldürün,
Gəlün, Eyvəz Xana qıymun, əfəndi.

Çün Dəmirçioğlunun sözü təmam oldu, bu tərəfdən Mustafa bəg gördü Koroğlu gah at sövdası eylər və gah yanşaqlıq eylər, daxi tab eyləməyüb şeşpərin atdı meydana. Çün Koroğlu Mustafa bəgin şeşpərin gördü, bir neçə türki onun tərifində dedi:

Gurultuynan atəş əndi,
Yerə düşdü dağlar, sandım,
Eyvəz bir piyalə verdi,
Al qanımdan içdüm, sandım.

Əzəl oxun mənə atdı,
Məni xumardan oyatdı,
Mustafa bəg şeşpər atdı,
Yerə düşdü dağlar, sandım.

Çün vəzir eylə bunu eşitdi, gördü bu yanşaq Koroğlu özüdür, indi dava eyləllər, ərz eylədi:

– Qurbanın olum, mənə bir qədər sancı ariz oldu, mən istərəm gedəm.

Paşa dedi:

– Vəzir, qoy yanşaq sözin təmam eyləsün, bunları dara çəkək, bəd əz an get.

Koroğlu dedi:

Eyvəz mənə qiya baxdı,
Cigərim atəşə yaxdı,
Koroğlu yerindən qalxdı,
Vəzir əqlim köçdü, sandım.

Pəs çün Paşa hökm eylədi ki, onları dara çəküb öldürsünlər, Koroğlu ərz eylədi:

– Paşa sağ olsun, qoy bir neçə bənd genə türkü deyim, ondan sora öldürsünlər.

Paşa dedi.

– Yanşaq, de görüm!

Pəs Koroğlu dedi:

Hovdur, dəlilərim, hovdur,
Hovdur bu meydan üstünə.
Dörd bir yandan, beş bir yandan,
Hovdur bu meydan üstünə.

İyidlər çün çahar ətrafdan Koroğlunun sözin eşidüb atlarun təngin möhkəm edüb, səvar oldılar. Koroğlu genə dedi:

Qələ bürcündə yatanlar,
Toza, toprağa batanlar,
Mənim Eyvəzimi dutanlar,
Sərə qolun can üstünə.

Meydanun dört yanın alun,
Düşməni qəm halə salun,
Çar tərəfdən qılıc çalun,
Leş tökülsün qan üstünə.

Koroğlu meydan işləsün,
Həq günahın bağışlasun,
Həsən darı qılıclasun,
Mən özüm Xondkar üstünə.

Pəs iyidlər çün bu sözü Koroğludan eşidüb, yüz qoydılar meydana. Pəs Dəli Mehtər darı qələm eyliyüb, Eyvəzi və yoldaşların xilas eylədi və Koroğlu özi əvvəl vəziri öldürüb, ondan sora Paşanı öldürüb və bir tərəfdən Mustafa bəg iyidlərnən əhli-şəhri saldılar qılıc qabağına.

Pəs şəhərdə bir əzimi-qovqa olub təmam zikir və inayətin qılıc qəbağına salub, hər tərəfdən, guştələrdən püştələr tərtib verüb qan su əvəzinə cari oldı. Pəs təmam şəhəri qarət eyləyüb və o cavanı ki Koroğlu onı Paşa yanına göndərmişdi, onı şəhərə Sultan eyləyüb və xəzinənün qapusun açub, bir qədər Koroğlu özü götürüb və bir qədər Mustafa bəgə verdi.

Pəs Mustafa bəg öz evinə müraciət eyləyüb və Koroğlu həm öz mənzilinə müraciət eyləyüb, iyidlərnən belə eyşü-nuşə məşğul oldular.

KOROĞLUNUN BEŞİNCİ MƏCLİSİ

Koroğlunun Van şəhərinə getməsi. Osman Paşa və Teymur ağa ilə davası. Koroğlunun Teymur ağanı öldürməsi və onun nişanlısı Əsmər xanımı Çamlıbelə gətirməsi

Raviyani-əxbar və naqilani-asar belə rəvayət eylər ki, Cəlali Koroğlu kəmali-cəlal və şanilən Çamlıbeldə xeymə və xərgah qurub öz iyidlərilən belə eyşü-işrətə məşğul var idilər ki, Van şəhərinin hakimi ki, adına Osman Paşa deyərlər, onun məclisində bir gün Cəlali Koroğlunun və iyidlərinin adları zikr olundu. Və bu Osman Paşanun bir sərdarı var idi ki, adına Teymur ağa deyərdilər, ərz eylədi ki, Paşam sağ olsun, nə bu qədər Koroğlunun tərifin eylərsüz ki, o, bir quldur adamdur və bir neçə nəfər özü kimin dəli başına yığıb gecə və gündüz biçarə rəiyyətin yolun kəsüb və onları öldürüb, malların zəbt eylər. İyid odur ki, biçarə adamlara rəhm eyləyə və pəhlüvanlarilən dava eyləyə.

Osman Paşa dedi:

– Teymur ağa, yaxşı deyirsən, əmma mən eşitmişəm ki, Koroğlunun bir atı var ki, dərya atlarının cinsindəndir və onun adına Qırat deyəllər və çox rəşid atdur və heç at o ata müqabil olmaz.

Teymur ağa ərz eylədi ki, Paşam sağ olsun, əgər məni mürəxxəs eyləsən, mən gedərəm və o atı gətürrəm.

Pəs Osman Paşa onu mürəxxəs eyləyüb, Teymur ağa ayağa durub əsbabi-dava əyninə geyüb və atının təngin neçə yerdən möhkəm eyləyüb, atına səvar oldu və bir nəfər mehtər yanınca götürüb gəldi Əsmər xanımın mənzilinə ki, Osman Paşanun qızıydı və Teymur ağanın namzədi idi.

Çün Əsmər xanım Teymur ağanı gördü ki, dava əsbabı əgninə geyüb, dedi:

– Harıya gedirsən, Teymur ağa?

Dedi:

– Gedirəm Cəlali Koroğlunun Qıratın gətirəm ki, sənin atan Osman Paşaya vədə eyləmişəm.

Çün Əsmər xanım bu sözü Teymur ağadan eşitdi, dedi:

– Getmə, mən eşitmişəm ki, Cəlali Koroğlunun yeddi yüz yetmiş yeddi dəlisi vardur ki, onlarun hər biri pəhləvani-namdar və dəliri-ruzigardur və onlardan səvayı eşitmişəm ki, Koroğlu özü bir iyyiddür ki, ruzgarın gözü eylə iyid görməyüb, məbadə, gedəsən ki, qorxaram ki onlara düçar olasan və səni dutub tələf eyliyələr.

Çün Teymur ağa bu sözü Əsmər xanımdan eşidüb, hirsindən gözləri qızarub və rəngi saraldı, dedi:

– Əsmər xanım, əgər sən qulambeçələrə və kənizlərə hökm eyləyəydün ki, məni öldürəydilər, səndən o qədər inciməzdüm ki, sənin bu sözin məni incitdi. Koroğlunu sən çox iyid tərif eylədün və məni qorxutdun. Mən atan Osman Paşaya Koroğlunun Qıratın vədə vermişəm və sənə Koroğlunun öz başın vədə eylədüm ki, onu öldürüb başın sənə gətürüm.

Pəs Teymur ağa qəhr eyləyüb Əsmər xanımın mənzilindən çıxub və öz mehtərin götürüb yola düşdü. Mənzilbəmənzil at sürüb gəlürdi, tainki yetişdi Çamlıbelin bir ağaclığına.Pəs Teymur ağa atdan aşağa gəlüb və öz libasların çıxarub verdi mehtərinə və onun libasların özü geydi əgninə və dedi:

– Ey mehtər, sən atları bu dərbənddə saxla, ta mən gedüb bir növilən Qıratı bəlkə ələ gətürəm.

Pəs Teymur ağa mehtəri orda qoydu və özü yavaş-yavaş gəldi, ta gecədən bir neçə saat getmiş yetişdi Çamlıbelə. Gördü çadırlar qurulub və tənab tənabdan keçüb, əmma gördü çadırlarun arasında bir böyük çadır var. Gəldi o çadırun bərabərinə, gördü bir ali məclisdür ki, yeddi yüz yetmiş yeddi səndəl qoyulub və hər sənədəlün üstündə Cəlali Koroğlunun iyidlərindən bir nəfər əgləşüb və Cəlali Koroğlu özü sədri-məclisdə bir səndəl üstündə oturub. Əmma, əlhəqq, bir cavandur ki, ruzgarın gözü bir belə cavan görməyüb ki, buğları binaguşindən keçüb və qolları, deyəsən bəs, bir çinar ağacıdır və neçə saqi ayaq üstə durub piyalə dolandurullar.

Çün Teymur ağa bu cəlalı və bu iyidləri gördü, öz-özünə dedi, yaxşı yerdə girə gəldim. Əsmər xanıma mən vədə eylədim ki, Cəlali Koroğlunun başın sənə gətirrəm. Əgər Rüstəm-

Zabili gələ, bu iyidlərə hərif olmaz.

Pəs Teymur ağa bir qədər fikir eylədi, gördü mümkün dəgül ki, Koroğluya hərif olub onu öldürsün. Pəs labbüddən o qədər məks eylədi ki, gecə nisf olub və məclis bərhəm oldu və hər kəs iyidlərdən gedüb öz mənzilinə istirahətə məşğul oldular və Koroğlu özü həm ayağa durub Eyvəz balı, İsa balı, Musa balı gəldilər öz mənzillərinə istirahətə məşğul oldular. Bunlar qoy yatmaqda, nəql eşit Teymur ağadan.

Çün Teymur ağa gördü ki, mümkün dəgül Koroğluya bir asib yetirə bilsün və əgər iyidlər bir rəmzi anlıya, bunu dutub həlak eyləllər, labüd qalub yavaş-yavaş gəldi Qıratın sərvəqtinə. Gördü Qırat bağlanub və Dəli Mehtər onun darnaqları altında yatub, əmma necə Dəli Mehtər bir böyük pətyarədür, yanında bir şeşpər var, əgər dağa ursa, tutya kimin nərm eylər. Ahəstə-ahəstə gəldi Qıratun yanına.

Çün o heyvan gördü öz mehtəri Dəli Mehtər dəgül, ayrı adamdur, bir şiyhə çəküb dırnaqların yerə urdu. Teymur ağa gördü Koroğlunun atı özgə adəmə ram olub təngin verməz. Tədbir eyləyüb libasların çıxarub qoydu Dəli Mehtərün yanına, onun libaslarun özü geyüb yavaş-yavaş gəldi Qıratun çidarın açub və mixi-töyləsün çıxardub, tainki sərtöylədən çıxardub ayağın qoydu üstünə və yeddi yerdən onun təngin möhkəm eyləyüb ayaq həlqeyi-rükabə qoyub səvar oldu. Pəs kəmali-şadlığından öz atı və mehtəri yadına düşməyüb yüz qoydu Van şəhərinə getməgə.

Pəs bunu qoy burda qalsun, nəql eşit Cəlali Koroğludan. Çün öz mənzilinə gəldi və məsti-layəqil yatub istirahətə məşğul oldu. Sübhün tüluuna yavuq bir hövlnak vaqiə gördü, yuxudan ayılub bir qədər fikr eylədi, genə onu huş dutub aləmi-vaqiədə gördu ki, bir böyük qarğa gəlüb oturdu Qıratun üstündə və o heyvanun cilavın dutub minqarında, hər tərəfə seyr eylər. Çün Koroğlu yuxudan ayılub sərasimə özün yetürdü sərtöyləyə. Gördü Dəli Mehtər yatub, əmma yanında bir dəst osmanlı libası var və Qırat töylədə yoxdur. Aləm Koroğlunun gözünə tirəvü-tar oldu. Pəs Dəli Mehtəri yuxudan oyadub. Dəli Mehtər çün gözlərin açdı, gördü Koroğlu köynəkcək durub başı

üstə, ayağa durub salam eylədi. Koroğlu dedi:

– Dəli Mehtər, bəs Qırata nə gəlüb?

Dəli Mehtər gördü Qırat yoxdur, əmma bir dəst osmanlı libası yanında var. Bir qədər fikr eylədi, dedi:

– Ey Cəlali Koroğlu, bir gecə əvvəl şəb bu libaslar bir adamun əgnində idi və çadırların bərabərin dolanurdu. Mən belə xəyal eylədüm ki, fəqirdür və istər ki, çadırlardan bir qədər təam alsun. İmdi belə məlum olur ki, Qıratı o fəqir aparub.

Pəs Koroğlu ordan qayıdub daxil oldu öz çadırına, durdu ağlamağa. Çün Dəli Mehtər bu əhvalı gördü, gəldi Eyvəz balının mənzilinə. Yuxudan oyadub dedi:

– Eyvəz, dur ayağa ki, Qıratı düşmən aparub və Koroğlu öz çadırında ağlır.

Pəs Eyvəz balı sərasimə ayağa durub özün yetirdi Koroğlunun yanına. Gördü ki, Koroğlunun rəngi və əhvalı pərişan olub və gözünün yaşın min yerdən tökür. Eyvəz balı ərz eylədi:

– Qurbanın olum,

Qoç Koroğlum sənə qurban,
Nədən gözdən yaş tökərsən?
Məni qoyma belə heyran,
Nədən gözdən yaş tökərsən?

Çün Koroğlu Eyvəzdən bu sözü eşitdi, ağlamağın arturdı. Dedi:

– Eyvəz, qulaq ver, gör, niyə ağlıyıram.

Məni dindirmə, Xan Eyvəz,
Bu canımdan can ayrılıb.
Ağlamaqdan budur qərəz,
Bu canımdan can ayrılıb.

Eyvəz gördü Koroğlu belə ağlır ki, dağ və daş az qalub oniylə həmavaz olsun. Pəs Koroğlunun başın qoydu dizi üstünə, dedi:

Başü-canımdan keçərəm,
Ölüm şərbətin içərəm,
Baş götürüb mən gedərəm,
Nədən gözdən yaş tökərsən?

Koroğlu çün Eyvəzdən getmax adın eşidüb, dedi:
– Eyvəz, qulaq ver, deyim ki, mən neçün ağlaram.

Aləmi vermə tufanə,
Qurbanam sən tək cananə,
Qırat gedübdür talanə,
Bu canımdan can ayrılub.

Eyvəz çün Qıratın getməgin Koroğludan eşidüb, dedi:
– Qəm eyləmə ki, əlhəmdüllah, sənün iyidlərin ölməyüb. Əgər Qıratı Məşriqə ya Məğribə aparsalar, gətirüllər.

Olum gözlərin qurbanı,
Yolunda qoymuşuq canı,
Sənsən dünyanın sultanı,
Nədən gözdən yaş tökərsən?

Koroğlu dedi:
– Eyvəz, yaxşı deyirsən, əmma belə sultanlığı neylərəm ki, bu gün düşmən mənə heyif ursun və mənim töyləmdən atımı aparsun.

Neylərəm belə dünyanı,
Əsasü şövkətü, şanı,
Gedüb Koroğlunun canı,
Bu canımdan can ayrılub.

Eyvəz gördü Koroğlu bu sözlərilən təsəlli almaz, bəlkə ağlamağın artırur, ərz eylədi:
– Qurbanın olum,

Görüm çərxün dövrü dönsün,
Düşmənün bağrı qan olsun,
Bu Eyvəzün cavan ölsun,
Nədən gözdən yaş tökərsən?

Koroğlu elə bu sözü Eyvəzdən eşidəndə qoların saldı Eyvəzün boynuna, dedi:

Tökülür didəmdən yaşı,
Ağladuram dağı-daşı,
Koroğlunun qoç qardaşı,
Bu canımdan can ayrılub.

Çün Koroğlu sözin təmam eylədi, Eyvəz çadırdan dışra gəlüb adam göndərdi təmam iyidləri yuxudan oyadub, cəm

oldular Koroğlunun başına. Gördülər Koroğlu mütəğəyyirilaəhval olub gözlərinün yaşın tökər, təmam iyidlər ərz eylədilər ki, ey Cəlali Koroğlu, məgər bizlər ölmuşux. Sən heç qəm eyləmə, öz yerində aram olub əgləş, bü gün zöhrə kimin bu səhraları bir dolanaq, bəlkə inşallah, bir asar zahir ola.

Pəs məcmui-iyidlər mükəmməl və müsəlləh olub atlarına səvar oldular və vədə qoydular ki, zöhr vəqtı təmam genə burda hazır olsunlar. Bunu deyüb hər iyid bir tərəfə rəvanə oldu və səhranı dolandılar, o cümlədən Eyvəz balı və Dəmirçioğlu və Bəlli Əhməd və Kiyimçioğlu hər dördü Van tərəfinə at salub səhranı dolanurdılar, tainki yetişdilər o dərbəndə ki, Teymur ağanın atı və mehtəri o dərədə idi. Çün Eyvəz gördü ki, iki at və bir nəfər adam o dərbənddə var, dedi:

– Bəlli Əhməd, get, gör, o adam kimdür və o atlar nə atdur?

Çün Bəlli Əhməd yetişdi, o mehtəri və o atları gətürdi Eyvəzin bərabərinə. Eyvəz gördü, bu osmanlı əhlindəndür. Xəbər aldı:

– Canım, sən kimsən və bu atlar nə atdur?

Çün mehtər bu əcəm iyidlərin gördü, daxi inkar vəqti görməyüb dedi:

– Əcəm oğlu, əgər sən aman verürsən, öz macəramı sənə deyərəm.

Eyvəz ona aman verdi. Mehtər dedi:

– Əcəm oğlu, mən Teymur ağanun mehtəriyəm, Van şəhərindən Osman Paşa yanından gəlmüşuq.

Eyvəz dedi:

– Pəs Teymur ağa hanı?

Mehtər dedi:

– Teymur ağa məni bu dərbənddə qoydu və özü mənim libaslarımı geyüb getdi Çardaqlının Çamlıbelə ki, Koroğlunun Qıratun bəlkə ələ salsun və götürsün Osman Paşaya aparsün və bir də Osman Paşanın qızı Əsmər xanım Teymur ağanın namzədidir, ona vədə eyləyüb ki, Koroğlunun başın kəsüb ona aparsun və mən bu dərbənddə onun müntəziri varam.

Pəs Eyvəz o mehtəri və o atları götürüb şad və xürrəm qayıtdı Koroğlunun xidmətinə. Koroğlu gördü Eyvəz uzaqdan

gəlür, əmma yanınca iki at və bir osmanlı cocuğu gətirür. Koroğlu daxi tab eyləməyüb Eyvəzi istiqbal eylədi. Eyvəz çün yetişdi, ərz eylədi:

– Qurbanın olum, müjdə ver mənə ki, Qıratı aparanı tapmışam.

Pəs gəldilər mənzilə. Koroğlu yüzün dutdu Teymur ağanın mehtərinə, dedi:

– Ey mehtər, doğrusun söylə görüm, Teymur ağa hanı?

Mehtər dedi:

– Cavan, valla Teymur ağa məni dərbənddə qoydu və özü gəldi ki, Koroğlunun həm atın Osman Paşaya apara, həm Koroğlunun başın kəsüb öz namzədi Əsmər xanıma apara, daxi mənim Teymur ağadan xəbərim yoxdur.

Koroğlu genə xəbər aldı:

– Ey mehtər, doğrü söylə görüm, Osman Paşanın qızı Əsmər xanım necə nazənündür və sən özün onu görübsən?

Mehtər ərz eylədi:

– Qurbanın olum, əgər mənə aman verürsən, ərz eylərəm ki, o nazənin sənəm necə cavandır.

Koroğlu dedi:

– Mehtər, sənün təqsirün yoxdur, sənə aman verirəm.

Çün mehtər aman tapdı, ərz eylədi ki, ey Cəlali Koroğlu, Əsmər xanım bir nazənindür ki, onun misli və manəndi dünyaya gəlməyüb və gəlməyəcək. Gözləri, deyirsən bəs, nərgisdür və qaşları kəman və müjganları manəndi-peykan, yanağı çün laləyi-əhmər, ağzı manəndi-püstə açılub, dodaqları çün ləli-rummani, dişləri manəndi-mirvarid düzülüb. Çahi-zənəxdanında min Yusifi–Misri məhbus olub, qaməti bəstə və sinəsi manəndi-mərmər. Çün ənar və püstanı kögnəgindən baş çıxarub. Xülasə, bir belə nazənin ruzgarun gözü görmüyüb və ətrafü-cavanibdən təmam xəlq ona müştəri oldular. Osman Paşa Teymur ağanın qorxusundan heç kəsə verə bülmədi, bəlkə cəbrən və qəhrən onu Tnymur ağaya namzəd eyləyüb ki, bu yavuq zamanda onun toyun dutub, Teymur ağaya təslim eyləyəcək. Əmma, ey Cəlali Koroğlu, o nazənin sənəmin əsla meyli Teymur ağada yoxdur. Osman Paşanun qorxusun-

dan labüddən onu qəbul eyləyib.

Koroğlu dedi:

– Ey mehtər, pəs o qızın meyli kimə var, getsün?

Mehtər dedi:

– Valla, mən ki, onun qəlbində dəgüləm, əmma hər vəqt ki, əcəm türklərinün adı gəlür, xüsusən, Koroğlunun adı gələndə, ah-nəhadindən çəküb, rəngi saralur.

Çün Koroğlu bu sözü mehtərdən eşitdi, dedi:

– Ey mehtər, əgər sənün bu sözin doğru olsa, səni dünya malından sirab eylərəm.

Pəs Cəlali Koroğlu həman saat hökm eylədi ki, bir dəst xələt o mehtərə verdilər. Çün Dəli Mehtər bu əhvalı görəndə gəldi Teymur ağanın mehtərinin yanına, dedi:

– Mən sənlən həmmənsəbəm, gərək bu xələti mənlən nisf eyləyəsən.

Koroğlu çün bunu Dəli Mehtərdən eşidüb hökm eylədi bir neçə taziyanə ona urdular. Bəd əz an Koroğlu yüzün dutdu iyidlərə, dedi:

– Cəmaət:

Səfər oldu Van şəhrinə,
Mənimilən gedən gəlsün.
Teymur ağanın üstünə,
Mənimilən gedən, gəlsün.

Görün mənim əhvalımı,
Demişəm qurban canımı,
Rumidən Əsmər xanımı,
Gətirməgə gedən, gəlsün.

Mən gedərəm nigar üstə,
Qurulun siz dəstə-dəstə,
Sizə qulluq gözüm üstə,
Mənimilən gedən, gəlsün.

Koroğlunun ixlası var,
Öz yarına vəfası var,

Əli kimin arxası var,
Mənimilən gedən, gəlsün.

Çün Eyvəz balı bu sözü Koroğludan eşidüb gördü ki, Qırat Koroğlunun bilmərə yadından çıxub, Əsmər xanımın tiri–eşqin yeyüb biixtiyar istər Van şəhərinə getsün ki, bəlkə Əsmər xanımı ələ gətürə. Yüzün çevirdi Koroğluya, dedi:

– Ey Cəlali Koroğlu,

Sənin kimin iyidlərün,
Kəmanı, yay qabı olsun.
Meydanda cövlan etməgə,
Qırat kimi atı olsun.

Düşmən mübaqil duranda,
Ox, kəmana əl uranda,
Teymuru atdan salanda,
Qırat kimi atı olsun.

Düşmən üstə sapınmağa,
Ac qürd kimi qapınmağa,
Hər tərəfə çapınmağa,
Qırat kimi atı olsun.

Eyvəz deyər, gör halımı,
Alıbsan ixtiyarımı,
Gətirsün Əsmər xanımı,
Qırat kimi atı olsun.

Çün Koroğlu bu sözü Eyvəz balıdan eşidüb genə Qıratın məhəbbəti qəlbinə düşdü, durdu gözünün yaşın tökməgə, dedi:

– Eyvəz, yaxşı deyirsən, iyidin dava günündə gərək yaxşı atı olsun, siz qalun, ta mən özüm tənha gedüm, bəlkə bir təriqlən Qıratı ələ gətirüm.

Eyvəz ərz eylədi:

– Qurbanın olum, səni qoymaram tənha gedəsən ki, Osman Paşa bir böyük padşahdur və onun ləşkəri çoxdur. Əlavə bər in, Teymur paşa kimin sərdarı var, qorxaram səni dəstgir eyləyüb həlak eyləyələr.

Koroğlu dedi:

– Pəs nə tövrlən gedək?

Eyvəz ərz eylədi ki, bən də, Dəmirçioğlu və Kiyimçioğlu və Bəlli Əhməd sənin xidmətində gedərük, bəlkə, inşallah, Qıratı və Əsmər xanımı gətürə büllük.

Pəs Cəlali Koroğlu Eyvəzün bu sözin təsdiq eyləyüb atlarunun təngin möhkəm eyləyüb səvar oldular və iyidləri vida eyləyüb yüz dutdular Van şəhərinə mənzilbəmənzil gəlməgə. Bunlar qoy burda gəlməkdə olsun, nəqli-dastan eşit Teymur ağadan ki, çün Qıratı Çamlıbeldən götürüb yola düşdü, daxi öz mehtərin xəbər eyləməyüb ki, məbadə, Koroğlu və onun iyidləri xəbərdar olub bunun dalınca gələlər və onu dutub həlak eyliyələr.

Pəs gecə və gündüz yatmayub Qıratı sürüb, tainki bir gün yetişdi Van şəhərinə. Gəldi Osman Paşanun xədmətinə və Koroğlunun Qıratın çəkdi Osman Paşanun hüzuruna. Paşa gördü, filhəqiqət, Qırat bir atdır ki, hərgiz heç padşahun töyləsində yoxdur.

Pəs Paşa mehtəri çağırub dedi:

– Apar bu atı, sərtöylədə bağla.

Teymur ağa ərz eylədi:

– Qurbanın olum, bu at Koroğlunun Qıratıdur, bunu at içində bağlamaq olmaz, ondan ötrü ki, Koroğlunun yeddi yüz yetmiş yeddi dəlisi var, gəlüb bu atı aparullar. Gərək bu atı hərəmxana həyətində bir xəlvət yerdə saxlamaq ki, heç kimsə xəbərdar olmasun və əlbəttə, Cəlali Koroğlu özü, ya adamları bu atun sorağına gəlüllər.

Pəs Osman Paşa hökm eylədi ki, Qıratı gətürdülər hərəmxanada Əsmər xanımun imarətinün altında, bir zirzəmidə bağladılar. Çün gecə oldu, Teymur ağa gəldi Əsmər xanımun mənzilinə. Əsmər xanım dedi:

– Ey Teymur ağa, bəs Koroğlunun niyə başun gətirmədün?

Teymur dedi:

– Həqiqətən, mən Koroğlunun adın eşitmişdüm, əmma özün görməmişdüm. O, bir cavandur-qəvi heykəl ki, əgər təmam aləmün şücaləri cəm ola, ona hərif olmaz.

Əsmər xanım dedi:

– Məlumdur ki, bir iyidin atı belə ola, əlbəttə, özü çox pəh-

ləvandur. Bu atı necə gətirdün?

Teymur ağa dedi:

– Xanım, mən bu atı gizlincə gətirmişəm, əmma bülirəm ki, bugün ya sabah Koroğlu özü bu atun dalınca gəlür.

Pəs o gecə Teymur ağa bir qədər Əsmər xanımun mənzilində söhbət eyləyüb, eyşü-nuşə məşğul oldu. Əmma Əsmər xanımun qəlbində özü-özünə deyirdi ki, kaş Koroğlu özü bu şəhərə gələydi, ta görəydim o necə cavandur. Əmma bu tərəfdən Cəlali Koroğlu və Eyvəz balı və Dəmirçioğlu və Kiyimçioğlu və Bəllı Əhməd mənzilbəmənzil gəlüb, ta bir gün axşam vəqti yetişdilər qəleyi-Vanın kənarına. Bir az təəmmül eyləyüb, ta gecə qaranlıq oldu, daxili-şəhr oldular. Pəs mənzildən ötrü küçələri dolanurdılar, ta yetişdilər bir qapu bərabərinə. Qapunu dögüb bir qarı çıxdı eşigə, gördü neçə nəfər atlı durub. Qarı dedi:

– Kimi istəyirsüz?

Koroğlu dedi:

– Ana, biz neçə nəfər sövdagəruq ki, yüklərimiz dalda qalub, əmma biz qabaqca gəldük ki, bəlkə bir karvansarada mənzil dutaq. Əmma bivəqt olub. Qərübux və bu şəhərə bələd dəgulux. Bizə bu gecə yer ver, ta sübh vəqti özümüzə mənzil tədarük eyləyək.

Qarı dedi:

– Cavan, yerim var, əmma özüm fəqirəm, tədarüküm yoxdur ki, sizə təam və atlara kah və cov tədarük eyləyəm.

Koroğlu dedi:

– Qarı, əlhəmdüllah, biz fəqir dəgülux, biz özümüz tədarük görrux.

Pəs qarı qapunu açub onları gətürdü öz evinə. Pəs Koroğlu bir müşt əşrəfi verüb qarıya, dedi:

– Qarı, get bizə tədarük gör.

Pəs qarı qızılları alub, onlara yaxşı tədarük görüb, gətirdü. Bəlli Əhməd ayağa durub, atları rahət eylədi və qarı həm onlara təam tədarük eyləyüb hazır eylədi. Bəd əz təam Koroğlu dedi:

– Qarı, deyillər Osman Paşanun bir damadı var ki, onun adına Teymur ağa deyəllər ki, Əsmər xanımun namzədidür

ki, Koroğlunun Qıratın gətirüb, heç xəbərün var?

Qarı dedi:

– Cavan, bir neçə gün bundan irəli Teymur ağa bir böyük at gətürdi və şəhər əhli təmam onun tamaşasına çıxdılar, əmma bülmərəm hardadur.

Pəs Koroğlu xatircəm oldu ki, Qıratı bu şəhərə gətirüblər. O gecə orda qalub. Eylə ki sübh oldu, Koroğlu ayağa durub, namazın qılub, dedi:

– Qarı, bizim atlarımız burda qalsun, ta biz gedək bir mənzil tapaq.

Pəs bir neçə əşrəfi genə qarıya verdi. Qarı dedi:

– Cavan, heç mənzil burdan yaxşı olmaz. Nə qədər ki, bu şəhərdə varsuz, gündüzlər gedün sövda və müamilə eyləyün, əmma gecələr burda mənə qonaq olun.

Koroğlu qəbul eyləyüb. Pəs qarınun evindən çıxub gəldilər bazara daxil oldular. Pəs Koroğlu bir saz aldı və bir dəst yanşaq libası aldı. Təğyiri-libas eyləyüb gəldi Vanun meydanına. Bir guşədə bir mərəkə eyləyüb, binayi-söhbət qoydu. Osmanlı cəmaəti bu türkü yanşağı görəndə başına cəm olub tamaşaya durdular. Pəs Koroğlu sazın basub bağrına, dedi:

Ey ağalar, ey qardaşlar,
Nədən nazlu yar görünməz.
Axar gözdən qanlı yaşlar,
Nədən nazlu yar görünməz.

Yetişdim qüssədən canə,
Qurbanam sən tək cananə,
Ərz eylərəm bəgə, xanə,
Nədən nazlu yar görünməz.

Çıxdım gülşən seyrinə,
Baxdım yarın deyrinə,
Baxma rəqibin meylinə,
Nədən nazlu yar görünməz.

Əgninə geyüb qırmızı,
Təngə gətirdün sən bizi,

Koroğlunun iki gözü,
Nədən nazlu yar görünməz.

Çün osmanlı cəmaəti Koroğludan bu sözü eşidüb, bir-birinə dəyüb şöhrət tapdı ki, bir türki yanşaqı gəlüb, əcəb söhbət eylər. Tainki bu xəbəri Osman Paşaya apardılar. Pəs həman saat Paşa bir neçə nəfər yengiçəri göndərib Koroğlunun yanına ki, yanşaq bu gecə bizə mehmandur. Koroğlu qəbul eyləyüb və dedi:

– İnşallah, axşam vəqti paşa xidmətinə gəlləm.

Pəs Koroğlu, iyidlər gəlüb qarınun mənzilinə, atlarına kah və cov verüb və onları rahət eyləyüb bina qoydular Paşa mənzilinə getməgə. Koroğlu dedi:

– Eyvəz və Bəlli Əhməd və Kiyimçioğlu və Dəmirçioğlu, qılıclaruzu balapum altından bağlayun, demək olmaz, məbadə, bizi tanıyub və duysunlar.

Pəs iyidlər əsbabi-cəng geyüb və Koroğlu özü həm qılıc bağlıyub sazın götürüb ta gəldilər Paşanun imarətinün qapısına. Əmma Osman Paşa hökm eylədi ki, əhli-hərəm təmamən gəlüb talarun ğürfələrində əgləşsünlər ki, yanşaq söhbət eyləyəcək.

Pəs əhli-hərəm təmam gəlüb oturdular. Əmma Əsmər xanım bir neçə nəfər kənizlən gəlüb Osman Paşanun başı üstə bir ğürfədə əgləşdi və təmam əmrat və əyan və vüzəra gəlüb hər biri bir səndəli üstünə qərar dutdular. Pəs Paşa hökm eylədi ki, yanşaqı gətürün. Qulamlardan bir nəfər gəlüb Koroğlunu və Eyvəzi və iyidləri məclisə daxil eylədi.

Koroğlu çün məclisə daxil oldu, gördü əcəb məclisi-padşahanədür ki, təmam sərdarlar və üməra və əyan əgləşüb və təmam yengiçərilər əlləri qılıc qəbzəsində, bərabərdə durublar. Əmma Teymur ağa Paşanun sağ tərəfində bir səndəl üstə qərar dutub. Koroğlu dürüst baxdı, gördü çox rəşid iyiddür. Pəs Paşa Koroğluya yer göstərüb, dedi:

– Yanşaq, cocuqlar ilə gəl bu tərəfdə əgləş.

Pəs Koroğlu və iyidlər Paşanun bərabərində əgləşdilər. Pəs təam hazır oldu. Ənva-ənva nemətələr sərf olundu. Bəd əz təam qəhvə və qəlyan gəlüb sərf olundu. Ondan sora Paşa

yüzün dutub Koroğluya, dedi:

– Yanşaq, şərab içərsən?

Koroğlu dedi:

– Paşam sağ olsun, bizlər aşıqıq, harda görmüşük şərabı?

Vəzir dedi:

– Paşa deyər şərab gətürsünlər, ta yanşaq bir neçə piyalə nuş edüb, ta dəmağ üstə gəlüb yaxşı söhbət eyləsün.

Pəs Paşa saqilər hökm eylədi ki, bir neçə piyalə şərab yanşaqa ver. Saqi piyaləni doldurub gətürdi Koroğlunun bərabərinə. İstədi piyaləni versün, Eyvəz balı əl uzadub piyaləni saqinün əlindən alub çəkdi başına. Paşa dedi:

– Yanşaq, pəs sən deyirdün biz aşıquq, şərabı harda görmüşük. Sənün cocuqlarun təmam şərabxordular.

Pəs Paşa dedi bir neçə tuluq şərab gətirdilər. Koroğlu özü və iyidləri o qədər şərab içüb ki, məsti-layəqil oldular. Bəd əz an Paşa yüzün dutub Koroğluya, dedi:

– Yanşaq, bir qədər söhbət eylə.

Pəs Koroğlu keyf aləmində sazın götürüb basdı bağrına, yüzün dutdu Paşaya, dedi:

Ey ağalar, gəlin sizə ərz edim,
Nazlu yarın sorağına gəlmişəm.
Əzəl gündən ona iqrar eylədim,
Nazlu yarun sorağına gəlmişəm.

Mən aşiqəm yarın gül camalına,
Tellərin tökübdür gül yanağına,
Canım qurban onun əl-əyağına,
Nazlu yarun sorağına gəlmişəm.

Koroğlu gördü Əsmər xanım ğürfədən baxır əmma yüzündə bir neçə xal vardur. Koroğlu bunu görəndə biixtiyar olub, dedi:

Əzəl gündən tiri-eşqin yemişəm,
Bir canım var, yara qurban demişəm,
Ağ üzündə neçə xalın sevmişəm,
Əsmər xanım sorağına gəlmişəm.

Osman Paşa elə Əsmər xanım adı eşidəndə, dedi:

– Vay anasın satdığım, bu nə sözdür deyirsən? Əsmər xanım mənim qızımdur, sən kimsən ki, onun sorağına gələsən,- dedi-cəmaət, dutun bu yanşaqı ki, biədəbanə sözlər danışur.

Vəzir ərz eylədi:

– Qurbanın olum, bu yanşaq tayfasıdur ki, şüəra gözəllər adına söz deyəllər və bu yanşaq onların sözin deyər. Qədəğən eyləruq ki, daxi Əsmər adına söz deməsün.

Vəzir dedi:

– Yanşaq, daxi Əsmər adına söz demə, özgə gözəl adına söz degilən.

Koroğlu genə yüzün dutdu Əsmər xanım olan ğürfəyə, dedi:

Koroğlu bağlıyub əhdü-peymanı,
Dönməz iqrarından tökülsə qanı,
Bü dünya fanidür, vallai, fanı,
Əsmər xanım sorağına gəlmişəm.

Paşa çün genə Əsmər xanımın adun eşidüb ğəzəbnak olub, dedi:

– Cəllad!

Pəs cəllad daxil oldu. Paşa hökm eylədi ki, apar bu yanşaqun boynun ur ki, məni məclis içində rüsva eylədi. Vəzir genə toprağa düşüb, ərz eylədi:

– Qurbanun olum, niyə qəzəbnak olursan, bu yanşaq şüəra sözin deyər, qədəğən eyləruq ki, daxi Əsmər xanım adına söz deməsün,-vəzir dedi,-yanşaq, mən sənə demədüm ki, Əsmər adına söz demə, özgə gözəl adına degilən.

Koroğlu genə sazın götürüb, dedi:

Ey ağalar, bilün, xəbərdar olun,
Van şəhrinə Koroğlu tək xan gəlüb.
Qıratını verün, yola tez salun,
Can almağa Koroğlu tək can gəlüb.

Vəzir elə bu sözü eşidəndə, büldi ki, bu yanşaq dəgül, bəlkə bu Koroğlu, ya onun iyidlərindən biridür ki, gəlüb Qıratın sorağına. Vəzir qorxdu ki, məbadə, dava ola, ayağa durdu getsün, Paşa dedi:

– Vəzir, haraya gedirsən?

Ərz eylədi:

– Qubanun olum, evdə naxoş var, gedirəm onun əhvalına yetişmağa.

Paşa dedi:

– Vəzir, otur yerə getməgilən, bu yanşaq bu gecə şərab çox içüb, keyf dutub, əcəb bihudə sölər.

Vəzir əgləşdi. Koroğlu genə dedi:

Dövtələbdür Van şəhrini almağa,
Qılıcinən şəhrə qovqa salmağa,
Gəlüb Əsmər xanımı aparmağa,
Onun üçün Koroğlu mehman gəlüb.

Paşa genə Əsmər xanımın adın eşidəndə, ğəzəbnak olub, dedi:

– Vay anasın satdığım xırsız, mən sənə demədüm, daxi mənim məclisimdə Əsmər xanımın adın aparma.

Vəzir ərz eylədi:

– Qurbanun olum, özün deyirsən ki, yanşaq çox şərab içüb, keyf aləmində bu sözləri deyir. Qoy, desün, görək sözinün axırı haraya yetişür.

Koroğlu dedi:

– Paşam sağ olsun,

Çamlıbelin həvasilən uçmağa,
Nazlı yarın incəbelin qucmağa,
Osman Paşa, Teymur ağa dutmağa,
Bu məclisə Koroğlu tək xan gəlüb.

Teymur ağa elə bunu eşidəndə, bir rəngi qızardı, istədi qılıcın çəksün Koroğlunun üstünə, vəzir dedi:

– Teymur ağa, səbr eylə ki , bu yanşaq hər nə söylər, keyf aləmində deyər, ta görək sözinün axırı nədür.

Teymur ağa sakit olub oturdu, əmma Koroğlu dönüb bir də Əsmər xanımın ğürfəsinə baxdı, gördü Əsmər xanım saçların sağdan, soldan salub, tamaşa eylər. Koroğlu dedi:

Əgnində var bir çəpgəni, darçını,
Alan olmaz ağ üzündən maçını,
Hər yanında on dörd hörük saçını,
Daramağa Koroğlu tək can gəlüb.

Çün Koroğlu sözü bura yetirdi Teymur ağa daxi tab gətir-

məyüb yüzün dutdu yengiçərilərə, dedi:

– Cəmaət, dutun bu anasın satdığım yanşağı ki, məni bu gecə məclis içində rusva eylədi.

Yengiçərilər əl qılıca Koroğlunun üstünə gəldi. Vəzir eylə bunu görəndə, durdu məclisdən qaçdı. Əmma bu tərəfdən Koroğlu yüzün dutdu Eyvəz balıya və Bəlli Əhmədə və Kiyimçioğlu və Dəmirçioğluna, dedi:

Nə durmusan, Eyvəz balım, qılıc çək,
Sənə qurban Koroğlunun bu canı.
Daxi durmaq vəqti dəgül, eylə cəng,
Sənə qurban Koroğlunun bu canı.

Qılıc urun, su yerinə qan axsun,
Osman Paşa qanı yüzünə yaxsun,
Əsmər xanım bu zərbi-dəstə baxsun,
Sizə qurban Koroğlunun bu canı.

Bəlli Əhməd, qapunun kəs qabağın,
Yerlə yeskan eylə taqi-rəvağın,
Əlvan eylə Osman Paşa otağın,
Sizə qurban Koroğlunun bu canı.

Qılıc urun, yandırın dağu-daşı,
Tökülsün Osman Paşanın göz yaşı,
Urun düşsün yerə Teymurun başı,
Sizə qurban Koroğlunun bu canı.

Çün iyidlər bu sözü Koroğludan eşidüb təmam qılıcların çəküb bina eylədilər dava eyləməgə. Koroğlu həm özü qılıc çəküb. O məclisdə bir qovğa oldu ki, ruzgarın gözü böylə dava görməmişdi. Koroğlu genə yüzün dutdu öz iyidlərinə, dedi:

Hov günüdür, qoçaqlarım, hov günü,
Qoymun çıxsun bu məclisdən Teymuru.
Şikar edün, ələ düşməz ov günü,
Qoymun çıxsun bu məclisdən Teymuru.

Yerə tökün Teymur ağanın qanın,
Çıxardun siz o nadürüstün canın,

Yerdə qoymun Qıratın intiqamın,
Qoymun çıxsun bu məclisdən Teymuru.

Nazlu yarun qabağında cəng edün,
Bu meydanı düşmənlərə təng edün,
Teymurun qanilə yeri rəng edün,
Qoymun çıxsun bu məclisdən Teymuru.

Koroğlunun qoç qardaşı, Xan Eyvəz,
Səsün ver səsimə, derəm, can Eyvəz,
Qılıc vur meydanda, eylə qan Eyvəz,
Qoymun çıxsun bu məclisdən Teymuru.

Bunu deyüb gərm dava oldu. Osman Paşa əhvalı çün belə gördü, qaçdı hərəmxanəyə, əmma Teymur ağa bir tərəfdən hey urdu yengiçərilərə ki, qoymun bu yanşağı və özü həm qılıcın çəküb girdi meydana, ta ki, yetişdi Bəlli Əhmədün bərabərinə. İstədi ki, qılıcın həvalə eyləsün, Bəlli Əhməd pişdəstlığ eyləyüb onun başında bir qılıc böylə urdu ki, başınun kasəsi iki parə olub yerə yıxıldı. Əmma bu tərəfdən Koroğlu və Eyvəz balı, Dəmirçioğlu və Kiyimçioğlu yüz qoydular yengiçərilərün üstünə. Hər tərəfdən kuştələrdən püştələr tərtib verdilər.

Əlqissə, o məclis əhli təmam ölən öldü və qaçan qaçdı. Koroğlu və iyidlər o məclisdən çıxub gəldilər qarınun mənzilinə. Əmma bu tərəfdən nəql eşit Əsmər xanımdan ki, ğürfədə oturub tamaşa eylərdi. Koroğlunun bü şücaətin və bu iyidligin görüb aşiqi-biqərar olub. Məclis bərhəm yeyəndən sora gəldi öz mənzilinə, fikr eylərdi ki, ayə, nə tör edüm ki, Koroğlunu öz mənzilimə gətürüm. Ta sübhə kimi biqərarlıq eylərdi.

Eylə ki sübh oldu, Koroğlu yüzün dutdu qarıya, dedi:

– Qarı ana, gərək gedəsən padşahın hərəmxanasında Əsmər xanumun mənzilinə, orda bir tövrilən əhvalı təhqiq eyləyəsən və xəbər gətürəsən ki, aya, Koroğlunun Qıratu hardadur.

Qarı dedi:

– Cavan, məni qoymazlar hərəmxanaya gedəm.

Koroğlu bir müşt qızıl qarıya verdi. Qarı pulu görəndə gözləri işıqlandı. Ayağa durub yavaş-yavaş gəldi Əsmər xanı-

mun mənzilinə. Gördü Əsmər xanım əgləşüb, əmma hərdəm bir ah çəkər və gözlərinün yaşın tökər. Qarı ərz eylədi:

– Xanım, sənə qurban olum, niyə ah çəkərsən və ağlarsan?

Əsmər xanım dedi:

– Qarı ana, deyillər bu şəhərə neçə nəfər əcəm cocuğu gəlüb, Koroğlunun Qıratun sorağına. Heç bülürsən olar harda mənzil eyləyüb?

Qarı gördü Əsmər xanım bunun mətləbinə yavuq danışdı, dedi:

– Xanım, beş nəfər əcəm bizdə mənzil eyləyüb, onların biri məndən xəbər aldı ki, qarı ana, heç bülürsən ki, Koroğlunun Qıratı hardadur.

Əsmər xanım eylə bu xəbəri eşidəndə bir kisə qızıl və bir neçə dəst libas qarıya verdi, dedi:

– Qarı ana, əgər mən bir kağız sənə verəm, aparursan ki o əcəm oğluna verəsən, əmma ba şərtlən ki, heç kəs bülməsün.

Qarı dedi:

– Xanım, aparram.

Pəs Əsmər xanım bir namə Cəlali Koroğluya yazdı. Bu tərəfdən ki, ey Cəlali Koroğlu, bül və agah ol ki, sənün atun Qırat mənim ayağımun altında bir zirzəmində bağlanub və mən özüm sənün adun eşitmişdim, əmma özün görməmişdüm. Mənim bu naməm sənə yetişəndə, əgər mərd-mərdanəsən, gərək məni bu şəhərdən aparasan ki, mən sənün didarüvə aşiqəm. Çün namə təmam oldu, o naməni verdi qarıya. Qarı ayağa durub naməni gətürdü Koroğlunun bərabərinə. Çün Koroğlu namənün məzmunundan xəbərdar oldu, yüzün dutub Eyvəzə, dedi:

– Eyvəz, Qıratın yerin büldüm ki, Əsmər xanımın mənzilindədür, gərək bu gecə gedək onun mənzilinə, bəlkə Qıratı ələ gətirək.

Əlhasil, o gün qaldılar qarını mənzilində. Çün axşam oldu, Bəlli Əhməd genə onları rahət eyləyüb və namazların qılub təam tənavül eyləyəndən sora Koroğlu və iyidlər əsbabi -dava geyüb mənzildən dişra gəlüb, ta gəldilər Əsmər xanımın imarətinün yanına. Koroğlu dedi:

– Eyvəz, siz burda qalun, ta mən özüm bir gedüm imarətə, görüm Qıratdan bir asar və bir xəbər tapa bülləm, ya yox.

Pəs Eyvəz və iyidlər orda qalub, Koroğlu kəmənd atub divara çıxdı. Divar üstə gördü bir ali imarətdir ki, hər tərəfdə bir məşəl nəsb olunub, əmma qabaqda bir talar var ki, o talarun içində bir təxt qoyulub və təxtün üstündə bir nazənin oturub ki, rüzgarun gözü bir belə gözəl görmüyüb və neçə nəfər kənizi-huriliqa əl-əl üstə, ayaq üstə o nazənin sənəmün bərabərində durublar, əmma gördü talarun bir tərəfində neçə kəniz müğənni əllərində saz və qaval oturub. Əmma neçə nəfər kəniz əllərində piyaleyi-şərab durub məclis əhlinə verüllər. Koroğlu ahəstə divardan enüb gəldi hovuzun bərabərində durub tamaşa eylərdi ki, nagah kənizlərdən biri eşigə çıxub gördü bir pətyarə, əlində bir saz, hovuz kənarında durub, əmma əgnində əcəm libası var. Kəniz dedi:

– Əcəm oğlu, kimsən, bu gecənin vəqti padşah hərəmxanasına daxil olmusan?

Koroğlu dedi:

– Kəniz, mən əcəm yanşağıyam.

Kəniz çün bunu eşidüb gəldi Əsmər xanımun bərabərinə, ərz eylədi:

– Xanım, bir patyarə durub hovuz kənarında, deyir mən əcəm yanşağıyam.

Əsmər xanım çün bunu eşitdi, dedi:

– Kəniz, yaxşı oldu bizim bu gecə köylümüz dutulub, o yanşağı gətirün bir qədər əcəm türkilərindən söyləsün.

Kəniz gəldi Koroğlunun bərabərinə, dedi:

– Yanşaq, səni Əsmər xanım istər ki, bu gecə ona bir qədər söhbət eyləyəsən.

Koroğlu daxil oldu talara. Qapu bərabərində durub səlam eylədi. Əsmər xanım dürüst baxanda gördü dünən gecəki, atası Osman Paşanun otağında söhbət eyləyən yanşaqdur ki, Teymur ağanı öldürdü. Pəs ona yer göstərib, Koroğlu əgləşdi. Pəs Əsmər xanım hökm eylədi ki, şərab gətirün. Bir neçə piyalə şərab Koroğluya verdilər. Koroğlunun başı badeyinabdan gərm olub damağı üstə gəldi. Əsmər xanım dedi:

– Yanşaq, bir qədər söhbət eylə ki, mənim köylüm çox dutulub.

Pəs Koroğlu ayağa durub sazın basdı bağrına, dedi:

Nazlu yardan namə gəldi yetişdi,
Mən də onun iqrarına gəlmişəm.
Ağ üzündə gözüm bir xalə düşdü,
Mən də onun şikarına gəlmişəm.

Başına qoyubdur altun araqçın,
Töküb dal gərdənə saçını çin-çin,
Mən kəbutər, o bir alıcı laçın,
Ta ki yerdən şikarına gəlmişəm.

Endireydim Çamlıbelin düzünə,
Bir doyunca baxeydim yar üzünə,
Bel bağladım Əsmər xanım sözinə,
Mən də onun iqrarına gəlmişəm.

Mənim yarım gözəllərin canıdur,
Təxt üstündə oturan sultanıdur,
Koroğlu məclisində mehmanıdur,
Mən də onun iqrarına gəlmişəm.

Çün Koroğlu sözin buraya yetirdi, Əsmər xanım utanub başın aşağa saldı və heç dinmədi. Əsmər xanımın bir dayəsi var idi, səsləndi:

– Ey yanşaq, nə bihudə sölərsən, bu nə sözdür, deyirsən?

Koroğlu çün bu sözü dayədən eşidüb genə sazın götürüb yüzün çövürdi Əsmər xanıma tərəf, dedi:

Ey ağalar, əlac edün,
Nədən Əsmər xanım dinməz?
Sınıq könlumü şad edün,
Nədən Əsmər xanım dinməz?

Sürmə çəkib qara gözə,
Salub çin-çin zülfün yüzə,
Çıxaydım yarilən düzə,
Nədən Əsmər xanım dinməz?

Mənə imdad edən yoxdur,
Köyüldə həsrətim çoxdur,
İmdi bildim, meyli yoxdur,
Əsmər xanım nədən dinməz.

Olum gözlərin qurbanı,
Yaxşı saxlalla mehmanı,
Koroğlunun şirin canı,
Əsmər xanım nədən dinməz?

Çün Koroğlu sözin təmam eylədi, Əsmər xanım başın yuxarı götürüb öz zülfündən bir tel çəküb saz əvəzinə basdı sinəsinə, səsləndi:

– Ey Cəlali Koroğlu,

Xəbər olsun iyidlərin xanına,
Əzəl gündən ona iqrar etmişəm.
Qəsəm olsun Koroğlunun canına,
Əzəl gündən ona iqrar etmişəm.

Qış fəslində bağçalarda nar olmaz,
Tərlan ovlağında daxi sar olmaz,
Əsmər xanım özgələrə yar olmaz,
Əzəl gündən ona iqrar etmişəm.

Sənsən iyidlərin sultanı, xanı,
Yolunda qoymuşam başilən canı,
Bir sözüm var, aşkar dəgül, nihanı,
Əzəl gündən ona iqrar etmişəm.

Alçaqdan, ucadan varımdur xəbər,
Eşqin odu salıb bu cana əsər,
Mənim köylüm Koroğlunu çox sevər,
Əzəl gündən ona iqrar etmişəm.

Koroğlu çün Əsmər xanımdan bu sözü eşitdi, büldü ki, Əsmər xanımun meyli ona var. Koroğlu genə sazın götürüb basdı sinəsinə, yüzün dutub Əsmər xanıma, dedi:

Görüm dualar saxlasun,
Ala gözlüm yarım, səni.

.....
Ala gözlü yarım, səni.

Düşmənlərin qan ağlasun,
Rəqiblər bağrın dağlasun,
Tanrı bəladan saxlasun,
Ala gözlü yarım, səni.

Təxt üstündən endirəydim,
Qırat üstə mindirəydim,
Çamlıbelə göndərəydim,
Ala gözlü yarım, səni.

Canıma salmısan şərər,
Ahım etməz sənə əsər,
Koroğlu qəlbindən sevər,
Ala gözlü yarım, səni.

Çün Koroğlu sözin təmamə yetirdi, Əsmər xanım biixtiyar özün təxtdən aşağa salub qolun saldı Koroğlunun boynuna və onu kəmali-ehtiramilən təxt üstündə əgləşdirüb hökm eylədi saqilərə ki, bir neçə piyalə şərab gətürüb verdilər Cəlali Koroğluya. Pəs Koroğlu piyaləni alub nuş eylədi. Bəd əz an müğənnilər saz və qaval çalub, o gecə ta sübhün tuluuna yavuq eyşüişrətə məşğul oldular. Çün sübhə yavuq oldu, Koroğlu dedi:

– Xanım, heç Qıratdan xəbərin var?

Ərz eylədi:

Bəli, o vəqtdən ki, Teymur ağa Qıratı gətirüb, mənim otağımın altında bir zirzəmində bağlayublar və mən həmişə ona mütəvəcceh olumuşam.

Pəs Koroğlu çün bu müjdəni Əsmər xanımdan eşidüb, ayağa durub gəldi Qıratun yanına və onun gözlərindən öpüb, bəd əz an gəldi otağa, dedi:

– Əsmər xanım, əlhəmdüllah, Qıratı gördüm və öz düşmənim Teymur ağanı həlak eylədüm və sənin məhəbbətüvə yetişdüm. Əgər meylün var Çamlıbelə getməgə, bismillah.

Əsmər xanım çün bu sözü Koroğludan eşidub, ərz eylədi:

– Bəli, gedərəm, əmma qorxuram ki, atam Osman Paşa xə-

bərdar olub Van ləşkərin götürüb bizim dalımızca gələ, həm səni və həm məni həlak eyləyə.

Koroğlu çün bunu eşidüb bir güldü, dedi:

– Xanım, qorxma, əgər sənün atan Osman Paşa təmam ləşkərin götürüb bizim üstümüzə gələ, Bəlli Əhməd onlarun hamusın həlak eylər.

Pəs Əsmər xanım ayağa durub bir qədər ləl-cəvahir və bir qədər qızıl və gümüş doldurdu xurcuna və bir neçə dəst faxir libas özünə və Cəlali Koroğluya götürüb, ərz eylədi:

– Bismillah, dur ayağa, gedək.

Koroğlu dedi:

– Xanım, səbr eylə, ta mən iyidləri xəbərdar edüm ki, atların zin edüb səvar olsunlar.

Pəs Cəlali Koroğlu gəldi iyidlərün yanına. Gördü imarətün divarınun yanında əgləşüblər və Koroğlunun intizarun çəkəllər. Koroğlu dedi:

– Eyvəz, daxi durmaq vəqti dəgül, durun ayağa, atları zin eyləyün ki, Qıratı və Əsmər xanımı ələ gətürmüşəm.

Pəs Eyvəz və Bəlli Əhməd və Dəmirçioğlu və Kiyimçioğlu ayağa durub gəldilər qarınun mənzilinə, atların zin edüb və bir qədər qızıl qarıya verüb, onu vida eyləyüb, səvar oldular və Koroğlunun atın həm gətirüb, ta Əsmər xanım ona səvar olsun. Çün imarətün yanına yetişdilər, bu tərəfdən Koroğlu Qıratı çəküb eşigə zin üstə qoydu və təngin yeddi yerdən möhkəm eyləyüb Əsmər xanımı ata səvar eyləyüb və özü həm Qırata səvar olub, ta yetişdilər dərvazə bərabərinə.

Gördülər dərvazanun qapısı bağlıdır. Dərvazəbanlar mane oldular ki, Paşa qadağan eyləyüb ki, gecə vəqti heç kəs qələdən xaricə getməsün. Eyvəz balı çün bu sözü dərvazəbanlardan eşidüb şeşpərilən onlarun hər ikisin həlak edüb qapunu açub yüz qoydular Çamlıbelə getməgə. Ta günün tüluuna kimi at sürdülər. Gün tülu eyləyəndə yetişdilər bir çeşmənün başına ki, yaxşı çəmən idi. Atlarından aşağı gəlüb namazisübhi qıldılar. Koroğlu dedi:

– İyidlər, mən bu gecə heç yatmamışam. Bir qədər yatıb istirahət eyləyək, bəd əz an gedək.

Əsmər xanım ərz eylədi:

– Ey Cəlali Koroğlu, yatmaq vəqti dəgül, ayağa dur, gedək ki, məbadə, atam Osman Paşa xəbərdar olub, Van ləşkərin götürüb bizim dalımızca gələ.

Koroğlu dedi:

– Mənim burda yatmaqdan məqsudim odur ki, Osman Paşa ilən dava eyləyim.

Hərçənd Əsmər xanım israr eylədi ki, dur gedək, Koroğlu qəbul eyləməyüb, yatub istirahətə məşğul oldu.

Bunlar qoy burda qalsun, əmma nəql eşit Osman Paşadan ki, çün Koroğlu Əsmər xanımı və Qıratı götürüb yola düşdü, kənizlər və qulamlar ağlaya-ağlaya gəldilər Osman Paşanun xidmətinə və onu yuxudan bidar edüb, ərz eylədilər:

– Paşa sağ olsun, nə yatmusan ki, Cəlali Koroğlu Əsmər xanımı və Qıratı götürüb yola düşdü.

Çün Osman Paşa bu sözü eşidüb aləm gözünə tirəvü-tar oldu. Həman saat ayağa durub gəldi divanxana otağına. Adam göndərüb yengiçəri ağaların ehzar edüb. Çün hazır oldular, əhvalatı onlara nəql eyləyüb, hökm eylədi ki, təmam Van ləşkərin xəbərdar edün ki, günün tüluunda gərək şəhərdən xaric olaq. Pəs yengiçəri ağaları otuz min Van ləşkərin xəbərdar edüb, təmam cəng libası geyüb atlarına səvar, günün tüluunda Osman Paşanun imarətinün yanında təbli-hazırbaş çaldılar. Əmma bu tərəfdən Osman Paşa ayağa durub bir neçə yüz qulamilən atlanub Van ləşkərin götürüb Cəlali Koroğlunun dalınca rəvanə oldu.

Bunları qoy gəlməkdə olsun, nəql eşit Əsmər xanımdan. Çün Koroğlu yatub istirahətə məşğul oldu, Əsmər xanımın qəlbi iztirab eylərdi ki, aya, mənim əhvalım necə olacaq və aya atam Osman Paşa xəbərdar olub ləşkər çəküb gələcək, ya yox. Bu fikri eylərdi ki, nagah, bir vəqt gördü təbil-kərənay səsi asimana büləND oldu.

Dürüst baxanda gördü otuz pərgari-ələm nişanə, otuz min ləşkər aşkar oldu, əmma qabaqca atası Osman Paşa və onun dalınca yengiçəri ağaları, təmam mükəmməl və müsəlləh dava əzmilən gəlüllər. Çün Əsmər xanım elə bu əhvalı görəndə

gəldi Koroğlunun başı üstə, gördü Koroğlu yatub, oturdu onun başı üstə bina eylədi Koroğlunu oyatmağa, dedi:

Nə yatmısan, qoç Koroğlu,
Dur ayağa, qoşun gəldi.
Çölü dutdu bəla səsi,
Dur ayağa, qoşun gəldi.

Qoşun gəlir dəstə-dəstə,
Neyləyim bəs, məni-xəstə,
Sözüm budur nazlu dosta,
Dur ayağa, qoşun gəldi.

Çün Əsmər xanım bu sözü dedi, Koroğlu gözlərini açub gördü Əsmər xanım oturub başı üstə, əmma gözünün yaşın tökür. Dedi:

– Əsmər xanım, niyə ağlayırsan?

Ərz eylədi:

– Ey Cəlali Koroğlu,

Çalınur təblü-nəqarə,
Sinəmi etmişəm parə,
Salullar başıma qarə,
Dur ayağa, qoşun gəldi.

Koroğlu:

– Xanım, məgər nə var ki, böylə gözün yaşın tökürsən?

Əsmər xanım dedi:

Bəla seli başdan aşdı,
Aşuban başımdan daşdı,
Osman Paşa yavuqlaşdı,
Dur ayağa, qoşun gəldi.

Koroğlu çün Osman Paşanun adın eşidüb ayağa durdu, gördü səhranı təmam qoşun dutub, təbil çala-çala gəlüllər. Həman saat Qıratun təngin yeddi yerdən çəküb möhkəm eylədi, ayaq rükabə qoyub səvar oldu. Yüzün çevirdi iyidlərə, səsləndi:

İyidlərim, durmağın vəqti keçüb,
Qılıc çəkün, meydan günü hovdu, hov.
Əsmər xanım sinəmə bir dağ çəküb,
Qılıc çəkün, meydan günü hovdu, hov.

At oynadun qılıc urun, cəng edün,
Bu ərsəni düşmənlərə təng edün,
Baş gətirdün, qeyrət edün, nəng edün,
Qılıc çəkün, meydan günü hovdu, hov.

Bəlli Əhməd, düş qoşunun sağına,
Zəlzələ sal noh fələkün tağına,
Osman Paşanı sal at qabağına,
Qılıc çəkün, meydan günü hovdu, hov.

Koroğlunun ruhu, rəvanı, Eyvəz,
İyidlərün sultanı, xanı Eyvəz,
Dəv günündə Rüstəmi-sanı, Eyvəz,
Qılıc çəkün, meydan günü hovdu, hov.

Çün iyidlər Cəlali Koroğludan bu sözin eşidüb, ayağa durub, atlarınun təngin möhkəm edüb nizələrin götürüb səvar oldular. Pəs Koroğlu Əsmər xanımı qoydu o çeşmənün başında, iyidlərilən yüz qoydu Osman Paşanun qabağına. Çün yetişdilər ləşkərin bərabərinə. Koroğlu gördü Van ləşkərinün içində yaxşı iyidlər var ki, hər biri dava günündə Rüstəm dastana bərabərdür. Pəs Koroğlu Qırata bir məhmiz çəküb qoşunun bir sağ-soluna çapdı. Bəd əz an gəlüb qoşunun bərabərində nizəsinə təkyə eyləyüb yüzün dutdu Osman Paşaya, dedi:

Səninlənəm, Osman Paşa,
Meydan günü dəv mənimdür.
Yerində dur, qıl tamaşa,
Meydan günü dəv mənimdür.

Əgri qılıc belimdədür,
Bəlli Əhməd elimdədür,
Əsmər xanım dalımdadur,
Meydan günü dəv mənimdür.

Çün Osman Paşa Əsmər xanımın adın eşidəndə qəzəbnak olub, belindən xəncəri çəküb yüz qoydu Koroğlunun tərəfinə və bang urdu qoşuna ki, cəmaət, daxi durmaq vəqti dəgül ki, bu anasın satdığım əcəm oğlu mənlə böylə biədəbanə danışur. Qoşun cəmaəti çar tərəfdən Cəlali Koroğluya həmlə eylədilər.

Koroğlu genə yüzün dutub Osman Paşaya, dedi:

Məni qorxutma ləşkərdən,
Əlindəki o xəncərdən,
Mədəd saqiyi-kövsərdən,
Meydan günü dəv mənimdür.

Koroğluyam, dəlilərin sərdarı,
Nə gəlibsən mənim üstə el caSOhYp1yViQUhYp1yaNPvO

roğlu fəthu-nüsrət eyləyüb və Qıratı və Osman Paşanun qızı Əsmər xanımı gətirür. Təmam iyidlər atlarına səvar olub yüz qoydular Koroğlunun istiqbalına. Pəs Koroğlunu təmam cəlal və şövkət və şanlan gətürüb öz mənzilində düşürdülər. Pəs Koroğlu hökm eyləyüb həman saat bir sərapərdə Əsmər xanıma bərpa eylədilər. Əsmər xanıma o sərapərdədə mənzil verdi. Bəd əz an bir məclisi-ali tərtib verüb ki, təmam iyidlər cəm olub səndəllər üstündə qərar dutub, saqilər əllərində piyalə Koroğluya və iyidlərə şərab verüb. İyidlərün başı şərabi–nabdan gərm olub keyfə məşğul oldular.

Pəs Koroğlu hökm eylədi ki, Dəli Mehtər gətirün. Çün Dəli Mehtər hazır oldu. Koroğlu dedi:

– Beş yüz taziyanə ona ursunlar ki, daxi bundan sora tövbə eyləyüb gecələr yatmasun və Qıratdan mütəvəcceh olsun.

Çün Dəli Mehtər bu hökmü Koroğludan eşidüb qaçdı girdi Eyvəz balınun dalına, dutdu ətəgindən. Pəs Eyvəz balı Koroğludan Dəli Mehtərün iltimasın eylədi, Koroğlu onu Eyvəzə bağışladı. Çün Dəli Mehtər xatircam oldu, Koroğluya baş endirüb, ərz eylədi:

– Qurbanın olum, Qıratın getməgi sənə zərər gətirməyüb. Sən heç yuxunda Əsmər xanımı görməmişdün.

Koroğlu güldü və bir dəst xələt Dəli Mehtərə verdi və Qıratı ona tapşırdı. Bəd əz an Cəlali Koroğlu hökm eylədi ki, gərək Əsmər xanımun toyu dutulsun. Pəs yeddi gün və yeddi gecə iyidlər eyşü-işrətə məşğul olub, Cəlali Koroğluya bir toy dutdular ki, rüzgarun gözü bir belə toy görməmişdi. Çün yeddi gün və yeddi gecə təmam olub, Cəlali Koroğlunu apardılar Əsmər xanımun otağına. Onlar bir-birindən kami-dil hasil eyləyüb, eylə ki sübh oldu, Cəlali Koroğlu gəlüb divanxana çadırında əgləşdi və hökm eylədi ki, təmam iyidlər cəm olub. Pəs iyidlərün hər birinün öz payəsinə görə xələt verdi. Ondan sora onları mürəxxəs eylədi ki, hər biri gedüb öz mənzilində aram oldular.

KOROĞLUNUN ALTINCI MƏCLİSİ

Eyvəzin Əhməd Paşanın qızı Şərəf xanımın ardınca Hələb şəhərinə getməsi. Koroğlunun Eyvəzin dalınca gedib Əhməd Paşa ilə davası və onu məğlub etməsi.

Raviyanı-əxbar və naqilani-asar böylə rəvayət eyləyüb ki, Cəlali Koroğlu Çardaqlınun Çamlıbeldə məkan dutub əgləşmişdi və neçə nəfər məmləkətlərə göndərmişdi ki, hər vilayətdə və hər şəhərdə bir qəribə şey görsələr, gəlüb Cəlali Koroğluya xəbər versünlər. O casuslardan birisinün adına Xacə Yəqub derdilər. Həman Xacə Rum vilayətlərin dolanırdı. Ta inki onun güzarı Rum vilayətində Hələb şəhərinə düşdü. Bir neçə gün o şəhərdə qalub küçə və bazarı dolanurdı, bəlkə bir qəribə şey ələ gətürüb Cəlali Koroğluya xəbər aparsun və o şəhərün bir paşası var idi ki, onun adına Əhməd Paşa deyərdilər ki, çox sahibi-cəlal və sahibi-şövkət və sahibi-ləşkər idi və o paşanun pərdeyi-ismətdə bir qızı var idi ki, onun adına mələkeyi– afaq Şərəf xanım deyərdilər. Və o Şərəf xanımun gözəlliyinin şöhrəti təmam Rum vilayətlərin dutmuşdu. Və hər vilayətdən Rum paşalarınun oğlanları onu xastkarlıx edüb, Əhməd Paşa onlara verməyüb. Bir qardaşı oğlu var idi ki, adına İsa ağa deyərdilər və onun evi Hüma şəhərində olurdu, Şərəf xanımı ona namzəd eyləmişdi. Əlhasil, Xacə Yəqub deyir:

– Mən Hələb şəhərində bir gün dolanurdum, gördüm fərraşlar və qulamlar və yengiçərilər əhli–bazarı uru–ura bazardan kənarə çıxardullar. Xəbər aldum:

– Cəmaət, məgər nə var ki, xəlqi böylə urallar?

Dedilər ki, Əhməd Paşanun qızı Şərəf xanım bağ seyrinə gedər və onun yolu bazardandur. Ondan ötrü xəlqi bazardan kənara çıxardullar.

Xacə Yəqub deyir, mən genə xəbər aldum ki, hansı bağa gedər?

Dedilər:

– Nigaristan bağına.

Xacə deyir, mən onlardan qabaq özümü yetürdüm həman

bağa, bu qəsdilən, bəlkə Şərəf xanımı o bağda görəm ki, o necə gözəldür. Çün yetişdüm bağa, bağbandan xəlvət içəri daxil olub, bir gül ağacının yanında oturdum. Bir vəqt nə gördüm ki, bağ içində hay-huy gəlür. Dürüst baxanda gördüm bir neçə nəfər kəniz qabaqca düşüb, onlarun dalınca Şərəf xanım gəlür. Əmma necə Şərəf xanım ki, rüzgarın gözü bir böylə gözəl görməyüb ki, onun cəmali gözü xirə eylərdi. Səyahət eyləyə– eyləyə gəlüb həman gül ağacının yanına ki, mən orda xəlvət edüb oturmuşdum. Məni gördü ki, əcəm libası əynimdə, oturmuşam, xəbər aldı:

– Ay əcəm oğlu, burda niyə oturmusan? Məgər bülmədün ki, Əhməd Paşanın qızı Şərəf xanım bu bağa seyrə gəlüb?

Xacə deyir, mən ərz eylədüm ki, xanım, mən qəribəm, bura əhlindən dəgüləm və bülməzdüm ki, Paşanın qızı seyrə gələcək.

Şərəf xanım xəbər aldı:

– Əcəm, nəkarəsən və hansı şəhrün əhlindənsən?

Xacə ərz eylədi:

– Xanım, sövdagərəm, adıma Xacə Yəqub diyəllər və Çamlıbeldən gəlmişəm.

Çün Şərəf xanım Çamlıbel adın eşidəndə, dedi:

– Kənizələr bu xacə(yi) gətürün talarə ki, bir neçə əhval bu xacədən xəbər alum.

Pəs kənizlərdən biri məni gətürdi bağ arasında bir talara əgləşdürdi. Ta zöhr vəqti olunca, Şərəf xanım bağda seyr edüb dolanurdı. Çün zöhr vəqti oldı, təşrif gətürdi talarə. Mən əyağə durub səlam eylədüm. Pəs mənə yer göstərüb əgləşdürdi. Bəd əz an təam gətürdilər. Ənvai-əqsami-nemətlər sərf olundi. Ondan sora büsati-şərab qurulub saqilər əllərində piyaleyi-şərab məclisdə olan qızlara verürdilər. Ta bir neçə piyalə mənə təarüf eylədilər. Mən alub nuş eylədüm. Ondan sora [illegible]

ki, onlar çox pürqiymətdür, hənuz müştəri yoxdur ki, onları füruş eyləyim.

Şərəf xanım dedi:

– Xacə, onları ver mənə ki, məndən yaxşı müştəri tapmazsan.

Pəs mən əyağə durub o cəvahirləri ədəb ilən gətürdüm Şərəf xanımun bərabərində dutdum. Şərəf xanım baxdı gördü yaxşı ləldür, çox təhsin eyləyüb, dedi:

– Xacə, bunlarun qiyməti neçədür?

Mən ərz eylədüm:

– Xanım, bunları sənə peşkəş eylədüm.

Şərəf xanım dedi:

– Xacə, sən bir kasıb adamsan və bu ləllər çox pürqiymətdür. Mən qəbul eyləmərəm. Məgərinki qiyamətin deyərsən.

Pəs mən labüddən onların qiymətin ərz eylədüm. Həman saat Şərəf xanım hökm eylədi, pul gətürdilər. Onlarun qiymətin nəqd verdi və yüz tümən pul mənə təarüf verdi. Bəd əz an Şərəf xanım xəbər aldı:

– Xacə Yəqub, Çamlıbeldə Koroğlunu tanursan?

Ərz eylədim:

– Bəli, tanuram.

Dedi:

– Cəlali Koroğlu necə iyiddür?

Mən ərz eylədim:

– Xanım ki, çox şüca və dilavər və rəşid iyiddür ki, təmami-vilayətlərün iyidləri ona zirdəst olub tabe olublar. O cümlədən, Bolı sərdar və Mustafa bəg və Reyhan Ərəb və Bəlli Əhməd və Dəmirçioğlu Telli Həsən ki, bunlarun hər biri bir rəşid pəhləvandur, ona itaət eyləllər.

Şərəf xanım genə xəbər aldı:

– Xacə Yəqub, eşitmişəm ki, Cəlali Koroğlunun bir Eyvəz adlu (dəlisi) var, o nəkarədür?

Mən ərz eylədim:

– Xanım, Eyvəz Reyhan Ərəbin bacısı oğludur ki, Cəlali Koroğlu onu özünə qardaşlığa götürüb və çox rəşiddür və yeddi yüz yetmiş yeddi nəfər dəli təmam Eyvəzə itaət eyləllər və Cəlali Koroğlu onu çox istər və onu gözündən kənara qoymaz.

Şərəf xanım genə xəbər aldı:

– Xacə Yəqub, eşitmişəm ki, Eyvəz çox gözəldür.

Xacə ərz eylədi:

– Xanım, Eyvəzün gözəlliyi vəsfə gəlməz ki, onu tərif eyləmək olsun. Təmami-miləlün gözəllərin əgər bir yerə yığsan, heç biri Eyvəzə müqabil olmaz.

Şərəf xanım dedi:

– Xacə, Eyvəz övrət alub, ya yox?

Xacə dedi:

– Xanım, hənuz övrət almayub.

Şərəf xanım dedi:

– Xacə, əgər sənə bir əmanət verəm, aparub Eyvəzə verürsən?

Ərz eylədim:

– Bəli, aparram.

Pəs o gecə Şərəf xanım bağda qalub, adam göndərüb şəhərdən bir nəqqaş gətürdü və o nəqqaşa hökm eylədi ki, mənim surətimi böylə çəkərsən ki, əsla təğyiri-təbdil olmasun. Pəs nəqqaş onun surətin çəkdi. Nəqqaşı mürəxxəs eyləyüb həman surəti verdi mənə və bir qədər pul mənə təarüf verüb, dedi:

– Xacə, gərək bu surəti aparasan, Çamlıbeldə Cəlali Koroğluya, ya Eyvəzə verəsən ki, mən Eyvəzi ixtiyar eylədüm. Əgər onlar iyiddülər, gərək hər vəzilən olsa, məni Hələbdən çıxardub Çamlıbelə aparalar.

Pəs Xacə Yəqub surəti alub sübh vəqti Şərəf xanımdan mürəxxəs olub, yüz qoyub Çamlıbelə, mənzilbəmənzil gəlməkdə olsun, əmma nəql eşit Cəlali Koroğludan ki, Çamlıbeldə, yeddi yüz yetmiş yeddi dəli başında gündüzlər şikarə gedərdi və gecələr məclis arastə eyləyüb eyşü-nuşə məşğul olurdi. Ta inki bugün genə məclis arəstə edüb iyidləriylən belə söhbətə məşğul idi ki, Xacə Yəqub pərdəni götürüb içəri daxil oldı. Salam verüb, baş endirüb əl əl üstə qoyüb durdu bərabərdə. Cəlali Koroğlu çün Xacə Yəqubi gördü, ona yer göstərdi. Xacə əyləşdi. Bir neçə saatdan sora Koroğlu xəbər aldı:

– Xacə, haraya getmişdün ki, bu müddəti görünməzdün?

Xacə Yəqub ərz eylədi:

– Qurbanun olum, Rum vilayətlərin dolanurdum, ta Hələb

şəhərinə getdüm.

Cəlali Koroğlu xəbər aldı:

– Xacə, Rum vilayətlərində qəribə şey nə gördün, nəql eylə.

Xacə çün bunu eşidüb əyağə durdu, Şərəf xanımın surətin qoydu Cəlali Koroğlunun bərabərinə. Koroğlu surəti açub baxanda gördi bir surətdür ki, onun mislin xudavəndi-aləm xəlq eyləməyüb. Eyvəz durmuşdi Koroğlunun başı üstündə. Bu surəti görəndə bir könüldən min könülə aşiq oldu. Koroğlu xəbər aldı:

– Xacə Yəqub, bu surət kimün surətidür?

Xacə ərz eylədi:

– Qurbanın olum, bu surət Hələbdə Əhməd Paşanun qızı Şərəf xanımun surətidür ki, Eyvəzə aşiq olub və bu surəti nəqqaşə verüb çəkdi və onun sənin xidmətinə göndərüb sifariş eylədi ki, əgər Cəlali Koroğlu iyiddür, gərək məni Hələb şəhərindən çıxardub Çamlıbelə apara.

Eyvəz elə Xacə Yəqubdan bu sözü eşidəndə biixtiyar olub oturdu yerə. Pəs Cəlali Koroğlu bir piyalə şərab istəyüb, saqi bir piyalə şərab verdi Koroğluya. Koroğlu piyaləni əlində dutub yüzin dutdu iyidlərə, dedi:

– Cəmaət, bir nəfər iyid istərəm ki, əyağa durub bu piyaləni mənim əlimdən alub nuş eyləsün və getsin Hələb şəhərinə Şərəf xanımı gətürsün.

İyidlər başlarun aşağa salub, heç kimsədən cavab gəlmədi. Pəs Eyvəz əyağə durub gəldi Koroğlunun bərabərinə, istədi piyaləni alsun. Koroğlu qəzəbnak olub piyaləni çaldı yerə. Eyvəz qayıdub öz yerində oturdu. Bir saatdan sonra genə şərab istəyüb, bir piyalə şərab əlində dutub, səda eylədi:

– Cəmaət,bir nəfər iyid istərəm ki, əyağa durub bu piyaləni mənim əlimdən alub Hələb şəhərinə getsün.

İyidlər genə başun aşağa salub, heç kəsdən səs gəlmədi.

Genə Eyvəz əyağə durub gəldi Koroğlunun bərabərinə. İstədi piyaləni alsun. Koroğlu qəzəbnak olub piyaləni çaldı yerə. Pəs Koroğlu üçümcü dəfə genə piyaləni dutub əlində yüzün dutdu məclisə, dedi:

– Cəmaət, bir nəfər dilavər istərəm əyağa dursun və getsün Hələbdən Şərəf xanımı gətirsün.

Dəmirçioğlu Telli Həsən istədi ayağa dursun, Eyvəz genə pişdəstlığ edüb gəldi Cəlali (Kor)oğlunun bərabərinə. Ərz eylədi ki, qurbanın olum, bu xidmət mənimdür, iydlərə zəhmət vermə.

Koroğlu dedi:

– Eyvəz, sən cavansan. Qürbət vilayət və dava görməyübsən. Əyləş yerində, özgə adam göndərrəm və ya özüm gedərəm.

Eyvəz ərz eylədi:

– Qurbanun olum, əgər yeddi yüz yetmiş yeddi dəli təmam ayağa durub Hələbə getsələr, razı olmaram. Məgərinki gərək özüm bu səfərə gedəm.

Cəlali Koroğlu hərçi səy elədi ki, Eyvəzi sakit eyləsün, Eyvəz durdu gözünün yaşın tökməyə. Cəlali Koroğlu dedi:

– Qoy Dəmirçioğlu Teli Həsən və Bəlli Əhməd sənilən belə getsünlər ki, onlar dava görüb və qürbət çəküblər.

Eyvəz ərz eylədi ki, heç kəsə zəhmət vermənəm ki, bu xidmət mənimdür və əgər məni mürəxxəs eyləməyəsən, özümü həlak eylərəm.

Cəlali Koroğlu dedi:

– Eyvəz, sən getmə, mən özüm gedərəm, hər vəzilən olsa, Şərəf xanımı gətürrəm.

Eyvəz elə bunu Koroğludan eşidəndə əl uzadub yerdən sazun götürüb basdı sinəsinə, yüzin dutub Koroğluya, dedi:

Ay ağalar, genə mail olmuşam,
Alagözlü, qələm qaşlu cəvanə.
Nagah yerdən belə valeh olmuşam,
Eşqi məni gətürübdür cəzanə.

Nazlu yarun kuyinə bel bağlaram,
Bu sinəmi çalı–çarpaz dağlaram,
Gecə-gündüz yardan ötrü ağlaram,
Eşqi məni eyləyübdür divanə.

Düzülübdür müjganları, səf-səfdür,
Cavan ömrüm yardan ötrü tələfdür,
İstədigim ala gözlü Şərəfdür,
Surətini göndərübdür nişanə.

Bahar fəsli dağlar laləzar olur,
Güllər açar, bağçalarda nar olur,
Xan Eyvəzün işi ahü-zar olur,
Məcnun kibi baş götürür hər yanə.

Cəlali Koroğlu çün Eyvəzdən bu sözü eşidüb büldü ki, Eyvəz Şərəf xanımun surətinə aşiq olub, heç vəzilən sakit olmaz, bina qoydu Eyvəzi qorxutmağa. Dedi:

– Eyvəz, gedərsən, qürbət vilayət, qorxuram səni dutalar və həlak eyliyələr. Sən hələ cəvansan, dava görməyübsən, məbadə, düşmənlərə rast gələsən.

Qərib iyid yad ölkəyə varanda,
Onun içün kömək edən tapulmaz.
Düşmənilən bir meydana girəndə,
Onun içün kömək edən tapulmaz.

Uymagilən hər namərdün dilinə,
Baxmagilən düşmələrin felinə,
Öz-özüvi salma Hələb çölinə,
Sənün içün kömək edən tapülmaz.

Nizam ilən qoşun səflər quranda,
Halay-halay, dəstə-dəstə duranda,
Dörd bir yandan, beş bir yandan uranda,
Sənün içün kömək edən tapulmaz.

Koroğlunun eşitgilən sözlərin,
İyidlərün qoyma yolda gözlərin,
Gəzməgilən Şamü-Hələb düzlərin,
Sənün içün kömək edən tapulmaz.

Çün Koroğlu sözin təmam eylədi, Eyvəz dedi:

– Qurbanun olum, məni düşməndən qorxudursan? Mənim dayım Reyhan Ərəbdür ki, təmam pəhləvanlar və iyidlər onu tanullar ki, necə rəşid iyiddür və mən özüm müddətidür ki, sənün xidmətində davanın təmam rahi-rəsmin örgənmişəm. Sən məndən heç ehtiyat eyləmə. İnşallah, gedərəm və bu xidməti yerinə yetürrəm.

Koroğlu gördü Eyvəz bu sözlərə heç qulaq verməz. Şərəf xanımın eşqi onu belə məst eyləyib ki, əgər aləm Eyvəzə nəsihət verə və onu bu səfərdən mən eyləyə, qəbul eyləməyəcək. Koroğlu dedi:

– Eyvəz, mən eşimişəm ki, Əhməd Paşa bir qəhhar padşahdur və onun qoşunu və cəmiyyəti çoxdur. Məbadə, gedüb ələ düşəsən. Ta mənim xəbərim olunca, səni tələf eyliyələr.

Eyvəz gördü Koroğlu mane olub, istər onu qoymuya. Eyvəz genə sazın götürüb yüzün çövürüb Koroğluya, dedi:

Ay ağalar, bilün, xəbərdar olun,
Nazlu yarun görməyinə gedirəm.
Görün tədarükün, yola tez salun,
Nazlu yarın görməyinə gedərəm.

Koroğlu gördü Eyvəz elə getməkdən deyir, dedi:

– Eyvəz, sən bir tək iyidsən, əmma Hələbün qoşunu çoxdur, səni dutallar.

Eyvəz dedi:

Qoşun gəlsə, hər tərəfdən üstümə,
Keçürdürəm kamanımı dəstimə,
Xatircəməm öz zoruma, şəstimə,
Nazlu yarun görməyinə gedərəm.

Koroğlu dedi:

– Eyvəz, sən cahılsan, qərib ölkədə bir nəfər tanıyanun yoxdur. Səbr eylə, mən gedərəm, Şərəf xanımı gətirrəm.

Eyvəz ərz eylədi:

– İyidün cövhəri olsa, qürbətdə yaxşı işlər görər.

Qürbət açar iyidlərün cövhərin,
Tacir olan gərək sata gövhərin,
Tarımar eylərəm Hələb ləşkərin,
Nazlu yarun görməyinə gedərəm.

Halay gəlüb yetib dəstə qurulsa,
Düşmənlərün ələmləri açılsa,
Eyvəz deyər, əgər boynum urulsa,
Nazlu yarun görməyinə gedərəm.

Koroğlu gördü mümkün dəgil Eyvəzi sakit eyləsün, pəs

labüd qalub, dedi:

– Eyvəz, ixtiyarun var, əgər gedirsən, get.

Əmma bu tərəfdən Eyvəz çün Koroğludan mürəxxəslığ hasil eylədi, gəldi öz çadırına. Dava libasın geyüb və dört geyim çarayinə libasların üstündən geyüb qılıcın bağladı və atın zin edüb yeddi yerdən təngin möhkəm eyləyüb, səvar oldu ata.

Bu tərəfdən Cəlal(i) Koroğlu hökm eylədi, Dəli Mehtər Qıratı zin edüb təmam iyidlər atlanub ta dört ağac yol Eyvəzi yola saldılar. Eyvəz ərz eylədi ki, qurbanun olum, bundan artuq zəhmət çəkmə, qayıdun, öz mənzilüvüzdə aram olun.

Pəs Cəlali Koroğlu və iyidlər ağlıya-ağlıya Eyvəzi vida edüb. Eyvəz Hələb yolın dutub mənzilbəmənzil getməkdə olsun, əmma nəqli-dastan eşit Cəlali Koroğludan.

Çün Eyvəzi yola saldı, qayıdub Çamlıbelə Bəlli Əhmədi göndərdi Reyhan Ərəbün dalınca və Dəmirçioğlu Telli Həsəni göndərdi Gaziroğlu Mustafa bəgün dalınca ki, onları təcili-təmamilən Çamlıbelə gətürsünlər. Beş gündən sora Gaziroğlu Mustafa bəg və Reyhan Ərəb Çamlıbeldə hazır oldular. Çün Koroğlunun məclisinə daxil oldular, gördülər Cəlali Koroğlu gözünün yaşın töküb ağlar. Mustafa bəg və Reyhan Ərəb ərz eylədilər ki, ey Cəlali Koroğlu, niyə belə ağlarsan?

Koroğlu elə bunu eşidəndə sazın götürüb yüzin dutdu bunlara, dedi:

Ay ağalar, nə durmusuz, baxarsuz,
Ala gözlü Xan Eyvəzim görünməz.
Qəm oduna cigərimi yaxarsuz,
Ala gözlü Xan Eyvəzim görünməz.

Mustafa bəg elə bu sözü Koroğludan eşidəndə dedi:

– Məgər Eyvəzə nə olub ki,sən belə ağlarsan?

Koroğlu dedi:

– Eyvəz bu gün beş gündür gedib Hələbə, Əhməd Paşanun qızı Şərəf xanımı gətirməyə.

Mustafa bəg dedi:

– Ey Cəlali Koroğlu, məgər bizlər ölmüşux, sən belə ağlarsan? İmdi iyidləri götürüb gedərəm Eyvəzün dalınca.

Koroğlu dedi:

Mustafa bəg, zəlzələ sal yerlərə,
Xəbər eylə Çamlıbeldə ellərə,
Qurban ollam sizün kimi bəylərə,
Ala gözlü Xan Eyvəzim görünməz.

Pəs Koroğlu yüzin dutub Reyhan Ərəbə, dedi:

Reyhan Ərəb, durma, götür qoşunu,
Bəlli Əhməd, sən kəs dəstə başını,
Yerə salın taxtdan Əhməd Paşanı,
Ala gözlü Xan Eyvəzim görünməz.

İyidlərim, təmam qılıc bağlıyun,
Düşmənlərün cigərini dağlıyun,
Koroğlunun əhvalına ağlıyun,
Ala gözlü Xan Eyvəzim görünməz.

Çün Koroğlu sözin təmam eylədi, bina qoydu ağlamağa. Pəs Mustafa bəg və Reyhan Ərəb və təmam iyidlər ona təsəlli verüb, dedilər:

– Niyə ağlarsan? Əvvəla, bizlər ölməmişüğ ki, Eyvəzə düşmənlər əl tapa və saniyən hənuz Eyvəz beş gündür ki, Çamlıbeldən çıxub və Hələb şəhərinə yetişməyüb. Sən xatircəm ol ki, təmam iyidlər ilən belə sübh vəqti atlanub Eyvəzin dalınca gedəruğ.

Koroğlu çün bunu eşitdi, bir az təsəlli tapdı. Pəs o gecə Cəlali Koroğlu bir məclis arastə eylədi. təmam iyidlər və Mustəfa bəg və Reyhan Ərəb o məclisdə hazır olub səndəllər üstündə qərar dutdular. Bəd əz təam saqilər piyalə gəzdürməgə məşğul olub və müğənnilər rəqs eyləyüb ki, huş əhli-məclisin başından çıxub, məsti-layəqil hər biri bir yanda yıxılub özləriçün keyfə məşğul oldular. Ta illa sübh iyidlərün başı şərabi-nabdən gərm olub. Pəs sübh vəqti əyağa durub namazlarin qılub yeddi yüz yetmiş yeddi dəli təmam atlarınun təngin möhkəm edüb və Cəlali Koroğlunun Qıratın sərtöylədən çıxarub zin eylədilər.

Bu tərəfdən Mustafa bəg dört yüz atlusına hökm eylədi ki, təmam dava libası geyüb atlarının təngin möhkəm eylədilər. Əmma bu tərəfdən Reyhan Ərəb iki yüz atlusına hökm eylədi, Ağcaquzunun təngin möhkəm eylədilər.

Pəs Cəlali Koroğlu “bismillahir-rəhmanir-rəhim” deyüb Qırata səvar oldu. Pəs təmam iyidlər və Mustafa bəg və Reyhan Ərəb atlarına səvar olub, Çamlıbeldə çıxub yüz qoydular Eyvəzün dalınca Hələb şəhərinə getməyə. Əmma bunları qoy getməgdə olsun, nəql eşit Eyvəzdən.

Çün Koroğlunu vida edüb yola düşdi, Şərəf xanımın eşqi ilən gecə və gündüz yatmayub iki mənzili bir mənzilə gedərdi. Ta inki bir neçə gündən sora özün yetirdi Hələb dərvazəsinün bərabərinə. Çün şəhərə daxil oldu. Küçələri dolanurdı ki, bəlkə özünə bir mənzil tapsun. Əmma əhli-Hələb Eyvəzi görəndə onun camalına tamaşa eylərdilər və deyərdilər ki, xudavəndi-aləm bu cavanı qərib gözəl yaradub. Pəs Eyvəz at üstündə gəzə-gəzə gəldi bir səbzifüruşun dükkanınun bərabərinə. Gördü bir qoca kişidür, dedi:

– Qoca, qonaq istərsən?

Qoca gördü bir cavan durub at üstündə , əmma qəribə gözəldür, dedi:

– Cavan, hardan gəlürsən?

Eyvəz dedi:

Əcəm vilayətindən gəlürəm. Qəribəm, mənzilim yoxdur, bir neçə gün bu şəhərdə qalacağam.

Qoca Eyvəzi gətürdi evinə, atın çəküb bağladı və özünə bir qədər təam gətürdi. Dedi:

– Cavan, təam tənavül eylə və ondan sora istirahətə məşğul ol, ta mən gedüm dükkanıma axşam vəqti gəlürəm.

Pəs qoca gedüb, Eyvəz bir qədər təam tənavül eylədi. Çün neçə gün və neçə gecə yatmamışdı, bir qədər yatub istirahətə məşğul oldu. Axşam vəqti qoca gəlüb, namazların qılub təam tənavül eyləyəndən sora qoca yüzin dutdu Eyvəzə, dedi:

– Cavan, adun nədür?

Dedi:

– Mənim adıma Eyvəz deyəllər.

Dedi:

– Bu şəhərə niyə gəlübsən?

Eyvəz dedi:

– Qoca, sövdagərəm.

Qoca dedi:

– Cavan, yalan demə, sövdagər gedər karvansarada mənzil eylər, gəlüb evlərdə mənzil eyləməz. Əlbəttə, sən bu şəhərə bir mətləbə gəlübsən.

Eyvəz dedi:

– Qoca, mənim bu şəhərə gəlməkdən bir mətləbim var, əmma qorxaram aşkar eyləyəm.

Qoca and içdi, dedi:

– Cavan, mən bu şəhərün əhlindən dəgüləm. Bil ki, mən həm əcəm əhlindənəm. Bir qədər qərzdar oldum. O cəhətə cəlayi-vətən olub, müddətdür gəlüb bu şəhərdə övrət almışam və kəsb eylərəm.

Eyvəz dedi:

– Qoca, Cəlali Koroğlunu görmüsən?

Qoca dedi:

– Cavan, görməmişəm, əmma eşitmişəm ki, çox qeyrətli iyiddür.

Eyvəz dedi:

– Qoca, Reyhan Ərəbi görmüsən?

Qoca dedi:

– Bəli, cavan, görmüşəm. Yaxşı pəhləvan iyiddür.

Eyvəz dedi:

– Qoca, mən Reyhan Ərəbün həmşirəzadəsiyəm və Cəlali Koroğlunun qardaşıyam. Əmma bir mətləbə gəlmişəm bu şəhərə. Çün qürbət vilayətdür, bülmərəm, o mətləbim rəva olacaq, ya yox.

Qoca dedi:

– Cavan, qorxma məndən, inşallah, zərər gəlməz, mətləbün de. Əgər mənim əlimdən gəlsə, müzayiqə eyləmərəm və mən Reyhan Ərəbin nanü-naməkin çox yemişəm. Ona və onun adamlarına xəyanət eyləmərəm.

Eyvəz dedi:

– Qoca, doğrusu, Əhməd Paşanun qızı Şərəf xanıma aşiq olmuşam. Gəlmişəm onu bir vəzilən Çamlıbelə, Koroğlunun paytəxtinə aparam.

Qoca dedi:

– Eyvəz, sən Əhməd Paşanun qızını harda görmüsən?

Eyvəz dedi:

– Qoca, Şərəf xanım özi öz surətini mənə göndərüb. Necə ki, mən ona aşiqəm, o da mənim camalıma aşüqdür.

Qoca dedi:

– Eyvəz, əgər belə olsa, yaxşıdur. Şərəf xanım indi qaladan xaricdə, Nigaristan bağında mənzil eyləyüb oturub. O bağın bağbanı mənim rəfiqimdür. Sabah səni o bağbana tapşurram ki, səni xəlvəti o bağa aparsun. Bəlkə bir vəzilən Şərəf xanımı bağda görəsən.

Eyvəz çün bu sözü qocadan eşitdi, qocanın əlindən öpüb bəd əz an yüz əşrəfi nəqd qocaya təarüf eylədi və dedi:

– Qoca, əgər mənim mətləbimi rəva eyləyəsən, səni dünya malından sirab eylərəm.

Qoca çün yüz əşrəfini gördü, gözləri işıqlandı, dedi:

– Cavan, inşallah, sabah səni Şərəf xanımun xidmətinə yetürrəm.

Pəs Eyvəz o gecə sübhə kimin bu müjdənin səbəbinə yatmayub. Eylə ki, sübh oldu, namazın qılub qocanın müntəziri idi. Qoca daxil oldu, Eyvəz ayağa durub qocaya salam verdi. Qoca Eyvəzi götürüb yavaş-yavaş darvazadan çıxub yüz qoydular Nigaristan bağına tərəf getməyə. Çün yetişdilər bağun qapusinə, qoca dedi:

– Eyvəz, sən qapuda dur, ta mən bağbanı tapum.

Çün qoca bağbanı tapdı, gətürdi Eyvəzün yanına. Qoca dedi:

– Bağban, bir cavan mənə qonaqdur və bir qərib cavandur. Bu cavanı sənə tapşurıram ki, bu bağda dolansun, qəribdür, göylü açılsun.

Pəs bağban qəbul eyləyüb, qoca qayıtdı dükkanına. Bağban Eyvəzi götürüb bağa daxil oldu. Fərraşlar dedilər:

– Bağban, bu cavan kimdür ki, hərəm bağına gətürübsən?

Bağban dedi:

– Bu, mənim oğlumdur ki, neçə müddətdür İran vilayətinə getmişdi, indi gəlüb.

Fərraşlar dedilər:

– Bağban, bu cavan əcəm libası geyüb, əcəm oğluna bənzər.

Bağban dedi:

– Bəli, çün İrana getmişdi, əcəm libası geyübdür.

Xülasə, fərraşlar bağbana görə mane olmayub, Eyvəz bağbanlan belə bağda dolanurdı. Ta inki bağban dedi:

– Cavan, sən burda otur, ta mən gedüb bir qədər təam gətürüm.

Bağban getdi təam gətürməyə, Eyvəz ayağa durub yavaş-yavaş gəldi Şərəf xanım olan talarun dalında bir gülzar yerdə əyləşüb, sazın çıxardub yavaş-yavaş öz-özünə durdu oxumağa. Bir qədər keçüb bir kəniz gəldi. Eyvəz olan gülzara ki, bir neçə dəstə gül dərsün. Gördü saz səsi və oxumaq səsi gəlür. Yavaş-yavaş gəldi, gördü bir əcəm oğlu oturub gülzar içində saz çalır və oxuyır. Əmma bir cavandur ki, bu gözəllikdə iyid rüzgarun gözü görməyüb. Kəniz bir könüldən min könülə Eyvəzə aşiqi-biqərar oldu. Qayıtdı gəldi Şərəf xanımun xidmətinə. Ərz eylədi:

– Xanım, bir əcəm oğlu yanşaq gülzar içində saz çalır və oxur, əmma belə gözəl cavan heç kəs görməyüb.

Şərəf xanım dedi:

– Kəniz, məndən gözəldür?

Kəniz dedi:

– Xanım, valla, sən ona qaravaş ola bilməzsən.

Şərəf xanım dedi:

– Kənizlər, urun bu çəpəli ki, bir əcəm oğlun bu qədər tərif eylər və deyər səndən gözəldür.

Kəniz dedi:

– Xanım, qoy mən o cavanı gətürüm, əgər sən özün iqrar eylədün ki, səndən gözəldür, məni o cavana ver. Əgər iqrar eyləmədün, ver, məni kənizlər ağac altında həlak eyləsünlər.

Şərəf xanım dedi:

– Get gətir, görüm necə gözəl cavandur.

Pəs kəniz gəldi Eyvəzün yanına və dedi:

– Əgəm oğlu, dur ayağa, səni Əhməd Paşanun qızı Şərəf xanım istər.

Eyvəz ayağa durdu ki, gəlsün, gördü kəniz ağlıyır. Dedi:

– Kəniz, niyə ağlıyırsan?

Kəniz dedi:

– Əcəm oğlu, sənün üstündə xanım məni döydürüb. Bəs ki, mən sənün gözəllügün xanıma tərif eyləmişəm və mənlən şərt eyləyüb ki, sən xanımdan gözəl olsan, məni sənə verə. Qorxuram, xanım səni görsə, özündən savay heç kəsə verməyə.

Eyvəz bir güldü, dedi:

– Kəniz, ağlama, mən sənün iltimasun xanımdan eylərəm.

Pəs kəniz Eyvəzi götürüb gətirürdi talara ki, əsnayi-rahda Şərəf xanımun gözü Eyvəzün camalına düşdü. Gördü bir cavandur ki, gözəllikdə mislini xudavəndi-aləm yaratmayub. Şərəf xanım həman saat Eyvəzə belə təəşşüq yetürdi ki, öz yerindən durub bir neçə qədəm Eyvəzün istiqbalına gəldi.

Çün Eyvəz yetişdi, salam eylədi, Şərəf xanım gördü, vaqiən çox gözəl cavandur. Şərəf xanım Eyvəzə yer göstərüb, Eyvəz əyləşdi. Bir neçə piyalə şərab saqilər Eyvəzə verüb, Eyvəzin başı şərabi-nabdən gərm olub, başın bir yuxarı görürüb baxanda gördü Şərəf xanım təxt üstündə oturub. Əmma özünə bir zinət verüb ki, tavus kimi çətir açub. Pəs Eyvəz həm Şərəf xanımı görəndə aşiqi-biqərar olub genə başın saldı aşağa. Şərəf xanım dönüb Eyvəzdən xəbər aldı:

– Cavan, hardan gəlürsən?

Eyvəz dedi:

– Xanım, İran əhliyəm.

Şərəf xanım elə İran adın eşidəndə, qəlbində dedi, kaş bu, Eyvəz olaydı. Dedi:

– Əcəm oğlu, adun nədür və bu şəhərə niyə gəlmüsən?

Eyvəz dedi:

– Xanım, bizlər əcəm əhliyuğ, hər nə danışsaq, türki (ilə) danuşuruğ. Mürəxxəs eylə, türki ləfzilə deyim ki, adım nədür və bu şəhərə nə mətləbə gəlmişəm.

Şərəf xanım dedi:

– Cavan, mane dəgül, mən türkini çox sövərəm, de.

Pəs Eyvəz sazın kök eyləyüb, durdi ayağa. Üzün çövürdi Şərəf xanıma, bu əşari oxudu:

Uca-uca qarlu dağlar aşmışam,
Şərəf xanım görməginə gəlmişəm.

Eşq əlindən bir piyalə içmişəm,
Şərəf xanım görməginə gəlmişəm.

Şərəf xanım elə bu sözü Eyvəzdən eşidəndə, dedi:

– Əcəm oğlu, nə söylərsən? Sənün nə həddün var ki, mənə təəşşüq yetürüb mənim görməgimə gələsən? Sən bir yanşaqsan, mən padşahzadəyəm. Mənlən sən münasib dəgülsən.

Eyvəz dedi:

– Xanım, mənim sözümün axırına qulaq ver.

Şərəf xanım dedi:

– De, görüm, sözin axırı haraya yetişür?

Eyvəz genə dedi:

Can qurban eylərəm vəfalu yarə,
Çamlıbeldən məni salub kənarə.
Gözü yaşlu gətürdi bu diyarə,
Şərəf xanım görməginə gəlmişəm.

Şərəf xanım elə Çamlıbel adın eşidəndə, qəlbində dedi, yəqin bu, Eyvəz olacaq. Dedi:

– Cavan, sən kimsən ki, Camlıbeldən məni görməgə gələsən?

Eyvəz (ərz) eylədi:

– Xanım, sözümün axırına qulaq ver.

Dal gərdənə töküb siyəh saçını,
Dutmaq olmaz sənün kimin laçını,
Alan olmaz ağ üzündən maçını
Şəfəf xanım görməginə gəlmişəm.

Şərəf xanım elə bu sözü eşidəndə mütəğəyyir olub, dedi:

– Yanşaq, belə biədəb sözlər danışma. Verrəm, səni ura-ura bağdan salullar eşiyə. Mən səndən aduvi xəbər aluram, sən mənə belə biədəb söz deyirsən.

Eyvəz dedi:

– Xanım, mütəğəyyir olma, imdi adımı sənə deyərəm.

Ceyran otlar Ərəbistan düzündə,
Qoşa xallar düzülübdür yüzündə,
Yalan yoxdur Xan Eyvəzün sözində,
Şərəf xanım görməginə gəlmişəm.

Şərəf xanım elə Eyvəz adı eşidəndə yəqin eylədi ki, bu hə-

man Koroğlunun Eyvəzidür. Məhəbbəti bir az da artdı. Əmma çün Eyvəzə mütəğəyyir olub acıqlanmışdı, xəcalətindən başın saldı aşağa. Eyvəz gördü Şərəf xanım başın aşağa saldı, Eyvəzün eşqi tüğyan eyləyib, genə sazın götürüb basdı sinəsinə. Yüzin dutub Şərəf xanıma, dedi:

Başun götür, bir yuxarı baxgilən,
Qonaq gəlüb məclisüvə Xan Eyvəz.
Göz yaşı tək qabağımda axgilən,
Qonaq gəlüb məclisüvə Xan Eyvəz.

Qəm badəsin kasa-kasa içmişəm,
Yolunda başilə candan keçmişəm,
Surətivü görcək yola düşmüşəm,
Qonaq gəlüb məclisüvə Xan Eyvəz.

Şərəf xanım çün Eyvəzdən bu sözü eşitdi, büldi ki, Xacə Yəqub cəvahirfüruş bunun surətin aparub Çamlıbeldə Eyvəzə verüb və bu, həman Eyvəzdür ki, bunun dalınca gəlüb. Pəs Şərəf xanım başın yuxarı götürüb, zülfin yüzinə dutub, bir Eyvəzə tərəf baxdı. Eyvəz gördü Şərəf xanım zülfin yüzinə niqab eylədi. Eyvəz bir ah çəküb, genə yüzin Şərəf xanıma dutub, dedi:

Qara zülfün ağ üzdən et kənarə,
Yanqulu köylümə urma şərarə.
Qurban ollam sənün kimin nigarə,
Qonaq gəlüb məclisüvə Xan Eyvəz.

Şərəf xanım bu sözü eşidəndə zülfünü yüzündən atub, əmma xəcalətindən Eyvəzə baxmadı. Durdu məclisün ətrafına baxmağa. Eyvəzin ürəgi yandı, bu əşarı dedi:

Gəzübdür zülfündə telbətel şana,
Eyvəzi eyləmə dəli, divana,
Şərəf xanım, nə baxırsan hər yana,
Qonaq gəlüb məclisüvə Xan Eyvəz.

Çün Eyvəz sözin təmam eylədi, Şərəf xanım dedi:

– Yanşaq, büldüm, adun Eyvəzdür, əmma dünyada Eyvəz adlı çoxdur. Doğrusun de, görüm, sənün əslün və nəsəbün kimə yetişür və İranda hansı şəhərdə mənzilün var?

Eyvəz dedi:

– Xanım, qulaq ver, deyüm ki, mən hansı şəhərdən gəlmişəm və əslü-nəsəbim kimə yetişür.

Budur, xanım, doğru sözüm,
Mənim adım Xan Eyvəzdür.
Ahu baxış, maral gözlüm,
Mənim adım Xan Eyvəzdür.

Surətün görcək sevmişəm,
Göylümü əldən vermişəm,
Çamlıbeldən mən gəlmişəm,
Mənim adım Xan Eyvəzdür.

Şərəf xanım çün bu sözü Eyvəzdən eşidüb, istədi taxtdan aşağa gəlsün və Eyvəzi aparsun taxt üstündə qərar versün. Eyvəz dedi:

– Xanım, əgər dürüst məni tanımadun, qulaq ver, ta özümü dürüst nişan verüm.

Deyərsən qələmdir qaşı,
Tökülür didəmün yaşı,
Koroğlunun qoç qardaşı,
Mənim adım Xan Eyvəzdür.

Əyninə geyib qırmızı,
Ceyrana çox bənzər gözü,
Ey Əhməd Paşanın qızı,
Mənim adım xan Eyvəzdür.

Çün Eyvəz sözin təmam eylədi, Şərəf xanım eşqün qələbəsindən daxi tab gətirməyüb, özün taxtan aşağa salub, qolların saldı Eyvəzün boynuna, dedi:

– Eyvəz, məni bağışla ki, hər nə tərki-ədəbluğ oldu, səni tanımadum.

Kəniz elə bunu görəndə, yügürdü, yapuşdı Şərəf xanumun əlindən, ərz eylədi:

– Xanım, sənlən mən şərt eyləmişəm ki, əgər bu əcəm oğlu səndən gözəl olsa, gərək məni ona verəsən.

Şərəf xanım gülüb dedi:

-Kəniz, bu, Koroğlunun Eyvəzidür ki, təmam dünya padşahlarının qızları buna təəşşüq yetirübdür. Bu sənün fənnün dəgül, əmma hər nə istərsən, sənə verrəm.

Kəniz ərz eylədi:

– Xanım, mən səndən heç zad istəmənəm, məgər Eyvəzdən bunu istərəm ki, məni də aparsun Cəlali Koroğlunun iyidlərünün birinə versün.

Pəs Eyvəz qəbul eyləyib. Şərəf xanım hökm eylədi ki, təmam kənizlər talardan eşigə çıxub xəlvət oldu. Pəs (Şərəf xanım) Eyvəzi götürüb taxt üstündə əgləşdürdi və özü həm onun yanında əgləşüb, qol bir-birinün boynuna salub və bir neçə busə bir-birinin yüzindən aldılar. Ta axşama kimin xəlvət edüb eyşü-işrətə məşğul oldular. Çün axşam oldu, Şərəf xanım kənizlərə hökm edüb ki, bir məclisi-ali bərpa eylədilər. Çəngilər əllərində dəf və dairə baziglarlığa məşğul olub və saqilər piyaleyi-şərab məclisdə dolandururdılar. Ta nisfi-şəbə kimin Eyvəz və Şərəf xanım tamaşa eyləyüb, ləzzət apardılar. Çün nisfi-şəb oldu, məclis bərhəm olub, Şərəf xanım genə Eyvəzlən xəlvət eyləyüb, taxt üstündə baş mütəkkayə qoyub, qol bir-birinün boynunda yatmağa məşğul oldular.

Əmma nəql eşit Şərəf xanımun dayəsindən. Çün dayə Şərəf xanımı Eyvəzlən bu əhvalda görüb, sübh vəqti ayağa durub, özün yetürdi Əhməd Paşanün qulluğuna. Ərz eylədi:

-Paşam sağ olsun, bir nəfər Eyvəz adlu Çamlıbeldən gəlüb, deyir mən Cəlali Koroğlunun adamlarındanam və sənün qızun Şərəf xanıma aşiq olub. İmdi Nigaristan bağında qol birbirinün boynunda bir rəxt-xabda yatublar. Əgər əlac eyləməyəsən, bu gündür-sabah ki, sənün qızun Şərəf xanımı götürüb Çamlıbelə aparur və səni paşalar içində rüsva edər.

Əhməd Paşa çün dayədən bu sözü eşitdi, qəzəbnak olub həman saat neçə nəfər yengiçəri göndərüb ki, Eyvəzi dutub gətürsünlər. Yengiçərilər təcili-təmamilən özlərin bağa yetürüb, daxil oldular talara. Eyvəzi yuxunun içində dutub, kəşan-kəşan gətürdilər Əhməd Paşanun xidmətinə. Əhməd Paşa çün Eyvəzi gördü, dedi:

-Anasın satdığım əcəm oğlu, bu nə bidəbluğdur ki, padşah

hərəmxanasına xəyanət eyləyüb qədəm qoymusan? Bu gün səni bir zillətlən öldürüm ki, təmam əhli-aləm ibrət eyləsün ki, daxi bundan sora belə biədəbluğ eyləyüb, padşahlarun hərəmxanasına xəyanət eyləyüb, qədəm qoymasunlar.

Pəs Əhməd Paşa hökm eylədi ki, Hələbün meydanında bir dar ağacı nəsb eylədilər və car çəkdürdi ki, təmam Hələb əhli, övrətdən və kişidən və uşaqdan o meydanda hazır olsunlar və hökm eylədi ki, otuz min ləşkər o meydanı ətrafdan əhatə eyləyüb, durdular. Bəd əz an Əhməd Paşa və neçə nəfər afəndi və vəzir gəlüb meydanun bir tərəfində taxt üstündə qərar dutdular. Pəs Paşa hökm eylədi ki, gedün, o əcəm oğlun gətürün. Fərraşlar gəlüb Eyvəzi ura-ura gətürdilər Paşanun xidmətinə. Pəs Paşa hökm eylədi ki, aparun bu əcəm oğlun, dara çəkün və tirəbaran eyləyün. Çün Eyvəz Paşadan bu sözü eşitdi, yüzin dutub Paşaya dedi:

Əhməd Paşa, dutma məni, yola sal,
Qoç Koroğlu gəlür, intiqam alur.
Qərib yerdə qoyma şikəstə əhval,
Qoç Koroğlu gəlür, intiqam alur.

Paşa çün Eyvəzdən bu sözü eşüdüb, dedi:

– Vay anasın satdığım əcəm oğlu, məni Koroğluynan qorxudursan? – dedi: – cəmaət, bunun qolların bağlıyun, dara çəkün.

Eyvəz dedi:

– Paşa!

Mərd iyidün qollarını bağlama,
Dəlilərün ürəgini dağlama,
Koroğlunun Eyvəzini saxlama,
Çamlıbeldən gəlür, intiqam alur.

Paşa dedi:

– Eyvəz, sən Koroğluya çox xatircəmsən, qoy, Koroğlu gəlsün, bizdən sənün qanun alsun.

Eyvəz dedi:

Paşa, mənə çox da etmə cəfələr,
Şikəstə köylümə urma yarələr,

Koroğluya xəbər yetişsə əyər,
Çamlıbeldən gəlür, intiqam alur.

Paşa dedi:

– Cəmaət, Eyvəz Koroğluya çox xatircəmdür, aparun, onu dara çəkün.

Fərraşlar Eyvəzi gətürdilər dar ayağına. İstədilər ki, onu dara çəksünlər, Eyvəz gözünü doldurub yaşlan, bir Çamlıbel tərəfinə baxdı, bir ah çəkdi, dedi:

Dağlar başın duman dutub, görünməz,
Bir çıraq ki, həq yandırsa, o sönməz.
Qoç Koroğlu xan Eyvəzindən dönməz,
Çamlıbeldən gəlür, intiqam alur.

Eyvəz çün sözin təmam eylədi, durdu ağlmağa.

Bunları qoy burda qalsun, əmma nəqli-dastan eşit Cəlali Koroğludan Çün Koroğlu və Reyhan Ərəb və Gaziroğlu Mustafa bəg və təmam iyidlər Çamlıbeldən çıxub Eyvəzün dalınca yola düşdülər. Gecə və gündüz yatmayub, at sürdülər. Həman gün ki, Əhməd Paşa Eyvəzi dutub dara çəkdürürdi, yetişdilər Hələbün həvalisinə. Bir çəmən var idi, orda atlarından aşağa gəlüb, oturdular. Cəlali Koroğlu yüzin dutub iyidlərə, dedi:

– Cəmaət, bir nəfər adam getsün Hələbün şəhərinə, Eyvəzdən bir sorağ dutub, gəlsün.

Bəlli Əhməd ərz eylədi:

– Qurbanun olum, bu xidmət mənimdür.

Pəs Bəlli Əhməd ata səvar olub az qaldı yetişsün darvaza bərabərinə, gördü darvazədən bir qoca kişi çıxıb ağlıya-ağlıya gedir. Bəlli Əhməd salam edib, dedi:

– Qoca, niyə belə ağlarsan?

Qoca dedi:

– Məni dindirmə, mənim dərdim çoxdur. Sən mənim dərdimə dava eyliyə bülməzsən.

Bəlli Əhməd çox israr eylədi, qoca dedi:

– İyid, mənim bir qonağım var idi, Eyvəz adlu ki, Əhməd Paşanun qızı Şərəf xanıma aşiq olmuşdu. Paşa xəbərdar olub, onu dutub. Bu gün dara çəkillər. Mən o cəhətə şəhərdən çıxub kənara gedirəm.

Bəlli Əhməd dedi:

– Qoca, bu qoşun ki, görürsən, bu, Cəlali Koroğludur ki, Eyvəzün dalınca gəlüb.

Qoca elə bunu eşidəndə şad olub, sürətlən gəlib yetişdi Cəlali Koroğlunun yanına. Baş endirib, ərz eylədi:

– Qurbanun olum, bu işi mən eləmişəm ki, Eyvəzi Nigaristan bağına aparub, Şərəf xanıma yetürmişəm. Daxi oturmaq vəqti dəgül ki, Əhməd Paşa Eyvəzün qolların bağladub, və dar ağacınun yanında saxlıyub ki, imdi onu dara çəkdirüb, həlak eyləllər.

Pəs Cəlali Koroğlu o qocaya bir qədər pul verüb, yola saldı. Dedi:

– Cəmaət, mən gedirəm Hələbün meydanına.Siz də yavaş-yavaş darvazalardan daxil olun, gəlün, meydanın çahar ətrafın dutun. Hər vəqt ki, mənim səsim gəldi, daxi durmayın, tökülün meydana.

Pəs Cəlali Koroğlu minüb Qıratın üstünə və Dəli Mehtəri yanınca götürüb, özün yetürdi Hələbün meydanına. Gördü otuz min qoşun meydanun ətrafın kəsüb və əhli-şəhər təmam dolub meydanun arasına, tamaşa edəllər. Pəs Koroğlu atın sürüb meydanun içində düşdü. Qıratın cilovun verub Dəli Mehtərə, özü sazın götürüb, yüz qoydu Əhməd Paşanun bərabərinə gəlməyə. Ta yetişdi dar ağacınun yanına, gördü Eyvəzün qolların bağlayublar və libasların çıxardublar. Əmma meydanun tozu Eyvəzün yüzünə qonub. Koroğlu bir ah çəküb dedi:

– Eyvəz, sənə demədim, qərib vilayətə getmə, qoy, mən iyidlərdən birin göndərim ta Şərəf xanımı gətürsün?

Eyvəz çün Koroğlunu gördü, bir ağladı. Əmma xəcalətindən başın saldı aşağa. Koroğlu ordan keçüb, özün yetürdi Əhməd Paşanın xidmətinə. Salam edüb, durdu. Əhməd Paşa gördü bir pətyarə əcəm durub bərabərdə. Dedi:

– Əcəm, nəkarəsən?

Koroğlu ərz eylədi:

– Paşam sağ olsun, mən türki yanşağıyam.

Paşa dedi:

– Əcəb oldu. Bu gün bizə bir yaxşı söhbət eylə ki, bir əcəm

oğlu dara çəkdirüb, həlak edəcəyəm.

Koroğlu dedi:

– Paşam sağ olsun, əgər istərsən yaxşı söhbət eyləyəm, bir qədər mənə şərab ver ki, ta kef üstə gəlib yaxşı söhbət eyləyüm.

Paşa yüzin dutub saqiyə, dedi:

– Bir neçə piyalə şərab ver, yanşaq içsün.

Koroğlu dedi:

– Paşam sağ olsun, dəvəni çömçə ilən suvarma. O piyalələr mənim buğlarımı yaş eyləməz.

Paşa bir güldü, dedi:

– Bir tuluq şərab gətürün.

Bir tuluq şərab gətürdilər. Koroğlu çün neçə gün yol gəlmişdi və şərab içməmişdi, tuluğu dayadı ağzına, təmam içüb, qoydu yerə. Paşa gördü bu yanşaq əcəb canəvərdür. Dedi:

– Yanşaq, bəsündür?

Koroğlu dedi:

– Paşam sağ olsun, bu bir tuluq şərab qarnımun bir tərfində qaldı. Əgər bir tuluq şərab həm versün, yaxşı olur.

Paşa hökm eylədi, bir tuluq şərab həm gətürdilər. Koroğlu istədi şərabı alsun. Dəli Mehtər pişdəstlığ edüb o tuluğu aldı, dayadı ağzına, təmam içüb, tuluğu qoydu yerə.

Paşa gördü bir pətyarə həm bu yandan gəlüb bir tuluq şərabı içdi. Təəccüb eyləyib, dedi:

– Yanşaq, bu pətyarə kimdir?

Koroğlu dedi:

– Paşam sağ olsun, o mənim şagirdimdür.

Əlhasil, Paşa dedi:

– Yanşaq, bir qədər söhbət eylə.

Pəs Cəlali Koroğlu sazın kök eyləyüb yüzin dutdu Əhməd Paşaya və bu əşarı oxudu:

Canım Paşa, bir ərzim vardur sənə,
Dar dibindən xilas eylə Eyvəzi.
Cavandur, onu bağışla mənə,
Dar dibindən xilas eylə Eyvəzi.

Paşa elə Koroğludan bu sözü eşidüb, dedi:

– Yanşaq, mən sənə dedim, bizə bir qəribə hekayət söhbət eylə ki, biz ondan ləzzət aparaq. Sən bu əcəm oğlunun iltimasın eylərsən?

Koroğlu dedi:

– Paşam sağ olsun, qulaq ver.

Ayrı düşüb ulusundan, elindən,
Qucmuyubdur nazlu yarun belindən,
Məşhər günü şikvə eylər əlindən,
Dar dibindən xilas eylə Eyvəzi.

Paşa dedi:

– Yanşaq, bu əcəm oğlunun təqsiri çoxdur ki, padşah hərəmxanasına xəyanət qədəmin qoyub. Gərək bunu cəzasına yetürəm, ta xalq ibrət eyləsün ki, minbəd daxi bir belə xəta eyləməsünlər.

Koroğlu genə yüzin dutub Paşaya dedi:

Qızıl gülün həmnişini xar olur,
Aşiq olan qəmə giriftar olur,
Məşhər günü xudam sənə yar olur,
Dar dibindən xilas eylə Eyvəzi.

Paşa dedi:

– Yanşaq, sənün bu işlər ilən nə rücuun var? O cavan müqəssirdür, gərək, cəzasına yetişə. Sən söhbət eylə ki, biz ləzzət aparaq.

Koroğlu gördü bu sözlər Əhməd Paşaya heç təsir eyləməz, qəlbində dedi, gəl bunu Koroğluynan qorxut, bəlkə Eyvəzi bağışlasun. Yüzin dutub Paşaya, dedi:

Qərib iyid yad ölkədə xar olur,
Gecə-gündüz işi ahü-zar olur,
Qoç Koroğlu imdi xəbərdar olur,
Dar dibindən xilas eylə Eyvəzi.

Koroğlu çün sözin təmam eylədi, Paşa qəzəbnak olub dedi:

– Vay anasın satdığım yanşaq, məni Koroğluynan qorxudursan? Cəmaət, çəkün əcəm oğlun dara və onu çahar ətrafdan tirəbaran eyləyün!

Fərraşlar ətrafdan töküldülər ki, Eyvəzi dara çəksünlər.

Koroğlu gördü Paşanun yanında bir afəndi əgləşüb, gəldi

afəndinün bərabərinə, dedi:

– Afəndi, sənə bir ərzim var, qoy bunu deyüm, ondan sora əcəm oğlun dara çəksünlər.

Afəndi yüzin dutub Əhməd Paşaya, dedi:

– Paşam sağ olsun, qoy, yanşaq, bir ərzi var, eyləsün, ondan sora əcəm oğlun öldürsünlər.

Paşa möhlət verdi. Koroğlu yüzin dutub afəndiyə, dedi:

İltimas eylə, sən, Əhməd Paşadan,
Ərzim budur qulluğuva, afəndi!
Yüz yaşatsun, görüm, səni yaşadan,
Ərzim budur qulluğuva, afəndi!

Eyvəz balı Koroğlunun canıdur,
İyidlərün sultanıdur, xanıdur,
Xan Şərəfün səvgüli mehmanıdur,
Ərzim budur qulluğuva, afəndi!

İyidlərün mərdini azad edün,
Şikəstə könlünü onun şad edün,
Əhməd Paşa yanında imdad edün,
Ərzim budur qulluğuva, afəndi!

Dara çəkmün Çamlıbelin xanını,
Qurban deyüb öz yarına canına,
Qoç Koroğlu imdi alur qanını,
Ərzim budur qulluğuva, afəndi!

Çün Koroğlu sözin təmam eylədi, afəndi dedi:

– Yanşaq, sənün iltimasun bu cavanun barəsində qəbul dəgül. Ondan ötrü ki, bu əcəm oğlu çox təqsir eyləyüb ki, padşahun hərəmxanasına xəyanət qədəmin qoyub. Gərək onu cəzasına yetürsünlər.

Koroğlu gördü afəndi və Əhməd Paşa söz qəbul eyləməz. Labüd qalub döndü, bir meydanun ətrafında baxdı. Gördü təmam iyidlər və Mustafa bəg və Reyhan Ərəb müntəzir durublar ki, hər vəqt Koroğlu hökm eyləsə, özlərin qoşuna vırsunlar. Pəs Kor(oğlu) afəndinün bərabərindən qayıdub, Qırata səvar olub, yüzin dutdu iyidlərə, bu əşari oxudu:

Ay ağalar, çar tərəfdən tökülün,
Meydan günü iyidlərim dəvdü, dəv!
At üstündə yay qatı tək bükülün,
Meydan günü iyidlərim dəvdü, dəv!

Mustafa bəg, qurban olum şəstüvə,
Hər tərəfdən qoşun gəlsə üstüvə,
Nizə götür, kaman götür dəstüvə,
Meydan günü iyidlərim dəvdü, dəv!

İyidlərim, çar tərəfdən car çəkün,
Bu ləşkəri bir-biri üstən tökün,
At oynadub qılıc urun, baş kəsün,
İyidlərim meydan günü dəvdü, dəv!

Koroğlunun kül tökülüb başına,
Reyhan Ərəb, bax gözümün yaşına!
Ac qurd kimin daraş, gələn qoşuna,
İyidlərim meydan günü dəvdü, dəv!

Çün Koroğlu sözin təmam eylədi, Qırata bir rikab çəküb, qılıcın belindən çəkdi. İyidlər çün bunu gördü, ətrafdan töküldülər meydana. Hər tərəfdən Hələb qoşunun saldılar qılıc qabağına. Bir türfətül-eyndə qoşunu qırub, pamal eylədilər. Əmma Cəlali Koroğlu özü bir qılıc afəndinün başından elə urdu ki, iki para eylədi. Əmma Əhməd Paşanun dutub qolların bağlatdı.

Pəs Eyvəzün qolların açdılar və libasların geyündürdilər. Koroğlu hökm eylədi ki, Əhməd Paşanı dara çəküb, tirəbaran eylədilər. Ondan sora Əhməd Paşanun təmam malü-dövlətin və xəzanəsin zəbt eyləyüb, üç gün Hələb şəhərində qaldılar. Bəd əz an bir təxti-rəvan hazır edüb, Şərəf xanımı qoydular təxti-rəvana, Hələbdən köçüb mənzilbəmənzil ta gəldilər Çamlıbelə.

Bir neçə gün istirahət edüb, ondan sora Cəlali Koroğlu hökm eylədi, Eyvəzün toy tədarükün görüb, bir məclisi-ali bina eyləyüb, yeddi gün və yeddi gecə iyidlərin başı badeyi-nabdan gərm olub, yeddi gündən sora Şərəf xanımı Eyvəzlən belə əl-ələ verüb, tainki o iki cavan bir-birindən kami-dil hasil eylədilər.

KOROĞLUNUN YEDDİNCİ MƏCLİSİ

Koroğlunun Məhmud xanın qızı Ceyran xanımı gətirmək üçün Dağıstana getməsi. Məhmud xanla dava etməsi və onu məğlub etməsi

Raviyani-əxbar və naqilani-asar belə hekayət eyləyüb ki, Cəlali Koroğlu Çardaqlınun Çamlıbeldə əgləşmişdi və yeddi yüz yetmiş yeddi dəli onun yanında cəm hər gün şikara gedüb, dağlarda və səhralarda güzaran eylərdilər. Bir gün şikardan gəlüb məclisdə oturmuşdu və iyidlərilən şərab içərdi. Gördü bir şəxs daxil oldu məclisə, səlam verüb durdu. Cəlali Koroğlu ona yer göstərüb, o şəxs əgləşdi. Bir neçə saatdan sora yüzin dutub o şəxsə xəbər aldı:

– Hardan gəlürsən və adın nəmənədür?

O şəxs ərz eylədi ki, qurbanun olum, mənim adıma Xacə Mərcan deyəllər və mənim işim səyahətdür. Dağıstanə səfər eyləmişdüm. Cəlali Koroğlu xəbər aldı ki, Dağıstan səfərində qəribə şey nə gördün. Xacə Mərcan ərz eylədi ki, mən üç ildür ki, Dağıstanə səfər eyləmişdüm və təmam şəhərlərin və kəndlərin və obaların səyahət eylərdüm, ta inki yetişdüm bir yaylaqə və o yaylaqdə yetişdüm bir obayə ki, o obanın sahibi Məhmud xan ləkzidür.

Bir neçə müddət o Məhmud xanun çadırında mehman olub qaldum. O Məhmud xan bir sahibi-cəlal adamdur və çox adlu iyiddür və onun iki yüz ləkzi atlusu var ki, çox rəşid və dilavər atludular. Hər gün şikarə və səyahətə gedərdilər və bu müddət ki, mən ona mehman olmuşdum, çox məhəbbət və nəvaziş eylərdi və o Məhmud xanun bir qızı var ki, onun adına Ceyran xanım deyəllər ki, bir beylə gözəl külli-aləmdə yoxdur.

Bir gün Məhmud xan şikara getmişdi. Həman Ceyran xanım mənim çadırıma gəldi və hər tərəfdən söz salub danışurdı, ta inki İran vilayətlərinün söhbəti araya düşdü. O qız məndən xəbər aldı ki, Xacə Mərcan, eşitmişəm ki, Çardaqlınun Çamlıbeldə bir iyid var ki, onun adına Cəlali Koroğlu deyəllər ki, çox rəşid və dilavər iyiddür və onun yeddi yüz yet-

miş yeddi dəlisi var ki, təmam Rum vilayətlərindən ona bacuxərac gəlür. Onu görübsən?

Mən ərz eylədüm:

– Xanım, görmüşəm. O qədər ki, sən Cəlali Koroğlunu tərif eylədün, onun tərifi ondan artıqdur.

Pəs Ceyran xanım mənə dedi:

– Xacə Mərcan, hərgah mən sənə bir kağız versəm, onu Cəlali Koroğluya yetürürsən?

Mən ərz eylədim:

– Xanım, mən istərdüm ki, rus məmləkətlərinə səyahətə gedəm, əmma çün sən mənə bu xidməti rücu eylədün, labüddəm, gərək bu xidməti qəbul eyləyəm.

Dedi:

– Xacə Mərcan, imdi ki, bu xidməti qəbul eylədün, bül və xəbərdar ol ki, mən neçə müddətdür ki, Cəlali Koroğlunun iyidligün və rəşadətin və şücaətin eşitmişəm və ona aşiqi-biqərar olmuşam və Dağıstan xanlarının təmamisi məni Məhmud xandan xastkarlıq eyləyüblər və mən onlarun heç birin ixtiyar eyləməmişəm və həmişə bu arzuda var idüm ki, bir nəfər məhrəm adam tapam və Cəlali Koroğluya bir kağız göndərəm. Çün səni bir yaxşı adam gördüm və əhlü-hal gördüm, bu sirrimi sənə aşkar eylədüm.

Mən çün bu sözü Ceyran xanımdan eşitdüm, ərz eylədüm ki, xatircəm ol, mən hər işimi tərk eylərəm və bu xidməti yerinə yetirrəm.

Çün o qız bunu eşitdi, ayağə durdu, daxil oldu öz çadırına, bir saatdan sora genə gəldi mənim çadırıma. Gördüm üç yüz tümən pul bir kisənün içində və bir kağız qoydu mənim bərabərimə və dedi:

– Xacə Mərcan, bu bir mühəqqər hədiyyədür. Bu pulları yolda xərc eylə, bu kağızı Cəlali Koroğluya yetür. Əgər, inşallah, güzarun genə mənim yanuma düşsə, xəcalətündən çıxaram və səni razı eylərəm.

Pəs mən o pulları və o kağızı götürdüm və dedüm:

– Xanım, Məhmud xan şikardan gəlsün, ondan müraxxəslığ hasil eyləyüm, inşallah, səbah Cəlali Koroğlunun xidməti-

nə azim ollam.

Pəs Ceyran xanım bir qədər məni dua eylədi, bəd əz an mənə dedi:

– Çün, Xacə Mərcan, Cəlali Koroğlunun xidmətinə yetişüb naməni verürsən, hərgah onun meyli Dağıstan səfəri ola, istiyə mənim dalımca gələ, degilən ki, ehtiyat ilən gəlsün ki, mənim atam Məhmud xan çox benam atlıdur və iki yüz atlusi var ki, təmam rəşid və şüca iyidlərdür və əlavə bər in mənim atam el və qəbilə sahibidür, məbadə, atam xəbərdar ola və onu duta, həlak eyləyə.

Cəlali Koroğlu çün bu sözləri Xacə Mərcandan eşitdi, dedi:

– Xacə, hanı kağız?

Xacə kağızı qoynundan çıxarub ədəb əlinün üstündə qoydu Koroğlunun bərabərinə. Koroğlu kağızı açub, baxdı. Gördü Ceyran xanım yazub ki, ey Cəlali Koroğlu, bir neçə müddət bundan irəlü sənün tərifün və iyidligün mənə yetişüb. Gecə və gündüz sənün eşqində biqərar olmuşam. Əgər o təriflər ki, səndən mənə yetişüb, doğrudur, gərək Dağıstanə gəlüb məni aparasan və əgər gəlmiyəsən, qiyamət günü səndən şikayət eylərəm.

Koroğlu çün namənün məzmunundan müttəle oldu, Xacə Mərcana çox nəvaziş eyləyüb və bir dəst libas xələt verdi və bir at verdi və üç yüz tümən pul verdi. Dedi:

– Xacə, sən bu kağızı mənə gətirmüsən, gərək bu səfərdə bizə yoldaş olub, bələdlük eyləyəsən.

Xacə qəbul eylədi. Pəs Cəlali Koroğlu o gecə bir ağır qonaqlıq Xacə Mərcanə eyləyüb, məclis-arastə edüb, iyidlər təmam məclisə cəm oldu. Ta nisfi-şəbə kimin rəqqaslar və sazəndələr rəqs edüb və saqilər iyidlərə şərab verüb. İyidlərün başı şərabi-nabdan gərm olub keyfə məşğul oldular. Çün nisfi-şəb oldu, iyidlər hər biri öz mənzilinə gedüb və Koroğlu həm ayaqə durub, gəldi öz hərəmxanə çadırına. Sübhə kimin fikr eylədi ki, aya, kimi göndərsün Dağıstanə. Hərçi fikir eylədi, gördü heç kimün iyidlərdən işi dəgül. Ondan ötrü, əvvəla, Dağıstan bir ağır səfərdür və tayifeyi-ləkziyə bir rəşid və qəyur tayfədür və saniyən Məhmud xan özü bir qəvi heykəl pəhləvandur və sahibi-eldür. Gərək özü bu səfərə getsün.

Pəs bir qədər yatub istirahət eylədi, bəd əz an yuxudan bidar olub, gəldi məclisə. İyidlər təmam cəm oldular Cəlali Koroğlunun başına, saqilər piyaleyi-şərab verüb, Koroğlu bir damağ üstə gəlüb, sazın götürüb basdı sinəsinə, yüzün dutub iyidlərə, dedi:

Səfər oldu Dağıstanə,
Mənə yoldaş olan gəlsün.
Yetişdüm qüssədən canə,
Mənə yoldaş olan gəlsün.

Edübdür ğəmlərim tüğyan,
Tapulmaz dərdimə dərman,
Gözü yolda qalub Ceyran,
Mənə yoldaş olan gəlsün.

Bir od urram Dağıstanə,
Düşər dillərdə dastanə,
Gətürrəm yarı-məstanə,
Mənə yoldaş olan gəlsün.

Koroğlu, sinə çak eylər,
Düşmənlərin həlak eylər,
Məhmud xandan nə bak eylər,
Mənə yoldaş olan gəlsün.

Cəlali Koroğlu çün sözin təmam eylədi, bu tərəfdən Eyvəz balı əyaqə durub gəldi Koroğlunun bərabərinə. Baş endirüb ərz eylədi:

– Qurbanun olum, Dağıstan bir bərk yerdür və əlavə bər in ləkziyyə tayfası bir ağır eldür və çox şücaətli adamlar var, bir qızdan ötrü özün niyə həlakətə salursan? Səbr eylə, əgər bu xəbərün sihhəti olsa, genə sənün üçün Ceyran xanım kağız göndərür.

Koroğlu çün bu sözü Eyvəz balıdan eşitdi, ğəzəbnak oldu, dedi:

– Eyvəz, çün sənün xatirün mən çox dust dutaram, o cəhətə səni bağışladum. Əgər özgə adam bir böylə söz desəydi, onu həlak eylərdüm. O qız övrətliginnən məni bir mərdanə

iyid bülüb, mənə sifariş eyləyüb və kağız göndərüb. Əmma mən bu mərdü-mərdanəlığımnan belə onun dalınca getməyim, bu necə kişilikdür. Labüddəm, gərək özüm bu səfərə gedəm və Ceyran xanımı Dağıstandan gətürəm.

Çün Eyvəz Cəlali Koroğludan bu sözü eşitdi, dedi:

– Ayə, yalquz gedərsən, ya iyidlərdən yanunca apararsan?

Koroğlu dedi:

– Eyvəz, mənzurim bu idi ki, iyidlərilən belə Dağıstana səfər eyliyəydim, əmma sənün sözin məni çox yandurdı. Gərək bu səfərə yalquz gedəm.

Eyvəz ərz eylədi:

– Qurbanın olum, bu Dağıstan səfəridür, yalquz getmək məsləhət dəgül, iyidlərdən yanunca götür.

Koroğlu dedi:

– Əlac yoxdur, gərək yalquz gedəm, iyidlərə zəhmət verməræm.

Eyvəz sazın götürüb bu əşarı Koroğluya oxudu:

Xan Koroğlum, bu nə sözdür deyirsən?
Dağıstana yalquz səfər eyləmə!
Dəliləri gözü yaşlı qoyursan,
Dağıstana yalquz səfər eyləmə!

Dağıstanın iyidləri bəllidür,
Burunları havalıdır, yellidür,
Təmamisi bir-birindən əllidür,
Dağıstana yalquz səfər eyləmə!

Cəlali Koroğlu çün Eyvəz balıdan bu sözü eşitdi, dedi:

– Eyvəz, məni Dağıstan iyidlərinnən qorxudursan?! İnşallah, Dağıstana bir od urum ki, təmam dastanlarda deyilsün.

Eyvəz yenə ərz eylədi:

Ellərinün hədd-həsəri, sayı yox,
Kəndlərinün dərin-dərin çayı çox,
Məhmud xanın iyidlikdə tayı yox,
Dağıstana yalquz səfər eyləmə!

Dəliləri vardur təmam bədhava,
Danışanda, danışıqlar nasəza,

Eyvəzi eyləmə özündən cüda,
Dağıstana yalquz səfər eyləmə!

Çün Eyvəz sözin təmam eylədi, Koroğlu dedi:

– Eyvəz, əgərçi sən məni Dağıstan səfərindən qorxudursan və Dağıstan iyidlərin və Məhmud xanı tərif eylərsən ki, çox qəvi heykəl və rəşid iyiddür, əmma mənim adıma Cəlali Koroğlu deyillər ki, təmam məmləkətlərdə mənim iyidligim və rəşadətim məşhurdur. Əgər mənə yəqin ola ki, məni bu səfərdə dutub həlak eyliyəcəklər, labüddəm, gərək bu səfərə gedəm və yalquz gedəm.

İyidlər təmam yerlərindən durub ərz eylədilər ki, ey Cəlali Koroğlu, biz razı dəgüluq ki, sən bir qızdan ötrü yalquz Dağıstan səfərinə gedəsən. Çün Cəlali Koroğlu bu sözü iyidlərdən eşitdi, Ceyran xanımun məhəbbəti onun köylündə cuşə gəlüb, sazın götürüb, basdı sinəsinə, yüzün dutub Eyvəzə tərəf dedi:

Başına döndügüm, qurban olduğum,
Mənim yarım ala gözlü Ceyrandur.
Bəlasın aldıqum, heyran olduqum,
Mənim yarım ala gözlü Ceyrandur.

Mən gəzərəm Şəki, Şirvan, Qubanı,
Dərbəndilən Badkubə, Salyanı,
Koroğlunun budur virdi-zəbanı,
Mənim yarım ala gözlü Ceyrandur.

Gəldi mənə öz yarımın fərmanı,
Yolunda qoymuşam başilən canı,
Məhmud xanın qızı, ləkziyyə xanı,
Mənim yarım ala gözlü Ceyrandur.

Səhl sanmun eşq odunu, iyidlər,
Aşiq olan Məcnun kimi çöl gəzər,
Xan Koroğlu gecə-gündüz ha deyər,
Mənim yarım ala gözlü Ceyrandur.

Çün Koroğlu sözin təmam eylədi, iyidlər gördülər Koroğlu Ceyran xanımun eşqində biqərardur, əgər aləm gələ və ona nəsihət eyliyə, təsir eyləməz. Pəs labüdd qalub sakit oldular. Əmma Eyvəz genə gəlüb bərabərə ərz eylədi:

– Qurbanun olum, imdi ki, labüdsən, gərək bu səfərə gedəsən. Pəs bir neçə nəfər iyidlərdən yanunca götür ki, bu səfərdə sənə həmsöhbət olsun.

Pəs Koroğlu bir Bəlli Əhmədi və bir Dəli Mehtəri və bir Eyvəzi ixtiyar eylədi ki, bunlar mənim bəsimdür. Pəs həman saat hökm eylədi ki, Dəli Mehtər Qıratı zin edüb təngin yeddi yerdən möhkəm eylədi və özü dava libasların geyüb, nizəsin götürüb, Qırata səvar oldu və yeddi yüz yetmiş yeddi dəli atlarına səvar olub, ta dört ağac yol Cəlali Koroğlunu müşaiyyət eyləyüb.

Pəs Cəlali Koroğlu iyidləri vida edüb, Xacə Mərcanı və Eyvəzi və Bəlli Əhmədi və Dəli Mehtəri yanınca götürüb, yüz qoydular Dağıstana getməgə. Mənzilbəmənzil gəlürdülər, ta inki bir neçə gündən sora yetişdilər həman yaylaqun həvalisinə ki, Məhmud xanun çadırları o yaylaqda nəsb olunmuşdu. Xacə Mərcan ərz eylədi ki, qurbanın olum, siz bu çəməndə bu gecə mənzil eyləyün, ta mən gedüm Məhmud xanun çadırına. Sizin gəlməgüzü Ceyran xanıma izhar eyləyün, bəlkə bir vəz ilən davasız Ceyran xanımı ələ götürüb, aparasan.

Koroğlu Xacə Mərcana təhsin edüb dedi:

– Xacə, görüm nə karəsən.

Pəs Xacə Mərcan onları o çəməndə qoydu, özü atına səvar olub gəldi Məhmud xanun çadırına. Gördü Məhmud xan əgləşüb çadırda, əmma iki yüz nəfər qulami-ləkzi onun ətrafında əgləşüb ahu ətin kəbab edüb, yeməgə məşğul olublar. Pəs Xacə Mərcan Məhmud xanə baş endirüb, səlam verdi. Məhmud xan Xacəni görəndə ona nəvaziş eyləyüb, yer göstərdi.

Xacə keçüb əgləşdi. Məhmud xan xəbər aldı:

– Xacə, bu neçə müddəti hara getmişdün?

Xacə ərz eylədi:

– Xan sağ olsun, getdüm bir qədər Şirvan vilayətlərində və bir qədər Çamlıbeldə səyahət eylədüm, genə sənün xidmətüvə gəldüm.

Məhmud xan dedi:

– Xacə, Çamlıbeldə Cəlali Koroğlunu gördün?

Ərz eylədi:

– Bəli, gördüm, əmma çox sahibi-cəlal və sahibi-şövkət

adamdur ki, həmişə atlananda yeddi yüz yetmiş yeddi iyid onun rikabinda atlanur və özü çox qəvi heykəl pəhləvandur və bir atı var ki, onun adına Qırat deyəllər ki, dərya atlarınun cinsindəndir, qaçanda dört ağac yol bir nəfəsə qaçar və heç at onu dutmaz. Qəribə atdur ki, onun misli və manəndi bu aləmdə yoxdur və əmma Cəlali Koroğlu bir gün söhbət əsnasında dedi ki, inşallah, əgər ömrüm baqi ola, bir Dağıstan səfəri eylərəm ki, mən təmam vilayətləri gəzmişəm, əmma Dağıstan vilayətini görməmişəm. Gedüm, görüm, o vilayət necə vilayətdür.

Pəs Məhmud xan o gecə Xacə Mərcana yaxşı məclis arəstə eyləyüb qonaqlıq eylədi, ta nisfi-şəbə kimin rəqqaslar və sazəndələr çalub-çağırub. Eylə ki nisfi-şəb oldu, məclis təmam olub dağıldı və Məhmud xan özü gedüb hərəmxana çadırında istirahətə məşğul oldu. Xacə Mərcan həm həman çadırda qalub fikr eylərdi ki, aya, Cəlali Koroğlunun gəlməyin Ceyran xanıma necə izhar eyləsün. Pəs bir qədər oturub, ondan sora çadırdan eşigə çıxdı. Çadırınun qabağında dolanurdı, bir vəqt gördü Ceyran xanım öz çadırından çıxub yəvaş-yəvaş bu çadıra tərəf gəlür. Çün yetişdi, Xacə Ceyran xanımı istiqbal eyləyüb, səlam verdi. Ceyran xanım səlam alub dedi:

– Xacə, xoş gəlmüsən. Hələ mənə de görüm, mənim kağızımı Cəlali Koroğluya apardun, ya nə?

Xacə ərz eylədi:

– Bəli, apardum.

Ceyran xanım xəbər aldı ki, Koroğlu nə dedi. Xəcə ərz eylədi ki, xanım, Koroğlu çün kağızı oxudu, başın bir tavladı, dedi, mən bir qızdan ötrü burdan durub, cəlayi-vətən olub Dağıstana getmərəm. Nə məlum ki, Ceyran xanım mən Dağıstana gedənə kimi evdə qala, ya ərə gedə və bir də mən onun cəmalını görməmişəm, nə bülüm, ayə, gəzəldür, ya nə?

Ceyran xanım çün bu sözü Xacə Mərcandan eşitdi, bir ah çəküb dedi:

– Xacə, bu qədər sən Koroğlunu tərif eylədün, imdi büldüm ki, o, bir iyid dəgülmüş.

İstədi qayıtsın, Xacə dedi:

– Xanım, əgər sənə bir şadlıq xəbəri verüm, mənə müjdə

nə verürsən?

Ceyran xanım dedi:

– Xacə, əgər Koroğludan mənə bir müjdə xəbəri verəsən, yəqin eylə ki, səni dünya malından biehtiyac eylərəm.

Xacə ərz eylədi:

-Xanım, Cəlali Koroğlu sənün kağızun görcək sənə aşiqibiqərar olub, üç nəfər adam yanınca götürüb mənimlən belə gəldi, ta bu çadırlarun həvalisində onları mən qoydum, bu gecə bura gəldüm, ta səni xəbərdar eyləyəm ki, görəm sənün meylün hardadur.

Ceyran xanım çün bu şadlıq xəbərin Xacədən eşitdi, biixtiyar olub oturdu yerə, dedi:

– Xacə, tədbirün nədür?

Xacə ərz eylədi:

– Xanım, əlac budur ki, sabah Məhmud xanı şikara göndərəsən. Ta Məhmud xan və qulamları şikara getmiyə, mümkün dəgül ki, səni Koroğlu xidmətinə yetürəm.

Pəs o gecə keçüb, ta sübh oldu. Ceyran xanım gəldi öz atası Məhmud xanun xidmətinə, ərz eylədi ki, xan sağ olsun, dünən gün neçə ahu şikar eyləmişdün və onları qulamlarilən belə kəbab eyləyüb sərf eylədüz, gərək bir neçə ahu bu gün şikar edəsən ki, səbah o əvbrənün qızları mənə qonaq gələcəklər.

Məhmud xan qəbul eyləyüb, hökm eylədi, həman saat iki yüz qulam atlırına səvar olub və Məhmud xan özü həm atlanub ahu şikarına getdilər. Pəs Ceyran xanım atasından xatircəm olub, gəldi Xacə yanına, dedi:

– Xacə, atam Məhmud xan və qulamları təmam şikarə göndərdüm və çadırlar xəlvət oldu, gərək məni aparasan Cəlali Koroğlunun yanına.

Xacə ərz eylədi ki, Cəlali Koroğlu o təllün dalında intizar çəkər. Mən qabaqca gedüm, Cəlali Koroğlunu xəbərdar edüm ki, atların zin edüb mühəyya olsunlar və sən mənim dalımca səyahət qəsdilən gəzə-gəzə gəl o təllün dalına, ta ordan atlanub yola düşək.

Pəs Xacə gəlüb Cəlali Koroğlunun xidmətinə ərz eylədi ki, qurbanun olum, Məhmud xan qulamlar ilən belə şikara get-

di. Ceyran xanım imdi gəlür sənün xidmətüvə, mühəyya ol ki, yola düşək.

Pəs Dəli Mehtər atlarun təngin möhkəm eyləyüb müntəzir oturdular. Əmma bu tərəfdən Ceyran xanım özünə ziynət verüb məst-tavus kimin, bir neçə nəfər kəniz yanınca götürüb, səyahət eyləyə-eyləyə piyadə gəldilər, həman təllün üstünə çıxub tamaşa eylədilər. Ceyran xanım gördü Cəlali Koroğlu əgləşüb, əmma vaqeən bir iyiddür ki, rüzgarun gözü bir böylə pəhləvan görməyüb, yəvaş-yəvaş təlldən aşağa gəlüb, yüz qoydu Koroğluya tərəf getmağə. Xacə Mərcan ərz eylədi:

– Qurbanun olum, bu həman Ceyran xanumdur ki, gəlür.

Koroğlu dönüb baxanda, gördü Ceyran xanım bir nazənindür ki, onun misli və manəndi təmam aləmdə yoxdur. Pəs Koroğlunun eşqi cuşə gəlüb, sazın götürüb basdı sinəsinə, yüzün dutub Ceyran xanıma bu əşarı oxudu:

Genə yarım niqab etmiş,
Deyərsən huridür, sandım.
Siyəh zülfün yüzə salmış,
Deyərsən huridür, sandım.

Əcəb oxşar Züleyxaya,
Çıxıb seyrə, tamaşaya,
Qədəm qoymuş bu səhraya,
Deyərsən huridür, sandım.

İki zülfin töküb yanə,
Dolanur məsti-məstanə,
Baxar hər dəm gülüstanə,
Deyərsən huridür, sandım.

Mənim yarım açub pəncə,
Ağız püstə, ləbi qonçə,
Gözü nərgiz, beli incə,
Deyərsən huridür, sandım.

Koroğlu canilə dildən,
Verübdür ixtiyar əldən,

Oxur bu şeri əvvəldən,
Deyərsən huridür, sandım.

Eylə ki Koroğlu sözin təmam eylədi, Ceyran xanım bir gözaltı baxdı, gördü Cəlali Koroğlu bir iyiddür ki, təmam aləmün iyidləri bunun yanında heç zaddur. Pəs çadırın başından götürüb yəvaş-yəvaş bina eylədi Cəlali Koroğlunun bərabərinə gəlməgə. Koroğlu bir dürüst baxdı, gördü ançe ki, Xacə Mərcan tərif eyləmişdi, Ceyran xanım ondan artıqdur. Koroğlu ayaqə durub, yüzün dutub Eyvəzə və Bəlli Əhmədə dedi:

Ay ağalar, nə durmusuz,
Ala göz Ceyranım gəldi.
Nizamilən səf qurmusuz,
Ala göz Ceyranım gəldi.

Əyninə geyüb al-yaşıl,
Zülfün edüb yüzə hayil,
Koroğluya baxar mayil,
Ala göz Ceyranım gəldi.

Başında var ərəqçını,
Eyləyüb zülfün çin-çini,
Alaydım üzdən maçını,
Ala göz Ceyranım gəldi.

Görməmişdim Dağıstanı,
Olmamışdım yar mehmanı,
Koroğlunun şirin canı,
Ala göz Ceyranım gəldi.

Çün Ceyran xanım bu sözü Cəlali Koroğludan eşidəndə kənizlərilən belə Koroğlunun yanından keçüb gəldi, həman çəmənün bir kənarında əgləşdi. Koroğlu çün bunu gördü, genə eşqi tüğyan eyləyüb sazın götürüb basdı sinəsinə, yüzün çevirdi Ceyran xanıma tərəf, dedi:

Nə durmusan, uzaq yerdən baxarsan,
Məni görcək, ala göz Ceyran xanım.
Ürəgimi eşq oduna yaxarsan,
Məni görcək, alagöz Ceyran xanım.

Ceyran xanım ta bunu Cəlali Koroğludan eşidüb, durub ayağa, öz zülfündən bir tel çəküb saz əvəzinə basdı sinəsinə, dedi:

Başına döndügüm xanlarun xanı,
Bir canım var, sənə qurban, Koroğlu.
Çamlıbeldə iyidlərün sultanı,
Bir canım var, sənə qurban, Koroğlu.

Cəlali Koroğlu çün bu sözü Ceyran xanımdan eşitdi, büldü ki, Ceyran xanımın köylü Koroğluya var, əmma xəcalət çəküb kənardan baxar. Koroğlu genə sazın götürüb dedi:

Əgnində var qırmızıca libası,
Başında var Dağıstanun havası,
Küsüb yarım, yoxsa dəgüb arası,
Məni görcək ala göz Ceyran xanım.

Ceyran xanım çün Cəlali Koroğludan küsmək adın eşitdi, yüzün açub bir neçə qədəm Koroğlunun bərabərinə gəlüb durdu və dedi:

Dağıstanda ulusum var, elim var,
Danışmağa bülbül kimi dilim var,
Tarı bülür, Koroğluya meylim var,
Bir canım var, sənə qurban, Koroğlu.

Cəlali Koroğlu gördü Ceyran xanımun meyli çoxdur, əmma xəlvət dəgül, bu adamlarun yanında xəcalət çəkər ki, Koroğlunun yanına gəlsün. Koroğlu genə yüzün dutub Ceyran xanıma dedi:

Namə yazub məni bura gətirdün,
Çamlıbeldən Dağıstana yetirdün,
Əbəs yerə öz–özüvü itirdin
Məni görcək, ala göz Ceyran xanım.

Ceyran xanım çün bu sözü eşitdi, genə yüzün Cəlali Koroğlu dutub dedi:

Əzəl gündən səni sevüb gəlmişəm,
Bağrım başın eşq oxüynan dəlmişəm,
Namə yazub sənə iqrar etmişəm,
Bir canım var, sənə qurban, Koroğlu.

Koroğlu çün bu sözü eşitdi, büldü ki, Ceyran xanım Koroğludan ötəri aşiqi-biqərardur və buraya gəlməkdən məqsə-

di budur ki, Çamlıbelə getsün. Koroğlu genə yüzün dutub Ceyran xanıma dedi:

Dur ayağə, bir yeri, ey sərvinaz,
Koroğlunu qıl özündən sərəfraz,
Başına döndügüm, çox eyləmə naz,
Məni görcək, ala göz Ceyran xanım.

Ceyran xanım genə durub Koroğlunun bərabərində, dedi:

Süsən, sünbül nəstərənun barıyam,
Bağçalarun heyvasıyam, narıyam,
Ceyran deyər, Koroğlunun yarıyam,
Bir canım var, sənə qurban, Koroğlu.

Çün Ceyran xanım sözin təmam eylədi, dedi:

– Ey Cəlali Koroğlu, daxi durmaq vəqti dəgül, dur əyağa, atları zin edün ki, tezliklən məni götür Dağıstan toprağından kənarə apar ki, atam Məhmud xanı şikara göndərmişəm, yavuqdur ki, şikardan gələ. Əgər şikardan qayıda, heç vəzilən mümkün dəgül ki, məni aparasan. Ondan ötri ki, təmam Dağıstan Məhmud xanın elidür və əlavə bər in atam özü bir zəbərdəst pəhləvandür ki, dava günündə min atlıya bərabərlıq eylər.

Çün Eyvəz balı və Bəlli Əhməd və Dəli Mehtər bunu Ceyran xanımdan eşitdilər, ərz eylədilər ki, ey Cəlali Koroğlu, Ceyran xanım doğru deyər, bura Dağıstandur, iyidlər var ki, hər biri bir aslandur. Nə zərur olub ki, özümüzü həlakətə salaq.

Pəs həman saat Cəlali Koroğlu Qırata səvar olub Ceyran xanımı çəkdi tərkinə, yüz qoydular Çamlıbelə getməgə. Bunları qoy getməkdə olsun, əmma nəqli-dastan eşit bu tərəfdən.

Çün Ceyran xanımı Cəlali Koroğlu apardı, Ceyran xanımun kənizləri ağlıya-ağlıya gəldilər Ceyran xanımun anasınun yanına, dedilər:

– Xanım, nə oturmusan ki, Xacə Mərcan Çamlıbeldən Cəlali Koroğlunu gətürüb bu təllün dalında qoymuşdu. Çün bizlər seyrə getdux o təllün dalına. Koroğlu Ceyran xanımı at tərkinə çəküb apardı.

Çün Məhmud xanun övrəti kənizlərdən bu sözü eşitdi, həman saat bir nəfər atlu göndərdi Məhmud xanın dalınca ki, Məhmud xanı şikargahdan gətürsün. Çün atlı gedüb Məh-

mud xanı gətürdü. Pəs həman saat Məhmud xan adam göndərüb, ətraf çəvanibdən beş yüz atlu başına cəm eyləyüb, Cəlali Koroğlunun dalınca rəvanə oldular. Bunları qoy gəlməkdə olsun, nəql eşit Cəlali Koroğludan ki, çün Ceyran xanımı götürüb yola düşdü, o gün və o gecə at sürüb iki mənzil yol gəldilər. Eylə ki sübh oldu, yetişdilər bir çeşmənün başına, atlarından aşağa gəlüb, namazların qıldılar. Koroğlu dedi:

– Eyvəz, atlar çox inciyüb və özümüz yuxusuz qalmışuq. Ta zöhrə kimin burda qalaq, atlar və özümüz bir qədər rahət olaq, bəd əz an genə yola düşək.

Eyvəz ərz eylədi:

– Qurban olum, bura qalmaq yeri dəgül, məbadə, Məhmud xan atlu götürüb bizim dalımızca gələ, əyağa dur, bu gecə və bu gün yol gedək, ta Dağıstan toprağından çıxaq, bəd əz an istirahət eylə.

Koroğlu Eyvəzin sözin eşitməyüb başın qoydu Ceyran xanımun dizi üstə, yatmağa məşğul oldu. Əmma Eyvəz yüzün dutub Bəlli Əhmədə və Dəli Mehtərə dedi:

– Atlarun təngin möhkəm eyləyün, əgərçi Cəlali Koroğlu mənim sözümü eşitmədi, əmma mənim yəqinümdür ki, Məhmud xan bizim dalımızca gəlür. Mühəyya oturun ki, məbadə, yatasuz və düşmən qəflətən bizim üstümüzə tökülüb dutalar.

Pəs iyidlər atlarun cilovu əllərində, atlar çərayə məşğul oldular. Zöhr vəqti olmuşdu ki, Dəli Mehtər gördü Qırat ayaqların yerə urur və şiyhə çəkir. Dəli Mehtər bir Dağıstan tərəfinə baxanda gördü bir böyük toz uzaqdan peyda olub gəlür. Dəli Mehtər özün yetirdü Eyvəzin bərabərinə ərz eylədi ki, bu gələn toz yəqin Məhmud xandur. Koroğlunu yuxudan bidar eylə ki, düşmən yetişməmiş dava libasın geyüb, amadə olsun.

Pəs Eyvaz özün yetirdi Cəlali Koroğlunun başı üstə, onu yuxudan bidar edüb ərz eylədi ki, qurbanun olum, mən sənə demədim ki, bura qalmalı yer dəgül. Dur ayağə, dava libaslarun gey ki, düşmən yavuqlaşdı.

Pəs Cəlali Koroğlu dönüb bir Dağıstan tərəfinə baxanda, gördü bir əzim toz gəlür. Pəs həman saat dava libasun geyüb, nizəsin götürdü. Xacə Mərcanı qoydu Ceyran xanımun ya-

nında. Pəs Qıratun təngin yeddi yerdən möhkəm edüb səvar oldu, əmma bu tərəfdən Eyvəz balı və Dəli Mehtər və Bəlli Əhməd, onlar həm atlarına səvar olub Koroğlunun sağında və solunda səf çəküb durdular, əmma bu tərəfdən Məhmud xan beş yüz atlu ilən yetişdi Cəlali Koroğlunun bərabərinə. Gördü dört nəfər atlu yol üstə, əmma qızı Ceyran xanım və Xacə Mərcan yoldan kənar bir çeşmənün başında əgləşüblər. Məhmud xan yüzün dutub Xacə Mərcanə, dedi:

– Ey nəmək bəhəram, neçə müddət mənim evimdə qaldun və mənim çörəgimi yedün, axirüləmr mənə xəyanət eyləyüb, məni Dağıstan vilayətində bədnam eylədün. İnşallah, Koroğlunu və səni dutum, bir zillətilən öldürüm ki, təmam xəlqialəm ibrət eyləsünlər.

Xacə Mərcan çün bu sözü Məhmud xandan eşitdi, qorxudan bihuş olub başın qoydu yerə, əmma Cəlali Koroğlu gördü Məhmud xan beş yüz qulam təmam mükəmməl və müsəlləh dalınca salub çox fəxr eylər, yüzün dutub Məhmud xana, dedi:

Döyüş günü iyid olan əl açar,
Çox güvənmə öz-özüvə, Məhmud xan.
Namərd olan düşmən görəndə qaçar,
Çox güvənmə öz-özüvə, Məhmud xan.

Məhmud xan çün bu sözü Cəlali Koroğludan eşitdi, dedi:

– Ey Koroğlu, siz dört nəfər adamsuz, əmma bura mənim öz məmləkətimdür və mənim neçə elim var ki, təmam xəbərdar olub mənim dalımca gəlüllər.

Koroğlu çün Məhmud xandan el adı eşidəndə dedi:

Çamlıbeldə məskənim var, yurdum var,
Hər ölkədə şöhrətim var, adım var,
Meydan günü Qırat kimi atım var,
Çox güvənmə öz-özüvə, Məhmud xan.

Ox götürüb qılıcımı çəkərəm,
Qoşunuvu bir-bir üstən tökərəm,
Başlarvuzu kəllə minar tikərəm,
Çox güvənmə öz-özüvə, Məhmud xan.

Koroğluyam, iyidlərün xanıyam,
Çamlıbelin şövkətli sultanıyam,
Yar yolunda başdan keçüb faniyəm,
Çox güvənmə öz-özüvə, Məhmud xan.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, istədi qılıcın çəksün, Məhmud xan dedi:

– Koroğlu, sən özün çox tərif eylədün, qulaq ver, mən də özümü sənə nişan verüm.

Pəs Məhmud xan bu əşarı oxudu:

Hökm eyləsəm ləkzilərə, dəv çəkər,
Çox güvənmə öz-özüvə, Koroğlu.
Çar tərəfdən üstüvüzə ox tökər,
Çox güvənmə öz-özüvə, Koroğlu.

At üstündə tünd yel kimi əsərəm,
Bulud kimi dört tərəfün kəsərəm,
Başın kəsüb qancıqadan asaram,
Çox güvənmə öz-özüvə, Koroğlu.

Mən saymaram sultanuvu, xanuvu,
Əbəs yerə qoydun şirin canuvu,
İmdi yerə mən tökərəm qanuvu,
Çox güvənmə öz-özüvə, Koroğlu.

Baş kəsməgə qüvvətlicə qolum var,
Dalımca gör beş yüz nəfər dəlim var,
Məhmud xanam, sənün kimi qulum var,
Çox güvənmə öz-özüvə, Koroğlu.

Çün Məhmud xan sözin təmam eylədi, yüzün dutub qulamlarına dedi:

– Cəmaət, qoymuyun bunları!

Pəs beş yüz nəfər adam çar tərəfdən Koroğlunu aralıqa aldılar. Əmma bu tərəfdən Cəlali Koroğlu qılıcın çəküb yüzün dutdu Eyvəzə və Bəlli Əhmədə və Dəli Mehtərə, dedi:

– Qoçaq dəlilərim, qoymuyun!

Pəs hər iki tərəfdən davaya məşğul oldular. Cəlali Koroğlu özü o gün bir dava eylədi ki, rüzgarun gözü beylə dava gör-

məmişdi. Bu tərəfdən Bəlli Əhməd və Dəli Mehtər qılıcların çəküb mərdanə dava eylədilər. Bir az zamanda Məhmud xanun ləşkərinə şikəst verüb üç yüz nəfər qulamlarından həlak eylədilər və qalanı hər biri bir tərəfə qaçıb, Məhmud xan özü meydanda yalquz qaldı. Pəs Dəli Mehtər və Bəlli Əhməd ətrafdan onu əhatə eyləyüb, bir neçə yarə urub, diri dutub gətirdilər Cəlali Koroğlunun yanına. Koroğlu hökm eylədi ki, onun başın kəsün. Ceyran xanım bu əhvalı görəndə, atalıq məhəbbəti cuşa gəlüb, düşdü Koroğlunun ayağına, ərz eylədi:

– Gərək mənim atamı mənə bağışlayasan.

Pəs Koroğlu Məhmud xanı ona bağışlayub günahın əvf eylədi. Məhmud xan ərz eylədi ki, ey Cəlali Koroğlu, mən sənün iyidligün eşitmişdüm, əmma görməmişdim. Yaxşı iyidsən. Mən əhd eylədüm ki, hər il sənə Dağıstandan bac – xərac göndərim.

Pəs Cəlali Koroğlu Məhmud xanı vida eyləyüb, Ceyran xanımı ata səvar edüb, yüz qoydular Çamlıbelə gəlməgə. Mənzilbəmənzil Şirvan vilayətlərin səyahət eyliyə-eyliyə yetişdilər Çamlıbelün həvalisinə, əmma bu tərəfdən iyidlər xəbərdar olub ki, Cəlali Koroğlu Ceyran xanımı Dağıstandan gətürür, təmam atlarına səvar olub Cəlali Koroğlunun istiqbalına gəldilər. Təmami ehtiram və izzətlən onu Çamlıbelə daxil eylədilər. Pəs bir neçə gün qalub, yolun xurdu çıxub. Koroğlu hökm eylədi ki, bir ali məclis bina eylədilər. Ceyran xanımun tədarükün görüb, yeddi gün, yeddi gecə toy dutuldu. İyidlər təmam bu müddəti məclisdə əgləşüb, eyş və nuşə məşğul oldular.

Eylə ki yeddi gün təmam oldu, məşşatələr Ceyran xanımı verdilər Cəlali Koroğluya, ta onlar bir-birindən kami-hasil eylədilər. Eylə ki sübh oldu, Cəlali Koroğlu hökm eylədi, bir neçə dəst xələti– faxir hazır eylədilər. Bir dəst xələt və üç yüz tümən nəqd və bir yaxşı at Xacə Mərcanə verüb yola saldı və bir dəst xələt Eyvəzə verdi və bir dəst xələt Bəlli Əhmədə verdi və bir dəst xələt Dəli Mehtərə verdi və onları çox nəvaziş eyləyüb, mürəxxəs eylədi.

KOROĞLUNUN SƏKKİZİNCİ MƏCLİSİ

Bəlli Əhmədin Davud Paşanın qızı Qumru xanımı gətirmək üçün Ərzuluma getməsi və tutulması. Koroğlunun onun dalınca gedib Davud Paşa ilə dava etməsi və Bəlli Əhmədi xilas etməsi.

Raviyani-əxbar və naqilani-asar belə rəvayət eyləyüb ki, Cəlali Koroğlu bir gün Çardaqlınun Çamlıbeldə neçə nəfər iyidlərün yanınca götürüb şikara çıxdı. Üç gün şikarda qalub bir neçə ahu və bir neçə qaz şikar edüb qayıtdı. Həman gecə o ahuları kabab edüb bir məclisi-alidə iyidləri təmam başına cəm eyləyüb məşğul oldılar o ahuların kababın tənavül etməyə. Bəd əz təam rəqqaslar əl cəngə urub bina qoydılar rəqs eyləmağa və saqilər əllərində piyaleyi-şərab peydərpey məclis əhlinə verürdilər. Ta inki əhli-məclis şərabi-nabdən sərgərm olub məsti-layəqil düşüb keyfə məşğul oldular. Çün nisfi-şəb oldu, məclis pərakəndə olub, iyidlər hər biri öz mənzilinə gedüb istirahətə məşğul oldular. Cəlali Koroğlu həm mənzilinə gedüb yatdı.

Çün sabah oldu, Cəlali Koroğlu ayağa durub gəldi divanxana çadırında əgləşüb hökm eylədi ki, çadırun damənin götürün. Çün çadırun damənin götürdilər. Cəlali Koroğlu gördü Rum tərəfindən bir atlu bərği-şəhab kimi gəlməkdədür. Çün atlı yetişdi, Koroğlu gördü Xacə Yəqubdur. Çün Xacə yetişdi, baş endirüb salam verdi. Cəlali Koroğlu dedi:

– Xacə Yəqub, hardan gəlürsən?

Ərz eylədi:

– Qurbanun olum, Ərzulum şəhərindən gəlürəm.

Koroğlu dedi:

– Qəribə şey o vilayətdə nə gördün?

Ərz eylədi:

– Qurbanun olum, bu gün üç gün və üç gecədir ki, at sürmüşəm və yuxu məni bihal eyləyüb. Mürəxxəs eylə bir qədər rahət olum, bəd əz an gəlüm xidmətüvə, qəribə hekayətim var, ta sənə ərz eyləyim.

Pəs Cəlali Koroğlu xacəni mürəxxəs eyləyüb. Xacə gəldi

mənzilində istirahətə məşğul oldu. Çün axşam oldu, Cəlali Koroğlu hökm eylədi ki, təmam iyidlər məclisdə hazır oldular və Xacə Yəqub həm gəlüb məclisün bir tərəfində əyləşdi. Bəd əz təam və şərab Cəlali Koroğlu yüzin dutub Xacə Yəquba xəbər aldı ki, ey Xacə, bu neçə müddət ki, Rum vilayətlərində səyahət eylərdün, qəribə şey nə gördün?

Xacə Yəqub ərz eylədi:

– Qurbanun olum, bu səfərdə məcmui-Rum vilayətlərin dolanub səyahət eylədüm. Qəribə şey çox gördüm, əmma onların hamısından yaxşı budur ki, ərz eylərəm ki, bu əyyami-səyahətimdə güzarım düşdü Ərzulum şəhərinə və o şəhərin təəllüqü Davud Paşaya var. Bir karvansarada mənzil dutub bir neçə gün o şəhəri dolanurdum ki, bəlkə bir qəribə şey ələ salam. Bir gün keçirdüm küçədən, güzarım düşdü bir ali imarətün yanına. Xəbər aldum ki, bu imarət kimindür? Dedilər bu imarət Davud Paşanun qızı Qumru xanımun imarətidür. Gördüm, çox qəribə ali imarətdür. O imarətün ətrafın dolanurdum. Nagah güzarım düşdü bir qürfənün yanına. Gördüm, qəribə cəng səsi gəlür və xoşavaz müğənnilər oxullar ki, əql insanun başından pərvaz eylər.

Huş başımdan çıxub əyləşdim o qürfənün divarınun dibində, ta inki bir saatdan sora başımı götürdüm yuxarı baxanda, gördüm bir nazənin sənəm oturub qürfənün içində ki, onun camalınun şüai mənim gözümü xirə eylədi. Çün o nazənin məni gördü, xəbər aldı:

– Əcəm oğlu, hara əhlindənsən?

Mən ərz eylədim:

– Xanım, İran əhlindənəm.

Genə xəbər aldı:

– Əcəm oğlu, İranın hansı vilayətindənsən?

Ərz eylədim:

– Mən sövdagərəm, adıma Xacə Yəqub deyəllər. Çamlıbeldən gəlmişəm, Cəlali Koroğlunun rəiyyətlərindənəm.

Dedi:

– Xacə, mənzilün haradur?

Ərz (eylədim):

– Xanım, filan karvansarada mənzil eyləmişəm.

Dedi:

– Xacə, bu gecə mənə mehmansan. Gərək bir qədər məta gətürəsən ki, mən müamilə eyləyəm.

Pəs mən mürəxxəs oldum, gəldüm öz mənzilimə. Eylə ki axşam oldu, gördüm, bir nəfər qulam gəldi mənim mənzilimə, dedi:

– Xacə, Qumru xanım məni göndərib. Buyurdu ki, bir qədər cəvahirat Xacə Yəqub götürüb gəlsün bizim mənzilimizə.

Pəs mən bir qədər cəvahir götürdüm, gəldüm. Ta inki daxil oldum Qumru xanımun imarətinə, gördüm qəribə imarətdür ki, bir belə imarət heç padşaha müyəssər dəgül. Qəribə otaqlar və qəribə talarlar və qəribə hovuzlar ki, fəvvarələrdən su hər tərəfə əfşan olub tökülür. Ta inki daxil oldum Qumru xanımun mənzilinə, gördüm Qumru xanım özü bir taxt üstündə əgləşüb və kənizlər təmam bərabərdə durub.

Pəs salam eylədüm və durdum bərabərdə. Pəs Qumru xanım məni görcək yer göstərüb. Əyləşdüm və mənə çox nəvaziş eylədi. Bəd əz an təam gətürdilər. Çün təam sərf olundu, qəhvə və qəlyan gətürdilər. Onlardan sora yaxşı hurisifət kənizlər əllərində piyaleyi-şərab daxil oldular. Bir neçə piyalə şərab mənə verdilər və bir neçə piyalə Qumru xanıma verdilər. Ondan sora çəngilər əllərində qaval və saz və tar məşğul oldılar bazigarlığa. Ta nisfi-şəb olunca rəqqaslar oynadı ki, huş mənim başımdan pərakəndə oldu. Çün nisfi-şəb oldu, təmam rəqqaslar və çəngilər mürəxxəs olub getdilər. Çün məclis xəlvət oldu, Qumru xanım yüzin mənə dutub, dedi:

– Xacə, yaxşı cəvahiratun var?

Mən bir neçə danə ləl və zümürrüd və yaqut qoydum onun bərabərində yerə. Qumru xanım o cəvahirata baxıb çox təhsin eylədi, dedi:

– Xacə, bunlarun qiyməti neçədür?

Mən ərz eylədim:

– Xanım, onları sənə peşkəş eylədim.

Dedi:

– Xacə, sən bir sövdagər kasıb adamsan, öz vilayətündən

gəlmüsən ki, əyaluva ruzi təhsil eyləyəsən. Bu cəvahiratun qiymətin de ki, mən peşkəş istəmərəm.

Pəs mən hərçi səy eylədüm ki, onları peşkəş eyləyəm, qəbul eyləmədi. Axırüləmr onları bir məbləği-xətirə məndən aldı və pulların təslim eylədi. Bəd əz an məndən xəbər aldı ki, ey xacə, Cəlali Koroğlunu və onun iyidlərin sən görmüsən? Mən ərz eylədim:

– Bəli, bəlkə mənim mənzilim orda olur və həmişə onlarun məclisinə gedərəm.

Dedi:

– Xacə, onun iyidlərinün içində bir nəfər var ki, onun adına Bəlli Əhməd deyəllər. Onu tanursan?

Mən ərz eylədüm:

– Xanım, yaxşı tanuram, onun əsli Rum əhlidür, əmma bir müddətdür ki, Cəlali Koroğlunun rikabında olur.

Dedi:

– Xacə, Bəlli Əhməd necə iyiddür?

Ərz eylədüm:

– Xanım, o, bir yaxşı, şücaətlü cavandur ki, dava günündə onun misli və manəndi yoxdur və çox gözəldür və Cəlali Koroğlu onu iyidlərə sərdar eyləyüb.

Dedi:

– Xacə, mən çoxdandur ki, onun tərifin eşitmişəm və görməz-bülməz ona aşiq olmuşam. Bir tədbir eyləyə bülürsən ki, məni aparasan?

Mən ərz eylədim:

– Xanım, bu xidməti mən başa gətürə bülmərəm. Ondan ötrü ki, mən bir sövdagəri-aciz və fəqir adamam və sənün atan Davud Paşa bir qəhhar adamdur və əlavə bər in Ərzulumun qoşunu çoxdur. Məbadə, Davud Paşa xəbərdar ola, məni duta, həlak eyləyə.

Çün Qumru xanım bu sözi məndən eşitdi, məyus oldu, dedi:

– Xacə, mən öz sirrimi sənə izhar eylədüm ki, bəlkə mənim dərdimə əlac eyləyəsən.

Mən ərz eylədim:

– Xanım, bu dərdün əlacı Cəlali Koroğlunun əlindədür.

Sən səbr eylə, ta mən özümü Çamlıbelə yetirüm və sənün əhvalatun onun xidmətinə ərz eyləyüm ki, bəlkə sənün dərdüvə əlac eyləyə.

Çün Qumru xanım bu sözi məndən eşitdi, bir dəst xələt mənə verdi və iki yüz tuman pul verdi. Pəs mən ona vədə eylədüm ki, inşallah, təcili-təmamilən gedərəm Cəlali Koroğlunun xidmətinə və səni burdan onlar aparur.

Pəs mürəxxəs olub gecə və gündüz at sürüb sənün xidmətüvə gəlmişəm. Çün xacə sözin təmam eylədi, Cəlali Koroğlu hökm eylədi, bir yaxşı xələt Xacə Yəquba verdilər. Dedi:

– Xacə, sən bizim yolumuzda çox zəhmət çəkmüsən. İnşallah, həyat baqi olsa, Qumru xanımı Ərzulumdan gətürüb Bəlli Əhmədün toyunda sənün xəcalətündən çıxaram.

Pəs Cəlali Koroğlu yüzin dutub saqilərə şərab istədi. İsa balı bir piyalə şərab verdi Cəlali Koroğluya. Koroğlu piyaləni əlində dutub yüzin dutdı iyidlərə, dedi:

– Cəmaət, bir qoçaq iyid istərəm ki, mərdanə ayağa durub bu piyaləni mənim əlimdən alub nuş eyləsün və getsün Ərzuluma, Qumru xanımı gətürsün.

İyidlər təmam başların aşağa salub, Bəlli Əhməd yerindən durub gəldi bərabərə, ərz eylədi ki, qurbanun olum, mən razı dəgüləm ki, iyidlər mənim yolumda zəhmət çəksünlər. Bu xidməti mənim özümə vagüzar eylə.

Cəlali Koroğlu dedi:

– Sən otur yeründə, qoy özgəsi getsün ki, sən cavansan və hənuz təcrübə hasil eyləməmüsən.

Bəlli Əhməd ərz eylədi:

– Qurbanun olum, ərz eylədüm ki, razı dəgüləm özgə adam zəhmət çəkə, bu xidmət mənimdür.

Koroğlu dedi:

– Bəlli Əhməd, bu Ərzulum səfəridür, qorxaram ki, məbadə, səni Davud Paşa dutub həlak eyləyə. Qoy özgə iyid getsün.

Bəlli Əhməd çün Qumru xanımun eşqindən biqərar olmuşdu, ərz eylədi:

– Qurbanun olum, sənün dövlətündən kimün nə həddi var məni dutsun. Əgər mürəxxəs eyləsön, mən özüm bu xidmətün

dalınca gedərəm.

Cəlali Koroğlu gördü, Bəlli Əhməd aşiqi-biqərar olub, əsla ölümdən bak eyləməz, sazın götürüb bu əşarı oxudu?

Bəlli Əhməd, Ərzuluma varanda,
Ərzulum alınmaz qala nisbətdür.
Arpa verüb candan artuq saxlasan,
Meydan günü ərəb at yelə nisbətdür.

Tüfəng yaxşı olur nişan atmağa,
Çiginə salmağa, işvə satmağa,
Daldan qovub düşmənini dutmağa,
Cida bir buynuzlu kələ nisbətdür.

Əsbab var ki, atdan yerə yendürür,
Əsbab var ki, bir dəfədə öldürür,
Əsbab var ki, ağac onu sındurur,
Əsbab var ki, başa bəla nisbətdür.

Koroğlu der, salma özün kəməndə,
Bəlli Əhməd, əyləşgilən vətəndə,
Ox qurtulub qıjıltıynan gələndə,
Uca dağdan gəlmiş selə nisbətdür.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Bəlli Əhməd ərz eylədi:

– Qurbanun olum, məni çox qorxudursan. Labüddəm, gərək özüm yalquz Ərzuluma gedəm.

Koroğlu dedi:

– Sən bülmərsən. Bu, Davud Paşadur ki, onun iyidligi təmam Rum vilayətlərində məşhurdur ki, meydan günü min nəfər atlu onun qabağında davam gətirməz və əlavə bər in Ərzulum bir böyük şəhərdür və qoşunu çoxdur. Qorxaram ki, məbadə, səni dutub həlak eyləyələr. Sən səbr eylə ki, bir nəfər təcrübəkar, dava görmüş iyid göndərim, Qumru xanımı gətürsün.

Bəlli Əhməd bunu eşidəndə gözlərinün yaşın töküb ərz eylədi:

– Qurbanun olum, neçə dəfə ərz eylədim ki, heç kəsə zəhmət vermərəm. Gərək özüm yalquz gedəm.

Cəlali Koroğlu gördü, şuri-eşq Bəlli Əhmədi belə dutub ki, əsla özin və sözin bülməz, genə sazın götürüb bina eylədi Bəlli Əhmədi qorxutmağa. Bu əşarı oxudu:

Hu-hu deyüb qənim üstə varanun,
Dalısında qoç qardaşı gərəkdür.
Cida silküb qənim atdan salanun,
Dalısında qoç qardaşı gərəkdür.

Qoç iyidlər dəv deyüb at salanda,
Çar tərəfdən qoşun üstün alanda,
Qürbət yerdə, dar macalda qalanda,
Dalısında qoç qardaşı gərəkdür.

Qol quruyub qüvvət qalmaz bədəndə,
Şeşpər üstən şeşpər başa gələndə,
Əgri qılıc qabırqaya dəgəndə,
Dalısında qoç qardaşı gərəkdür.

Koroğlu der, qənim meydan gəzəndə,
Çar tərəfdən acı yellər əsəndə,
Düşmən gəlüb yol üstünü kəsəndə,
Dalısında qoç qardaşı gərəkdür.

Çün Bəlli Əhməd Cəlali Koroğludan bu sözi eşidəndə Qumru xanımun sevdayi-eşqi gəlüb başına, sazın götürüb basdı bağrına, yüzin dutub Koroğluya, dedi:

Ərəb atım gurup-gurup yer eşər,
Şeşpər açar bu meydanun arasın.
Bir iyidə qəni mövlam yar olsa,
Bəlli Əhməd özü eylər çarasın.

On iki ərəcdür cidamun ucu,
Çox ulu deyəllər islamun gücü,
Əlini çağırram, urram qılıcı,
Ərzulumda ləş ləş üstən qalansun.

Ağam atlıyıdı, mən də piyadə,
Ərənlər əlindən içdüm bir badə,

Bir iş tutum Urustamdan ziyadə,
Qoç iyidlər Ərzulumu talasun.

Mən Əhmədəm, gədükləri busaram,
Qancığadan qanlu başlar asaram,
Əgri qılıc qabırğaya basaram,
Bağırsağı cəndəginə dolansın.

Cəlali Koroğlu çün bu cürəti və cəsarəti Bəlli Əhməddən görüb büldi ki, nəsihət ona təsir eyləməz və labüddən gedər. Məqami-nəsihətdə, dedi:

– Ey Bəlli Əhməd, bülürəm, Qumru xanımun eşqi səni biqərar eyləyüb, öz ixtiyarun əlündən vermüsən. Əmma sənə bir neçə nəsihət eylərəm. Əlbəttə, o nəsihətləri heç vaxt yadundan çıxarma.

Bəlli Əhməd ərz eylədi ki, qurbanun olum, sənün sözlərün təmam nəsihətdür. Hər nə desön, əlbəttə, əməl eylərəm.

Pəs Cəlali Koroğlu yüzin dutub Bəlli Əhmədə, bu əşarı oxudu:

Çünki vardun Ərzulumun şəhrinə,
Əvvəl gecə mənzil etmağun gərək.
Ondan sora nazlu yarun mənzilin,
Hər tərəfdən sorağ etmağun gərək.

Car çəkilüb qoşun gəlsə üstüvə,
Yay qatı tək kaman götür dəstüvə,
Qurban ollam, Bəlli Əhməd, şəstüvə,
At üstündə qıyğac atmağun gərək.

Bulud kimin al qoşunun sağ-solun,
Qoyma qaça, hər tərəfdən kəs yolun,
Bəglərinə aman vermə, sal qolun,
Meydan günü isbat etmağun gərək.

Ac qurt kimin təpilgilən dəstəyə,
Əzrayıl tək aman vermə xəstəyə,
Şagird olub qulağun ver ustaya,
Koroğlunun sözin dutmağun gərək.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Bəlli Əhməd mürəxxəs olub gəldi öz mənzilinə. Əsbabi-rəzm geyüb atına səvar oldu.

Bu tərəfdən Cəlali Koroğlu və yeddi yüz yetmiş yeddi dəli təmam atlarına səvar olub, dört ağac yol Bəlli Əhmədi müşayiət eyləyüb yola saldılar.

Pəs Bəlli Əhməd Ərzulumun yolun dutub mənzilbəmənzil gəlürdi, ta inki yetişdi Ərzulumun üç mənzilliyinə. Bir çeşmə başında atından aşağa gəlüb, bir qədər rahat olub oturmuşdu. Bir vaxt gördü göydən bir sürü durna Ərzulum tərəfinə gedir. Bəlli Əhməd durnaları görəndə Qumru xanımun eşqi düşdü onun başına. Sazın götürüb basdı sinəsinə, yüzin dutub durnalara, bu əşarı oxudu:

Göydən ötən düzüm-düzüm durnalar,
Nazlu yara xəbər verün, yar gəlür.
Ərzulumun şəhrinə etsöz güzar,
Nazlu yara xəbər verün, yar gəlür.

Qəvvas olub dəryaları üzərəm,
İnci kimi göz yaşımı düzərəm,
Qumru deyüb bu çölləri gəzərəm,
Nazlu yara xəbər verün, yar gəlür.

Ahu kimi rəm etmişəm çəməndən,
Bayğu kimi uzaq düşdüm vətəndən,
Bülbül kimi ayrılmışam gülşəndən,
Nazlu yara xəbər verün, yar gəlür.

Bəlli Əhməd öz yarına aşiqdür,
Yalan yoxdur sözlərində sadiqdür,
Dəv günündə Ərzuluma faiqdür,
Nazlu yara xəbər verün, yar gəlür.

Çün sözin təmam eylədi, genə atın minüb yola düşdi. Ta inki bir neçə gündən sora axşam vaxtı yetişdi Ərzulumun darvazasının bərabərinə. Daxil oldu şəhərə. Küçələri dolanurdı ki, bəlkə özinə bir mənzil tapsun, yetişdi bir xırda qapının bərabərinə. Qapını döydü. Bir qarı gəldi qapıya, gördü bir pət-

yarə durub at üstündə, xəbər aldı :

– Cavan, kimi istərsən?

Bəlli Əhməd dedi:

– Qarı ana, qəribəm və bivaxt gəlmişəm, istərəm bu gecə sənə qonaq olam.

Qarı dedi:

– Cavan, gözüm üstə yerün var, bismillah, atundan aşağa gəl.

Bəlli Əhməd gördü ki, əcəb mərdanə qarıdur. Atından aşağa gəlüb, atun zinin götürüb çəkdi töyləyə. Bir əşrəfi verüb qarıya, dedi:

– Bir qədər cov və kah al və bir qədər təam tədarüki gör.

Qarı pulu alıb tədarük gördü. Bəlli Əhməd atın rahat eyləyüb namazın qıldı. Gecədən üç saat keçdi. Bəlli Əhməd dedi:

– Qarı ana, bir qədər təam gətür ki, mən yoldan gəlmişəm.

Qarı dedi:

– Cavan, bir qədər səbr eylə ki, mənim bir xırda oğlum var. Davud Paşanın qızı Qumru xanıma qulambeçədür, o da gəlsün, bəd əz an təam hazır eyləyüm.

Bəlli Əhməd çün bu sözü qarıdan eşitdi, öz göylündə dedi, əcəb oldu ki, Qumru xanımun əhvalatın o oğlandan xəbər allam.

Pəs bir saat keçüb qapı dögüldü. Qarı qapını açıb, oğlan daxil oldu. Qarı dedi:

– Oğul, niyə bu gecə gec gəldin?

Dedi:

– Ana, Qumru xanımun qonağı var idi, o cəhətə gec gəldüm.

Qarı dedi:

– Balam, bu gecə bir qərib qonağım var, ədəblən salam ver və ona xoşgəldün eylə.

Pəs oğlan daxil oldu, gördü bir pətyarə zırpı əgləşüb. Buğlar binaguşindən keçüb. Əlində bir şeşpər əgləşüb. Salam verdi və ona xoş– səfa eyləyüb əgləşdi. Qarı təam gətürüb tənavül eylədilər. Bəd əz təam qarının oğlu xəbər aldı:

– Əmi, hardan gəlürsən və haraya gedərsən?

Bəlli Əhməd dedi:

– Mən əcəm vilayətindən gəlmişəm və işim yanşaqlıqdur. Gəlmişəm bu vilayətə, bəlkə bir qədər para qazanım.

Oğlan dedi:

– Əcəb oldu, əgər yaxşı oxusan, səni Qumru xanıma tərif eylərəm, bəlkə bir neçə gecə orda oxuyasan və sənə bir qədər para verə.

Bəlli Əhməd dedi:

– Çün bu gecə yoldan gəlmişəm və yorulmuşam. İnşallah, sabah gecə bir qədər sənə söhbət eylərəm və oxuram.

Pəs o gecə yatub, çün sübh oldu, qarınun oğlu getdi Qumru xanımun hərəmxanasına. Bəlli Əhməd ayağa dürub əvvəl namazın qılıb, bəd əz an atın rahat eyləyüb çıxdı Ərzulumun bazarın və meydanın bir qədər səyahət eyləyüb gəldi həmama. Ta yolun tozun üzündən və gözündən pak eyləyüb, həmamdan çıxub bir qədər makulat alub və bir qədər kah və cov alub gəldi mənzilə. Atın rahat eyləyüb və qarı həm təam tədarüki görüb. Çün axşam oldu, qarının oğlu gəlüb, çün təamların tənavül eylədilər, qarının oğlu dedi:

– Əmi, dünən gecə vədə eylədün ki, bu gecə bir qədər söhbət eyləyəsən.

Bəlli Əhməd sazın götürüb basdı sinəsinə, bina eylədi söhbət eyləməgə. Bəlli Əhməd o gecə belə söhbət eylədi ki, qarınun huş başından çıxub biixtiyar durdu oynamağa. Qarınun oğlu elə anasın bu əhvalda görəndə durdu ayağa, bir neçə ağac ona urdu, dedi:

– Köpəgin qızı, yüz yaşında hala indi dəli olursan?

Qarı dedi:

– Köpəgin oğlu, sən o uşaqlığıvunan mənə...örgədərsən? Məgər ağ at arpa yeməz?

Bəlli Əhməd onlara islah verüb. Xülasə, Bəlli Əhməd o gecə sübhə kimi söhbət və ixtilat eyləyüb, sübh vaxtı başların qoydular yerə, yuxuya getdilər. Qarınun oğlu bir vaxt gözlərin açdı, gördü az qalub axşam olsun. Sürəti-təmamilən özin yetürdi hərəmxanaya. Çün Qumru xanım onu gördü, dedi:

– Kənizlər, ağac gətürün ki, bu həramzadə bu gün gec gəlübdür.

Kənizlər ağac gətürüb onu bir qədər urdılar. Dedi:

– Xanım, valla, təqsir mənim dəgül, bəlkə təqsir bizim bir

qonağımız var, onunkudur.

Qumru xanım güldü, dedi:

– Həramzadə, bu nə sözdür deyərsən?

Ərz eylədi:

– Xanım, bir əcəm oğlu yanşaq bizdə mənzil eyləyüb, bu gecə söhbət eylərdi. O cəhətə mən yatub yuxuya qalmışdum.

Qumru xanım dedi:

– O yanşaq yaxşı oxur?

Ərz eylədi:

– Xanım, bu gecə belə saz çaldı və belə oxudu ki, mənim bir qarı anam var, yüz yaşında, bir vaxt gördüm, huş onun başından çıxub biixtiyar ayağa durub rəqs eylər.

Qumru xanım çün bu sözü eşitdi, təəccüb eylədi, dedi:

– Həramzadə, sənün günahun bağışladum, əmma bu şərtilən ki, o yanşağı bu gecə gətürəsən ki, bizə söhbət eyləsün.

Ərz eylədi:

– Xanım, o ləzzət ki, bu gecə anam o yanşaqdan aparub, gümanım yoxdur ki, onu qoysun ta mən sənün yanuva gətürəm.

Qumru xanımun ayağı bir az da yandı, bir yaxşı xələt verdi, dedi:

– Gərək o yanşağı bu gecə gətürəsən.

Pəs oğlan qayıdub gəldi evə, dedi:

– Yanşaq, bu gün sənün üstündə Qumru xanım mənə bir bol kötəkkarlıq eylədi, əmma bir yaxşı xələt həm verdi. Gərək bu gecə səni aparam Qumru xanımun mənzilinə. Bu şərtilən ki, mən səni çox tərif eyləmişəm, gərək belə söhbət eyləyəsən ki, huş onlarun başından çıxa.

Pəs Bəlli Əhməd ayağa durub atın rahat eylədi. Bəd əz an sazın götürüb qarınun oğluynan belə gəldi, ta yetişdi hərəmxana qapısına. Çün daxil oldu, gördü səhni-xanədə məşəllər və fanuslar yanar. Əmma talarda bir nazənin sənəm əgləşüb ki, rüzgarun gözü bir belə gözəl görməyüb. Bəlli Əhməd qarınun oğlundan xəbər aldı ki, bu nazənin kimdür?

Dedi:

– Bu, Davud Paşanun qızı Qumru xanımdur.

Çün daxil oldu talara, gördü saqilər əllərində piyaleyi-şə-

rab dutub və müğənnilər rəqs eyləllər. Əmma Qumru xanım özü məsti-layəqil oturub taxt üstündə. Onun camalınun şuai taları rövşən eyləyüb. Salam verüb durdu qabaqda. Qarınun oğlu ərz eylədi:

– Xanım, bu həman yanşaqdur ki, sənə ərz eyləmişdim, gətürmişəm. Qumru xanım dönüb baxanda gördü bir rəna cavan durub bərabərdə. Buğlar binaguşindən keçüb. Əmma heç yanşağa bənzəməz. Deyərsən bəs, padşahzadədür. Dedi:

– Əcəm oğlu, xoş gəlmüsən.

Yer göstərüb Bəlli Əhməd əgləşdi. Bir qədər müğənnilər oxudu və rəqqaslar oynadı. Bəd əz an təam gəlüb sərf olundu. Ondan sora qəhvə və qəlyan gəlüb, bəd əz an Qumru xanım hökm eylədi, saqilər əllərində şərab məclisə daxil oldular. Bir neçə piyalə məclis əhlinə verdilər. Qumru xanım dedi:

– Yanşaq, sən də şərab içərsən?

Bəlli Əhməd ərz eylədi:

– Xanım bizim vilayətimizdə əvvəl qonağa şərab verüllər. Xüsusən, əgər yanşaq ola, ona çox şərab verüllər ki, məst olub şərabun keyfi ona qələbə eyləsün ki, yaxşı söhbət eyləsün.

Qumru xanım dedi:

– Şərab gətürün.

Saqilər bir neçə piyalə şərab Bəlli Əhmədə verüb. Bəlli Əhmədün başı şərabi-nabdən gərm olub dedi:

– Xanım, əcəm vilayətində bizlər şərabı tuluğnan içəruğ. Bir neçə piyalə şərab mənim buğlarımı yaş eyləmədi.

Pəs Qumru xanım hökm eylədi, bir tuluğ şərab gətürdilər. Bəlli Əhməd onu çəküb başına, təmam eylədi. Qumru xanım gördü, bu cavan heç yanşağa bənzəməz. Dedi:

– Əcəm oğlu, hardan gəlmüsən və adun nədür və Ərzuluma niyə gəlmüsən?

Bəlli Əhməd ərz eylədi:

– Xanım, bizim qaidəmiz belədür ki, türki oxuruq. Qulaq ver, ərz eyləyim ki, hardan gəlmişəm və adım nəmənədür və Ərzuluma niyə gəlmişəm. Pəs sazın götürdü, basdı sinəsinə, yüzin dutub Qumru xanıma, dedi:

Əvvəl dəfə məclüsüvə varanda,
Sənün kimi alagözə uğradum.
Salam verüb ayaq üstə duranda,
Sənün kimi alagözə uğradum.

Yar əlindən içəydüm bir piyalə,
Məst oluban gələydüm onda halə,
Qumru xanım, düşmə özgə xəyalə,
Sənün kimi alagözə uğradum.

Qumru xanım elə bu sözü Bəlli Əhməddən eşidəndə, dedi:

– Əcəm oğlu nə bihudə savlarsan? Verrəm kənizlər səni o qədər urar ki, gəldügin yolu azarsan. Sən yanşaq tayfasısan. Biz səni gətirduğ ki, yaxşı söhbət eyləyəsən ki, bu gecə ləzzət aparaq.

Bəlli Əhməd ərz eylədi:

– Xanım, acıqlanma, qoy sözümü təmam eyləyim, ondan sora ixtiyarun var.

Lalə kimi qızartmusan libası,
Sürmə çəküb, gözündə var qarası,
Yox dərdimün səndən özgə davası,
Sənün kimi alagözə uğradum.

Qumru xanım bunu eşidəndə, dedi:

– Yanşaq, mən sənə demədüm ki, bihudə savlama? – yüzin dutub kənizlərə, dedi:

– Urun bu əcəm oğlun ki, mənim məclisimdə biədəbluğ eylər.

Kənizlər ta bunu eşidüb, ətrafdan tökülüb əllərində ağac, istədilər Bəlli Əhmədi ura-ura məclisdən xaric eləsünlər, Bəlli Əhməd genə ərz eylədi:

– Xanım, möhlət ver, qoy sözümü təmam eyləyüm, ondan sora hər nə bilürsən, elə.

Qumru xanım dedi:

– Kənizlər, səbr eyləyün, ta əcəm oğlu sözin təmam eyləsün.

Bəlli Əhməd genə sazın götürüb yüzin dutdu Qumru xanıma, dedi:

Qızılgül tək saralmışam, solmuşam,
Eşq əlindən bağrım başın dəlmişəm,
Adım Əhməd, Çamlıbeldən gəlmişəm,
Sənün kimi alagözə uğradum.

Qumru xanım çün bu sözü Bəlli Əhməddən eşitdi, göylündə dedi, yəqin bu, Cəlali Koroğlunun iyidlərindəndir ki, Xacə Yəqub cəvahirfüruşdan sifariş eyləmişdüm ki, gəlüb məni aparsun. Öz-özünə dedi, gəl bunu bir qorxut, əgər özgə adam olsa, əlbəttə, məlum olur.

Pəs Qumru xanım yüzin dutub Bəlli Əhmədə, dedi:

Əcəm oğlu, nə savlarsan yabanə,
Qalx, get, burdan, Davud Paşa öldürür!
Göz dikmisən mənim kimi cananə,
Qalx, get, burdan, Davud Paşa öldürür!

Bəlli Əhməd çün bu sözü Qumru xanımdan eşidəndə eşq sövdası gəlüb başına, sazın götürüb basdı sinəsinə, ərz eylədi:

– Xanım, məni Davud Paşaynan qorxudursan?

Nazlu yarun havası var başımda,
Əcəm oğlu hara gedər bu yerdən?
Qumru xanım kimi on dörd yaşında,
Əcəm oğlu hara gedər bu yerdən?

Qumru xanım dedi:

– Əcəm oğlu, öz-özünü həlakətə salma. Qorxaram, atam Davud Paşa xəbərdar ola və səni duta. Hökm eyləyə yengiçərilərə, ta səni rizə-rizə eyləyələr.

Baxmagilən müxənnətün felinə,
Uymagilən Çamlıbelün elinə,
Salma özün yengiçəri əlinə,
Qalx, get, burdan, Davud Paşa öldürür!

Bəlli Əhməd Qumru xanımdan bunu eşidəndə, dedi:

– Xanım, sən məni yengiçəri qoşunundan qorxudursan? Qulaq ver:

Bakım yoxdur, qoşunum var, carım var,
Təkəlü tək elim var, sərdarım var,
Çamlıbeldə Koroğlu tək nərim var,
Əcəm oğlu hara gedər bu yerdən?

Qumru xanım gördü bu cavan əsla xof eyləməz, dedi:

– İyid, aqil adamlar hər iş görsə, onun axırın yoxlar. Sən, bir tək yalquz adamsan və bura Rum vilayətidür.

Cahil olan bülməz hər sözin yerin,
Əbəs yerə dağlar qəlbin, cigərin,
Aqil olan gözlər işin axirin,
Qalx, get, burdan, Davud Paşa öldürür!

Bəlli Əhməd ərz eylədi:

– Xanım!

Dünya malı bənzər əlün çirkinə,
Lənət gəlsün bu dünyanun mülkinə,
Mindirməmiş səni atun tərkinə,
Əcəm oğlu hara gedər bu yerdən?

Qumru xanım gördü, bu cavanun meyli bunu aparmaqdur, dedi:

– Əcəm oğlu, sən yalquz məni Ərzulumdan apara bülməzsən. Bundan ötrü, burdan Çamlıbelə neçə mənzil yoldur, atam Davud Paşa xəbərdar olur, təmam Ərzulumun qoşunun yığar, bizim dalımızca gəlür. Həm səni öldür(ür) və həm məni öldürür.

Qərib iyid yad ölkədən tez gedər,
Vətən deyər, gecə-gündüz yaş tökər,
Qumru xanım baxar sənə, rəhm elər,
Qalx, get, burdan, Davud Paşa öldürür!

Bəlli Əhməd çün Qumru xanımdan bu sözü eşitdi, dedi:

– Xanım, məni Ərzulumun qoşununnan və Davud Paşadan çox qorxudursan.

Yüz min olsa Ərzulumun qoşunu,
Bəlli Əhməd kəsər dəstə başını.
Əvvəl salur atdan Davud Paşanı,
Əcəm oğlu hara gedər bu yerdən?

Çün Qumru xanım bu sözü eşitdi, büldi ki, bu, həman Bəlli Əhməddür ki, Xacə Yəqubdan sifariş eyləmişdi gəlüb bunu aparsun. Çün əvvəl məclisdə kənizlərə hökm eyləmişdi, onu ursunlar, xəcalət çəküb başın saldı aşağa. Bir saata kimin ba-

şın yuxarı götürmədi. Bir saatdan sora bir piyalə şərab istədi. Kənizlər şərab gətürüb Qumru xanım aldı, içdi, dedi:

– Əcəm oğlu, sən də şərab içirsən?

Bəlli Əhməd ərz eylədi:

– Xanım, içərəm, əmma bu şərtilən ki, sən ayağa durub piyaləni gətürəsən.

Pəs Qumru xanım ayağa durub məsti-tavus kimin piyaləni doldurub yüz min naz-qəmzə ilən yavaş-yavaş gəldi Bəlli Əhmədün bərabərində durdu, piyaləni təarüf eylədi. Bəlli Əhməd piyaləni alub içdi. Qumru xanımun eşqi onu sərməst edüb genə sazın götürdü basdı sinəsinə, bu türkünü oxudu:

Çamlıbeldən Ərzuluma varanda,
Qumru xanım, səni deyin gəlmişəm.
Gözüm vardur sənün kimi cananda,
Bülbül kimi gülzaruva gəlmişəm.

Məst olubdur yarım, çox içib badə,
Kimsənəm yox, yetişəydi fəryadə,
Uğramışam sənün kimi səyyadə,
Əcəb yerdə şikaruva gəlmişəm.

Qızılgülün xərmənidür, xərməni,
Nə həddi var gülün, iylərəm səni,
Siyəh zülfün salub kəməndə məni,
Çamlıbeldən iqraruva gəlmişəm.

Bəlli Əhməd ayrı düşüb elindən,
Gülşənindən, bülbülündən, gülündən,
Qumru xanım, valla, sənün əlündən,
Pərvaz edib civaruva gəlmişəm.

Çün Bəlli Əhməd sözin təmam eylədi, Qumru xanım daxi tab eyləməyüb qolların saldı Bəlli Əhmədün boynuna. Bir neçə busə bu yüzindən-o yüzindən alub, dedi:

– Məni bağışla ki, əvvəl dəfədə mən səni tanımadum və kənizlərə hökm eylədim ki, sənə tərki-ədəbluğ eylədilər.

Yapuşdı Bəlli Əhmədün əlindən, onu gətirdi öz taxtınun üstündə əgləşdürdi. Bəd əz an müğənnilərə hökm eylədi ki, rəqs

eyləsinlər və saqilər piyaleyi-şərab peydərpey Bəlli Əhmədə və Qumru xanıma verurdilər. Ta inki onlarun başı şərabi-nabdan gərm olub keyfə məşğul oldular. Çün nisfi-şəb oldu, Qumru xanım təmam kənizləri və müğənniləri və saqiləri mürəxxəs eyləyüb ki, hər kəs öz mənzilində yatub istirahət eyləsün.

Çün məclis xəlvət oldu, özü ayağa durub bir dəst yaxşı rəxti-xab gətürüb taxt üstündə saldı. Bəlli Əhməd və Qumru xanım qol bir–birinün başı altına qoyub, bir qədər söhbət eyləyüb və bir-birindən busə almağa məşğul oldular. Ta inki gecənin bir vaxtında onları yuxu dutub yatdılar. Bəlli Əhməd bir vaxt gözün açdı, gördü az qalub gün zöhr olsun. Ayağa durdu, Qumru xanımı yuxudan oyadub mürəxxəs oldu, gəldi qarının mənzilinə.

Ta atın rahat eyləyüb, axşam vaxtı olanda, genə qarının oğlu onu aparub Qumru xanımun mənzilinə... Xülasə, bir həftəyə kimin gündüzlər olanda Bəlli Əhməd gəlürdi Ərzulumun bazarında və meydanında dolanurdı, gecələr olanda gəlürdü Qumru xanımun mənzilinə, ta sübhə kimin eyşü-nuşə məşğul olurdu. Ta inki bir gecə Bəlli Əhməd yüzin dutub Qumru xanıma, dedi:

– Xanım, çox tul tapdı mənim Ərzulum vilayətində qalmağım. Cəlali Koroğlu imdi müntəzir əgləşüb, gərək gedax:

Qumru xanım dedi:

– İxtiyarun var, hər vaxt şövqün olsa getmağa, gedaruğ.

Qəzayi-rəbbanidən bunlarun bu gövtugusin bir həramzadə kəniz eşidüb gəldi Davud Paşanun qulluğuna. Ərz eylədi:

– Paşam sağ olsun, əgər mənə aman verürsən ki, öldürməyəsən, bir gizlin sözüm var, ərz eylərəm.

Davud Paşa ona aman verüb, o həramzadə bədbəxt ərz eylədi:

– Paşam sağ olsun, bir həftədür ki, bir pətyarə əcəm oğlu hər gecə gəlür sənün qızun Qumru xanımun mənzilinə, ta illa sübh bir-biriylən söhbət eyləyüb yatallar. Əmma gündüzlər olanda əcəm oğlu gedər.

Çün Davud Paşa o kənizdən bu sözü eşitdi, dedi:

– Bədbəxt həramzadə, nyiə bəs bu bir həftədə mənə xəbər vermədün?

Ərz eylədi:

– Qumru xanımdan qorxardum. Əmma dünən gecə onlar bina qoydılar ki, bu gecə Ərzulumdan çıxıb getsünlər Çardaqlınun Çamlıbelə.

Davud Paşa ta bunu eşidüb, qəzəbnak olub dedi:

– Kəniz, bu gecə o əcəm oğlu hərəmxanəyə gələndə mənə xəbər eylə.

Pəs kəniz mürəxxəs olub qayıtdı. Əmma çün axşam vaxtı oldu, Bəlli Əhməd əvvəl atın rahat eyləyüb kah və cov verdi. Bəd əz an onun zinin qoyub yeddi yerdən təngin bərkidüb hazır qoydu. Özü gəldi Qumru xanımun mənzilinə. Əmma bu tərəfdən Qumru xanım həm getmək tədarükün görüb, bir qədər qızıl və gümüş və cəvahirat xurcuna qoyub müntəzir oturmuşdu. Ta inki Bəlli Əhməd gəldi, bunlar istədilər ki, hərəmxanədən çıxsunlar. Bu tərəfdən kəniz həramzadə qaçıb gəldi Davud Paşa yanına, ərz eylədi:

– Paşam sağ olsun, həman əcəm oğlu gəlib və sənün qızun Qumru xanım həm oniylən belə gedillər.

Davud Paşa çün bunu eşidib, iki yüz nəfər yengiçəri göndərüb hərəmxanənin ətrafın əhatə eyləyüb durdular. Bəlli Əhməd bixəbər Qumru xanımı götürüb istədi hərəmxanədən xaric olsun, yengiçərilər ətrafdan tökülüb istədilər Bəlli Əhmədi dutsunlar. Bəlli Əhməd əhvalı belə görəndə qılıcın çəküb, onlarılan dava eyləyüb, hər kəs qabağına gəlürdi, onu iki para eylərdi. Ta inki bir tərəfdən Paşa hökm eyləyüb ətrafdan qoşun tökülüb Bəlli Əhmədi aldılar aralığa. Bəlli Əhməd o gecə üç yüz nəfər yengiçəri həlak eylədi. İstədi aralıqdan çıxsun, Davud Paşa hay urdu:

– Cəmaət, bu qədər qoşun bir nəfər əcəm oğlunun öhdəsindən gələ bilmərsüz? Qoymuyun!

Pəs ətrafdan Ərzulum əhli və yengiçəri tökülüb biçarə Bəlli Əhmədi dutub qolların bağlıyub gətürdilər Davud Paşanun hüzurinə. Davud Paşa hökm eylədi:

– Onu məhbus eyləyün, ta sabah onu verün dara

çəksünlər.

Pəs Bəlli Əhmədi gətürüb bir yerdə məhbus eylədilər. Eylə ki sübh oldu, Paşa (əmr) verdi, Ərzulumun küçə və bazarında car çəkdilər ki, təmam övrət və kişi Ərzulumun meydanına cəm olsunlar ki, bu əcəm oğlun bu gün dara çəküb öldürsünlər.

Davud Paşanun bir vəziri var idi ki, onun adına Əhməd afəndi deyərdilər. Çox aqil və rəhmdil vəzir idi. Eylə ki bu carı eşidüb özün yetürdi Davud Paşanun hüzurinə, ərz eylədi:

– Paşam sağ olsun, o dustağı ver, gətürsünlər, görüm, necə adamdur ki, belə cürət və cəsarət eyləyüb özün padşah hərəmxanasına salub?

Paşa hökm eylədi, Bəlli Əhmədi qolları bağlı gətirdilər hüzura. Vəzir dürüst tamaşa eylədi, gördü bir pətyarədür. Əgər onun qolların açalar və at-əsbabın verələr, təmam Ərzulumun qoşunu və rəiyyəti cəmiyyət eyləsə, onun meydanından qaçallar. Vəzir dedi:

– Əcəm oğlu, hara əhlindənsən və kimün adamlarındansan?

Bəlli Əhməd dedi:

– Vəzir, Çamlıbeldən gəlmişəm və Cəlali Koroğlunun iyidlərindənəm.

Vəzir ta Cəlali Koroğlunun adın eşitdi, büldi ki, əgər Davud Paşa bu gün bunu öldürə, Cəlali Koroğlu qoşun çəküb Ərzulum üstə gəlür və əgər aləm qoşun olsa, onun öhdəsindən gəlməz və Ərzulumu xarab eyləyüb yerində xəsil əkdürür. Vəzir dedi:

– Cavan, sənin ki, hünərün yoxdur, niyə belə xəyanət eylədün ki, bu gün dəstgir olasan?

Bəlli Əhməd ərz eylədi:

– Vəzir, mənim hünərim çoxdur, əmma məni qəflətən dutdılar. Əgər istərsən mənim hünərimi görəsən, ver mənim qollarımı açsunlar və atımı və qılıcımı versünlər. Davud Paşa təmam Ərzulumun qoşunun yığsun, mənimlən mərdligilən dava eyləsün. O vaxt mənim hünərim sənə müşəxxəs olur.

Vəzir gördü çox cürətlü cavandur, yüzin dutub Davud Pa-

şaya, ərz eylədi:

– Paşam sağ olsun, bunu öldürmək indi məsləhət dəgül. Ver, bunu bir neçə gün məhbus eyləsünlər, ta görək Cəlali Koroğludan nə xəbər olur? Mən qorxaram ki, bunu həlak eyləyəsən və bu xəbər Cəlali Koroğluya yetişə, dəlilərin götürüb Ərzulum üstə gələ və Ərzulumu xarab eyliyə. O vaxt peşiman olursan ki, bir nəfər adamdan ötrü bir şəhəri ölümə verəsən.

Paşa bir qədər fikir eyləyüb, vəzirin sözin təsdiq eyləyüb hökm eylədi, Bəlli Əhmədi igirmi günə kimin məhbus eyləsünlər. Əgər bu müddətdə Cəlali Koroğludan bir xəbər olmasa, onu dara çəksünlər. Pəs Bəlli Əhmədi saldılar dustağa.

Bu, burda qalsun, nəql eşit Qumru xanımdan. Çün Bəlli Əhmədi Davud Paşa məhbus eylədi, Qumru xanım bir kağız yazdı Cəlali Koroğluya ki, ey Cəlali Koroğlu, agah və xəbərdar ol ki, mənim atam Davud Paşa Bəlli Əhmədi dutub. İstərdi öldürsün, əmma vəzir Əhməd afəndi iltimas eylədi ki, ta igirmi günə kimin onu öldürməsün, məndən səni xəbərdar eyləmək. Əgər igirmi günə kimin özün Ərzuluma yetürmiyəsən, daxi Bəlli Əhmədi görə bülməzsən.

Çün namə təmam oldu, onu məxfi bir qasidə verüb yola saldı. Qasid gecə və gündüz yol getməkdə olsun, əmma nəqli-dastan eşit Cəlali Koroğludan ki, çün Bəlli Əhmədi Ərzuluma yola saldı, gecə və gündüz müntəzir idi ki, görsün Bəlli Əhməddən nə soraq gəlür. Ta inki bir gecə yatub aləmi-vaqiədə gördü ki, Davud Paşa Bəlli Əhmədi dutub, istər dara çəksün və Bəlli Əhməd dar dibində durub qolları bağlı hər tərəfə baxar, gözünün yaşın tökər və ona bir nəfər kömək eyləyən tapulmaz.

Çün Cəlali Koroğlu bu vaqiəni görüb, vəhşətilən yuxudan durub çıxdı xeymədən eşigə. Bir nəfər adam göndərdi Dəmirçioğlu Telli Həsəni gətirdülər. Çün Dəmirçioğlu yetişdi, gördü Cəlali Koroğlu çıplaq durub xeymə bərabərində, əmma gözünün yaşın tökər. Ərz eylədi:

– Qurbanun olum, bu gecə vaxtı sənə nə vaqe olub? Niyə belə ağlıyırsan? Cəlali Koroğlu yüzin dutub Dəmirçioğluna, dedi:

Bir yuxu görmüşəm, Dəmirçioğlu,
Dutulubdur Bəlli Əhməd, əldədür!

Dar dibində durub qolları bağlı,
Dutulubdur Bəlli Əhməd, əldədür!

Bu dəvləri, durmun, toxuyun daşa,
Özüzü yetürün Dəlüklü daşa,
Az qalub göz yaşım başımdan aşa,
Dutulubdur Bəlli Əhməd, əldədür!

Dəli Mehtər, Qıratımı gətürün,
Yeddi yerdən onun təngin bərkidün,
Çamlıbeldə oturmağı tərgidün,
Dutulubdur Bəlli Əhməd, əldədür!

Oturmuyun, durun, gedağ, el carı,
Şikəstə köylümün getməz qubarı,
Koroğlunun Rüstəm kimi sərdarı,
Dutulubdur Bəlli Əhməd, əldədür!

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Dəmirçioğlu ərz eylədi:

– Qurbanun olum, bu nə sözdür, deyirsən? Səbr elə, ta sübh olsun, ta bir nəfər qasid göndərək, bəlkə bir əhval bülək.

Çün sübh oldu, Koroğlu hökm eylədi, təmam iyidlər məclisə cəm oldu. Koroğlu bir gözün dolandırub məclisə baxanda gördü, təmam iyidlər öz yerində oturub, əmma Bəlli Əhmədin yeri boş qalub. Bunu görcək bir gözünün yaşın töküb yüzin dutub iyidlərə, dedi:

Ay ağalar, bu gün fürsət günüdür,
Bəlli Əhməd bu məclisdə görünməz.
Qılıc bağlun, durmun, qeyrət günüdür,
Xan Əhmədim bu məclisdə görünməz.

Çamlıbeldən baydağ açub çıxaram,
İldırım tək mənzilləri axaram,
Ərzulumun qalasını yıxaram,
Bəlli Əhməd bu məclisdə görünməz.

Davud Paşa girsə yerün qərinə,
Öldürübən od uraram qəbrinə,

Köç – külfətin çəkdürrəm at tərkinə,
Bəlli Əhməd bu məclisdə görünməz.

Koroğluyam, qılıcımdan qan damar,
Çəksəm qılıc, gögdən yerə baş yağar,
Rüstəm olsa, durmaz, qabaqdan qaçar,
Bəlli Əhməd bu məclisdə görünməz!

Koroğlu çün sözin təmam eylədi, bir vaxt gördülər, bir qasid daxil oldu məclisə, dedi:

– Cəmaət, sizün içüvüzdə Cəlali Koroğlu kimdür?

Dedilər:

– Neylərsən?

Dedi:

– Qasidəm, Ərzulumdan ona kağız gətürmüşəm.

Cəlali Koroğlu dedi:

– Gətür mənə kağızı.

Qasid kağızı verüb, Cəlali Koroğlu baxanda gördü, Qumru xanım yazub ki, ey Cəlali Koroğlu, bül və xəbərdar ol ki, Bəlli Əhmədi mənim atam Davud Paşa dutub. İstərdi onu dara çəküb öldürsün, əmma Əhməd afəndi vəzir igirmi günə kimin möhlət alub. Mən fürsəti qənimət bülüb bu kağızı qasiddən sanqa göndərdüm. Əgər qeyrətün var, tezliklən Ərzulum şəhərinə gəl, Bəlli Əhmədi və məni buradan apar.

Çün Koroğlu əhvalatdan xəbərdar olub, hökm eylədi, həman saat qasidə bir dəst xələt və yüz tuman pul verdilər. Bəd əz an Cəlali Koroğlu bir namə vəzir Əhməd afəndiyə yazdı ki, sənün məhəbbətün Bəlli Əhmədün maddəsində bizə yetişdi. Bu naməni sənə göndərdüm ki, ta biz gəlincə gərək Bəlli Əhməddən mütəvəcceh olasan.

Çün namə təmam oldu, onu verüb qasidə və bir namə həm Qumru xanıma yazdı ki, sənün kağızun bizə yetişdi. Xatircəm ol ki, bu yavuq zamanda Ərzuluma varid olluq.

Bəd əz an bir yaxşı at qasidə verüb, dedi:

– Qoççağım, gərək bu kağızı beş günə kimin Ərzuluma yetürəsən.

Qasid naməni Cəlali Koroğludan alub, atına səvar olub,

gecə və gündüz yatmıyub, dört gün və dört gecə at sürüb ta özünü yetürdi Ərzulumun şəhərinə. Əvvəl Qumru xanımun kağızın verdi. Bəd əz an Əhməd afəndinün naməsin verdi. Vəzir naməni açub oxudu, gördü Cəlali Koroğlu yazub, vəzir, Davud Paşaya müjdə ver ki, bu yavuq zamanda Ərzuluma gəlürəm. Hər tədarüki var, görsün.

Vəzir həman saat naməni götürüb gəldi Davud Paşanın hüzuruna. Naməni verdi, ərz eylədi:

– Qurbanun olum, mən sənə ərz eylədüm ki, Bəlli Əhmədi mürəxxəs eylə ki, Cəlali Koroğlu bu gün-sabah yeddi yüz yetmiş yeddi dəlini götürüb gəlür Ərzulum üstünə.

Davud Paşa çün bu sözü Əhməd afəndidən eşitdi, qəzəbnak oldu, dedi:

– Vəzir, məni Koroğluynan qorxudursan?

Həman saat fərman yazdı ki, Ərzulumun çahar ətrafından qırx beş min qoşun pəsü-piş bina eylədilər cəm olmağa.

Bunları qoy burda qalsun, nəqli-dastan eşit Cəlali Koroğludan. Çün qasidi yola saldı, adam göndərüb Giziroğlu Mustafa bəgi ehzar eyləyüb. Mustafa bəg iki yüz atlı ilən gəldi. Pəs Cəlali Koroğlu hökm eylədi ki, Dəli Mehtər Qıratın zinin qoyub, təngin möhkəm edüb, çəkdi rikabə. Bu tərəfdən məcmuyi-yeddi yüz yetmiş yeddi dəli ayaq həlqeyi-rikabə qoyub atlarına səvar oldular və Giziroğlu Mustafa bəg iki yüz atlu ilən səvar olub, Cəlali Koroğlunun rikabında yüz qoydılar mənzilbəmənzil Ərzulum tərəfinə getmağa.

Gecə və gündüz at sürüb ta inki yetişdlər Ərzulumun iki ağaclığında bir böyük çəmən var idi, orda atlarından düşüb, atların bağladılar çəməndə və özləri çadırların qurub o çəmənün ətrafında bir qədər yatub istirahət elədilər. Bəd əz an Cəlali Koroğlu yüzin dutub iyidlərə, dedi:

– Cəmaət, neçə gündür ki, at sürüb yol gəlmişuğ. Heç təam yeməmişuğ. Neçə nəfər getsün iyidlərdən şikara. Bəlkə bir qədər şikar ələ gətürə, bu gecə çəməndə kabab eyləyağ.

Dəmirçioğlu ərz eylədi:

– Qurbanun olum, indi bir süri qoyun bu dağun ətrafında çərayə məşğul idi. Əgər mürəxxəs eyləsən, o qoyunlardan ne-

çəsin gətirruğ ki, onlar osmanlu malıdur, əlbəttə, halaldur.

Koroğlu mürəxxəs eyləyüb. Dəmirçioğlu neçə nəfər iyidlərdən yanınca götürüb, gəldi qoyun içinə. Gördü, iki nəfər şəban bu qoyunları otarur. Dəmirçioğlu dedi:

– Şəban, bu qoyunlardan bir neçəsin bizə sat.

Şəban dedi:

– Əcəm oğlu, bu qoyunlar satlux dəgül, bunlar Davud Paşanundur.

Dəmirçioğlu dedi:

– Nə eybi var, Paşa nə bilür? Neçə qoyun bizə sat və bizdən qiymətin al.

Şəban dedi:

– Əcəm oğlu, nyiə bihudə savlarsan? Mən Paşa malın sata bülmərəm...get!

Dəmirçioğlu ta bu sözü şəbandan eşidüb şeşpərin onun başından elə urdı ki, başı dağılub başınun məğzi töküldü yerə. O biri şəban əhvalı belə görəndə qoyunu qoyub yüz qoydu Ərzuluma tərəf qaçmağa. Dəmirçioğlu at salub o şəbanı dutub qolların bağlıyub o qoyunları və o şəbanı gətürdi Cəlali Koroğlunun xidmətinə. Pəs iyidlər təmam qoyunların başların kəsüb kabab eylədilər.

Cəlali Koroğlu xəbər aldı şəbandan ki, Ərzulumdan nə xəbərin var? Şəban dedi:

– Cavan, yaxşı eyləmədün ki, Davud Paşanun qoyunların zəbt eylədün. Davud Paşa özü bir qəvi heykəl pəhləvandur. Əlavə bər in neçə gündür ki, hökm eyləyüb ətraf cəvanibdən qırx beş min nəfər qoşun Ərzuluma cəm olub ki, Cəlali Koroğluynan dava eyləsün.

Pəs Cəlali Koroğlu hökm eylədi ki, o şəbanın burnun və qulaqların kəsüb boynundan asdılar. Dedi:

– Şəban, get Davud Paşaya xəbər apar ki, Cəlali Koroğlu gəlüb həm qoyunları apardı və həm məni bu hala saldı.

Pəs şəban burnundan və qulaqlarından qan tökülə-tökülə özün yetürdi Davud Paşanun xidmətinə. Fəryad eylədü ki, Paşam sağ olsun, dad Cəlali Koroğlunun əlindən ki, sənün təmam qoyunlarun zəbt eyləyüb öldürdi və məni bu hala sa-

lub göndərdi sənün yanuva.

Davud (Paşa) çün şəbandan bu sözü eşitdi, atəşi-qəzəbi şöləvər olub hökm eylədi ki, car çəksün ki, təmam qoşun sübh vaxtı hazır olsunlar. Pəs o gecə Əhməd afəndi vəziri istəyüb məşvərət eylədi. Əhməd afəndi ərz eylədi ki, Paşam sağ olsun, mən eşitmişəm ki, Cəlali Koroğlu bir bibak adamdur və çox pəhləvandur və əlavə bər in Giziroğlu Mustafa bəg təmam Rum vilayətlərində məşhurdur ki, çox dilavərdür və eşitmişəm ki, Cəlali Koroğlunun yeddi yüz yetmiş yeddi dəlisi var ki, hər biri dava günündə bir Rüstəmdür. Mən məsləhət bilmərəm dava eyləməga. Yaxşısı budur ki, sübh vaxtı Bəlli Əhmədi həbsdən çıxarub xələt verəsən və öz qızun Qumru xanımı ona təslim eyləyüb mürəxxəs eyləyəsən və mən özüm bir qədər töhfə və hədiyyə götürüb gedərəm Cəlali Koroğlunun xidmətinə. Bəlkə sizün aralığıvuzda da sulh binası qoyam.

Çün Davud Paşa bu sözü Əhməd afəndidən eşitdi, qəzəbnak olub dedi:

– Vay anasın satdığım, bu nə sözdür, deyirsən? Cəlali Koroğlunun nə həddi var ki, mənim meydanıma gəlsün? İnşallah, sabah onu və təmam iyidlərin həlak eylərəm. Ondan sora verüm səni rizə-rizə eyləsünlər. Ondan ötrü ki, sən məni Cəlali Koroğludan qorxudursan.

Pəs vəzir biçarə qorxudan heç dinməyüb sakit oldu. Eylə ki sübh oldu, Davud Paşa hökm eylədi ki, qırx beş min qoşun təmam mükəmməl və müsəlləh olub, təbil çala-çala Ərzulumun darvazasından çıxub yüz qoydılar Cəlali Koroğlunun üstünə gəlməgə. Az qaldılar yetişsünlər, bu tərəfdən Cəlali Koroğlu xəbərdar olub hökm eylədi ki, təmam iyidlər atlarınun təngin möhkəm edüb, dava əsbabın geyüb atlarına səvar oldular. Əmma Cəlali Koroğlu özü o gün neçə geyim bir-birinün üstündən geyüb qılıcın bağladı. Dəli Mehtər Qıratın təngin yeddi yerdən möhkəm edüb, Koroğlu ayağın həlqeyirikabə qoyub səvar oldu. Yüzin dutub iyidlərə, dedi:

– Cəmaət, bu gün qeyrət günüdür, gərək mərdanə dava eyləyəsüz ki, bəlkə bu qoşunu sındırub Bəlli Əhmədi xilas eyləyək.

Pəs Cəlali Koroğlu o çəmənün bərabərində iyidlərin səfin

düzüb, Davud Paşanun yolun kəsüb müntəzir durdu. Bir vaxt nə tamaşa eylədi ki, qırx beş pərgari-aləm, nişaneyi-qırx beş min ləşkər nümudar oldu ki, təmam yengiçərilər atlara səvar olub tib və dəstə qurub gəlüllər. Əmma Davud Paşa özü qabaqca gəlür.

Cəlali Koroğlu dürüst tamaşa eylədi, gördü vaqiən Davud Paşa bir dilavər pəhləvandur ki, onun misli və manəndi yoxdur. Çün yetişdilər, onlar da gəlüb Cəlali Koroğlunun bərabərində nizamlan səf çəküb durdılar. Pəs Davud Paşa at salub meydana, bir neçə dəfə atına cövlan verüb, meydanun ətrafın dolanub gəldi. Meydanun vəsətində nizəsinə təkyə eyləyüb durdu. Səsləndi:

– Əcəm iyidləri kimdür, bu gün mənim meydanıma gəlsün.

Cəlali Koroğlu ta bunu Davud Paşadan eşidüb, bir nərə çəküb Qırata bir acı taziyanə çəkdi. O heyvan acıqlanub, ahu kimin yerdən çınqıyub əndaz götürdü. Bir türfətül-eyndə özün yetürüb meydana, bir neçə baş meydanda at dolandurub bəd əz an kəsdi Davud Paşanun qabağın.

Davud Paşa dürüst mülahizə eylədi, gördü, vaqiən Cəlali Koroğlu, deyərsən bəs, bir acıqlanmış şirdür, gözləri hirsindən qızarub. Əgər təmam Ərzulumun əhli yerindən oynıyub gəlsə, bunun öhdəsindən gələ bilməzlər. Pəs Davud Paşa səsləndi:

– Anasın satdığım əcəm oğlu, nə cürətlən mənim qoyunlarımı öldürüb kabab eylədün? Bu gün sənün təmam iyidlərün öldürüb, ətlərin kabab əvəzinə Ərzulumun itlərinə qismət eylərəm.

Cəlali Koroğlu çün bu sözü Davud Paşadan eşidüb qəzəbnak oldu, dedi:

– İyid olan, dava günündə ağızların yumar, əllərin açar.

Çün Davud Paşa bu sözü eşitdi, nizəsin yerdən götürüb həvalə eylədi Cəlali Koroğluya. Koroğlu onun nizəsin rədd eylədi. Xülasə, neçə tən nizə onlarun arasında rəddü-bədəl oldu. Cəlali Koroğlu gördü Davud Paşa yaman hərifdür, bunun meydanında durmaq çox müşküldür. Pəs Cəlali Koroğlu qılıcın çəküb, dedü:

– Davud Paşa, belə xəyal eylərsən, bəs ki, Koroğlu Ərzulu-

mun qalasın xarab eyləməyincə burdan gedər? Qulaq ver, bizlər dava günündə türki oxuruq, ondan sora dava eyləruğ.

Pəs Cəlali Koroğlu bu əşarı oxudu:

Yıxmıyınca Ərzulumun qalasın,
Əl çəkmərəm, Davud Paşa, yəxündən!
Qırmıyınca yengiçəri dəstəsin,
Əl çəkmərəm, Davud Paşa, yəxündən!

Gecə-gündüz Qıratımı sürmişəm,
Çamlıbeldən Ərzuluma gəlmişəm,
Əsrəmişəm, dəvə kimin qızmışam,
Əl çəkmərəm, Davud Paşa, yəxündən!

Cəllad olub qılıcımı çəkərəm,
Topraq üstə qızıl qanun tökərəm,
Rüstəm kimi cigərüvi sökərəm,
Əl çəkmərəm, Davud Paşa, yəxündən!

İyidlərün dəstələrin bəzərəm,
Qıratınan meydan için gəzərəm,
Toxmağınan, valla, başun əzərəm,
Əl çəkmərəm, Davud Paşa, yəxündən!

Qoç Koroğlu giribdür meydanuva,
Neçə vəqtdü susıyubdur qanuva,
Əqrəb kimi daraşuram canuva,
Əl çəkmərəm, Davud Paşa, yəxündən!

Davud Paşa çün Cəlali Koroğludan bu sözləri eşitdi, qəzəbnak olub, bir məhmiz atına çəküb hirsindən bir meydanun ətrafın dolandı. Bəd əz an gəldi durdu Koroğlunun bərabərində, dedi:

– Əcəm oğlu, çox özün tərif eylədün. İndiyə kimin sən pəhləvan davasına girməmüsən, həmişə uşaq davasına düşmüsən. Qulaq ver, mən də özümü sənə nişan verüm, ta bülgilən ki, kimün bərabərində durub dava eylərsən.

Pəs Davud Paşa bu əşarı oxudu:

Dur baxgilən, dəstələrün sındurum,
Yol üstündə leş-leş üstən qalansun.
Şindi səni zillətilən öldürüm,
Əgri qılıc al qanuva boyansun.

Fəxr eyləmə öz zoruva, şəstüvə,
Gir meydana, qılıc götür dəstüvə,
Bir ox urum at üstündə kösküvə,
Şivən səsi yerdən gögə dayansun.

İndi sənün qollaruvı bağlaram,
Qolu bağlı dar dibində saxlaram,
Eyvəz xanun cigərini dağlaram,
Yalquz qalub, Koroğlusuz dolansun.

Davud Paşa Ərzulumda bəllidür,
Yalquz dəgül, tayfalıdur, ellidür,
Hamı tanur, cürətlidür, əllidür,
İyid gərək meydanına dolansun.

Cəlali Koroğlu çün bu sözləri Davud Paşadan eşitdi, atəşi-qəzəbi şöləvər oldu. Əl aparub bir ox götürdü, qoydu çilleyi-kamana. Çün təkan verüb, ox qıcıltıynan kamandan rədd olub yola düşdü. Bu tərəfdən Davud (Paşa) qalxanın oxun qabağına verüb rədd eylədi. Davud Paşa həm bir ox kamana qoyub Cəlali Koroğluya atdı. Koroğlu həm oxu rədd eylədi. Əlqissə, neçə ox bir-birinə atdılar, onlarun muradı oxdan hasil olmadı.

Pəs Davud Paşa əl atub şeşpərin götürüb Cəlali Koroğluya həvalə eylədi. Koroğlu onu rədd eyləyüb şeşpər həvalə eylədi. Davud Paşa həm onu rədd eylədi. Xülasə, bu iki dilavər sübh vaxtından ta zöhrə kimin bir-biriynən gərm dava olub heç biri faiq gəlmədi. Cəlali Koroğlu bir atın oynadub qılıcın çəkdi, həvalə eyliyəndə qılıc dəgdi Davud Paşanun qolundan, yaraladı. Davud Paşa bu əhvalı görəndə, büldi ki, Cəlali Koroğlu acıqlanub, bunu öldürür. Davam gətirmiyüb Koroğlunun qabağından qaçdı.

Koroğlu Qırata rikab çəküb, bu əşarı oxudu:

Davud Paşa, əgər Hində qaçasan,
Araram, axtarram, taparam səni.
Qollarun bağlaram təngütəy bəstə,
Ərəb at döşünə qataram səni.

Davud Paşa dönüb dalıya baxanda gördü Cəlali Koroğlu Qırat üstündə az qaldı daldan yetirsün, dedi:

– Anasın satdığım əcəm oğlu, mənə o qədər möhlət ver, ta yaramı bağlıyum, ondan sora dava eyləyək.

Cəlali Koroğlu bunu eşidəndə yüzin dutub Davud Paşaya, dedi:

Çox danışma, Davud Paşa, kəs dilün,
Qıratım altımda, kəsərəm yolun.
Qıraram qoşunun, bağlaram qolun,
Aduvi qul qoyub, sai.

[illegible]VəQhYp1yVnQİSOhYp1NKPUSXFƏMƏYe[illegible]

İyidlər ətrafdan o qoşunu aldılar aralığa. Əmma Davud Paşanun bir qardaşı var idi ki, onun adına Məhmud Paşa deyərdilər, əhvalı belə görəndə yüzin dutub Ərzulum qoşununa, dedi:

– Cəmaət, qoymuyun, bu anasın satdığım əcəm oğlun ki, mənim qardaşım Davud Paşanı həlak eylədi. Gərək bu gün Davud Paşanun qanın alasuz.

Çün Ərzulum qoşunu Məhmud Paşanun səsin eşidəndə cürət eyləyüb ətrafdan at saldılar Cəlali Koroğlunun üstünə. Koroğlu gördü, ətrafdan qırx beş min qoşun təmam qılıcların çəküb hücum gətürdilər. Yüzin dutub yeddi yüz yetmiş yeddi dəliyə, dedi:

– Qoççaqlarım, aman vermiyün bu qoşuna.

Mərd iyidlər, qənim üstə dəv çəkün,
Məhmud Paşa qabağıda dayansın.
At oynadun, Ərzuluma hav çəkün,
Peşman olub dedigindən utansun.

Seyqəl verrəm qılıcımun zənginə,
Bir od urum Ərzulumun şəhrinə,
Özüm girrəm Məhmud Paşa cənginə,
Koroğlunun mərdliginə inansun.

Mustafa bəg, kəs qoşunun sağ yanın,
Əzrayıl tək düş üstünə, al canın,
Qılıcınan, şeşpərinən tök qanın,
Yengiçəri al qanına boyansun.

İyidlərim, dörd bir tərəfdən durun,
Səsim gəlsə, hamı birdən at sürün,
Nizə urun, qılıc urun, ox urun,
Osmanlınun cəndəkləri qalansun.

Koroğlunun qoç qardaşı, Xan Eyvəz,
Kəs dalımı, səs verdiyüm, can Eyvəz,
Öldürsələr, al qanıma qan, Eyvəz,
Topraq üzü qızıl qana bulansun.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, at saldı Məhmud Paşanun üstünə. Çün yetişdi, bir qılıc onun qolundan həvalə eyləyüb qolun saldı yerə. Məhmud Paşa səsləndi:

– Cəmaət, qoymuyun ki, bu əcəm oğlu məni həlak eylədi!

Osmanlu qoşunu ətrafdan hücum eyləyüb, Məhmud Paşa qaçıb özün saldı qoşunun içinə. Əmma bu tərəfdən Mustafa bəg və Dəmirçioğlu və təmam iyidlər özlərin urdılar qoşuna. Ta axşam olunca gərm dava olub, o qoşunu salub qılıc qabağına, igirmi min, bəlkə artuq onlardan həlak eylədilər və qalanı təmam mütəfərriq olub qaçdılar.

İyidlər qayıdıb istədilər ki, onlarun dalınca getsünlər Cəlali Koroğlu mane olub qoymadı. Pəs gecə öz çadırlarında istirahət eyləyüb, eylə ki sübh oldu, Cəlali Koroğlu hökm eylədi ki, təmam o qoşunun atların və əsbabların və pulların və libasların bir yerə cəm eylədilər. Pəs o malü-dövləti təmam iyidlərə qismət eyləyüb istədi ki, ordan köç eyləsün, ta gəlsün Ərzulumun şəhərinə. Bir vaxt gördülər ki, şəhər tərəfdən bir toz nümudar oldu. Çün o toz yaxunlaşdı, gördülər, Davud Paşanın vəziri Əhməd afəndidür, yetişdi Cəlali Koroğlunun xidmətinə. Bir qədər töhfə və hədiyyə təarüf eyləyüb, Koroğlu dedi:

– Əhməd afəndi, sənün məhəbbətün mənə məlum olub ki, Bəlli Əhmədə himayət eyləmüsən və qoymamusan ki, Davud Paşa onu həlak eyliyə. Bu yaxşılığun əvəzində biz də sənə aman verdük. Əgləş Davud Paşanun yerində, hökumət eylə.

Pəs Cəlali Koroğlu ordan köç eyləyüb gəldi Ərzulumun qalasının bərabərində xeymə və xərgah qurub əgləşdi. Hökm eyləyüb, Bəlli Əhmədi həbsdən çıxardub gətirdilər. Eylə ki Bəlli Əhməd Cəlali Koroğlunun hüzurinə yetişdi, xəcalət çəküb başın saldı aşağa. Pəs Koroğlu ona nəvaziş eyləyüb yer göstərdi, əgləşdirdi.

O gecə orda qalub, eylə ki sübh vaxtı oldu, Cəlali Koroğlu Əhməd afəndini çağırub hökm eylədi ki, gərək Davud Paşanın xəzanəsin verəsən. Əhməd afəndi əlli yük qızıl və gümüş Davud Paşanun xəzanəsindən Cəlali Koroğlunun xidmətinə gətürdi və ərz eylədi ki, daxi bir zad xəzanədə qalmadı.

Bəd əz an Cəlali Koroğlu bir taxt-rəvan hazır edüb, Qum-

ru xanımı qoyub taxt-rəvan içinə və Davud Paşanun təmam kənizlərin götürüb ordan köç eyləyüb yüz qoydılar Çamlıbelə gəlmağa. Ta inki mənzilbəmənzil gəlüb, iki mənzil qaldı ki, Çamlıbelə yetişsünlər, Mustafa bəg ərz eylədi ki, məni mürəxxəs eyləyün. Cəlali Koroğlu dedi:

– Mustafa bəg, gərək gedək Çamlıbelə. Bir neçə gün orda qalub rahat ol, bəd əz an Bəlli Əhmədün toyun təmam eylə, ondan sora mürəxxəs olub öz mənzilüvə müraciət eylə.

Pəs ordan köç eyləyüb kamali-calalınan daxil oldılar Çardaqlınun Çamlıbelə. Bir həftə qalub istirahət eylədilər. Bəd əz an Koroğlu hökm eylədi ki, toy tədarükü görüldü. Bir məclisi-ali tərtib verüb, təmam iyidlər cəm olub yeddi gün və yeddi gecə toy dutuldı. İyidlərün başı şərabi-nabdən gərm olub, hər kəs öz kefinə məşğul oldu.

Eylə ki yeddi gün yeddi gecə təmam oldu, Qumru xanıma zinət verüb gətürdilər Bəlli Əhmədin mənzilinə. Onlar bir-birindən kami-dil hasil eylədi.

Eylə ki toy təmam oldu, Mustafa bəg genə ərz eylədi, biz mürəxxəs olaq. Pəs Cəlali Koroğlu on beş yük qızıl və gümüş Davud Paşanun malından ona təarüf eyləyüb və iki yüz dəst xələt Mustafa bəgün adamlarına verdi. Onları kəmali-xoşhallığınan yola saldı və özləri orda qalub gecə və gündüz eyşü-işrətə məşğul oldılar.

KOROĞLUNUN DOQQUZUNCU MƏCLİSİ

Cəlali Koroğlunun Həsən Paşanın sərdarı Bolı bəglə davası və Toxatdan Həsən Paşanın qızı Səadət-Bəgim xanımı gətirməsi

Raviyani-əxbar və naqilani-asar belə rəvayət eyləyüblər ki, Cəlali Koroğlu Çardaqlınun Çamlıbeldə qərarü məskən dutub və yeddi min yeddi yüz yetmiş yeddi dəli başına cəm eyləyüb hər il neçə dəfə Rum vilayətinə dəv çəküb o səfahətı qətlu-qarət eyləyüb onlarun nəqd və cinsin cəm eyləyüb gətürürdü. Təmam Rumun rəiyyəti və pəhləvanları və paşaları onun zərbü-şəstindən heç tərəfə tərəddüd eyləyə bilməzdilər. Hakimi-şəhri-Toxat Həsən Paşa bir gün öz məclisində əgləşüb təmam vüzəra və qoşun sərhəngləri onun məclisində əgləşüb hər tərəfdən göftugular eylərdilər, tainki Cəlali Koroğlunun söhbəti araya düşdü.

Həsən Paşa dedi:

– Cəmaət, görürsüz, bu əcəm oğlu Cəlali Koroğlu necə Rum vilayətin xərab eylədi, hər kəs dəvtələb ola ki, Koroğlunun başın, ya onun atı Qıratı mənə gətirə, mən əhd eylədüm ki, öz qızım Səadət-Bəgim xanımı ona verrəm.

Çün əhli-məclis Həsən Paşadan bu çözü eşitdilər təmam əhli-məclis tamah eyləyüb istədilər ki, ərz eyləsünlər, Paşam sağ olsun bu xidməti mənə rucu eylə. Bolı bəg sərdar, çün Səadət-Bəgim xanımun gözəlligün görmüşdü və həmişə bu arzuda idi ki, bəlkə bir hiylə edüb o nazənin-sənəmi alsun. Fürsəti qənimət bülüb ayağa durdu, baş endirib ərz eylədi ki, qurbanun olum mən həmişə bu arzuda vardum, əmma sənün qorxundan izhar eyləyə bülməzdim, əmma imdi çün sən bu vədəni eylədün bu xidmət mənümdür.

Həsən Paşa dedi:

– Ey Bolı sərdar, sən yaxşı pəhləvansan, əmma müşkül Cəlali Koroğluya müqabil olasan.

Bolı bəg bu sözdən rəngi qızarub ərz eylədi:

– Paşam sağ olsun, Cəlali Koroğlu səni çox qorxudub, əgər

mənə izn versən, mən, inşallah, gedərəm ya Koroğlunun başın, ya onun Qıratın sənün xidmətüvə götürrəm, əmma bu şərtlən ki, sən də həm öz əhdüvə vəfa edüb Səadət-Bəgim xanımı mənə verəsən.

Pəs Həsən Paşa öz qızın ona vədə eyləyüb və on iki min ləşkər həm ona təslim edüb yola saldı. Pəs Bolı bəg on iki min ləşkəri götürüb mənzilbəmənzil gəldi, tainki Çamlıbelün bir ağaclığında bir çəməndə düşdü. Əmma bu tərəfdən Dəli Həsən ki, Cəlali Koroğlunun iyidlərindən idi səvar olub şikar əzmilən Çamlıbelün ətrafında dolanurdu, gördü çox qoşun və çox nadir çəməndə nəsb olub. Dəli Həsən yavaş-yavaş gəldi o qoşunun içinə xəbər aldı ki, cəmaət hardan gəlürsüz və haraya gedürsüz və sizün sərdaruz kimdür. Dedilər, cavan, bizim sərdarımız Bolı bəgdür ki, Toxat şəhərindən gəlmişuq və bizi Həsən Paşa göndərüb ki, Bolı bəg Cəlali Koroğlunun başın, ya onun atın aparsun Həsən Paşaya, ta onun qızı Səadət-Bəgim xanımı alsun.

Çün Dəli Həsən əhvalatdan müttəle oldu, müraciət eyləyüb gəldi Cəlali Koroğlunun xidmətinə, ərz eylədi:

– Qurbanun olum, bir ağır ordu gəlüb Çamlıbelün bir ağaclığında əgləşüb və onların sərdarı Bolı bəgdür və bu cəhətə gəlüb ki, sənün başun kəsüb Həsən Paşaya aparsun.

Çün Cəlali Koroğlu bu sözü eşitdi, həman saat ayağa durub libasların çıxarub bir dəst aşıq libası əgninə geyüb və bir saz əlinə alub istədi gəlsün Bolı bəgin ordusuna. İyidlər ərz eylədilər ki, ey Cəlali Koroğlu bu tövrilən yalquz getmə. Məbadə, Bolı bəg anlıya ki, sən Koroğlusan və səni dutub həlak eyliyə. Koroğlu onlarun sözin qəbul eyləməyüb yalqız Çamlıbeldən çıxub ta özün yetirdi Bolı bəgin ordusuna. Ordu içində dolanurdu, ta gəldi Bolı bəgün sərapərdəsünün bərabərinə. Gördü, vaqeən Bolı bəg bir yaxşı iyiddür ki, buğları binaguşdan keçüb. Oturub bir səndəli üstə şərab içməgə məşğuldur. Bir qədər durdu sərapərdənin bərabərində, ta inki Bolı bəg başın yuxarı götürüb baxanda gördü bir pətyarə yanşaq əlində saz durub çadırun bərabərində. Bolı bəg dedi:

– Əcəm oğlu, yanşaqsan?

Cəlali Koroğlu dedi:

– Bəli.
Sərdar Bolı bəg dedi:
– Yanşaq, Cəlali Koroğlunun türkilərindən bülürsən?
Dedi:
– Bəli, yaxşı bülləm.
Bolı bəg dedi:
– Bir qədər bizə söhbət eylə ki, sənün üçün bir qədər parə verrəm.
Pəs Cəlali Koroğlu sazın çax eyləyüb, basdı sinəsinə yüzün dutub Bolı bəgə dedi:

Sənə deyüm Bolı bəgim,
Qənimdən qaçdıqun varmı?
Şeşpər başundan dəgəndə,
Əyərdən aşduğun varmı?

Dəv düşəndə ərəb kimin,
Gög üzündə qurab kimin,
Düşmən qanın şərab kimin,
Meydanda işdigün varmı?

Qoç iyidlər əlləşəndə,
Bir-biriynən dilləşəndə,
Qılıc başa əgləşəndə,
Qayıdub qaçdıqun varmı?

Koroğlu yetdi yaşına,
Rəhm eylə gözüm yaşına,
Səksən min halay qoşuna,
Heç yalquz düşdügün varmı?

Çün Cəlali Koroğlu sözin təmam eylədi Bolı bəg dedi:
– Anasın satdıqım əcəm, sənün bu sözlərindən belə məlum olur ki, sən Cəlali Koroğlusan.
Koroğlu dedi:
– Bolı bəg, mən bir yanşaqəm. Cəlali Koroğlunun min nəfər əjdaha kimin dəlisi var.
Bolı bəg dedi:
– Yanşaq doğru söylə ki, yanşaq sənün kimin olmaz.

Koroğlu gördü Bolı bəg bundan əl çəkməz, dedi:

– Sərdar, mən Cəlali Koroğlunun iyidlərindənəm.

Bir nəfər Bolı bəgün nökərlərindən ərz eylədi ki, qurbanun olum, bu yanşaq yalan söylər, bu Cəlali Koroğlu özüdür, istər hiylə ilə burdan qurtulsun.

Bolı bəg (yüzin) dutub nökərlərinə dedi:

– Cəmaət, bu yanşaqı dutun, qoymuyun getsün.

Koroğlu gördü əcəb yerdə girə düşdü, bunu dutallar. Yüzün dutub Bolı bəgə dedi:

Çamlıbeldən mən də çıxdum seyranə,
Bolı, valla, mən Koroğlu dəgüləm.
Əbəs-əbəs sən də düşmə gümanə,
Bolı, valla, mən Koroğlu dəgüləm.

Bolı bəg çün bunu eşitdi, dedi:

– Mən eştmişəm ki, Cəlali Koroğlu bir hiyləgər adamdur, hər yerdə ki, düşmənə al tapsa onun rişəsin yerdən qazar və hər yerdə ki, düşmən ona al tapsa hiylə ilən özün qurtarar. Mənə yəqin oldu ki, sən Koroğlusan, istərsən ki, mənə hiylə edüb özün həlakətdən qurtarasan.

Koroğlu gördü Bolı bəg bunun yaxəsindən əl çəkməz genə sazın götürüb basdı sinəsinə, dedi:

– Bolı bəg,

Sən görisən əlimdəki sazımı,
Kimlər çəkər işvə ilə nazımı,
Bolı bəglər eşitgilən sözümü,
Bolı, valla, mən Koroğlu dəgüləm.

Ördək uçar gecə-gündüz göllərdə,
Sirr sözüm dastan oldu dillərdə,
Ah çəkərəm gözüm qaldı yollarda,
Bolı, valla, mən Koroğlu dəgüləm.

Kövsər üstə şahi-mərdan Əlidür,
Mirza oğlu adım Rövşən Əlidür,
Dindirməyin dutulmamış dəlidür,
Bolı, valla , mən Koroğlu dəgüləm.

Çun Koroğlu sözin təmam eylədi Bolı bəg dedi:

– Anasın satdığım əcəm oğlu, yəqin sən Koroğlusan,-dedi:–cəmaət, dutun bunu!

Pəs ətrafdan Bolı bəgün nökərləri töküldü. İstədilər ki, Cəlali Koroğlunu dutsunlar, Koroğlu dedi:

– Cəmaət, möhlət verin ki, bir neçə türki gəlüb sinəmə, onları deyüm, ondan sora dutun.

Pəs Bolı bəg dedi:

– Cəmaət, səbr eyləyün, görüm, nə deyir.

Cəlali Koroğlu genə sazın basub sinəsinə, dedi:

– Bolı bəg, sən məni namərdlığnan dutma.

Namərdinən yola getmağ,
Getmağdan getmamağ yeydür.
Namərdinən nanu-nəmək,
Yemağdan yemamağ yeydür.

Baş açmaram hayu-huydan,
Qatı ox qurtarur yaydan,
Namərd köprüsündən çaydan,
Keçmağdan keçmamağ yeydür.

Budur sözümün əzəli,
Bağlar tökürdü xəzəli,
Göyül, bivəfa gözəli,
Sevmağdan sevmamağ yeydür.

İyidün gərəkdür zatı,
Qırat kimi ola atı,
Kişinin yurdunda göti,
Qalmağdan qalmamağ yeydür.

Koroğlu salur savaşı,
Düşmənün kəsilsün başı,
Bir yerə çağrılmamış kişi,
Getmağdan getmamağ yeydür.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Bolı bəg hökm eylədi ki, təmam nökərləri ətraflan tökülüb Koroğlunu dutdu-

lar. Pəs onun qolların bağlıyub boynuna bir ağır zəncir urdular. Bolı bəg hökm eylədi ki, gərək ordu köçsün, ondan ötrü ki, Cəlali Koroğlunun dəliləri xəbərdar olsa, təmam atlanub gəlüllər və onlarun öhdəsindən gəlmək olmaz. Pəs ordu köç eyləyüb Cəlali Koroğlunu qolu bağlu apardılar.

Bunlar qoy getməkdə olsun nəqli-dastan eşit Cəlali Koroğlunun iyidlərindən. Çün gördülər Koroğlunun gəlməgi tul çəkdi, Eyvəz balı Dəli Həsəni göndərdi ki, bir xəbər gətürsün. Çün Dəli Həsən gəldi orduya, gördü Bolı bəg ordan köç eyləyüb və Cəlali Koroğlunu dutub aparublar.

Təcili-təmamilən qayıdub iyidlərə xəbər gətürdü ki, cəmaət, daxi oturmaq vəqti dəgül ki, Bolı bəg Cəlali Koroğlunu dutub aparubdur. Həman saat yeddi min yeddi yüz yetmiş yeddi dəli mükəmməl və müsəlləh qərqü-ahənü-fulad olub atların zin edüb səvar oldular. Surəti-təmamilən atlarına məhmiz çəküb Bolı bəgün dalınca rəvanə oldular. Bir neçə saatdan sora özlərin yetürdilər Rum qoşununa, hey urub səsləndilər, ey tayifəi-bədbəxt, bu necə namərdlığdur ki, Cəlali Koroğlunu al edüb dutmusuz.

Bolı bəg dönüb dala baxanda gördü ki, təmam iyidlər qılıcların çəküb ac qurd kimi gəlüllər. Bolı bəg elə bu əhvalı görəndə rəngi yüzindən qaçub özün itirdi. Həman saat Cəlali Koroğlunun qolların açub düşdü onun ayaqlarına, ərz eylədi ki, ey Cəlali Koroğlu, bir xata eyləmişəm, gərək məni bağışlayasan. Cəlali Koroğlu gördü Bolı bəg iyidlərin nərəsindən rəngi qaçub və qorxudan az qalub ki, ruhi bədənindən məfariqət eyləsin. Cəlali Koroğlu dedi:

– Ey nəməkbəhəram namərd, bu cürətilən sən gəlmişdün məni aparmağa?

Bolı bəg düşdü Koroğlunun ayaqlarına, ərz eylədi ki, mən bir xəta eyləmişəm, gərək bu iyidləri sən özün sakit eylə(yəsən).

Cəlali Koroğlu çün Bolı bəgdən bu qorxmağı gördü yüzin tutub Bolı bəgə dedi:

Sən də çox ağlamagilən Bolı bəg,
Mən bəbiri tutan günlər necoldu.

Qorxmagilən öldürmənəm mən səni,
Mən bəbiri tutan günlər necoldu.

Gögdə ulduz xidmət eylər aylarə,
Qul olanlar xidmət eylər bəglərə,
Qolu bağlı axıdırdun çaylarə,
Mən bəbiri tutan günlər necoldu.

İnanmaram Bolı bəglər dilinə,
Mən düşmüşəm fitnəsinə, felinə,
Qolu bağlı verdim cəllad əlinə,
Mən bəbiri tutan günlər necoldu.

Əmən olmaz yarun şirin dilindən,
Qucan olmaz yarın işkə belindən,
Sən yemüsən qoç Koroğlu əlindən,
Mən bəbiri tutan günlər necoldu.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, yüzin dutub iyidlərə dedi:

– Qoçaqlarım, qoymuyun bu qoşunu.

Pəs iyidlər çahar ətrafdan yalın qılıc özlərin urdular o dərya kimin qoşuna. Tari-ənkəbud kimin onları dağıdub bir az zamanda o ləşkəri təmam öldürdülər, məgər bir neçə nəfər onlardan qaçub yüz qoydular Həsən Paşa yanına getməgə. Əmma Cəlali Koroğlu özü Bolı bəgi tutub bir ağır zəncir boynuna urub qolların dalında möhkəm bağladı. Pəs o ləşkərin təmam at və əsbabın və çadırların zəbt eyləyib müraciət eylədilər Çamlıbelə.

Pəs o gecə iyidlər rahət olub, eylə ki sübh oldu, Cəlali Koroğlu gəldi divanxanə çadırına. Təmam iyidlər gəlüb öz yerlərində aram və qərar dutdular. Saqilər piyaleyi-şərab əhli-məclisə verüb onlarun başı şərabi-nabdan gərm oldu. Pəs Cəlali Koroğlu hökm eylədi ki, Bolı bəgi qolları bağlu gətürdilər, ayaq üstə saxladılar. Bir saatdan sora Koroğlu yüzin dutub Bolı bəgə dedi:

– Ey nəməkbəhərəm, bu necə namərdlığ idi ki, öz ordunda məni tutdurdun. Sən belə xəyal eylədün ki, Cəlali Koroğlu

qocalub, daxi əlindən iş gəlməz.

Bolı bəg xəcalətindən başun salub aşağa heç dinmədi. Cəlali Koroğlu keyf aləmində sazın götürüb basdı sinəsinə, dedi:

Sənə deyim Bolı bəglər,
Mən bəbirəm, mən bəbirəm.
Durram qanuza bələrəm,
Dinimdən dönmüş gəbirəm.

İyidlərim piş duranda,
Qarlı dağlar aşdıranda,
Dişlərim qamaşdıranda,
İstərəm fulad gəmirəm.

Hər yerdə özmü öyərəm,
Düşmənin qabağın dögərəm,
Saqın ki, valla dəgərəm,
İşlənmiş qara dəmirəm.

Koroğluyam acalmışam,
Mən Xondkardan bac almışam.
Əgər ki, yüz qocalmışam,
Genə babayi-əmirəm.

Çün Koroğlu sözin təmam eylədi. Bolı bəg durdu ucadan ağlamağa. Cəlali Koroğlu dedi:

– Bolı bəg, sən iddiyai-pəhləvanlıq eylərsən və sənün ismirəsmin və şöhrətün Rum vilayətlərində vardur, niyə ağlarsan?

Bolı bəg çün bu sözü eşitdi, genə bina qoydu, hay-hayilən ağlamağa. Koroğlu dedi:

– Bolı bəg, məgər ölümdən qorxarsan ki, beylə ağlarsan?

Bolı bəg ərz eylədi ki, ey Cəlali Koroğlu, ölümümdən qorxmaram. Koroğlu dedi:

– Bəs niyə ağlarsan?

Ərz eylədi:

– Mənim köylümdə bir dərdim var, o cəhətdən ötrü ağlaram.

Koroğlu dedi:

– Bolı bəg, xatircəm ol ki, mən səni namərdlığ ilən, qo-

lubağlı öldürmərəm və hər nə dərdün vardur, degilən, əgər mənim əlimdən gəlsə hər nə dərdün olsa dərman eylərəm.

Bolı bəg ərz eylədi ki, ey Cəlali Koroğlu, bül və agah ol ki, Həsən Paşanun pərdeyi-ismətdə bir qızı var ki, onun adına Səadət-Bəgim xanım deyəllər və o bir nazənin-sənəmdür ki, xudavəndi-aləm onun mislin xəlq eyləməyüb. Mən çox müddətdür ki, o qıza aşiqi-biqərar olmuşam, hərçi səy eylədim ki, bəlkə Həsən Paşadan o qızı alam, Həsən Paşa mane olub vermədi. Əmma Həsən Paşa bir gün əhd eylədi ki, hər kəs Cəlali Koroğlunun başın, ya Qıratın gətirə, mən qızımı ona verrəm. Mən biçarə o qızın eşqindən bu xidməti qəbul eylədüm və on iki min ləşkər götürüb gəldüm, ta inki mənim işimün axırı buraya yetişdi ki, qoşunum öldü və özüm dəstgir olub sənin əlində əsir oldum.

Bunu deyüb genə bina eylədi ağlamağa. Cəlali Koroğlu çün bu sözü Bolı bəgdən eşitdi, ona ürəgi yanub rəhm eylədi, dedi:

– Bolı bəg, çün sənün mətləbün o qızı almaqdur bunun əlacı çox asandur.

Pəs hökm eylədi ki, həman saat onun qolların açdılar, onu əgləşdürdü öz yanında bir neçə piyalə şərab ona verdi, ta dəmağ üstə gəldi, dedi:

– Bolı bəg, bu gecə qal, ta rahət ol, eylə ki sübh olub mənim qollarımı bağla, sal atun qabağına, piyadə məni apar Həsən Paşa hüzuruna, ta sənün mətləbün hasil olsun.

Bolı bəg, ta bu sözü Cəlali Koroğludan eşitdi, ərz eylədi:

– Qurban olum, mənim nə həddim var ki, sənün qollarun bağlıyam.

Koroğlu dedi:

– Bolı bəg, əgər məni qolu açıq aparsan Həsən Paşa belə xəyal eylər ki, sən al eyləmüsən. Əlbəttə, mənim qollarım bağla, ta sənün hacətün rəva olsun, Həsən Paşa mənə hər nə eylər eyləsün.

İyidlər ərz eylədilər ki, ey Cəlali Koroğlu, bu nə tədbiri-nasəvabdur ki, öz qolun bağlayub düşmənə verirsən. Koroğlu onların sözlərin qəbul eyləmədi. Eylə ki sübh oldu, özü-öz qollarun bağluyub düşdü Bolı bəgin atınun cilovuna və qədəğən ey-

lədi iyidlərə ki, heç kim gəlməsün. Bəs Çamlıbeldən çıxub Bolı bəgilən yola düşdü. Bunları qoy getməkdə olsun, əmma nəql eşit Həsən Paşadan ki, çün Bolı bəgin ləşkərin iyidlər həlak eylədilər, neçə nəfər onlardan qaçub özlərin yetirdilər Həsən Paşa xidmətinə ərz eylədilər ki, Cəlali Koroğlunun dəliləri külləm qoşunu qırıb, Bolı bəgi dutub qolubağlı apardılar Çamlıbelə. Çün Həsən Paşa bunu eşitdi qəzəbnak olub hökm eylədi ki, qırx min ləşkər atlanub Çamlıbelə yola saldı və dedi:

– Cəmaət, gərək gecə və gündüz yatmayub özüzü sürətlən Çamlıbelə yetirəsüz və Cəlali Koroğlunun özün və iyidlərin təmam qətl və qarət edib Çamlıbeli xərab eyləyəsüz ki, bu anasın satdığım xırsız Koroğlu təmam aləmi xərab eylədi.

Pəs qoşun yola düşüb Çamlıbelə gəlirdilər ki, əsnayi-rahdə yetişdilər Bolı bəgə. Gördülər ki, Bolı bəg Cəlali Koroğlunu dutub qolubağlı öz cilovunda gətirür. Pəs qoşun ordan müraciət eyləyüb gəldilər ta Toxat qələsünün yavuqluğuna yetişəndə Bolı bəg haramzadə hökm eylədi, Cəlali Koroğlunun başın neçə yerdən sındırdılar və boynuna bir ağır zəncir urub, bir ərizə Həsən Paşaya yazdı ki, Paşam sağ olsun, sənün dövlətün yar oldu, Cəlali Koroğlunu dutub qolubağlu gətürürəm. Pəs həman naməni verdi bir nəfər adama göndərdi Həsən Paşaya.

Çün Həsən Paşa Bolı bəgin naməsin gördü, çox şad oldu, pəs həman saat car çəkdürdü ki, təmam əhli-şəhər dükkanların bağluyub tamaşaya çıxsunlar. Pəs təmam əhli-şəhər bazarların bağlıyub kruh-kruh tamaşaya çıxdılar və övrətlər təmam damlara çıxub tamaşa eylədülər, o cümlədən Həsən Paşanun qızı Səadət-Bəgim xanım həm talarun damı üstə çıxub bir neçə nəfər kənizlən təmaşaya məşğul oldu.

Əmma bu tərəfdən Cəlali Koroğlu çün bu namərdligi Bolı bəgdən gördü ki, onun başın sındırdı və əhli-şəhri təmam təmaşaya çıxardı, yüzin dutub Bolı bəgə dedi:

– Bolı bəg, mən mərdanəlığ eylədüm ki, bəlkə sənün dərdüvə əlac eyləyəm, əmma sən namərdlığ eylədün ki, məni bu zillətlən şəhərə daxil eylədün.

Bolı bəg dedi:

– Ey Cəlali Koroğlu, əcəm tayfəsi çox əhməq olur. Mən sə-

nə bir hiylə eylədim ki, səni qolubağlu verəm Həsən Paşanun əlinə ki, səni zilləti-təmamilən öldürsün ki, əhli-aləm ibarət eyləsünlər.

Çün Koroğlu o napakdan bu sözü eşitdi bir ah çəkib dedi:

– Bolı bəg, bir neçə bənd türki gəlib sinəmə, qoy onları deyim ondan sonra məni şəhərə daxil eylə.

Pəs Koroğlu bu türkini oxudu:

Gör kimlərə möhtac etdi,
Bu ... ruzigar məni.
Axır incəldür, öldürür,
Namus, qeyrət, bu ar məni.

Nəsidür bəglər, nəsidür,
Bu gələn yarun səsidür,
Fələgün tapançəsidür,
Salub eldən kənar məni.

Burda mənim bəxtim yatdı,
Bağrımın başını diddi,
Qəza məni götdü, atdı,
Çöldən-çölə naçar məni.

Koroğlunu çox acıtdı,
Çamlıbeldən xirac etdi,
Gör kimlərə möhtac etdi,
Bu yaman ruzigar məni.

Çün Koroğlu sözin təmam eylədi, Boli bəg dedi.

– Ey Cəlali Koroğlu, daxi bu sözlər heç fayda verməz, təmam Rum vilayətləri sənün əlündən təngə gəlüb. Səni bu gün bir zillətlən verüm darə çəksünlər ki, xəlqi-aləm sənün əhvalıva ağlasun.

Bunları qoy burda danışmaqda qalsun, nəqli-dastan eşit Cəlali Koroğlunun iyidlərindən. Çün Bolı Koroğlunu qolubağlu apardı, onlar bir yerə cəm olub dedilər, Bolı bəg Koroğluya hiylə eylədi, məbadə, onu aparub həlak eyliyə, məsləhət odur ki, neçə nəfər onun dalınca gedək.

Pəs Zülfüqar bəg və Eyvəz balı və Dəmirçioğlu və neçə nə-

fər iyidlərdən atlanub onlarun dalısınca yola düşdülər. Həman gün ki, Bolı bəg istərdi Cəlali Koroğlunu şəhərə daxil eyləsün, yetişdilər, gördülər bir ağır ordu düşüb. Bir nəfər əhliqoşundan xəbər aldılar ki, bu qoşun harıya gedər. Dedi:

– Çün Cəlali Koroğlunun iyidləri Bolı bəgün qoşununun qırdı, Həsən Paşa bu qoşunu daldan Bolı bəgün köməginə göndərdi. Yol əsnasında görduğ ki, Bolı bəg Cəlali Koroğlunu dutub qolubağlı gətirür. Pəs bizlər yoldan müraciət eyləduğ. Əmma Bolı bəg Koroğlunun başın neçə yerdən sındırub və boynuna bir ağır zəncir urub, hala istəruğ ki, köç eyləyüb şəhərə daxil olaq.

Zülfüqar bəg ta bu sözü eşitdi, yüzün dutub Eyvəzə dedi:

– Bu nəməkbəhəram Bolı bəg hiylə ilən Koroğlunu gətürdü. Əgər onu Həsən Paşanun hüzuruna apara, yəqin Həsən Paşa onu həlak eylər. Məsləhət budur ki, burda dava eyləyək, bəlkə Cəlali Koroğlunu bunların əlindən alub xilas eyləyək ki, əgər Bolı bəg onu qələyə daxil eyliyə yəqin Koroğlunu öldürələr.

Bunu deyüb qılıcın belindən çəkdi, dedi:

– Cəmaət mən getdim, hər kəs mənim dalımca gəlür, bismillah.

Pəs bunu deyüb atına bir məhmiz çəküb özün yetirdi Bolı bəgin qoşununu bərabərinə, bir nərə cigərgahından çəküb dedi:

– Vay namərd Bolı bəg, hiylə ilə Cəlali Koroğlunu dəstgir eylədün, imdi istərsən onu həlakətə yetürəsən.

Zülfüqar bəgün bu nərə sədasın Koroğlu eşidüb dönüb baxanda gördü Zülfüqar bəg əlində yalın qılıc durub qoşun bərabərində. Koroğluya riqqət əl verüb ağlıya-ağlıya dedi:

Bəg oğlu Züdfüqar, gözləri xunxar,
Ho-ho deyüb imdi yanımda gərək.
Ərəbi xəncərlər sağu-solunda,
Qılıc qəbzələri yanımda gərək

Cəlali Koroğlu gördü onun dalınca Dəmirçioğlu Telli Həsən başdan ayağa kimin qərqü-ahənü-fulad olub əlində üryan qılıc nərə ura-ura girdi meydana. Koroğlu dedi:

İyidlər içində adı deyimli,

Ğərqü-ahənü-fulad, dəmir geyimli,
Əjdaha sifətli, ac qurd yeyimli,
Dəmirçioğlu imdi yanımda gərək.

Cəlali Koroğlu gördü onun dalınca Eyvəz balı bir əlində qılıc və bir əlində qalxan dutub nərə ura-ura özün yetürdi dəstələr bərabərinə, Koroğlu dedi:

İyidlər içində adı bəllidür,
Misri qılıc əldə, gözü qannıdur,
Bir siyəh tellidir, ləbi ballıdur,
Eyvəz balı imdi yanımda gərək.

Cəlali Koroğlu çün iyidləri gördü yüzin dutub Bolı bəgə dedi:

İmdi sənə zərbü-şəstim büldürrəm,
Bolı bəglər intiqamı aldırram,
Koroğluyam, ləşkərüvü sındırram,
Hamı dəlilərim yanımda gərək.

Çün Koroğlu sözin təmam eylədi, iyidlər təmam ətrafdan töküldülər qoşun içinə. Bir davayi əzim oldu ki, ruzigarın gözü bir belə dava görməmişdi. Pəs Bolı bəg gördü dəlilər az qaldı ki, qoşunu qırsunlar, hökm eylədi qoşuna ki, cəmaət, bunlarun öhdəsindən gəlmək olmaz, qələyə yavuqdur təcili-təmamilən özüvüzü salun qələyə.

Pəs çün qoşun cəmaəti bunu Bolı bəgdən eşitdilər, Cəlali Koroğlunu götürüb özlərin saldılar qələyə. Eylə ki Zülfüqar bəg və Eyvəz balı və Dəmirçioğlu və iyidlər əhvalı beylə görəndə əfsus yeyüb qələyə daxil olmuyub qayıtdılar.

Pəs Bolı bəg Cəlali Koroğlunu kəşan-kəşan küçələrdən aparurdu və təmam əhli-şəhər kişidən və övrətdən məcmui damlardan təmam tamaşaya çıxdılar, ta inki Cəlali Koroğlunu gətürdilər Səadət-Bəgim xanımın imarətünün bərabərindən aparsunlar. Səadət-Bəgim xanım gördü Cəlali Koroğlu bir iyiddir xeyli dilavər. Başı gümbəd kimi və buğları binaguşindən keçüb və gözləri qan çanağı kimin qızarub. Özü-özünə dedi, yəqin Bolı bəg bunu zor ilə dutmuyub, bəlkə bunu hiylə ilə dutub. Bir nəfər qulam göndərdi Bolı bəgin yanına ki, xəbər alsun, aya, Koroğlunu necə dəstgir eyləyüb dutdu.

Pəs qulam gəlib Bolı bəgin hüzuruna, dedi:

– Bolı bəg, xanım deyir bu əcəm oğlun necə dəstgir eylədin?

Bolı bəg dedi:

– Bunun təmam ləşkərin qırdum və özün dəstgir eyləyüb qolların bağladum.

Cəlali Koroğlu çün Bolı bəgdən bu sözü eşitdi, qeyrətindən bir qızardı. Dönüb yuxarı baxanda gördü Səadət-Bəgim xanım dam üstə üzü açıq bunlara tamaşa eylər. Koroğlu həman saat onun tiri-eşqin yeyüb yüzün dutub Bolı bəgə, dedi:

– Bolı bəg, niyə yalan deyirsən?

Sənə deyüm Bolı bəgim,
Qorxmanam bəgdən, xandan mən.
Kəndimdə hünər bülməsəm,
Necə keçərəm sandan mən.

Bolı bəg eylə bunu eşidəndə qılıcın çəkdi Koroğlunun üstünə, dedi:

– Əcəm oğlu, genə özün tərif eylərsən?

Koroğlu dedi:

– Bolı bəg, özünü Səadət-Bəgim xanımın yanında tərif eyləmə.

Bolı bəg, tökmə qanımı,
Bircə soruş əhvalımı,
Gül üzlü Səadət xanımı,
Sövərəm başu-candan mən.

Koroğlu boynu cignində,
Misri qılıc var belində,
Qıratı dava günündə,
Boyaram al-qandan mən.

Səadət-Bəgim xanım çün Cəlali Koroğludan bu sözü eşitdi bir köyüldən min köyülə Koroğluya aşiq oldu, dedi:

– Bolı bəg, əcəm oğlu yaxşı deyir. Sən buna hiylə eyləyüb dutmusan.

Bolı bəg qəzəbnak olub dedi:

– Koroğlu, özün mənim namzədimin yanında tərif eylərsən. İnşallah səni bir zillətlən öldürüm ki, təmam xəlqi-aləm

sənün əhvalıva ağlasun.

Pəs kəşan-kəşan onu gətirdi Həsən Paşanun bargahına daxil eylədi. Həsən Paşa Koroğlunu görəndə qəzəbnak olub cəllad istədi. Cəllad daxil olub yapışdu Cəlali Koroğlunun əlindən, istədi aparsun ki, onun boynun ursun, vəzir ərz eylədi:

- Qurbanun olum, səbr eylə, görək bu Bolı bəg bu xirəsəri necə dutub.

Pəs Paşa yüzin dutub Koroğluya dedi:

– Əcəm oğlu, doğru söylə görüm Bolı bəg səni zor ilə dutub gətirib, ya səni hiylə ilə dutub?

Cəlali Koroğlu çün bu sözü Paşadan eşidəndə hirsindən rəngi qaçdı. Dedi:

– Paşam sağ olsun, əgər Bolı bəg məni zor ilə dutsaydı, gərək mənim bədənimdə laməhalə bir yara nişanəsi olaydı. Bu xirəsər mənə hiylə eyləyüb ağladı ki, Həsən Paşa vədə eyləyüb ki, əgər sənün başun Həsən Paşaya aparam öz qızı Səadət-Bəgim xanımı mənə verəcək. Mən mərdanəlığ eylədüm, özüm gəlmişəm.

Bolı bəg çün bu sözü eşitdi, xəcalət çəkib başın aşağa saldı. Bəd əz an yüzin dutub Həsən Paşaya dedi:

– Paşam sağ olsun, bu əcəm oğlu yalan deyər.

Koroğlu yüzin tutub Həsən Paşaya dedi:

Paşa üstümüzə cari buyurdu,
Macal tapmaz ərəb atlar qaşana.
Yoldan baş götürmək keçməz hesabə,
Qoç iyidə yara gərək nişanə.

Duman gəlsün bizim dağlar bürüsün,
Ərəb atlar adam leşi sürüsün,
Kəllələr kəsilsün, qanlar yerisün,
Gög yüzündə məlaikə uşana.

İyid odur təpər verə arxanı,
Ağası ögüncə sala qovğanı,
Qılıc gəlsə başa çəkə qalxanı,
Sədağından səksən oxlar boşana.

Dəlilərim gədiklərdən görüksün,
Müxənnət olanun boynu urulsun,
Koroğlu der, genə dövüş qurulsun,
Bu meydanda ağa nədür, paşa nə.

Çün Koroğlu sözin təmam eylədi Həsən Paşa dedi:

– Vəzir, bu əcəm oğlu əcəb cürətli adamdur, qolları bağlı genə bizə nəşər urar.

Pəs cəllada hökm eylədi ki, apar bu anasın satdıqımun boynun ur ki, təmam Rum məmləkəti bunun əlindən təngə gəlib. Vəzir ərz eylədi:

– Paşam sağ olsun, əgər bunu öldürsən, bunun dəliləri bu vilayəti xarab eylər.

Həsən paşa dedi:

– Vəzir, bəs əlac nədir?

Vəzir ərz eylədi ki, ver, bunu məhbus eyləsinlər, ta görək bunun dəlilərindən nə xəbər olur. Paşa ilən vəzir bu sözü danışurdular bir vəqt gördülər Səadət-Bəgim xanımun qulamı daxil oldu, ərz eylədi ki, qurbanun olum, Səadət-Bəgim xanım ərz eylər ki, bu əcəm oğlu bizim vilayətlərimizi təmam xərab eyləyüb, mənim ürəgim onun əlindən dağdardur. Paşa onu versün mənə ki, onu verim siyəh çala salub məhbus eyləsünlər, ta gecələr ona əzab eyləyim, ta xəlqi-aləm təmam ibrət eyləsünlər.

Pəs Paşa hökm eylədi ki, Koroğlunun qolların zəncirnən möhkəm bağladılar və boynuna bir ağır zəncir urdular, kəşankəşan onu gətürdilər Səadət-Bəgim xanımın hüzuruna. Xanım hökm eylədi ki, onu aparsunlar siyəh çalə. Pəs qulamlar Cəlali Koroğlunu qırx arşın siyəh çalda məhbus eylədilər və bir qulam müvəkkil eylədi ki, hər gün on batman şərab və bir qədər təam o siyəh çalda Cəlali Koroğluya verürdülər və hər gün Səadət-Bəgim xanım gəlüb o siyəh çalın başında oturub Koroğlunun əhvalın xəbər alurdı və ona təsəlli verüb deyirdi:

– Ey Cəlali Koroğlu, qəmgin olmagilən ki, səni məhbus eyləmişəm. Məsləhət budur, əmma bu qədər bül ki, mən sənə aşiq olmuşam.

Tainki bir müddət Koroğlu o siyəh çalda qaldı. Bir gün

Səadət-Bəgim xanım gəldi siyəh çalun başına, dedi:

– Ey Cəlali Koroğlu, çox müddət oldu ki, səni siyəh çalda həbsə urdum. İstərsən səni ki, həbsdən çıxardam?

Koroğlu dedi:

– Xanım, mənim də köylüm çox istər ki, bir qədər sənün hüzurunda söhbət eyləyəm. Əmma əlacım yoxdur.

Pəs Səadət-Bəgim xanım hökm eylədi ki, bir ip salub Koroğlunu həbsdən çıxartdılar. Pəs Səadət-Bəgim xanım xəlvət eyləyüb hovuz kənarında bir məsnəd saldırıb Cəlali Koroğluynan belə o məsnədün üstündə əgləşdi. Koroğlu dedi:

– Xanım, bir qədər şərab gətürsünlər, ta mən içüb tər dəmağ olum, ta sənə söhbət eyləyüm.

Xanım hökm eylədi, şərab gətürdülər. Kənizlər piyaləni doldurub gətürdilər Koroğluya. Koroğlu dedi:

– Xanım, gərək sən özün piyaləni gətürəsən.

Pəs Səadət-Bəgim xanım özü ayağa durub nazü-qəmzə ilən bir piyalə şərab gətürdü verdi Cəlali Koroğluya. Koroğlu ədəbilən piyaləni alıb içdi. Ta bir neçə piyalə şərab peydərpey Koroğlu Səadət-Bəgim xanımın əlindən alıb nuş eylədi, sərməst olub qolun saldı onun boynuna. Pəs Səadət-Bəgim xanım hər qolun salub Cəlali Koroğlunun boynuna bir neçə busə bir-birinün yüzündən aldılar. Bəd əz an Səadət-Bəgim xanım dedi:

– Ey Cəlali Koroğlu, mən eşitmişəm ki, sən çox yaxşı türki deyərsən. Mən istərəm ki, bir qədər söhbət eyləyəsən, ta ləzzət aparam.

Pəs Koroğlu sazın kök eyləyüb basdı sinəsinə, yüzin dutub Səadət-Bəgim xanıma, dedi:

Uca dağların başında,
Acı yellər əsgin olur.
Yağar qar qaş-qabağından,
Duman olur, çisgin olur.

İyid gərək ola adlı,
Piyaləni içər dadlı,
Dəmir qılıc, qol qüvvətli,

Misri qılıc kəsgin olur.
Bülbül qonar qızılgülə,
Düşdü sirrim dildən-dilə,
Əlim yetməz Çamlıbelə,
İyidlərim qəmgin olur.

Gözüm qalıbdır yollarda,
Sirr sözüm dastan dillərdə,
Koroğlu qərib ellərdə,
Dinə bilməz misgin olur.

Çün Koroğlu sözin təmam eylədi, qeyrət əl verib bir qədər öz əhvalına ağladı. Səadət-Bəgim xanım ona təsəlli verib dedi:

– Ey Cəlali Koroğlu, məsləhət budur ki, gündüzlər həbsdə qalasan və gecələr olanda həbsdən xaric olub təşrif gətirüb söhbət eyləyək. Ondan ötrü ki, qorxaram Həsən Paşa xəbərdar ola, həm səni, həm məni həlak eyləyə.

Pəs qərarı buna qoyub günüzlər olanda Cəlali Koroğlu həbsdə əgləşürdi və gecələr gəlürdi Səadət-Bəgim xanımnan şərab içməgə və ləzzət aparmağa məşğul olurdu. Bunlar qoy burda qalsun, nəqli-dastan eşit iyidlərdən.

Çün Zülfüqar bəg və Eyvəz balı və Dəmirçioğlu və iyidlər qələnin xaricində Bolı bəginən dava eylədilər, Bolı bəg onların zərbi-dəstindən qorxub Koroğlunu qələyə daxil eylədi, iyidlərin əli Koroğludan üzüldü. Müraciət eləyib gəldilər Çamlıbelə, təmami-iyidləri cəm eyləyib məsləhət eylədilər ki, aya, nə vəzilən Cəlali Koroğlunu gətirsinlər. Bəs İsa balı və Musa balı və Bəlli Əhməd və Güyümçüoğlu davtələb olub dedilər:

– Biz gedəruğ hər vəzilən olsa, Cəlali Koroğlunu xilas eyləyüb gətirruğ.

Pəs onlar ayağa durub, libasi-hərb geyüb, atlarınun təngin möhkəm edüb səvar oldular.

Eyvəz balı dedi:

– Siz qabaqca gedün və mən həm sizün daluzca tezliklən gəllüq.

Pəs onlar Çamlıbeldən yola düşüb gecə və gündüz yatmayıb at sürdülər, ta axşam yetişdilər Toxat qələsünün həvalisi-

nə. Bəlli Əhməd dedi:

– Cəmaət, səbr eylüyün ki, gün qürub eyləsün, məbadə, əhli-şəhər bizi görüb tanısunlar.

Pəs bir çeşmənin başında atlarından aşağə gəlüb əgləşdilər. Bir vəqt gördülər bir nəfər osmanlı gəldi o çeşmənün başına. Bəlli Əhməd xəbər aldı:

– Canım, bu şəhərdə nə xəbər var? Deyəllər Həsən Paşa Cəlali Koroğlunun başun qaldurdı.

Osmanlı dedi:

– Cavan, yalan sözdür. Bolı bəg anasın satdığım Koroğlunu qolları bağlu gətirdi. Həsən Paşa istədi onu öldürsün, əmma vəzir iltimasın edüb qoymadı onu öldürsünlər. Əmma Koroğlunu Səadət-Bəgim xanımın siyəh çalında məhbus eyləyüblər.

Çün iyidlər Cəlali Koroğlunun sağlığından xatircəm oldular, Bəlli Əhməd şeşpərin götürüb osmanlının başında eylə urdu ki, başunun məğzi dağılub cəhənnəmə vasil oldu. Pəs orda qalub, ta gecədən bir pas keçdi, iyidlər ayağa durub atlarına səvar olub daxil oldular qələyə, özlərini yetirdilər Səadət-Bəgim xanımın imarətinin yanına. Atların tapşırdılar iyidlərin birinə, əmma özləri kəmənd atub daxil oldular imarətə hovuz başında oturdular. Ta inki, kənizlərdən biri gəldi hovuzdan su aparsun, gördü neçə nəfər cavan təmam mükəmməl və müsəlləh, buğlar binaguşdan keçüb, əgləşübdülər hovuzun kənarında. Kəniz bunları görcək qorxub qayıtdı Səadət-Bəgim xanımın hüzuruna, ərz eylədi:

– Xanım, neçə nəfər pətyarə əcəm oğlu əgləşüblər hovuzun başında, əmma təmamisi qərqü-ahənü-fulad olub gözləri qan çanağı kimin qızarub.

Xanım bir nəfər xacəsəralərdən göndərdi ki, get gör bunlar kimdür ki, məndən biizn bu gecə vəqti mənim imarətimə daxil olublar.

Xacə gəldi dedi:

– Cəmaət, xanım buyurur, hardan gəlmisüz və nədər ötəri bu imarətə daxil olubsuz?

Bəlli Əhməd dedi:

– Bizlər Cəlali Koroğlunun dəlilərindənuq, gəlmişuq Cəla-

li Koroğlunun sorağına.

Xacə qayıdub Səadət-Bəgim xanıma xəbər verdi. Xanım şad olub, özü durdu ayağa gəldi onların yanına, dedi:

– Cəmaət, xatircəm olun ki, Cəlali Koroğlunun keyfi kök siyəh çaldadur və qoymamışam Həsən Paşa onu həlak eyləsün.

Bəlli Əhməd dedi:

– Xanım, bizi o siyəh çalun başına apar, ta Cəlali Koroğlunu bir görağ.

Pəs xanım onları gətürdi siyəh çalun başına. Bəlli Əhməd səsləndi ki, ey Cəlali Koroğlu bül və agah ol ki, neçə nəfər iyidlərdən gəlmişuğ səni xilas eyləyüb aparmağa.

Çün Koroğlu Bəlli Əhmədin səsin eşitdi, şad oldu. Pəs iyidlər Cəlali Koroğlunu həbsdən çıxardub gətürdilər talara. Pəs Səadət-Bəgim xanım iyidlərə çox navaziş eyləyüb hökm eylədi saqilərə ki, iyidlərə şərab verün. Ta o gecə nisfə kimin saqilər iyidlərə peydərpey şərab verüb, onlarun başı şərabi-nabdan gərm olub keyfə məşğul oldular. Nisfi-şəbdən sora Bəlli Əhməd ərz eylədi ki, ey Cəlali Koroğlu daxi oturmaq məsləhət dəgül, gərək gedək Çamlıbelə ki, iyidlərün gözü yolda müntəzir qalub və gah ola ki, Həsən Paşa bizim gəlməgimizdən xəbərdar ola, ta fitnə bərpa ola.

Çün Səadət-Bəgim xanım bu sözü iyidlərdən eşitdi, yüzün dutub Cəlali Koroğluya dedi:

– Gərək məni də aparasan.

Koroğlu dedi:

– Yaxşı deyirsən, əmma heyf ki, Qırat burda dəgül.

Səadət-Bəgim xanım dedi:

– Qəm eyləmə ki, Həsən Paşunun töyləsində iki at var ki, onlarun əsli ərəbidür və çox yaxşı atdular. Əgər onları ələ gətürsön, onlar bizi aradan çıxardur.

Cəlali Koroğlu yüzün dutub Dəli Həsənə dedi:

– Gərək o atları gətürəsən.

Dəli Həsən özün yetürdi Həsən Paşanun sərtöyləsinə, gördü təmam mehtərlər əgləşüb və çıraq yanar. Pəs Dəli Həsən daxil oldu və salam eylədi. Mehtərlər xəbər aldı.

– Cavan, bu gecə vəqti buraya nəyə gəlmüsən?

Dəli Həsən dedi:

–Valla, mən qəribəm və əcəm vilayətindən gəlmişəm, çün indi şəhərə varid oldum, daxi bir yer tapa bülmədim, gördüm burda çıraq yanar, gəldüm sizün yanuvuza, ta bu gecə burda qalum, sübh vəqti mürəxxəs olum.

Pəs bir qədər oturub söhbət eylədi. Bəd əz an bir neçə danə həbb nabat çıxardub mehtərlərə verdi ki, onalara bihuşdarı qatmışdı, mehtərlər onları yeyüb məsti-layəqil düşüb bihuş oldular. Pəs Dəli Həsən ayağa durub həman atları zin edüb, təngin çəküb möhkəm eylədi, onları gətirüb imarətün qapusuna, Cəlali Koroğluya xəbər verdi ki, atları gətirdüm.

Pəs Səadət-Bəgim xanım ayağa durub bir qədər qızıl və gümüş və cəvahirat və zərinə libas götürüb qoydu xurcuna. İmarətdən çıxub onları atun tərkində möhkəm eylədilər. Pəs Cəlali Koroğlu və iyidlər və Səadət-Bəgim xanım ayaq həlqeyi-rikabə qoyub səvar oldular. Çün istədilər yola düşsünlər, Cəlali Koroğlu yüzün dutub Səadət-Bəgim xanıma, dedi:

– Xanım, bir neçə bənd türki gəlüb sinəmə, qulaq ver onları deyüm, bəd əz an yola düşək.

Pəs Koroğlu bu əşarı oxudu:

Koroğlu burdan düşdü yola,
Yollar gümür-gümürlənür.
Bulbul kimin qonub dala,
Dallar gümür-gümürlənür.

Mən baxaram solü-sağa,
Məni saldılar dustağa,
Əcəb düşdüm dağdan-dağa,
Dağlar gümür-gümürlənür.

Çoxlu çəkdüm əndişədən,
Ömür yetişsə başadən,
Gurluyub çıxsam meşədən,
Çöllər gümür-gümürlənür.

Çıxdım Toxat qələsindən,

Haq saxlasun bəlasından,
Koroğlunun naləsindən,
Dağlar gümür-gümürlənür.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, yola düşüb qələdən xaric oldular, Çamlıbelün yolun dutub bina eylədilər getməgə. Bunları qoy getməgdə olsun, nəqli-dastan eşit Səadət-Bəgim xanımun kənizlərindən.

Çün Cəlali Koroğlu həbsdən xilas olub və Səadət-Bəgim xanımı apardı, təmam nərə ura-ura özlərin yetürdilər Həsən Paşanun otağına, onu yuxudan bidar edüb, ərz eylədilər:

– Paşa sağ olsun, daxi oturmaq vəqti dəgül.

Paşa dedi:

– Kənizlər, məgər nə var?

Ərz eylədilər:

– Bül və agah ol ki, Cəlali Koroğlunun dəlilərindən neçə nəfər gəlüb onu həbsdən xilas eyləyüb və sənün qızun Səadət-Bəgim xanımı götürüb yola düşdülər.

Paşa çün bu xəbəri eşitdi aləm gözünə tirəvütar oldu. Öz vəzirin istəyüb. Çün vəzir hazır oldu, gördü Həsən Paşa biixtiyar hay-hayilən ağlıyır. Vəzir ərz eylədi:

– Paşam sağ olsun, niyə beylə biixtiyar ağlarsan?

Paşa dedi:

– Vəzir, qoymadun bu anasın satdığım Koroğlunu öldürüm. Əmma neçə nəfər onun iyidlərindən gəlüb həbsdən xilas eyliyüb və mənim qızım Səadət-Bəgim xanımı aparublar və məni təmam Rum məmləkətlərində rüsva eylədi.

Vəzir ərz eylədi:

– Qurbanun olum, bundan ötrü niyə ağlarsan, əlhəmdüllah, qoşunun çoxdur, bir qədər qoşun göndər ki, onları ya dutub sənün yanuva gətürsünlər, ya onları həlak eylüyüb başın gətürsünlər.

Pəs həman saat Həsən Paşa hökm eylədi ki, təmam qoşun cəm olub və onları Cəlali Koroğlunun dalınca rəvanə eylədi. Pəs o qoşun atların təcili-təmamilən sürüb bir mənzil yol getməmiş daldan Cəlali Koroğluya yetişdilər. Cəlali Koroğlu dönüb dalı baxanda gördü ki, bir ağır qoşun dalıca gəlür. Pəs

Səadət-Bəgim xanımı yoldan kənar bir təllün üstündə qoydu yerə, dedi:

– Xanım, sən burda əgləş, ta görüm bu qoşun kimdür ki, bizim dalımızca gəlür.

Pəs iyidləri götürüb gəldi, yolun üstün kəsüb durdu. Az qaldı ki, qoşun yetişsün bir vəqt Cəlali Koroğlu gördü daldan həm bir toz oldu. Çün toz aralandı gördü Eyvəz balı və Zülfüqar bəg təmam iyidlər ilən belə yetişdilər. Cəlali Koroğlu bunu görcək şad oldu. Pəs hər iki tərəfdən qoşun yetişüb birbirinün bərabərindən nizamilən səf çəküb durdular. Cəlali Koroğlu yüzün dutub Rum ləşkərinə bir neçə bənd türki dedi:

Əzəlindən bu meydana gələnlər,
Necə gördün bu meydanın havasın.
Ərəb atlar köpür-köpür yer eşir,
Şeşpər açar bu meydanın arasın.

Dəlilərim hər tərəfdən görünür,
Düşmənlərim bölük-bölük bölünür,
Qılıc açar ağ öpkələr görünür,
Qoç iyidlər özü bağlar yarasın.

Sığınuram şahi-mərdan Əliyə,
Uğramışam on dört yerdən yarayə,
Buyururam doxsan doqquz dəliyə,
Urar, yıxar duran tipün qarasın.

Koroğlu der, başdan-candan keçərəm,
Oraq kimin düşmənləri biçərəm,
Sındurram, basaram, qırram, keçərəm,
Qılıc açar bu işlərin çarasın.

Çün Koroğlu sözin təmam eylədi, hökm eylədi dəlilərə ki, qoymuyun bu qoşunu. Pəs iyidlər çahar ətrafdan töküldülər qoşun içinə, bir türfətül-eyndə küştələrdən püştələr tərtib verdilər. Osmanlunun başları hübab kimin qan içində durdu üzmağa. Cəlali Koroğlu ac qurt kimin osmanlı qoşunun bölükbölük eyləyib qatdı qabağına. Hər kimə ki, qılıc həvalə eylərdi ömründən bəhrə görməzdi. Pəs bir az zamanda osmanlu

qoşunun tari-ənkəbud (kimin) yırtıb dağıtdılar. Cəmi kəsiri onlardan qılıca çəküb və bəzisi mütəfərriq olub yüz qoydular qaçmağa. Cəlali Koroğlu hey urub dedi:

– Qoçaq iyidlərim, düşün bunların dalınca, qoymuyun bir nəfər bunlardan diri qurtulsun.

Pəs iyidlər məhmiz göstərib atlara, ta Toxat qələsinə kimin onları qavdılar. Bir az cəmaət onlardan fəlakət günündə özlərin qələyə saldılar. Pəs Cəlali Koroğlu və iyidlər ordan müraciət eyliyüb, küştələrin təmam əsbab və atın cəm eyliyüb gəldilər həman yerə ki, Səadət-Bəgim xanım orda müntəzir oturmuşdu. Çün vəqt təng idi köç eyləmək mümkün dəgüldü, pəs o gecə orda qalub ta özləri və atları rahət oldu. Eylə ki sübh oldu, ordan köç edüb yüz qoydular Çamlıbelə tərəf getməgə. Bir qədər yol gəlüb Səadət-Bəgim xanım yüzin dutub Koroğluya, dedi:

– Ey Cəlali Koroğlu, məni öz vətənimdən gətürdün, aya, məni oğluva xastkarlıq eyləyəcəksən, ya özüvə alacaqsan?

Koroğlunun çun övladı olmazdı, çün bu sözü Səadət-Bəgim xanımdan eşitdi bir ah çəküb, gözlərinin yaşın töküb dedi:

Ay ağalar, ey qardaşlar,
Ürəgimdə dərd iyildər.
Bir mərd oğlunun əlində,
Şətrənc oynar nərd iyildər.

Coşsa dəli köyül, coşsa,
Coşuban həddindən aşsa,
Bir meşiyə ki, od düşsə,
Quru yanar, yaş iyildər.

Ömrüm xirməni savruldu,
Cigərim yandı, qavruldu,
Ruh ki, cəsəddən ayrıldı,
Qulaq yatar, baş iyildər.

Bu dünya xalidür, xali,
Çoxlar onda məskən salı,
Bir iyid ki, sonsuz ölü,

Ocaq keçər, yurd iyildər.
Koroğlu əgdigün oxdur,
Düşməni dostundan çoxdur,
Hər iyidin sonu yoxdur,
Dağ mələşür, daş iyildər.

Çün sözin təmam eylədi dedi:

– Xanım, mənim övladım olmaz, səni özümdən ötrü aparıram.

Pəs mənzilbəmənzil gəlüb Çamlıbelə yetişdülər, atlarından aşağa gəlüb bir neçə gün istirahət eyliyüb bir gün Cəlali Koroğlu Eyvəzı çağırub dedi:

– Eyvəz balı, gərək Səadət-Bəgim xanımın toyunun tədarükü görülsün.

Pəs Eyvəz balı təmam iyidləri cəm edüb toy tədarükü görüldü. Yeddi gün və yeddi gecə iyidlər eyşü-nuşa məşğul olub, onlarun başı şərabi-nabdan gərm olub, keyfə məşğul oldular. Yeddi gün və yeddi gecə təmam oldu, məşşatələr Səadət-Bəgim xanıma ziynət verdi. Pəs onu gətürdülər Cəlali Koroğlunun otağına. Pəs onlar bir-birindən kami-dil hasil eylədilər. Eylə ki sübh oldu, Koroğlu gəlüb divanxanə çadırına təmam iyidləri ehzar edüb onlara çox nəvaziş edüb və hər birinin əhvalına müvafiq xələt verüb mürəxxəs eylədi.

KOROĞLUNUN ONUNCU MƏCLİSİ

Koroğlunun Kürdüstana getməsi və Kürdüstan valisi Əhməd Paşa ilə dava edib onun qızı Leyli xanımı gətirməsi

Raviyani-əxbar və naqilani-asar belə rəvayət eyləyüb ki, bir gün Cəlali Koroğlu Eyvəzi çağırub dedi:

– Eyvəz, çoxdandur şikarə getməmişəm, istərəm bir şikarə gedaq və bir qədər səyahət eyləyaq.

Eyvəz neçə nəfər iyidlərə xəbər eyləyüb, o cümlə Bəlli Əhməd və Dəli Mehtər və Dəmirçioğlu və Zülfüqar bəg atlarına səvar olub Cəlali Koroğluynan belə şikarə çıxdılar. Pəs bir qədər seyr eyləyüb bir sürü ceyranə düçar oldular. Cəlali Koroğlu özü at salub bir neçə ceyran şikar eylədi. Onları gətirüb bir çeşmənün başında kəbab eyləyüb yeməgə məşğul oldular.

Bəd əz an hər tərəfdən söhbət eylərdilər. Bir vəqt gördülər Kürdüstan tərəfindən bir toz oldı, Cəlali Koroğlu dedi:

– Eyvəz, gör bu toz nə tozdur?

Eyvəz at salub çün yetişdi, gördü Xacə Yəqubdur. Onu gətürdü Cəlali Koroğlunun hüzuruna. Koroğlu xəbər aldı:

– Xacə, çoxdandur görükməzsən, hara getmişdün?

(Xacə) ərz eylədi:

– Qurbanun olum, vilayətləri səyahət eylərdüm.

Koroğlu xəbər aldı:

– Xacə Yəqub, səyahətində qəribə şey nə gördün?

Ərz eylədi:

– Qurbanun olum, bu səyahətimdə güzarım düşdü Kürdüstanə. Gördüm yaxşı basəfa şəhərdür. O şəhərün bir valisi var ki, onun adına Əhməd Paşa deyəllər. Çox rəşid adamdur və yaxşı qoşunu və cəmaəti vardur. Bir neçə müddət o şəhərdə qaldum. Bir gün şəhərdən kənara çıxdım ki, bir qədər səyahət eyləyüm, güzarım düşdü bir bağə. O bağda dolanurdum, ta inki yetişdüm o bağun vəsətinə, gördüm bir ali imarət var və bir böyük hovuz o imarətün bərabərində var ki, fəvvarələrdən su cari olub tökülür hovuza. Əgləşdüm o hovuzun kənarında. Bir vəqt gördüm bağdan bir qovqa büləndoldu. Bağbanlar əl-

lərində ağac hər kəs bağda idi onları ura-ura bağdan xaric eylədilər. Ondan sora yetişdilər mənim yanıma, dedilər:

– Əcəm oğlu, dur eşigə ki, Əhməd Paşanun qızı Leyli xanım səyahətə gəlür.

Mən xəbər aldum ki, bu bağ kimindür, dedilər:

– Bu bağ Əhməd Paşanun qızınun bağıdur ki, hər il gül fəslində iki ay gəlür, bağda mənzil eylər.

Pəs mən bir neçə əşrəfi o bağbana verdüm və ona yalvardum ki, mən bir qərib adəməm və bu şəhərdə mənzilim yoxdur, məni də bir bağban hesab eylə ki, bir neçə gün bu bağda sənqa qonaq olum. Bağban çün pulları gördü, tamahı cuşa gəlüb, dedi:

– Bu şərtlən ki, hər kəs səndən xəbər alsa ki, sən kimsən, degilən mən bağbanun qardaşıyam ki, neçə müddətdür getmişdüm əcəm vilayətlərinə səyahətə.

Bu bağban məni gətürdi bağun aşağı tərəfində öz sövməəsinə. Oturmuşdum, bir vəqt nə gördüm ki, fərraşlar əllərində ağac bağa daxil oldular və onlarun dalınca bir neçə nəfər xacə və qulam gəldilər. Əmma onlarun dalınca gördüm bir nazənin-sənəm daxil oldu ki, bir belə nazənin mən görməmişdüm və neçə nəfər kəniz sağdan və soldan onu aralığa alub kəmalinazilən daxil oldu bağa.

Çün mən onu gördüm, huş başımdan gedüb biixtiyar oldum və təəccüb eylədüm ki, xudavəndi-aləm bu növ gözəl insan xəlq eyləyüb. Pəs o nazənin bağı seyr eyləyüb, tainki gəldi talarda qərar dutdi. Pəs hökm eylədi ki, təmam fərraşlar bağdan xaric oldular, məgər bir neçə nəfər qaravul bağun qapusunda qaldı. Pəs mən bir neçə gün orda qaldum və çox səy eylədüm ki, bəlkə o nazənin-sənəmi görəm, mümkün olmadı. Bir gün qürbət mənə çox təsir eylədi. Ayaqə durub gəldüm gülzar içində əgləşdüm və fikr eylərdüm ki, ayə, nə tövr eyləyüm ki, bu nazənin-sənəmi bir görüm. Bir vəqt gördüm bir ağac mənim dalımdan urdular. Dönüb baxanda gördüm bir kənizdür. Dedi:

– Əcəm oğlu, sən bura niyə gəlmüsən, məgər bülmürsən ki, Əhməd Paşanun qızı Leyli xanım bağda mənzil eyləyüb?

Mən dedim:

– Kəniz, mən xaric adam dəgüləm, bağbanun qardaşıyam.

Elə bu sözü dedüm, gördüm Leyli xanım üzü açuq yetişdi mənim yanıma, dedi:

– Anasın satdığım əcəm oğlu, sən bağda nə qəyirürsən?

Mən ərz eylədüm:

– Xanım, mən özgə adam dəgüləm. Mən həm bağbanun qardaşıyam ki, neçə müddətdür əcəm vilayətlərinə səyahətə getmişdüm.

Çün Leyli xanım bunu eşitdi, məni gətürdi hovuzun kənarına, dedi:

– Bu neçə müddət ki, əcəm vilayətlərində səyahətə getmişdün, qəribə şey nə gördün?

Mən ərz eylədüm:

– Xanım, əcəm vilayətlərin təmam seyr elədüm ta inki güzarım düşdü Çardaqlınun Çamlıbelə. Orda bir nəfər əcəm oğlu gördüm ki, onun adına Cəlali Koroğlu deyirdilər. Bir belə iyid rüzgarın gözü görmüyib və görmüyacax. Çox rəşid və qeyrətli iyiddür və onun yeddi min yeddi yüz yetmiş yeddi dəlisi vardur ki, hər biri bir Rüstəmi-zəmanədür ki, təmam Rum və İran vilayətlərindən ona bacu-xərac gətirüllər.

Çün Leyli xanım bu sözü məndən eşitdi, dedi:

– Bəli, mən həm onun tərifin eşitmişəm, əmma heyif ki, onun özün görməmişəm və mənim atam Əhməd Paşa həmişə onu tərif eylər ki, bir belə rəşid adam külli-aləmdə yoxdur.

Mən ərz eylədüm:

– Xanım, Cəlali Koroğlu mənimlən rəfiq olub, əgər sən istərsən onu görəsən, onun əlacı mənim əlimdə asandur.

Leyli xanım çün bu sözü məndən eşitdi, şad oldu, dedi:

– Get mənzilüvə, hər vəqt səni istəsəm, o vəqt mənim yanıma gəl.

Pəs mən qayıtdum öz mənzilimdə aram oldum, eylə ki, gecə oldu bir nəfər kəniz gəlüb məni apardı talarə. Çün daxil oldum, salam eylədüm. Pəs mənə yer göstərüb əgləşdüm. Rəqqaslar ayağa durub binayi-rəqs qoydular və saqilər piyaleyi-şərab verdilər, ta nisfi-şəbə kimin eyşü-işrətə məşğul olduq. Eylə ki nisfi-şəb olduq, təmam rəqqaslar və saqilər və kənizlər mürəxxəs olub öz mənzillərinə müraciət eylədilər. Mən də ayağa dur-

dum, istədüm mürəxxəs olam, Leyli xanım mənə buyurdu:

– Sən əgləş.

Çün məclis xəlvət oldu, yüzin dutub mənə dedi:

– Cavan, doğrusun söylə görüm sən kimsən və adun nədür, bu şəhərə niyə gəlmisən ki, sən bağbanın qardaşı dəgülsən.

Mən qorxudan ərz eylədüm ki, xanım, mənim adıma Xacə Yəqub deyəllər ki, Cəlali Koroğlunun sövdagərlərindənəm və mənim işim vilayətləri səyahət eyləməkdir ki, hər yerdə, hər məmləkətdə bir qəribə şey görsəm onu Cəlali Koroğluya xəbər aparam.

Leyli xanım dedi:

– Xacə, bu səfərində qəribə şey nə görmüsən ki, Cəlali Koroğluya xəbər aparasan.

Mən ərz eylədüm:

– Xanım, mənim bu səfərim çox mübarək və yaxşı səfərdür ki, sənün kimin nazənin-sənəmün xidmətinə yetişdüm və heç şey sənün camalından qəribə dəgül, əgər həyat baqi olsa, sənün hüsnü camalun tərifinün xəbərin Cəlali Koroğluya aparram.

Pəs Leyli xanım çün bu sözü eşitdi, çox şad oldu, bir dəst yaxşı xələt mənə verdi, dedi:

– Xacə, görüm nə karəsən? Əgər inşallah, Cəlali Koroğlunu gətirdün ki, məni burdan apardı, səni dünya malından qəni eylərəm.

Mən ərz eylədüm:

– Xanım, sən iki ay bu bağda mənzil eyliyəcəksən, inşallah, tezliglən Cəlali Koroğlunu gətürrəm.

Pəs Leyli xanım bir dəstə gül öz zülfünün teliynən bağlayub təslim eylədi mənə, dedi:

– Xacə, bu dəstə gülü verürsən Koroğluya, əgər mərd adamdur, gərək tezgilən gələ və məni Kürdüstandan apara.

Eylə ki sübh oldu, bir yaxşı at verdi və bir qədəri xərci-rah verüb yola saldı. Pəs Xacə həman dəstə gülü xurcundan çıxarub qoydu Koroğlunun bərabərinə. Cəlali Koroğlu çün o dəstə gülü gördü dəryayi-eşqi cuşa gəlib Leyli xanımın məhəbbəti onun cəmi-əzasına dağıldı. Pəs sazın götürüb basdı sinəsinə, yüzin dutub Eyvəz balıya dedi:

Siyəh telli, qələm qaşlı Eyvəzim,
Kürdüstana gedər oldu Koroğlu.
Şirin dilli, ləbi ballı Eyvəzim,
Kürdüstana gedər oldu Koroğlu.

Məcnun olub hər tərəfə qaçaram,
Fərhad kimin dağu-daşı çaparam,
Soraqlaşub nazlu yarı taparam,
Kürdüstana gedər oldu Koroğlu.

Xəzan görmüş qızıl gül tək solmuşam,
Eşq əlindən dolu badə içmişəm,
Yar yolunda başdan, candan keçmişəm,
Kürdüstana gedər oldu Koroğlu.

Koroğluyam, kimlər çəkər nazımı,
Sərxoş olub itirmişəm özümü,
Heç bilməzəm danışmaqa sözümü,
Kürdüstana gedər oldu Koroğlu.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Eyvəz gördü ki Leyli xanımın məhəbbəti Cəlali Koroğlunu aşiqi-biqərar eyləyüb, mümkün dəgül ki, ona təsəllü və aram vermaq olsun, ərz eylədi:

– Qurbanun olum, mən eşitmişəm ki, əhli-Kürdüstan bir qeyrətlü adamdular, məbadə, səni dutub həlak eyləyələr, səbr eylə ki, mən özüm bir neçə nəfər iyidlərdən götürüb gedüm. Bəlkə, inşallah, bir növilən Leyli xanımı ordan xilas eyləyib gətirüm.

Cəlali Koroğlu dedi:

– Eyvəz, mümkün dəgül, gərək özüm gedəm.

Eyvəz gördü ki Koroğlu heç kəsdən söz eşitməz, bina eylədü Koroğlunu qorxutmaqa, dedi:

Başına döndügüm xanların xanı,
Qoç Koroğlu, bir qulaq ver sözümə.
Şikəstə Eyvəzin ruhu, rəvanı,
Qoç Koroğlu, bir qulaq ver sözümə.

Bel bağlama hər deyilən nigarə,
Çamlıbeldən çıxmagilən kənarə,

Öz-özüvü salma qürbət diyarə,
Qoç Koroğlu, bir qulaq ver sözümə.

Kürdüstanın iyidləri düzülsə,
At oynadub halayları pozulsa,
Pəs neyləyim əlim səndən üzülsə,
Qoç Koroğlu, bir qulaq ver sözümə.

Eyvəz deyər, çox güvənmə şəstüvə,
Qorxum budur car çəkələr üstüvə,
Əhməd Paşa saman təpər pustüvə,
Qoç Koroğlu, bir qulaq ver sözümə.

Cəlali Koroğlu çün bu sözləri Eyvəzdən eşitdi, dedi:

– Eyvəz, nə bu qədər Əhməd Paşanı tərif eylərsən və onun atluların tərif eylərsən?

Əhməd Paşa gəlsə mənim üstümə,
Təxt üstündən onu sallam, inşallah.
Car buyurub qoşun çəksə üstümə,
Misri qılıc ona çallam, inşallah.

Qıratınan kirvələri aşaram,
Üç gecədə Kürdüstana çıxaram,
Qələsinün bürcü-barın yıxaram,
Şəhr içinə qovğa sallam, inşallah.

Kürdüstanın bəglərini dutaram,
Dalısında qollarını çataram,
Ac qurt kimin qabağıma qataram,
Əzrail tək canun allam, inşallah.

Koroğluyam, yalan yoxdur dilimdə,
At altımda, misri qılıc belimdə,
Dəli Həsən kömək dursa dalımda,
Kürdüstana dava sallam, inşallah.

Çün Koroğlu sözin təmam eylədi, bir qədər pul və bir dəst xələt Xacə Yəquba verib ona çox nəvaziş eylədi. Pəs ordan atlanub gəldi Çamlıbelə. Çün gecə oldu, təmam iyidlər Cəlali Koroğlunun məclisinə cəm oldular, saqilər piyaleyi-şərab

verüb, iyidlərün başı şərabi-nabdan gərm olub, nisfi-şəbə kimin keyfə məşğul oldular. Eylə ki nisfi-şəb oldu, Cəlali Koroğlu yüzin dutub İsa balıya dedi:

– Şərab gətür.

İsa balı bir neçə piyalə Koroğluya verdi. Cəlali Koroğlu məsti-layəqil olub, keyf aləmində Leyli xanımun məhəbbəti onun sinəsindən cuş edüb, sazın götürüb basdı sinəsinə. Yüzin dutub iyidlərə bir neçə türki oxudu:

Bu məclisdə dolu badə içənlər,
Kürdüstanə səfər eylər Koroğlu.
Dövüş günü başu-candan keçənlər,
Kürdüstanə səfər eylər Koroğlu.

Bəlli Əhməd, bu dəvləri zin edün,
Tənglərini neçə yerdən bərkidün,
Şərab içib oturmağı tərgidün,
Kürdüstanə səfər eylər Koroğlu.

Dəlilərim, qeyrət edün, ar edün,
Durna kimin bir-birinə car edün,
Dəmirçioğlunu xəbərdar edün,
Kürdüstanə səfər eylər Koroğlu.

Koroğluyam, sığınmışam Əliyə,
Duldulun sahibi Şahi-Vəliyə,
Bu dəvləri durun, verün gədiyə,
Kürdüstanə səfər eylər Koroğlu.

Çün Koroğlu sözin təmam eylədi, hökm eylədi Qıratı Dəli Mehtər zin edüb gətürdi. Pəs Bəlli Əhmədi və Dəmirçioğlun və Dəli Mehtəri yanınca götürüb istədi rəvanə olsun, Eyvəz balı yeriyüb bərabərə ərz eylədi:

– Qurbanun olum, gərək məni də bu səfərə aparasan.

Koroğlu dedi:

– Eyvəz, sən qal Çamlıbeldə, on gün məndən sora dəliləri təmam götirüb mənim dalımca gəl.

Bunu deyüb həman saat atlanub yüz qoydular Kürdüstanə getmağa. Pəs iyidlər təmam atlanub Cəlali Koroğlunu iki

ağac yol müşaiyət eylədilər. Cəlali Koroğlu onları mürəxxəs eyləyüb, tiri-şəhab kimin yüz qoydular getmağa. Pəs mənzil-bemənzil gəlüb tainki bir gün zöhr vəqti yetişdilər Sinə şəhrinün həvalisinə. Koroğlu yüzün dutub iyidlərə dedi:

– Cəmaət, bu zöhr vəqti şəhərə daxil olmağımız məsləhət dəgül. Düşün bu çəməndə, ta gün ğürub eyləsün.

Pəs atlardan aşağə gəlüb bir çeşmənün başında əgləşüb və atların çəməndə çarayə məşğul eylədilər. Eylə ki gün ğürub eylədi, atlanub daxili-şəhr oldular. Mənzildən ötrü küçələri dolanurdılar, tainki bir qoca kişi onlara rast gəlüb. Cəlali Koroğlu dedi:

– Qoca, biz bir ğərib adamuq və bu şəhərə bivəqt varid olmuşuq. Bu gecəlığa bizə bir mənzil ver.

Qoca dedi:

– Cavan, mənzilim var, əmma fəqirəm, sizə tədarüki-təam eyləyə bülmənəm.

Koroğlu dedi:

– Əlhəmdüllah, bizim ehtiyacımız sənə yoxdur.

Pəs qoca onları öz mənzilinə gətirüb, Cəlali Koroğlu bir neçə əşrəfi qocaya verüb dedi:

– Bunları götür, bizlərə təam tədarükü gör.

Pəs qoca pulları götürüb bir qədər kah, çov və bir qədər təam tədarük eyləyüb gətürdi. Dəli Mehtər atları rahət eyləyüb, namazların qıldılar. Pəs qoca təam hazır eylədi. Eylə ki təam sərf olundu, qoca dedi:

– Cavan, bu şəhərə niyə gəlmüsən?

Cəlali Koroğlu dedi:

– Qoca, biz sövdagəruq, bizim mətaımız daldadur, sabah gəlür.

Qoca dedi:

– Cavan, mənim şinaxtımı itirmə, sən sövdagərə bənzəmirsən, ondan ötrü ki, sövdagərlərin mənzili karvansara olur, bu gecə vəqti mənzildən ötrü küçələri dolanmaz. Sənün bu iyidligündən elə Cəlali Koroğluya bənzərsən.

Koroğlu dedi:

– Qoca, sən nə bildün mən Koroğluyam və sən Koroğlunu

harda görmüsən?

Qoca dedi:

– Cavan, mənim əslim türkmandur, evim Məşhəddə olurdu və özüm ticarət eylərdüm. Qəzayi-rəbbanidən mənim dövlətim pamal olub qərzdar oldum. Qeyrətimdən əyalımı götürüb on iki ildür ki, bu şəhərdə məskən tutmuşam və neçə il bundan əqdəm mənim güzarım Çamlıbelə düşdü, Cəlali Koroğlunu orda görmüşəm. Çün səni gördüm, Cəlali Koroğluya oxşatdum. Çün Koroğlunun əsli türkmandı.

Qocadan bu sözü eşidəndə Koroğlu təəccüb eyləyüb əlin saldı cibinə, iki yüz əşrəfi qocaya verdi və dedi:

– Qoca, mən bir mətləbə gəlmişəm, əgər inşallah, mətləbin hasil oldu, səni dünya malından biehtiyac eylərəm.

Qoca dedi:

– Cavan, mətləbün nədür?

Cəlali Koroğlu dedi:

– Qoca, yaxşı şinaxt eyləyüb məni tanıdun, mənim adıma Cəlali Koroğlu deyəllər və mənim həm əslim türkmandur və mənim mətləbim bu şəhərə gəlməkdən budur ki, gərək Əhməd Paşanun qızı Leyli xanımı aparam.

Qoca dedi:

– Ey Cəlali Koroğlu, sənün bu mətləbün çox müşgül mətləbdür, ondan ötrü ki, Əhməd Paşa özü çox səffak və rəşid adamdur və nə qədər qoşunu var ki, təmam dava günündə hər biri min atluya bərabərdülər və bunlara əlavə Əhməd Paşanun bir eli var ki, o elün adına Çardəvli deyəllər ki, çox dilavər və zirək atluları var. Müşgüldür ki, sən iki-üç nəfər adamnan Kürdüstan məhalından Əhməd Paşanun qızın aparasan.

Cəlali Koroğlu dedi:

– Qoca, Allah kərimdür, əmma sənə iki qulluqum var. Biri budur ki, gərək mənim adamlarımdan və atlarımdan mütəvəcceh olasan və biri budur ki, gərək Leyli xanımun mənzilin mənə nişan verəsən.

Qoca dedi:

– Bunlarun hər ikisi asan qulluqdur, əmma ey Cəlali Koroğlu, bül və xəbərdar ol ki, Leyli xanım şəhərdən xaric öz bağın-

da mənzil eyləyüb. İki ay o bağda oturacaq, inşallah, sabah səni aparram o bağun qapusuna.

Cəlali Koroğlu xatircəm olub, bir qədər yatub, istirahət eylədi. Eylə ki sübh oldu, ayağa durub, namazın qılub oturmuşdu, tainki qoca gəldi Cəlali Koroğlunun bərabərinə, ərz eylədi:

– Qurbanun olum, bismillah, dur ayağə, gedək Leyli xanımun mənzilinə.

Pəs Koroğlu iyidləri orda qoyub, özü qocaynan belə gəldi bazarə, bir saz və bir dəst aşıq libası alub, təğyiri-libas eylədi. Şəhərdən çıxub yüz qoydular Leyli xanımun mənzilinə tərəf getmağa. Qoca dedi:

– Ey Cəlali Koroğlu, bağun qapusunda keşikçi var, özgə adam bağ içinə qoymazlar.

Koroğlu dedi:

– Qoca, sən məni bağun qapusuna yetir, bəd əz an müraciət eylə.

Eylə ki bağun qapusuna yetişdilər, qoca qayıtdı. Koroğlu gördü otuz nəfər keşikçi təmam pür əsbab bağun qapusunda oturublar. Pəs onlara səlam eyləyüb durdu. Keşikçibaşı dedi:

– Əcəm oğlu, hardan gəlürsən və işün nədür?

Koroğlu dedi:

– Valla, əcəm ölkəsindən gəlmişəm və işim yanşaqlıqdur. Bu vilayətə gəlmişəm, bəlkə bir qədər parə qazanam, əhlü-əyyalıma aparam.

Keşikçibaşı dedi:

– Əcəb oldu, biz iki ay burda varuq, mənə mehman ol və söhbət eylə, inşallah, gedən vəqtə səni razı eylərəm.

Pəs Koroğluya yer göstərüb əgləşdürdi, qəhvə və qəlyan gətürdilər. Bəd əz qəhvə və qəlyan şərab gətürdilər, bir neçə piyalə Koroğluya verdilər. Koroğlu içüb məsti-layəqil oldu. Keşikçibaşı dedi:

– Yanşaq, bir qədər söhbət eylə.

Pəs Koroğlu sazın kök eyləyüb basdı sinəsinə, bir növilən söhbətə məşğul oldu ki, təmam keşikçilər onun söhbətindən bihuş oldular. Bunları qoy burda qalsun, nəqli-dəstan eşit Leyli xanımun kənizlərindən ki, bir neçə nəfər kəniz bağı do-

lanurdı, gördülər bağun qapusundan oxumaq səsi gəlür. Çün yetişdilər qapunun bərabərinə, gördülər bir əcəm oğlu türkü oxur və saz çalar, bir növilən ki, huş insanun başından çıxar. Pəs qayıdub gəldilər Leyli xanımın xidmətinə, ərz eylədilər:

– Xanım, bir əcəm yanşaqı gəlüb, bağ qapusunda söhbət eylər, əmma belə türki oxur ki, insanı valeh eylər.

Çün Leyli xanım bu sözü kənizlərdən eşitdi, bir nəfər xacə göndərdi keşikçibaşınun yanına. Çün xacə gəldi, dedi:

– Xanım buyurur, gərək yanşaqı aparam ki, hərəmxanədə bir qədər söhbət eyləsün.

Pəs Koroğlunu götürüb daxil oldu bağa. Əmma Leyli xanım hökm eylədi ki, bir məsnəd gülzarə saldılar. Özü oturub məsnəd üstündə və təmam kənizlər onun ətrafında durdular. Çün Cəlali Koroğlu yetişdi, səlam verüb durdu ayaq üstə. Leyli xanım ona nəvaziş eyləyüb yer göstərdi. Koroğlu əgləşüb Leyli xanıma baxanda gördü vaqeən bir nazənin-sənəmdür ki, xüdavəndi-aləm onun mislü-manəndin xəlq eyləməyüb. Cəlali Koroğlu aşiqi-biqərar olub özün itirdi, əmma Leyli xanım Koroğluya baxanda gördü yaxşı cavandur, asari-nəcabət onun yüzündən və gözündən tökülür. Öz qəlbində dedi, heyf ki, bu cavan aşıqdur.

Pəs yüzin dutub kənizlərə qəhvə və qəlyan istədi. Çün qəhvə və qəlyan sərf olundu, saqi şərab gətürdi. Bir neçə piyalə şərab Leyli xanıma verdilər. Leyli xanım şərabı içüb rəngi qızardı, dedi:

– Yanşaq, sən də şərab içərsən?

Koroğlu dedi:

– Xanım, bizlər yanşaq tayfəsiyüq, harda görmuşüx şərabı. Əmma çün sənün iltifatun var, bir piyalə versünlər.

Saqi bir piyalə şərab Koroğluya verdi. Çün içdi, ərz eylədi:

– Xanım, əcəb ləzzətli sudur, bir qədər də versünlər.

Kənizlər Koroğlunun bu sözindən güldülər. Dedilər:

– Əcəb türk-sadə əcəmdür ki, şərabə su deyər.

Pəs bir piyalə şərab həm verdilər. Koroğlu ərz eylədi:

– Xanım, dəvəni çömçə ilən suvarursan. Bu şərab mənim buğlarımı yaş eyləmədi.

Leyli xanım dedi:

– Yanşaq, bəs sən deyirdün mən şərab görməmişəm?

Koroğlu dedi:

– Çün mənim şərabə çox meylim var, xəcalət çəkdüm ki, sənün xidmətündə izhar eyləyəm.

Pəs Leyli xanım hökm eylədi, kənizlər bir tuluq şərab gətürdilər, istədilər piyaləyə töksünlər, Koroğlu dedi:

– Xanım, piyalə istəməz.

Tuluğun ağzın dayadı ağzına, təmam-kamal onu içdi. Leyli xanım və kənizlər təmam təəccüb eyləyüb durdular gülməgə. Leyli xanım dedi:

– Yanşaq, sənün adun nədir?

Koroğlu dedi:

– Xanım, mənim adıma Roşan əmu deyəllər.

Dedi:

– Roşan əmu, heç Koroğlunun türkilərindən bülürsən ki, bir qədər bizə söhbət eyləyəsən?

Koroğlu dedi:

– Xanım, mənim işim Cəlali Koroğlunun türkilərindən oxumaqdur.

Pəs sazın kök eyləyüb basdı sinəsinə, dedi:

– Xanım, əgərçi mənim sizün yanınuzda söhbət eyləməgim bi ədəbluqdur, əmma bir neçə bənd türki gəlüb sinəmə, qoy onları ərz eyləyüm, ta sən biləsən ki, mən hardan gəlmişəm və bu şəhərdən mətləbüm nəmənədür.

Çamlıbeldən Kürdüstanun arası,
Neçə mənzil qarlı dağlar yucadur.
Beli incə məhbubların yanında,
Yanşaqların oxumağı bicadur.

Çün Leyli xanım Çamlıbelin adın eşidəndə, qəlbində dedi, yəqin bu Cəlali Koroğludur. Dedi:

– Yanşaq, doğrusun de, görüm, sənün əsl-nəsəbün kimə yetişür?

Koroğlu dedi:

– Xanım, qulaq ver, deyim.

Əslim yetər təkə, türkman, yomutə,
Aşiq olan gərək özün unutə,

Sanasən kim, gün girübdür bulutə,
Ay batubdur, nə qaranlıq gecədur.

Gözüm düşdü Savalanun qarına,
Çətin bülləm köylüm qəmdən arına,
Məmön bənzər Gürcüstanın narına,
Əlim yetməz, xeylək qəddün yucadur.

Çün kənizlər bu sözü Cəlali Koroğludan eşitdilər, durdılar gülməgə. Dedilər:

– Roşan əmu, dəli olma, bu nə sözdür Paşa qızınun yanında savlarsan.

Əllərində gül var idi. Dört tərəfdən Koroğluya gül atdılar. Əmma Leyli xanım büldü ki, bu Koroğludur. Başın saldı aşağə, heç dinmədi. Koroğlu genə yüzin dutub Leyli xanıma, dedi:

Havuz üstəki şahi-mərdan Əlidür,
Koroğluyam, adım Rövşən-Əlidür,
Qızlar deyər Roşan əmu dəlidür,
Heç dinməzəm, danışmağım bicadur.

Cəlali Koroğlu çün sözin təmam eylədi, oturdu yerə. Leyli xanım gördü daxi yanşaq söhbət eyləməz, yüzün dutub Koroğluya dedi:

– Yanşaq, bəs niyə söhbət eyləməzsən?

Koroğlu:

– Xanım, mən əvvəl ərz eylədüm ki, yanşaqun qızlar içində söhbət eyləməgi dutmaz, sənün kənizlərün qoymazlar mən söhbət eyləyim.

Leyli xanım Cəlali Koroğlunun köylün almaqdan ötrü yüzin dutub kənizlərə tünd oldu, dedi:

– Hər kəs bundan sora bir namərbut söz danışa, o qədər urram ki, ağac altında həlak olur.

Pəs saqilərə əmr eyləyüb ki, bir neçə piyalə şərab Cəlali Koroğluya verdilər. Pəs Koroğlu bir neçə piyalə şərab içdi, ta keyf üstə gəlüb.

Leyli xanım dedi:

– Yanşaq, mən iki ay bu bağda oturacağam, gərək bu müddəti burda qalub mənə söhbət eyləyəsən.

Koroğlu dedi:

– Xanım, mən bu şəhərə tazə varid olmuşam, qoy gedüm mənzilimə atımı rahət eyləyim, inşallah, gecə gəlləm, sənə yaxşı söhbət eylərəm.

Leyli xanım bir nəfər adam qoşub Cəlali Koroğluya, dedi:

– Apar bu yanşaqı tapşur keşikçilərə ki, hər vəqt bu yanşaq gəlsə, mane olmasunlar.

Pəs Cəlali Koroğlu bağdan çıxub gəldi iyidlərün yanına, ançe ki, başına gəlmişdi, onlara nəql eylədi. Axşama kimün orda qalub eylə ki, gün ğürub eylədi onları vida eyləyüb, yola düşdü. Çün bağə daxil oldu, kənizlər xəbər verdilər Leyli xanıma ki, əcəm oğlu yanşaq gəlübdür. Leyli xanım dedi:

– Gətirün.

Koroğlunu daxil eylədülər məclisə, səlam verüb məclisün aşağı tərəfində əgləşdi. Leyli xanım dedi:

– Yanşaq, ora ayaq altıdur, gəl yuxarı tərəfdə əgləş.

Koroğlu dedi:

– Xanım, qorxaram genə kənizlər mənə gülüb gül atalar.

Leyli xanım gördü kənizlərün biədəbluğu Koroğlunun xatirindən çıxmıyub, xəcalətindən özü durub Koroğlunu apardı, öz yanında əgləşdirdi. Koroğlu dönüb Leyli xanıma baxanda gördü özünə bir ziynət verüb, hərgiz bu gündüzki Leyliyə bənzəməz. Məsti-tavuz kimin çətir açub. Cəlali Koroğlunun eşqi bir ikən min oldu. Pəs təam hazır eylədilər. Eylə ki təam sərf olundu, qəhvə və qəlyan gəldi. Onlardan sora saqilər məclisə daxil olub piyaləgərdişlığa məşğul oldular. Bir neçə piyalə Cəlali Koroğlu şərab içüb məsti-layəqil oldu. Leyli xanım gördü Cəlali Koroğlunun gözləri şərabi-nabdan qızardı, büldü ki, keyf aləmidür. Dedi:

– Yanşaq, bismillah, Koroğlunun türkilərindən bir qədər söhbət eylə.

Koroğlu dedi:

– Söhbət eyləmərəm, ta inki kənizlər təmam məclisdən getmiyələr.

Leyli xanım saqiləri və kənizləri mürəxxəs eyləyüb, hər kəs öz mənzilinə getdi. Cəlali Koroğlu gördü məclis xəlvət oldu,

Leyli xanımun şuri-eşqi başına düşüb, sazın götürüb kök eylədi, basdı sinəsinə, yüzin dutub Leyli xanıma tərəf, dedi:

– Xanım,

Qədəm qoyub Qırat üstə minəndə,
Leyli xanım sorağına gəlmişəm.
Çamlıbeldən Kürdüstanə gələndə,
Öz yarımın sorağına gəlmişəm.

Mən mayiləm bir alagöz cavanə,
Eşqi məni eyləyübdür divanə,
Bir dəstə gül göndərübdür nişanə,
Onu görcək sorağına gəlmişəm.

Leyli xanım Cəlali Koroğludan bu sözü eşidəndə yəqin eylədi ki, bu Koroğludur, durdu gülmağa. Dedi:

– Yanşaq, bu nə sözdür deyirsən?

Koroğlu dedi:

– Xanım, bura xəlvət otaqdur, qoy sözümü təmam eyləyüm.

Müjganlarun düzülübdür səfbəsəf,
Can qəsdinə xəncər çəküb hər tərəf,
İnci deyüm dişlərüvə, ya sədəf,
Ləblərüvün sorağına gəlmişəm.

Koroğluyam, Çamlıbeldən gəlmişəm,
Xəncər alub bağrım başın dəlmişəm,
Məcnun kimin bir Leylini səvmişəm,
Uzaq yoldan sorağına gəlmişəm.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Leyli xanım dedi:

– Yanşaq, bunlar nə sözdür deyirsən? Mən sənə dedüm bir qədər bizə söhbət eylə ki, biz ləzzət aparaq, əmma sən belə sözlər deyirsən ki, mən xəcalət çəkərəm.

Koroğlu dedi:

– Əlhəmdüllah, məclis xəlvətdür və özgə adam yoxdur, bir sənsən, bir mən.

Leyli xanım dedi:

– Yanşaq, mən sənə dedüm Cəlali Koroğlunun türkilərindən oxugilən, əmma sən özün mənə söz deyirsən.

Koroğlu dedi:

– Xanım, qulaq ver, Koroğlunun türkilərindən oxuyum.

Pəs bu əşarı oxudu.

Yurd eyləyən Kürdüstanın bağında,
Çadır otağına qurban olduğum.
Qızılgülün açıl-açıl çağında,
Rəngli güllərinə qurban olduğum.

Qəza məni götdü atdı çöllərə,
Sirr sözüm əcəb düşdü dillərə,
Səndən ötrü düşdüm qürbət ellərə,
Siyəh tellərinə qurban olduğum.

Leyli xanım:

– Yanşaq, eylə sənün bu sözlərindən Cəlali Koroğluya bənzərsən. Doğrusun söylə, görüm, sən kimsən?

Koroğlu dedi:

– Xanım, əlhəmdüllah, özün arifsən, qulaq ver sözümü təmam eyləyim, onda bülürsən ki, mən kiməm və niyə gəlmişəm.

Bu görünən Çamlıbelün dağıdur,
Təmam aləm mənim ilən yağıdur,
Leyli xanım, qol-boyunun çağıdur,
Qulac qollarına qurban olduğum.

Koroğlunun ixtiyarın alan yar,
İşvə satub qol boynuma salan yar,
Naz eyləmə, dur qabaqda dolan yar,
Şirin dillərinə qurban olduğum.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Leyli xanım yəqin eylədi ki, bu həman Cəlali Koroğludur. Biixtiyar yerindən durub qolların saldı onun boynuna, bir neçə busə onun yüzündən alub, onu gətirdi öz yanında əgləşdürdü. Pəs onların hər ikisi qol bir-birinün boynunda ta tülui-sübhə kimin söhbətə məşğul oldular. Eylə ki sübh oldu, Cəlali Koroğlu dedi:

– Xanım, gündüzlər məni mürəxxəs eylə, ondan ötrü neçə nəfər mənim iyidlərimdən şəhər içində mənzil eyləyübdülər. Onlar nigərandular və bir də məbadə Əhməd Paşa xəbərdar

ola, qorxaram bunun içindən fitnəvü-fəsad qalxa.

Leyli xanım dedi:

– Ey Cəlali Koroğlu, mane dəgül. Gündüz olanda get şəhərə, əmma bu şərtlən ki, gecələr olanda burda vədün var.

Koroğlu qəbül eyləyüb mürəxxəs oldu. Çün özün yetürdi iyidlərün yanuna, Dəmirçioğlu əhvalat xəbər aldı. Koroğlu dedi:

– Bül və agah ol. O mətləbi ki, ondan ötrü gəlmişdüq, əlhəmdüllah, hasil oldu. Xatircəm ol ki, inşallah-təala, bu yavuq zəmanda Leyli xanımı götürüb Çamlıbelə gedəruq.

Çün Koroğlu gecə sübhə kimin yatmamışdı. Bir qədər yatub istirahət eylədi. Eylə ki axşam oldu, genə iyidləri vida eyləyüb, yüz qoydu bağa. Çün yetişdi Leyli xanımun məclisinə, Leyli xanım ayağa durub Cəlali Koroğlunu istiqbal edüb, onu gətürdi talara, genə sübhə kimin eyşü-nuşə məşğul oldular. Xülasəyi-kəlam, dört gecə Cəlali Koroğlu Leyli xanıma qonaq oldu. Həman gecə Koroğlu dedi:

– Xanım, gərək burdan Çamlıbelə gedaq, ondan ötrü təmam iyidlərün gözü yoldadur, mənim intizarımı çəkəllər.

Leyli xanım dedi:

– Ey Cəlali Koroğlu, mən də fikirdə varam, inşallah, sabah gecə tədarükün gör ki, burdan köç eyləyək.

Eylə ki sübh oldu, Koroğlu özün yetirdi iyidlərün yanına, dedi:

– Cəmaət, daxi oturmaq vəqti dəgül, tədarük görün ki, bu gecə gərək gedək.

Eylə ki axşam oldu, Koroğlu dedi:

– Cəmaət, mən gedirəm bağa, eylə ki gecədən bir pas keçdi, atları zin edün, gətirün bağın xaricində saxlayun, ta mən Leyli xanımı gətürüm gedək.

Bunu deyüb rəvanə oldu. Çün daxil oldu Leyli xanımun məclisinə, Leyli xanım saqilərə əmr eyləyüb, bir neçə piyalə şərab Cəlali Koroğluya verdilər. Bəd əz an söhbətə məşğul oldular, ta inki gecə nisf oldu. Leyli xanım təmam kənizləri və saqiləri mürəxxəs eyliyüb öz mənzillərinə getdilər. Eylə ki məclis xəlvət oldu, Koroğlu dedi:

– Xanım, imdi iyidlər gəlür, ayağa dur, tədarükün gör ki,

gərək bu gecə gedaq.

Pəs Leyli xanım bir qədər cəvahirat və zərrinə libas götürüb mühəyya və amadə oturub iyidlərün intizarın çəkərdilər, ta bu tərəfdən Dəli Mehtər atları zin edüb gəldilər bağun xaricinə. Cəlali Koroğlunun atı bir şiyhə çəkdi. Koroğlu elə Qıratun səsin eşidəndə dedi:

– Xanım, daxi oturmaq vəqti dəgül ki, iyidlər gəlüb bağun xaricində durublar.

Pəs Leyli xanım və Cəlali Koroğlu əl-ələ verüb bağun qapusundan çıxub atlarına səvar oldular, istədilər ki, yola düşsünlər, əmma bu tərəfdən keşikçilər xəbərdar oldular. Otuz nəfər keşikçi ətrafdan onları əhatə eylədilər. Eylə ki Cəlali Koroğlu bu əhvalı gördü, Qırata bir məhmiz çəküb, at sıçrıyub çəkildi kənarə, dedi:

– Cəmaət,

Keşikçilər, bülün, xəbərdar olun,
Mənim yarım Paşa qızı Leylidür.
Boyu bəstə, dili püstə deyərsən,
Kürdüstanın tər bənövşə gülüdür.

Mən dəlinin meydanına girməyün,
Cida silküb çar tərəfin almıyun,
Xəbəs yerə özyanqızı tökməyün

qılıca çəküb həlak eylədilər, məgər iki nəfər onlardan qurtulub özlərin saldılar bağ içinə. Pəs Cəlali Koroğlu və iyidlər Leyli xanımı götürüb yüz Çamlıbelə tərəf getmağa.

Qoy bunlar qoy getməkdə olsun, əmma nəqli-dastan eşit o iki nəfər keşikçidən. Çün gördülər ki, Koroğlu Leyli xanımı apardı, bağdan çıxub özlərin yetürdilər Əhməd Paşanın hərəmxanasına, fəryad eylədilər ki, ey Əhməd Paşa, bül və xəbərdar ol ki, Cəlali Koroğlu sənün qızun Leyli xanımı apardı. Əhməd Paşa bunlarun hayü-huyundan vəhşətilən yuxudan bidar oldu, dedi:

– Cəmaət, məgər bu gecə vəqti nə vaqe olub?

Keşikçilər ərz eylədilər:

– Paşa sağ olsun, daxi oturmaq vəqti dəgül ki, anasın satdığım Koroğlu yanşaq libasında gəlüb sənün qızun Leyli xanımı tavlıyub apardı. Bizlər xəbərdar olduq, onlarun qabağın kəsüb mane olduq. Bizləri təmam həlak eylədi. Məgər biz iki nəfər səlamət qurtulub gəldük sənün xidmətüvə. İxtiyarun var, hər nə əlac eyləyə bilürsən, eyləgilən.

Əhməd Paşa çün bu xəbəri eşitdi, aləm gözünə tirəvü-tar olub həman saat öz vəzirin ehzar eylədi. Çün vəzir hazır oldu, Paşa dedi:

– Vəzir, bir əlac eylə ki, Koroğlu məni təmam Rum paşalarınun içində rüsva eylədi.

Vəzir ərz eylədi:

– Qurbanun olum, bu Cəlali Koroğludur, təmam Rum paşaları bunun əlindən təngə gəlüblər. Əlac budur ki, təmam qoşun atlansun, bəlkə inşallah, Alosmanun dövlətindən Cəlali Koroğlunu dutaq ki, təmam əhli-Rum onun şərrindən səlamət qalsunlar.

Pəs həman saat paşa hökm eylədi ki, təmam qoşun və Çardəvli atlusu atlarına səvar olub sübhün tüluunda yüz qoydular Koroğlunun dalınca getmaqa. Bunlar getmaqda, əmma nəql eşit Cəlali Koroğludan ki, çün Leyli xanımı bağdan götürüb iyidlərlən belə yola düşdü, həman gecə və o gün ta zöhrə kimin on iki ağac yol sürüb yetişdilər bir düzgün çəmənə. Leyli xanım ərz eylədi ki, ey Cəlali Koroğlu, mən çox incidim,

bir qədər bu çəməndə rahət olaq, bəd əz an rəvanə olaq.

Pəs o çəməndə bir çeşmənün başında atlarından aşağə gəlüb atların o çəməndə çərayə məşğul eylədilər. Pəs Bəlli Əhməd tir-kəmanın götürüb bir neçə ördək şikar eyləyüb, onları kabab eylədi. Pəs Cəlali Koroğlu və Leyli xanım və iyidlər o kababı yeyüb istirahətə məşğul oldular. Əmma Dəli Mehtər onlara pasbanluq eylərdi. Bir vəqt nə gördü ki, bir ağır toz qabaqdan aşkar oldu, çün toz yavuqlaşdı. Dəli Mehtər gördü Əhməd Paşa təmam Kürdüstan qoşunun və Çardəvli atlusun cəm eyləyüb kəmali-sürətlən gəlüllər. Pəs Dəli Mehtər özün yetürdi Cəlali Koroğlunun yanına, dedi:

– Ey Cəlali (Kor)oğlu, daxi nə oturmusan ki, Əhməd Paşa cəmiyyətlən belə yavuqlaşdı.

Pəs Cəlali Koroğlu və Dəmirçioğlu və Bəlli Əhməd və Dəli Mehtər atlarına səvar olub kəsdilər qoşunun yolunun üstün. Çün Əhməd Paşa yetişdi, dedi:

– Ey anasın satdığım əcəm oğlu, sənin nə həddün var ki, mənim qızım Leyli xanımı aparasan?

Cəlali Koroğlu çün bunu eşitdi, cidasın götürüb atın sürdü Əhməd Paşanun bərabərinə, dedi:

– Əhməd Paşa, mənim qaydamdur ki, dava günündə bir neçə türki oxuram, qulaq ver, bir neçə bənd türki oxuyum, ondan sora dava eyləyək.

Pəs Cəlali Koroğlu bu əşarı oxudu.

Əhməd Paşa, car gətürmə üstümə,
Cəmdəküvü qızıl qana boyaram.
Başun kəsüb keçirərəm cüdayə,
Qarğa kimin gözlərüvü oyaram.

Çox güvənmə, Əhməd Paşa, şəstüvə,
Yarə yarə üstən urram kösküvə,
Dəliləri küşkürürəm üstüvə,
Köç-külfətün gözü yolda qoyaram.

Mən bilmərəm gədik nədür, dağ nədür,
Qabaq nədür, dalı nədür, sağ nədür,

Ac qurt kimin arıq nədür, çağ nədür,
Acalmışam, Çardəvlini soyaram.

Görməmüsən Koroğlunun şəstini,
Yeməmüsən onun zərbi-dəstini,
Mən kəsmişəm sənün yolun üstünü,
Dört ağac yol qoşununu qovaram.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, qılıcın çəküb istədi qoşuna həmlə eyləsün, bir vəqt nə gördü ki, dalı tərəfdən bir ağır toz aşkar oldu, pəs hər iki tərəf aram dutub səbr eylədilər. Eylə ki toz açıldı, Cəlali Koroğlu gördü qabaqca Eyvəz balı nizə əlində tiri-şəhab kimin gəlür. Onun dalısınca təmam dəlilər atlarına məhmiz çəküb gəlüllər. Cəlali Koroğlu onları görəndə şadlığından bir ağladı, ondan sora yüzün dutub Əhməd Paşaya dedi:

Əhməd Paşa, xəbər eylə qoşuna,
Öz yerində bircə ləhzə dayansun.
Dəlilərim girvələrdən göründü,
Azca qaldı qaçaq yolu bağlansun.

Ondan sonra yüzün dutub öz iyidlərinə Eyvəz balını müxatib eyləyib, dedi:

Eyvəz balı, çap qoşunun sağına,
Zəlzələ sal nöh fələkün tağına,
Yaxşı gəldün bu davanın çağına,
Çal qılıcı qızıl qana boyansun.

İyidlərim, bir-birindən piş durun,
Durna kimin nizamilən səf qurun,
Ğənim üstə qılıc çəkin, ox urun,
Əfğan səsi yerdən gögə dayansun.

Koroğlunun qoç qardaşı Zülfüqar,
Fürsət keçər, iyidlərə eylə car,
Kürdüstanı çək qılıca, hər nə var,
Əhməd Paşa yatmış olsa, oyansun.

Çün Koroğlu sözin təmam eylədi, iyidlər və Eyvəz balı və Zülfüqar bəg yetişdilər. Cəlali Koroğlu hay urdu, dedi:

– Cəmaət, qoymuyun.

Pəs iyidlər təmam birdən at saldılar meydanə, əmma bu tərəfdən Əhməd Paşa işarə elədi Çərdəvli atlısına, dedi:

– Qoççaqlarım, bu gün qeyrət günüdür ki, bu əcəm oğlu məni təmam Rum vilayətlərində rusva eylədi.

Pəs hər iki qoşun bir-birinə qarışıb bir davayi-əzim oldu ki, heç kəs bir belə dava nişan verməmişdi. Əmma Cəlali Koroğlu özü əl qılıca eyləyüb hər kəsün başından urardı, ömründən xeyir görməzdi və hər kəsün çignindən urardı, başı və bir qolu yerə düşərdi və hər kəsə nizə həvalə eylərdi, ya Allah deyüb, xaneyi-zindən götürüb yerə urardı.

Əlhasil, iki saatun müddətində Kürdüstan qoşunun muruməlex kimin pərakəndə eylədilər. Əhməd Paşa çün bu zərbi-dəsti iyidlərdən və Cəlali Koroğludan gördü, tab gətürə bülmüyüb yüz qoydu qaçmaqə. Qoşun cəmaəti çün gördülər ki, Əhməd Paşa qaçdı, təmam yüz çövürüb qaçdılar. Cəlali Koroğlu dedi:

– Cəmaət, qoymuyun bu həramzadələri.

Pəs iyidlər iki ağac yol onları qavdu. Çün vəqt təng idi, Cəlali Koroğlu dedi:

– Cəmaət, qəyidun.

Pəs iyidlər qayıdub o cəmaətün at və əsləhələrin cəm eyləyüb gəldilər həman yerə ki, Leyli xanım orda müntəzir oturmuşdu. Pəs o gecə orda qalub, eylə ki sübh oldu, ordan köç edüb yüz qoydular Çamlıbelə tərəf getmağa. Pəs neçə gündən sora özlərin yetürdilər Çamlıbelə.

Bir neçə gün istirahət eylədilər. Bəd əz an Cəlali Koroğlu Leyli xanımun toy tədarükün görüb yeddi gün və yeddi gecə toy dutuldu və onlar bir-birindən kami-dil hasil eylədilər. Toydan sora Cəlali Koroğlu bir məclisi-ali tərtib eylədi, iyidləri təmam cəm eylədi. Saqiyani-siminsaq piyaləgərdişligə məşğul oldular və müğənnilər xoş avazilən oxumağa məşğul oldular. Əhli-məclis ta zöhrə kimin keyfə məşğul olub ləzzət apardılar. Eylə ki məclisi-eyş təmam oldu, Cəlali Koroğlu Eyvəz balını çağırub hökm eylədi ki, iyidlər təmam Kürdüstan səfərində zəhmət çəküblər, bunlara xələt gətür. Pəs Eyvəz balı onlarun hər birinün əhvalına münasib xələt verdi. Pəs Cəlali Koroğlu onları müraxxəs eylədi. Hər biri gedüb öz mənzillərində aram olub istirahətə məşğul oldular.

KOROĞLUNUN ON BİRİNCİ MƏCLİSİ

Səlim Paşanın nökəri Həmzənin Koroğlunun atını oğurlaması və Koroğlunun onun ardınca gedib atı ilə birlikdə Səlim Paşanın qızı Donə xanımı gətirməsi

Raviyani-əxbar və naqilani-asar belə rəvayət eyləyüb ki, Cəlali Koroğlu müddəti-mədid əhli-Rumilən dava eyləyüb və onların gözəl və gögçək qızların və oğlanların Çamlıbelə gətürürdü və təmam Rum məmləkətünün qələlərin yıxub və qoşunun həlak eylərdi. Rum paşaları onun əlindən təngə gəlmişdilər və heç əhəd Rum paşalarından onun öhdəsindən gələ bülməzdi, tainki bir gün Üsküdarun paşası ki, adına Səlim Paşa deyərdilər, öz bargahında əgləşüb təmam uməra vüzəra və qoşun sərkərdələri onun məclisində hazır olmuşdular. Paşa vüzərailən belə söz danışurdu. O əsnadə Cəlali Koroğlunun söhbəti araya düşdü. Paşa dedi:

– Vəzir, bu anasın satdığım Koroğlu əcəb rəşid adamdur ki, təmam Rum məmləkətün xərab eylədi.

Vəzir ərz eylədi:

– Paşam sağ olsun, mən [illegible]

nə Paşa onları pəsənd eyləmiyüb rəy verməzdi.

Pəs çün Səlim Paşa bu vədəni əhli-məclisə eylədi, Həmzə adlu bir şəxs ki, Səlim Paşanun nökərlərindən idi, ayağa durub baş endürdi və ərz eylədi ki, Paşam sağ olsun, əgər iltifatun olsa, bu xidməti mənə rücu eylərsən.

Səlim Paşa Həmzəyə baxdı, dedi:

– Otur yerində ki, bu xidmət sənə layiq dəgül, belə ki, vəzir tərif eylər, Cəlali Koroğlunun min nəfər səndən artuq dəlisi var. Əgər onlarun birinə düçar olasan, səni həlak eylər.

Həmzə genə ərz eylədi:

– Paşam sağ olsun, sənün nə rücuun var, əgər inşallah, mən Qıratı gətürdüm, sən də vədüvə vəfa qılub Donə Paşanı mənə ver. Əgər gətürə bülmədim, daxi səndən bir zad istəmərəm.

Pəs Səlim Paşa qəbul eyləyüb dedi:

– Qoçum olasan, get görüm nə karəsən.

Pəs Həmzə dübarə baş endirüb mürəxxəs oldu. Pəs tədarükün görüb Üsküdardan çıxub yüz qoydu Çamlıbelə gəlməgə. Gecə və gündüz yatmıyub iki mənzil bir mənzilə gəlürdi, ta inki yetişidi Çamlıbelün həvalisinə. Gördü bir nəfər şəban bir sürü qoyun otarır. O şəbana səlam eyləyüb, dedi:

– Şəban, bərəkətli olsun!

Şəban dedi:

– Cavan, xoş gəldün. Hardan gəlürsən və harıya gedirsən?

Həmzə dedi:

– Şəban, çox acalmışam, əvvəl bir qədər mənə təam ver, bəd əz an mətləbi sənə izhar eyliyüm.

Şəban bir qədər süd və bir qədər çörək ona verdi. O haramzadə tənavül eyləyüb dedi:

– Şəban, səndən bir büzğalə istərəm ki, mənə pulnən satasan.

Şəban dedi:

– Mən sahibindən məzun dəgüləm.

Həmzə dedi:

– Şəban, o büzğalənin əti və pulu sənün olsun, əmma qarnı mənə məsrəfdür.

Şəban çün bunu eşitdi, tamahı cuşə gəlüb bir büzğalə ona satdı.

Pəs Həmzə o büzğalənün başın kəsüb ətin verdi şəbanə, əmma onun qarnın pak eyləyüb çəkdi başına və yüzünə. Bir kiryə surət adəmə bənzədi. Pəs şəbanı vida eyləyüb ordan yola düşdü, ta inki zöhr vəqti yetişdi Çamlıbelün çəmənینə ki, Dəli Mehtər Cəlali Koroğlunun Qıratın orda kəməndə çəküb otarırdı. Dəli Mehtərə səlam eyləyüb oturdı yerə. Dəli Mehtəp gördü bir nəfər bəd surət adam bunun yanında oturdı yerə. Xəbər aldı:

– Cavan, hardan gəlürsən və harıya gedərsən və adın nədür?

Həmzə dedi:

– İyid, bir nəfər fəqir adəməm ki, çox biçiz olmuşam. İstərəm bir yaxşı adəm tapam ki, ona qulluq eyləyəm.

Dəli Mehtər dedi:

– Əcəb oldu, çün sən çox fəqirsən, mən Cəlali Koroğlunun mehtəriyəm. Otur burda, ta səni axşam vəqti olanda aparram Cəlali Koroğlunun yanına və səni ona nökər verrəm.

Həmzə dedi:

– İyid, mən eşitmişəm ki, Cəlali Koroğlu bir mütəşəxxis adamdur və onun min nəfər mütəşəxxis nökəri var. Hərgiz məni nökər saxlamaz.

Dəli Mehtər dedi:

– Mən sənə hər nə deyirəm qulaq ver. Əgər Cəlali Koroğlu səni məhəl qoymuya və nökər saxlamıya, mən özüm səni nökər eylərəm.

Pəs Həmzə ta axşama kimin Dəli Mehtərün yanında qaldı və bir parə qulluqlar eylədi ki, Dəli Mehtərün çox xoşuna gəldi. Dəli Mehtər dedi:

– Həmzə, mənim sənə ürəgim yandı, yəqin elə ki, əgər Cəlali Koroğlu səni nökər eyləməsə, mən özüm sənə cirə məvacib verüb yanımda saxlaram.

Pəs Həmzə Dəli Mehtərə bir qədər dua və sina eyləyüb yapuşdı onun ətəgindən, durdı ağlamağa. Dəli Mehtər dedi:

– Həmzə, niyə ağlarsan?

Həmzə dedi:

– Valla mənim nə atam var, nə anam var. Özüm bir qərib adamam, gərək məni öz yanından ayırmayasan.

Dəli Mehtərün ona çox rəhmi gəldi. Dedi:

– Həmzə, xatircəm ol. Əgər Koroğlu səni saxlamıya, mən özüm də onun qapusundan çıxub daxi ona nökərçılıx eyləmərəm.

Pəs Həmzə dürüst xatircəm oldı. Pəs Dəli Mehtər Həmzəni və Qıratı axşam vəqti olanda götürüb gəldi Çamlıbelə. Qıratı öz yerində bağlıyub rahat eylədi. Bəd az ən bir vəqt yetişdi gördü ki, Cəlali Koroğlu əgləşüb, əmma təmam iyidlər onun bərabərində nizamilən əl-əl qoyub durublar. Pəs Dəli Mehtər və Həmzə baş endirüb durdılar bərabərdə. Koroğlu başın yuxarı götürüb baxanda gördü Dəli Mehtər durub, əmma onun yanında bir nəfər bəd surət və bəd şəkil adəm durub. Cəlali Koroğlu dedi:

– Dəli Mehtər, bu kimdür ki, sənün yanında durub?

Dəli Mehtər ərz eylədi:

– Qurbanun olum, bu bir adəmdür ğərib və fəqir ki, hiç kəsi yoxdur. İstər nökər olsun, gərək Allah rizasına bunı öz qapunda nökər eyliyəsən.

Koroğlu dedi:

– Bu oğlanun gözləri şeytan mənzilinə bənzər, bundan faidə yoxdur, bu nökərçılıq başarmaz.

Dəli Mehtər dubarə ərz eylədi ki, qurbanun olum, çox fəqir adamdır və əhli-xidmətdi, gərək bu fəqiri öz qapundan məyus eyləmiyəsən. Koroğlu dedi:

– Çün fəqir adəmdür, bir zad ona verün, yola salun ki, bu cavan mənim nəzərimə yaxşı adəm gəlməz və qorxaram ki, bu cavan axırda bizə bir rəng ura.

Genə Dəli Mehtər ərz eylədi:

– Qurbanun olum, bu fəqir...

... urdı. Koroğlu onı dovuzluqdan çıxarub dürüst mülahizə eylədi, gördü Həmzə dəgül, əmma yola baxanda gördü Həmzə Qıratı minüb iki ağac yol dəgirmandan uzaqlaşubdur. Pəs Cəlali Koroğlu Qıratdan məyus olub çıxdı dəgirmanun üstünə, Qıratun dalınca baxub bir neçə bənd türki oxudu:

Dəli Mehtər zülüm etdi,
Nə baxarsan, xan Koroğlu.

Göz ögündən Qırat getdi,
Ur başuva yan, Koroğlu.

Əməydüm yarun ləbindən,
Qucaydum işgə belindən,
Qırat çün getdi əlindən,
İyidlügün dan, Koroğlu.

Düşmən mənə cəfa gördü,
Ürəgimə yara urdu,
Qıratdan əlim üzüldü,
Oldu bağrun qan, Koroğlu.

Qapı-qapı gəzər yolçu,
Gələnə-gedənə yançı,
Çünki oldun dəgirmançı,
Çağır gəlsin dən, Koroğlu.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Qıratun məfariqətində bir qədər ağladı. Dəgirmançı Cəlali Koroğlunun sözlərindən anladı ki, bu Koroğludur. Ərz eylədi:

– Qurbanun olum, daxi ağlamaqdan faidə yoxdur, sən əgləş burda, mən bu atı minüm gedüm onun dalınca.

Koroğlu dedi:

– Qoca, bu atlar heç biri o atı dutmaz.

Pəs məyus olub Cəlali Koroğlu Dülatın minüb gəldi Çamlıbelə. İyidlər təmam müntəzir durmuşdular. Gördülər Cəlali Koroğlu gözünün yaşın tökər. Cəm oldular onun başına, hərçi ona təsəlli verdilər, aram olmadı. Cəlali Koroğlu yüzün dutub Dəli Mehtərə dedi:

– Yadunda var ki, mən hərçi dedüm bu nəməkbəhəramun gözləri şeytanun yuvasıdur, əmma sən qəbul eyləmədün.

Pəs iyidlər Koroğlunu gətürdilər çadıra. Eyvəz balı ərz eylədi ki:

– Ey Cəlali Koroğlu, sən öz yeründə aram ol, ta mən bir neçə nəfər iyidlərdən götürüm, Həmzənün dalınca gedüm.

Koroğlu çün Eyvəzdən bu sözü eşitdi, Qıratun məhəbbəti ona təsir eyləyüb, yüzün dutdu Eyvəz balıya, dedi:

Dəli Mehtər eşitmədi sözümü,
Apardılar səri telli Qıratı.
Dindirməyin öldürərəm özümü,
Apardılar səri telli Qıratı.

Dərin-dərin dəryaları boylaram,
Xəncər alub bağrım başın teylərəm,
Gözü yaşlı mən ardınca gedərəm,
Apardılar səri telli Qıratı.

Bəlalara əcəb düşdüm dilimdən,
Ayrı düşdüm ulusumdan, elimdən,
Cəva çəkdim Qırat getdi əlimdən,
Apardılar səri telli Qıratı.

Koroğluyam, siz yetişin hallara,
Bülbül kimin mən də qonum dallara,
Ah çəkərəm, göz dikərəm yollara,
Apardılar səri telli Qıratı.

Çün Koroğlu sözin təmam eylədi, iyidlər təmam yerlərindən durub ərz eylədilər ki:

– Ey Cəlali Koroğlu, heç qüssə eyləmə, məgər biz ölmüşüx? Sən aramilən oturgilən Çamlıbeldə, bizlər gedəruq. Əgər Həmzə Qıratı hər yerə aparmış olsa, gətürruq.

Koroğlu dedi:

– İyidlər, mən sizün zəhmətüzə razı dəgüləm. Gərək özüm gedəm. Ya məni də dutub həlak eyləllər, ya Qıratı gətirrəm.

Pəs iyidlər hərçi səy eyliyüb yalvardılar, Cəlali Koroğlu qəbul eyləmiyüb, sazın götürüb basdı sinəsinə, yüzün iyidlərə dutub dedi:

Ay ağalar, ay qardaşlar,
Gələn, gəlsün mənim ilən.
Gedərəm qürbətdə qallam,
Qalsam, qala mənim ilən.

İyidün gərəkdür gücü,
Ala qələlərdən bürcü,

Düşmənə əgri qılıcı,
Çalsam, çala mənim ilən.

Mən getdüm qürbətdə qalam,
Dərdini canıma salam,
Əgər mən qürbətdə öləm,
Ölsəm, ölə mənim ilən.

Koroğlu der, dönüm başıva,
Həm özüvə, yoldaşıva,
Rəhmim gəlsə göz yaşıva,
Gəlsəm, gələ mənim ilən.

Çün Koroğlu sözin təmam eylədi, iyidlər ərz eylədilər:

– Ey Cəlali Koroğlu, bizim malımız və canımız sənün yolunda qurbandur. Bizi özündən ayırmagilən. Əgər gürbət vilayətdə qalson, bizlər də sənlən belə qalluq.

Cəlali Koroğlu qəbul eyləmiyüb yüzün dutdu Eyvəz balıya dedi:

– Eyvəz, qulaq ver mənim vəsiyyətlərimə.

Mən gedərəm, sizi Allah saxlasun,
Can sənün, can dəlilərün gəlincə.
Düşmənlərim qara bağrın dağlasun,
Can sənün, can dəlilərün gəlincə.

Sənə qurban olum xanlarun xanı,
Yolunda qoymuşam başilən canı,
Busun gədikləri, urun karvanı,
Yeyün qoçaqlarım, ta mən gəlincə.

Mən sövürəm Eyvəz kimin saqini,
Tarı mənə göstərməsin dağını,
Yığun bəqqaların sarı yağını,
Verin aşpəzlara, ta mən gəlincə.

Bağlasaydım Qıratımı axura,
Qoymun piyalələr dönsün paxıra,
Üç yüz tümən göndərmişəm çaxıra,
İçin, qoçaqlarım, ta mən gəlincə.

Koroğlu der, buduv gəldi köçümüz,
Dövüşmağa meydan istər qoçumuz,
Dəli Həsən, Eyvəz balı, ikivüz,
Urun, qoçaqlarım, ta mən gəlincə.

Çün Cəlali Koroğlu vəsiyyətlərin təmam eylədi, iyidləri vida eyləyüb piyadə Çamlıbeldən çıxub, yüz qoydu Qıratın dalınca Rum vilayətlərinə getmağa. Pəs iyidlər təmam atlanub dört ağac yol Cəlali Koroğlunu müşaiyət eyləyüb qayıtdılar. Koroğlu Eyvəzı çağırub dedi:

– Eyvəz, iki ay müddətinə kimin məni gözətliyün, əgər gəldüm, gəlmişəm. Əgər gəlməsəm, yəqin bülün ki, mənim başımda bir əlamət var. O vəqt məni sorağ eyləyün.

Pəs Cəlali Koroğlu ağlıya-ağlıya iyidlərdən ayrılub sazın saldı çigninə, yola düşdü. Təmam Rum vilayətlərin şəhərbəşəhər, ölkəbəölkə dolanurdu və hər kəs qabaqına gəlsəydi, Qıratı ondan soraq dutardı. Müddəti-mütəmadi bu vəzilən dolanub, heç kimsənə Qıratun soraqın ona vermədi. Cəlali Koroğlunun əyaqları qabar çaldı, ta inki bir gün yol gedərdi, yetişdi bir böyük dərrəyə ki, o dərrənün adına Hərami dərrəsi deyərdilər və o dərrə çox zəhmnak, qorxulu dərrə idi.

Bəs ki Cəlali Koroğlu yorulmuşdu, oturdu o dərrənün üstündə. Ravi rəvayət eylər ki, o dərrədə bir məğar var idi ki, qırq nəfər hərami orda məskən dutub əgləşmişdi. Hər tərəfdən qafilə və karvan gəlsəydi, o harəmilər o qafiləni dağıdub və adamlərin həlak eyləyüb, onlarun mal və dövlətin zəbt eylərdi. Və o haramilərün bir nəfər qəravulı həmişə gədiklərün üstündə oturub yolları kəmin eylərdi ki, gəlüb-gedəndən xəbərdar olsun. Həman vəqt ki, Cəlali Koroğlu yorulub o dərrənün üstündə oturdu haramilərün qəravulu uzaqdan Cəlali Koroğlunun qaraltısın görüb haramibaşıya xəbər gətürdü ki, bir nəfər adəm dərrənün üstündə oturubdur. Haramibaşı neçə nəfər öz iyidlərindən göndərdi ki, gedün, görün əgər əhliqafilədür, onun qafiləsin dağudun və əgər qasiddür, onu dutub mənim yanıma gətirün ki, görüm kimin qasididür.

Pəs neçə nəfər iyidlərdən atlanub gəldilər Cəlali Koroğlunun yanına. Gördülər bir iyiddür ki, buğları kəl buynuzu, çə-

kilüb dalında neçə dügün veribdür və başı deyərsən bəs bir günbəddür və qaməti deyərsən bəs bir minardur və qolları çinar ağacı kimin sağdan-soldan düşüb. Elə bu əhvalı görəndə onlara bir qorxu yüz verdi, dedilər:

– Cavan, belə piyadə hardan gəlürsən və harıya gedərsən?

Cəlali Koroğlu dedi:

– Məgər Rum Xondkarı sizi yollara qərə soran qoyub, nə rücuuz var ki, mən kiməm?

Onların biri dedi:

– Cavan, məgər dəmağuva dəgər bizim səndən əhval xəbər almaqımız?

Cəlali Koroğlu elə bunu eşidəndə yerindən durub bir sillə ona belə urdu ki, ağzı və burnu qızıl qan oldu. Onun yoldaşları əhvalı belə görəndə dalı-dalı çəkilüb dedilər:

– Gəlin qayıdaq ki, bu anasın satdığım xırsız divanədür. Bundan qan iyi gəlür.

Pəs onlar müraciət eyləyüb gəldilər həramibaşınun yanına. Fəryad eylədilər ki, ey həramibaşı, dad bu əcəm oğlu anasın satdığım xırsızun əlindən ki, bir nahəmvar pətyarədür, belə güman eyləruq ki, əgər bizlər hamı onun üstünə gedağ, hamını gəbərdür. Həramibaşı çün bu sözü onlardan eşitdi, qəzəbnak olub dedi:

– Cəmaət, təmam atlanun ki, görüm bu necə xırsızdur.

Pəs qırq nəfər hərami və həramibaşı mükəmməl və məsəlləh təmam qərqü-ahənü-fulad olub atlandılar və yüz qoydular Cəlali

– Cavan, mən bir aciz yanşaqam, mənim nə həddim var ki, sənün adamlaruva tərki-ədəbluq eyləyəm.

Çün həramibaşı gördü ki, bu aşıqdur, dedi:

– Yanşaq, yaxşı türki oxursan?

Koroğlu dedi:

– Cavan, bir neçə bənd söz gəlüb sinəmə, qoy, onları ərz eyləyüm.

Pəs həramilər təmam cəm oldu. Koroğlu yüzün dutub həramibaşına dedi:

İyid, səni görcək dedüm,
Bir mərd iyidə uğradum,
Şəstün gördüm tərif edüm,
Bir mərd iyidə uğradum.

İyidlikdə tayun yoxdur,
Hər nə desəm vəsfün çoxdur,
Tarı bülür yalan yoxdur,
Bir mərd iyidə uğradum.

Yığılıbdur beşli, onlu,
İyidləri dəmir donlu,
Təmamisi gözü qanlı,
Bir mərd iyidə uğradum.

Qələm dedim mən qaşuva,
İnci yaraşur dişivə,
Durum dolanum başuva,
Bir mərd iyidə uğradum.

İyidlərün bəyi, xanı,
Yolunda qoymuşam canı,
Öldürmə Aşıq Roşanı,
Bir mərd iyidə uğradum.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, həramibaşınun çox xoşuna gəldi. Həman yerdə bir xələt Cəlali Koroğluya verdi, dedi:

– Yanşaq, hardan gəlürsən?

Koroğlu dedi:

– Əcəm vilayətindən gəlürəm, çün çox biçiz və fəqir oldum. Dedüm gedərəm Rum vilayətinə, bəlkə, inşallah, hacətim rəva ola.

Həramibaşı dedi:

– Yanşaq, heç yanə getməgilən, bir ay mənə qonaqsan, bir ay bizə söhbət eylə, inşallah, bir aydan sora sənə yaxşı pul və at verrəm və səni öz vilayətivə yola sallam.

Pəs Koroğlu bir qədər həramibaşıya dua və səna eylədi. Həramibaşı Koroğlunu götürüb gəldi həman mağarıya ki, orda mənzil eyləmişdi. Pəs bir ay müttəsil həramibaşınun mənzilində qaldı. Gündüzlər olanda həramibaşıynan atlanub şikarə gedərdilər, əmma gecələr olanda sazın götürüb onlara söhbət eylərdi. Eylə ki bir ay təmam oldu, Cəlali Koroğlu yüzün dutub həramibaşıya dedi:

– Cavan, bir ay təmam oldu, gərək məni mürəxxəs eyləyəsən.

Həramibaşı dedi:

– Yanşaq, harıya gedəcaqsan ki, mənim yanımdan yaxşı ola. Qal mənim yanımda, sənə məvacib qərardad eylərəm ki, hər il məvacibün göndər əhli-əyaluvun yanına, əmma özün qal burda, mənə söhbət eylə.

Cəlali Koroğlu dedi:

– Sən bu dəfə məni mürəxxəs eylə, gedüm əhli-əyalımı rahət eyləyüm, ondan sora, inşallah, genə sənün xidmətüvə gəlüm.

Həramibaşı dedi:

– Yanşaq, yalan deyirsən. Mən sənə bir qədər pul verrəm, göndər əhli-əyalun yanına, ta onlar rahət olsun, əmma səni qoymaram gedəsən.

Pəs Cəlali Koroğlu hərçənd səy eylədi ki, mürəxxəs olsun, mümkün olmadı. Labüdd qaldı həramibaşınun yanında. Bir gün həramibaşı yüzün dutub iyidlərinə dedi:

– Cəmaət, atları zin edün, gedax şikarə.

Pəs iyidlər mükəmməl və müsəlləh olub, istədilər şikarə getsünlər. Cəlali Koroğlu yüzün dutub həramibaşıya dedi:

– Cavan, mənim qəlbim bu gün çox dutulub, gərək bu gün məni də şikarə aparasan.

Həramibaşı hökm eylədi, bir yaxşı at Cəlali Koroğluya gətürdilər. Pəs atlanub çıxdılar şikara. Eylə ki şikargahə yetişdilər, Cəlali Koroğlunun şikar eyləyən günləri yadına düşdü. Bir neçə baş at gəzdürüb və bir neçə şikar eylədi. Həramibaşı tamaşa eylərdi, gördü bu yanşaq əcəb səvarədür ki, bunların heç birisi meydan günündə buna hərif dəgül. Həramibaşının çox xoşuna gəldi. Şikargahdan qayıdub bir çeşmənün başında düşdülər, bir qədər kəbab eyləyüb tənavül eylədilər. Həramibaşı yüzün dutub Cəlali Koroğluya dedi:

– Yanşaq, bu gün yaxşı at gəzdürüb, şikar eylədün. Hərgiz səni öz yanımdan qoymaram kənarə gedəsən.

Cəlali Koroğlu elə həramibaşıdan bunu eşidəndə Çamlıbel və iyidlər yadına düşüb durdu hayhaylən ağlamağa. Həramibaşı dedi:

– Yanşaq, nyiə ağlarsan? Əlhəmdüllah, bir kimsənədən sənə əziyyət olmuyub.

Cəlali Koroğlu sazın götürüb basdı sinəsinə, dedi:

– Həramibaşı, qulaq ver, gör niyə ağlaram.

Düşdüm əcəb çöldən-çölə,
Elim, hay mədəd, hay mədəd.
Əlim çatmaz Çamlıbelə,
Elim, hay mədəd, hay mədəd.

Həramibaşı elə Çamlıbelün adın eşidəndə, dedi:

– Yanşaq, məgər sənün elün Çamlıbeldə olur?

Koroğlu dedi:

– Cavan, qulaq ver, qoy sözümü təmam eyləyüm.

Uca dağlarun ardında,
Ovçular gəzər yurdunda,
Qaldım ayrılıq dərdində,
Elim, hay mədəd, hay mədəd.

Bir qılıcım var, bir atım,
Artubdur ğəmi-firqətim,
Hanı mənim məmləkətim,
Elim, hay mədəd, hay mədəd.

Koroğludur, az oturur,
Mövlanı dilə gətürür,
Mən ölsəm kimlər götürür,
Elim, hay mədəd, hay mədəd.

Dindirmiyün yaralıyam,
Heç bülməsüz haralıyam,
Evi bərbad Koroğluyam,
Elim, hay mədəd, hay mədəd.

Cəlali Koroğlu çün sözin təmam eylədi, iyidlərün ayrılığı və Qıratın getmağı və özünün qürbət vilayətdə sərgərdan qalmağı təsir eyliyüb belə ağladı ki, haramibaşı və onun iyidləri təmam durdular ağlamağa. Pəs haramibaşı ona təsəlli verüb, çəkdi onun alnından öpdü və dedi:

– Ey Cəlali Koroğlu, məni bağışla ki,

aman versə, hər növilən olsa, Qıratı gətürrəm.

Pəs hərçi həramibaşı ilhah və iltica eylədi ki, Cəlali Koroğlu yalquz getməsün, Koroğlu qəbul eyləmədi. Pəs həramibaşı Cəlali Koroğluynan siğə qardaş olub ərz eylədi:

– Sən get Qıratun dalınca, əmma mən xatircəm ol ki, həmişə sənün sorağında ollam. Əgər Səlim paşa sənə əziyyət eyləsə, inşallah, köməgüvə gəlləm.

Pəs ordan atlanub gəldilər məğarə. Gecə qalub eylə ki sübh oldu, həramibaşı bir yaxşı at Cəlali Koroğluya verdi. Koroğlu onu qəbul eyləmiyüb dedi:

– Mənim ehtiyacım ata yoxdur ondan ötrü mən əhd eyləmişəm ki, ta Qıratı ələ gətürmiyəm özgə ata minüb səfər eyləmiyəm.

Pəs bir-birini vida eyləyüb Cəlali Koroğlu yola düşdü. Mənzilbəmənzil, qəte-mənazil edüb ta inki, özün yetürdi Üsküdar şəhrinə. Çün dərvazədən içəri daxil oldu, gördü bir parəduz öz dukkanında əgləşüb. Koroğlu əgləşdi onun dükkanınun səkusində başmaqların verdi ona ki, pinə eyləsün. Pəs hər tərəfdən söz salub danışurdı, tainki Cəlali Koroğlu xəbər aldı ki:

– Əmucan, sizün bu şəhrüzdə nə xəbər vardur?

Parəduz dedi:

– Cavan, bir xəbər yoxdur, əmma Həmzə Cəlali Koroğlunun atın gətürüb Səlim Paşayə və likən o at heç kəsə ram olub rikab verməz. Paşa bir yanşaq axtarur ki, onu bir qədər oxşıya, bəlkə o at ram ola.

Cəlali Koroğlu çün bu sözü parəduzdan eşitdi əyağa durub özün verdi Üsküdarun meydanına. Dolanırdı ki, Səlim Paşanun adamları yetişdi Cəlali Koroğlunun yanına. Gördülər bir əcəm oğlu əlində saz durub, dedilər:

– Canım, məgər sən yanşaqsan?

Koroğlu dedi:

– Bəli.

Dedilər:

– Canım, Səlim Paşa səni ehzar eyliyüb.

Pəs Cəlali Koroğlunu gətirdülər Səlim Paşanun hüzuruna. Koroğlu məclisə baxanda gördü Heydər ağa ki, Səlim Paşanun

vəziri idi, oturub və bu vəzir Cəlali Koroğluynan qədimül-əyyamdan aşna idi. Koroğlu xəyal eylədi ki, məbadə, vəzir onun Koroğlu olmağın Səlim Paşayə izhar eyləyə. İşarə ilən vəzirə andırdı ki, məbadə, mənim adımı zikr eyləyəsən. Pəs Səlim Paşa başın yuxarı götürüb baxanda yengçərilər ərz eylədilər:

– Paşam sağ olsun bu əcəm oğlu yanşaqdur ki, sənün hüzuruvə gətirmişuq.

Pəs Paşa Cəlali Koroğluya iltifat edüb xoş gəldün eylədi. Bəd əz an dedi:

– Yanşaq, yaxşı türkü sölərsən?

Cəlali Koroğlu dedi:

– Paşam sağ olsun, mənim işim türkü söləməkdir.

Paşa dedi:

– Canım yanşaq, bir qədər bizə söhbət eylə ki, sənə para verrəm.

Koroğlu dedi:

– Paşam sağ olsun, bir qədər ver mənə şərab gətürsünlər, ta tərdəmağ olum ki, sənə yaxşı söhbət eyliyüm.

Səlim Paşa hökm eylədi saqilərə ki, bir neçə piyalə şərab Cəlali Koroğluya verdilər. Çün Koroğlu şərabı içdi meyyinabdan başı sərgərm olub sazın basdı sinəsinə yüzün dutub Səlim Paşaya dedi:

Öz-özümü saldım ğürbət diyarə,
Səlim Paşa, səni deyin gəlmişəm.
Vətəndən ayrılıb oldum avarə,
Səlim Paşa, səni deyin gəlmişəm.

Uca-uca gədikləri teylədim,
Xiyalatın öz əlimlə peylədim,
Bir canım var, yara qurban eylədim,
Səlim Paşa, səni deyin gəlmişəm.

Bəladan ayrılmaz bəlalı başım,
Mənə tənə urar yaru-yoldaşım,
Ceyhun kimin atlanubdur göz yaşum,
Səlim Paşa, səni deyin gəlmişəm.

Başımda var Çamlıbelün həvası,
Eşq arturur gecə-gündüz səfası,
Koroğlu der, yox dərdimün dəvası,
Səlim Paşa, səni deyin gəlmişəm.

Cəlali Koroğlu çün sözin təmam eylədi Səlim Paşa dedi:

– Canım, məgər sən Koroğlusan?

Koroğlu dedi:

– Paşam sağ olsun, mən Koroğlu dəgüləm, əmma onun türkülərindən örgənmişəm.

Paşanun çox xoşuna gəldi, dedi:

– Əcəm oğlu, indi ki, sən Cəlali Koroğlunun türkülərindən bülürsən, onun bəygirin mənim nökərim Həmzə gətürüb, əmma heç kəsə rikab verməz. İstərəm o atı bir qədər oxşiyasan. Əgər ram olsa, səni dünya malından biehtiyac eylərəm.

Pəs Paşa hökm eylədi bir məsnəd gətirdilər töylənin bamında saldılar. Pəs Paşa vəzir və Paşanun qızı Dona Paşa və təmam əhli-şəhər ünas vəzükur çıxdılar tamaşaya. Koroğlu ərz eylədi:

– Paşam sağ olsun, ver Qıratı gətürsünlər, ta mən onu oxşuyub, aram eyləyüm.

Paşa dedi:

– Yanşaq, Qırat heç kəsi öz yanına qoymaz və onun kahcovun damın rövzənəsindən verüllər.

Pəs Cəlali Koroğlu özü gəlüb töylənün qapusun açdı. Gördü o heyvani-bizəban töylədə bağlanub. Əmma başdan-əyaqa kimin palçıq və topraq içindədür. Koroğlu elə o heyvanı bu əhvalda görəndə bir ah-nəhadindən çəküb sazın basdı sinəsinə, yüzün dutub Qırata tərəf, dedi:

Çamlıbeldən səni deyüb gəlmişəm,
Alma gözlü, qız birçəkli Qırat, gəl.
Səni mən özümə qəmxar bülmüşəm,
Alma gözlü, qız birçəkli Qırat, gəl.

Atılanda, ceyran kimin atılur,
Qarqı qulağ bir birinə çatılur,
Kasatlıkda min tümənə satılur,
Alma gözlü, qız birçəkli Qırat, gəl.

Dəlilərim gəlür sağı-solundan,
Badə içən olmaz Eyvəz əlindən,
Səndən ötrü ayrılmışam elimdən,
Alma gözlü, qız birçəkli Qırat, gəl.

Koroğlu der, mən də qaldum avarə,
Dəvasız dərdimə bulunmaz çarə,
Məni gəttün saldun qürbət diyarə,
Alma gözlü, qız birçəkli Qırat, gəl.

Çün Koroğlu sözin təmam eylədi, o heyvan Koroğlunun sədasın eşidəndə şihə çəküb mıxi-töyləsin çıxardub gəldi Koroğlunun yanına, yüzün qoydu onun çigninə, durdı. Pəs Koroğlu onun zülfü-kakilin əlilən şanə edüb və tumar eylədi. Səlim Paşa bu əhvalı görəndə çox təəccüb elədi ki, bu heyvan heç kəsə ram olmazdı, aya bunun sirri nədür ki, bu yanşaqa belə təmkin verüb ram oldu. Vəzir dedi:

– Paşam sağ olsun, çün bu ata Cəlali Koroğlu həmişə türkü oxuyub oxşardı və bu əcəm oğlu yanşaq həm Cəlali Koroğlunun türkilərindən oxudu, ondan ötrü bu at ram olub təmkin verdi.

Vəzir ilən Paşa bu göftüguda idi ki, nagah Həmzə həramzadə gəldi Səlim Paşanın hüzuruna. Gördü bu yanşaq Cəlali Koroğludur. Hay urub dedi:

– Paşam sağ olsun bu cavan yanşaq dəgül, bəlkə Cəlali Koroğlu özüdür ki, yanşaq libasında Qıratun dalınca gəlüb.

Səlim Paşa elə bu çözü eşidəndə mütəğəyyir olub yüzün dutdu Cəlali Koroğluya, dedi:

– Vay anasın satdığım tərs, mən səni gögdə axtarırdım, yerdə əlimə düşmüsən. Mənim ürəgim sənün əlindən dağdardur ki, təmam Rum vilayətlərin xərab eyləmüsən və təmam Rum paşalarınun ismətli qızların aparub xərab və zaye eyləyübsən, imdi səni bir zillətlən öldürdüm ki, təmam əhli-aləmə ibrət olsun.

Koroğlu gördü əcəb yerdə girə gəlüb. Pəs hərçi fikr eylədi ki, bəlkə bir hiylə ilə özün xilas eyliyə gördü mümkün dəgül. Pəs labüd qalub yüzün dutub Səlim Paşayə dedi:

– Paşam sağ olsun, Həmzə yalan deyir. Mən Cəlali Koroğlu dəgüləm.

Vəzir ərz eylədi:

– Qurbanun olum, mən Cəlali Koroğlunu görmüşəm. Belə güman eylərəm ki, bu cavan Cəlali Koroğlu olmasun.

Həmzə dedi:

– Paşam sağ olsun, vəzir çoxdandur ki, Cəlali Koroğlunu görüb, onu tanımaz. Əmma mən iki ay ona nökər olub mehtərlik eyləmişəm, yəqin ki, bu Cəlali Koroğludur, aman vermə ki, əgər burdan qurtula, daxi onu girə gətirüb al tapa bülməzsən.

Pəs Səlim Paşa həman saat cəllad istəyüb. Cəllad əlində üryan qılıc daxil oldu. Səlim Paşa hökm eylədi ki, apar bu anasın satdığım əcəm oğlunun boyunın ur. Pəs cəllad Koroğlunun əlindən (dutub) istədi aparsun. Koroğlu dedi:

– Paşam sağ olsun, bir türkü gəlüb sinəmə, qoy onu deyüm, ondan sora ver məni öldürsünlər.

Paşa dedi:

– De, görüm.

Koroğlu dedi:

Səlim Paşa, çox bihudə savlama,
Can alıcı Əzrailəm, gəlmişəm,
Koroğluyam, özgə xəyal eyləmə,
Can alıcı Əzrailəm, gəlmişəm.

İmdi sizə zərbü-şəstüm büldürrəm,
Düşmən ağlar, dostlarımı güldürrəm,
Pirim haqqı təmam bir-bir öldürrəm,
Can alıcı Əzrailəm, gəlmişəm.

Minərəm Qıratı, gəzərəm düzü,
Düşmənə geydürrəm alu-qırmızı,
Üsküdar şəhrində qıraram sizi,
Can alıcı Əzrailəm, gəlmişəm.

Koroğlu der, məni yetirdün canə,
Sərün top eyliyüm atım meydanə,

Başın kəsüb göndərürəm İranə,
Can alacı Əzrailəm, gəlmişəm.

Çün Koroğlu sözin təmam eylədi, Səlim Paşa qəzəbnak olub dedi:

– Vay anasın satdığım, məni qorxudursan? İşarə elədi cəlladə ki, apar bu tərsi tezliklən həlak eylə. Cəllad istədi aparsun, vəzir ərz eylədi:

– Qurbanun olum, əgərçi qəzəbnak olmusan, bu Cəlali Koroğludur ki, bunun iyidlərinün şöhrəti təmam Rum vilayətlərin dutub. Qafil olma ki, qorxaram Koroğlunun dəliləri xəbərdar olub gələlər ki, əgər təmam Rum yerindən qalxa, onlarun öhdəsindən gələ bülməz. Məsləhət odur ki, bir neçə gün Koroğlunu ver həbs eyləsinlər, ta bunun iyidlərindən xatircəm ol, ondan sora ver onu öldürsünlər.

Pəs Səlim Paşa vəzirün iltimasın qəbul eyləyüb hökm eylədi ki, Cəlali Koroğlunu həbsə salsunlar. Donə Paşa, Səlim Paşanun qızı təmaşa eylərdi. Çün Cəlali Koroğlunun iyidligin gördü həman saat ona aşiqi-biqərar oldu. Fürsəti qənimət bülüb adam göndərdi Səlim Paşanun yanına ki, Paşa onun əzabın mənə rucu eyləsün ki, mənim ürəgim onun əlindən dağdar olub. Gərək onu zindanda zillətlən öldürəm. Pəs Səlim Paşa hökm eylədi ki, Cəlali Koroğlunu apardılar Donə Paşanun zindanına saldılar. Pəs Donə Paşa bir nəfər adəm müvəkkil eylədi ki, Cəlali Koroğlunun zindanda xidmətinə məşğul oldu. Neçə gün bu təriqilən Koroğlu Donə Paşanun zindanında qaldı. Tainki bir gün Donə Paşa kənizlərin çağırıb dedi:

– Bu gecə mənzili xəlvət eyliyün ki, bu əcəm oğlu Cəlali Koroğlu yaxşı söhbət eylər. Onu zindandan çıxarıb gətüraq, bizlərə söhbət eyləsün.

Pəs kənizlər həman gecə mənzili xəlvət eyləyüb. Eylə ki gecədən bir pas keçdi, Donə Paşa kənizlərə hökm eylədi ki, fanusları yandurub gedək Cəlali Koroğlunu gətiraq.

Çün kənizlər fanusları yandırdılar. Donə Paşa özü əyağa durub bir neçə nəfər kəniz götürüb gəldi zindanə Cəlali Koroğlunun zəncirün açub onu zindandan çıxarub gətirdi talarə, dedi:

– Ey Cəlali Koroğlu, gərək bu gecə bizə söhbət eyləyəsən.

Koroğlu dedi:

– Xanım, hər zadə damağçaqlıq istər. Mən bu tövrilən əsir zindanda məhbus, əgər mənim köylüm açılur ki, mən söhbət eyliyəm.

Donə Paşa dedi:

– Sən söhbətün eylə, inşallah, sənün iltimasun Səlim Paşadan eyləyüb mürəxxəs eylərəm.

Koroğlu dedi:

– Xanım, neçə gündür ki, məni zindanə salublar, heç şərab içməmişəm. Bir qədər şərab ver, gətirsünlər, ta mən içüm və tərdimağ olum. Pəs Donə Paşa hökm eylədi ki, bir neçə şişə şərab gətürdülər. Cəlali Koroğlu onları təmam çəküb başına nuş eylədi və onun başı şərabi-nabdan gərm olub aləmi-məstlıqda döndü Donə Paşayə baxanda gördü onun zülfləri sağdan-soldan tökülüb yüzinə. Həman saat Donə Paşanun tiri-eşqin yeyüb sazın götürüb basdı sinəsinə, bir neçə bənd türkü oxudu:

Sənə qurban olum xanım,
Qoy tökülsün o tellərün.
Şanə urum sağdan-soldan,
Əfşan olsun əgmələrün.

Katib oxur qarasından,
Öldüm hicran yarasından,
İki məmön arasından,
Qoy tökülsün o tellərin.

Gəl səni götürüm qaçım,
Ağ üzündən alım maçun,
Dal gərdənə siyəh saçın,
Qoy tökülsün o tellərin.

O allahın birlığına,
Düşmənlərin korlığına,
Koroğlunun sağlığına,
Qoy tökülsün o tellərin.

Çün Cəlali Koroğlu sözin təmam eylədi Donə Paşa əyağə durub bir piyalə şərab götürdü Cəlali Koroğluya verdi. Cəla-

li Koroğlu səyaqi-kardan büldü ki, Donə Paşa buna aşiq olub. Dedi:

– Xanım, istərsən səni Çamlıbelə aparum?

Donə Paşa dedi:

– Ey Cəlali Koroğlu, bu Səlim Paşadur ki, bunun öhdəsindən külli-İran gələ bülməz. Əgər xəbərdar olsa, təmam Üsküdar ləşkərin cəm eylər, həm səni və həm məni həlak eylər. İstərsən ki, yaxşı ola, burdan getmə, ta bir-birimizdən ləzzət aparaq.

Cəlali Koroğlu bunu eşidəndə bir ah çəkdi, durdu ağlamağa. Donə Paşa dedi:

– Ey Cəlali Koroğlu, niyə ağladun?

Koroğlu dedi:

– Xanım, öz qəriblıgıma və yalquzlığıma ağlaram. Sən belə xəyal eylərsən ki, mənim məmləkətim və elim yoxdur.

Donə Paşa dedi:

– Cəlali Koroğlu, mən eşitmişəm ki, sənün bir Eyvəz adlı saqün var ki, onu hamıdan artıq istərsən. Məgər o necə adamdur, gərək onu tərif eyləyəsən.

Cəlali Koroğlu çün Eyvəzin adın eşitdi, onun məhəbbəti qəlbində cuş eylədi. Dedi:

– Xanım, qulaq ver, gör Eyvəz necə Eyvəzdir.

İyidlər içində adı bəllüdür,
Kim olacaq Xan Eyvəzə bərabər.
Misri qılıc əldə, gözü qannıdur,
Kim olacaq Xan Eyvəzə bərabər.

Çamlıbeldə gəlüb qurqusun qurub,
Rumun dəhnəsini kəsübdür durub,
Qəvi düşmənlərin boynunu urub,
Məsaf günü qəhrəmana bərabər.

Mübarək zülflərin boynundan asar,
Döyüş günü at oynadar, yol kəsər,
Əgər rum oynasa sındırur, basar,
Əfrasiyab, Samu-Nərimana bərabər.

Bu gördügün qarlı dağlar başıdur,
Axar çaylar mənim didəm yaşıdur,
Eyvəz balı Koroğlu qardaşıdur,
Ölkəsi var, küll-İranə bərabər.

Çün Cəlali Koroğlu sözin təmam eylədi Donə Paşa büldü ki, Eyvəz Koroğlunun saqisi dəgül. Çün dürüst xatircəm oldı, Donə Paşa dedi:

– Ey Cəlali Koroğlu, hala bir neçə məsləhətdən ötrü gündüzlər zindanda qal, əmma gecələr olanda mənə qonaqsan, ta görək işin axırı necə olur.

Pəs o gecə sübhə kimin Cəlali Koroğlu Donə Paşa ilən eyşü-işrətə məşğul olub bir-birinin yüzündən busə alurdılar. Eylə ki sübh oldı, genə Cəlali Koroğlu gəlüb zindanda əyləşdi. Əlhasil, bir neçə gün Koroğlunun əhvalı bu növilən oldu ki, gündüzlər zindanda və gecələr Donə Paşanun mənzilində eyşü-işrətə məşğul oldılar.

Qoy bunlar burda qalsun, əmma nəqli-dastan eşit Həmzə həramzadədən ki, çün Səlim Paşa Donə Paşanı ona vədə eyləmişdi, gəldi Səlim Paşanun xidmətinə, ərz eylədi:

– Paşa sağ olsun, böyüklərün vədəsində xilaf olmaz. Mən sənə Qıratı vədə eyləmişdüm, əlhəmdüllah, Koroğlu öz əyağı ilən gəlüb sənə şikar oldı. Mən əhdimə vəfa eylədüm, gərək sən də öz əhdüvə vəfa eyləyüb Donə Paşanun toyun dutub mənə verəsən. Səlim Paşa dedi:

– Səbr eylə, sabah verrəm Cəlali Koroğlunu darə çəküb öldürüllər, ondan sora öz qızım Donə Paşanun toyun dutub sənə təslim eylərəm.

Pəs bu xəbər müntəşir olub xacəsəralardan biri Donə Paşayə bu xəbəri verdi. Donə Paşa bu xəbəri eşitmaqdan müstərib olub gəldi zindanə. Dedi:

– Ey Cəlali Koroğlu, agah və xəbərdar ol ki, Həmzə həramzadə Səlim Paşadan məni istəyüb və Səlim Paşa vədə eyləyüb ki, sabah səni darə çəküb öldürsünlər. Hər nə əlacun və tədbirün var, eylə.

Koroğlu dedi:

– Xanım, mənim əlimdə bir ixtiyar yoxdur, ya gərək öləm,

ya gərək səni aparam.

Pəs Donə Paşa dedi:

– Ey Cəlali Koroğlu, səbr eylə, ta gecə olsun, mən və sən, hər ikimiz burdan çıxaq və Çamlıbelə gedaq.

Koroğlu dedi:

– Xanım, yaxşı deyirsən, əmma mən bu zəhmətləri Qıratdan ötrü çəkmişəm, gərək Qıratı aparam.

Donə Paşa dedi:

– İnşallah, onu həm bir hiylə ilə aparruq.

Pəs çün gecə oldu Cəlali Koroğlu zindandan çıxub gəldi Donə Paşanun mənzilinə. Donə Paşa yol tədarükü görüb, dedi:

– Ey Cəlali Koroğlu, dur ayaqə gedək töyləyə.

Koroğlu əyaqə durub gəldilər töylənün qapusunun bərabərinə, gördülər mehtərlər əgləşüb söhbətə məşğuldular. Pəs Koroğlu durub kənarda. Donə Paşa daxil oldu töyləyə. Mehtərlər əyaqə durub Donə Paşayə səlam eyləyüb, ərz eylədilər:

– Xanım, bu gecə vaxtı gəlməkdən fərmayişün nədür?

Dedi:

– Səbah mən gedəcaqam bağ seyrinə. Sübhün tüluunda bir neçə rahvar at zin edün, gətürün.

Ərz eylədilər:

– Xanım, inşallah sübhün tüluunda hazır eyləruq.

Pəs Donə Paşa mehtərlərun hər birinə bir əşrəfi və bir qədər noqul ki, bihuşdarı daxil eyləmişdi, verdi. Onlar noqlu yeyüb bihuş oldular. Pəs Donə Paşa Cəlali Koroğlunu xəbərdar eyləyüb. Koroğlu gəlüb Qıratı zin eylədi və bir yaxşı ərəbi at Səlim Paşanun xassə atlarından Donə Paşayə zin edüb, onları töylədən çıxardub gətürdülər qapı bərabərinə. Pəs Donə Paşa daxil olub imarətə bir ağır xurcin nəqd və cins gətirdi. Cəlali Koroğlu onı bağlayub tərkinə. Pəs hər ikisi atlarına səvar olub yola düşdülər. Eylə ki Üsküdardan bir qədər yol getdilər Cəlali Koroğlu yüzün dutub Donə Paşayə dedi:

– Xanım, bir neçə bənd türki gəlib sinəmə, qulaq ver, onları deyüm:

Uca dağların başında,
Bülməm yağışmıdur, nədür,

Qar yağar qaş-qabağından,
Bülmənəm qışmıdur, nədür.

Qaşlarun bənzərmi yayə,
Cəmalun bənzərmi ayə,
Saldun məni bu qovğayə,
Bülmənəm savaşmıdur, nədür.

Sənün cəmalıvu gördüm,
Siyəh zülfün əcəb hördüm,
Vaqiədə səni gördüm,
Bülmənəm dışmıdur, nədür.

Koroğlu deyər əlindən,
Əməydim bircə dilindən,
Heç qucan olmaz belindən,
Bülmənəm yoldaşmıdur, nədür.

Çün sözin təmam eylədi, bina eylədilər getmaqa. Qoy bunlar getmaqda olsun, nəqli-dastan eşit Səlim Paşadan ki, çün Cəlali Koroğlu Donə Paşanı Üsküdardan götürüb yola düşdü, kənizlər bu əhvalatı Səlim Paşaya xəbər verdilər. Səlim Paşa qəzəbnak olub o gecə sübhə kimin yatmadı. Eylə ki sübh oldı, öz vəziri Heydər ağanı istəyüb. Eylə ki vəzir hüzurə yetişdi, dedi:

– Vəzir, qoymadun bu anasın satdığım əcəm oğlun gəbərdəm.

Vəzir ərz eylədi:

– Qurbanun olum, məgər nə var?

Paşa dedi:

– Daxi bundan artuq nə olsun ki, Cəlali Koroğlu həm Qıratı, həm mənim qızım Donə Paşanı bu gecə aparub və məni təmam Rum məmləkətində rusvayi-xasü-am eylədi.

Vəzir ərz eylədi:

– Paşam sağ olsun, Cəlali Koroğlu bir nəfər yalquz adamdur, əgər onun min canı olsa, heç birin səlamət apara bülməz. Buyur, qoşun atlansun, ta onu dutub gətürsünlər.

Pəs Səlim Paşa hökm eylədi, qırq min ləşkər təmam qərqüahənü-fulad olub Səlim Paşa özü həm atlanub yola düşdülər.

Qoy bunlar getmaqda olsun, nəqli-dastan eşit Cəlali Koroğludan ki, dört gün və dört gecə yatmıyub yuxu gözünə getmədi və sürəti-təmamilən at sürdü, çün beşinci gün oldu, Donə Paşa dedi:

– Ey Cəlali Koroğlu, neçə gecədür ki, bizlər yatmamışuq, yuxu az qaldı məni həlak eyləsün, gəl bir qədər yatub rahət olaq, bəd əz an gedaq.

Koroğlu dedi:

– Xanım, ehtiyat eylərəm ki, məbadə, Səlim Paşa qoşun götürüb bizim dalımızca gələ.

Donə Paşa dedi:

– Qorxma, əgər onlar bizim dalımızca gəlsəydi indiyə kimin bir əsər zahir olurdu, inşallah, daxi gəlməzlər.

Pəs Cəlali Koroğlu onun qəlbin sındırmayub bir çeşmənün başında düşüb istirahətə məşğul oldular. Əmma qəza işin işlər. Onları qəflət yuxusu dutub nahar vəqtindən ta əsrə kimin yatdılar. Likən Səlim Paşa əsr vəqti yetişdi həman çeşmənün başına ki, onları ğəflət yuxusu basub yatmışdılar. Pəs Səlim Paşa hökm eylədi Cəlali Koroğlunu yuxu içində dutub qolların bağladılar. Pəs ordan müraciət eyləyüb mənzilbəmənzil gəldilər Üsküdarun həvalisində ki, bir basəfa yer idi, Səlim Paşa bir ay orda mənzil eyləyüb oturdu. Pəs Cəlali Koroğlu Donə Paşayə dedi:

– Mənə bir qasid tap ki, öz iyidlərimə bir namə yazub göndərüm.

Donə Paşa bir məbləği-xətir bir qasidə verdi gətürdi Cəlali Koroğlunun yanına. Koroğlu dedi:

– Xanım, bir neçə bənd söz sinəmə gəlüb, onları deyüm yaz kağıza, göndər Eyvəz balıya.

Yoldan dönüb Üsküdara köç oldu,
Səri telli Eyvəz Xanım, durma gəl.
Düşmən məni aldı, duta-dut oldu,
Səri telli Eyvəz Xanım, durma gəl.

Qurban olum Xan Eyvəzün dilinə,
İpək şəddə qurşadıram belinə,

Məni verdi yağı cəllad əlinə,
Səri telli Eyvəz Xanım, durma gəl.

Sənə qurban olum, xanların xanı,
İtaətə gətdün küllü İranı,
Yolunda qoymuşam bu şirin canı,
Səri telli Eyvəz Xanım, durma gəl.

Əmən olmaz Eyvəz sənün dilindən,
Qucan olmaz sənün incə belindən,
Qırat getdi Koroğlunun əlindən,
Səri telli Eyvaz Xanım, durma gəl.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, həman kağızı verdi qasidə dedi:

– Qoççum olasan, gərək bu kağızı tezlikilən Çamlıbeldə Eyvəzə yetirəsən.

Qasid naməni alub yola düşdü. Gecə və gündüz yatmıyub at sürdü, ta on bir günə kimin özün yetirdi Çamlıbelə. Bir vəqt yetişdi ki, iyidlər təmam Eyvəz xanın başına cəm olub şərab məclisin qurub şərab içməgə və eyşü-işrətə məşğul olmuşdular. Pəs qasid Eyvəzə baş endürüb səlam eylədi. Eyvəz dedi:

– Canım, hardan gəlürsən və mətləbün nədür?

Qasid dedi:

– Cəlali Koroğlunun yanından gəlürəm və kağız gətürmüşəm.

Pəs kağızı çıxardub verdi Eyvəzə. Eyvəz kağızı açub oxudu. Çün məzmunundan muttəle oldu, hökm eylədi qasidə yüz tümən nəqd və bir dəst yaxşı xələt verdilər. Bəd əz an xəbər aldı ki, hala Səlim Paşa və Cəlali Koroğlu hardadur. Qasid dedi:

– Üsküdarün həvalisində Səlim Paşa bir aya kimin mənzil eyləyüb.

Pəs həman saat Eyvəz hökm eylədi ki, yeddi min yeddi yüz yetmiş yeddi dəli qərqü-ahənü-fulad olub dava əsbabın geydilər və atların zin edüb səvar oldular. Pəs Çamlıbeldən çıxub gecə və gündüz yatmıyub at qavdular tainki yetişdilər həman dərrəyə ki, həramibaşı orda mənzil eyləmişdi, qaravul uzaq-

dan gördü ki, bir ağır toz gəlür. Həramibaşıya xəbər verdi. Həramibaşı bir nəfər adam göndərüb dedi:

– Get gör ki, bu ağır qoşun hardan gəlür və harıya gedir.

Çün o şəxs yetişüb xəbər aldı, Eyvəz dedi:

– Bizlər Cəlali Koroğlunun adamlarındanuq, Üsküdar şəhrinə gediruq.

O şəxs elə bu xəbəri eşidəndə qayıdub həramibaşıya əhvalatı xəbər verdi. Həramibaşı çıxdı Eyvəzün istiqbalına, dedi:

– Cavan, bir qədər rahət ol ki, Koroğlu mənimlən siğə qardaş olub, mənə lazımdur gərək onun köməginə gedəm.

Pəs həramibaşı öz adamlarına hökm eylədi ki, təmam əsbabi-dava əginlərinə geyüb atlarına səvar oldular. Pəs həramibaşı özü və adamları Eyvəzə mülhəq olub yola düşdülər. Təcili-təmamilən at sürüb tainki bir gün çaşt vəqti yetişdilər o yerə ki, Səlim Paşa orda mənzil eyliyüb oturmuşdu. Səlim Paşanun ordusunun qaravulları çün Eyvəzün ləşkərün, səvarın uzaqdan gördü təcili-təmamilən özlərün yetirdülər Səlim Paşanun hüzuruna və ərz eylədilər ki, Paşam sağ olsun, uzaqdan bir qoşunun səvarı nümayandur, əmma bülməruq ki, hara ləşkəridür. Pəs Səlim Paşa neçə nəfər adam göndərüb ki, o ləşkərün əhvalından müttəle olsun. Çün onlar gəldilər Eyvəzün bərabərinə, Eyvəz xəbər aldı ki, hardan gəlürsüz. Onlar dedilər ki, bizlər Səlim Paşanun adamlarındanuq, bizləri göndərüb ki, sizin əhvaluvuzdan müttəle olaq. Eyvəz dedi:

– Cəmaət, Cəlali Koroğludan nə xəbərüz var.

Dedilər:

– Səlim Paşa onu dutub məhbus eyləyüb ki, bu yavuq zamanda aparacaq Üsküdar şəhərinə və orda dara çəküb həlak eyləyəcaq.

Çün Eyvəz Cəlali Koroğlunun sağlığından xatircəm oldu, şad oldu yüzün dutub öz iyidlərinə, dedizən:

nun xidmətinə. Paşa xəbər aldı ki:

– Cəmaət, sizi kim bu hala saldı?

Ərz eylədilər ki:

– Paşa sağ olsun, daxi nə aramilən oturmusan ki, Cəlali Koroğlunun adamları təmam gəldilər.

Səlim Paşa çün bu xəbəri eşitdi, hökm eylədi ki, həman saat ordu köçüb yüz qoydu Üsküdarə tərəf getmaqə. Eyvəz uzaqdan gördü ki, ordu köçüb yola düşdü, dedi:

– Cəmaət, qoymuyun ki, əgər Səlim Paşa Cəlali Koroğlunu şəhərə daxil eyləyə, məhaldur ki, onu ələ gətürəx.

İyidlər təmam atlarına sağdan, soldan məhmiz göstərüb, bir türfətül-eyndə özlərin yetirdilər Səlim Paşanun qoşununa. Cəlali Koroğlu qolları bağlı gedirdi. Çün Eyvəzi və iyidləri gördü, şövqündən bir ağladı, dedi:

– Səlim Paşa, bir məni saxla ki, bir neçə bənd türki gəlüb sinəmə onları deyüm, ondan sora aparsunlar.

Səlim Paşa iyidlərin qorxusundan hökm eylədi Cəlali Koroğlunun qolların açub saxladılar. Pəs Koroğlu yüzün dutub Eyvəzə, iyidlərə və həramibaşıya dedi:

Gögdən yerə atəş gəlür,
Eşidənlər mədhuş olsun.
Eyvəz piyaləni versə,
Onu içən sərxoş olsun.

Düşmənləri bir-bir öldür,
Eşqin atəşinə yandur,
Sağdan göstər, soldan yendür,
Ur qılıcun, sərxoş olsun.

Qalxanıvu saxla yandan,
Dürr tökülür o dəhandan,
Tez qayıtma bu meydandan,
Dəlilərim yoldaş olsun.

Koroğlunun var gümanı,
Nə baxarsan yanı-yanı,

Öldürün Səlim Paşanı,
Gözdən axan qan-yaş olsun.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Eyvəz balı hökm eylədi iyidlərə ki, daxi durmaq vəqti dəgül. Pəs iyidlər bir tərəfdən və həramibaşı bir tərəfdən əl qılıca eyləyüb, özlərin urdular Səlim Paşanun qoşununa. Əmma bu tərəfdən Səlim Paşa çün əhvalı belə gördü qırq min ləşkərə fərman verdi təblücəng çala-çala yüz qoydular iyidlərün üstünə. Pəs o iki ləşkər dərya kimin bir-birinə qarışdı. Hər tərəfdən sədayi-begiro-bebənd fələki-ətləsə bülənd oldı. Əmma həramibaşı və Eyvəz arxa-arxaya verüb durub iyidlərün qabaqınca düşüb Səlim Paşanun ləşkərin tumar kimin bir-birinə bükərdi. Az qaldı ki, Səlim Paşanun qoşunun qabaqdan götürsünlər Səlim Paşa hay urdu öz qoşununa ki, cəmaət, mərdanəluq eyləyün ki, əgər Eyvəz sizlərə al tapa dəmari-sirfəz ruzgarızdan götürür və bir nəfər sizlərdən zində qoymaz. Pəs dübarə Səlim Paşanun ləşkəri beydaqların açub. Atların şihəsindən və iyidlərin hayhuyundan və qılıcların bərqindən günün yüzü dutuldu. Cəlali Koroğlu əhvalı belə görəndə yüzün dutub iyidlərə, dedi:

Carçılar çığrışur kərəney bozlar,
Ho-ho deyüb çərxəçiyə kəl olur.
Misri qılıc oynar al-qan içində,
Qan tökülür ağ öpkələr dal olur.

Qoç iyidlər öz yerində satılur,
Qərib iyid yad ölkədə dutulur,
Baş kəsilür dügmə kimin atılur,
Axan çaylar qan yerinə sel olur.

Qoc iyidlər dar məcalda qalanda,
Çar tərəfdən qoşun üstün alanda,
Bəlli Əhməd ğənim üstə varanda,
Boyun çəkər, burnu dolu yel olur.

Koroğluyam, mən bülürəm səyaqi,
Səlim Paşa mənə olubdur yağı,

Qapısun eliyün qancıq yatağı,
Qarı düşmən bizə nə vəqt el olur.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, iyidlər qeyrət edib Səlim Paşanun qoşunun qatdılar qəbağlarına ac qurt kimin onlarun səflərin dağıtdılar. Pəs o qoşun iyidlərin qabağında dəvam gətirməyüb yüz qoydular qaçmağa. Səlim Paşa iyidlərdən bu zərbi dəsti görəndə labüd qalub özün saldı Cəlali Koroğlunun əyaqlarına, durdu yalvarmağa.

Pəs Koroğlu hökm eylədi iyidlər onu dutub qolların bağladılar. Əmma Heydər ağa ki, Səlim Paşanun vəziri idi, Cəlali Koroğlu onu Üsküdara hakim eylədi. Vəzir bu iltifatı Koroğludan görəndə Səlim Paşanun təmam xəzanəsin və nəqdücinsin gətürüb peşkəş eylədi. Pəs Koroğlu hökm eylədi, Səlim Paşanun boynun urdular və o malü-dövləti, Səlim Paşanun qızı Donə Paşanı götürüb iyidlərilən belə yola düşdü. Mənzilbəmənzil gəldilər, tainki həramibaşının mənzilinə yetişdilər. Həramibaşı ərz eylədi ki:

– Ey Cəlali Koroğlu, əlhəmdüllah, düşmənün ələ gətirüb həlak eylədün, gərək bir neçə gün mənə qonaq olasan. Pəs Cəlali Koroğlu onun iltimasın qəbul edüb bir neçə gün həramibaşıya qonaq oldu. Bəd əz an Səlim Paşanun nəqd və xəznəsindən bir qədər həramibaşıya təarüf edüb və onu vida eyliyüb yola düşdülər. Mənzilbəmənzil gəlürdilər, tainki Çamlıbelün həvalisinə yetişdilər. Donə Paşa gördü əcəb basəfa dağlardur ki, təmam gül və kiyah açılub və yaxşı çeşmələr caridür, yüzün dutub Cəlali Koroğluya xəbər aldı ki, bu məkan haradur? Koroğlu dedi:

– Xanım, qulaq ver, deyüm:

Ey ağalar, qardaşlar,
Açıldı fəsli dağlarun.
Gögə durub süsən-sünbül,
Açıldı fəsli dağlarun.

Gözəlləri qiya baxar,
Aşiq canın oda yaxar,

Elləri yeylaqa qalxar,
Açıldı fəsli dağların.

Tərlanım ağ pənalıdur,
Bəyaz gərdən minalıdur,
Ördəklidür, sonalıdur,
Açıldı fəsli dağlarun.

Qoç Koroğlu xumar olsun,
Rəqib dərdə düçar olsun,
Qoy həmişə bahar olsun,
Açıldı fəsli dağlarun.

Ağ üzündə qara teldür,
Bu gördügün Çamlıbeldür,
Düzülübdür, bizim eldür,
Açıldı fəsli dağlarun.

Çün sözin təmam eylədi, ordan köçüb yetişdilər Çamlıbelə. Pəs atlarından aşaqa gəlib bir neçə gün istirahət eylədilər. Bəd əz an Cəlali Koroğlu Donə Paşanun toy tədarükün görüb yeddi gün, yeddi gecə toy tutdu. İyidlərə xələti-faxir verüb onları mürəxxəs eylədi ki, hər kəs gedüb öz mənzilində istirahətə məşğul oldular və özü həm Səlim Paşanun qızı Donə Paşa ilən belə eyşü-nuşə məşğul oldu.

KOROĞLUNUN ON İKİNCİ MƏCLİSİ

Səlim Paşanın qardaşı Davud Paşanın öz qardaşının qanını Koroğludan almaq üçün Qarsdan gəlməsi, Eyvəzi ovlaqdan aparması. Koroğlunun xəbər tutaraq ardınca getməsi və Davud Paşa ilə döyüşü

Raviyani-əxbar və naqilani-asar böylə rəvayət eyləyüb ki, çün Cəlali Koroğlu Üsküdar hakimi Səlim Paşanı öldürüb və onun qızı Donə Paşanı Çamlıbelə gətürdi, bu xəbər məcmui-Rum vilayətlərində məşhur oldu. Əmma Səlim Paşanun bir qardaşı var idi ki, onun adına Davud Paşa deyərdilər ki, Qars vilayətində hakim idi və çox qəvi–heykəl və şücaətlü adam idi və süvarəlığda təmam aləmdə məşhur və məruf idi.

Çün Səlim Paşanun ölmək xəbəri Davud Paşaya yetişdi, cəhənnəm kimi zəbanə çəküb and içdi ki, Cəlali Koroğlunu həlak eyləyüb və Çamlıbeli xərab eyləsün.

Pəs hökm eylədi ki, igirmi beş min ləşkər cəm olub, Qars şəhərindən çıxub yüz qoydu Çamlıbelə gəlməyə. Mənzilbəmənzil gəlüb, tainki Çamlıbelin iki ağaclığında bir böyük çəmən var idi ki, Cəlali Koroğlu o çəməni həmişə qoruq eləyüb hər il bir neçə gün o çəməndə iyidlər ilən belə əyləşüb şikar eləməyə məşğul olurdu. Həman çəməndə öz çadırların nəsb eyləyüb əyləşdi ki, Cəlali Koroğludan bir əhval dutub və onilən dava eyləsün. Əmma Davud Paşa bu çəməndə oturmaqda olsun, nəqli-dastan eşit Cəlali Koroğludan ki, yeddi min və yeddi yüz yetmiş yeddi dəliləri başında cəm olub gecə və gündüz eyşü-nuşa məşğul var idi.

Tainki bir gecə iyidlər ilən məclis arastə eyləyüb əyləşdilər və saqilər piyaleyi-şərab əllərində iyidlərə şərab verürdi və müğənnilər rəqqaslığa məşğul olub ki, hər kəs öz aləmində keyf eylərdi. Pəs Cəlali Koroğlu yüzin dutub iyidlərə, dedi:

– Cəmaət, çoxdandur ki, mən şikara getməmişəm. Sabah, inşallah, gərək şikara gedək.

Çün sabah oldu, Cəlali Koroğlu hökm eylədi ki, təmam iyidlər atlanub və Cəlali Koroğlu həm öz(ü) atlanub üç günün

şikarına getdi. Eyvəz balı qalub onların şikar tədarükün görüb yola saldı.

Eylə ki ikindi zamanı oldu, Eyvəz həm atlanub onlarun dalınca yüz qoydu şikargaha getməyə. Əmma qəzayi-rəbbanidən Cəlali Koroğlu gedən şikargahın iki yolu var idi. Biri həman yol idi ki, Koroğlu və iyidlər getmişdi və bir yolu həman çəmən idi ki, Davud Paşa orda nüzul eyləmişdi. Eyvəz yalquz həman çəmən yoluynan şikara getdi. Çün o çəmənə yetişdi, gördü tənab-tənabdan keçib, bir ağır ordu bu çəməndə nüzul eyləyüb.

Pəs Eyvəz atın sürüb gəldi ordu içinə ki, onlarun əhvalından xəbərdar olsun. Çün daxil oldu orduya, osmanlu camaətı gördülər, bir gözəl oğlan mükəmməl və müsəlləh bir yaxşı ata süvar olub. Əmma qucağında bir saz, ordu içiynən dolanur. Onun başına cəm olub dedilər:

– Cavan, qucağındakı sazdan belə məlum olur ki, sən yanşaqsan.

Eyvəz dedi:

– Bəli.

Onlar dedilər:

– Gəl səni aparaq Paşa yanına ki, orda bir qədər söhbət elə ki, Paşa sənə çox para verür.

Pəs Eyvəzi gətürdilər Davud Paşanun yanına. Paşa gördü Eyvəz belə gözəldür ki, bunun mislü-manəndin xudavəndialəm yer üzünə xəlq eyləməyüb. Paşa dedi:

– Oğlan, mənə nökər olursan ki, səni özümə saqi eyləyəm?

Eyvəz çün bunu Paşadan eşitdi, qəzəbnak olub sazın götürüb basdı sinəsinə, yüzin dutub Davud Paşaya dedi:

– Paşa, qulaq ver:

Yurd eyləyüb bir çöllükdə əyləşən,
Sölə, görüm, sən haranın xanısan?
Əgri qılıc qabırğova dəyməmiş,
Köç buradan, hər hara sultanısan!

Bu görükən Çamlıbelin çölüdür,
Göz qaralub, hirsim əcəb toludur,

Qol qüvvətli, əgri qılıc suludur,
Köç buradan, salma nahaq qanı sən!

Mərdligilən qollaruvu bağlaram,
Çamlıbeldə dar dibində saxlaram,
Ətün kəsüb rizə-rizə doğraram,
Köç buradan, tökmə nahaq qanı sən!

Koroğlunun Eyvəziyəm, söylərəm,
Aç qulağun, sənə xəbər eylərəm,
Atlularun təmamisin peylərəm,
Köç buradan, öz yerüvi tanı sən!

Çün Eyvəz balı sözin təmam eylədi, Paşa qəzəbnak olub dedi:

– Oğlan, sənün adun Eyvəzdür?

Dedi:

– Bəli.

Paşa dedi:

– Çox yaxşı oldu. Mən gəlmüşdüm öz qardaşım Səlim Paşanun qanın Cəlali Koroğludan alam. İmdi ki, sən onun saqisi Eyvəzsən, səni aparram. Əlbəttə, Cəlali Koroğlu sənün dalunca gəlür. O vaxt, inşallah, Cəlali Koroğlunu dutub öz qardaşımun qanınun əvəzinə həlak eylərəm.

Pəs Davud Paşa yanındakı adamlarına hökm eylədi ki, dutun bu anasın satdığım Koroğlunun cocuğun. Pəs həman saat neçə nəfər osmanlu camaatından irəlü gəlüb istədilər Eyvəzi dutsunlar. Eyvəz mərdanə qılıcın çəküb neçə nəfər onlardan öldürdü. İstədi atına minsun, Davud Paşa hay urdu qoşuna ki, camaat qoymuyun bu əcəm cocuğun.

Pəs ordu bir-birinə dəgüb ətrafdan qoşun töküldü, Eyvəzi dutub qolların bağlıyub gətürdilər Paşa yanına. Paşa gördü, Eyvəzün qolları bağlanub, əmma onun başı neçə yerdən şikəst olub, qan tökülür. Dedi:

– Əcəm oğlu, mən sənə demədim, özün həlakətə salma?

Pəs Davud Paşa hökm eylədi ki, ordu köçsün. Qoşun camaatı çadırların yıxub atlandılar. Əmma Eyvəzi qolubağlı

bir ata süvar eylədilər. İstədilər ki, yola düşsünlər, Eyvəz əhvalı belə görəndə yüzin dutub Davud Paşaya dedi:

– Paşam sağ olsun, bir neçə bənd türkü gəlib sinəmə, qoy onları deyim, ondan sonra köç eyləyün.

Ərzim budur qulluğuva, Paşacan,
Koroğlunun Eyvəzini aparma.
Əbəs yerə tökmə yerə nahaq qan,
Koroğlunun Eyvəzini aparma!

Bir ağam var, çoxdur onun qeyrəti,
Dünyada heç kəsdən çəkməz minnəti,
Öldürür sənün tək yüz müxənnəti,
Koroğlunun Eyvəzini aparma.

Ərəbi at minər meydanda durar,
Sağu-soldan qılıc düşmənə çalar,
Yüz sən tək paşanın boynunu urar,
Koroğlunun Eyvəzini aparma.

Qoşa-qoşa düzülübdür xallarım,
Koroğluya yetürələr hallarım,
Eyvəz deyər, gəl bağlama qollarım,
Koroğlunun Eyvəzini aparma!

Çün Eyvəz sözin təmam eylədi, Davud Paşa qəzəbnak olub dedi:

– Anasın satdığım əcəm cocuğu, məni Koroğluynan qorxudursan? Koroğlu qoç davasına düşməyüb, inşallah, əgər həyatım olsa, Koroğludan öz qardaşım Səlim Paşanun intiqamın allam.

Pəs qoşun ordan köçüb yüz qoydular Qars tərəfinə getməyə. Mənzilbəmənzil gəlüb, tainkii yetişdilər Qazlı gölün çuqquruna. Eyvəz gördü, bir sürü durna Qazlı göldən uçub Çamlıbel tərəfinə gedər. Eyvəzün gözləri bir yaşardı, yüzin dutub ordakılara tərəf dedi:

Göydən ötən bölük-bölük durnalar,
Çamlebeldə Koroğluya xəbər ver.

Qolubağlu aparullar Eyvəzi,
Çamlıbeldə Koroğluya xəbər ver.

Qaynıyuban peymanələr dolubdur,
Saralıbdur gül irəngim solubdur,
Xan Eyvəzi qolubağlı qalubdur,
Çamlıbeldə Koroğluya xəbər ver.

Mən qalmışam qəmü-qüssə bəhrində,
Mənim kimi gözəl yoxdur dəhrində,
Gözü yaşlı qaldum Urum şəhrində,
Çamlıbeldə Koroğluya xəbər ver.

Eyvəz deyər, on dört-on beş yaşlıyam,
Bir ala gözlüyəm, qələm qaşlıyam.
Günbəgün ağlaram, gözü yaşlıyam,
Çamlıbeldə Koroğluya xəbər ver.

Çün sözin təmam eylədi, genə yüz qoydular Qars tərəfinə getməyə. Bunları qoy getməkdə olsun, əmma nəqli-dastan eşit Cəlali Koroğludan.

Çün şikargaha yetüşdi, oturdu bir çeşmənin başında. İyidlər bir neçə şikar eyləyüb kabab çəkdülər, o çeşmənün başında tənavül eylədilər. Bəd əz an istirahətə məşğul oldular. Çün axşam oldu, onları ki, Eyvəz balı onlardan tədarük göndərmişdi, gəldilər. Cəlali Koroğlu onlardan xəbər aldı ki, Eyvəz hanı? Ərz eylədilər ki, Eyvəz bizi qabaqca yola saldı, bizim ondan xəbərimiz yoxdur.

Pəs o gecə iyidlər təmam cəm olub eyşü-nuşə məşğul oldular. Əmma Cəlali Koroğlu bu fikri eylərdi ki, aya Eyvəzün başında nə var və niyə gəlmədi? İyidlər ərz eylədilər ki, ey Cəlali Koroğlu, nə bu qədər fikr eylərsən? Əlhəmdüllah, yağı ölkəsi dəgül ki, Eyvəzə bir asib yetişə. Bizim gümanımız budur ki, Eyvəz bu gecə Çamlıbeldən çıxmayub. O gecə bir növilən iyidlər Koroğluya aram və təsəlli verüb, Koroğlunu damağ üstə gətürüb eyşü-nuşə məşğul oldular.

Eylə ki sübh oldu, Cəlali Koroğlu Bəlli Əhmədi göndərdi Çamlıbelə ki, Eyvəzdən bir xəbər gətürsün. Əmma özü və

iyidlər şikara getdilər. Pəs əsr vaxtına kimin şikargahda dolanub, bir neçə şikar eyləyüb qayıtdılar həman çeşmənün başına ki, orda mənzil eyləmişdilər. Koroğlu xəbər aldı:

– Cəmaət, Eyvəzdən və Bəlli Əhməddən bir əsəri zahir olmadı, bülmürəm ki, onlarun başında nə var?

İyidlər ərz eylədilər:

– Qəm eyləmə, əlbəttə, gəlüllər.

Pəs o gecə genə orda qalub, sübh vaxtıydı ki, Bəlli Əhməd özün yetürdi Cəlali Koroğlunun yanına. Koroğlu gördü Bəlli Əhməd yalquz gəlür. Biaram olub xəbər aldı ki, Eyvəzdən nə xəbərün? Ərz eylədi ki, qurbanun olum, Eyvəz həman gün ki, şikar tədarükün yola salub, özü həm atlanub şikargaha gəlüb, hərçi ətrafı axtarub soraq dutdum, bir xəbər bülmədüm.

Çün Cəlali Koroğlu Bəlli Əhməddən bu sözü eşitdi, aləm gözünə tirəvü-tar olub, bir ah çəküb gözlərünün yaşın yüzinə tökdü. İyidlər ona təsəlli verüb ərz eylədilər ki, qurbanun olum, heç iztirab eyləyüb ağlama, yəqin ki, Eyvəz şikara məşğuldur. Sən burda əyləş ki, bizlər gedağ və Eyvəzi tapax, sənün xidmətüvə gətürağ.

Pəs iyidlər təmam atlarına süvar olub dağıldılar. Şikargahun və Çamlıbelün ətrafın dolanub bir əsəri Eyvəzdən tapmayub gəldilər Cəlali Koroğlunun xidmətinə. Koroğlu gördü iyidlər təmam gəldi, əmma Eyvəz gəlmədi. Dedi:

– Cəmaət, Eyvəzdən nə xəbər oldu?

Ərz eylədilər ki, ey Cəlali Koroğlu, daxi Çamlıbelün ətrafında bir yer qalmadı ki, dolanmıyaq və likən heç soraq bülmədük. Cəlali Koroğlu çün iyidlərdən bunu eşitdi, bina eylədi ağlamağa. İyidlər hərçi ona təsəlli verdilər, aram dutmayub ağlamağın arturub sazın götürüb basdı bağrına, yüzin dutub iyidərə tərəf, dedi:

...fələk gör nə gətdi başıma,
Ala gözlü Xan Eyvəzim gəlmədi.
Qarı düşmən ağu qatdı aşıma,
Ala gözlü Xan Eyvəzim gəlmədi.

Düşmən mənə əcəb urdu yaranı,
Koroğlusuz Eyvəz teli daranı,
Arıyum, axtarum gedüm haranı,
Ala gözlü Xan Eyvəzim gəlmədi.

Car çəkün, görülsün ləşkərün sanı,
Çəkərəm qılıcı, tökərəm qanı,
Gətirün şeşpəri, verün qalxanı,
Ala gözlü Xan Eyvəzim gəlmədi.

Qarı düşmən əcəb tapdı matını,
Heç kim verməz Xan Eyvəzün dadını,
Koroğlunun siz gətürün atını,
Ala gözlü Xan Eyvəzim gəlmədi.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, şikargahdan köçüb özün yetürdi Çamlıbelə. O gecə çox iztirab və biaramlığ eyləyüb iyidlər ərz eylədilər ki, ey Cəlali Koroğlu, sən bu gecə aram dut, biz əhd eyləruq ki, inşallah, sübh vaxtı olanda Eyvəzdən sənə xəbər gətürruğ.

Pəs Koroğlu o gecə ilan vırmış adam kimi gah sağa və gah sola dolanub Eyvəzün məfariqətindən gah ah çəküb və gah ağlardı. Tainki sübh tüluu eylədi. Dəmirçioğlu atlanub özün yetürdi Koroğlunun bərabərinə. Ərz eylədi:

– Mən razı dəgüləm bir kimsənə Eyvəzün dalınca gedə. Bu gün zöhr vaxtına kimin Eyvəzi harda olsa, gətürrəm.

Bunu deyüb mürəxxəs oldu. Pəs ətraf cəvanibi gəzərdi, tainki bir qafilə onun qabağına gəldi. Dəmirçioğlu xəbər aldı ki, hardan gəlürsüz? Qafiləbaşı dedi:

– Cavan, Rum vilayətindən gəlüruğ və İran vilayətlərinə gediruğ.

Dəmirçioğlu dedi:

– Qafiləbaşı, Rum vilayətindən nə xəbərün var?

Dedi:

– Cavan, bir xəbər yoxumdur, məgərinki bir ağır qoşun Qazlı göldə gördüm gəlür, xəbər aldım, cəmaət, hardan gəlürsüz, dedilər, bu qoşunun sərdarı Davud Paşadur. Getmişdi C-

əlali Koroğlunu dutub həlak eyləsün. Əmma Koroğlunu ələ sala bülmədi. Likən onun saqisi Eyvəzi dutub aparur.

Çün Dəmirçioğlu əhvalatdan müttəle oldu, müraciət eyləyüb gəldi Cəlali Koroğlunun yanına. Əhvalatı nəql eylədi ki, Eyvəzi Davud Paşa, Səlim Paşanun qardaşı dutub Qars şəhərinə aparub. Çün Koroğlu bu sözü eşitdi, həman saat hökm eylədi ki, təmam iyidlər cəm oldular. Pəs Koroğlu yüzin dutub iyidlərə dedi:

Qoç iyidlər, geyün dəmir, poladı,
Savaşım düşəcək Qazlı göllərdə.
Yetirün göylərə dadü-fəryadı,
Savaşım düşəcək Qazlı göllərdə.

İyid gərək qoysun bu yolda canı,
Heç xəbər almısuz Eyvəzim hanı?
Öldürrəm paşanı, tökərəm qanı,
Savaşım düşəcək Qazlı göllərdə.

Çəkərəm qılıcı, gəzərəm düzü,
Eşidün məndən bu doğru sözü,
İntizar qalıbdur Eyvəzün gözü,
Savaşım düşəcək Qazlı göllərdə.

Koroğlu der, mən Urumu çaparam,
Neçə-neçə sınıq könül yaparam,
Axtaruram, Xan Eyvəzi taparam,
Savaşım düşəcək Qazlı göllərdə.

Çün Koroğlu sözin təmam eylədi, yeddi min yeddi yüz yetmiş yeddi dəli əsbabi-hərb əginlərinə geyüb təmam qərqü-ahənü-fulad oldular. Pəs Cəlali Koroğlu özü şiri-jəyan kimi Qırata süvar olub Çamlıbeldən çıxub, yüz qoydular Qars tərəfinə getmağa.

Bunları qoy getmağda olsun, əmma nəql eşit Davud Paşadan ki, çün Eyvəzi Qarsa gətürdi, öz hərəmxanasında Eyvəzi məhbus eylədi. Əmma Davud Paşanun bir qızı var idi ki, onun adına Ziba xanım deyərdilər. Çox gözəl və sahibi-cəmal idi. Hər gün gəlürdi Eyvəz məhbus olan otağa, Eyvəznən bir

qədər söhbət eyləyüb gedərdi. Pəs o iki cavan bir-birinə aşiqi-biqərar oldular. Əmma Davud Paşanın qorxusundan izhar eyləyə bülməzdilər.

Bir gün Ziba xanım gəldi Eyvəzün yanına. Gördü Eyvəz türki oxur, dedi:

– Cavan, məgər sən türki deyə bülürsən?

Eyvəz dedi:

– Bəli.

Ziba xanım dedi:

– Eyvəz, gərək bu gecə mənə qonaq olasan. Əmma bu şərtlən ki, yaxşı söhbət eyləyüb, türki oxuyasan.

Eyvəz dedi:

– Xanım, əgər Davud Paşa xəbərdar olsa, həm səni və həm məni həlak eylər.

Ziba xanım dedi:

– Cavan, eylə ki Davud Paşa yatar, mən özüm gəlləm, səni aparram otağıma.

Pəs vədələşib, eylə ki gecə nisfdən keçdi, Ziba xanım ayağa durub gəldi Eyvəzün mənzilinə. Onun zəncirin boynundan açub gətürdi öz mənzilinə, dedi:

– Eyvəz, gərək bu gecə mənə bir qədər söhbət eyləyəsən.

Eyvəz dedi:

– Xanım, bir qədər mənə şərab gətür ki, çoxdandur şərab içməmişəm, ta şərab içüb, tərdimağ olum, bəd əz an sənə yaxşı söhbət eyləyüm.

Ziba xanım bir qədər şərab və bir piyalə qoydu Eyvəzün yanına. Eyvəz dedi:

– Xanım, məgər qonağa belə nəvaziş eyləllər? Böyük adamlar neməti verəndə təmam eylər.

Ziba xanım dedi:

– Mən neylədim ki, sən belə söz deyirsən?

Eyvəz dedi:

– Xanım, əgər istərsən ki, mənim qəlbim ələ gələ, gərək özün ayağa durub mənə saqi olasan.

Pəs Ziba xanım dedi:

– Eyvəz, bu mənim mətləbimdür, əmma mənim ehtiyatım

var idi ki, məbadə, sənün xilafi-rəyün olsun.

Pəs Ziba xanım özü ayağa durub piyaləni doldurub yüz nazü-qəmzə ilən verdi Eyvəzə. Eyvəz alub çəkdi başına. Pəs yeddi piyalə şərab peydərpey Ziba xanım Eyvəzə verdi. Eyvəz bu iltifatı Ziba xanımdan görəndə biixtiyar olub sazın götürüb basdı sinəsinə, yüzin dutub Ziba xanıma, dedi:

Süsən-sünbül bənövşədən artuqsan,
Qəm eyləmə, qızılgüldən arı qız.
Lalə açub buxağında nərgizlər,
Gül açılub yanağunda, sarı qız.

Gəzəmməzəm bu dünyada arımdan,
Aləm qərqə yetdi ahü-zarımdan,
Bir dilək dilərəm bərhəq Tarımdan,
İstərəm mən ağ sinədə narı, qız.

Yeri gözəl, sənsən canım cəlladı,
Aşiq olan məşuqəsin alladı,
Davud Paşa qol-budağım dalladı,
Gecə-gündüz mən eylərəm zarı, qız.

Qaşun kaman, müjganlarun ox, yeri,
Dərdü-qəmün bu canımda çox, yeri,
Bivəfasan, mənə vəfan yox, yeri,
Səni mənə qismət etsün Tarı, qız!

Mən Eyvəzəm, gecə-gündüz ağlaram,
Eşq əlindən bu sinəmi dağlaram,
Əmanətən bir busə ver, saxlaram,
Koroğlunun Eyvəzinün yarı, qız!

Çün Eyvəz balı sözin təmam eylədi, Ziba xanım qolların saldı Eyvəzün boynuna, bir neçə busə onun yüzindən aldı. Eyvəz əhvalı belə görəndə büldi ki, Ziba xanım buna aşiqi-biqərar olub. Pəs Eyvəz də həm qollarun saldı Ziba xanımun boynuna, bir neçə busə onun yüzindən aldı. Pəs o iki aşiq-məşuq qol bir-birinün boynunda söhbət eyləyüb eyşü-işrətə məşğul oldular. Ziba xanım dedi:

– Eyvəz, daxi səni qoymaram Davud Paşa öldürsün. Əmma bu şərtilən ki, gərək burdan getməyəsən və qalasan mənim atam Davud Paşanun yanında.

Eyvəz dedi:

– Xanım, bu mahaldur. Ondan ötrü ki, Cəlali Koroğlu bugün-sabah iyidlərilən belə gəlür və məni burdan aparur.

Ziba xanım çün bunu eşitdi, dedi:

– Eyvəz, hərgah Cəlali Koroğlu gəlüb səni aparsa, gərək məni də aparasan.

Eyvəz gördü Ziba xanımun buna meyli çoxdur. Eyvəz genə sazın götürüb basdı sinəsinə, dedi:

– Xanım,

İşvə-qəmzə, nazun çoxdur,
Nə şirindür dilün sənün.
Gözəllikdə tayun yoxdur,
Bimürvətdür elün sənün.

Göz sataşdı buxağuva,
Qızılgül tək yanağuva,
Qonaq gəldim otağuva,
Qucmalıdur belün sənün.

Keçəydim solü-sağuva,
Qurbanam əbri-tağuva,
Bağiban olum bağuva,
Tez dərəydüm gülün sənün.

Dönübdür ləblərün qəndə,
Qaçıraydım səni mən də.
Qoşa-qoşa ağ sinəndə,
Əmməlidür narun sənün.

Mən Eyvəzəm, qəm içində,
Didəm dolu nəm içində,
Oynar, gülər dəm içində,
Cəbinündə telün sənün.

Çün Eyvəz balı sözin təmam eylədi, Ziba xanım Eyvəzün

bu sözindən anladı ki, onun meyli bir-biriynən qucaqlaşub yatmaqdur. Pəs rəxt salub, hər ikisi girüb, rəxti-xab içində qol bir-birinün boynunda ta sübhə kimin söhbətə məşğul oldular.

Əmma çün sübhün tülui oldu, Ziba xanım dedi:

– Eyvəz, dur ayağa, get öz mənzilüvə, məbadə, Davud Paşa xəbərdar ola və sənə əziyyət eyləyə. İnşallah, vədəmiz gecə olsun.

Pəs Eyvəz ayağa (durub) gəldi həman otağa ki, orda məhbus idi. Ta gecədən beş saat geçənə kimin orda qalub, eylə ki gecə nisf oldu, genə Ziba xanım gəlüb Eyvəzi gətürdi öz mənzilinə. Bir qədər şərab verüb Eyvəzə. Eyvəz şərabı içüb başı badeyi-eşqdən sərgərm oldu. Başın yuxarı götürüb Ziba xanıma baxanda gördü Ziba xanım özünə bir ziynət eyləyüb ki, hər kəs onu görə, biixtiyar olub, huş başından gedəcək. Eyvəz dedi:

– Xanım, bu gecə səni eşqlü adama bənzədirəm.

Ziba xanım xəcalət çəküb başın saldı aşağa. Eyvəz hərçi səy elədi ki, bəlkə Ziba xanım başın yuxarı götürsün, mümkün olmadı. Eyvəz çün əhvalı belə gördü, əl uzadıb sazın götürüb basdı sinəsinə, yüzin dutub Ziba xanıma, dedi:

Sənə deyüm Ziba xanım,
Can canana yetsün gərək.
Sənə qurban şirin canım,
Can canana yetsün gərək.

Cəbinündə əsər telün,
Qucmalıdur incə belün,
Əmməlidür şirin dilün,
Can canana yetsün gərək.

Əcəb sənə bağça-bağam,
Camaluva çox müştağam,
Koroğludur mənim ağam,
Can canana yetsün gərək.

Eyvəz deyər, sənə yaram,
Qürbət yerdə yoxdur çaram,
Can cəsəddə dutmaz aram,
Can canana yetsün gərək.

Çün Eyvəz sözin təmam eylədi, Ziba xanım daxi aram dutmayub, yerindən durub qolların saldı Eyvəzün boynuna. Bir neçə busə yüzündən aldı. Pəs hər ikisi qol bir-birinün boynuna salub söhbətə məşğul oldılar. Əsnayi-söhbətdə Eyvəz dedi:

– Xanım, istərsən ki yaxşı ola, gərək burdan gedək Çamlıbelə.

Ziba xanım dedi:

– Eyvəz, yaxşı deyirsən, mənim meylim həm budur. Əmma qorxaram ki, Davud Paşa xəbərdar ola və bizləri dutub həlak eyliyə.

Eyvəz dedi:

– Xanım, sən qorxma. O qədər olsun ki, biz Qarsun qələsindən kənara çıxaq, daxi Davud Paşa bizə əl tapa bülməz.

Pəs bina qoydular ki, sabah gecə Qarsdan çıxub Çamlıbelə getsünlər. Eyvəz dedi:

– Xanım, gərək bizim iki atımız olsun.

Ziba xanım dedi:

– İnşallah, at tədarüki mən görrəm.

Pəs sübhə kimin genə eyşü-nuşa məşğul oldılar. Eylə ki sübh vaxtı oldu, Eyvəz genə öz mənzilinə getdi. Əmma çün gündüz oldu, Ziba xanım Davud Paşanun mehtərin çağırub dedi:

– Mən sabah sübhün tüluində bağ seyrinə gedəcəyəm. İki danə yaxşı at zin eyləyüb hazır eylə.

Mehtər ərz eylədi:

– Xanım, inşallah, nisfi-şəb olanda atları hazır eylərəm.

Pəs Ziba xanım bir neçə əşrəfi mehtərə ənam verdi. Mehtər çün pulları gördü, gözləri işıqlanub bir qədər dua və səna eylədi. Bəd əz an ərz eylədi:

– Xanım, mən atları hazır elərəm. Hər vaxt sənün adamun gəlsə, ona təslim eylərəm.

Çün Ziba xanım atlardan xatircəm oldu, bir qədər qızıl və gümüş və zərrinə libas və cəvahirat tədarük eyləyüb qoydu xurcuna, müntəzir əyləşdi, ta axşam oldu. Çün gecədən bir qədər keçdi, Ziba xanım ayağa durub gəldi Davud Paşanun mənzilinə. Gördü Paşa yatub, xatircəm oldu. Ordan gəldi Eyvəzün mənzilinə. Eyvəzi çıxarub gətürdi sərtövləyə mehtərün

yanına. Dedi:

– Mehtər, atları zin eyləyüb tapşur mənim bu nökərimə.

Pəs bir neçə əşrəfi genə mehtərə verdi. Mehtər ərz eylədi:

– Xanım, hənuz gecə nisf olmuyub, imdidən harıya gedərsən?

Dedi:

– Mehtər, çün gündüzlər isti olur, o cəhətə istərəm gecə gedəm bağa.

Pəs Mehtər iki danə yaxşı ərəbi at zin eyləyüb verdi Eyvəzə. Eyvəz atları gətürüb hərəmxananın dalı qapusinə. Ziba xanım həman xurcunu ki gündüz tədarük eyləmişdi, gətürüb at üstündə bərkidüb, atları minüb yola düşdilər. O gecə və o gündüz ta qürubə kimin təcili-təmamilən at sürdilər. Eylə ki gecə oldı, bir çəməndə atlarından aşağa gəlüb, bir qədər istirahət eyləyüb genə atlanub yola düşdilər.

Qoy bunları getməkdə olsun, əmma nəql eşit Davud Paşadan. Eylə ki sübh oldı, Davud Paşa hökm eylədi ki, atları zin edün, gedək şikara. Mehtər ərz eylədi:

– Paşam sağ olsun, sənün minük atlarun Ziba xanım minüb gedüb bağ seyrinə.

Paşa dedi:

– Mehtər, nə vaxt gedüb?

Mehtər ərz eylədi:

– Qurbanun olum, gecə nisf olmamışdı.

Pəs Davud Paşa qəzəbnak olub adam göndərdi bağa ki, atları gətürsün. Neçə nəfər fərraşlardan gedüb qayıtdılar. Ərz eylədilər:

– Paşam sağ olsun, bağda nə at var və nə adam.

Pəs Paşa hökm eylədi ki, mehtərün boynun urdılar. Pəs neçə nəfər adam şəhərün çahar ətrafına müvəkkil eylədi ki, bəlkə atlardan bir soraq bulsunlar, mümkün olmadı. Paşa heyran qalub gəldi Eyvəz məhbus olan otağa. Gördü Eyvəz yoxdur. Yəqin eylədi ki, Eyvəz və öz qızı Ziba xanım atları aparublar. Qəzəbindən rəngi saralub hökm eylədi ki, həman saat igirmi beş min ləşkər atlanub yola düşdi.

Pəs Davud Paşa gecə və gündüz at qovub Qazlı gölün həvalisində Eyvəzə yetişdilər. Ziba xanım gördü ki, atası Davud

Paşa və qoşun yetişdi, yüzün dutub Eyvəzə dedi:

– Cavan, mən sənə demədüm ki, bizim getməyimiz səlah dəgül, əgər Davud Paşa xəbərdar olsa, bizləri dutar və həlak eylər.

Eyvəz dedi:

– Xanım, sən niyə qorxursan? Əgər Davud Paşa məni dutsa, həlak eylər.

Pəs Eyvəz Ziba xanımı qoydu bir təllün üstündə. Əmma özi qayıdub kəsdi Davud Paşanun ləşkərinün qabağın. Davud Paşa Eyvəzi görəndə dedi:

– Vay anasın satdığım naməkbəhəram, bu nə biədəbluğdur ki, mənim qızımı götürüb aparursan?

Pəs hökm eylədi ki, qoşun ətrafdan Eyvəzi üzük qaşı kimin aldılar araya. Pəs Eyvəz bak eyləməyüb qılıcın çəkdi, özün urdu dərya kimin qoşuna, neçə nəfər onlardan həlak eylədi. Davud Paşa çün bu cürət və cəsarəti Eyvəzdən gördü, yüzin dutub qoşuna, dedi:

– Cəmaət, bu anasın satdığım xırsızı zində dutun, gətirün. Gərək bunu bir zillətilən öldürüm ki, təmam xəlqi-aləm ibrət eyləsün.

Pəs qoşun bir-birinə qarışub neçə yerdən Eyvəzə yara urub onı dutdular. Qolların möhkəm bağlıyub gətürdilər Davud Paşanun hüzurinə. Pəs Paşa hökm eylədi ki, qoşun Qazlı gölün çəmənində düşüb xeymələrin qurdular. Bəd əz an Paşa hökm eylədi, bir dar ağacı nəsb eylədilər. Dedi:

– Cəmaət, çəkün bunı dara.

Vəzir ərz eylədi:

– Qurbanun olum, hala tazə yoldan gəlmişuq, səbr eylə, ver, sabah bunı dara çəksünlər.

Paşa hökm eylədi, Eyvəzi məhbus eyləyüb saxladılar.

Qoy bunlar burda qalsun, nəql eşit Cəlali Koroğludan. Çün iyidləri götürüb Çamlıbeldən kənara çıxdı, gecə və günaKNRkzMhYp1yV

O şəxs dedi:

– Cavan, mənim evim bu gördüyün kənddə olur, gəlmişəm ziraət suvaram.

Koroğlu xəbər aldı:

– Canım, sizin bu məmləkətüzdə nə xəbər var?

O şəxs dedi:

– Cavan, bir xəbər yoxdu, məgərinki deyillər Davud Paşa Cəlali Koroğlunun xırsızlarından birin dutub ki, onun adına Eyvəz balı deyəllər.

Koroğlu dedi:

– Canım, bu çoxdankı sözdür, tazə xəbərün nə var?

O şəxs dedi:

– Cavan, yaxşı deyirsən. Əmma Eyvəz Davud Paşanun qızı Ziba xanımı götürüb qaçardı, Paşa xəbərdar olub, qoşun götürüb, həmin bu Qazlı gölün çəmənində dutub. Sabah onu dara çəkdürəcək.

Koroğlu elə bu cavabı eşidəndə bir qədər pul ona verdi, dedi:

– Canım, hərgah mən səni Davud Paşa yanına göndərəm, gedərsən?

Ərz eyəldi:

– Qurbanun olum, niyə getmərəm?

Koroğlu dedi:

– Canım, get Davud Paşanun yanına, Cəlali Koroğlunun Eyvəzün dalınca gəlməsin xəbər ver.

O şəxs dedi:

– Cavan, Cəlali Koroğlu hardadur?

Koroğlu dedi:

– Mən özüməm.

Çün o şəxs bunu eşidəndə düşdü onun ayaqlarına. Pəs mürəxxəs olub özin yetürdi Davud Paşanun yanına, dedi:

– Paşam sağ olsun, nə oturmusan ki, Cəlali Koroğlu təmam dəlilərün götürüb bu təllün dalında düşüb. Məni sənin yanuva göndərdi ki, xəbərdar eyləyim.

Davud Paşa çün bunı eşitdi, qoşunun böyüklərin çağırub məsləhət eylədi. Onlar ərz eylədilər:

– Paşam sağ olsun, məsləhət odur ki, burdan köçək və

özümüzü Qars şəhərinə salaq.

Pəs Davud Paşa hökm eylədi ki, Eyvəzi yaralı-yaralı qolların bağlıyub qoydular bir at üstə. Ordan köçüb sürətilən yola düşdülər.

O şəxs qayıdub gəldi Cəlali Koroğlunun yanına. Əhvalatı ərz eylədi. Pəs Koroğlu hökm eylədi ki, dəlilər təmam atlarına süvar olub yola düşdülər. Koroğlu dedi:

– Cəmaət, mən qabaqca gedüm ki, onlarun qabağın kəsüb saxlaram. Ta siz daldan özünüzü yetirün.

Bunı deyüb Qırata bir məhmizi-tiz göstərüb iki saat getməmiş özin yetürdi Davud Paşanun qoşununa. Çün Davud Paşa Cəlali Koroğlunu görəndə belə xəyal eylədi ki, yalquzdur. Yüzün dutub qoşuna, dedi:

– Cəmaət, Cəlali Koroğlu yaxşı yerdə şikara gəlüb. Dört tərəfdən onu alun araya. Əmma bu şərtilən ki, bunı həm zində dutun ki, Eyvəzilən bir dara çəkək.

Pəs qoşun çahar ətrafdan Cəlali Koroğlunu əhatə eylədilər. Koroğlu Qırata bir məhmiz çəküb keçdi Davud Paşanun qabağına, dedi:

– Paşa, mənim qaidəm budur ki, dava günündə bir türki oxuram, bəd əz an dava eylərəm.

Pəs bu əşarı oxudu.

Davud Paşa, gəl yüzimə qabarma,
Urumu yerindən götürrəm bu gün.
Ala gözlü Xan Eyvəzi aparma,
Urumu yerindən götürrəm bu gün.

Paşa, mənimilən eyləmə cəngi,
Çəkərəm üstüvə topu, tüfəngi,
Görmüyübsən mənim kimi nəhəngi,
Urumu yerindən götürrəm bu gün.

Çəkərəm qılıcı, qurram dövüşi,
Gətirrəm üstüvə bu gün yerişi,
Davud Paşa, heç eyləmə təşvişi,
Urumu yerindən götürrəm bu gün.

Dəli Koroğlunun deyilür adı,
Ucalduram qoşunundan fəryadı,
Tamaşaya çıxarduram Fərhadı,
Urumu yerindən götürrəm bu gün.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Davud Paşa dedi:

– Ey Cəlali Koroğlu, sənin nə həddün var ki, yalquz və təkü-tənha igirmi beş min qoşuna hərif olasan? İnşallah, əgər həyatım olsa, səni də Eyvəz balı kimin dutub qollarun bağlaram, aparram Qars şəhərində dara çəkərəm, ta təmam Rum əhli sənün əlündən rahət olsunlar.

Cəlali Koroğlu elə bunı eşidəndə qəzəbnak olub, qılıcın çəküb özin urdu dərya kimin qoşuna. Hər tərəfə ki, yüz çövürürdü, Qars ləşkəri onun qabağında davam gətürməyib qaçardılar. Davud Paşa gördü ki, qoşun qorxudan heç kimsənə bunun qabağında durmaz, bang urub dedi:

– Cəmaət, bir nəfər adamdan nə bu qədər qorxarsuz? Bunun əlindən nə gələcək? Çar ətrafdan bunu alın araya, bəlkə bunu diri dutasuz.

Pəs igirmi beş min ləşkər təmam təbli-cəng çala-çala birdən töküldilər Cəlali Koroğlunun üstünə. Əmma Koroğlu onlardan heç bak etməyüb qoşunu sağdan sola tumar kimin bükərdi. Bu əsnada Cəlali Koroğlu gördü, iyidlərin dəstəsi açıldı. Elə bunu görəndə şövqündən Qırata bir məhmiz çəküb, o heyvan ceyran kimin sıçrayub qoşunun içindən kənara çıxdı. Çün iyidlər yetişdi, Cəlali Koroğlu yüzin dutub iyidlərə dedi:

Qoç iyidlər, nə durmusuz arada,
Qılıc açar bu meydanun arasın.
Əcəb yerdə yetişmisüz murada,
Qılıc açar bu meydanun arasın.

Car tərəfdən gəlün salun savaşı,
Tökün Çamlıbelə alü-qumaşı,
Düzülsün nizəyə Osmanlı başı,
Qılıc açar bu meydanun arasın.

Qırun bu ləşkəri, qoymuyun gedə,
Durmaz bu meydanda hər namərd gədə,
Günbatanı verdim sizlərə vədə,
Qılıc açar bu meydanun arasın.

Koroğlu der, əl şəmşirə ataram,
Dost yolunda şirin canı sataram,
At döşünə bu ləşkəri qataram,
Qılıc açar bu meydanun arasın.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, iyidlər birdən nərə çəküb özlərin urdular qoşuna. Hər tərəfdən küştələrdən püştələr tərtib verdilər. Qan su yerinə Qazlı göldə cari oldu. Osmalının cəmdəginün çoxluğundan atlar daxi rəftar eyləyə bilmədi.

Davud Paşa çün əhvalı belə gördü, daxi tab gətirə bülməyüb yüz çövirdi qaçmağa. Qoşun cəmaəti çün gördülər Paşa yüz qaçağa qoyub, təmam atlarınun başın dolandırub yüz həzimətə qoydular.

Cəlali Koroğlu Bəlli Əhmədə dedi:

– Sən Eyvəzdən mütəvəcceh ol, ta mən bu ləşkərin dalınca gedüm.

Pəs Koroğlu və iyidlər iki ağac yol o qoşunu qovdılar. Əmma Davud Paşa özü bir qədər cəmiyyətnən əl(dən) çıxdı və qalan ləşkəri təmam iyidlər qılıca çəkdilər. Pəs ordan qayıdub ölənlərün at və əsbabın yığa-yığa gəldilər ləşkərgaha. Pəs həman çəməndə atlardan düşüb o mali-dövləti cəm eylədilər.

Pəs Cəlali Koroğlu Eyvəzi və Ziba xanımı istəyüb. Çün gətürdilər, Koroğlu gördü Eyvəzün neçə yerdən yarası var. İki gün orda qalub onun yaralarına məlhəm qoydu. Bəd əz an o malü-dövləti və Ziba xanımı götürüb yüz qoydular Çamlıbelə gəlməyə. Mənzilbəmənzil gəlib, tainki yetişdilər həman çəmənə ki, Davud Paşa Eyvəzi ordan dutub aparmışdı, orda mənzil eylədilər. Koroğlu gördü o dağların gülləri açılub, əcəb fəslidür. Yüzin dutub Çamlıbelin bağlarına, dedi:

Gəldi bahar, nə yatmusan,
Dur, qəflətdən oyan, dağlar.

Düzülübdür al bəzəgün,
Dur, qəflətdən oyan, dağlar.

Külək səndə boran yelli,
Qərə çadır, ağır elli,
Çay-çəməni qızılgüllü,
Dur, qəflətdən oyan, dağlar.

Batmıyasan qüssə qəmə,
Nə verürsən müjdə mənə,
Eyvəz qədəm basdı sənə,
Dur, qəflətdən oyan, dağlar.

Koroğluyam, şikar məndə,
Açılubdur lalə səndə,
Eyvəz gəzər bu çəməndə,
Dur, qəflətdən oyan, dağlar.

Çün sözin təmam eylədi, istədilər köçsünlər. Eyvəz ərz eylədi:

– Qurbanın olum, mən çox narahatam, bu gecə burda qalun.

Pəs Cəlali Koroğlu o gecə o çəməndə mənzil eyləyüb, eylə ki sübh oldu, ordan köç eyləyüb, fəthü-nüsrətilən Çamlıbelə daxil oldu.

Pəs iki ay təmam Eyvəzün yaralarına məlhəm salub ta yaxşı oldu. Bəd əz an Cəlali Koroğlu bir məclis bina eyləyüb Eyvəzün toy tədarükün görüb yeddi gün və yeddi gecə ona toy eylədi. Eylə ki toy təmam oldu, yeddi min yeddi yüz yetmiş yeddi dəliyə təmam xələti-faxir verüb və nəvaziş eylədi. Bəd əz an mürəxxəs eyləyüb ki, hər kəs öz mənzilində istitrahətə məşğul oldular.

Əmma məşşatələr Ziba xanıma zinət verüb gətürdilər Eyvəzün otağına. Onları əl-ələ verüb, ta bir-birindən kami-dil hasil eylədilər.

KOROĞLUNUN ON ÜÇÜNCÜ MƏCLİSİ

Cəlali Koroğlunun Xumar xanımı gətirmək üçün Misirə getməsi. Hüseyn Paşa ilə dava etməsi və onu məğlub edərək Xumar xanımı Çamlıbelə gətirməsi

Raviyani-əxbar və naqilani-asar belə rəvayət eyləyüb ki, çün Cəlali Koroğlu Çardaqlınun Çamlıbelə istiqlal tapdı, həmişə Rum paşalarıynan dava edüb, onlarun vilayətlərin xarab eyləyüb və gözəl və sahibcamal qızların götürüb bəzisin özinə və bəzisin iyidlərinə alurdı.

Pəs bu ədavət və düşmanlığ onlarun arasında həmişə var idi. Ta inki Koroğlu neçə nəfər qasid ticarət səyağilən Rum vilayətlərinə göndərüb, hər qəribə şey ki, o vilayətlərdə olsaydı, Cəlali Koroğluya xəbər gətirirdilər. O cümlədən, bir qasidi var idi ki, çox zirək və sahibi-fəhm, adına Xacə Nəzər deyərdilər. Bir gün həman Xacəni göndərdi Rum vilayətlərinə ki, o vilayətləri seyr edüb bəlkə bir qəribə şey nəzərə gətürə.

Xacə Nəzər nəql eylir ki, mən Çamlıbeldən çıxub yüz Rum vilayətinə qoydum. Şəhərbəşəhər, qəryəbəqəryə gəzirdüm. Tainki, mənim güzarım düşdü Misir şəhərinə. Gördüm, yaxşı mübahlığ və firavanlıq şəhərdür. Bir müddəti-mütəmadi o şəhərdə qaldum ki, bəlkə o şəhərdə bir qəribə şey tapam və həmişə küçə və bazarı və məhəllatı seyr eylərdüm. Tainki bir gün güzarım düşdü bir ali imarətün yanına. Xəbər aldum:

– Cəmaət, bu ali imarət kimindür?

Dedilər:

– Bu şəhərin paşası Hüseyn Paşanun imarətidür.

O imarətün çar ətrafın dolandum, gördüm qəribə imarətdür ki, heç padşaha müyəssər degil.

Pəs hər gün qürbət təsir eyləyəndə gəlürdi o imarətün ətrafın dolanub tamaşa eylərdi və genə öz mənzilinə gedərdi. Bir gün genə gəldi, həman imarətün divarınun dibində əgləşdi. Bir qədər oturmuşdu, gördü imarətün içində qəribə dəf və dairə səsi gəlür və xanəndələr belə oxullar ki, huş adamun başından çıxub bihuş olur. Xacə bir qədər qulaq verdi. Ta zöhr

oldu, ayağa durub istədi öz mənzilinə getsün. Gördü, imarətün qürfəsində bir nazənin-sənəm əgləşüb ki, onun camalınun şüaindən göz xirə olur.

Xacə qorxudan başın salub aşağa, bina eylədi getməgə. Gördü qürfədən səs gəldi ki, əcəm oğlu, hara əhlisən? Xacə başın yuxarı götürüb dedi:

– Xanım, İran əhliyəm.

Dedi:

– Bu şəhərə niyə gəlmüsən?

Xacə dedi:

– Xanım, cəvahirfüruşəm, bir qədər cəvahir gətürmişəm.

Dedi:

– Mənzilün haradur?

Xacə dedi:

– Xanım, mənzilim karvansaradur.

Dedi:

– İnşallah, sabah adam göndərrəm bir qədər yaxşı cəvahir gətür mənim yanıma ki, sövda eyləyək.

Xacə ərz eylədi:

– Hər vaxt adamun gəlsə, müzayiqə dəgül.

Pəs Xacə gəlüb mənzilinə, o gecə qalub, eylə ki sübh oldu, gördü bir nəfər xacəsəray hücrələr qabağında durub deyər:

– Cəmaət, əcəm taciri cəvahirfüruşun hücrəsi hansıdur?

Xacə Nəzər səda eylədi:

– Canım, bura gəl!

Eylə ki xacəsəray yetişdi, dedi:

– Əcəm oğlu, Hüseyn Paşanun qızı Xumar xanım bir qədər cəvahir istəyüb. Dur ayağa, cəvahirləri aparaq.

Pəs Xacə büldi ki, o qız Paşanun qızıdur, bir qədər yaxşı abdar cəvahir götürüb xacəsərayilən yola düşdi. Çün yetişdilər imarətün qapısına, xacəsəray dedi:

– Əcəm oğlu, sən dur burda, ta mən xanıma xəbər eyləyim.

Pəs xacəsəray daxil oldu imarətə, ərz eylədi:

– Cəvahirfüruşi gətürdüm.

Xanım dedi:

– Gətür içəri.

Xacəsəray gəlüb Xacə Nəzəri apardı içəri. Xumar xanım dedi:

– Xacə, yaxşı cəvahirət gətürdün?

Xacə ərz (eylədi):

– Bəli, xanım, yaxşı cəvahiratım var, əgər sən də yaxşı qiymət verəsən.

Pəs bir neçə danə almas və yaqut və zəbərcəd və sayir cəvahirat qoydu Xumar xanımun bərabərinə. Xumar xanım gördü, qəribə cəvahiratdur, əmma onlarun içində bir ləl var ki, gün kimi lölö eylər. Dedi:

– Xacə, bu ləlün qiyməti neçədür?

Xacə dedi:

– Xanım, o ləlün qiyməti beş yüz tumandur.

Xanım dedi:

– Xacə, divanə olma, qiymətin sölə, əgər satacaqsan.

Xacə dedi:

– Xanım, mən ərz eylədim ki, əgər sən yaxşı qiymət versən, mən də sənə yaxşı cəvahirat verrəm.

Xumar xanım dedi:

– Xacə, iki yüz tuman buna algilən.

Xacə bir güldü, dedi:

– Xanım, Cəlali Koroğlu neçə dəfə bu cəvahirə dört yüz tuman nəqd verüb, mən verməmişəm. Əmma sən iki yüz tuman verürsən.

Xumar xanım eylə ki Cəlali Koroğlunun adın eşitdi, çün Koroğlunun şöhrəti hər yerdə var idi, hətta bu Xumar xanım həmişə arzu eylərdi ki, Cəlali Koroğluya getsün, əmma mümkün olmazdı. Çün Xacədən Cəlali Koroğlunun adın eşitdi, dedi:

– Xacə, sən Cəlali Koroğlunu harda görmüsən?

Xacə dedi:

– Xanım, Çamlıbeldə görmüşəm. Bəlkə həmişə mən orda ollam.

Xanım dedi:

– Xacə, bu qədər ki Cəlali Koroğlunun şöhrəti aləmi dutub, məgər o necə adamdur ki, hər kəs onun adın eşidəndə qorxar?

Xacə dedi:

– Xanım, yaxşı rəşid adamdur, o cəhətə təmam xalq ondan hesab aparub qorxallar.

Xanım dedi:

– Xacə, gərək onun təmam övsafın mənə nəql eyləyəsən.

Xacə dedi:

– Xanım, bizlər türk əhliyuq, çox vaxt danışanda türki söyləruğ. Qulaq ver, bir neçə bənd türki Cəlali Koroğlunun vəsfindən deyüm.

Şamü-Hələb, İslambulu gəzmişəm,
Görməmişəm Koroğlu tək Cəlali.
Qədəm basub xaki-payə gəlmişəm,
Görməmişəm Koroğlu tək Cəlali.

Hər ölkədə şöhrəti var, adı var,
Özü iyid, Qırat kimin atı var,
Mürvəti var, səxası var, zatı var,
Görməmişəm Koroğlu tək Cəlali.

İyidləri təmamisi bəllidür,
Məsaf günü bir-birindən əllidür,
Xəbər alsan, deyim Çamlıbellidür,
Görməmişəm Koroğlu tək Cəlali.

Heç iyidi öymək olmaz üstünə,
Götürəndə misri qılıc dəstinə,
Xacə qurban onun zərbü-şəstinə,
Görməmişəm Koroğlu tək Cəlali.

Çün Xacə Nəzər sözin təmam eylədi, Xumar xanımun çox xoşuna gəlüb iki yüz tuman nəqd və bir yaxşı xələt xacəyə ənam verdi, dedi:

– Xacə, yaxşı tərif eylədin. İnşallah, mənim müşkülüm sənün əlin ilən həll olur.

Pəs bir neçə danə cəvahirat Xacədən bir məbləği-xətirə aldı. Dedi:

– Xacə, inşallah, sabah gecə adam göndərrəm. Mənə qonaqsan.

Pəs Xacə mürəxxəs oldu, gəldi öz mənzilinə, şadü-xəndan əyləşdi. Ta o gecə keçib sabah oldu, bir qədər bazar və dükkanın seyr eyləyüb intizar çəkərdi, ta axşam olsun ki, bəlkə Xumar xanımun mənzilinə gedüb onun mətləbindən xəbərdar ola. Eylə ki axşam oldu, gördü həman xacəsəray gəldi, dedi:

– Əcəm oğlu, Xumar xanım səni istər.

Pəs Xacə Nəzər ayağa durub özün yetürdi Xumar xanımun mənzilinə. Gördü, bu gecəki əsas bir özgə əsasdur. Bir yanda şamlar və fanuslar qoyulub və bir tərəfdə əsbabi-eyşüişrət qurulub və bir yanda tüng-piyalələr düzülüb və özü məsti-tavus kimin səlam eyləyüb durdu. Xumar xanım Xacəyə xoş-səfa eyləyüb yer göstərdi, Xacə əyləşdi.

Pəs qəhvə və qəlyan gəlüb sərf olundu. Bəd əz an təam gəlüb ənvai-əqsami-nemətlər məclisə düzülüb sərf olundu. Eylə ki təam götürüldü, Xumar xanım saqilərə hökm eyləyüb, şərab piyaləsin xacəyə təarüf eylədilər. Ondan sora müğənnilər oxuyub və rəqqaslar rəqs eylədilər.

Çün nisfi-şəb oldu, Xumar xanım təmam saqiləri və müğənniləri və kənizləri mürəxxəs eylədi. Çün məclis xəlvət oldu, Xumar xanım yüzin dutub Xacə Nəzərə dedi:

– Xacə, mən Cəlali Koroğlunun iyidligün və rəşadətin eşidüb ona aşiq olmuşam. Hərgah səndən bir namə yazam göndərəm, onu aparursan?

Xacə ərz eylədi:

– Xanım, mən özüm Cəlali Koroğlunun qasidiyəm ki, bu vilayətləri dolanuram ki, hər yerdə bir qəribə şey görsəm, onu Cəlali Koroğluya xəbər aparram.

Çün Xumar xanım bu sözü Xacədən eşitdi, çox şad oldu. Pəs bir namə Cəlali Koroğluya yazdı bu növilən ki, ey Cəlali Koroğlu, bəsa ki, sənün şücaətivün şöhrəti təmam Rum məmləkətin basub, mən sənə aşiq olmuşam. Əgər mərdanəsən, gərək Çamlıbeldən gəlüb məni aparasan.

Çün namə təmam oldu, onu möhr eyləyüb verdi Xacə Nəzərə. Pəs bir qədər pul və bir yaxşı xələt Xacəyə verdi, dedi:

– Xacə, əgər, inşallah, mənim mətləbim hasil ola, səni dünya malından qəni eylərəm.

Pəs Xacə o gecə qaldı orda. Eylə ki sübh oldu, naməni götürüb düşdü yola. Gecə və gündüz təcili-təmamilən gəlüb özün yetürdi Çardaqlınun Çamlıbelə. Pəs atdan aşağa gəlüb özün yetürdi Cəlali Koroğlunun bərabərinə. Gördü təmam iyidlər Koroğlunun yanında əyləşüb eyşü-işrətə məşğul olub şərab içəllər. Salam verüb durdu. Cəlali Koroğlu başın götürüb baxanda gördü Xacə Nəzər durub bərabərində. Dedi:

– Xacə, bu müddəti-mütəmadi harda idün?

Ərz eylədi:

– Qurbanun olum, səyahətə getmişdüm.

Koroğlu dedi:

– Xacə, hansı şəhərə getmişdün?

Xacə ərz eylədi:

– Misir şəhərinə getmişdüm.

Koroğlu dedi:

– Xacə, Misir vilayətindən mənə töhfə nəmənə gətürmüsən?

Xacə əl uzadıb qoynundan Xumar xanımın naməsin ədəb əllərinin üstündə qoydu Cəlali Koroğlunun bərabərinə. Koroğlu naməni açub baxdı, gördü namədə yazılıb, ey Cəlali Koroğlu, sənün şöhrətün və iyidligün təmam Rum vilayətlərin dutub. Əgər vaqeən bu iyidlik və bu rəşadət doğrudur, gərək zəhmət çəküb gələsən və Misir şəhərindən məni aparasan.

Cəlali Koroğlu çün namənün məzmunundan müttəle oldu, dedi:

– Xacə, bu naməni kim yazub?

Xacə ərz eylədi:

– Qurbanun olum, bu naməni Xumar xanım, Hüseyn Paşanun qızı yazıb.

Koroğlu dedi:

– Xacə, sən özün Xumar xanımı gördün?

Ərz eylədi:

– Qurbanun olum, gördüm, əmma bir nazənin-sənəmdür ki, təmam İran–Turanda onun misli və manəndi yoxdur və əgər onun tərifin bir il müttəsil zikr eyləyəm, genə təmam olmaz. Bu qədər bül ki, o nazəninün heç yerində eybi, nəqsi yoxdur.

Cəlali Koroğlu çün bu sözləri Xacə Nəzərdən eşitdi, gör-

məz-bülməz Xumar xanıma aşiqi-biqərar oldu. Həman saat hökm eylədi ki, Qıratun əyərin qoyub rikabə çəksünlər. Dəlilər elə bu əhvalı görəndə ərz eylədilər:

– Qurbanun olum, aram dut, niyə təcil eylərsən və əbəs yerə niyə zəhmət çəkərsən? Bir nəfər qızdan ötrü bu qədər yol gedərsən?

Cəlali Koroğlu çün bu sözü iyidlərdən eşitdi, yüzin dutub onlara dedi:

Dəlilərim, eşidəsüz, biləsüz,
Yar yolunda zəhmət çəkmək gərəkdür.
Mənim kimi şad oluban güləsün,
Yar yolunda zəhmət çəkmək gərəkdür.

Alma gözlü Qıratımı gətirün,
Səvar edün, mətləbimə yetirün,
Neçə mənzil Çamlıbeldən ötürün,
Yar yolunda zəhmət çəkmək gərəkdür.

Halal olsun sizə nanü-nəməgim,
İtirmiyün həqqü-səyü əməgim,
İltimas eyləyüb budur deməgim,
Yar yolunda zəhmət çəkmək gərəkdür.

Koroğluyam, qarlı dağlar aşaram,
Qəynəyibən ümman kimin coşaram,
Neçə-neçə tilisimlər açaram,
Yar yolunda zəhmət çəkmək gərəkdür.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, iyidlər ərz eylədilər:

– Qurbanın olum, sən özün bir qızdan ötrü Misirə getməyin məsləhət dəgül ki, əlhəmdüllah, sənün yeddi min yeddi yüz yetmiş yeddi nökərün var, onlardan bir neçə nəfər göndər ki, Xumar xanımı gətürsünlər.

Cəlali Koroğlu dedi:

– Bu iş heç kimün işi dəgül, məgərinki, gərək mən özüm gedəm.

İyidlər hərçi səy eylədilər ki, bəlkə Cəlali Koroğlu bu səfə-

ri tərk eyləyə, mümkün olmadı. Ərz eylədilər:

– Qurbanın olum, indi ki, bizim ərzimizi qəbul eyləmədün, pəs neçə nəfər bizlərdən yanunca götür, apar.

Koroğlu dedi:

– Cəmaət, bu insaf dəgül ki, mən öz nəfsimdən ötrü sizləri zəhmətə salam. Sizlər oturun Çamlıbeldə, ləzzət aparmağa məşğul olun. Ta mən özüm yalquz gedüm.

İyidlər ərz eylədilər ki, qurbanın olum, bu mahaldur ki, bizlər sənsiz güzəran eyləyək. Gərək neçə nəfər bizlərdən yanunca aparasan. Çün Koroğlu gördü ki, iyidlər bunu yalquz qoymazlar gedə, labüddən bir neçə iyidlərdən ixtiyar eylədi. Bir Bəlli Əhmədi və bir Dəmirçioğlun ixtiyar eyləyüb yanınca götürdü. Əmma yüzün dutub onlara bir neçə bənd türkü oxudu:

Xacə Nəzər gətdi mənə naməni,
Qoç Koroğlu gedər oldu Misirə.
Ayrı saldı eldən-ulusdan məni,
Qoç Koroğlu gedər oldu Misirə.

Gətürün Eyvəzi, darayın telin,
Car eyləyün gəlsün Təkəlu elin,
Ərəbi atların bərkidün belin,
Qoç Koroğlu gedər oldu Misirə.

Mərd iyilər dövüş günü əl açar,
Namərd olan durmaz, qabaqdan qaçar,
Çamlıbeldən köyül quş kimin uçar,
Qoç Koroğlu gedər oldu Misirə.

Göydə oynar gecə-gündüz sitarə,
Biz də çıxduq Çamlıbeldən şikarə,
Mailəm mən bir alagöz Xumarə,
Qoç Koroğlu gedər oldu Misirə.

Çün Koroğlu sözin axıra yetürdi, hökm eylədi Dəli Mehtər Qıratun zin-nəmədin qoyub üstünə, yeddi yerdən onun təngin möhkəm çəkdi rikabə. Əmma Cəlali Koroğlu özü başdan ayağa kimin qərqü-ahənü-fulad olub qılıcın bağladı belinə. Cidasın götürüb ayaq qoyub həlqeyi-rikabə, mürği-zər-

rinbal kimin xaneyi-zində qərar dutdu.

Pəs iyidlər təmam atlanub izzəti-təmamilən Cəlali Koroğlunun rikabında bir mənzil yol getdilər. Koroğlu onları müraxxəs eyləyüb bir özü və bir Bəlli Əhməd və bir Dəmirçioğlu Misir şəhərinə tərəf rəvanə oldular. Mənzilbəmənzil gəlüb, tainki bir gün aftab qürub eyləyəndən sora özlərin yetürdilər Misirün darvazasınun bərabərinə. Pəs bismillah deyüb qaladan daxil oldular. Qərib adam, mənzildən ötrü Misirin küçələrün seyr edüb, dolanurdılar. Tainki yetişdilər bir qapunun bərabərinə, gördülər bir qoca kişi durub qapunun qabağında. Cəlali Koroğlu o qocaya salam verüb dedi:

– Qoca əmu, heç mənzilün var ki, bizləri bu gecə qonaq eyləyəsən?

Qoca başın yuxarı götürüb Cəlali Koroğluya baxanda gördü bir pətyarə durub at üstündə, buğları kəl buynuzu, binagüşində çəküb. Dedi:

– Cavan, hardan gəlürsən?

Koroğlu dedi:

– Qoca əmu, əcəm vilayətindən gəlürəm.

Dedi:

– İşün nədür?

Dedi:

– Qoca əmu, biz üç nəfər əcəm taciriyuğ, bir qədər mətaimiz var ki, onları dalıyca gətürüllər. Əmma biz özümüz qabaqca gəlduğ ki, bəlkə bir yaxşı yer tapaq. Əmma vaxt təng oldu, əlimiz karvansaraya yetişmədi. Bizə bu gecəlik bir mənzil ver, inşallah, səhər olanda, karvansarada özümüzə mənzil tədarük eyləruğ.

Qoca dedi:

– Əcəm oğlu, yalan sölərsən, siz tacir dəgülsüz, sizin gözlərivüzdən zəlzələ və afət tökülür. Yəqin sizün bu şəhərdə bir ayrı mətləbivüz var. Sizlərdən xeyir iyi gəlməz, mən sizə yer vermərəm.

Cəlali Koroğlu bir güldü, dedi:

– Qoca, inşallah, bizdən sənə çox nəf yetişür, bizi bu gecə qonaq eyləyüb mənzil ver.

Qoca dedi:

– Canım, mənim sizün kimin adama yerim yoxdur, özgə yerə mənzil dutun.

Cəlali Koroğlu dedi:

– Sən qorxma, bizlərə yer ver, inşallah, bizdən sənə zərər gəlməz.

Pəs Koroğlu o qədər söz dedi ki, daxi qoca labüd qalub dedi:

– Cavan, mən bir kasıbkar adamam, mənim o qədər qüvvəm yoxdur ki, sizi bu gecə qonaq eyləyəm. Məni bağışlayun.

Cəlali Koroğlu elə bunu eşidəndə bir qədər pul o qocaya verüb dedi:

– Qoca, bunları ver arpa-samana və bir qədər təam al bizə, bu gecə tədarük gör.

Qoca dedi:

– Cavan, mənim övrətim Hüseyn Paşa evində xidmətkardur, hənüz ordan gəlməyüb və mən özüm də sizin kimi yalquz və məəttəl qalmışam.

Koroğlu dedi:

– Qoca, nə eybi var, heç övrətün evdə olmasın. Bizi bu gecə özüvə həmsöhbət eylə.

Pəs qocanın hər tərəfdən çarəsi kəsilüb labüddən onları qonaq eylədi. Pəs Cəlali Koroğlu və iyidlər atlarından aşağa gəlüb daxil oldular qocanun imarətinə. Atları çəkdilər töyləyə və özləri bir qədər rahət olub, tainki qoca onlarun tədarükün gördü. Bəd əz təam qocanın övrəti gəldi. Qoca dedi:

– Övrət, bu gecə çox bivaxt gəldün.

Övrət dedi:

– Bəli, Paşanun qızı Xumar xanımun qonağı var idi, o cəhətə bivaxt gəldim.

Pəs bir qədər oturdular. Cəlali Koroğlu sazın götürüb durdu oxuyub saz çalmağa. Qoca gördü, tacir yanşaq oldu, dedi:

– Cavan, bəs sən deyirdün mən tacirəm.

Koroğlu dedi:

– Əmu, məgər tacir oxumaz?

Pəs o gecə sübhün yavıqlığına kimin əgləşüb söhbət eylə-

dilər. Əmma sübhə yavuq yatub istirahətə məşğul oldular. Bir vaxt yuxudan bidar oldular ki, zöhr olmuşdu. Pəs qocanun övrəti təcili-təmamilən özün yetürdi Paşanun imarətinə. Gördü Paşa və onun övrəti və Xumar xanım əgləşüb söhbət eyləllər. Xumar xanım dedi:

– Dayə, niyə bu gün bivaxt gəldün?

Ərz eylədi:

– Xanım, neçə nəfər əcəm yanşağı bizə qonaq gəlüb. Onlar bu gecə bizdə söhbət eylərdilər. O cəhətə bivaxt gəldim.

Hüseyn Paşa çün qocanın övrətindən bu sözü eşitdi, dedi:

– Dayə, qonaqların yaxşı oxurdular?

Ərz eylədi:

– Paşam sağ olsun, qəribə söhbət eylərdilər ki, huş adamın başından çıxardı.

Paşa dedi:

– İnşallah, onları bu gecə gətürrəm ki, bir qədri bizlərə söhbət eyləsün.

Çün axşam oldu, Hüseyn Paşa bir məclisi-ali bina eyləyüb ki, təmam vüzəra və qoşunun sərkərdələri ora cəm olub və Hüseyn Paşanun hərəmləri və Xumar xanım həm qürfələrdə əgləşdilər. Pəs Paşa bir nəfər fərraş göndərüb Cəlali Koroğlunu hüzura istədi. Pəs Koroğlu iyidləri götürüb daxil oldu Paşanun məclisinə. Gördü əcəb əmiranə məclisdür ki, təmam şəhərün ümərası cəm olub, səndəlilər üstə əgləşüb və hərəmlər qürfələrdə oturub. Əmma bir qürfədə bir qız əgləşüb, əcəb sahibcamaldur. Kənizlər onun sağu-solunda durublar.

Cəlali Koroğlu çün o qızı gördü, əql başından çıxıb, aşiqibiqərar oldu. Dedi, yəqin bu həman Xumar xanımdur ki, Xacə Nəzər tərif eylərdi. Xülaseyi-kəlam, Cəlali Koroğlu və iyidlər çün məclisinə (qədəm) qoydular, salam eyləyüb ayaq üstə durdular. Paşa onlara nəvaziş eyləyüb yer göstərdi. Pəs qəhvə və qəlyan gəlüb sərf olundu. Bəd əz an təam gətürdilər. Çün təam sərf olub götürüldü, Hüseyn Paşa yüzin dutub Cəlali Koroğluya, dedi:

– Əcəm oğlu, eşitmişəm, sən yaxşı türki sölərsən.

Cəlali Koroğlu dedi:

– Paşam sağ olsun, bəli, türki sölərəm.

Paşa dedi:

– Heç Cəlali Koroğlunun türkülərindən deyə bülürsən?

Ərz eylədi:

– Bəli, yaxşı deyərəm.

Paşa dedi:

– Canım, bu gecə bu məclisi mən səndən ötrü bina eyləmişəm ki, bir qədri bizlərə söhbət eyləyəsən.

Koroğlu ərz eylədi:

– Paşam sağ olsun, əgər istərsən ki, mən yaxşı söhbət eyləyəm, bir qədər ver, şərab gətürsünlər, ta mən tərdimağ olub sənün üçün yaxşı söhbət eyləyüm.

Pəs Paşa hökm eylədi saqilərə ki, bir neçə piyalə şərab peydərpey Cəlali Koroğluya verdilər. Pəs Koroğlu şərabı içüb, məsti-layəqil olub gözləri məşəl kimin durdu yanmağa. Pəs sazın kök eyləyüb, basdı sinəsinə. Yüzin dutub Hüseyn Paşaya tərəf, dedi:

Canım Paşa, gözüm Paşa,
Sənə deyüm doğru sözüm.
Otağunda qıl tamaşa,
Sənə deyüm doğru sözüm.

Mən aşığam, əldə sazım,
Yoxlamadun çoxu azım,
Kimsə yoxdur, çəkə nazım,
Sənə deyüm doğru sözüm.

Aşığun sözləri dürdür,
Kimsənəsi yoxdur, birdür,
Şad eylə sən, məni güldür,
Sənə deyüm doğru sözüm.

Qoç Koroğlu deyər türki,
Çamlıbelin odur körkü,
Qəbaləsiz alur mülkü,
Sənə deyim doğru sözüm.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Hüseyn Paşa çox xoşuna gəlüb hökm eylədi, həman saat Cəlali Koroğluya bir yaxşı xələt verdilər. Əmma Xumar xanım çün Cəlali Koroğlunu gördü əlində saz, məclis içində oxur. Dürüst mülahizə eylədi, gördü əcəb cavandur ki, buğları kəl buynuzu kimin keçib binaguşinə. Həman saat ona aşiq olub, öz-özünə dedi, yəqin bu Cəlali Koroğludur.

Pəs yüzindən bir niqabı kənara çəküb, başın gürfədən eşigə çıxardub Cəlali Koroğluya bir diqqət nəzəriylən baxdı. Gördü, vaqiən qəribə cavandur ki, onun misli və manəndi təmam xəlq içində yoxdur. Yüzin dutub dayəsinə dedi:

– Dayə, sənün bu qonağun, yaxşı rəna qamət və rəşid cavandur. Əmma heyf ki, yanşaqdur.

Cəlali Koroğlu elə bunu eşidəndə dönüb bir qürfəyə baxdı, gördü Xumar xanım yüzi açuq Cəlali Koroğluya baxır, əmma gözləri deyirsən bəs piyalədür. Elə bunu görəndə eşqinün və məhəbbətünün oxu Koroğlunun sinəsindən dəgüb pərran dalısından çıxdı. Biixtiyar olub, genə sazın götürüb basdı sinəsinə. Əmma yüzin dutub qürfə tərəfinə, dedi:

Xumar xanım, sənə bəyan eyləyüm,
Əcəb-əcəb gül açılub dəhanda.
Gizlin sözüm aşkar bəyan eyləyüm,
Sənün kimin gözəl yoxdur cahanda.

Hüseyn Paşa elə Cəlali Koroğludan bunu eşidəndə qəzəbnak olub, dedi:

– Vay anasın satdığım, ölüləri yeyə-yeyə dirilərə dadandun? Əvvəl yaxşı söhbət eylərdün, əmma imdi mənim hüzurumda və təmam sərkərdələr yanında mənim qızımı tərif eyləyüb məni rüsva eylərsən.

Koroğlu dedi:

– Paşam sağ olsun, mən sənün qızun harda görmüşəm və harda tanuram ki, onu tərif eyləyəm? Bu Cəlali Koroğlunun türkilərindəndir ki, oxuram.

Vəzir ərz eylədi:

– Qurbanın olum, yanşaq doğru deyir, sənün qızun harda görüb ki, onu tərif eyləsin? Mürəxxəs eylə ki, sözin təmam ey-

ləsün.

Paşa dedi:

– Mürəxxəs eylədüm, əmma daxi mənim qızımun adın məclis içində zikr eyləmə.

Vəzir dedi:

– Yanşaq, Paşa yaxşı deyir, bundan sora onun qızınun adın məclis arasında zikr eyləmə.

Pəs Cəlali Koroğlu genə sazın götürüb basdı sinəsinə. Əmma gözünün guşəsilən bir baxdı qürfə tərəfinə, gördü Xumar xanım niqabın təmam götürüb, Cəlali Koroğluya tamaşa eylər. Genə atəşi-məhəbbət cuşa gəlüb, yüzin dutub Xumar xanıma tərəf, dedi:

İşvəli, qəmzəli, fitnə-fellisən,
Tuba qamət, əcəb incə bellisən.
Danış, tuti kimin şirin dillisən,
Görməmişəm böylə sifət insanda.

Doppuz hörük saç tökülüb bellərə,
Ayna dutub şana çəkmə tellərə,
Aparaydum səni bizim ellərə,
Xudam bu işləri salsun asanda.

Koroğluyam, Çamlıbeldən gəlmişəm,
Saqi verib dolu badə içmişəm,
Səni görcək şad oluban sevmişəm,
Xumar xanım, daxi qalma gümanda.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Xumar xanım yəqin eylədi ki, bu Cəlali Koroğludu, əmma aşıqlıq libasında bunun dalınca gəlüb. Daxi heç danışmayub başın çəkdi qürfədən içəri.

Əmma bu tərəfdən Hüseyn Paşa gördü, yanşaq genə bunun qızının adın xəlq içində zikr eylədi. Qəzəbnak olub dedi:

– Vay anasın satdığım əcəm oğlu, mən sənə demədim ki, daxi bundan sora mənim qızımun adın zikr eyləmə. Sən məni xalq içində rüsva eylədün!

Həman saat cəllad istəyüb, cəllad əlində qılıc daxil oldu, ərz eylədi:

– Qurbanın olum, kimün əmri təmam olub?

Paşa dedi:

– Apar bu anasın satdığım əcəm oğlunun boynun ur.

Pəs cəllad əlində qılıc yapuşdı Cəlali Koroğlunun əlindən, istədi ki, aparsun. Koroğlu dedi:

– Paşam sağ olsun, mənim təqsirim nədür? Sən özün hökm eylədün ki, Cəlali Koroğlunun türkilərindən oxuyum və mən həm onun sözlərindən sizün qulluğunuzda söhbət eylədüm.

Pəs vəzir ayağa durub dedi:

– Paşam sağ olsun, sənün ədalətivün şöhrəti təmam Rum vilayətlərində var. Əgər bu biçarə yanşağı həlak eyləsön, sənün aduvı xəlqi-aləm baturub, deyəllər Hüseyn Paşa əcəb zalimü-səffak adamdur ki, öz qərib qonağını məclisində öldürdü. Əgər mənim iltimasımı qəbul eyləyəsən, gərək bu yanşağın təqsirindən keçüb onu bağışlayasan və ona nəvaziş eyləyüb xələt verəsən.

Pəs təmam əhli-məclis vəzirin ərzin təsdiq eyləyüb hamı birdən ərz eylədilər ki, Paşam sağ (olsun), vəzir yaxşı ərz eylər, bizlər istəmirux ki, sənün adun təmam vilayətlərdə bədnam olsun. Bu bir fəqir yanşaqdur, gəlüb qürbət vilayətə ki, öz əhli-əyalına para qazanub aparsun, güzəran eyləsün. Əmma sənün ədalətündən uzaqdur ki, bu fəqirün əyalınun gözü yolda qalub sənə nifrin eyləsünlər.

Pəs Hüseyn Paşa labüd qalub əhli-məclisün iltimasun qəbul eyləyüb hökm eylədi cəllada ki, yanşağı gətür içəri. Pəs Cəlali Koroğlunu cəllad içəri gətürdi. Paşa nəvaziş eyləyüb yer göstərdi. Tazədən bir dəst yaxşı xələt verdi.

Pəs saqilər dübarə piyalə doldurub əhli-məclisə verdilər. Təmam əhli-məclisün başları badeyi-nabdən gərm olub, dedilər:

– Yanşaq, çün biz sənün iltimasun Hüseyn Paşadan eylədüğ, gərək bizlərə bu gecə yaxşı söhbət eyləyüb və Hüseyn Paşanı tərif eyləyəsən.

Cəlali Koroğlu dedi:

– Çün Paşa bitəqsir istərdi məni həlak eyləsün, əmma mən onu genə tərif eylərəm.

Pəs Koroğlu bir neçə piyalə şərab içüb, məsti-layəqil olub, sazın götürüb kök eyləyüb, basdı sinəsinə. Yüzin dutub

Hüseyn Paşaya tərəf, dedi:

Hüseyn Paşa, səni tərif eyləyüm,
Bu Misirdə sənün kimin paşa yox.
Bir qulaq ver, neçə türki söyləyüm,
Bu Misirdə sənün kimin paşa yox.

Vəsfüvi eylərəm, ey ədalət divan,
Qurulub səf, salam bir neçə sultan,
Kömək olsun sənə Musiyi-İmran,
Bu Misirdə sənün kimin paşa yox.

İzzətli, şövkətli, ali şannısan,
Otaqlı, qonaqlı, ağır xannısan,
Aşıq öldürməgə gözü qanısan,
Bu Misirdə sənün kimin paşa yox.

Koroğlunun sındırmıyun sazını,
Töksün yerə köskündəki sözinü,
Hüseyn Paşa, sən özün çək nazını,
Bu Misirdə sənün kimin paşa yox.

Çün Koroğlu sözin təmam eylədi, Hüseyn Paşa və təmam əhli-(məclis) ona təhsin eyləyüb afərin dedilər. Əmma Hüseyn Paşa dedi:

– Yanşaq, mənim şinaxtımı itirmə, sən Cəlali Koroğlu özüsən!

Koroğlu dedi:

– Paşam sağ olsun, Koroğlunun padşah kimin əsası və qoşunu var. Mən hara, Koroğlu hara?

Paşa dedi:

– Yanşaq, doğrusun sölə ki, Cəlali Koroğlu hər nə türki oxusa, axırın Koroğlu adına deyər. Əmma sən də hər nə türki oxudun, axırın Koroğlu adına tapşurdun. Mənə yəqin olan budur ki, sən Cəlali Koroğlu özü olasan.

Koroğlu dedi:

– Paşam sağ olsun, mən özüm yaxşı şairəm. Çün sən özün buyurdun Cəlali Koroğlunun türkilərindən oxu, mən o cəhətə axırların Koroğlu adına tapşurdum. Valla, mən hara, Ko-

roğlu hara və onun min nəfər mənim kimin nökəri var. Onun nə ehtiyacı var ki, gəlsün məclislərdə yanşaqluğ eyləsün.

Vəzir dedi:

– Qurbanun olum, yanşaq doğru savlar, Koroğlunun böylə cəlalı var ki, Rum paşalarınun cəlalı ona yetişməz və onun dövləti heç padşaha müyəssər dəgül. Nə ehtiyac olub ona ki, gəlüb məclislərdə türki savlayub para ala.

Pəs nisfi-şəbə kimin söhbət olundu. Bəd əz an məclis bərhəm yeyüb hər kəs öz mənzilinə dağıldı və Cəlali Koroğlu iyidlərilən belə gəldilər qocanun evinə. Qoy bunlar burda qalsun, əmma nəql eşit Hüseyn Paşanun qızı Xumar xanımdan.

Çün məclis bərhəm oldu, gəldi öz mənzilinə. Fikir eylərdi ki, nə tövr eyləsün, bəlkə Cəlali Koroğlunu öz mənzilinə gətürsün. Hərçi fikir eylədi, gördü mümkün dəgül ki, Koroğluya mülaqat eyləsün. O gecə yatub eylə ki sübh oldu, qocanun övrəti ki, onun dayəsiydi, onu çağırub dedi:

– Dayə, sənün qonağun bu gecə əcəb eylədi. Eyliyə bilürsən ki onu gecələr olanda mənim mənzilimə gətürəsən ki, bizə bir qədər söhbət eyləyüb türki oxusun?

Dayə dedi:

– Xanım, bu mənim işim dəgül. Ondan ötrü, sənün atan Hüseyn Paşa bir qəhhar adamdur ki, bu mətləbi bülsə, həm səni və həm məni həlak eylər.

Çün Xumar xanım bu sözü dayədən eşitdi, çox məyus oldu, dedi:

– Dayə, əgər o yanşağı gətürəsən mənim mənzilimə, sənə yüz əşrəfi verrəm.

Dayə çün pul adın eşitdi, gözləri işıqlandı, ərz eylədi:

– Xanım, imdi ki, sənün göylün burdadur, mən onu gətürrəm. Əmma bu şərtlən ki, bu mənzildə olmaz. Ondan ötrü ki, bura Hüseyn Paşanun imarətidür. Əgər hər vəzilən olsa, Paşa bülür və məni həlak eylər. Hərgah sən bir ayrı mənzil bina eyləsən ki, Paşa xəbərdar olmıya, mən vədə eylədüm ki, onu sənün mənzilüvə gətürrəm və sənə yaxşı söhbət eylər.

Pəs Xumar xanım bir qədər fikir eyləyüb dedi:

– Dayə, əgər istərsən ki, Paşa bu əməldən müttəle olmasun,

bir neçə gün gedərüğ bağ seyrinə və orda mənzil eyləruğ və sən də o yanşağı gətür ki, orda bizə söhbət eyləsün.

Dayə çün bu sözi Xumar xanımdan eşitdi, ərz eylədi:

– Qurbanun olum, yaxşı fikir eylədün, hərgah Paşa səni mürəxxəs eyləyə ki, bir neçə gün bağda səyahətə gedəsən, mən özüm o yanşağı gətürrəm.

Pəs Xumar xanım ayağa durub yüz əşrəfi nəqd dayəyə verdi.

Eylə ki axşam oldu, Hüseyn Paşa divanxanadan gəlüb hərəmxanəyə, Xumar xanım ayağa durub gəldi atasınun xidmətinə. Ərz eylədi:

– Paşa sağ olsun, istərəm ki, bir neçə (gün) məni mürəxxəs eyləyəsən, bağ səyahətinə gedəm.

Paşa qəbul eylədi. Çün sübh oldu, Xumar xanım tədarük görüb, neçə nəfər kəniz yanınca götürüb gəldi bağa. Hökm eylədi ki, bağun imarətlərin fərş eylədilər və hovuzlara su bağladılar. Pəs dayəni çağırub dedi:

– Dayə, gərək öz vədüvə vəfa eyləyüb o yanşağı yalquz gətürəsən ki, gecə mənə söhbət eyləyə.

Dayə ayağa durub özün yetürdi Cəlali Koroğlunun yanına, dedi:

– Cavan, sənün bu gecə vədün məndən alublar. Gərək mənimlən belə gedək.

Cəlali Koroğlu dedi:

– Haraya mənim vədəmi alublar?

Dedi:

– Cavan, Hüseyn Paşanun qızı Xumar xanım sənün türki oxumağuva aşiq olub və öz atası Hüseyn Paşadan mürəxxəs olub, qaladan xaric bağda mənzil eyləyüb və mən ona vədə eyləmişəm ki, səni bir neçə gecə aparam, ona söhbət eyləyəsən.

Koroğlu çün büldi ki, Xumar xanım ona aşiq olub, dedi:

– Dayə, mənim işim dəgül ki, mən gedüm qızlar içində söhbət eyləyüm və qorxaram ki, Hüseyn Paşa xəbərdar ola, mənə əziyyət eyləyə. Mən bir qərib adamam, belə əməl eyliyə bülmənəm.

Dayə dedi:

– Cavan, mən səni xəlvəti aparram ki, heç kəs xəbərdar ol-

maz.

Koroğlu dedi:

– Dayə, mümkün dəgül ki, mən gedəm. Ondan ötrü ki, onun kənizləri, əlbəttə, məni görər və bu iş yavaş-yavaş aşkar olur və mənim işim yaxşı olmaz.

Dayə çün qızdan yüz əşrəfi almışdı, dəst-paça olub dedi:

– Cavan, mən vədə eylərəm ki, heç kəs sənün məclisündə olmasun, mə

ki, deyərsən bəs, tavusdur. Əmma əlində sürmədan, gözlərinə sürmə çəkər. Cəlali Koroğlu çün bü əhvalı görəndə salam eyləyüb, sazın kök eyləyüb basdı sinəsinə. Yüzin dutub Xumar xanıma tərəf, bu türkini oxudu:

Niyə sürmə çəkdün ala gözlərə?
Bivəfadır, vəfası yox, gedər hey!
Bivəfa dünyadur, yoxdur vəfası,
Leyli-Məcnun, Fərhad-Şirin gedər hey!

Yar yolunda canı sələm sataydum,
Səyraqibə oxu-kaman ataydum,
Nə olaydı, bircə sənlən yataydum,
Əcəl gəlsə, ruhum qaçar, gedər hey!

Yaxşı olar bu dünyada var quca,
Varı neylər, bir vəfalı yar quca,
Yaman olur qızılgülü, xar quca,
Uçar burdan, şeyda bülbül gedər hey!

Qaşlarun qövsidür, gözlərün nərgiz,
Sənün kimin gözəl yoxdu, yar, hərgiz,
Bu dünya fanidür, qalmadı Çəngiz,
Qoç Koroğlu sənün ilən gedər hey!

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Xumar xanım gördü Cəlali Koroğlu buna böylə aşiqi-biqərar olub ki, vəsfə gəlməz. Onun ayağın yandırmaqdan ötrü dedi:

– Yanşaq, bunlar necə sözdür, deyirsən? Mən səni gətürdüm ki, Cəlali Koroğlunun türkilərindən oxuyasan ki, mən ləzzət aparam. Əmma sən onun türkilərin qoydun, özün bir para biədəb sözlər danışursan.

Koroğlu dedi:

– Xanım, elə mən Cəlali Koroğlunun türkilərindən oxuram. Əmma sən dürüst mütəvəcceh olub qulaq verməzsən.

Xumar xanım dedi:

– Yanşaq, bu sözlər padşah qızlarına layiq dəgül ki, deyərsən. Əgər mənim atam Hüseyn Paşa sənün bu sözlərün eşitsə, səni həlak eylər.

Cəlali Koroğlu dedi:

– Xanım, məlumdur ki, hər kəs böylə sözlər danışsa, əvvəl canından keçər, ondan sora bu sözləri deyər.

Xumar xanım dedi:

– Yanşaq, öz canuva rəhmün gəlsün. Sən bir qərib adamsan, bizlərə yaxşı söhbət eylə ki, bir qədər para al apar, öz vilayətündə əhli-əyalun ilə güzəran eylə.

Cəlali Koroğlu dedi:

– Xanım, sən məni çox qorxudursan Hüseyn Paşadan. Bir qulaq ver, neçə bənd türki gəlib sinəmə, onları deyüm:

Məcnunam, Leylidən ötrü,
Oturmuşam bu dağ üstə.
Sənün kimi yardan ötrü,
Əcəb çeşmü-çırağ üstə.

Bel bağladum bivəfaya,
Əcəb düşdüm bu qovğaya,
Rəqiblər düşsün bəlaya,
Fərhad öldü sorağ üstə.

Dəliləri yad eylərəm,
Məsaf günü dad eylərəm,
Bu Misirdə ad eylərəm,
Qoysam dodaq dodaq üstə.

Nə baxarsan yanı-yanı,
Aç gözlərün, məni tanı,
Qoç Koroğlu qoydu canı,
Qəmü-qüssə, fəraq üstə.

Cəlali Koroğlu çün sözin təmam (eylədi), oturdu yerə, dedi:

– Xanım, əgər istərsən ki, mən sənə yaxşı söhbət (eyləyim), bir qədər şərab ver, mən içüm, ta tərdimağ olub sənə belə söhbət eyləyüm ki, huş başundan çıxsun.

Xumar xanım istədi kənizlərdən birin çağırsun ki, şərab gətürsünlər, Cəlali Koroğlu dedi:

– Xanım, mən əvvəl şərt eyləmişəm ki, əgər özgə adam məclisə gəlsə, daxi mən söhbət eyləmərəm.

Pəs Xumar xanım özi ayağa durub bir qədər şərab və tüng-piyalə qoydu Koroğlunun bərabərinə, dedi:

– Bismillah, şərab içgilən.

Koroğlu dedi:

– Xanım, məgər sizün yerlərdə qonağa böylə məhəbbət eyləllər ki, qonaq özü şərab tökər içər?

Xumar xanım niqabın yüzindən atub, zülflərin sağdan-soldan töküb piyaləni aldı əlinə. Bir neçə piyalə şərab peydərpey Cəlali Koroğluya verdi. Koroğlu piyaləni alub içdi, dedi:

– Xanım, piyalə ilən mənə şərab vermə ki, bunlar mənim buğlarımı yaş eləməz.

Pəs Xumar xanım bir məthərə şərab gətürdi. Koroğlu onu başına çəküb, məsti-layəqil olub gördü Xumar xanımun zülfləri əfşan olub cahar ətrafdan tökülüb. Dedi:

– Xanım, bircə ayaq üstə dur ki, bir neçə bənd türki sinəmə gəlüb, onları deyüm.

Pəs Xumar xanım ayağa durub, Koroğlu sazın götürüb basdı sinəsinə, dedi:

Tökmə yüzə çəlipanı,
Gülə nisbət səhər zülfün.
Məcnun edüb salub çölə,
Hər biri bir təhər zülfün.

Xal yüzüvə salub qara,
Zülfün çəküb məni dara,
Axır məni salur nara,
Verür qüssə, qəhər zülfün.

Külli-aləm varı neylüm,
Gül yanında xarı neylüm,
Bəslər sinön narı, neylüm,
Xeyri olsun bəzər zülfün.

Camalun oxşatdum aya,
Sən bir ala gözlü maya,
Bulud kimin salur saya,
Min bir yerdən sərər zülfün.

Koroğluyam, bağrı daşlı,
Göylü qəmli, gözü yaşlı,
Doqquz hörük, qarğu saçlı,
Axar çeşmə, nəhər zülfün.

Cəlali Koroğlu çün sözin təmam eylədi, Xumar xanım daxi tab eyləməyüb qolların saldı Cəlali Koroğlunun boynuna, dedi:

– Ey Cəlali Koroğlu, xoş gəlmisən. Hər nə ki tərki-ədəbluğ gördün, bağışlagilən.

Pəs Cəlali Koroğlu qolların saldı Xumar xanımun boynuna, bir neçə busə bir-birinün yüzindən alub, bəd əz an Xumar xanım yapuşdı Koroğlunun əlindən, gətürdi taxt üstə qərar verdi. Bir neçə piyalə şərab Cəlali Koroğluya verüb, genə qolların saldı Cəlali Koroğlunun boynuna. Pəs hər ikisi qol-boyun olub bir-birilən söhbətə məşğul oldular. Tainki bir neçə saat söhbət eyləyüb, Xumar xanım ayağa durdu, istədi qəlyan gətürsün. Cəlali Koroğlu əl uzadub yapuşdı onun zülflərindən, durdu əllərilən daramağa. Xumar xanım gördü Cəlali Koroğlunun zülfə çox meyli var, dedi:

– Mənim də sinəmə bir neçə bənd türki gəlüb, qulaq ver, deyüm:

Sənə qurban, qoç Koroğlu,
Gül yüzimdə əsər zülfüm.
Gəl mənimlən danış doğru,
Qılıc kimin kəsər zülfüm.

Şeyda bülbül qonar dala,
Gör, ləblərim batub bala,
Kustax-kustax yüzdə xala,
Qəsd eyləyüb dəgər zülfüm.

Gürcüstanın narı olsam,
Qızılgüldən arı olsam,
Koroğlunun yarı olsam,
Verür axır səmər zülfüm.

Xumar xanım aman eylər,
Dərd əlindən fəğan eylər,

Sirri-sözin bəyan eylər,
Verür xeyrü bəhər zülfüm.

Çün Xumar xanım sözin təmam eylədi, genə qol bir-birinün boynuna salub busə almağa məşğul oldular. Bu əsnada dayə daxil oldu. Gördü Xumar xanım yanşaqilən belə qolboyun olub taxt üstündə əgləşüblər. Dedi:

– Xanım, bu nə əməldür ki, sən eylədün? Hərgah Paşa xəbərdar olsa, səni rizə-rizə eylər.

Pəs Xumar xanım dayənin qorxusundan yüz tuman pul ona verdi. Dayə çün pulları gördü, dedi:

– Xanım, öz işüvə məşğul ol, mənim rücuim yoxdur.

Pəs Cəlali Koroğlu o gecə sübhə kimin orda qalub ləzzət aparmağa məşğul oldu. Eylə ki sübh oldu, dedi:

– Xanım, daxi gündüz mənim burda qalmağım yaxşı dəgül, məbadə, kənizlər bir zad anlaya və gedüb Paşaya xəbər verələr. İnşallah, gecə mənzili xəlvət eylə, mən həm gəlüb söhbət eyləməğa məşğul olaq.

Bunu deyüb, bağdan gəlüb xaricə, özün yetürdi iyidlərün yanına. İyidlər əhval xəbər aldılar. Cəlali Koroğlu təmam sərgüzəştini əvvəldən axıra kimin nəql eylədi.

Pəs gündüz yatub istirahətə məşğul oldu. Əmma çün axşam oldu, Cəlali Koroğlu iyidləri vida eyləyüb genə yüz qoydu Xumar xanımun mənzilinə. Çün bağa daxil oldu, özün yetürüb otağa, pəs hər ikisi qol bir-birinün boynuna salub busə almağa məşğul oldular. Əmma əsnayi-söhbətdə Cəlali Koroğlu dedi:

– Xanım, təmam iyidlərün gözü yolda, intizar çəkillər. Gərək, inşallah, sabah gecə burdan köçüb Çamlıbelə gedək. Xumar xanım çün bu sözü eşitdi, dedi:

– Mənim də fikrim budur, əmma ehtiyat eylərəm ki, məbadə, Paşa xəbərdar olub, bizim dalımızca gələ və bizləri dutub həlak eyləyə.

Cəlali Koroğlu dedi:

– Xanım, sən heç ehtiyat eyləmə ki, inşallah, xudavəndi - aləm kərimdür.

Pəs bina qoydular ki, sabah gecə bağdan köçüb Çamlıbelə getsünlər. O gecə sübhə kimin genə eyşi-işrətə məşğul oldu-

lar. Çün sübh oldu, Cəlali Koroğlu bağdan çıxub gəldi iyidlərün yanına, dedi:

– Tədarükinizi görün ki, inşallah, bu gecə gərək gedək.

Pəs gündüz genə yatub istirahət eylədi. Eylə ki axşam oldu, yüzin dutub iyidlərə, dedi:

– Çün gecədən bir qədri keçər, atları zin edün, gəlün bağun xaricində durun ki, mən də həm Xumar xanımı götürüm, yola düşək.

Bunu deyüb, mənzildən çıxub yüz qoydu bağa. Çün yetişdi Xumar xanımun mənzilinə, bəd əz söhbət, dedi:

– Xanım, tədarükün gör ki, imdi iyidlər atları gətürür.

Pəs ziba bir qədər cəvahir və zərrinə libas ki, vəzndə yüngül və qiymətdə ağır qoyub, bir xurcuna müntəzir oturmuşdular ki, bir tərəfdən iyidlər atları zin edüb gətürdilər, bağun xaricinə. Çün yetişdilər, Qırat bir ayağın yerə vurub şihə çəkdi. Cəlali Koroğlu dedi:

– Xanım, dur ayağa ki, iyidlər atları gətürdilər.

Pəs ordan durub istədilər bağdan xaricə çıxsunlar. Kənizlər anladı ki, Xumar xanımı Cəlali Koroğlu apardı, əmma yüz qoydular Hüseyn Paşa yanına getmağa.

Bu tərəfdən Cəlali Koroğlu Xumar xanımı ata səvar eyləyüb və özləri həm atlanub yüz qoydular Çamlıbelə tərəf getmağa. Pəs o gecə sübhə kimin at sürüb, eylə ki, gün tüluu eylədi, bir çeşmənin başında düşüb, özləri namazların qılub və atları bir qədər ələf yeyüb rahət oldu. Pəs ordan atlanub genə yola düşdülər. Xülasə, yeddi gün və yeddi gecə yatmıyub təcili-təmamilən at sürdülər. Tainki səkkiziminci gün yetişdilər bir yaxşı çəmənə. Pəs orda atlarından düşüb Cəlali Koroğlu dedi:

– Neçə gündür ki, at sürmüşüğ, heç rahat olmamışuğ. Bu gün burda qalaq, bir qədər rahat olaq.

Pəs Bəlli Əhməd atları çəmində çirayə məşğul eylədi və Dəmirçioğlu bir neçə qaz və ördək şikar eyləyüb gətürdi, kabab eylədi. Tainki kababı tənavül edüb, hər kəs bir guşədə yatub istirahətə məşğul oldu. Bunları qoy burda qalsun, əmma nəqli-dəstan eşit, Hüseyn Paşadan.

Çün Cəlali Koroğlu Xumar xanımı gecə bağdan götürüb

yola düşdü, kənizlər o gecə bağda qalub, sübh vaxtı özlərin yetürdilər Hüseyn Paşanun yanına. Ərz eylədilər:

– Paşa sağ olsun, nə oturmusan ki, Cəlali Koroğlu sənün qızun Xumar xanımı apardı.

Hüseyn Paşa çün bu sözü kənizlərdən eşitdi, təəssüf yeyüb əlin əlin(ə) çaldı, dedi:

– Əcəb şinaxt eyləmişdüm ki, bu yanşaq Cəlali Koroğlu özüdür, əmma məni qoymadılar.

Pəs həman saat vəziri və qoşun sərkərdələrin çağırub cəm eylədi. Çün vəzir və sərkərdələr gəldilər, vəzir gördü Hüseyn Paşanun əhvalı mütəğəyyir olub və gözlərinün yaşın töküb ağlıyır. Ərz eylədi:

– Qurbanun olum, məgər nə var ki, belə ahu-zarlıq eylərsən?

Paşa dedi:

– Vəzir, mən demədüm ki, bu, yanşaq dəgül, bəlkə bu, Cəlali Koroğludur? Əmma sizlər məni qoymaduz ki, bu anasın satdığımı səzasına yetirüm.

Vəzir ərz eylədi:

– Paşam sağ olsun, məgər nə var?

Paşa dedi:

– Vəzir, daxi bundan artuq nə olsun ki, bu anasın satdığım əcəm xırsızı Xumar xanımı bağdan aparub və məni təmam aləmdə rüsva eyləyüb.

Vəzir ərz eylədi:

– Qurbanun olum, bundan ötrü ağlamaq istəməz. Əlhəmdüllah, ləşkərün çoxdur və Koroğlu bir tək adamdur. Əgər onun min canı olsa, bizim əlimizdən birin salamat qurtarmaz.

Pəs Hüseyn Paşa bir qədər təsəlli alub, hökm eylədi, təmam Misirün ləşkəri mükəmməl və müsəlləh cəm oldular. Pəs Hüseyn Paşa özü həm atlanub, qoşunu götürüb rəvanə oldu Cəlali Koroğlunun dalınca. Pəs neçə gün və neçə gecə yatmıyub at sürdülər, bir asari Cəlali Koroğludan tapmadılar. Paşa dedi:

– Vəzir, bir əsəri-zahir olmadı. Məlum oldu ki, Koroğlu bu yolilən gəlməyüb.

Eylə bu əsnada bir neçə nəfər adam gəldi Paşanun qabağına. Paşa dedi:

– Heç bir neçə nəfər atlu ki, yanlarında bir övrət tayfası aparurdılar, gördüz?

Onlar ərz eylədilər ki, Paşa sağ olsun, bir qədri irəlüdə bir çəmən var ki, bir neçə nəfər atlu o çəməndə düşüb. Əmma yanlarında bir övrət tayfası var, əmma bülməruğ ki, sən deyəndür, ya özgə adamdur.

Pəs Paşa hökm eylədi qoşuna ki, cəmaət, sürəti-təmamilən atları sürün ki, inşallah, Cəlali Koroğlunu tapmışam.

Pəs qoşun atların cövlana gətürüb, bir türfətül-eyndə özlərin yetürdilər o çəmənün bərabərinə. Pəs Bəlli Əhməd atları çərayə məşğul eyləmişdi. Bir vaxt nə gördü, Misir tərəfindən bir ağır toz nümudar oldu. Büldi ki, qoşun əlamətidür. Pəs gəlüb Cəlali Koroğlunun yanına, gördü yatub. Onu bidar eyləyüb dedi:

– Əcəb istirahətilən yatmusan.

Koroğlu dedi:

– Məgər nə var?

Dedi:

– Dur ayağa ki, Hüseyn Paşanun qoşunu yetişdi.

Pəs Cəlali Koroğlu ayağa durub gördü təmam səhranı qoşun dutub, təcili-təmamilən gəlüllər. Hökm eylədi ki, daxi durmuyun, atlarun təngin möhkəm eyliyün.

Bəlli Əhməd və Dəmirçi(oğlu) atlarun təngin möhkəm eyləyüb səvar oldular. Yüz qoydular qoşunun bərabərinə getmağa. Əmma bunlar qoy burda qalsun, nəqli-dəstan eşit Cəlali Koroğlunun iyidlərindən.

Çün Koroğlu onları Çamlıbeldə qoyub, özü Misirə gəldi, üç gün ondan sonra Eyvəz balı və Zülfüqar bəg iyidləri cəm eyləyüb binayi-məsləhət eylədilər ki, Cəlali Koroğlu iki nəfər adamilən Misirə getdi. Misir bir böyük məmləkətdir və ləşkəri çoxdur. Məbadə, onları dəstgir eyləyüb həlak eyliyələr. Məsləhət odur ki, bizlər həm onların dalınca rəvaneyi-Misir olaq ki, zərurət vaxtında Cəlali Koroğluya köməklik eyliyağ.

Pəs yeddi min yeddi yüz yetmiş yeddi dəli təmam qərqüahənü-fulad olub, mükəmməl və müsəlləh yüz qoydular Misirə tərəf gəlmağa. Qəzayi-rəbbanidən həman saat ki, Cəlali

Koroğlu və Bəlli Əhməd və Dəmirçioğlu atlanub yüz qoydılar Hüseyn Paşanun ləşkərinün bərabərinə, onlar həm gəlürdilər. Tainki Zülfüqar bəg uzaqdan gördü, səhrada bir ağır toz nümudardır, yüzin dutub iyidlərə, dedi:

– Camaat, yəqin bu görükən toz qoşun əlamətidür. Daxi aramlan atları sürməyün ki, məbada, Cəlali Koroğlunun üstünə bu qoşun gəlmiş ola.

Pəs onlar təcili-təmamilən atların sürüb elə o çəmənə yetişəndə, Dəmirçioğlu dedi:

– Ey Cəlali Koroğlu, müjdə olsun sənə ki, iyidlər təmam gəldilər.

Cəlali Koroğlu dönüb dalıya baxanda gördü ki, təmam iyidlər əlində nizə, atlarına məhmiz çəküb cilovriz gəlüllər. Əmma onlarun qabağında Zülfüqar bəg və Eyvəz balı hər ikisi qılıcların çəküb nərə ura-ura gəlür. Cəlali Koroğlu elə bu əhvalı görəndə şadlıqdan bir ağladı. Bəd əz an Qıratun başın dolandurub, at saldı onlarun bərabərinə. Elə az qaldı ki, onlara yetişsün, sazın götürüb basdı sinəsinə, yüzün dutub Zülfüqar bəgə, dedi:

Zülfüqar bəg, yaxşı yerdə yetirdün,
İyidligün bu gün yeridür, yeri.
Xan Eyvəzi gətdün, göyül bitirdün,
İyidlügün bu gün yeridür, yeri.

Hüseyn Paşa məni saldı qovğaya,
Çamlıbeldən əcəb gəldün haraya,
Bir-birilən verək səda-sədaya,
İyidligün bu gün yeridür, yeri.

Qoç iyidlər yol eyliyüb kicanı,
Ağası yolunda qoyublar canı,
Dəli Mehtər həman Rüstəmi-sanı,
İyidligün bu gün yeridür, yeri.

Koroğluyam, sıra bir-bir baxaram,
Pərvanətək canım oda yaxaram,

Xudam qoysa, Misir şəhrin yıxaram,
İyidligün bu gün yeridür, yeri.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, iyidlər təmam daldan yetişüb, Koroğlunun bərabərində nizamlan səf çəküb durdılar. Pəs (Koroğlu) onları təmam nəvaziş eyləyüb, dedi:

– Cəmaət, daxi durmaq caiz dəgül. Gərək bu gün mərd-mərdanə dava eyləyəsüz.

Pəs yüzin dutub Zülfüqar bəgə dedi:

– Bir qədər iyidlərdən götür, Hüseyn Paşanun ləşkərinün sağ tərəfin kəs, – və Eyvəzə dedi:

– Sən də bir qədər iyidlərdən götür, ləşkərün sol tərəfin kəs, – və Dəmirçioğluna dedi:

– Sən də bir qədər iyidlərdən götür, Hüseyn Paşanun ləşkərinün dalı tərəfini kəs və amadə və mühəyya durun. Hər vaxt mənim səsim ucalsa, qılıclaruzu çəkün, bir də həmlə eyləyün.

Pəs çün iyidlərin tərbiyətin verdi, nizamilən iyidlər gəlüb, hər kəs öz yerində aram dutub tamaşa eylədilər ki, Cəlali Koroğlu özü neçə nəfər mərdanə iyidlərdən götürüb gəldi Hüseyn Paşanun bərabərinə. Hüseyn Paşa elə Cəlali Koroğlunu görəndə, dedi:

– Vay anasın satdığım əcəm oğlu, mənə hiylə eyləyüb, aşıqlıq libasında gəldün, mənim qızım Xumar xanımı aparursan? Bu gün sənün başuva müsibətlər gətürüm ki, təmam əhli-aləm sənün əhvaluva ağlıyub ibrət eyləsinlər.

Cəlali Koroğlu çün bunu eşitdi, bir güldü, dedi:

– Hüseyn Paşa, əlim-ayağım dəgməmiş bu qoşunu salamat öz şəhərüvə apar və illa, bir nəfər qoymaram diri qalsun.

Paşa dedi:

– Koroğlu, qırq min ləşkər gətürmişəm, məgər sənün nə qədər adamun var ki, mənim ləşkərimi təmam öldürə? İnşallah, səni dutub bir zillətilən öldürüm ki, təmam əhli-Rumun yaxası sənün şərründən xilas olsun.

Koroğlu hərçi səy eylədi ki, bəlkə Hüseyn Paşa qayıdub getsün, mümkün olmadı. Pəs qəzəbnak olub, Qırata bir məhmiz çəküb durdu Hüseyn Paşanun müqabilində, dedi:

– Paşa, bir neçə bənd türki gəlüb sinəmə. Qoy onları

deyüm, ondan sora dava eyləyək.

Hüseyn Paşa, çox güvənmə şəstüvə,
Mən bülmərəm, paşa nədür, xan nədür.
Hökm eylərəm, yeriş gəlür üstüvə,
Mən bülmərəm, paşa nədür, xan nədür.

Çar tərəfdən qoşun gəlsə araya,
Səni sallam neçə yerdən yaraya,
Misir əhli təmam gəlür haraya,
Mən bülmərəm, paşa nədür, xan nədür.

Təkü-tənha bu meydanda duraram,
Dəliləri cəm eyləyüb yığaram,
Macal verməm, təmam sizi qıraram,
Mən bülmərəm, paşa nədür, xan nədür.

Koroğluyam, şikarımı almışam,
Qəvi düşmənləri atdan salmışam,
Əgri qılıc işkəsinə çalmışam,
Mən bülmərəm, paşa nədür, xan nədür.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Hüseyn Paşa qəzəbnak olub dedi:

– Vay anasın satdığım, məni qorxudursan? Sən qoç davasına düşməyübsən və sən Rum paşalarınun zərbü-şəstin görməyübsən. Əgər həyatım olsa, sənə bu gün bir dəstbərd göstərim ki, təmam dastanlarda deyilsün.

Pəs yüzin dutub öz ləşkərinə, dedi:

– Cəmaət, qoymuyun bu əcəm oğlun!

Eylə ki Misir qoşunu Hüseyn Paşadan izn hasil eylədilər, qırq min qoşun təmam səs-səsə verüb, qılıcların çəküb, birdən yüz qoydular Cəlali Koroğlunun üstünə.

Koroğlu elə bu əhvalı görəndə bir nərə cigərindən çəküb, yüzin dutub iyidlərə, dedi:

Busqu edüb sağü-solda duranlar,
Dəv gətürün bu ləşkərün üstünə!
Dövüş günü qənim atdan salanlar,
Dəv gətürün bu ləşkərün üstünə!

Qoç iyidlər, çar tərəfdən yeriyün,
Bulud kimin bu ləşkəri bürüyün,
Qabırğaya əgri qılıc sırıyun,
Dəv gətürün bu ləşkərün üstünə!

Ac qurt kimin qabaqların saxlıyun,
Qaçmaqiçün yollarını bağlıyun,
Hüseyn Paşa cigərini dağlıyun,
Dəv gətürün bu ləşkərün üstünə!

Qoç Koroğlu daxi durub baxanmaz,
Bu işlərdən onun köylü bulanmaz,
Rüstəm olsa, qabağında dayanmaz,
Dəv gətürün bu ləşkərün üstünə!

Çün sözin təmam eylədi, qılıcın çəküb, özün urdu Misir ləşkərinün içinə. Zülfüqar bəg, Eyvəz balı və sairi iyidlər çün bu əhvalı gördülər daxi durmıyub təmam nərə ura-ura sağdan və soldan, daldan və qabaqdan o qoşunu aldılar araya. Hər tərəfdən begir və bebənd sədası osmana bülənd oldu. Başlar bədənlərdən cüda olub, atların ayağı altında top kimin oynardı və bədənlər yerə sərnigün düşüb, qan o səhrada sel kimin rəvanə oldu.

Hüseyn Paşa çün əhvalı belə gördü, tab gətürməyüb yüz qoydu qaçmağa. Çün Misir ləşkəri gördülər ki, Hüseyn Paşa yüz həzimətə qoydu, onlar həm onun dalınca yüz qoydular Misirə tərəf qaçmağa.

Cəlali Koroğlu yüzin dutub iyidlərə, dedi:

– Qoçum olasuz, qoymuyun bunlardan bir nəfər diri qurtulsun.

Pəs Koroğlu özü və iyidlər təmam onların dalınca iki ağac yol at saldılar. Hər kimə ki, yetişürdilər, onun ömrünün qəbaləsin möhür edüb atdan yerə salurdılar.

Pəs o qırq min ləşkərdən qurtulmadı, məgər bir cəmi-qəlil və onlar həm özlərin fəlakət günündə Hüseyn Paşa ilən belə Misirə saldılar.

Pəs Cəlali Koroğlu hökm eylədi ki, iyidlər o ləşkərün tə-

mam atların və əsbabü-əsləhəsin və nəqdi-cinsin bir yerə cəm eylədilər. Pəs o gecə çün iyidlər qılıc urmaqdan xəstə olmuşdılar və atlar dolanmaqdan rəftardan qalmışdılar, həman çəməndə qalub istirahət eylədilər.

Eylə ki sübh oldu, o malü-dövləti və Xumar xanımı ordan götürüb yüz qoydular Çamlıbelə getmağa. Pəs mənzilbəmənzil gəlüb, ta özlərin yetürdilər Çamlı(belə). Bir neçə gün orda qalub istirahət eyləyüb, yolun xurdi çıxdı.

Pəs Cəlali Koroğlu iyidləri cəm eyləyüb bir ali-məclis bina eylədi və hökm eylədi ki, Xumar xanımun toy tədarükü görülsün. Pəs iyidlər təmam canu-dildən yeddi gün və yeddi gecə toy dutub eyşü-işrətə məşğul oldular. Çün yeddi gün və yeddi gecə təmam oldu, məşşatələr Xumar xanıma zinəti-təman verüb onu gətürdilər Cəlali Koroğlunun otağına. Pəs onları ələlə verüb, hər ikisi bir-birindən kami-dil hasil eylədilər.

Eylə ki sübh oldu, Cəlali Koroğlu çıxdı divanxanasına. Genə təmam iyidləri cəm eyləyüb və onlara çox nəvaziş və iltifat eyləyüb hər kəsin zeyyinə münasib xələti-faxir verüb, mürəxxəs eylədi. Əmma Zülfüqar bəgə iyidlərün hamısından artuq nəvaziş eyləyüb, yaxşı xələt verdi və o dövləti ki, Misirdən gətürmişdi, bir hissə həm ona əta eyləyüb və beş yüz tuman nəqd verüb mürəxxəs eylədi.

KOROĞLUNUN ON DÖRDÜNCÜ MƏCLİSİ

Koroğlunun Dağıstan yürüşü, Dağıstan valisi Ağa xanla vuruşması və onun qızı Şahsənəm xanımı Çamlıbelə gətirməsi

Raviyani-əxbar və naqilani-asar belə rəvayət eləyüb ki, Cəlali Koroğlu bir gün Çardaqlının Çamlıbeldə yeddi min yeddi yüz yetmiş yeddi dəlisini başına cəm eyləyüb busati-şərab qurub eyşü-nuşə məşğul olub. Saqilər hər tərəfdən iyidlərə piyaleyi-şərab verüblər və müğənnilər xoş avazlən oxuyub və mütrüblər oynamağa məşğül olmuşdular və iyidlər hər kəs öz aləmində keyfə məşğul olub öz rəfiqiylən söhbət elərdi ki, nagah Dəli Mehtər daxil olub baş endirüb ərz eylədi ki, ey Cəlali Koroğlu bir ağır qafilə Dağıstan vilayətindən gəlüb Çamlıbelün həvalisində düşüblər. Cəlali Koroğlu çün bunu eşidib yüzün dutdu iyidlərə, dedi:

– Cəmaət, durun, gedək qafilə içinə, bir qədər məta alub sövda eyləyək.

Pəs Dəli Mehtər Qıratı zin edüb çəkdi Cəlali Koroğlunun rikabinə. İyidlər təmam onun rikabində bəzi piyadə, və bəzi səvarə yüz qoydılar qafilə içinə, gəlməgə, əmma bu tərəfdən sövdagərbaşı ki, onun adına Xacə İmran deyərdilər, xəbərdar oldu ki, Cəlali Koroğlu qafilə içinə gəlür ki, bir qədər məta alıb sövda eyləsün. Hökm eylədi öz adamlarına ki, bir uca və böyük çadır nəsb eyləyüb onu ənvai-əqsami rəngarəng fərşlən döşədilər və qəhvə və qəlyan mühəyya eyləyüb və bir qədər zərrinə parça və beş yüz tümən nəqd bir xurcunda hazır eyləyüb öz qullarına tapşırdı ki, hər vəqt Cəlali Koroğlu gəlür, qəhvə və qəlyandan sora bu təarüfləri və peşkəşləri gətürsün bərabərə.

Çün bu işlərdən sövdagər fariğ oldu, neçə nəfər öz nökərlərindən götürüb gəldi Cəlali Koroğlunun istiqbalinə. Çün yetişdi bərabərə, baş endürüb salam eylədü. Pəs Koroğlu ona çox nəvaziş eyləyüb əhvalın xəbər aldı. Xacə İmran bir qədər dua və sina eyləyüb Koroğlunun rikabində gəldi, ta həman çadıra ki, onu nəsb eyləmüşdü.

Pəs Koroğlu atdan aşağa gəlüb sövdagərilən belə daxil ol-

du çadıra, sədri-məclisdə əyləşdi. Pəs sövdagər durub qabaxda, Koroğlu ona yer göstərib əgləşdirdi. Sövdagər hökm eylədü, qəhvə və qəlyan gətürdülər. Çün qəhvə və qəlyan sərf olundu, işarə eyləyüb öz adamlarına ki, peşkəş xonçasın gətürün. Qulamlar həman xonçanı qoydular Cəlali Koroğlunun bərabərinə, Koroğlu gördü yaxşı zərrinə parçalar və beş yüz tümən nəqd xonçada qoyulub. Dedi:

– Xacə bu nə zəhmətdür çəkübsən, sən bizim vilayətimizə qonaq gəlmüsən, gərək biz sənə təarüf və xələt verək, sən bizə təarüf verürsən.

Xacə ərz eylədi:

– Qurbanın olum, bağışlayün ki, bu bir mühəqqər peşkəşdür ki, sənin xidmətüvə gətürüblər.

Pəs Koroğlunun çox xoşuna gəlüb və çox iltifat eylədi, dedi:

– Bu cinsləri mən qəbul eylərəm, əmma nəqdlər sənün malun olsun, ondan ötrü, puldan təarüf olmaz.

Pəs sövdagər hərçi səy eylədi ki, Cəlali Koroğlu pulları götürsün, Koroğlu qəbul eyləməyüb, dedi:

– Xacə, sən bir kasıbkar adəmsən, gəlmüsən bu qərib yerlərdə əyalüvə ruzi qazanub aparasan. Mən bu pulları qəbul eyləmərəm.

Pəs qulamlar xonçanı və pulları götürdülər. Bəd əz an Cəlali Koroğlu özü və iyidlər bir qədər məta aldılar və qiymətin sövdagərə təslim eylədilər.

Çün Koroğlu istədi ayağə dursun, yüzün dutub sövdagərə, dedi:

– Xacə, bu gecə sən özün və təmam əhli-qafilən mənə qonaqsuz.

Pəs Koroğlu ayaqə durub atlanub və iyidlər təmam sağ və solunda gəldi öz mənzilinə və hökm eylədi ki, bir məclisi-məlikanə bina eylədilər və ənvai-əqsam nemət mühəyya amadə eylədilər. Çün axşam oldu, sövdagər, əhli-qafilə, küllən gəldilər Cəlali Koroğlunun məclisinə. Pəs onlarun hər birinün öz məqamına görə yer göstərüb əgləşdürdi və çox iltifat və nəvaziş eyləyüb bir yaxşı at və bir dəst xələt sövdagərə verdi. Əmma bu tərəfdən təmam iyidlər gəlüb öz yerlərində aram və qə-

rar dütdılar. Çün qəhvə və qəlyan və təam sərf olundu, müğənnilər bina eylədilər oxumağa və mütrüblər rəqsə gəldilər və saqilər peydərpey piyaleyi-şərab əhli-məclisə verüb, bir növilən ki, huş onların başından çıxub məsti-layəqil oldular.

Pəs əsnayi-məclisdə Cəlali Koroğlu sövdagərdən xəbər aldı ki, mənim məclisim kimi bir ali məclis və mənim iyidlərim kimi pəhləvan görmüsən? Sövdagər ərz eylədi:

– Qurbanun olum, özgə yerdə görməmişəm, əmma Dağıstanda bir nəfər var ki, onun adına Ağa xan deyəllər, çox sahibi-əzəmət və sahibi-şövkət adamdur, onun yeddi yüz qulu var ki, həmişə atlananda onun rikabində gedəllər və yaxşı dövlətli və ağır eli var və özü sənün kimin bir mərdanə iyiddur ki, hər gecə bir ağır məclis qurar və eyşü-nuşə məşğul olar. Əmma, ey Cəlali Koroğlu, onun pərdeyi-ismətdə bir qızı var ki, onun adına Şahsənəm xanım deyəllər, belə gözəldür ki, onun misli-manəndin heç vilayətdə görməmişəm və çox sahibi-kəmal və nərmənd və səvarüdür ki, əgər dava günündə at minə, yüz nəfər pəhləvan onun qabağın kəsüb, onlara cəvab verər və təmam Dağıstan xanları ona müştəri olub xastkarlıq eylədilər, heç kəsə etina eyləyüb qəbul eyləmədi.

Cəlali Koroğlu çün sövdagərdən Şahsənəm xanımun övsafın eşitdi, görməmiş ona təəşşüq yetirdi. Dedi:

– Xacə, sən qızı harda gördün?

Ərz eylədi:

– Qurbanun olum, onlar Türküstandandur, çəndan özgə adamdan qaçmazlar, xüsusən, əhli-ticarətdən. Mən bir müddət onlarun içində ticarət eyləmişəm və əlan ordan gəlürəm.

Koroğlu dedi:

– Xacə, onlarun məkanı haradur?

Xacə dedi:

– Onlar Qumuqda olullar, əmma tabistan olanda yayldaqa gedəllər.

Pəs o gecə nisfə kimin sövdagər qaldı Cəlali Koroğlunun məclisində və qızun tərifin o qədər eylədi ki, Koroğlu onun eşqindən aram duta bülmədi. Çün nisfi-şəb oldu, sövdagər

ərz eylədi.

– Qurbanın olum, bizi mürəxxəs eylə, gərək sübh tüluunda köç eyləyək.

Pəs Koroğlu onları mürəxxəs eyləyüb, əhli-məclis mütəfərriq olub hər kəs öz mənzilində istirahətə məşğul oldı. Əmma Cəlali Koroğlu o gecə sübhə kimin Şahsənəm xanımun eşqindən yatmıyub fikr eylərdi ki, ayə nə tövrlən onu ələ gətirsün. Hərçənd fikr eylədi, gördü özündən səvayi özgə adam gətirə bilməz. Çün sübh oldu, ayaqə durub, namazın qılub, gəldi divanxanəsinə, hökm eylədi ki, təmam iyidlər cəm oldular və hər kəs öz yerində aram dutdılar.

Pəs Cəlali Koroğlu yüzün dutub iyidlərə, dedi:

– Cəmaət, mən istərəm bir səfər eyləyəm. Gərək ta mən gəlincə aramilən əgləşüb hes yanə hərəkət eyləmiyəsüz.

Dəmirçioğlu ərz eylədi:

-Qurbanun olum, hara səfər eyləyəcəksən?

Pəs Cəlali Koroğlu sazın götürüb basdı sinəsinə, yüzün dütüb Dəmirçioğluna, dedi:

Çağırun Mehtəri, gətirsün atı,
Qoç Koroğlu Dağıstana gedər, hey!
Nazlı yardan gəldi səfər baratı,
Qoç Koroğlu Dağıstana gedər, hey!

İyid gərək çəkə namusu, arı,
Bivəfa dünyadır, yox etibarı,
Ağlar qoydum Paşa qızı Nigarı,
Qoç Koroğlu Dağıstana gedər, hey!

Gətirün Eyvəzi, cəmalın görüm,
Şikəstə könlümə təssəlli verüm,
Darıyum tellərin, zülflərin hörüm,
Qoç Koroğlu Dağıstana gedər, hey!

Koroğluyam, mənim deyilür adım,
Şahlar-şahı Əli versün muradım,
Mən gəlincə dağılmasun busatım,
Qoç Koroğlu Dağıstana gedər, hey!

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Dəmirçioğlu ərz eylədi:

– Qurbanun olum, bir qərib sövdagərun sözü ilə burdan Dağıstana getməgün heç məsləhət dəgül. Sən bir qədri aram dut, bizlər gəlüb-gedəndən bir əhvalat, soraq dutaq, əgər bu sözin sihhəti olsa, o vaxt ixtiyarun var.

Koroğlu dedi:

– Sövdagərun bu sözü demaqdan və bu xəbəri vermaqdan mənə sən belə xəyal eylərsən ki, yalan dedi, mənim onun ilən irəlidən bir ədavətim yoxumdu ki, mənə yalan desün, labüddəm, gərək bu səfərə gedəm.

İyidlər elə bunu eşidəndə təmam birdən ərz eylədilər ki, ey Cəlali Koroğlu, Dağıstan bir bərk yerdür, mahaldur sənün ordan qız gətirməgün. Əbəs yerə özün həlakətə salma və əlavə bər in ləkzi tayfası bir səxtdil adımdur, bizlər sənün bu səfərün məsləhət bilməruq. Cəlali Koroğlu çün iyidlərdən bu sözü eşitdi, bir gözünün yaşın töküb, sazın götürüb basdı sinəsinə, yüzün dutub iyidlərə tərəf, dedi:

Mən bir güləm, naşı bağban əlində,
Kim bilür qədrimi kimə yalvarım.
Heç gül mənim kimi tazə-tər olmaz,
Özüm gedüm nazlı yara yalvarım.

Mərd iyidlər üzülməsin qatardan,
Səyrağiblər qurtulmasın azardan,
Köylüm həsrət çəkər, gözüm didardan,
Tapulmaz dərdimə çarə, yalvarum.

Çərxi dönmüş fələk oynar həmişə,
Rücu eylər məni hərdən bir işə,
Dəli köyül nədən düşdün təşvişə,
Səməndər tək gedüm narə yalvarım.

Qoç Koroğlu gərək çəkə bəlalər,
Dağıda şəhərlər, yıxa qalalər,
Dağıstan şəhrində sikkə çalalər,
Şahlar şahı Kirdikarə yalvarım.

Çün Koroğlu sözin təmam eylədi, iyidlər gördü mümkün dəgül ki, Cəlali Koroğlu bu səfəri tərk eyləsün və Şahsənəm xanumun məhəbbəti bunun göylündə belə nəqş bağlıyub ki, əgər təmam əhli-aləm gəlüb bunu mən eyləyələr, hərgiz onun məhəbbətindən qayıtmayacaq. Ərz eylədülər ki, ey Cəlali Koroğlu, imdi ki, iradun Dağıstana getmaqdur, bizləri də yanunca apar ki, hər yerdə sənə bir düşmən xuruc eyləsə, biz onun şərrin səndən dəf eyləyaq.

Koroğlu dedi:

– Mən sizün zəhmətüvüzə razı olmaram, gərək özüm yalquz gedəm.

İyidlər dübarə ərz eylədilər:

– Bu Dağıstan səfərüdür, əlavə bər in sövdagərün təqriri ilən Ağa xanun eli var və yaxşı atlısu var və özü bir qəvi-heykəl pəhləvandur, əlbəttə, sənün yalquz getmağun məsləhət dəgül.

Cəlali Koroğlu dedi:

– Əlac yoxdur, gərək özüm yalquz gedəm, əmma hərgah sizün, gəlmax meylüz olsa, bir müddət məndən sora mənim dalımca gəlün.

İyidlər dedilər:

– Qurbanun olum, imdi bizi aparmasan, iki-üç nəfər bizdən öz yanunca apar ki, laməhalə sənə yolda xidmət eyləyaq.

Koroğlu yüzün dutub iyidlərə, dedi:

Mərd iyidlər, qulaq verün sözümə,
Düşübdü köylümə yalquz getməgim.
Eyvəz balı, qiya baxma üzümə,
Düşübdü köylümə yalquz getməgim.

Baş qoyaram nazlu yarun yolunda,
Kimsənə gəlməsün sağu– solumda,
Misri qılıc əldə, qalxan qolumda,
Düşübdü köylümə yalquz getməgim.

Dağustanun ölkəsini gəzərəm,
Tərlan kimin gədikləri süzərəm,

Ləkziyənün başlarını əzərəm,
Düşübdü göylümə yalquz getməgim.

Koroğluyam, Dağıstanı çaparam,
Ağa xanun qollarını çataram,
Axtaruban Şahsənəmi taparam,
Düşübdü köylümə yalquz getməgim.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, hökm eylədi Dəli Mehtər Qıratun zin-nəmədin qoyub üstünə, yeddi yerdən onun təngin möhkəm eyləyüb çəkdi Cəlali Koroğlunun bərabərinə. Pəs Koroğlu dava libasların əgninə geyüb Qırata səvar oldu. Təmam iyidlər atlarına səvar olub iki ağac yol Koroğlunun rikabında gəldilər. Pəs Koroğlu onları vida eyləyüb qəytərdi, əmma özü Dağıstan yolun dutub, bina eylədi getmağa.

Pəs mənzilbəmənzil gəlüb, ta inki Dərbəndi keçüb ayağın qoydu Dağıstan toprağına. Əmma orda bir Qulu xan adlu var idi ki, çox rəşid pəhləvan və səvarə idi ki, yalquz min atluya bərabərlıq eylərdi, neçə nəfər atlu ilən şikarə çıxmışdı. Uzaqdan Cəlali Koroğlunu gördü öz adamlarından birinə, dedi:

– Get, gör o atlu hardan gəlür və harıya gedir?

Pəs o atlu gəldi Cəlali Koroğlunun bərabərinə, gördü bir cavandur, çox dilavər, əmma əlində bir saz at üstündə gedər, dedi:

– Canım, hardan gəlürsən və harıya gedirsən?

Koroğlu dedi:

– Canım, mən aşığam, gedirəm Dağıstan vilayətində, bəlkə bir para qazanam, aparam öz əhli-əyalımun yanına.

Pəs o şəxs qayıdub gəldi Qulu xanun yanına, ərz eylədi:

– Qurbanun olum, aşıqdur gəlüb, gedər Dağıstan tərəfinə, əmma əcəb zorba cavandur. Buğlaru kəl buynuzu kimi binaguşinə gəlüb.

Qulu xan çün bunu eşitdi, dedi:

– Əcəb oldu, biz bu gün şikarə çıxmışuq. Gedün o aşığı gətürün, bir qədri bizə söhbət eyləsün, bir qədri ona yol xərci verək.

Pəs neçə nəfər Qulu xanun nökərlərindən gəlüb Cəlali Ko-

roğlunun yanına, dedilər:

– Aşıq, Qulu xan istər ki, bir qədər ona söhbət eyləyəsən, ta sənə yol xərci verə.

Pəs Koroğlu gəldi Qulu xanun bərabərinə. Gördü Qulu xan vaqeən bir cavandur ki, səvarəlıqda onun mislü-manəndi yoxdur. Əgər bunilən dava eyləyə, buna hərif ola bülməz. Pəs səlam eyləyüb, durdu. Qulu xan nəvaziş eyləyüb, dedi:

– Canım, harıya gedirsən?

Koroğlu dedi:

Gedirəm Dağıstan vilayətlərində bir qədər dolanam, bəlkə bir şey ələ salam.

Qulu xan dedi:

– Aşıq, adun nədür?

Koroğlu dedi:

– Xan, mənim adıma Aşıq Roşan deyəllər.

Qulu xan dedi:

– Aşıq Roşan, yaxşı oldu, biz bu gün şikarə gəlmüşux, əgləşax bu çeşmələr başında, bir qədri bizə söhbət eylə.

Pəs bir çeşmənün başında düşdülər. Cəlali Koroğlu sazın kök eyliyüb basdı sinəsinə, bu türkini oxudu:

Ay ağalar, sizə tərif eyləyüm,
Qulu xandur Dağıstanun böyügü.
Qulluğuzda neçə türki söyləyüm,
Qulu xandur Dağıstanun böyügü.

Düzülübdür sağ-solunda qulları,
Oğrudan, əgridən saxlar yolları,
Məclisinə gəlur ağır xanları,
Qulu xandur Dağıstanun böyügü.

Dağıstan tək ulusu var, eli var,
Süsən-sünbül, çay, çəmənli güli var,
Ağır-ağır ilxısı var, pulu var,
Qulu xandur Dağıstanun böyügü.

Aşıq Roşan Dağıstana gəlübdür,
Eşq əlindən bağrın başın dəlübdür,

Ala gözlü Şahsənəmi sevübdür,
Qulu xandur Dağıstanün böyügü.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Qulu xanun çox xoşuna gəldi. Dedi:

– Aşıq Roşan, daxi səni qoymaram özgə yerə gedəsən. Bir müddət qal mənim yanımda və mənə söhbət eylə, ta sənə pul verüm apar öz vilayətivə. Əmma Aşıq Roşan Şahsənəm kimdür ki, onu dedün?

Koroğlu dedi:

– Xan, o mənim namzədimdür.

Qulu xan dedi:

– Aşıq Roşan, xatircəm ol ki, mən onun toy tədarükünü görüb səni yola sallam, ta gedüb toyun eyləgilən.

Pəs atlanub bir qədər şikar eylədilər, əmma Cəlali Koroğlu bir neçə şikar eylədi. Qulu xan gördi Aşıq Roşan yaxşı at dolandurur və yaxşı şikar eylər, təəccüb eylədi ki, aşıq tayfəsi harda görüb at çapub, şikar eylamağı. Pəs şikargahdan qayıdub gəldilər Qulu xanun mənzilinə. Cəlali Koroğlu gördi yaxşı səfalı yaylaqdur ki, hər tərəfdən sular caridür. Pəs bir ay təmam Cəlali Koroğlu qaldı Qulu xanun evində və hər gün Qulu xan ona nəvaziş eyliyüb, hörmətin artururdı və neçə xələt Cəlali Koroğluya verdilər. Əmma gündüzlər atlanub şikara gedərdilər və gecələr Cəlali Koroğlu onlara söhbət eylərdi, bir növilən ki, huş Qulu xanun başından çıxardı. Qulu xan dedi:

– Aşıq Roşan, xatircam ol ki, daxi mən səni qoymaram kənarə gedəsən, gərək həmişəlik mənim yanımda qalasan, inşallah, adam göndərrəm sənün namzədün Şahsənəm xanımı gətürüb, toyun dutaram.

Pəs Cəlali Koroğlu bir müddət məəttəl qaldı, ta bir gün bir yandan iyidlərün məfariqəti və bir yandan Şahsənəm xanımun eşqi ona qələbə eyləyüb sazın götürüb basdı sinəsinə, dedi:

... fələk, gör, nə gətdi başıma,
Ayrı saldı ulusumdan, elimdən.
Rəhm etmədi gözdən axan yaşıma,
Ayrı saldı ulusumdan, elimdən.

Gecə-gündüz mən eylərəm fəğanı,
Əcəb qoydum yar yolunda bu canı,
Hanı Eyvəz, Çamlıbelin sultanı,
Ayrı düşdüm ulusumdan, elimdən.

Bulud kimin qaralmışam, dolmuşam,
Qızılgül tək saralmışam, solmuşam,
Nə müddətdir vətəndən ayrılmışam,
Ayrı düşdüm ulusumdan, elimdən.

Qoç Koroğlu dərd əlindən qocaldı,
Yad ölkədə əfqan səsi ucaldı,
Şamu-Hələb Ərzurumdan bac aldı,
Ayrı düşdüm ulusumdan, elimdən.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, bina eylədi hay-hayilən ağlamağa. Qulu xan dedi:

– Aşıq Roşan, niyə ağlarsan, məgər sənə bir adam tərki-ədəbluq eyliyüb?

Koroğlu dedi:

– Sənün dövlətündən kimün nə həddi var ki, mənə tərki-ədəbluq eyləsün, əmma öz qəriblığıma ağlaram.

Qulu xan dedi:

– Aşıq Roşan, mənim şinaxtımı itürmə, sən aşıq dəgülsən. Mənə yəqin olan budur ki, sən bir el sahibi olasan.

Koroğlu dedi:

– Bəli, yaxşı tanımusan, mənim adıma Cəlali Koroğlu deyəllər.

Qulu xan elə bunu eşidəndə qolların saldı Koroğlunun boynuna, dedi:

– Ey Cəlali Koroğlu, məni bağışlagilən ki, mən bu müddətdə səni tanımamışam.

Koroğlu dedi:

– Qulu xan, əlhəmdüllah, bu müddətdə səndən mənə bir yamanlıq yetişməyüb, beğeyr əz yaxşılıq.

Qulu xan dedi:

– Bəs sən hara, Dağıstan hara ki, yalquz, təku-tənha gəlm-

üsən. Mən eşitmişəm sənün yaxşı iyidlərün var və yaxşı elün və qəbülön var.

Koroğlu dedi:

– Bəli, əmma qəzayi-rəbbanidən belə ittifaq düşüb ki, yalquz Dağıstana gəlmişəm.

Qulu xan çox təkid eylədi. Koroğlu dedi:

– Qulu xan, doğrusu, gəlmişəm Qumuq şəhrinə gedəm Ağa xanun qızı Şahsənəm xanımı aparam.

Qulu xan elə bunu eşidəndə, dedi:

– Ey Cəlali Koroğlu, mən Ağa xannan həmişə dava eylərəm, aralığımızda ədavət var, hərgah bir-birilən düşmən olmasayduq, yəqin gedüb onu sənə gətürürdüm. Əmma bülürəm ki, aralığımızda ədavət var, mənim sözümü qəbul eyləməz, əmma çün əvvəlindən mənə qonaq oldun, labüddəm, gərək sənün ilən gedəm.

Cəlali Koroğlu dedi:

– Qulu xan, mən sənün zəhmətüvə razı olmaram, inşallah, özüm yalquz gedərəm.

Pəs Qulu xan Cəlali Koroğluynan qardaş olub, dedi:

– Ey Cəlali Koroğlu, sən get, əmma mən həmişə sənün sorağında ollam, hərgah bir yerdən sənə birisi azar eyləyə, kömək eylərəm.

Cəlali Koroğlu Qulu xanı vida eyləyüb ordan xaric olub. Qumuq yolun dutub, bina eylədi getməgə. Mənzilbəmənzil gəlüb, ta inki bir gün zöhr vəqti özün yetürdi Qumuq şəhərinə gəldi bir karvansarada mənzil eylədi. O gecə karvansarada qalub rahət oldu. Eylə ki sübh oldu, sazın götürüb çıxdı Qumuqun meydanına. Bir qədər söhbət eylədi. Qumuq əhli təmam yığıldılar onun başına, gördülər bir əcəm yanşağı gəlüb, belə eylər ki, huş adamın başından çıxar. Pəs Cəlali Koroğlunun şöhrəti təmam Qumuq şəhərini dutub, ta inki bu xəbər yetişdi Qumuqun hakimi Ağa xanun qulağına. Ağa xan bir neçə nəfər adam göndərdi ki, gedün, onu gətirün, görüm, necə söhbət eylər? Pəs neçə nəfər ləkzi gəlüb Cəlali Koroğlunun yanına, dedilər:

– Əcəm oğlu, Ağa xan səni istiyüb ki, ona söhbət eyləyəsən.

Koroğlu ayağa durub özün yetürdi Ağa xanun məclisinə,

gördü bir ali məclisdür ki, təmam Qumuqun böyükləri o məclisdə əgləşüb. Əmma o talarun ğürfələrində neçə nəfər övrət əgləşüb tamaşa eyləllər. Koroğlu dürüst baxdı, gördü o ğürfələrdən birində bir nazənin-sənəm əgləşüb, əmma onun ətrafında neçə nəfər kəniz durub. O nazənin belə sahibi-camaldur ki, onun misli təmam aləmdə yoxdur. Koroğlu yəqin elədi ki, bu, həman Şahsənəm xanumdur ki, sövdagər onu tərif eyləmişdi.

Cəlali Koroğlu onu görcək aşiqi-biqərar olub inani-ixtiyarın əldən verdi. Pəs daxil oldu, salam verdü. Ağa xan Koroğluya nəvaziş eyləyüb yer göstərdi. Koroğlu əgləşdi, əmma Şahsənəm xanum ğürfədən tamaşa eylərdi, gördü aşıq bir iyiddür ki, buğları binaguşinə çəkülüb ki, bunun kimin iyid təmam Dağıstanda yoxdur. Həman saat o da Cəlali Koroğluya aşiq oldu.

Pəs Ağa xan yüzün dutub Koroğluya, dedi:

– Aşıq, hardan gəlürsən?

Koroğlu dedi:

– Xan, bizlər türki sölərüq, qoy, deyum hardan gəlmüşəm.

Ağa xan dedi:

– Aşıq, imdi ki, türki söylərsən, Cəlali Koroğlunun türkilərindən söylə ki, bir qədər ləzzət aparaq.

Pəs Cəlali Koroğlu sazın basub bağrına, yüzin dutub Ağa xana, dedi:

Sənə qurban, dağıstanlı Ağa xan,
Kim olacaq Koroğluya bərabər!
Ağır elli, ağır xanlı, Ağa xan,
Kim olacaq Koroğluya bərabər!

Götürəndə əgri qılıc dəstinə,
Cəllad olub düşər qənim üstünə,
Urum qurban onun zərbü-şəstinə,
Kim olacaq Koroğluya bərabər!

Təkəlü tək arxası var, eli var,
Neçə yerdə axçası var, pulu var,
Eyvəz kimin saqisi var, qulu var,
Kim olacaq Koroğluya bərabər!

Bödəvləri çəkülübdür kəməndə,
Çardaqlıda, Çamlıbelün çəməndə,
Görməmişəm, Şamu-Hələb, Yəməndə,
Kim olacaq Koroğluya bərabər!

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Ağa xan dedi:

– Aşıq, əcəb tərif eylədün Cəlali Koroğlunu. Aya, sən özün onu görübsən?

Dedi:

– Bəli, görmüşəm.

Ağa xan dedi:

– Aşıq, necə iyiddür?

Koroğlu dedi:

– Xan, elə məni gör, onu gör. Deyərsən, bəs, ikimiz biruq, qədd-qamətdə heç təvavütümüz yoxdur.

Ağa xan və əhli-məclis güldülər. Pəs Ağa xan dedi:

– Aşıq, bir qədər bizə söhbət eylə ki, ləzzət aparaq.

Cəlali Koroğlu gözün dolandurub bir Şahsənəm xanuma baxdı. Gördü qara zülflərin sağdan-sola töküb, əmma iki gözlərün Cəlali Koroğluya dikib baxar. Koroğlu elə bunu görəndə, eşqi cüşə gəlüb, sazın götürüb basdı sinəsinə, bu türkini oxudu:

Ay ağalar, gözəl sevdüm,
Məni dərdə salar gördüm.
Ağ yüzində qara zülfün,
Şahmar kimin çalar, gördüm.

Ərzü-halım deyim yarə,
Olmuşam mən bəxti qarə,
Gözüm düşdü bir cüft narə,
Zənbur kimin dalar, gördüm.

Şahsənəmdür, qələm qaşlı,
Doqquz hörük, qarqı saçlı,
Məni qoydu gözü yaşlı,
Özgələrə gülər, gördüm.

Koroğludur sənə saqi,
Qoynun içi behişt bağı,
Qaşlarun hərami yağı,
Çar iqlimi talar, gördüm.

Çün Koroğlu sözin təmam eylədi, Ağa xan Koroğlunun bu sözindən mütəğəyyir olub dedi:

– Anasın satdığım əcəm oğlu, nə bihudə danışırsan. Mənim qızım Şahsənəmin adın məclisdə, bu qədər adam içində gətirürsən?

Koroğlu gördü Ağa xan çox qəzəbnak olub, ərz eylədi:

– Xan, mən nə bülürəm ki, sənün qızun adı Şahsənəmdür. Mən ğərib adam, bu, Cəlali Koroğlunun sözlərindəndür ki, mən örgənmişəm və sənün qulluğunda dedüm.

Pəs ətrafdan Dağıstan xanları təmam ərz eylədilər ki, qurbanun olum, bu aşıq doğru deyir, bu, sənün məclisüvə və bu şəhərə tazə gəlübdür, sənün qızun harda görüb ki, ona aşiq olsun. Pəs Ağa xan onlarun iltmasun (qəbul) eyliyüb Cəlali Koroğluya bir yaxşı xələt verdi və mürəxxəs eylədi. Pəs Koroğlu ordan gəlüb karvansarədə öz mənzilinə.

Əmma bu tərəfdən Şahsənəm xanım çün çox sahibi-kamal idi, büldü ki, bu, Cəlali Koroğludur və buna aşiq olub. Gəlüb öz imarətinə, bir nəfər xacəsərayə dedi:

– Gedərsən, o aşıqun mənzilin tapub gətirürsən bu gecə mənə bir qədər söhbət eyləsün.

Pəs xacəsəra ayağa durub sorağ eyləyə-eyləyə gəldi, ta karvansərada Cəlali Koroğlunu tapdı, dedi:

– Aşıq, xanım buyurdu ki, bu gecə aşıq bizə qonaqdur, gərək bizə söhbət eyləyə.

Koroğlu dedi:

– Xacə, sənün xanımun kimdür?

Xacə dedi:

– Mənim xanımım Ağa xanun qızı Şahsənəm xanımdur.

Koroğlu dedi:

– İnşallah, axşam vəqti olanda, gəl, gedək.

Pəs Xacə qayıdub xanıma xəbər verdi, əmma Şahsənəm xanım hökm eylədi, xəlvət həyətdə bir talar fərş eylədilər və

yaxşı tədarük gördü. Çün gecədən bir qədri keçdi ki, Ağa xan yatdı, həman gecənin göndərub ki, Cəlali Koroğlunu gətürsün. Xacə gəldi Koroğlunun mənzilünə, dedi:

– Aşıq, bismillah, dur ayağa ki, xanım səni istər.

Pəs Koroğlu sazın götürüb yola düşdü, ta xəlvəti qapusundan daxil oldu, gördü talarda fanuslar asılub, əmma Şahsənəm xanım özü bir təxt üstündə əgləşüb və kənizlər bərabərdə durublar. Pəs ayağın qoydu talarə, səlam eylədi, durdu. Şahsənəm xanım onun cavabi-səlamın, verüb nəvaziş eylədi və yer göstərdi. Cəlali Koroğlu əgləşdi. Şahsənəm xanım dedi:

– Aşıq, biz bu gecə sənə zəhmət verduq ki, bir qədri bizə söhbət eyləyəsən, ta biz ləzzət aparaq.

Koroğlu dedi:

– Xanım, əgər istiyirsən ki, mənim söhbətimdən ləzzət aparasan, bir qədər mənə şərab ver, ta tərdəmağ olum. Bəd az an sənə yaxşı söhbət eyləyüm.

Şahsənəm xanım yüzin dutub kənizlərə, dedi:

- Bir piyaleyi-şərab gətürün.

Kənizlər bir piyalə şərab gətürüb Koroğluya verdilər.

Koroğlu onu içdi, dedi:

– Xanım, bu bir piyalə şərab mənim ağzımı yaş eyləmədi. Mənim adətim şərabə çoxdur. Ver bir tuluq şərab gətürsünlər.

Pəs xanım hökm eylədi bir tuluq şərab gətürdilər. Koroğlu o tuluq şərabı təmam içdi, şərabun nəşəsi gəlüb gözləri qan çanağı kimin qızardı. Dönüb bir Şahsənəmə baxdı, gördü zülflərin sağdan-soldan əfşan eyləyüb, töküb yüzinə. Koroğlunun dəryayi-eşqi cuşə gəlüb sazın götürüb basdı sinəsinə, yüzin dutub Şəhsənəm xanıma tərəf, dedi:

Ala gözlü, qələm qaşlı Şahsənəm,
Əlif qəddim döndərmisən yayə, sən!
Bu gözəllik səndə şəmsi-aləmdür,
Bənzəmüsən bədirlənmiş ayə, sən!

Gözlərün eyləyüb canımı candan,
Baxmağun yaxşıdur huri-qılmandan,

Yığışub gözəllər keçsələ sandan,
Oxşarsan Misirdə Züleyxaya, sən!

Dağıstanda ağır-ağır ellisən
Süsənlisən, sünbüllüsən, güllüsən,
Əcəb şirin dilli, incə bellisən,
Yaxşı saldın məni bu sevdaya, sən!

Tülək tərlan ovlağında yatar sar,
Qızılgülün çar tərəfin alur xar,
Koroğluyam, işim oldu ahu-zar,
Yaxşı saldun məni ahu-vayə, sən!

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Şahsənəm xanum Koroğlunu imtahan eyləmaqdan ötəri mütəğəyyir olub dedi:

– Əcəm oğlu, bunlar nə söz deyirsən, əgər Ağa xan bu sözləri səndən eşidə, səni rizə-rizə eylər. Sənün nə həddün var ki, Dağıstan valisinin hərəmxanasində belə biədəb sözlər danışasan?

Koroğlu dedi:

– Xanım, məni Ağa xandan qorxutma, əlhəmdullah, mənim də məmləkətim var və yaxşı iyidlərim var və təkə-türkman kimin elim var.

Şahsənəm xanım gördü bunun Cəlali Koroğlu olmağı yəqin oldu, genə bina eylədi onu qorxutmağa. Dedi:

Mən tanıdum, Çamlıbelün xanisən,
Əcəm oğlu, çox söyləmə yəbanə!
Sərhəngisən, sultanisən, xanisən,
Əcəm oğlu, çox söyləmə yəbanə!

Dağıstanun vardu böyuk xanları,
Hər yerdə var şöhrətləri, sanları,
Nahaq yerə tökdürürlər qanları,
Əcəm oğlu, çox söyləmə yəbanə!

Çox güvənmə təkəli tək elüvə,
Neçə-neçə qurd yerişli dəlüvə,
Heç götürmə bu sözləri dilüvə,
Əcəm oğlu, çox söyləmə yəbanə!

Şahsənəməm, sözin doğru söylüyüm,
Qəvvas olub dəryaları boyluyum,
Qonağımsan, heç bilmirəm neylüyüm,
Əcəm oğlu, çox söyləmə yəbanə!

Cün Cəlali Koroğlu bu sözləri Şahsənəm xanımdan eşitdi, dedi:

– Xanım, əcəb qorxudursan məni. Əvvəl gündən ki, mən Dağıstanə varid olmuşam, öz ölümümü gözümə almışam, əmma xatircəm olgilən, mənə Cəlali Koroğlu deyəllər. Əgər təmam aləm yerindən oynaya o zadı ki, mən deyəcağam, mümkün dəgül ki, əhəd mənə qədəğən eyləsün. Əmma bir neçə bənd türki gəlüb sinəmə, qoy, onları deyüm, ondan sora mürəxxəs olum, gedüm öz mənzilimə. Şahsənəm xanım dedi:

– De, görüm, nə deyəcağsan?

Pəs Koroğlu sazın götürüb basdı sinəsinə, yüzin dutub Şəhsənəm xanıma, dedi:

Dal gərdəndə qarqu kimin saçlarun,
Tavus tək silkinüb cığalanmasun.
Gah-bagah tərlanun şikarı sona,
Çalsa, qıynaqına havalanmasun.

Qədəm bas naz ilən seyri-gülşənə,
Dolan otağında məstu-məstanə,
Bir ahu gözlüsən, baxma hər yanə,
Nərgiz xəcalətdən izalanmasun.

Şeyda bülbül qonmuş budağa belə,
Lalə rəxtin çəkmiş bu dağa belə,
Qədəm basdum, gəldüm otağa belə,
Daxi yar gərdənün sucalanmasun.

Qoç Koroğlu, gülə necə xar oldu,
Gecə-gündüz işi ahu-zar oldu,
Dinə bülməz yaxşı kiriftar oldu,
Yar gərək yarından daldalanmasun.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Şahsənəm xanum biixtiyar olub qolların saldı Cəlali Koroğlunun boynuna. Bir

neçə busə onun üzündən alıb dedi:

– Ey Cəlali Koroğlu, mən səni imtahan eylərdüm. Valla, keçən gün ki, Ağa xanın məclisində səni gördüm, aşiq oldum. Hər nə məndən tərki-ədəbluq gördün, gərək əfv eyləyüb bağışlayasan. Pəs Cəlali Koroğlunu gətirib öz təxtinin üstündə əgləşdirdü və hökm eylədü kənizlər bir neçə piyalə gətürdilər. Koroğlu şərabı içib gördü Şəhsənəm xanum buna çox iltifat eylədü, cürət eyləyüb sazın götürdü, dedi:

– Xanım, bir neçə türki gəlib sinəmə, qulaq ver, onları deyüm.

Başına döndügüm, Şahsənəm xanım,
Göylüm istər ağ yüzindən busəni.
Sənə qurban olsun bu şirin canım,
Göylüm istər ağ yüzindən busəni.

İşvəli, qəmzəli çox eyləmə naz,
Göylümü-göylüvə, gəl, eylə dəm saz,
Qolun sal boynuma, eylə sərafvaz,
Göylüm istər ağ yüzindən busəni.

Gör, neylədü mənə bu çərxi-gərdun,
Yaralı göylümə gətirdün şəbxun,
Camalın gərcəgin eylədi Məcnun,
Göylüm istər ağ yüzindən busəni.

Koroğluyam, Dağıstandan bac allam,
Ğəmlər çəküb yar yolunda qocallam,
Lütfün olsa, günü-gündən ucallam,
Göylüm istər ağ yüzindən busəni.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Şahsənəm xanım qolarun saldu Cəlali Koroğlunun boynuna. Pəs Koroğlu həm qolların saldı Şahsənəm xanımın boynuna, ilan kimin bir-birinə sarışub neçə busə bir-birinin yüzindən aldılar. Koroğlu dedi:

– Ver, bir qəlyan gətirsünlər.

Şahsənəm xanım dedi:

– Ey Cəlali Koroğlu, mən sənə biədəbluq eylədüm, gərək

onların üzrxahlığına özüm sənə qəlyan gətürəm.

Pəs ayağa durub, bir qəlyan doldurub, gətürdü Koroğlunun bərabərinə. Koroğlu elə bu iltifatı görəndə, dedi:

– Xanım, elə qəlyanı saxla əllərində, bir neçə bənd türki gəlüb sinəmə, onları deyüm:

Əlində qəlyanı, qulluqda duran,
Şirin canım olsun, yar, sənə qurban!
Şəki, Şirvan, Dərbənd ilən Dağıstan,
Məğribdən Məşriqə var, sənə qurban!

Əcaib qəlyanı dutub dəsdində,
Eyib yoxdur bu gözəlin bəstində,
Ala gözlər durub canım qəsdində,
Şirin canım olsun, yar, sənə qurban!

Gözlərini dolandurub baxan yar,
Cigərimi eşq oduna yaxan yar,
Ağ gərdənə qızıl heykəl taxan yar,
Şirin canım olsun, yar, sənə qurban!

Qoç Koroğlu qurban deyüb canını,
Yar yolunda həlal edüb qanını,
Dağıstanda axır bir gün tanını,
Şirin canım olsun, yar, sənə qurban!

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Şahsənəm xanım dedi:

– Ey Cəlali Koroğlu, bir neçə türki mənim sinəmə gəlüb, qulaq ver, mən də deyüm:

Əlimdə qəlyanım, qulam qulluqda,
Qəlyanım əlimdən al, sənə qurban!
Aç qulac qollarun sal gərdənimə,
Üzümdən busələr al, sənə qurban!

Gecə-gündüz tutmaz səbrü-qərarım,
Dərdü-bəlan hər nə ki var, mən alum,
Dağıtdın başumdan fikrü-xəyalum,
Bu gecə mehmansan, qal, sənə qurban!

Dağıstan şəhrində ağır elliyəm,
İşvəli, qəmzəli, fitnə felliyəm,
Nazik bədən, əcəb incə belliyəm,
Yüzimdən busələr al, sənə qurban!

Bir divan eyləsün bizi yaradan,
Səyrağibi tez götürsün aradan,
Şahsənəməm, mənim kimi sonadan,
Yüzimdən busələr al, sənə qurban!

Çün Şahsənəm xanım sözin təmam eylədi, Cəlali Koroğlu qəlyanı alıb çəkdi. Bəd əz an Koroğlu o gecə Şahsənəm xanımı taxt üstündə qoynuna alub, əl bir-birinin gərdənində, ta sübhə kimin söhbətə məşğul oldular. Eylə ki sübh oldu, Cəlali Koroğlu mürəxxəs olub gəldi karvansarədə öz mənzilinə. Genə axşam olanda gəldi Şahsənəm xanımın mənzilinə. Xülasə, on yeddi gün Cəlali Koroğlu Qumuq şəhərində qalub gündüz karvansarədə qalurdu, əmma gecələr olanda gəlürdü Şəhsənəm xanumun mənzilinə, ta sübhə kimin güzəran eyləyüb eyşü-işrətə məşğul olurdular, ta inki bir gecə Cəlali Koroğlunun yaduna Eyvəz balı və iyidlər düşdü. Yüzin dutub Şəhsənəm xanuma, dedi:

– Mən istərəm öz məmləkətimə gedüm, gərək məni mürəxxəs eyləyəsən.

Şahsənəm xanım dedi:

– Ey Cəlali Koroğlu, hara qoyaram səni gedəsən, qal burda, ləzzət aparaq.

Koroğlu dedi:

– Xanım, əgər sənün meylün olsa, səni də öz məmləkətimə aparram.

Şahsənəm xanım dedi:

– Yaxşı deyirsən, əmma mən qorxaram ki, atam Ağa xan xəbərdar ola. Yeddi yüz qulu var ki, hər biri bir Rüstəminamdardur, bizim dalımızca gələ, bizləri dutub həlak eyləyə.

Koroğlu dedi:

– Xanum, ehtiyat eyləmə. Əgər sənün atan Ağa xandur, mənim də adıma Cəlali Koroğlu deyəllər ki, Rum məmləkəti

təmam mənim qılıcımın qorxusundan titrər və uşaqlarun yanunda mənim adım gələndə ağlamaqdan sakit olub aram dutallar. Sən bir növ eylə ki, biz Qumuq şəhərindən kənarə çıxaq. Ondan sora daxi ehtiyat eyləmə. Əgər təmam Dağıstan iyidləri yerindən oynaya, hərif olmazlar.

Şahsənəm xanım dedi:

– Ey Cəlali Koroğlu, mənim də meylim getmaqdadur, əmma mənə gərək bir yaxşı at tədarük eyləyəsən.

Cəlali Koroğlu dedi:

– Xanım, bu, bir asan qulluqdur. Səbah sənin üçün bir yaxşı at allam.

Şahsənəm xanım dedi:

– Ey Cəlali Koroğlu, o atlardan fayda yoxdur. Mənim atam Ağa xanun bir atı var ki, ona Alapaça deyəllər, əgər onu bir hiylə ilə ələ salsun, yaxşudur ki, Dağıstan içində o atı heç at dutmaz.

Koroğlu dedi:

– Xanım, səbr eylə, görüm, bəlkə bir hiylə ilə onu ələ gətirüm.

Pəs o gecə orda qalub. Eylə ki sübh oldu, gəlüb öz mənzilinə, Qıratı rahat eyləyüb sazın götürüb gəldi Ağa xanun sərtöyləsinə, salam verüb əgləşdi. Mehtər xəbər aldı:

– Canım, hardan gəlürsən?

Koroğlu dedi:

– Mehtərbaşı, mən Əcəm içindən gəlmişəm.

Mehtər dedi:

– Canım, mənə nisbət qulluqun nədir?

Koroğlu dedi:

– Mehtərbaşı, mən aşığam. Mənim də bircə atım var, əmma xərcim yoxdur. Qərib vilayət, heç kəs məni tanımaz. Gəlmişəm ki, bir qədər kah və cov verəsən, mən aparam, o hevanə verəm.

Mehtərin ürəgi yandı, dedi :

– Canım, çün qəribsən və özün həm aşıqsan, özün də və atın da hər nə qədər bu vilayətdə varsan, mənə qonaqsan.

Koroğlu dedi:

– Mehtərbaşı, mənim atım madyandır, bu atlar ilən saziş

eyləməz, əgər iltifatun olsa, bir qədər kah və çov verürsən, mən aparub o heyvana verrəm. Mehtərbaşı dedi:

– Canım, nə maneyi var, atun xərcin apar, əmma özün hər gecə burda mənə qonaqsan.

Pəs Koroğlu qəbul eyləyüb bəhanə üçün bir qədər kah və çov alub yola düşdü. Çün axşam oldu. Qıratı zin edüb, aparub verdi. Bəd əz an odabaşını çağırub onun hesabın görüb pulların verdi, dedi:

– Mən bu gecə gedəcaqam, əmma əvvəl şəb bir yerdə qonaqam. Atım qalsun, hər vəqt ki, qonaqlıqdan gəldüm, qapını aç ki, öz atımı aparum.

Pəs ordan çıxub gəldi sərtöyləyə mehtərün yanına. Eylə ki təamların tənəvül eylədilər, Cəlali Koroğlu sazın götürüb mehtərə bir qədər söhbət eylədi ki, huş mehtərün başından çıxdı, dedi:

– Canım, gərək hər gecə burda mənə qonaq olasan.

Eylə ki bir qədər gecədən keçdi, mehtər yatdı. Cəlali Koroğlu ayaqə durub bir şeşpər mehtərin başından elə urdu ki, məğzi dağılub cəhənnəmə vasil oldu. Pəs girüb töyləyə həman Alapaça atı zin eyləyüb, özün yetürdi Şahsənəm xanımun mənzilinə, dedi:

– Xanım, daxi oturmaq vəqti dəgül ki, fürsət keçər, Alapaçanı zin eyləyüb hazır etmişəm.

Pəs Şahsənəm xanım ayaqə durub, bir qədər qızıl və gümüş və zərrinə libas qoyub bir boxçuya, qoydu xurcuna, Cəlali Koroğluynan belə gəldilər sərtöyliyə. Alapaça atı çıxarub Şahsənəm xanımı səvar eylədi. Ordan gəlüb karvansəranun qapusına, qapunı dögdü. Karvansarədar qapunı açüb. Koroğlu Qıratını çəküb kənarə, ayaq həlqeyi– rikabə qoyub murği-zərrinbal kimin xaneyi-zində qərar dutub. Pəs onlarun hər ikisi Qumuq qələsindən xaricə çıxdılar, əmma Cəlali Koroğlu dedi:

– Xanım, bir neçə bənd türki gəlüb sinəmə, qoy, onları deyüm, ondan sora gedax.

Pəs həman yerdə, at üstündə sazın götürüb basdı sinəsinə, dedi:

Ağa xandan aldum şikar,
Sinəm gümür-gümürlənür!
Süzdürmə gözlərün xumar,
Sinəm gümür-gümürlənür!

Dəstimi, verdüm dəstinə,
Mindirdüm atun üstünə,
Gözüm düşdü ağ köskünə,
Sinəm gümür-gümürlənür!

Yar yolunda ölmək gərək,
Saraluban solmaq gərək,
Peymanə tək dolmaq gərək,
Sinəm gümür-gümürlənür!

Koroğluyam, Çamlıbelli,
Bir yar sevdim işgə belli,
Ala gözlü, siyəh telli,
Sinəm gümür-gümürlənür!

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Şahsənəm xanımı götürüb yola düşdü. Gecə və gündüz yatmayub sürəti-təmamilən yol gedirdilər.

Qoy bunları getməgdə olsun, əmma nəqli-dastan eşit iyidlərdən. Çün Cəlali Koroğlunu təkü-tənha Dağıstana yola saldılar, ordan qayıdub bir neçə gün Çamlıbeldə oturdular. Bir gün Eyvəz iyidləri cəm eyləyüb dedi:

– Cəmaət, Cəlali Koroğlunun Dağıstana yalquz getməgi yaxşı olmadı. Məbadə, Ağa xan onu dutub, həlak eyləyə. Məsləhətdür ki, bizlər onun dalınca gedək.

Pəs iyidlər təmam tədarüklərin görüb yola düşdülər. Mənzilbəmənzil gəlürdilər, ta inki bu tərəfdən Cəlali Koroğlu həm Şahsənəm xanımı neçə mənzil Qumuqdan çıxarub Dərbənd həvalisində sübh vəqti bir çeşmənün başında əgləşmişdilər ki, bu tərəfdən Eyvəz balı və iyidlər uzaqdan nimudar oldılar. Şahsənəm xanım dedi:

– Cəlali Koroğlu, qabaqdaq qoşun gəlür.

Koroğlu o qoşunu görəndə belə xəyal eylədi ki, düşmən-

dür. Həman saat Qıratun təngin möhkəm eyləyüb mühəyya və amadə oldu ki, hərgah düşmən olsa, onlar ilə dava eyləsün. Çün o qoşun yavuqlaşdı, Koroğlu gördü bunlar düşmən dəgül, belə ki, Eyvəz balı qabaqca və iyidlər təmam onun dalınca mükəmməl və müsəlləh gəlüllər. Koroğlu eylə ki onları görəndə, dedi:

– Xanım, ehtiyat eyləmə ki, bunlar təmam mənim iyidlərimdür.

Şahsənəm xanım çox şad oldu, dedi:

– Ey Cəlali Koroğlu, Eyvəz balı bunlarun içində hansıdur ki, sən bu qədər onu tərif eylərsən.

Koroğlu sazın götürüb dedi:

– Xanım, qulaq ver, deyüm ki, bunlarun hansı Eyvəzdür?

Canım xanım, gözüm xanım,
Alagöz Eyvəzim gəldi.
Sənə qurban şirin canım,
Alagöz Eyvəzim gəldi.

İyidlərim sağu-solda,
Durna tək düzülüb yolda,
Qılıc beldə, qalxan qolda,
Alagöz Eyvəzim gəldi.

Tökübdür zülfünü hər yan,
Göyül mülkün eylər viran,
Yay qatı tək əldə kəman,
Alagöz Eyvəzim gəldi.

Koroğlunun Süleymanı,
Çamlıbelün böyük xanı,
Bəsani-Yusifi-sanı,
Alagöz Eyvəzim gəldi.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, əyağa durub iyidləri pişvaz eylədi. İyidlər çün Cəlali Koroğlunu gördilər, təmam şad oldılar. Pəs çeşmənün başında atlardan aşağə gəlüb üç gün orda əgləşdilər. Bunları qoy burda qalsun, əmma nəql eşit Ağa xandan.

Çün Cəlali Koroğlu Ağa xanun mehtərin həlak eyləyüb və onun Alapaça atun töylədən çıxarub, Şahsənəm xanımı mindirüb yola düşdü, o gecə keçüb, eylə ki sübh oldu, Ağa xan gəldi töyləyə, gördü, mehtər ölüb, əmma Alapaça at həm töylədə yoxdur. Fəryad eyləyüb qulların çağırdı. Yeddi yüz qul onun başına cəm olub hərçi fikr eylədilər ki, bu mehtəri kim öldürüb və Alapaça atı kim aparub. Onlarun xəyalı bir yana getmədi. Mat və mütəhəyyir fikr eylərdilər, bir vəqt gördülər ki, hərəmxanədən şivən səsi ucaldı.

Ağa xan dəst-paçə olub özün yetürdi hərəmxanəyə. Xəbər aldı kənizlərdən:

– Nə var ki, belə ağlarsuz?

Ərz eylədilər ki, Şahsənəm xanım yoxdur. Ağa xan dedi:

– Kim hərəmxanəyə gəlürdü?

Kənizlər ərz eylədilər:

– Qurbanun olum, kimsənə hərəmxanəyə gəlməyüb, məgərinki necə gecədür ki, o əcəm yanşaqı gəlüb söhbət eylərdi.

Ağa xan elə bunu eşidəndə əl uzadub durdu saqqalın yolmağa.

Qulamlar ərz eylədilər:

– Qurbanun olum, niyə belə eylərsən?

Ağa xan dedi:

– Cəmaət, mən dedim ki, bu aşıq Cəlali Koroğludur ki, Dağıstan vilayətində məni rüsva eylədi. Bu əməl heç kəsün işi dəgül, məgər o anasın satdıqım Cəlali Koroğlunun işidür.

Qullar ərz eylədilər:

– Qurbanun olum, bundan ötrü heç iztirab eyləmə. İmdi onu qolu bağlu sənün xidmətüvə gətürrux.

Pəs Ağa xan həman saat hökm eylədi ki, yeddi yüz qul təmam mükəmməl və müsəlləh olub və özü də həm dava libasların geyüb atlarına səvar olub Cəlali Koroğlunun dalınca yola düşdülər. Neçə gün və neçə gecə yatmıyub sürəti-təmamilən yol gəlüb, ta inki yetişdilər həman yerə ki, Cəlali Koroğlu iyidlər ilən belə orda mənzil eyləyüb oturmuşdu.

Çün Ağa xanun ləşkərinün səvari nümayan oldu, Cəlali Koroğlu yüzin dutub iyidlərə, dedi:

– Cəmaət, yəqin bu gələn Ağa xandur ki, mənim dalımca gəlür, daxi oturmaq vəqti dəgül, durun əyaqə, atlarun təngin bərkidün.

Pəs iyidlər təmam əyağa durub əsbabi-dava geyünüb atların zin edüb səvar oldular. Əmma bu tərəfdən Cəlali Koroğlu özü qılıcun bağlıyub və cidasın götürüb Qırata səvar oldu. İyidlərilən belə Ağa xanun yolun kəsüb durdular. Çün Ağa xan yetişdi, dedi:

– Vay, nəməkbəhəram, mən sənə nə qədər məhəbbət eylədüm, əmma sən axırda məni rüsva eyləyüb qızımı və atımı götürüb yola düşdün. İnşallah, səni bir zillətlən öldürüm ki, təmam əhli-aləm sənün əhvalüvə ağlasunlar.

Koroğlu eylə bu sözləri eşidəndə Qırata bir acı məhmiz çəküb özün yetirdi Ağa xanun bərabərinə, bu türkünü oxudu:

Dəstə-dəstə düzməgilən qullarun,
Girmə mənim meydanıma, Ağa xan!
Çar tərəfdən bağladuram qollarun,
Girmə mənim meydanıma, Ağa xan!

İyidlərim bir-birindən adlıdur,
Dəmir geyim, qolçaqı fuladlıdur,
Eyvəz balı hamusından dadlıdur,
Girmə mənim meydanıma, Ağa xan!

Dağıduram Dağıstanun ölkəsin,
Çapdıruram başdan, dibə cümləsin,
Qoymam düşə ləkziyyənün kölgəsin,
Girmə mənim meydanıma, Ağa xan!

Koroğluyam, Təkəlü tək elim var,
Düşmən üstə uzun-uzun dilim var,
Gör, dalımca neçə dəstə dəlim var,
Girmə mənim meydanıma, Ağa xan!

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Ağa xan qəzəbnak olub yuzin dutub qullarına, dedi:

– Cəmaət, qoymuyun, bu anasın satdığım xırsızı!

Pəs yeddi yüz qulam çahar ətrafdan Koroğlunu aldılar arayə.

Cəlali Koroğlu əhvalı belə görəndə yüzin dutub öz iyidlərinə, dedi:

Sağu-soldan əgri qılıc uranlar,
Dəv gətirün bu ləşkərün üstünə.
Cida silküb ğənim atdan salanlar,
Dəv gətirün bu ləşkərün üstünə.

Bu dəvləri yavaş-yavaş dindirün,
Çardaqlıdan misri qılıc endirün,
Qabaqdakı dəstələri sındırun,
Dəv gətirün bu ləşkərün üstünə.

Bir od urun Ağa xanun canına,
Güvənməsün qullarınun sanına,
Cəndəgini bulaşdırun qanına,
Dəv gətirün bu ləşkərün üstünə.

Koroğluyam, misri qılıc çəkərəm,
Ağır-ağır dəstələri bükərəm,
Düşmən başın dünlə kimin tökərəm,
Dəv gətirün bu ləşkərün üstünə.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, hay urdu iyidlərə ki, qoymuyun bunları. Pəs iyidlər çahar ətrafdan qılıcların çəküb özlərin urdular qoşuna. Hər kimün ki başından qılıc urardılar, iki parə eylərdilər. Əmma Cəlali Koroğlu özü Ağa xanun qullarınun dəstələrin qoyun sürüsü kimin qabağına qatub qavardı.

Pəs bir saatın içində yeddi yüz nəfəri təmam qılıca çəkdilər. Ağa xan əhvalı belə görəndə yüz qoydu qaçmağa. Koroğlu dedi:

– Cəmaət, Ağa xanı sizdən istərəm. Gərək onu diri dutub mənim yanıma gətirəsüz.

Pəs iyidlər at salub iki ağac yol onu qavub. Əmma Bəlli Əhməd daldan yetişüb bir qılıc onun başından urub zəxmdar eylədi. Əmma iyidlər daldan gəlüb onu dütüb gətürdilər Cəlali Koroğlunun xidmətinə. Koroğlu dedi:

– Aparun bunun boynun urun.

Şəhsənəm xanım elə bu əhvalı görəndə özün saldı Cəlali Koroğlunun ayaqlarına, ərz eylədi:

– Qurbanun olum, gərək bunu mənə bağışlayasan.

Pəs Koroğlu onun iltimasın qəbul eyləyüb azad eylədi. Əmma Cəlali Koroğlu Şahsənəm xanımı ordan götürüb köç eylədi. Çün Qulu xanun torpağına yetişdi, Qulu xan xəbərdar oldu ki, Cəlali Koroğlu gəlür. Öz atluların göndərüb Koroğlunu istiqbal eylədi. Ərz eylədi:

– Ey Cəlali Koroğlu, gərək neçə gün mənə qonaq olasan.

Pəs üç gecə-gündüz Qulu xan onları qonaq eylədi. Ondan sora Koroğlu və iyidlər onu vida eyləyüb yola düşdülər.

Mənzilbəmənzil gəlüb, tainki özlərin yetürdilər Çardaqlınun Çamlıbelə. Pəs bir neçə gün istirahət eyləyüb yolun zəhməti dəf oldu. Koroğlu hökm eyləyüb, ta iyidlər toy busatın amadə və mühəyya eylədilər. Yeddi gün və yeddi gecə Çamlıbeli çırağan eyləyüb iyidlər eyşü-işrətə məşğul oldular. Eylə ki yeddi gün təmam oldu, məşşatələr Şahsənəm xanıma ziynət verüb onu gətürdilər Cəlali Koroğlunun otağına. Pəs onlar bir-birindən kami-dil hasil eylədilər. Əmma eylə ki sübh oldu, (Cəlali Koroğlu) təmam iyidləri hüzura istəyüb hər kəsün öz məqamına görə xələt verüb və nəvaziş eyləyüb mürəxxəs eylədi, ta öz məqamlarında eyşü-işarətə məşğul oldular.

KOROĞLUNUN ON BEŞİNCİ MƏCLİSİ

Cəlali Koroğlunun Həmis şəhərinə səfəri və oradan İsa balını gətirməsi və Koroğlunun İsa balının qardaşı Həsən Paşa ilə dava edib, onu məğlub etməsi.

Raviyani-əxbar və naqilani-asar belə rəvayət eyləyüb ki, bir gün Cəlali Koroğlu neçə nəfər iyidlərdən götürüb şikarə çıxdı. Pəs bir qədər şikar eyləyüb, kəbab çəküb, tənavül eylədilər. Bəlli Əhməd yüzün dutub Cəlali Koroğluya ərz eylədi:

– Qurbanun olum, əgər istərsən ki, yaxşı şikar eyləyəsən, bir neçə gün gedək Qazlı gölün çuxurunda səyahət eylə ki, yaxşı şikarlar orda olur.

Pəs Cəlali Koroğlu həman yanındakı iyidləri götürüb yüz qoydular Qazlı gölə getməgə. Çün yetişdilər, çün hava çox gərm idi, Koroğlu hökm eylədi bir çadır nəsb eylədilər. Pəs o çadırda əgləşüb istirahətə məşğul oldu. Eylə ki əsr vəqti oldu, gördülər bir əzim qafilə Şam tərəfindən gəlüb həman çəmənün kənarında nüzul eylədilər. Koroğlu yüzün dutub iyidlərə, dedi:

– Cəmaət, durun gedək bu qafilənün içinə. Görək hardan gəlüb və harıya gedəllər.

Pəs neçə nəfər iyidlərdən qabaqca gəlüb sövdagərbaşıya xəbər eylədilər ki, Cəlali Koroğlu istər sənün mənzilüvə gəlsün. Çün sövdagər bunu eşitdi, bir qədər töhfə hazırlıyub Cəlali Koroğlunu istiqbal eylədi. Çün Koroğlu daxil oldu sövdagərün çadırına, sövdagər töhfələrin gətürdü hüzurə, ərz eylədi:

– Qurbanun olum, bu bir mühəqqər töhfədür, gərək bunları qəbul eyləyəsən.

Koroğlu dedi:

– Sövdagərbaşı, sən nə büldün ki, mən Cəlali Koroğluyam?

Sövdagər ərz eylədi:

– Qurbanun olum, mən özüm İsfəhan əhliyəm və mənim adıma Xacə Cəmal deyəllər, Xacə Nəsir oğlu. O vəqti sənün atan Mirzə bəg İsfəhanda Şah Abbasə xidmət eylərdi, mənim atam Xacə Nəsirilən rəfiq olmuşdu ki, həmişə sirr sözlərin birbirinə deyərdilər. Əmma çün qəzayi-rəbbanidən sənün atan

Mirzə bəgi Şah Abbas ixrac eylədi, bir müddətdən sora sənün şöhrətün təmam vilayətləri basdı, o cümlədən, sənün şöhrətün İsfəhana yetişdi. Mənim atam Xacə Nəsir həmişə bu arzuda var idi ki, bəlkə sənün xidmətüvə gəlüb səni ziyarət eyləsün. Əmma ona mümkün olmuyub vəfat eylədi. Ondan sora mən çün ticarət eylərdüm, həmişə bu arzuda var idüm ki, bəlkə səni bir ziyarət eyləyəm, əmma, əlhəmdüllah, imdi mənə nəsib oldu.

Çün Cəlali Koroğlu bunu sövdagərdən eşitdi, ona çox nəvaziş eyləyüb, əhvalın soruşdu. Xacə Cəmal bir qədər dua və səna eylədi. Pəs Cəlali Koroğlu ayağə durub xudahafiz eyliyüb istədi öz çadırına gəlsün. Dedi:

– Xacə Cəmal, əgərçi biz də şikarə çıxmışuq, tədarükümüz çoxdan yoxdur, əmma bu gecə mənə qonaqsan.

Xacə qəbul eylədi. Pəs Koroğlu gəlüb öz çadırına hökm eylədi ki, yaxşı tədarük görsünlər. Pəs iyidlər həman çəməndə bir ali məclis bina eyləyüb yaxşı tədarük gördilər. Eylə ki axşam oldu, Xacə Cəmal neçə nəfər öz tabelərindən götürüb gəldi Cəlali Koroğlunun xidmətinə. Çün daxil oldu, səlam verüb, durdu ayaq üstə. Pəs Koroğlu ona yer göstərüb, əgləşdi. Bəd əz qəhvə və qəlyan və təam Xacə gördü Koroğlunun bir cəlalı var ki, heç padşahə müyəssər dəgül. Ərz eylədi:

– Qurbanun olum, mən sənün şöhrətün eşitmişdüm, əmma görməmişdüm, əlhəmdüllah, yaxşı cəlalun var.

Koroğlu bir güldü, dedi:

– Xacə, sən mənim cəlalumun yüzdən birin görmüyübsən. Mən şikarə çıxmışam. Bunları ki, gördün bizim səfər busatımızdur.

Xacə Cəmal ərz eylədi:

– Qurbanun olum, asarından məlumdur.

Pəs Cəlali Koroğlu hökm eylədi saqilərə ki, şərab gətirün. Pəs saqilər əllərində piyaleyi-şərab məclisə daxil oldular. Neçə piyalə şərab əhli-məclisə verdilər. Koroğlu dedi:

– Xacə Cəmal, mənim saqilərim necə, gözəldür?

Xacə ərz eylədi:

– Qurbanun olum, yaxşı cavandurlar, əmma mən bu səfərimdə bir cavan görmüşəm ki, onun kimin gözəl külli-aləmdə

yoxdur.

Koroğlu dedi:

– Xacə, harda görmüsən?

Ərz eylədi:

– Qurbanun olum, mən səfərimdə Rum vilayətlərinün çoxun səyahət eylədüm. O cümlədən, güzarım düşdü Həmis şəhərinə. O şəhərün bir paşası var ki, onun adına Həsən Paşa deyəllər ki, çox rəşid və dilavərdür və onun qırx min ləşkəri var. Əmma onun bir qardaşı var ki, adına İsa ağa deyəllər. Belə gözəldür ki, onun misli və manəndin nə Rumda və nə İranda görməmişəm və mən bir ildür ki, Həmis şəhərində qaldum, məhz onun camalınun tamaşasundan ötrü qaldum.

Pəs Xacə Cəmal o qədər tərif eylədi ki, Cəlali Koroğlunun meyli-məhəbbəti artub biixtiyar bu fikrə düşdü ki, getsün Həmis şəhərindən onu gətürsün.

Pəs nisfi-şəbə kimin Xacə Cəmal ilən Koroğlu söhbətə məşğul oldular. Eylə ki gecə nisf oldu Xacə ərz eylədi:

– Qurbanun olum, gərək məni mürəxxəs eyləyəsən ki, sübh vəqti qafilə köç eyləyəcaq.

Pəs Cəlali Koroğlu Xacəni mürəxxəs eyləyüb, əmma özü sübhə kimin yatmıyub fikr eylərdi ki, nə vəzilən Həmis şəhərinə gedüb İsa balını ələ gətürsün. Eylə ki sübh oldu, iyidlər atları zin eyləyüb gəldilər Cəlali Koroğlunun xidmətinə, ərz eylədilər:

– Qurbanun olum, bismillah, ayağa dur, gedək, bir qədər səyahət eyləyüb şikar eyləyaq.

Koroğlu dedi:

– Mən şikarımı aldum, sizlər burdan qayıdun Çamlıbelə. Mən gərək gedəm Həmis şəhərinə, ta İsa balını gətirüm.

İyidlər çün Cəlali Koroğludan bunu eşitdilər, ərz eylədilər:

– Qurbanun olum, bir nəfər tacirün sözilən özün ğürbət vilayətlərə salma.

Koroğlu dedi:

– Əlacı yoxdur, gərək gedəm.

Pəs iyidlər dübarə ərz eylədilər.

– İmdi ki, getməli oldun, iyidləri yanunca götür məbadə Hə-

sən Paşa bülə sən Cəlali Koroğlu(san), səni dutub həlak eyləyə.

Koroğlu dedi:

– Əlacı yoxdur, gərək özüm yalquz gedəm.

Pəs iyidlər məyus olub atların minüb bir qədər yol Cəlali Koroğlunu yola salub qayıtdılar. Cəlali Koroğlu yüzin dutub onlara, dedi:

Dəlilərim, durun, sizə söyləyim,
Qoç Koroğlu gedər oldu Həmisə.
Qulaq verün, sizə xəbər eyləyüm,
Qoç Koroğlu gedər oldu Həmisə.

Mən gəzərəm Ərəbistan düzünü,
Bəlkə görəm İsa balı yüzünü,
Zülfüqar bəg tez yetirsün özünü,
Qoç Koroğlu gedər oldu Həmisə.

İyidlərim daxi məclis qurmasun,
Bəlli Əhməd buğlarını burmasun,
Eyvəz balı Çamlıbeldə durmasun,
Qoç Koroğlu gedər oldu Həmisə.

Koroğluyam, qələləri düzlərəm,
Sirr sözümü səyraqibdən gizlərəm.
İyidlərün təmam yolun gözlərəm,
Qoç Koroğlu gedər oldu Həmisə.

Çün Cəlali Koroğlu sözün təmam eylədi, dedi:

– Mən getdüm İsa balını gətirməgə, siz gedün Çamlıbelə, neçə gün bundan sora mənim dalımca gəlün.

Pəs bir-birindən ayrulub, Cəlali Koroğlu Həmis yolun dutub tiri-şəhab kimin gecə və gündüz gedirdi, ta inki yetişdi Həmisün həvalisində bir çeşmənün başına. Atdan aşaqə gəlüb oturdu o çeşmənün başında. Bir qədər istirahət eylədi. Bir vəqt gördü neçə ədəd durna hava üzündə Çamlıbelə tərəf gedər. Cəlali Koroğluya bir yandan qürbət və bir yandan ğəriblıx təsir eyləyüb, yüzün dutub durnalarə, onlardan Eyvəz balıya və iyidlərə sifariş eyləyüb, dedi:

Gögdən ötən beş durnalar,
Xan Eyvəzə deyün gəlsün.
Bir-birindən piş durnalar,
Xan Eyvəzə deyün, gəlsün.

Uca-uca dağlar aşdım,
Qəm əlindən coşub daşdum,
Çamlıbeldən uzaqlaşdum,
Xan Eyvəzə deyün, gəlsün.

Qələm qaşlı, qara telli,
Ləbi püstə, şirin dilli,
Ağ buxaqlı, incə belli,
Xan Eyvəzə deyün, gəlsün.

Çamlıbelün böyük xanı,
Odur davalar aslanı,
Koroğlunun şirin canı,
Xan Eyvəzə deyün, gəlsün.

Çün sözün təmam eylədi, bir qədər oturub, ta axşam vəqti oldu. Pəs ayağa durub, atın minüb daxil oldu Həmisün şəhrinə. Gördü qələdən içəri bir nəfər parəduz dükkanın yığışdırub istər evinə gedə. Koroğlu dedi:

– Qoca əmu, mən qərib adaməm, bu gecə məni mehman eylə, ta sabah özümə mənzil tədarük eyləyüm.

Qoca dönüb baxanda, gördü, bir cavan at üstündə durub, dedi:

– Cavan, özüvə yerim var, əmma atuva yerim yoxdur.

Koroğlu dedi:

– Əmu, bu gecəlıx gərək mənim atıma və özümə yer verəsən.

Pəs bir əşrəfi Koroğlu parəduzə verdi. Çün parəduz əşrəfini gördü, gözləri işıqlandı. Düşdü Cəlali Koroğlunun qabağına, ta onu gətürdi öz qəpusuna. Pəs Koroğlu atdan aşağə gəlüb, atın içəri çəküb, bağladı və bir əşrəfi verdi qocaya ki, bir qədər kah və cov və bir qədər təam al gətür ki, bu gecə güzəran eyləyaq. Çün qoca bu səxavəti Cəlali Koroğludan gördü, təəccüb eylədi ki, aya, bu kimdür?!

Pəs qoca gedüb kah və cov və təam alub gətürdi. Koroğlu atın rahət eyləyüb, namazın qıldı. Qoca təam gəturub tənavül eylədilər. Bəd əz təam qoca xəbər aldı:

– Canım, hardan gəlürsən və işün nədür?

Koroğlu dedi:

– Qoca əmu, əcəm içindən gəlürəm və çox biçiz olmuşam. Gəlmişəm bu vilayətlərdə bir qədər yanşaqlıq eyləyəm, bəlkə bir qədər parə qazanam aparam öz vilayətimə əhli-əyalımnan güzəran eyləyəm. Qoca dedi:

– Canım, mənim şinaxtımı itirmə, yanşaq sənün kimin olmaz ki, əbəs yerə pul xərc eyləyə.

Cəlali Koroğlu dedi:

– Qoca, bizlər ta bir vermasaq, iki ala bilməruğ.

Pəs gecə bir qədər burdan, ordan söhbət eylədilər.

Koroğlu dedi:

– Qoca, eşitmişəm bu şəhərün paşası Həsən Paşa yanşağı çox dust dutar.

Qoca dedi:

– Canım, onun bir qardaşı var ki, adına İsa ağa deyəllər, o yanşağı çox dust dutar, əgər sən yaxşı söhbət eyləyəsən, gümanım budur ki, sənə çox şey verə.

Koroğlu dedi:

– Qoca, onu harda görmaq olur?

Qoca dedi:

– Canım İsa ağa hər gün gəlür mənim dükkanımun bərabərində durar, gəlüb-gedənə təmaşa eylər.

Pəs Koroğlu o gecəni yatub istirahət eylədi, eylə ki sübh oldu, Koroğlu və qoca yerlərindən durub gəldilər dükkana. Bir qədər oturdular. Koroğlu bir vəqt gördü bir cavan neçə nəfər nökər yanınca gəlür, əmma belə gözəl və sahibi-cəmaldür ki, onun mislü-manəndi yoxdur. Koroğlu yüzün dutub qocaya, dedi:

– Qoca əmu, bu cavan kimdür?

Qoca dönüb baxanda, dedi:

– Canım, bu həman Həsən Paşanun qardaşı İsa ağadur.

Koroğlu dedi:

– Qoca, əgər sənün acığun gəlməsə, mən burda bir qədər

söhbət eylərəm, bəlkə İsa ağadan bir qədər xərclux alam.

Qoca dedi:

– Canım, mən minnət bülləm ki, sənə parə versünlər.

Pəs Cəlali Koroğlu eylə ki qocadan izn hasil eylədi, ayağa durub, sazın götürüb, kök eyləyüb, basdı sinəsinə, yüzün dutub İsa balıya tərəf, dedi:

Sənə qurban olum, xanlarun xanı,
Əcəm oğlu səni deyin, gəlübdür.
Səndən özgə yox dərdimün dərmanı,
Əcəm oğlu səni deyin, gəlübdür.

Şeyda bülbül qızıl gülün yarıdur,
Gecə-gündüz işi ahu-zarıdur,
Didəm yaşı səni görcək carıdur,
Əcəm oğlu səni deyin, gəlübdür.

Əl götürdüm çəmənimdən, gülümdən,
Ayrı düşdüm Təkəlütək elimdən,
Doğru sözdür, eşitgilən, dilimdən,
Əcəm oğlu səni deyin, gəlübdür.

Roşan deyər, yola düşdüm piyadə,
Seyraqiblər bulunmasun aradə,
Yaxşı yerdə yetişmişəm muradə,
Əcəm oğlu səni deyin, gəlübdür.

Çün Cəlali Koroğlu sözü təmam eylədi, İsa balunun çox xoşuna gəlüb, dedi:

– Yanşaq, adun nədür?

Koroğlu dedi:

– Mənim adıma Aşıq Roşan deyəllər.

İsa balı dedi:

– Aşıq Roşan Cəlali Koroğlunun türkilərindən yaxşı sölərsən?

Dedi:

– Bəli, yaxşı sölərəm.

Pəs İsa balı Koroğulunu ordan götürüb gəldi Həsən Paşanun xidmətinə, ərz eylədi:

– Paşam sağ olsun, bir nəfər aşıq gətürmüşəm ki, yaxşı türki sölər, izn vergilən ki, bu gecə bizə bir qədər söhbət eyləsün.

Həsən Paşa çün bu sözü İsa balıdan eşitdi, dönüb Cəlali Koroğluya baxanda, gördü, bu, bir pətyarə adamdur ki, buğları kəl buynuzu kimin binaguşinə keçüb, dedi:

– Canım yanşaq, yaxşı türki sölərsən?

Koroğlu dedi:

– Paşam sağ olsun, bizlər əcəmüq, işimiz türki söləməkdür.

Həsən Paşa dedi:

– Canım, Cəlali Koroğlunun türkilərindən söləyə bülürsən?

Koroğlu dedi:

– Paşa, mən çox vəqt Cəlali Koroğlunun məclisində söhbət eylərəm.

Çün Həsən Paşa bu sözu eşitdi, dedi:

– Yanşaq, yaxşı oldu, bir qədər Cəlali Koroğlunu tərif eylə, görüm, necə adamdur.

Koroğlu bunu eşidəndə, sazın götürüb, yüzün dutdu Həsən Paşaya, dedi:

Canım Paşa, nər iyiddür Koroğlu,
Şəki, Şirvan, Nəxçivandan bac alur.
Can alıcı, qoç iyiddür Koroğlu,
Gəncə, Tiflis, İrəvandan bac alur.

Qışqıranda dəstələri dağıdur,
Can almağa əcəb oğrun yağıdur,
Eyvəz balı məclisində saqidür,
Dərbənd ilən Dağıstandan bac alur.

İl müdam çağırır sirri-sübhanı,
Mərdanədür, yaxşı eylər divanı,
Qılıcından axar düşmənün qanı,
Sinə, Saqqız, Kürdüstandan bac alur.

Qoç Koroğlu Çamlıbeldən görülsə,
Neçə müxənnətün boynu urulsa,
Roşan deyər, əgər döyüş qurulsa,
Şamu-Hələb, İslambuldan bac alur.

Çün Cəlali Koroğlu sözün təmam eylədi, Həsən Paşa dedi:

– Yanşaq, yaxşı tərif eylədün Koroğlunu. Mən eşitmişəm onun yeddi min yeddi yüz yetmiş yeddi dəlisi var ki, təmam bir-birindən pəhlivandurlar, onları tərif eylə, görüm, necə iyiddürlər?

Koroğlu sazın götürüb, dedi:

– Paşam sağ olsun, qulaq ver, onları tərif eyləyüm.

Rüstəm olmaz Koroğluya bərabər,
Çar iqlimdə onun adı bəllidür.
Dalısında dəmir donlu iyidlər,
Məsaf günü bir-birindən əllidür.

Qabağınca misri qılınc çalmağa,
Ağır-ağır ölkələri almağa,
Qarı düşmən ölkəsini yarmağa,
Gaziroğlu Mustafa bəg əllidür.

Telli Həsən ğənim üstə varanda,
Dəli Mehtər əl şeşpərə uranda,
Zülfüqar bəg sinə verüb duranda,
Bəlli Əhməd hamısundan əllidür.

Qurulanda Çamlıbeldə səf səlam,
Düzüləndə durna kimin bir nizam,
Roşan deyər, sözüm budur, il, müdam,
Qoç Koroğlu Təkəlü tək ellidür.

Çün Koroğlu sözün təmam eylədi, Həsən Paşa dedi:

– Aşıq Roşan, belə məlum olur ki, Cəlali Koroğlu sənə çox məhəbbət eyləyüb ki, onu bu qədər tərif eylərsən.

Koroğlu dedi:

– Paşam sağ olsun, onun nanu-nəməgin yemişəm, əlbəttə, gərək tərif eyləyəm.

Pəs Həsən Paşanun xoşuna gəlüb dedi:

– Aşıq Roşan, imdi hər kəs sənə məhəbbət eyləsə, onu tərif eylərsən?

Koroğlu dedi:

– Paşam sağ olsun, o zadı ki, çörək açar, qılıc açmaz.

Həsən Paşa hökm eylədi, bir yaxşı xələt və yüz tümən nəqd ona verdilər və dedi:

– Aşıq Roşan, bir müddət qal mənim yanımda ki, sənə məhəbbət eylərəm.

Pəs Koroğlu bir neçə gün orda qaldı, əmma həmişə bu fikri eylərdi ki, bəlkə bir hiylə eyləyüb İsa balını ordan aparsun, ta inki bir gün Cəlali Koroğlu gəldi Həsən Paşanun otağına, gördü otaq xəlvətdür, əmma İsa balı yalquz əgləşüb. Koroğlu dedi:

– İsa balı, mənim köylüm çoxdandur dutulub, gedərsən səyahətə?

İsa balı dedi:

– Aşıq Roşan, mənim də köylüm səyahət istər, əmma qorxaram ki, Həsən Paşa mane ola.

Koroğlu dedi:

– Həsən Paşa sənün mənimlən səyahətə getməgüvə mane olmaz. Dur ayağa, ver bir at zin eyləsünlər, bir qədər çöldə səyahət eyləyək.

Pəs İsa balı mehtəri çağırıb dedi:

– Bir yaxşı at zin eylə, gətür.

Çün mehtər atı zin eyləyüb gətürdi. İsa balı ata səvar olub Cəlali Koroğluynən belə gəldilər həman parəduzun evinə ki, Cəlali Koroğlu orda mənzil eyləmişdi. Pəs Koroğlu Qıratı çəküb eşigə, zini-nəmədin qoyub, neçə yerdən onun təngin möhkəm eylədi, dava əsbablardan geyüb istədi atına səvar olsun, İsa balı dedi:

– Aşıq Roşan, biz davaya getmiruq ki, sən belə qərqü-ahənü-fulad oldun.

Koroğlu dedi:

– Canım, biz gediruq səyahətə, bəlkə bizim qabağımıza bir şikar gəldi. Əgər yanımızda əsbab olmasa, necə şikar eyləruq.

İsa balı dedi:

– Aşıq Roşan yaxşı deyirsən, qoy, mən də əsababi-hacət götürüm, ondan sora gedax.

Koroğlu dedi:

– Canım, aşıq tayifəsi şikar eyləyə bülməz, bu əsbabları səndən ötrü götürdüm.

Cəlali Koroğlu atlanub İsa balını götürüb, ta inki Həmisün dərvazəsindən çıxub yüz qoydular Çamlıbelə tərəf getmağa. Pəs bir-iki ağac yol getmişdilər, yetişdilər bir çəməngah yerə, gördülər, yaxşı çeşmə var. İsa balı dedi:

– Aşıq Roşan, ta nə vəqtə kimin yol gedəcəyuq, gəl, bu çeşmənün başında bir qədər istirahət eyləyək. Ondan sora qəyıdax Həmisə...

– ...İsa balı, heç ehtiyat eyləyüb ağlama ki, səni öz qardaşım kimin saxlaram.

İsa balı çün bu sözü Koroğludan eşitdi, qəlbində aram oldu, əmma zahirən çün öz vilayətindən ayrı düşürdü, bir qədər ağlayub yüzün dutdu Cəlali Koroğluya, dedi:

– Mənə dersən, neçün ağlarsan, qulaq ver, gör, niyə ağlıyıram.

Düçar oldum min bir yerdən bəlayə,
Ayrı düşüb ulusumdan, ağlaram.
Kimsənəm yox, yetişəydi hərayə,
Ayrı düşüb ulusumdan, ağlaram.

Tora düşdüm öz-özümə, dilimdən,
Bülbül kimin ayrı düşdüm gülümdən,
Uzaqlaşdum vətənimdən, elimdən,
Ayrı düşüb ulusumdan, ağlaram.

... fələk məni dərdə salubdur,
Çar tərəfim ğəm ləşkəri alıbdur,
Anam, bacım gözü yolda qalubdur,
Ayrı düşüb ulusumdan, ağlaram.

İsa deyər, iki gözü yaşlıyam,
Dindirmiyün məni, bağrı daşlıyam,
Ahu baxış, əcəb qələm qaşlıyam,
Ayrı düşüb ulusumdan, ağlaram.

Çün İsa balı sözün təmam eylədi, Cəlali Koroğlu ona təsəlli verüb, dedi:

– Heç qəm eyləmə ki, səni iki gözümdən artıq saxlaram.

Pəs bunları qoy burda qalsun, əmma nəqli-dastan eşit Cəlali

Koroğlunun iyidlərindən ki, çün şikargahdan müraciət eyləyüb gəldilər Çamlıbelə. Əhvalatı Eyvəzə və sayir iyidlərə nəql eylədilər ki, Cəlali Koroğlu getdi Həmis şəhərinə və bizdən sifariş eylədi ki, neçə nəfər iyidlərdən mənim dalımca gəlsün. Pəs yüz otuz nəfər iyidlərdən mükəmməl və müsəlləh olub, atlarına səvar oldular və Eyvəz balı həm onlar ilən belə yüz qoydular Həmis tərəfinə gəlmaqa.

Pəs mənzilbəmənzil gəlürdilər və gecə və gündüz yatmayub at sürürdülər, ta inki həman gün əsr vəqti ki, Cəlali Koroğlu İsa balını Həmisdən çıxarub həman çeşmənün başında əgləş

Şeyda bülbül qonar dalə,
Gecə-gündüz çəkər nalə,
Qoç Koroğlu gəldi halə,
Çillələnmiş yayə bənzər.

Çün Cəlali Koroğlu sözün təmam eylədi, Eyvəz balı və iyidlər təmam yetişdilər. Pəs şadu-xəndan olub həman çeşmənün başında düşüb, istirahətə məşğul oldular, ta günün qürubuna kimin orda qaldılar. Eylə ki gün ğürub eylədi, atlanub yüz qoydular Çamlıbelə tərəf getmağa. O gecə ta sübhə kimin at sürüb, eylə ki gün çıxdı, yetişdilər bir çəmənə.

Pəs Cəlali Koroğlu hökm eylədi, o çəməndə iyidlər atlarından aşaqə gəlüb, atları çiragahə buraqdılar və özləri istirahətə məşğul oldular. Əmma İsa balı ərz eylədi ki, ey Cəlali Koroğlu, burda düşmaq məsləhət dəgül, ondan ötrü ki, hərgah mənim qardaşım xəbərdar ola ki, sən məni Çamlıbelə aparursan, yəqin eylə ki, Həmisün ləşkərin cəm eyləyüb bizim dalımızca gəlür, məbadə, fitnə-fəsad ola. Məsləhətdür ki, burdan təcili-təmamilən köçüb gedaq. Cəlali Koroğlu eylə ki İsa balıdan bunu eşidəndə qəzəbnak olub dedi:

– İsa balı, məni Həsən Paşadan və Həmis ləşkərindən qorxudursan?

Pəs Koroğlu sazın götürüb basdı sinəsinə, yüzün dutub İsa balıya tərəf dedi:

Götürəndə misri qılıc dəstimə,
Rum ölkəsi qabağımda dayanmaz.
Aləm təmam car götürsə üstümə,
Köylüm mənim bir zərrəcə bulanmaz.

Yığışanda dəlilərim bir yerə,
Ac qurt kimin daraşanda səflərə,
Əfqan səsi dayananda göglərə,
Rum ölkəsi qabağımda dayanmaz.

Ərəb atlar şiyhəsini çəkəndə,
Qoç iyidlər dəstələri bükəndə,

Qənim başın kəllə-minar tikəndə,
Rum ölkəsi qabağımda dayanmaz.

Qoç Koroğlu heç eyləməz vahimə,
Sığunaram Əli kimin şahimə,
Şahlar şahı Əli yetsə dadimə,
Rum ölkəsi qabağımda dayanmaz.

Çün Koroğlu sözün təmam eylədi, İsa balı gördü Cəlali Koroğlu çox ğəzəbnak olub, ərz eylədi:

– Qurbanun olum, mənim məqsudum bu oldu ki, aralıqda fitnəvü-fəsad olmasun. İmdi ixtiyarun(du), istərsən köç, istərsən burda mənzil eyləyüb qal.

Koroğlu dedi:

– İsa balı, mənim də məqsudim davasız burdan getmaq idi, əmma çün sən məni Həmis ləşkərindən və Həsən Paşadan qorxuddun, üç gün, üç gecə gərək bu çəməndə mənzil eyləyüb qalam.

Pəs İsa balı və iyidlər təmam hərçi iltimas eylədilər və ərz eylədilər:

– Qurbanun olum, o zadı ki, sənün məqsudun idi, əlhəmdüllah, əmələ gəlüb və İsa balını şikar eyləyüb aparursan, daxi nə zərur olub ki, fitnə və fəsadə bais olaq, məsləhət budur ki, burdan davasız köç eyləyaq.

Cəlali Koroğlu dedi:

– Əlac pəzir dəgül, gərək üç günə kimin bu çəməndə qalam.

Çün iyidlər xatircəm oldular ki, üç günə kimin bu çəməndə qalmalı oldular, dağılub ətrafə, bir qədər şikar eyləyüb gətirdülər. Pəs onlar kabab eyləyüb üç gecə sübhə kimin həman çəməndə eyşü-işrətə məşğul oldular.

Bunlar qoy burda qalsun, əmma nəqli-dastan eşit İsa balınun qardaşı Həsən Paşadan ki, çün Cəlali Koroğlu İsa balını Həmisdən götürüb yola düşdü, Həsən Paşa hərəmxanədən dışra gəlüb İsa balını ehzar eylədi. Ərz eylədilər:

– Paşa sağ olsun, İsa balı Aşıq Roşanlən belə atlanub səyahətə getdi.

Pəs axşama kimin gözləyüb, gördü bir xəbəri və bir asarı İsa balıdan və Aşıq Roşandan almadı. Həsən Paşa iztirabə düşüb

neçə nəfər yengiçəri atlandurub ətrafi-cəvanibə yola saldı, bəlkə bir xəbəri onlardan gətürə. Pəs o atlular Həmis dərvazəsindən çıxub yüz qoydular yabanə. Bir neçə ağac yol ətrafü-cəvanibi dolandılar, bir xəbər bülməyub bir çeşmənün başında atlarından aşağə gəlüb oturmuşdular ki, nagah gördülər iki nəfər piyadə gəlür. Çün piyadələr yetişdilər, yengiçərilər xəbər aldılar:

– Canım, hardan gəlürsüz?

Piyadələr dedilər:

– Canım, bu yandan gəlürux və Həmis şəhərinə gedurux.

Yengiçərilər dedilər:

– Heç iki nəfər atlu gördüz?

Dedilər:

– Nə iki nəfər görməduq, əmma bir iki yüz nəfər atlu-Cəlali Koroğlunun atlularından bu təllün o tərəfində, çəməndə düşüblər, əmma Həsən Paşanun qardaşı İsa balı həm onlarun içində var idi.

Çün atlular bunu eşitdilər, həman piyadələri at tərkinə çəküb, təcili-təmamilən özlərin yetürdilər Həsən Paşanun xidmətinə, ərz eylədilər:

– Paşa sağ olsun, bu piyadələr İsa balını Cəlali Koroğlunun ordusunda görüblər.

Pəs Həsən Paşa o piyadələrdən əhval xəbər alub, onlar ərz eylədilər:

– Qurbanun olum, bizlər Hələb şəhərindən gəlürduğ, susuzluq bizlərə çox hücum gətürdi, ta inki özümüzü yetürdüq həman çeşməyə ki, Cəlali Koroğlunun ordusu o çəməndə düşmüşdü. Pəs o çəməndə bir qədər istirahət eyləyüb su içduq, xəbər alduq ki, bu ordu kimündür? Dedilər, bu ordu Cəlali Koroğlunun ordusudur ki, Həsən Paşanun qardaşı İsa balını götürüb Çamlıbelə gedür.

Eylə ki Həsən Paşa bu sözləri o piyadələrdən eşitdi, yəqin eylədi ki, o Aşıq Roşan Cəlali Koroğluymuş, hiylə və tədbir ilə İsa balını burdan aparub. Həman saat hökm eylədi ki, on beş min nəfər Həmis qoşunu hazır oldu, sərkərdələr ərz eylədilər:

– Qurbanun olum, bu qoşunu cəm eyləməkdən məqsudun nədür?

Pəs Həsən Paşa əhvalatı nəql eyləyüb fərman verdi ki, on beş min ləşkər mükəmməl və müsəlləh olub təmam sərkərdələr və Həsən Paşa özü o ləşkəri götürüb Cəlali Koroğlunun dalınca yola düşdülər. Əmma bu tərəfdən Koroğlu və iyidlər çəməndə eyşü-işrətə məşğul idilər. Bir vəqt nə gördülər ki, Həmis tərəfindən bir ağır toz nümayan oldu. Koroğlu dedi:

– Cəmaət, yəqin bu Həsən Paşadur ki, bizim dalımızca qoşun gətürür.

Pəs Koroğlu həman saat hökm eylədi ki, iyidlər təmam qərqü-ahənü-fulad olub atlarınun təngin möhkəm eyləyüb səvar oldular. Pəs Cəlali Koroğlu özü başdan-ayaqə kimin əsbabi-hərbə qutəvər olub, yeddi geyim bir-birinün üstündən geyüb, qılıcın bağlayub, nizəsin götürüb, Qıratun təngin möhkəm eyləyüb, ayaqın həlqeyi-rükabə qoyub xaneyi-zində qərar dutdu. Pəs iyidləri götürüb Həsən Paşanun bərabərində nizamilən səf çəküb müntəzir durdular. Pəs bu tərəfdən Həsən Paşa yetişüb gördü həman Aşıq Roşan başdan-ayaqə qərqü-ahənü-fulad olub, şiri-jəyan kimin at üstündə durub. Pəs Həsən Paşa dedi:

– Vay anasın satdığım, mənə hiylə verüb qardaşım İsa balını aparursan?! Səni bu gün bir zillətilən öldürüm ki, təmam əhli-aləm sənün əhvaluva ağlasun.

Koroğlu elə bunu eşidəndə dedi:

– Həsən Paşa, qulaq ver, bir neçə türki gəlüb sinəmə, onları deyüm, ondan sora dava eyləyək. Pəs dedi:

Canım Paşa, toz bürüyüb həvanı,
Öz yerində bircə ləhzə dayan, dur!
Misri qılıc yaxşı açar aranı,
Öz yerində bircə ləhzə dayan, dur!

Qıratın çar tərəfinə ilqaram,
Dəstələrin bir-birinə çulqaram,
Kəmənd atub qollarıvu bağlaram,
Öz yerində bircə ləhzə dayan, dur!

Öz-özüvü salmagilən cəfayə,
Duçar olma min bir iki bəlayə,

Baxmagilən bu qurulan halayə,
Öz yerində bircə ləhzə dayan, dur!

Koroğluyam, bir acalmış nəhəngəm,
Çamlıbeldə iyidlərə sərhəngəm,
Dövüş günü qabaqda pişi-cəngəm,
Öz yerində bircə ləhzə dayan, dur!

Çün Cəlali Koroğlu sözün təmam eylədi, Həsən Paşa qəzəbnak olub dedi:

– Vay anasın satdığum xırsız əcəm oğlu, mənə hiylə urub yanşaqlıq libasında gəldün, mənim qardaşım İsa balını avlıyub istərsən Çamlıbelə aparasan? Bu gün, inşallah, rəbbim kömək olsa, səni diri dutub verrəm darə çəkəllər və səni bir zillətilən öldürüm ki, təmam əhli-aləmə ibrət olsun ki, min bəd belə xəyanət eyləməsünlər.

Cəlali Koroğlu dedi:

– Həsən Paşa, mərd iyidlər əlinün hünərin göstərür.

Pəs Həsən Paşa qılıcın çəküb yüzün dutdu öz ləşkərinə, dedi:

– Cəmaət, daxi durmaq vəqti dəgül. Bu gün sizdən Cəlali Koroğlunu diri istərəm!

Pəs o dərya kimin qoşun birdən hərəkətə gəlüb, əl qılıca eyləyüb yüz qoydular Cəlali Koroğlunun üstünə. Koroğlu əhvalı belə görüb, belə gündə yüzün dutub öz iyidlərinə, dedi:

Duman olub bu ləşkərin üstünü,
Qoç iyidlər, çar tərəfdən yerisün!
Bəlli Əhməd göstərəndə şəstünü,
Həsən Paşa xəcalətdən ərisün!

Bu dəvləri yavaş-yavaş dindirün,
Cida silküb qənim atdan endirün,
Qabaqdakı dəstələri sındırun,
Düşmən qanı bu meydanda yerisün!

Bərhəm edün bu ləşkərin busatın,
Yas eylüyün toy-bayramın, nişatın,

Tez dağıdun osmanlunun büsatın,
Həsən Paşa dərd əlindən çürüsün!

Koroğluyam, şadlığımdan ağlaram,
Qaçaq yolun düşmənimə bağlaram,
Osmanlının cigərini dağlaram,
İyidlərün dəstələri yürüsün!

Çün Cəlali Koroğlu sözün təmam eylədi, yüzün dutub öz iyidlərinə dedi:

– Qoçaqlarım, çahar ətrafdan bu ləşkəri aralığa alun və qoymuyun bir nəfər qurtulub kənarə çıxsun.

Pəs iyidlər əl qılıca eyliyüb çahar ətrafdan yüz qoydular o ləşkərün üstə. Əmma Cəlali Koroğlu özü əl şeşpərə eyləyüb hər kimün başından urardı, tutiya kimin nərm eylərdi. Bir az zamanda kuştələrdən püştələr tərtib verdilər. Osmanlu cəmaəti iyidlərün zərbi-dəstin görəndə yüz qoydular qaçmağa. Cəlali Koroğlu dedi:

– Cəmaət, kəsün bunlarun qabaqın ki, bir nəfər bu meydandan diri qayıtmasun.

Pəs Bəlli Əhməd neçə nəfər iyidlərdən götürüb özün verdi ləşkərün qabaqına. Onları tumar kimin büküb gerü qaytardı. Pəs qabaqdan Bəlli Əhməd və daldan Cəlali Koroğlu o ləşkəri təmam qılıca çəkdilər. Məgər bir cəmi-qəlil iyidlərün qılıcınun zərbindən aman çəküb töküldülər Cəlali Koroğlunun atınun ayağına.

Pəs Koroğlu əhvalı belə görəndə, onlara rəhm eyləyüb hökm eylədi ki, daxi sizlərə amandur. Pəs Həsən Paşanı qolu bağlı gətürdilər Cəlali Koroğlunun bərabərinə. Həsən Paşa xəcalətdən başın aşağə salub heç dinmədi. Koroğlu dedi:

– Onun qollarını açun.

Çün qolların açdılar. Koroğlu ona çox nəvaziş eyləyüb mürəxxəs eylədi. Pəs Həsən Paşa çün bu mərhəməti Cəlali Koroğludan görüb bir qədər cəvahirat və qızıl və gümüş peşkəş eyləyüb mürəxxəs oldu. Əmma bu tərəfdən Cəlali Koroğlu o gecə həman çəməndə qalub hökm eylədi ki, təmam ölənlərün at və əsbabın cəm eyləyüb iyidlərə qismət eylədi.

Eylə ki sübh oldu, İsa balını götürüb hökm eylədi, ordu köçüb mənzilbemənzil yüz qoydular Çamlıbelə tərəf getmağa. Çün Çamlıbelün həvalisinə yetişdilər, iyidlər xəbərdar oldu ki, Cəlali Koroğlu fəth və zəfər ilə müraciət eyləyüb gəlür. Pəs təmam iyidlər istiqbalə çıxub, pişvaz eylədilər. Koroğlu onlara bir-bir nəvaziş eyləyüb, tainki Koroğlu öz bargahında nüzul eylədi. Pəs o gecə istirahət eyliyüb yatdı. Eylə ki sübh oldu, bir məclisi-ali bina eyləyüb, təmam iyidlər cəm olub, hər kəs öz yerində və öz məqamında əgləşdi. Pəs Koroğlu hökm eylədi saqilərə ki, əhli-məclisə peydərpey piyaleyi-şərab verüb, onlarun başı şərabi-nabdan gərm oldu. Hər kəs öz aləmində keyfə məşğul olub, ta əsrə kimin güzaranə məşğul oldular. Çün əsr vəqti oldu, Cəlali Koroğlu hökm eylədi, neçə dəst xələt gətürdilər. Pəs onlar ki bu səfərdə zəhmət çəküb Koroğlunun dalınca getmişdilər, onlarun hər birinə fərahuzi-hal xələt verüb nəvaziş eylədi. Bəd əz an onları mürəxxəs eyləyüb ki, hər kəs öz məqamında istirahətə məşğul oldular.

KOROĞLUNUN ON ALTINCI MƏCLİSİ

Bürcü bəgün Çamlıbelə gəlməsi, Bəlli Əhmədi əsir edib Ərzingana aparması. Koroğlunun xəbər dutub Bürcü bəgün dalınca getməsi və onunla müharibə edib, Bəlli Əhmədi xilas etməsi

Raviyani-əxbar və naqilani-asar belə rəvayət eyləyüb ki, Cəlali Koroğlu Çardaqlınun Çamlıbelün məskən eyləyüb oturmuşdu və yeddi min və yeddi yüz yetmiş yeddi dəli başına cəm eyləyüb, Rumun kərdənkeşlərin dutub səzasına yetirürdi. Pəs Cəlali Koroğlunun şöhrəti təmam məmləkətləri basmışdı. Rumun əksər vilayətlərindən hər il ona bac və xərac gəlürdi və o dilavər iyidlər ilən belə Çamlıbeldə güzərana məşğul olub eyş və işrət eylərdi. Əmma Ərzingan şəhrində bir cavan var idi, onun (adına) Bürci bəg deyərdilər ki, çox rəşid və dilavər iyid idi. Dava günündə heç kimsənə onun qabağında dayana bülməzdi və o şəhərün bir paşası var idi ki, onun adına Rüstəm Paşa deyərdilər və bu Bürci bəg Rüstəm Paşaya xidmət eylərdi.

Bir gün Rüstəm Paşa öz məclisində əgləşmişdi və təmam sərkərdələri və nökərləri bərabərində səf çəküb durmuşdılar. Pəs Paşa hər tərəfdən söhbət eylərdi, tainki Cəlali Koroğlunun söhbəti araya düşdi. Rüstəm Paşa dedi:

– Cəmaət, görürsüz bu anasın satdığım Koroğlunu ki, bir neçə nəfər gəlib yığub başına, Rum vilayətlərin təmam xərab eylərdi və hər yerdə bir yaxşı qız və oğlan sorağın alsa, cəbrən-qəhrən onları çəküb aparur və təmam Rum paşaların bədnam xasü-am eylədi.

Bürci bəg bu sözləri Rüstəm Paşadan eşidəndə ərz eylədi:

– Paşam sağ olsun, Cəlali Koroğlu imdiyə kimin qoç davasına düşməyüb. Hər yerdə bir aciz olsa, onilən dava eylər.

Rüstəm Paşa qəzəbnak olub dedi:

– Anasın sağdığım Cəlali Koroğlu neçə nəfər rəşid pəhləvanlar öldürüb və neçə nəfər rəşid pəhləvan ona qulam olub xidmət eylər və Rum paşalarından kimsənə qalmayub ki, onun

ilə dava eyləməmiş ola. Xondkari-Rum o səltənətiylən və o ləşkəriylən onun öhdəsindən gələ bülmədi. Əmma sən bu tərkiblən Cəlali Koroğlunu bəgənməzsən.

Bürci bəg ərz eylədi:

– Paşam sağ olsun, mən ərz eylədüm ki, Cəlali Koroğlu qoç davasına düşməyüb. Əmma sən ğəzəbnak oldun. Hərgah mən gedəm, Cəlali Koroğlunun özün, ya başın sənə gətürəm, mənə nə verürsən?

Rüstəm Paşa Bürci bəgün bu sözlərindən təəccüb eyləyüb, dedi:

– Bürci bəg, Rum paşalarınun içində bircə mən qalmışam ki, Cəlali Koroğlu mənim vilayətimə və özümə dolaşmuyub. İstərsən ki, onu mənimlə düşmən eyliyəsən ki, mənim vilayətimi və ləşkərimi pamal eyləyə?!

Bürci bəg ərz eylədi:

– Paşam sağ olsun, mən səndən nə ləşkər istərəm və nə kömək. Hərgah mən özüm yalquz gidəm, Cəlali Koroğlunun özin zində dutam, sənün xidmətüvə gətürəm, mənə nə ənam verürsən?

Rüstəm Paşa dedi:

– Bürci bəg, çox özüvə məğrur oldun. Sənün həddün yoxdur ki, Cəlali Koroğluya müqabil olasan. Əmma onun bir nökəri var ki, adına Bəlli Əhməd deyəllər ki, o, Rum əhlindəndür. Cəlali Koroğluya xidmət eylər. Əgər onu dutub mənim yanıma gətirdün, öz qızım Pəri xanımı sənə verrəm və əgər gətürə bülmədün, daxi bu vilayətə gəlmə ki, səni həlak eylərəm.

Pəs Bürci bəg qəbul eyləyüb Rüstəm Paşadan müraxxəs oldı. Pəs gəlüb öz mənzilinə, tədarükin görüb Ərzingandan çıxub yüz qoydı Çamlıbelə tərəf gəlmağa. Pəs mənzilbəmənzil gəlürdi, əmma yolda fikir eylərdi ki, nə tövr hiylə eyləyüb Bəlli Əhmədi ələ gətürsün. Ta inkə özin yetürdi Çamlıbelün yarım ağaclığında bir çəmənə. Bir çeşmə başında əgləşüb tədbir eylərdü ki, ayə, nə vəzilən Çamlıbelə varid olsun. Qəzayi-rəbbanidən həman gün Bəlli Əhməd yalquz atlanub şikara çıxmışdı. Bir qədər şikar eyləyüb yorulmuş, xəstə özin yetürdi həman çəmənə ki, Bürci bəg orada oturmuşdı.

Pəs atdan aşağı gəlüb atın buraqdı çəmənə. Əmma özi şikarın götürüb gəldi çeşmə başına. Gördi bir nəfər cavan oturub çeşmə başında. Əmma xeyli şücaətli iyiddür. Xəbər aldı:

– Cavan, hardan gəlürsən və harıya gedirsən?

Bürci bəg dedi:

– Canım, mən Ərzingan elliyəm. Əmma mənim bir neçə atımı oğırlıyub aparublar. Onlarun sorağına gəlmişəm, bəlkə bir yerdə tapam.

Pəs Bəlli Əhməd bir qədər kəbab eyləyüb dedi:

– Canım, gəl kəbab tənavül eylə.

Bürci bəg gəlüb bir qədər kəbab tənavül eyləyüb dedi:

– Canım, pəs sən kimsən?

Bəlli Əhməd dedi:

– Mən Cəlali Koroğlunun nökəriyəm, adıma Bəlli Əhməd diyəllər.

Bürcü bəg eylə bunu eşidəndə öz qəlbində dedi, yaxşı oldu, inşallah, bunı bir hiylə ilə dutaram. Bürci bəg dedi:

– Cavan, mən bir ğərib adamam, gərək mənim atlarımı sorağlaşub tapasan.

Bəlli Əhməd dedi:

– Canım, mənə qonaqsan. İnşallah, axşam vəqti gidərük Çamlıbelə. Hər tövr olsa, sənün atlarun sorağlaşuram və taparam.

Pəs Bürci bəg Bəlli Əhmədə bir növilən xidmət eylədi ki, onun rəhmi gəldi.

Bir qədər söhbət eylədilər. Bürci bəg dedi:

– Cavan, mən Cəlali Koroğlunun iyidligindən eşitmişəm, əmma özin görməmişəm. Yaxşı oldı, əgər Cəlali Koroğlu məni nökər eyləsə, onun yanında qallam və ona xidmət eylərəm.

Bəlli Əhməd dedi:

– Canım, Koroğlunun şöhrəti təmam vilayətlərdə deyilür.

Bürci bəg dedi:

– Canım, deyillər Cəlali Koroğlunun yeddi min yeddi yüz yetmiş yeddi dəlisi var. Əmma bu az ləşkəriynən təmam Rum vilayətlərin təngə gətürüb.

Bəlli Əhməd dedi:

– Canım, doğrıdur, əmma onun ehtiyacı dəlilərə yoxdur. Əgər yalquz özi hər tərəfə üz çevürsə, heç kəs onun qabağında dura bülməz.

Bürci bəg dedi:

– Mən Ərzingandan gələndə Rüstəm Paşanun bir nökəri var idi ki, onun adına Bürci bəg deyillər, Paşa ilən şərt eylədi ki, hərgah Cəlali Koroğlunu diri dutub Paşanun yanına gətürsə, Paşa öz qızı Pəri xanımı ona versün. Belə güman eylərəm ki, bu gün-sabah Bürci bəg Cəlali Koroğlunun davasına gələ.

Bəlli Əhməd elə bunu eşidəndə sazın götürüb basdı sinəsinə, dedi:

– Canım, Cəlali Koroğlu belə pəhləvan dəgül ki, onu bir nəfər dutub aparsun. Qulaq ver, onun tərifindən bir qədər deyüm:

Qurban olum Koroğlınun şəstinə,
Rüstəm olsa, qabağında dayanmaz.
Dəmir şeşpər götürəndə dəstinə,
Rüstəm olsa, qabağında dayanmaz.

Qoç Koroğlu qurğusunu quranda,
Məsaf günü əl qılıca uranda,
Alma gözlü Qırat üstə duranda,
Rüstəm olsa, qabağında dayanmaz.

Görməmüsən onun kimi nəhəngi,
Aslan kimi qabağında pişcəngi,
Ğurtulanda yay qatı tək xədəngi,
Rüstəm olsa, qabağında dayanmaz.

Əhməd diyər, mən bülürəm səyyadı,
Göylüm olub qəm və qüssə yatağı,
Tərlan kimin yırtıcıdur qəynağı,
Rüstəm olsa, qabağında dayanmaz.

Çün Bəlli Əhməd sözin təmam eylədi, Bürci bəg dedi:

– Cavan, məlumdur ki, Bürci bəg Cəlali Koroğlunun qabağında dura bülməz. Əmma bir ğələt xəyaldur eyləyüb ki, bəlkə Rüstəm Paşanun qızı Pəri xanımı ala.

Pəs bir qədər söhbət eyləyüb, Bəlli Əhməd dedi:

– Həva istidür və mən özüm həm şikar eyləyüb xəstə olmuşam. Bir qədər yatub rahat olaq, ondan sora Çamlıbelə gedax.

Pəs onlarun hər ikisi yatub, əmma Bürci bəg həramzadə o qədər səbr eyləyüb ki, Bəlli Əhməd dürüst yuxuya getdi. O həramzadə ayağa durub Bəlli Əhmədün öz kəməndün götürüb yuxu içində onun möhkəm qolların bağladı. Bəlli Əhməd gözlərin açub əhvalı belə görəndə dedi:

– Ay nəməkbəhəram həramzadə, mənim qollarımı namərdliglən bağladun?

Bürci bəg dedi:

– Cavan, həman Bürci bəg ki Rüstəm Paşanun nökəri, deyirdüm, mənəm. Gərək səni aparam Paşa yanına, ta onun qızı Pəri xanımı alam.

Pəs o namərd Bəlli Əhmədün atın dutub və özinün əsbabların çıxardub qolu bağlı saldı qabağına, yüz qoydu Ərzingana tərəf getmağa. Bəlli Əhməd çün əhvalı belə gördü, dedi:

– Ay namərd, bir neçə bənd türki gəlib sinəmə, qoy, onları deyüm, ondan sora məni apargilən.

Əcəb yerdə işim düşdü müşkülə,
Qəmli köylüm dərd əlindən iyildər.
Nə vəqt olur, qoç Koroğlum tez gələ,
Qəmli köylüm dərd əlindən iyildər.

... fələk fürsət verüb düşmənə,
Zağü-zəğən tökildilər gülşənə,
Şeyda bülbül daxi gəlməz vətənə,
Gülşən əhli dərd əlindən iyildər.

Mərd iyidün qollarını bağladun,
Qolı bağlu qabağında saxladun,
Çamlıbelün iyidlərin dağladun,
Qəmli köylüm dərd əlindən iyildər.

Əhməd diyər, getməgilən, dayan, dur,
Qəm-qüssədən cavan qəddim kamandur,

Namərd ilən yola getmək yamandur,
Qəmli köylüm dərd əlindən iyildər.

Çün Bəlli Əhməd sözin təmam eylədi, Bürci bəg bir neçə qamçı Bəlli Əhmədin başundan urdı, dedi:

– Vay anasın satdığım, təmam Rum məmləkəti sizün əlüzdən təngə gəlüb. Əgər həyatım olsa, bir-bir sizləri dutub həlak eylərəm ki, xəlqün yaxası sizün şərüzdən xilas olsun.

Bəlli Əhməd dedi:

– Bürci bəg, məni dutmaqda nə fayda var? Əgər istərsən Rüstəm Paşa yanında hörmət sahibi olasan, Cəlali Koroğlunu dutub apar. Ondan ötrü təmam dəlilərün başı ona bağludur. Əgər məni aparasan, Cəlali Koroğlu xəbərdar olub iyidləri başına cəm eylər, Ərzinganun toprağın at torbasında Çamlıbelə aparur.

Bürci bəg dedi:

– Mən Rüstəm Paşaya səni vədə eyləmişəm ki, hərgah səni qolu bağlu aparam, öz qızı Pəri xanımı mənə versün, əlhəmdüllah, mən mətləbimə yetişdüm.

Bəlli Əhməd bunu eşidəndə, yəqin eylədi ki, Bürci bəgün əlindən xilas olmağı mümkün dəgül. Pəs gözlərinün yaşın töküb, bu türkini oxudu:

Qolum bağlu, gözim yaşlı,
Ayrı düşdüm ulusumdan.
Hicran görmüş bağrı daşlı,
Ayrı düşdüm ulusumdan.

Bürcü bəglər üstüm aldı,
Yaman dərdə məni saldı,
Çamlıbeldə gözim qaldı,
Ayrı düşdüm ulusumdan.

Cavan ömrüm getdi bada,
Kimsənəm yox, sala yada,
Həqq yetüşsün özi dada,
Ayrı düşdüm ulusumdan.

Gəlib cuşə qəmim daşdı,
Gözim yaşı başdan aşdı,
Bəlli Əhməd uzaqlaşdı,
Ayrı düşdüm ulusumdan.

Çün Bəlli Əhməd sözin təmam eylədi, Bürci bəg qəzəbnak olub dedi:

– Anasın satdığım, bu ağlamağnan istərsən mənə hiylə urasan ki, sənə rəhmim gəlüb qollarun açam. Neçə gündür zəhmət çəküb yol gəlmişəm, ta səni ələ gətürmişəm. Pəs genə bir neçə taziyanə Bəlli Əhmədə urub, onı piyadə saldı at qabağına. Mənzilbəmənzil gəlüb...

- ...qorxarsan ki, belə ağlarsan?

Bəlli Əhməd dedi:

– Paşam sağ olsun, öz qanımdan qorxmaram, əmma, qulaq ver, diyüm ki, nədən ötrü ağlaram:

Çamlıbelün gülşənindən ayrılub,
Həsrət qaldum qızılgülə, ağlaram.
Bir pərinün gözlərinə mayiləm,
Yaman düşdüm çöldən-çölə, ağlaram.

Qəm ləşkəri üstümüzə çəkdi car,
Yad ölkədə qıldı məni giriftar,
Tülək tərlan oylağını aldı sar,
Əlim yetməz Çamlıbelə ağlaram.

Qoç Koroğlu Çamlıbeldən görünməz,
Dəmirdonlu iyidləri bulunmaz,
Qəmli könlüm şad olubən sövünməz,
Didəm yaşı döndü selə, ağlaram.

Bəlli Əhməd mətləbinə yetmədi,
Dərd əlindən xilas olub ölmədi,
Bürci bəglər mərdlikilən dutmadı,
Sirri-sözüm düşdü dilə, ağlaram.

Çün Bəlli Əhməd sözin təmam eylədi, Rüstəm Paşanun qızı təmaşa eylərdi. Gördü Bəlli Əhməd ona aşiqi-biqərar olub, əmma əcaib cavandur ki, hərgiz Bürci bəgin o həddi yoxdur

ki, dava günündə buna hərif olsun. Namərdliklən, yuxu içində bunu dutub, gətirüb. Pəri xanım həm Bəlli Əhmədə aşiqibiqərar olub bu fikrə düşdü ki, bəlkə bir tədbir eyləyüb onu cəllad əlindən xilas eyləsün. Pəs həman saat Rüstəm Paşanun vəziri ayağa durub ərz eylədi:

– Qurbanun olum, Bəlli Əhməd doğru diyir, Bürcü bəglər buna hərif olmaz, bunu bixəbər dutub. Sən bunu ver, həbsə salsunlar. Ondan ötrü Cəlali Koroğlu, əlbəttə, bunun dalısınca gəlür. Əgər çaryar kömək oldu, Cəlali Koroğlunu həm dutdun, ver, onlarun hər ikisin darə çəküb, öldürsünlər. Əgər bunu yalquz öldürsən, Cəlali Koroğlu dəlilərin cəm eyləyüb gəlir. Sənin məmləkətün xərab eyləyüb, kişilərün həlak edüb, övrətlərin əsir eylər. İxtiyarun var, mən sənə xeyirxahlıq yoluynan ərz eylədim.

Rüstəm Paşa dedi:

– Vəzir, yaxşı deyirsən, əgər Cəlali Koroğlunu dutsam, bunlaru öldürmək asandur.

Pəs hökm eyləyüb, bir ağır zəncir urdular Bəlli Əhmədün boynuna. İstədilər aparsunlar dustaqxanəyə, Pəri xanum fürsəti qənimət bülüb, bir nəfər xacə göndərdi Rüstəm Paşanun yanına və sifariş eylədi ki, çün bu əcəm oğlu xırsız mənim adımı məclis içində aparub xəlq içində məni rüsva eylədi. Paşa onu versünc saUhY

rab peydərpey Bəlli Əhmədə verdilər. Bəlli Əhməd ərz eylədi:

– Xanım, bu neçə piyalə mənim boğazımı tər eyləmədi. Ver, bir tuluq şərab gətürsünlər.

Pəs kəniz bir tuluq şərab gətürdilər. Bəlli Əhməd bir tuluq şərabı təmam çəküb başına, içdi. Pəri xanım gördü qərib cavandur ki, bir belə iyid rüzgarun gözi görməyüb. Çün Bəlli Əhməd şərabı içüb məsti-layəqil oldu, gördi otaqda bir saz var, dedi:

– Xanım, o sazı ver mənə ki, bir neçə türki gəlüb sinəmə, onları sənə deyüm.

Pəri xanım sazı verdi Bəlli Əhmədə. Əhməd sazı kök eyləyüb basdı sinəsinə, yüzin dutub Pəri xanıma, gördi Pəri xanımun gözləri piyalə kimin açılub. Dedi, xanım:

Qurban olum sənün kimin canana,
Saldı məni xub kamana gözlərün.
Əlif qəddüm döndərübdür kamana,
Rəhm eyləməz mən cavana gözlərün.

Qaşun bənzər bir gecəlik hilala,
Aşiqəm mən, o gül kimin cəmala,
Qurban olum o zülfü, xəttü-xala,
Gətti məni xub cəzana gözlərün.

Əfşan olub tökülübdür tellərün,
Xəndan olub açılubdur güllərün,
Tuti kimin nə şirindür dillərün,
Qovğa salur bu cəhanə gözlərün.

Əhməd diyər, cəmaluva şaiqəm,
Dövüş güni iyidlərə fayiqəm,
Pəri xanım qurbanlığa layiqəm,
Səbrim alub gətti canə gözlərün.

Çün Bəlli Əhməd sözin təmam eylədi, Pəri xanım dedi:

– Əcəm oğlu, bunlar nə sözdür, deyürsən. Mən sənə rəhm eyləyüb siryəh çaldan çıxartdum. Əgər mənim atam Rüstəm Paşa sənün bu sözlərüvi bülsə, səni həlak eylər.

Bəlli Əhməd dedi:

– Xanım, nə qədər Cəlali Koroğlu var, kimsənün həddi

yoxdur mənim başımdan bir tük əskik eyləsün.

Pəri xanım çün gördi Bəlli Əhmədin qəlbində heç xof yoxdur, yəqin eylədi ki, buna aşiq olub. Pəs kənizləri mürəxxəs eyləyüb, mənzili xəlvət eylədi. Qolların saldı Bəlli Əhmədün boynuna. Bəlli Əhməd əhvalı belə görəndə qolların saldı Pəri xanımun boynuna. Bir neçə busə yüzündən aldı. Pəri xanım Bəlli Əhmədi gətürüb təxt üstə rəxtxab salub, əl bir-birünün boynunda, ta sübhün tuluuna kimin bir-biriylən söhbətə məşğul oldılar. Eylə ki sübh oldı, Pəri xanım dedi:

– Cavan, gündüzlər siyəh çalda qal, gecələr mənə qonaqsan. Ta görək rüzgar necə keçir.

Bəlli Əhməd dedi:

– Xanım, əgər istərsən ki, ləzzət aparaq, gərək Çamlıbelə gedək.

Pəri xanım dedi:

– Qorxaram Rüstəm Paşa xəbərdar ola, Bürci bəgə ləşkər verüb hökm eyləyə. Həm səni, həm məni dutub həlak eyləyə.

Bəlli Əhməd dedi:

– Xanım, sən heç ehtiyat eyləmə, o qədər olsun ki, Ərzinganun qalasından çıxum. Əgər aləm qoşun olsa, mənim qabağımda davam eyləməz.

Pəri xanım dedi:

– Gərək bizim yaxşı atımız olsun ki, düşmən içindən çıxardub mənzilə yetirsün.

Bəlli Əhməd dedi:

– Xanım, özün bilürsən ki, mən məhbusam, ixtiyarım yoxdur, gərək özün at tədarük eyliyəsən.

Pəri xanım dedi:

– Mən bu gün at tədarüki eylərəm ki, inşallah, bu gecə Ərzingandan çıxub Çamlıbelə gedax.

Pəs Bəlli Əhməd əyağa durub özin yetürdi siyəh çala. Əmma bu tərəfdən Pəri xanım mehtəri çağırub dedi:

– Mən bu gecə sübh vəqti gedəcəgəm bağ səyahətinə. Gərək iki danə yaxşı at zin edüb, hazır eyləyəsən. Mehtər dedi:

– Xanım, gərək Rüstəm Paşadan izn alam, ondan sora atları zin eyləyim.

Pəri xanım bildi ki, hərgah Rüstəm Paşa xəbərdar olsa, mane olub qoymaz. Bir neçə əşrəfi mehtərə verüb dedi:

– Nə lazım olub Rüstəm Paşaya izhar eyləyəsən. Bizim səyahətimiz intəhasız üç-dörd saat olacaq.

Mehtər çün əşrəfiləri gördi, tamahı cuşə gəlüb ərz eylədi:

– Xanım, hər vəqt hökm eyləsön, atlar hazırdur.

Pəri xanım dedi:

– İnşallah, gecə nisf olanda, atları hazır eylə, biz bağə gedək, genə sübh olunca atları gətür töyləyə, Rüstəm Paşanun heç xəbəri olmasun.

Mehtər qəbul eyləyüb əşrəfiləri götürdi. Ərz eylədi:

– Xanım, hər vəqt sənün adamun gəlsə, atlar hazırdur.

Çün Pəri xanım atlardan xatircəm oldu, bir xurcun qızıl, gümüş və cəvahirat və zərrinə libas hazır eyləyüb tədarükin gördi, müntəzir oturdı, ta axşam oldı. Çün gecə nisf oldı, ayağa durub gəldi Bəlli Əhmədi siyəh çaldan çıxardub dedi:

– Rəfiq, mən, məcmu yol tədarükin görmüşəm. Rüstəm Paşa yatub, fürsət qənimətdür, get töyləyə, mehtərdən iki danə yaxşı at al, gətür ki, burdan çıxaq.

Pəs Bəlli Əhməd təğyiri-libas eyləyüb özin yetürdi töyləyə. Gördi mehtər yatub, onı yuxıdan bidar eyləyüb dedi:

– Pəri xanım deyir sübhə yavuğdur, atları versün ki, həva isti olmamuş biz bağə gedax.

Mehtər iki danə Rüstəm Paşanun xassə atların zin edüb verdi Bəlli Əhmədə, dedi:

– Xanıma ərz eyləgilən ki, atları tez qaytarsun ki, məbadə, sübh vəqti Rüstəm Paşa şikarə gidə, ya töyləyə gələ, əgər atları görməsə, məni öldürür.

Pəs Bəlli Əhməd atları mehtərdən alub gətürdi Pəri xanımun qapusuna. Pəri xanım xurcunu götürüb öz tərkində möhkəm bağladı. Pəs onlarun hər ikisi atlara səvar olub yüz qoydılar getməgə. Çün Ərzinganun qələsindən çıxdılar. Bəlli Əhməd yüzin dutub Pəri xanıma, dedi:

– Xanım, bir neçə bənd türki gəlüb sinəmə, qoy onları deyüm, ondan sora gedək. Pəs at üstdə qolların saldı Pəri xanımun boynuna, bu türkini dedi:

Uca-uca kirvələri qar aldı,
Vətən sarı yüz çövürüb gedərəm.
Yad ölkədə güli-rəngim saraldı,
Vətən sarı yüz çövürüb gedərəm.

Çamlıbeldən çıxmışıdum şikarə,
Bürci bəglər məni saldı avarə,
Uğramışam sənün kimün nigarə,
Vətən sarı yüz çövürüb gedərəm.

Mayil oldum bir alagöz cavanə,
Siyəh telli, işgəbelli cananə,
Az qalıbdur ömrüm gedə talanə,
Vətən sarı yüz çövürüb gedərəm.

Əhməd diyər, gözi yolda qalmışam,
Nazlu yarun qol boynına salmışam,
Bürci bəgdən şikarımı almışam,
Vətən sarı yüz çövürüb gedərəm.

Çün Bəlli Əhməd sözin təmam eylədi, yüz qoydılar Çamlıbelə getməgə. O gecəni sübhə kimin təcili-təmamilən at sürdilər. Eylə ki gün tüluu eylədi, yoldan kənarə çıxub bir qədər istirahət eyləyüb atları çərayə məşğul oldı. Bəd əz an genə səvar olub o gün və o gecəni genə sübhə kimin at sürüb, gəlürdilər. Eylə ki gün tüluu eylədi, Pəri xanım dedi:

– Bəlli Əhməd, yuxusuzluqdan daxi mənim tabım qalmadı. Bir qədər istirahət eyləyək, bəd əz an genə yola düşüb gedək.

Bəlli Əhməd dedi:

– Bura yatmalı yer dəgül, qorxuram Rüstəm Paşa bizim dalımızca qoşun çəküb gələ.

Pəri xanım dedi:

– Biz üç mənzil Ərzingandan kənar olmuşuq. Əgər Rüstəm Paşa bizim dalımızca gəlsəydi, imdiyə kimin gəlmişdi.

Pəs həman yerdə atlarından düşüb istirahətə məşğul oldılar. Əmma qəflət yuxusu onları dutub yatdılar. Qoy bunlar burda qalmaqda olsun, əmma nəql-dastan eşit Rüstəm Paşadan.

Çün Bəlli Əhməd Pəri xanımı Ərzingandan götürüb yola

düşdi, eylə ki sübh oldı, Rüstəm Paşa ayağa durub gəldi sərtöyləyə ki, atlara tamaşa eyləsün, gördü xassə atları töylədə yoxdur. Mehtərdən xəbər aldı, mehtər ərz eylədi:

– Paşa sağ olsun, sənün qızun Pəri xanım bu gecə nisfi-şəb olanda atları

Pəs həman saat on iki min ləşkərə hökm olındı ki, təmam mükəmməl və müsəlləh olub atlarına səvar oldılar. Bürci bəgi onlara sərdar eyləyüb Bəlli Əhmədün dalısınca göndərdi. Pəs Bürci bəg on iki min ləşkəri götürüb gecə və gündüz yatmayub təcili-təmamilən at sürdilər. Ta inkə yetüşdilər həman yerə ki, Bəlli Əhməd və Pəri xanım o çəməndə qəflət yuxusuna gedüb yatmışdılar. Qəflətən tökülüb onlarun hər ikisin dutdılar. Bürci bəg hökm eylədi, bir ağır zəncir Bəlli Əhmədün boynuna saldılar, qolların dalısında möhkəm bağladılar. İstədilər qayıtsunlar, qoşun əhli gəldilər Bürcü bəgin yanına, ərz eylədilər ki, iki gün, iki gecədür ki, atlarımuz və özimüz rəftardan qalmışuq. Əlhəmdüllah, düşmənün dutuldu. Bu gecə burda qalaq, özimüz və heyvanlarımuz rahat olaq, inşallah, sübh vəqti köç eyləyüb Ərzinganə gidax.

Bürci bəg qəbul eyləyüb hökm eylədi, qoşun o çəməndə düşdilər. Pəs Bürci bəg Bəlli Əhmədi gətürdi bərabərə, dedi:

– Anasın satdığum xırsız oğlı, məni uzağda görmüşdün ki, Rüstəm Paşanun qızı Pəri xanımı götürüb aparurdun, inşallah, bu dəfə səni bir zillətlən öldürüm ki, təmam əhli-aləm sənün əhvalıva ağlasun.

Bəlli Əhməd dedi:

– Bürci bəg, bu qədər laf kəzaf eyləmə, nə qədər Cəlali Koroğlunun nəfəsi gəlür, kimsənənün həddi yoxdur ki, mənim başımdan bir tük əskik eyləsün. Bürci bəg elə bunu eşidəndə qəzəbnak olub, əlində bir qamçı var idi, bir neçə qamçı Bəlli Əhmədün başından urdu. Bəlli Əhməd əhvalı belə görəndə bir gözlərinün yaşın töküb yüzin dutub Çamlıbelə tərəf, dedi:

Bürci bəglər zülüm etdi,
Eylim hay mədəd, hay mədəd!
Yar yanında məni dutdu,
Eylim hay mədəd, hay mədəd!

Qoç Koroğlu nədən gəlməz,
Mənim əhvalımı bülməz,
Nə müddətdür yüzim gülməz,
Eylim hay mədəd, hay mədəd!

Yetişdüm qüssədən canə,
Döndi bağrım qızıl qanə,
Əlim yetməz Eyvəz xanə,
Eylim hay mədəd, hay mədəd!

Əhməd deyir, gülim qaldı,
Gülşəndə bülbülim qaldı,
Çamlıbeldə elim qaldı,
Eylim hay mədəd, hay mədəd!

Çün Bəlli Əhməd sözin təmam eylədü, Bürci bəg dedi:

– Aparun bunı, bir möhkəm yerdə məhbus eyləyün ki, Ərzingan şəhərində verüm, darə çəksünlər.

Pəs Bəlli Əhmədi kəşan-kəşan gətirdilər, ayaqlarına kündə vırub məhbus eylədilər və neçə nəfər adam mükəmməl eyləyüb pasiban qoydular. Bunlar qoy burda qalsun, əmma nəqldəstan eşit Cəlali Koroğludan ki, çün Bəlli Əhməd şikarə getdi, Bürci bəg onı dutıb Ərzingana apardı.

Çün axşam oldı, iyidlər təmam cəm oldılar Cəlali Koroğlunun məclisinə. Hər kəs öz yerində aram dutub, şərab içməyə məşğul oldılar. Pəs iyidlərin başı şərabi-nabdan gərm olub, hər kəs öz rəfiqi ilən söhbət eylərdi. Pəs Cəlali Koroğlu başın yuxarı götürüb baxanda gördü təmam iyidlər öz yerlərində aram dutub. Əmma Bəlli Əhməd məclis içində yoxdur. Yüzin dutub Eyvəz balıya, xəbər aldı ki, Bəlli Əhməd hardadur ki, bu məclisdə görükməz?

Eyvəz ərz eylədi ki, Bəlli Əhməd bu gün şikarə getmişdi. Məlum ki, çox inciyüb, o cəhətə sənün xidmətüvə gəlməyüb.

Cəlali Koroğlu bir nəfər adam göndərdi Bəlli Əhmədün dalısınca ki, onu gətürsün. Pəs o şəxs qayıdub ərz eylədi ki, Bəlli Əhməd hənüz şikardan gəlməyüb.

Cəlali Koroğlu o gecə (sübhə) kimi yatmayub neçə dəfə adam Bəlli Əhmədün mənzilünə göndərdi, xəbər gətürdilər ki, hənuz şikargahdan gəlməyüb. Eylə ki sübh oldu, Cəlali Koroğlu neçə nəfər iyidlərə hökm eylədi ki, atlanub Çamlıbelün ətrafın dolanub, bəlkə bir xəbər Bəlli Əhməddən gətürələr. Pəs iyidlər atlanub Çamlıbelün ətrafına dağıldılar və hər tərəfdən

sorağ eyləyüb bir xəbəri bülmədilər. Əmma əsnayi-müraciyətdə bir şəbanə rast gəldilər. Eyvəz xəbər aldı:

– Şəban, heç bu namda və bu nişanda bir cavan gördün?

Şəban dedi:

– Valla, dünən gün bir piyadə gördüm, Ərzingan əhlindən ki, at sorağı eylərdi. Əmma axşam vəqti gördüm həman piyadə bir ata səvar olub və o cavanı ki, siz sorağ eylərsüz, onun qollarun bağlayub salıb atınun qabağına, piyadə aparur. Mən dedim, canım, məgər atlarun oğrısun tapmusan? Gördüm o cavan ki, siz deyürsüz, dedi, şəban, bu həramzadə yalan deyir. Atın oğurlamıyublar, bu Bürci bəgdür, ərzinganlı, Rüstəm Paşanun nökəri. Gəlmişdü Cəlali Koroğlunun başun kəsüb aparsun, əmma mənə düçar oldı. Hiylə yolıynan yuxı içində məni dutub qollarımı bağlayub Ərzinganə aparur. Əmma yetirgilən mənim bu əhvalımı Cəlali Koroğluya xəbər vergilən. Əmma çün mənim yoldaşım yox idi ki, bu qoyunlardan mütəvəcceh ola, gələ bilmədim.

Çün Eyvəz balı və iyidlər Bəlli Əhmədün əhvalatundan xəbərdar oldılar. Təcili-təmamilən özlərün yetürdilər Cəlali Koroğlunun xidmətinə. Əhvalatı ərz eylədilər. Koroğlu ta bunu eşidəndə, bir əlün urdı bir-birinə, Dəli Mehtəri çağırub dedi:

– Qıratun zin-nəmədin qoy üstünə.

İyidlər ərz eylədilər:

– Qurbanun (olum), niyə zəhmət çəkürsən? Aramlan oturgilən, bizlər gedax, Bürci bəgi diri dutub sənün xidmətüvə gətürax.

Cəlali Koroğlu bir gözlərün dolandurıb, bu türkini oxudı:

Dəli Mehtər, Qıratı çək rikabə,
Səfər oldı Ərzinganun şəhrinə.
Didəm yaşı döndi genə sərabə,
Səfər oldı Ərzinganun şəhrinə.

Bürci bəgi saldıruram hisarə,
Qoymam gedə göz önündən kənarə,
Qışlarını bağladuram çidarə,
Səfər oldı Ərzinganun şəhrinə.

Alma gözli Qıratımnan oynaram,
Osmanlınun qanın içsəm, doymaram,
Böyük-kiçik, erkək-dişi qoymaram,
Səfər oldı Ərzinganun şəhrinə.

Dağıduram Ərzinganun qalasın,
Od uraram, yandıruram cölkəsün,
Koroğluyam, qırram Rumun ölkəsün,
Səfər oldı Ərzinganun şəhrinə.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, hökm eylədi, təmam iyidlər, atların zin edüb mükəmməl və müsəlləh olub süvar oldılar. Əmma Cəlali Koroğlu özi başdan-ayağa qərqüahənü-fulad olub, Qırata səvar oldı. İyidlərilən belə yüz qoydılar Ərzingan tərəfinə getmağa.

Gecə və gündüz yatmiyub sürəti-təmamilən at sürüb, ta inki özlərin yetürdilər həman çəmənün yavuğlığına ki, Bürci bəg Bəlli Əhmədi və Pəri xanımı dutub dəstgir eyləmişdi. Qabağda bir təll var idi, istədilər o təlli çıxsunlar. Koroğlu gördü qabaqdan bir qoca kişi gəlür. Çün qoca yetişdi, Koroğlu xəbər aldı:

– Qoca əmi, hardan gəlürsən?

Qoca ərz eylədi:

– Cavan, ordudan gəlürəm.

Koroğlu xəbər aldı:

– Kimin ordusundan gəlürsən?

Ərz eylədi:

– Qurbanun olum, Cəlali Koroğlunun xırsızlarından biri Rüstəm Paşanun qızı Pəri xanımı götürüb qaçardı. Paşa on iki min ləşkər Bürci bəgə verüb onlarun dalınca yola salmışdı. Bu təllin dalında Bürci bəg onları dutub, qolların bağlayub Ərzinganə aparur. Əmma qoşun bu gecə bu çəməndə mənzil eyləyüb. Mən bir qədər makulat onlara aparmışdım, satam. Onları satub öz mənzilimə qayıtmışam.

Cəlali Koroğlu bir neçə əşrəfi o qocaya verdi, dedi:

– Qoca əmi, buradan qayıt Bürci bəgün yanına, ona xəbər ver ki, Cəlali Koroğlu iyidləriylən belə gəlürlər. Pəs qoca qayıdub gəldi Bürci bəgün yanına, dedi:

– Bürci bəg, nə oturmusan ki, Cəlali Koroğlu iyidlərin götürüb əjdaha kimin az qalub orduya yetişə.

Bürci bəg bunı eşidəndə hərasan olub hökm eylədi. On iki min ləşkər atlarına süvar olub, nizamlan durdılar. Əmma bu tərəfdən Cəlali Koroğlu hökm eylədi iyidlərə ki, atlarun təngin bərkidüb, qılıcların çəküb cilovriz töküldülər Bürci bəglərün ləşkərinün üstünə. Çün yetişdilər Bürci bəgün bərabərinə, Cəlali Koroğlu atın sürüb bərabərə, dedi:

– Vay, nəməkbəhəram həramzadə, namərdliklən mənim nökərim Bəlli Əhmədi dutubsan?

Bürci bəg dedi:

– Ey Cəlali Koroğlu, mən səni gögdə axtarurdum, əmma yerdə əlimə düşübsən. İmdi səni həm dutub qolıbağlu Rüstəm Paşanun yanına aparram, ta Rum məmləkətinün əhli sənün şərründən xilas olsun.

Cəlali Koroğlu Bürci bəgdən bunı eşidəndə, qəzəbnak olub dedi:

– Bürci bəg, sən imdiyə kimin uşaqlar ilən dava eyləyübsən, iyid əlindən zərbi-dəst görməyübsən. Pəs bu türkini dedi:

Mərd iyidlər at belinə çıxanda,
Qəbağımda dayanmazsan, Bürci bəg!
Cida silküb qənnim atdan yıxanda,
Qabağımda dayanmazsan, Bürci bəg!

Ərəb atlar düşmən üstə yapınsa,
Ac qurd kimin dörd tərəfə çapınsa,
Dəmir qolçaq iyidlərim qapınsa,
Qabağımda dayanmazsan, Bürci bəg!

Qurulanda nizam ilən dəstələr,
Yengi yetmiş cavan, boyı bəstələr,
İncə belli, yaxşı ləbi püstələr,
Qabağımda dayanmazsan, Bürci bəg!

Koroğluyam, iki gözü qannıyam,
Ağır elli, yaxşı addı-sannıyam,

Sərhəngiyəm, sultanıyam, xanıyam,
Qabağımda dayanmazsan, Bürci bəg!

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Bürci bəg qəzəbnak olub dedi:

– Vay anasın satdığım əcəm oğlu, nə bu qədər laf kəzaf eylərsən, sən mənim dəvamı və pəhləvanlığımı görməyübsən. Əgər həyatım olsa, bu gün sənə bir zərbi-dəst göstərim ki, təmam dastanlarda deyülsün.

Cəlali Koroğlu bunu eşidəndə bir güldi, dedi:

– Bürci bəg, bir nəfər mənim iydlərimdən yuxu içində dutmusan, bu qədər özüvə məğrur olmusan. Bürci bəg yüzin dutub qoşuna, dedi:

– Cəmaət, qoymayun bu əcəm oğlun.

Pəs on iki min ləşkər birdən əl qılıca eyləyüb yüz qoydular Cəlali Koroğlunun üstünə. Koroğlu əhvalatı belə görəndə, yüzin dutub öz iyidlərinə, dedi:

Qoç iyidlər, ölüm yağar havadan,
Dəv gətürün bu ləşkərün üstinə.
Ayrı düşsün çərəxçilər aradan,
Dəv gətürün bu ləşkərün üstünə.

Atəş yaxun osmanlınun canına,
Aman vermün sultanına, xanına,
Bürci bəgi bələşdirün qanına,
Dəv gətirün bu ləşkərün üstinə.

Toz bürüyüb bu meydanun arasın,
Mərd iyidlər özi bağlar yarasın,
Tez dağıdun bu tüplərün qərasın,
Dəv gətürün bu ləşkərün üstinə.

Koroğluyam, misri qılıc bağlaram,
Düşmənlərün cigərini dağlaram,
Qaçaq yolun Bürci bəgi bağlaram,
Dəv gətürün bu ləşkərün üstinə.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, hər iki ləşkər dərya kimin mövcə gəlüb, əl qılıca eyləyüb töküldilər bir-birü-

nün üstünə. Əmma Cəlali Koroğlu özi Bürci bəgə müqabil durub bir-biriylən davaya məşğul oldılar. Neçə tən nizədən sora Koroğlu qəzabnak olub, qılıcın çəküb Bürci bəgün başından elə urdı ki, iki parə oldu, yarısı atun bu tərəfindən düşdü yerə və yarısı atun o tərəfindən düşdü yerə. Qoşun cəmaəti çün gördilər ki, sərdarları öldi, daxi tab gətürə bülməyüb yüz qaçmağa qoydılar. Cəlali Koroğlu yüzün dutub iyidlərə, dedi:

– Cəmaət, qoymayun bir nəfər bunlardan səlamət qurtulub getsün.

Pəs iyidlər çəhar ətrafdan o ləşkəri alub aralığa, bir türfətül-eyndə küştələrdən püştələr tərtib verdilər. Pəs bir az zəmanda onları təmam qılıca çəküb, on iki min ləşkərdən beş yüz nəfər səlamət qurtulub yüz qoydılar Ərzinganə, Rüstəm Paşa yanına.

Mabəqi ləşkər təmam iyidlərün əlində həlak oldı. Pəs Cəlali Koroğlu qayıdub hökm eylədi ki, o ləşkərün təmam at və əsbabın bir yerə cəm eylədilər. Pəs o mal və dövləti təmam iyidlərə qismət eylədi. Əmma Bəlli Əhmədün qolların açub çox nəvaziş eylədi. Pəs o gecə həman çəməndə qalub, eylə ki sübh oldı, Pəri xanımı götürüb yüz qoydılar Çamlıbelə. Mənzilbəmənzil gəlüb, ta inkə özlərin yetürdilər Çamlıbelə. Pəs bir neçə gün istirahətə məşğul oldular. Bəd əz an Cəlali Koroğlu hökm eylədi ki, Pəri xanımun toy tədarüki görülsün. İyidlər bir ali məclis bina eyləyüb, yeddi gün-yeddi gecə Bəlli Əhmədə toy dutuldı. İyidlərün başı şərabi-nabdən gərm olub eyş və işrətə məşğul oldılar. Çün yeddi gün təmam oldı, məşşatələr Pəri xanıma ziynət verüb onu gətürdilər Bəlli Əhmədün otağına. Onlar bir-birindən kami-dil hasil eylədi. Eylə ki toy təmam oldı, Cəlali Koroğlu iyidləri cəm eyləyüb, onlarun hər birinün öz məqamına görə xələti-faxir verüb mürəxxəs eylədi ki, hər kəs öz mənzilində istirahətə məşğul oldılar.

KOROĞLUNUN ON YEDDİNCİ MƏCLİSİ

Koroğlunun Həsən Cəlalini gətirmək üçün getməsi. Sərdar Bolu bəyin izdivacı. Koroğlunun Bəhbəhanın valisi Abdal Paşa ilə müharibə edib onu məğlub etməsi və onun qızı Mərcan xanımı Həsən Cəlali üçün gətirməsi

Raviyani-əxbar və naqilani-asar belə rəvayət eyləyüblər ki, çün Cəlali Koroğlu məcmui Rum vilayətlərin alub və onlarun pəhləvanların və gərdənkeşlərin təmam xarü-zəlil eyləyüb, bəzilərin həlak eyləyüb və bəzilərin qulami-həlqəbeguş eyləyüb öz paytaxtuna gətürdi. O cümlədən Bolu bəg sərdari-Hasan Paşa idi ki, onı neçə dəfə Koroğlu dəstgir eyləyüb ələ gətürmüşdü və neçə dəfə Bolu bəg fərar edüb Cəlali Koroğludan qaçmışdı. Tainki Koroğlu bir dəfə qəsəm – yad eylədi ki, hərgah bu dəfə Bolu bəgi dəstgir eyləyəm, həlak eylərəm. Çün bu xəbəri-dəhşətiəsər Bolu bəg sərdara yetişdi ki, Cəlali Koroğlu qəsəm – yad eyləyüb ki, hərgah onı dəstgir eyləyə, həlak eyləyəcax. Məxof olub neçə nəfər öz iyidlərindən götürüb səvar olub gəldi Giziroğlu Mustafa bəgün yanına. Ona mültəci olub dedi:

– Həqiqət, mən bu müddəti-mütəmadidə Cəlali Koroğluya yağı olub sərkeşlıx eyləmişəm. Əmma hala nadim və peşiman olmuşam. İstərəm ki, minbəd nə qədər ömrim var, Cəlali Koroğlu rikabında olam, əmma qorxaram ki, yalquz Koroğlunun yanına gedəm. Hərgah mənə minnət qoyub qəbul eyləsən, gərək zəhmət çəküb mənimlə Cəlali Koroğlunun xidmətinə gedək.

Çün Mustəfa bəg bu sözi Bolu bəg sərdardan eşidib çox xoşhal oldı. Pəs neçə gün və neçə gecə Bolu bəgi mehman eyləyib eyşü-işrətə məşğul oldular. Bəd əz an Mustafa bəg hökm eyləyib iki yüz atlı atlarına səvar olub yüz qoydılar Çardaqlınun Çamlıbelə gəlməgə.

Pəs mənzilbəmənzil gəlürdilər, tainki Çamlıbelin həvalisinə yetişdilər. Mustafa bəg bir kağızı yazub bir nəfər qasidə verib göndərdi Cəlali Koroğlunun xidmətinə, bu məzmunla ki, ey Cəlali Koroğlu, bül və agah ol ki, Boli bəg sərdar öz əməllərindən peşiman olub bəndəlıx tövqi boynunda istər sənün xidmətüvə

gəlsün və məni özünə şəfi eyləyüb sənin xidmətüvə gətürür.

Çün qasid naməni götürüb yola düşdi, təcili-təmamilən özin yetirdi Çamlıbelə. Bir vəqtə yetişdi ki, Cəlali Koroğlu təmam iyidləri başına cəm eyləyüb eyşü-nuşə məşğul olmışdular və saqilər iyidlərə peydərpey şərab verüb, onların başı şərabi-nabdən gərm olmuşdı, qasid baş endirüb, Mustafa bəgün naməsin qoydı Cəlali Koroğlunun bərabərinə. Çün Koroğlu naməni açub məzmunundan müttəle oldı, həman saat hökm eylədi ki, təmam iyidlər atların zin edib Mustafa bəgün istiqbalına getsinlər.

Pəs Eyvəz balı və Bəlli Əhməd və Dəmirçioğlu və təmam iyidlər atlanub yüz qoydılar pişvazə. Əmma bu tərəfdən Mustəfa bəg və Bolu bəg sərdar və iki yüz Müstəfa bəgün atluları səvar olub hər iki dilavərlər yol əsnasında bir-birinə mülhəq oldular, kamali-cəlalü-şövkətilən gəlüb, tainki daxil oldılar Çamlıbelə.

Pəs Cəlali Koroğlu bir ali məclis tərtib vermişdi və özi sədri-məclisdə bir səndəli üstündə oturmuşdu və saqilər əl-əl üstə bərabərdə durmışdılar ki, Mustafa bəg və Bolı bəg sərdar məclisə daxil oldular. Pəs Bolı bəg özin saldı Cəlali Koroğlunun ayaqlarına, ərz eylədi:

– Qurbanun olum, mən sənün xidmətündə çox təqsir eyləmişəm, əmma hala nadim və peşiman olub öz əməllərimdən əl çəküb, sənün xidmətüvə gəlmişəm ki, həmişə sənün rikabında olam və sənün qabağında qılıc uram.

Pəs Cəlali Koroğlu ona çox nəvaziş eyləyüb yer göstərdi. Pəs Mustafa bəg və Bolu bəg öz yerlərində əgləşub. Əmma iyidlər təmam gəlüb hər kəs öz yerində aram və qərar dutdılar. Pəs Koroğlu hökm eylədi saqilərə ki, əhli-məclisə şərab versünlər. Saqilər əllərində cami– billur piyalə verməgə məşğul olub. Əmma bu tərəfdən mütriblər, rəqqaslar məşqul oldılar və xoşavaz müğənnilər bina eylədilər oxumağa.

Pəs bir məclis oldu ki, hərgiz əhli-aləm bir belə məclis görməmişdi və fələk dərbeçəsin götürüb o məclisə tamaşa eylərdi. Əlqissə, o gün ta qüruba kimin eyşü-işrətə məşğul oldılar. Çün gecə oldu, Cəlali Koroğlu hökm eylədi ki, təam gətürsünlər. Pəs süfrəçilər daxil olub ənvai-əqsam təamlar hazır eylədilər. Çün

təam sərf olundı, qəhvə və qəlyan gəldi. Bəd əz qəhvə və qəlyan genə mütrüblər rəqsə gəlüb və saqilər şərab verməgə məşğul oldılar. Əlhasil, ta nisfi-şəbə kimin iyidlərin başı şərabi-nabdən gərm olub hər kəs öz rəfiqilən keyfə məşğul oldı.

Çün nisfi-şəb oldı, Cəlali Koroğlu iyidləri mürəxxəs eylədi. Pəs əhli-məclis mütəfərriq olub, hər kəs öz mənzilinə gedib istirahətə məşğul oldı. Pəs Cəlali Koroğlu özi həm ayağa durub daxil oldı hərəmxanəsinə.

Çün sübh oldı, Mustafa bəg mürəxxəs olıb öz mənzilinə müraciət eylədi. Əmma Bolı bəg sərdar bir müddət qalıb Cəlali Koroğlunun rikabında. Bir müddətdən sora Bolu bəg ərz eylədi ki, qurbanun olum, mənim bir namzədim var, istərəm ki, məni mürəxxəs eyləyəsən ki, səfər eyləyim. Koroğlu çün bu sözi Bolı bəg sərdardan eşitdi, dedi:

– Bolı bəg, çün sən öz məmləkətün tərk eyləyüb mənim yanıma gəldün, gərək mən özim sənün toy tədarüküvü görəm və sənə bir toy dutam ki, təmam aləmdə məşhur olsun.

Pəs Cəlali Koroğlu adam göndərüb Müstəfa bəyi ehzar eylədi. Bəd əz an təmam iyidləri cəm eyləyib dedi:

– Cəmaət, mən istərəm Bolu bəyə bir toy dutam ki, təmam aləmdə o toyun mislin kimsənə görməmiş olsun.

Pəs iyidlər hümmət ətəgin kəmərinə urub hər tərəfdən tədarük görməgə məşğul oldılar. Bu əsnadə bir qoca kişi daxil oldı Cəlali Koroğlunun məclisinə. Gördü yaxşı cavanlar cəm olub binayi-toy qoyublar, o qoca dedi:

– Cəmaat, bu toyun heç eybi və nəqsi yoxdur. Əmma heyif ki, bir zadı əskikdür.

Koroğlu dedi:

– Qoca, bu toyun nə mənəsi əskikdür?

Qoca dedi:

– Ey Cəlali Koroğlu, mən baxıram ki, bu toyda təmam aləmün iyidləri və cavanları cəmdür. Əmma Həsən Cəlali bu məclisdə hazır dəgül.

Koroğlu dedi:

– Qoca, Həsən Cəlali kimdür?

Qoca dedi:

– Bəhbəhan məhalında bir cavandur ki, şücaətdə və rəşadətdə və səxavətdə onun misli və manəndi yoxdur və əgər təmam aləmün dilavərləri cəm ola, ona bərabər olmaz.

Qoca Həsən Cəlalini o qədər tərif eylədi ki, Cəlali Koroğlu onun iyidliyinə aşiq oldu. İyidlər ərz eylədilər ki, ey Cəlali Koroğlu, bu qoca Həsən Cəlalini o qədər tərif eylədi ki, bizlər təmam onun cavanlığına və iyidliginə aşiq olduq, gərək onı bu toya gətürək.

Koroğlu dedi:

-Cəmaət, mən özüm sizdən irəli ona aşiq olmuşam, sizlər aram dutun, ta mən özüm gedim Həsən Cəlalini gətürüm.

İyidlər hərçi ərz eylədilər ki, qurbanın olaq, sən öz yerində aram dut, bizlərdən neçə nəfər gedək və onı sənün xidmətündə hazır eyləyək, Koroğlu qəbul eyləməyüb dedi:

– Əlacı yoxdur, gərək özüm onun dalınca gedim.

Pəs sazın götirüb basdı sinəsinə, yüzin dutub iyidlərə tərəf, dedi:

Bolı bəglərə bir toy eylərəm,
Alun toy dügüsün, ta mən gəlincə.
Rumdan Şama kimin xəbər eyləyün,
Durun qulluğunda, ta mən gəlincə.

Duman gəlsün, dağlar başın bürüsün,
Ərəb atlar adəm leşi sürüsün,
Çəkün gəlsün Dulqədərün sürüsün,
Yiyün dəlilərim, ta mən gəlincə.

Qulaq verün, iyidlərüm, sözimə,
Müxənnətlər görünməsün gözimə,
Bolı bəgi qardaş dedim özimə,
Durun qulluğunda, ta mən gəlincə.

Koroğluyam, düşmənləri yıxaram,
Tərlan kimin kirvələri axaram,
Üç gecədə Bəhbəhana çaparam,
Yığun saqiləri, ta mən gəlincə.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, hökm eylədi Dəli Mehtər Qıratı zin edüb, neçə yerdən onın tənkin möhkəm eyləyüb çəkdi Cəlali Koroğlunun rikabına. Pəs Koroğlu ayaq həlqeyi-rikabə qoyub mürği-zərrinbal kimin xaneyi-zində qərar dutdı. Pəs iyidlər təmam səvar olub iki ağac yol Koroğlunun rikabında gəldilər. Pəs Koroğlu onlara vida eyləyüb qaytardı. Pəs özi Bəhbəhan yolın qabağına dutub bina eylədi getməgə. Gecə və gündüz yatmayub Qıratı sürərdi, tainki bir gün zöhr vəqti yetişdi bir qalaçanun bərabərinə.

Gördü ki, o qalanun divarları baş kəhkəşan fələkə çəküb. Çün qalanun qapısundan daxil oldı, gördi bir axuru daşdan bağlanub. Pəs atından aşağı gəlüb bağladı həman axura, bina eylədi qalanun için səyahət eyləməgə. Ta yetişdi bir yerə, gördü bir böyük çadır qurulub ki, onun qübbəsi fələki-ətləsə tənə urar. Çün daxil oldı çadıra, gördi çadırun bir tərəfində bir neçə six kabab hazır eyləyüblər və bir tərəfində bir qürbə şərab qoyublar. Əmma heç kəs çadırda yoxdur.

Çün Koroğlu neçə gün və neçə gecə at sürmüşdi və çox gürüsnə olmuşdı, o kababları tənavül eyləyüb və o qürbə şərabı nuş eylədi. Bir qədər çadırda əgləşüb istirahətə məşğul oldı. Çün əsəri-heymənin sahibi də məlum olmadı, ayağə durub qələnun darvazəsindən çıxub səhrayə tamaşa eylərdi. Bir vəqt gördü ki, səhra tərəfindən bir girdi-əzim nümayan oldu.

Çün toz çak oldı, Koroğlu gördü bir cavan dilavər bir kuhpeykər ata səvar olub. Əmma o cavan başdan ayağə kimin qərqü-ahənü-fulad olub, əlində bir nizeyi-cansitan, manəndimari-fərəm həman qələni gözləyüb gəlməkdədür. Cəlali Koroğlu dürüst tamaşa eylədi, gördü bu cavan yaman hərifdür ki, əgər aləmün iyidləri cəm ola, bu cavana hərif ola bilməz. Koroğlu öz– özinə dedi, əcəb yerdə girə gəldüm.

Çün o cavan yetişdi Cəlali Koroğluya, Koroğlu ona salam edüb. Cavan çün Koroğlunu gördü, dürüst tamaşa eylədi, gördü əcəb pətyarə cavandur ki, buğları binaguşindən keçib, baş günbəd kimin, qaməti, diyərsən bəs, bir çinar ağacıdur. Dedi:

– Cavan, bismillah, çün mənim qəlamın həvalisinə gəlmüsən, mənə qonaqsan.

Pəs Koroğlu həman cavanlan belə daxil oldı qalaya. Həsən Cəlali atından aşağı gəlüb istədi atın bağlasun axurda, gördü bir yaxşı at bağlanub axura ki, hər nə ələf var tənavül eyləyüb. Qəzəbnak olub, əmma heç dinmədi. Pəs atın bağlayub daxil oldı çadıra, gördi nə kəbab var və nə şərab. Yüzin dutub Cəlali Koroğluya dedi:

– Cavan, məgər bu kəbab və şərabu sən məsrəf eyləyübsən?

Koroğlu dedi:

– Bəli. Çün neçə gün və neçə gecə yol gəlmüşdüm, çox gürüsnə olmuşdum, onları mən məsrəf eylədim.

Həsən Cəlali çün bu sözi Cəlali Koroğludan eşidüb, qəzəbnak olub, qılıcın çəküb dedi:

– Vay, anasın satdığım xırsız, indiyə kimin heç kimsənədə cürət olmayub ki, məndən biizn mənim mənzilimə daxil olsun. Əmma çün sən bu biədəblığı eyləyüb mənim mənzilimə daxil olub və mənim kəbab və şərabımı sərf eyliyübsən. Səni bir zillətlən həlak eyləyüm ki, təmam əhli-aləmə ibrət olsun ki, minbəd bir belə xəta eyləməsünlər.

Çün Cəlali Koroğlu əhvalı belə gördi, qalxan çəküb başına, binayi-dava qoydu. Pəs neçə qılıc onların arasında rəddibədəl oldu, qılıcdan murad hasil olmuyub əl atub bir–birinün kəməründən dutub binayi-küşti qoydular. O gün ta aftab qurub eyləyənə kimin bir – birilən küşti dutdular, hər ikisi xəstə oldılar. Heç biri o birinə zor eyləyə bilmədi. Çün hər iki cavan bir – birindən xatircəm oldılar. Həsən Cəlali yüzin dutub Koroğluya, dedi:

– Cavan, indiyə kimin heç kimsənə mənim qabağımda bu qədər davam gətürməmişdi. Əmma çün səni bir dilavər cavan gördüm, hala sənlən qardaş oldum, bu gecə qonaqsan.

Pəs Cəlali Koroğlu onun giribanından əl çəküb. Həsən Cəlali Koroğlunu gətürdi bir əlahiddə mənzilə. Çün Koroğlu otağa daxil oldu, gördü bu otaqda bir nazənin-sənəm var ki, onun mislü-manəndi təmami-aləmdə yoxdur. Pəs Həsən Cəlali yüzin dutub o nazənin-sənəmə, dedi:

– Mehmanım var, ayağa dur, təam hazır eylə.

Pəs o nazənin ayağa durub. Ənvai-əqsam təam hazır oldu.

Pəs bina eylədilər təam tənavül eyləmağa. Əmma əsnayi-təamda bir qasid içəri daxil olub. Salam verib bir namə qoydu Həsən Cəlalinin bərabərinə. Çün Həsən Cəlali naməni açub məzmunundan müttəle oldu, həman saat rəngi mütəğəyyir olub qəzəbnak oldu.

Cəlali Koroğlu dedi:

– Cavan, niyə belə qəzəbnak oldun?

Həsən Cəlali dedi:

– Cavan, mənim bir namzədim var ki, onun adına Mərcan xanım deyəllər ki, Abdal Paşanun qızıdur. Bu naməni mənim namzədim yazub ki, mənim atam Abdal Paşa rəy nəsx olub, istər məni bir nəfər osmanlıya versün. Əgər bu namə sənə yetişən vəqtə özün tezliklən Bəhbəhanə yetürdün, məni görürsən və əgər tezliklən gəlməsən, Abdal Paşa məni sənə verməz və bir nəfər osmanlıya verir. O cəhətə aləm mənim gözümə tirəvü-tar olub rəngim mütəğəyyir oldu, hala mən istərəm Bəhbəhanə gedəm. Bəlkə öz namzədimi bir tədbir eyləyib gətürəm. Sən qırx günə kimin mənə mehmansan. Gərək burda qalasan. Əgər qırx günə kimin gəldim, gəlmişəm və əgər qırx günə kimin gəlmədim, bülgilən, mənim başımda bir əlamət var. Bu nazənin-sənəm mənim həmşirəmdür, bunu sənə verdüm, bunu götürüb öz vilayətüvə get.

Pəs Həsən Cəlali bunu deyüb dava əsbabların geyüb onlara vida eyləyüb atına səvar olub yüz qoydu tiri-şəhab kimin Bəhbəhanə getmağa.

Cəlali Koroğluynan bu nazənin-sənəm qoy, burda, təam yeməkdə olsun, əmma nəqli-dastan eşit Həsən Cəlalidən.

Çün Koroğlunu vida eyləyüb yola düşdü, həman gecə ta sübhə kimin at sürüb, sübh vəqti yetişdi Bəhbəhanə. Bir yerdə mənzil eyləyüb, ta axşama kimin orda qaldı. Eylə ki gecə oldu, Həsən Cəlali ayağa durub özin yetürdi Mərcan xanımun imarətinün bərabərinə. Kəmənd atub daxil oldu hasara. Ta gəldi Mərcan xanımun otağınun bərabərinə, pəncərədən baxub gördi Mərcan xanım əgləşüb. Əmma bir nəfər kəniz durub bərabərdə. Mərcan xanım yüzün dutub kənizə deyər:

– Kəniz, görəsən, qasid naməni Həsən Cəlaliyə yetürdi, ya nə?

Bu əsnada Həsən Cəlali səda eylədi:

– Xanım, qəm eyləmə ki, Həsən Cəlali özi gəlüb səni aparmağa.

Çün Mərcan xanım Həsən Cəlalinin səsini eşitdi, şad olub eşigə çıxıb gördi Həsən Cəlali durub otaq bərabərində. Pəs onı otağa gətirüb bir qədər şərab gətirüb bir neçə piyalə şərab Həsən Cəlaliyə verüb onların baş şərabi – nabdən gərm olub. Ta nisfi-şəbə kimin eyşü-işrətə və söhbətə məşğul oldular. Eylə ki nisfi-şəb oldu, Həsən Cəlali dedi:

– Xanım, daxi bizim oturmağımız məsləhət dəgül. Ayağa dur, gedək ki, mən öz mənzilimdə mehmanı qoyub sənün dalınca gəlmüşəm.

Pəs Mərcan xanım ayağa durub bir qədər qızıl və gümüş götürüb Həsən Cəlaliynən imarətdən çıxub gəldilər. Tainki Həsən Cəlali atın zin edüb Mərcan xanımı çəküb tərkinə, bina eylədilər gəlməgə. Ta sübhə kimin at sürüb sübh vəqti yetüşdilər bir dərrəyə ki, o dərrədə bir çeşmə var idi, o çeşmənün başında atdan aşağa gəlüb, bir qədər istirahət eyləyüb. Əmma qəzayi– rəbbanidən onları həman çeşmənün başında yuxu dutub xabi-qəflətə məşğul oldılar.

Qoy bunlar burda qalmaqda olsun, əmma nəqli-dastan eşit Abdal Paşadan. Çün Həsən Cəlali Mərcan xanımı götürüb yola düşdi, kəniz fikir eylədi ki, hərgah mən bu xəbəri Abdal Paşaya vermiyəm, məni həlak eylər. Pəs həman saat ayağa durub özin yetürdi Abdal Paşanun otağına. Gördü Paşa yatıb. Onu yuxudan bidar edib dedi:

– Paşam sağ olsun, daxi nə oturmusan ki, Həsən Cəlali sənün qızın Mərcan xanımı götürüb apardı.

Çün Abdal Paşa bu sözi eşitdi, aləm gözinə tirəvü-tar olub həman saat ləşkərün sərhənglərin çağırub igirmi beş min ləşkər onlara verüb dedi:

– Təcili-təmamilən gedərsüz Həsən Cəlalini hər yerdə ki, yetirdüz, onun başını gərək mənə gətürəsüz.

Pəs igirmi beş min ləşkər həman gecə köç edüb Həsən Cəlalinün dalısınca getməgə məşğul oldılar, ta özlərin yetürdilər həman dərrəyə ki, Həsən Cəlali və Mərcan xanım o dərrədə

xabi-qəflətə getmişdilər. Çün atların şiyhəsi ucaldı. Həsən Cəlali və Mərcan xanım yuxudan bidar olub gördülər Abdal Paşanun ləşkəri yetişdi. Pəs Həsən Cəlali Mərcan xanımı qoyub həman çeşmənün başında, özü atına səvar olub kəsdi ləşkərün bərabərün, dedi:

– Cəmaət, qulaq verün, bir neçə bənd türkü deyüm, ondan sora dava eyləyək:

Car buyurub Abdal Paşa üstümə,
Mən saymaram yüz min belə ləşkəri.
Götürəndə əgri qılıc dəstimə,
Mən saymaram yüz min belə ləşkəri.

Dörd tərəfdən dəstələri yeritmün,
Çar tərəfdən bədövləri səgirtmün,
Qəm oduna canlaruzu əritmün,
Mən saymaram yüz min belə ləşkəri.

Bulud kimin çar tərəfim almıyun,
Şirin canı bu qovğaya salmıyun,
Yüz döndərüb qabağımda qalmıyun,
Mən saymaram yüz min belə ləşkəri.

Həsən deyər, şikarımı almışam,
Nazlı yarun qol boynuna salmışam,
Qəm yemərəm, əgər yalquz qalmışam,
Mən saymaram yüz min belə ləşkəri.

Həsən Cəlali sözin təmam eylədi, qılıcın çəküb özin urdu dərya kimin ləşkərə. Pəs bu tərəfdən igirmi beş min ləşkər əl qılıca edib dörd tərəfdən Həsən Cəlalini aldılar araya. Pəs o dilavər pərva eyləməyüb hər kimin ki, başından ururdı, iki parə eylərdi və hər kimin ki, çignindən urardı, bir qolun və başın yerə salurdı. Pəs o cavan dilavər belə gərm dava olub ki, fələk dərbeçəsin açub onun davasına tamaşa eylərdi. Əlqissə, bir neçə saatda o ləşkəri tari-ənkəbut kimin yırtıb dağıtdı. Qoşun cəmaəti onun davasından şəkə gəlüb yüz həzimətə qoydular, əmma bu əsnada bir namərd həramzada bir nizə Həsən Cəlalinin atunun qarnından eylə urdu ki, həman saat

at səqət olub yıxıldı.

Pəs Həsən Cəlali piyada qalub. Qoşun cəmaəti çün əhvalı belə gördülər, cürət eyləyüb töküldülər. Bir neçə zəxmikarı Həsən Cəlaliyə urub onı dəstgir edüb qolların bağlayıb başın sındırdılar. Pəs Mərcan xanımı ata səvar edüb bina qoydular Bəhbəhanə gəlməgə.

Çün Həsən Cəlali əhvalı belə gördü, dedi:

– Cəmaət, indiki məni qolubağlı aparursuz bir neçə bənd türkü gəlüb sinəmə, qoyun onları deyim, ondan sora məni aparun. Pəs Həsən Cəlali bu türkünü oxudu:

Köyül qaldı qəm içində,
Əlim yetməz yar əlinə.
Didəm qaldı nəm içində
Əlim yetməz yar əlinə.

Qəm ləşkəri üstüm aldı,
Məni yaman dərdə saldı,
Nazlu yarda gözüm qaldı,
Əlim yetməz yar əlinə.

Görüm, çərxün dəvri dönsün,
Səyraqibün şəmi sönsün,
Abdal Paşa, görüm, ölsün,
Əlim yetməz yar əlinə.

Bu dünyanı Həsən neylər,
Yardan ötrü fəqan eylər,
Gözü yaşlu türki söylər,
Əlim yetməz yar əlinə.

Çün Həsən Cəlali sözin təmam eylədi, qoşun cəmaəti kəşan – kəşan onu bina eylədilər aparmağa. Tainki onları daxil eylədilər Bəhbəhanun şəhrinə. Pəs Abdal Paşa çün Həsən Cəlalini görəndə qəzəbnak olub dedi:

– Vay anasın satdığım xırsız, bu nə əməli-bicadur ki, eylədün və məni təmam paşalar içində rüsva eylədün.

Pəs cəllad istəyüb. İstədi onı həlak eyləsün, əmma vəzir ərz

eylədi:

– Qurbanun olum, Həsən Cəlali yaxşı cavandur, bunu öldürmə, ver, həbsə salsunlar. Hərgah, minbəd, bir də xəyanət eylər o vəqt ver, həlak eyləsünlər.

Paşa vəzirün iltimasın qəbul eyləyüb. Çün Həsən Cəlali zəxmdar idi, Paşanun imarətinün dalında bir həkimxanə var idi. Paşa hökm eylədi, Həsən Cəlalini aparub o həkimxanədə zəxmlərinə müalicə eyləsünlər. Pəs onı gətürüb o həkimxanədə mənzil verdilər və həkim gecə və gündüz məşğul oldı ona müalicə eylamağa.

Əmma bu tərəfdən Mərcan xanım bir kankan çağırub bir nəqib qazdırdı. Eylə ki gecə olurdı, gəlürdi Həsən Cəlalinün yanına, ta sübhə kimin söhbətə məşğul olub eyşü-nuş eylərdilər. Qoy bunlar burda qalsın, əmma nəql – dastan eşit Cəlali Koroğludan.

Həsən Cəlali çün Koroğlunu vida eyləyüb yola düşdü. Pəs Koroğlu təam yeməkdən fariq oldu, o nazənin-sənəm aftabaləgən gətürüb ta Cəlali Koroğlu əlin yusun. Koroğlu dedi:

– Xanım, sənün bu qardaşıvun adı nədür?

Qız dedi:

– Mənim qardaşımın adına Həsən Cəlali deyəllər.

Koroğlu çün bunu eşidüb əlin urdu bir – birinə, dedi:

– Ey nazənün-sənəm, mən gəlmişdim ki, onı toya qonağ aparam, əmma tanımadım. Hala mənə oturmaq haramdur, gərək onun dalınca gedəm.

Pəs Cəlali Koroğlu bunı deyüb, həman saat ayağa durub Qıratın zinnin qoyub üstünə, onun tənkin neçə yerdən möhkəm eyləyüb, ayaq həlqeyi-rikabə qoyub xaneyi – zində qərar dutdu. Pəs o nazənün-sənəmü vida eyləyüb Bəhbəhan yolın qabağa dutub bina eylədi getmağa.

Pəs o gecə və o gün at sürüb. Çün gün qürub eylədi, bir çeşmənün başında atdan aşağı gəlüb, namazın qılub özi bir qədər yatub istirahət eylədi. Eylə ki nisfi-şəb oldı, genə ayağa durub atına səvar olub bina eylədi getmağa. Sübhün tüluuna yavuq olmuşdu, yetüşdi bir dərrəyə, gördü Qırat qədəm-qədəmindən götürməz. Bir neçə acı taziyanə o heyvanə çəkdi, gördü, əsla o

heyvan qədəm götürməz. Pəs atdan aşağı gəlüb dürüst mülahizə eyləyəndə gördü bu dərrə təmam adam leşidür, əmma təmam osmanlıdur. Cəlali Koroğlu mütəğəyyir və məbqut olub fikir eylərdi ki, aya, bunları kim həlak eyləyüb. Ta sübhə kimin orda qalub, eylə ki sübh oldu, Cəlali Koroğlu dürüst tamaşa eylədi, gördü, o dərrə təmam başdan – ayağa adam cəndəgüdür. Əmma gördü dərənün üstündə bir bostan var, əmma bostançı əlində ağac təmaşa eylər. Koroğlu o bostançını çağırub dedi:

– Cavan, bu qədər adamı kim həlak eyləyüb?

Bostançı dedi:

– Cavan, qulaq ver, deyim ki, bunları kim bu həlakətə yetürdi:

Həsən adlı saldı qovğa,
Belə dövüş olmamışdı.
Nər dövüş saldı araya,
Belə qırğın olmamışdı.

Görürsən dağü-daşları,
At ayaqlar bu leşləri,
Qan içində bu başları,
Belə dövüş olmamışdı.

Düşmən səfin çəkdi bəri,
Şeşpər ilən əzdi səri,
Adəmü-Xatəmdən bəri,
Belə qırğın olmamışdı.

Bostançılar əkər bostan,
Dillərdə deyilür dastan,
Mənzilümdür Ərəbistan,
Belə qırğın olmamışdı.

Bostançı çün sözin təmam eylədi, ərz eylədi:

– Cavan, Həsən Cəlali Abdal Paşanun qızı Mərcan xanımı götürüb aparurdı. Əmma Abdal Paşa xəbərdar olub daldan igirmi beş min osmanlı ləşkəri göndərüb. Bu dərrədə onı aldılar arayə, əmma o cavan əsla bak etməyüb onları həlakətə yetürürdi. Axırüləmr onun atın səqət edüb. O cavani-namdar

piyada qalıb onı neçə yerdən zəxmdar edüb namərdliklən qolların bağlayıb və başın sındırıb öz namzədi Mərcan xanımilən belə Bəhbəhanə Abdal Paşa yanına apardılar.

Çün Cəlali Koroğlu bu sözləri bostançıdan eşidüb ah-nihadindən çəküb aləm gözinə tirəvü-tar oldu, çox ağladı və dedi:

– Heyif o cavana ki, onı bu növ zillətlən Bəhbəhanə apardılar.

Pəs həman saat atına səvar olub yüz qoydu Bəhbəhanə tərəf getmağa. Tainki özin yetürüb Bəhbəhanun şəhrinə, bir səbzifüruşun dükkanına yetişüb gördü bir qoca kişidür, dedi:

– Qoca əmü, bir qərib adamam, istərəm ki, bir neçə saat mənim atımdan mütəvəcceh olasan ki, bazarda bir qədər işim var, onları görüm, ondan sora gəlüb atımı aparuram.

Pəs bir qədər ələf alıb tökdü Qıratın qabağına, dedi:

– Qoca əmü, mənim atım bədhaldur, məbadə, bir adam qoyasan ki, onun ətrafına dolana.

Bunu deyüb sazın götürüb basdı sinəsinə, yüzün dutub Qırata dedi:

– Heyvan,

Canım Qırat, aman vermə düşmənə,
Çar tərəfdən bağlagilən yolları.
Qoyma girə biganəni gülşənə,
Çar tərəfdən bağlagilən yolları.

Tərlan kimin seyr elə dağü-daşın,
Rəvan eylə düşmənlərün göz yaşın,
Hər tərəfdən osmanlının üz başın,
Qələm kimin sal yer üstə qolları.

Qurban olum alma kimin gözlərə,
Qara birçək tökülübdür üzlərə,
Qızıl toqqa bağladuram dizlərə,
Çar tərəfdən bağlagilən yolları.

Qoç Koroğlu Bəhbəhanə gəlübdür
Dost yolunda şirin canın qoyubdur,

Rumü-Şamdan bacü-xərac alubdur,
Bundan sora xudam bilür halları.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, bir nəfər osmanlı cəmaətindən gəlüb Qıratın ələfindən bir qədər götürüb istədi rəvanə olsun, o heyvan ağzın mağara kimin açıb yapışdı onun kəmərindən. Götürüb atanda dəgdi bir nəfər iri osmanluya və hər ikisinin qolu şikəst oldu. Osmanlı cəmaəti əhvalı belə görəndə dedilər:

– Çəkülün kənarə, bu anasın satdığım əcəm oğlunun bəygirindən adama zərər uğrar.

Pəs Koroğlu bir neçə para o səbzifüruşa verüb, Qıratı ona tapşırub, ordan keçüb rəvanə oldu bazara. Pəs bir qədər yol getmişdi, gördü bir nəfər osmanlı bir osmanlını alub arxasına, aparur. Koroğlu xəbər aldı:

– Canım, bunu harıya aparursan?

Osmanlı dedi:

– Cavan, o anasın satdığım Həsən Cəlali bunu zəxmdar eyləyüb. Aparuram ta cərrah bunun zəxmlərinə mərhəm salsun.

Pəs Cəlali Koroğlu osmanlı ilə gəlüb həkimün qapusına. Çün daxil oldı otağa, gördü, həkim əgləşüb. Pəs oturdı yerə, tainki aftab qürub eylədi və xalq təmam həkimxanədən eşigə çıxdılar, Koroğlu yüzün dutub həkimə, dedi:

– Həkimbaşı, heç bülürsən ki, Həsən Cəlalinin yaralarını kim müalicə eylər?

Həkim bunu eşidəndə qəzəbnak olub dedi:

– Əcəm oğlu, Həsən Cəlalünun adın aparma ki, əgər Abdal Paşa eşitsə, səni həlak eylər.

Cəlali Koroğlu çün bu sözi həkimdən eşitdi, qəzəbnak olub əl atıb dutdu həkimün boğazından. Təkan verəndə həkimin nəfəsi qət olub həman saat cəhənnəmə vasil oldu. Pəs istədi ki, eşigə çıxsun, gördi otağın məxzənindən səs gəlür. Pərdəni götürüb içəri daxil olanda gördü Həsən Cəlali öz namzədi Mərcan xanımlan belə o məxzəndə əgləşüb söhbətə məşğuldular.

Mərcan xanım çün Cəlali Koroğlunu gördü, ayağa durub istədi nəqibdən getsün, Həsən Cəlali dedi:

– Xanım, getmə ki, bu cavan mənüm qonağımdur, bu ca-

vanı mən öz mənzülümdə qoyub gəlmüşdüm. Əmma hala yəqin mənim dalımca gəlüb.

Pəs Mərcan xanım qayıdıb əgləşdi. Əmma Cəlali Koroğlu yüzün dutub Həsən Cəlaliyə dedi:

– Dur ayağa, daxi oturmaq vəqti dəgül ki, Abdal Paşa xəbərdar olmamış Mərcan xanımı bu məmləkətdən aparaq.

Qız elə Cəlali Koroğludan bunu eşidəndə dedi:

– Cavan, məgər nə qədər cəmiyyət gətürübsən ki, məni ....

....oldu. Pəs cilovdar gördi ki, mehtər gəlmədi və atlar həm davadan sakit olmadı və bir ayrı mehtər göndərdi. Çün o mehtər həm daxil oldu tövləyə. Koroğlu həm əl uzadıb onun boğazından dutub o qədər sıxdı ki, cəhənnəmə vasil oldu.

Əlhasil, cilovdar bir – bir mehtərləri tövləyə göndərüb, Cəlali Koroğlu onları həlak eylədi. Axırüləmr özi ayağa durub daxil oldu tövləyə. Gördü təmam mehtərlər ölüb, cəmdəkləri tökülüb, əmma bir pətyarə durub tövlədə ki, buğları binaguşindən keçib. Cilovdar eylə Cəlali Koroğlunu görəndə mat – mütəğəyyir qalıb durdu yalvarmağa.

Koroğlu dedi:

– Cilovdar, əgər istərsən ki, salamat qalasan, bu atlardan iki danə yaxşısını zin eylə ki, səni həlak eyləməyim.

Pəs cilovdar canınun hövlündən Abdal Paşanun xassə atlarından iki yaxşı at zin eylədi. Ərz eylədi:

– Cavan, daxi bu tövlədə bunlardan yaxşı at yoxdur.

Pəs Cəlali Koroğlu dedi:

– Cilovdar, çün sən mənə yaxşılıq eylədün, gərək mən sənə ənam verüm. İrəli gəl ki, sənə ənam verim.

Cilovdar ərz eylədi:

– Cavan, mən sənün ənamın istəmirəm. Əgər istərsən ki, rəbbim səndən razı ola, atları götür, get.

Koroğlu dedi:

– Cilovdar, qorxma ki, mən səni həlak eylərəm. eyl0mr0lyVbQİSOhYp1yViQ

Pəs atları çıxardıb gətürdü qapıya, çəkdi həkimin tövləsinə. Bəd əz an gedib səbzifüruşun evindən Qıratı gətürüb bağladı tövləyə. Ondan sora gəldi Həsən Cəlalinün və Mərcan xanımun yanına, dedi:

– Bismillah, durun ayağa ki, atları hazır eyləmişəm.

Pəs Mərcan xanım ayağə durub nəqibdən daxil olub öz imarətinə bir qədər qızıl və gümüş və libasi-zərrinə və cəvahirat bir xurcun məmluv edüb gətürdü onların yanına.

Pəs onların hər üçü ayağə durub atlarına səvar olub qələdən xaricə çıxdılar. Çün bir qədər yol getmişdilər, yetişdilər bir basəfa çəmənə. Cəlali Koroğlu gördü əcəb dava yeridür, xəyal eylədü ki, burdan dava etməmüş getmək heç hüsnü yoxdur, yüzün dutub Həsən Cəlaliyə dedi:

– Yuxu məni çox biaram eyləyüb. İstərəm bu çəmində bir qədər aram dutasuz, ta mən bir qədər yatub istirahət eyləyüm.

Mərcan xanum elə bunı eşidəndə dedi:

– Doğru diyəllər ki, əcəm tayfasunun əqli olmaz. Bura yatmalı yerdür? Axır Həsən Cəlali də bu cür rəftar edüb o dərədə xabi-qəflətə getdi, tainki ləşkər dalıdan gəlüb zəxmdar edüb qolubağlı Bəhbəhanə apardılar.

Cəlali Koroğlu Mərcan xanumun bu sözlərindən çox pərişan olub qəzəbnak oldu, dedi:

– Xanım, məni Həsən Cəlali xəyal eylədün? Rum məmləkətinün uşaqları mənim adım gələndə gəhvarədə qorxudan ağlamazlar. Sənün yanında əcəb həqir olmuşam ki, məni Abdal Paşanun ləşkərindən qorxudursan? And olsun Allaha, bu çəməndən getmərəm, tainki Abdal Paşanun ləşkərin təmam qırmayam.

Pəs Mərcan xanım və Həsən Cəlali hərçənd iltimas eylədülər ki, Cəlali Koroğlu yola düşsün, mümkün olmadı. Pəs labüdd qalub o çəmində atlarından aşağa gəlüb hər biri bir yanda çəkülüb istirahətə məşğul oldular. Əmma Cəlali Koroğlu özü yatmayub onlara keşik çəkərdi. Qoy, bunlar bu çəmində istirahətə məşğul olmaqda olsun, əmma nəqli-dastan eşit Abdal Paşadan.

Çün Koroğlu Həsən Cəlalini və Mərcan xanımı Bəhbəhan-

dan götürüb yola düşdü, bu tərəfdən Abdal Paşa xəbərdar olub ki, Cəlali Koroğlu bunları aparıb. Çün Koroğlunun şöhrətin və iyidligin Abdal Paşa eşitmişdi və bilirdi ki, onun qabağında hərif ola bilməz. Pəs vəzirin istəyüb dedi:

– Bu anasın satdığım Koroğlu Həsən Cəlalini və mənim qızım Mərcan xanımı aparıb. Tədbürün nədür ki, məni təmam aləmdə rüsva eylədü.

Vəzir ərz eylədi:

– Paşam sağ olsun, Cəlali Koroğlu özü bir rəşid adamdur ki, təmam Rum əhli onun əlindən təngə gəlüblər və əlavə buna onun yeddi min yeddi yüz yetmiş yeddi dəlisi vardur ki, hər biri bir Rüstəmi – zəmanədür ki, əgər Rum paşaları təmam ləşkər çəküb onlar ilən dava eyləyələr, təmamisin həlakətə yetürüllər. Məsləhət odur ki, bir qədər ləşkər götürüb onlarun dalınca gedəsən, əmma dava eyləməyəsən. Bəlkə bir hiylə edib diyərsən ki, mən öz qızım Mərcan xanımı Həsən Cəlaliyə verdüm, əmma bu şərtlən ki, gəlün gedək Bəhbəhanda toyun dutub təslim edim. Bəlkə bu hiylə ilən onları şəhərə gətürüb qafil edib dutasan və həlak eyləyəsən.

Paşa çün bu tədbiri-bisəvabı vəzirdən eşidüb pəsənd eylədi. Pəs həman saat hökm eylədi ki, on iki min ləşkər səvar olub yüz qoydular onların dalınca getməgə. Çün bir ağac yol şəhərdən çıxdılar, yetişdilər həman çəmənə ki, Cəlali Koroğlu və Həsən Cəlali və Mərcan xanım orda aram dutmuşdular. Çün ləşkərün səvarı uzaqdan nümayan oldu, Mərcan xanım durdu ağlamağa. Həsən Cəlali dedi:

– Xanım, niyə ağlarsan?

Dedi:

– Bu dəlünün sözinə xatircəm olub məni şəhərdən çıxartdun, hala atam Abdal Paşa ləşkər çəküb gəldü. İmdi həm səni və həm məni dutub həlak eylər.

Cəlali Koroğlu qulaq verirdi, çün bu sözləri Mərcan xanımdan eşitdi, qəzəbnak olub Qıratın təngin yeddi yerdən möhkəm edib səvar oldu. Bir məhmızi-tiz o heyvana çəküb meydanı bir cövlan eylədi, gəldi Həsən Cəlalinin yanına. Dedi:

– Dur ayağa, səvar ol, əmma sən mənim dalımı kəs, qoy-

ma düşmən daldan gəlsün. Ta mən özüm bu ləşkəri tarımar eyləyüm.

Mərcan xanım ərz eylədi:

– Qurbanın olum, belə xəyal eyləmə, övrət tayifasiyəm, rahi-rəsmi-davadan xəbərim yoxdur. Aslanun erkək və dişisi olmaz. Əgər mürəxxəs eyləsən, mən özüm həm ata səvar olub sənün dalında durram.

Cəlali Koroğlu çün bu sözi eşidüb çox xoşuna gəldi və ona çox mərhəba deyib təhsin eylədi. Pəs onların hər üçü atlarına səvar olub. Cəlali Koroğlu qabaqca və onlar onun dalınca Abdal Paşanun yolun kəsüb durdular. Çün Abdal Paşa ləşkər ilən belə yetişdi, gördü Cəlali Koroğlu ac şir kimin yol üstün kəsüb, istər onları tömə eyləsün. Abdal Paşa xəbər aldı:

– Cavan, sən kimsən?

Koroğlu dedi:

– Qulaq ver, deyim ki, mən kiməm.

Koroğluyam, divdən dönmüş asiyəm,
Ya mən allam səni, ya sən al məni.
Çamlıbeldə iyidlərün xasiyəm,
Ya mən allam səni, ya sən al məni.

Təkə – türkman, yomut kimin elim var,
Dil annamaz neçə – neçə dəlim var,
Eyvəz kimin tər bənəfşə gülüm var,
Ya mən allam səni, ya sən al məni.

Tanımaram paşa nədür, xan nədür,
Beydəq nədür, dəstə nədür, san nədür,
Meydan nədür, ölüm nədür, qan nədür,
Ya mən allam səni, ya sən al məni.

Mən sövərəm alma gözlü atımı,
Heç vermərəm düşmənlərə matımı,
Koroğluyam, aləm tanur zatımı,
Ya mən allam səni, ya sən al məni.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Abdal Paşa dürüst baxdı Koroğluya, gördü, vaqeən bir cavandur ki, əgər aləm tə-

mam ləşkər ola, onun qabağında davam eyləməz. Pəs atın sürüb Koroğlunun bərabərinə, dedi:

– Ey Cəlali Koroğlu, mənim sənün ilə davam yoxdur, sən çəkil, dur kənarda. Ya mən Həsən Cəlaliyə qalib ollam, ya o mənə qalib olur.

Koroğlu (dedi):

– Paşa, mən Həsən Cəlalinün nəməgin dadub və ona bir gecə mehman olmuşam və əlavə ona onları mən Bəhbəhandan çıxardub bu səhrayə gətürmüşəm. Nə qədər canımda can var, qoymaram onların başından bir tük əskük olsun.

Abdal Paşa gördü əlac yoxdur, Cəlali Koroğlu Həsən Paşaya himayət eyləyəcaq, binayi – hiylə qoydu, dedi:

– Ey Cəlali Koroğlu, imdiyə kimin sənün meylün odur ki, mən öz qızım Mərcan xanımı Həsən Cəlaliə verüm, sənün xatirün üçün verrəm, əmma bu şərtlən ki, məni rüsva eyləyüb Mərcanı bu təriqlən aparmuyasan.

Koroğlu dedi:

– Pəs sənün mənzurun nədür?

Ərz eylədi:

– Mənzurum budur ki, gedək Bəhbəhanə, özüm onun toy tədarükün görüm və öz əlümlə onlara toy dutum.

Koroğlu çün bu sözi Abdal Paşadan eşitdi, xoşhal olub razı oldu. Abdal Paşa çün gördü Koroğlu razı oldu, yüzün dutub öz adamlarına dedi:

– Cəmaət,

Ay ağalar, qulaq verün,
Mərcanı verdüm Həsənə.
Dəstə – dəstə halay durun,
Mərcanı verdüm Həsənə.

Ləşkər girməsün meydanə,
Meydan bələşür al qanə,
Xəbər olsun Bəhbəhanə,
Mərcanı verdüm Həsənə.

Mərcanımun boyu bəstə,
Beli incə, ləbi püstə,
Qoç Koroğlu, gözüm üstə,
Mərcanı verdim Həsənə.

Mərcanımın xalı qoşa,
Zülfü keçib binaguşa,
Doğru söylər Abdal Paşa,
Mərcanı verdüm Paşa slitəma

Əl üzgilən mənim kimin gözəldən,
Canım Paşa, imdi Allah saxlasun.

Çün Mərcan xanım sözin təmam eylədi, Abdal Paşa onun bu sözlərəndən qəzəbnak olub. Qılıcın çəküb həmlə eylədi Mərcan xanımın üstünə, dedi:

– Vay, gisu-büridə, istərsən məni təmam aləm içində rüsva eyləyəsən, mən hiylə eylərdüm ki, bəlkə səni və Cəlali Koroğlunu və Həsən Cəlalini bir növ ilən girə salam və əgər sizə qalib olam, yəqin eylə ki, sizi rizə – rizə eyləyüb ətünüzü itlər qabağına tökərəm.

Bunu deyüb qılıcın həvalə eylədi. Mərcan xanım əhvalı belə görəndə atınun başın döndərüb özün saldı Cəlali Koroğlunun dalınca, bina eylədi bu bəyatı oxumağa:

Harda qaldı qoç Koroğlu,
Gələ, girə bu meydanə.
Çəkə beldən misri qılıc,
Meydanı batıra qanə.

Köyül oldu qəm oylağı,
Zəhər verdi mənə saqi,
Paşa oldu mənə yağı,
Yetişdüm qüssədən canə.

Gözüm yaşı rəvan olmuş,
Ciyərim qan ilən dolmuş,
Gülüstanım xəzan olmuş,
Odur gəldim mən əfqanə.

Qoç Koroğlu kömək etməz,
Nədəndür dadıma yetməz,
Bu Mərcandur, nədən ölməz,
Əlim yetməz bəgə, xanə.

Çün Mərcan xanım sözin təmam eylədi, Cəlali Koroğlunun qeyrəti cuşa gəlib atın sürdü Abdal Paşanun bərabərinə, dedi:

– Vay həramzadə, bəs istərdün mənə hiylə eyliyəsən? Bu gün səni bir xarlığlan öldürüm ki, təmam əhli-Rum sənün əhvalıva qan ağlasun.

Abdal Paşa dedi:

– Vay anasın satdığım xırsız əcəm oğlu, sən qoç davasına düşməyübsən, bəs təmam əhli-Rum sənün əlündən təngə gəlüb, istərsən yalquz canın ilən mənə müqabil olasan və mənim qızım Mərcanı aparasan. İmdi hökm eylərəm on iki (min) ləşkər səni ətrafdan arayə alsun və sənün bədənün atlar ayağı altında pamal eyləsün.

Cəlali Koroğlu Abdal Paşanun bu sözindən bir güldü, dedi:

– Paşa, çox da ləşkərüvə məğrur olma. Mən dəvəsi ölmüş ərəbəm, o qədər bundan çox ləşkər içinə düşmüşəm, əmma Allahun köməkligiylən kimsənə mənə zəfər tapmıyub.

Abdal Paşa Koroğlunun bu sözlərindən qəzəbnak olub yüzün dutub öz ləşkərinə, dedi:

– Cəmaət, daxi durmaq vəqti dəgül. Qoymuyun bu anasın satdığım əcəm oğlu bu qədər lafü-kəzaf eyləyüb zəbandirazluq eyləsün, gərək onu diri – diri dutub mənim yanıma gətürəsüz, ta onu verəm Bəhbəhanda darə çəksünlər ki, təmam əhli – aləm onun şəründən xilas olub qurtulsunlar.

Cəlali Koroğlu çün Abdal Paşadan bu sözü eşitdi xişmnak olub bir məhmizi-tiz Qırata çəküb o heyvan ağzın mağara kimin açıb və ümmin-ələm edüb, əndaz götürüb özün yetirdi meydanun vəsətinə. Pəs Koroğlu yüzün dutub Qırata bina eylədi o heyvanı oxşamağə. Bu türkünü oxudu:

Canım Qırat, sər – sər kimin əsgilən,
Çar iqlimdə yoxdur sənə bərabər.
Aman vermə, düşmən yolun kəsgilən,
Çar iqlimdə yoxdur sənə bərabər.

Ceyran kimin atılgilən arxları,
Bərhəm eylə on iki min ləşkəri,
Qaplan kimin dağıtgilən səfləri,
Çar iqlimdə yoxdur sənə bərabər.

Ayaq götür meydan için gəzgilən,
Qəvvas olub qan dəryasın üzgilən,

Təpik urub düşmən başın üzgilən,
Çar iqlimdə olmaz sənə bərabər.

Qoç Koroğlu qurban sənün şəstüvə,
Gərdən çəküb durmağuva, bəstüvə,
Qızıldan nal çəkdirürəm dəstüvə,
Çar iqlimdə yoxdur sənə bərabər.

Çün Cəlali Koroğlu atın oxşadı. Bəd əz an yüzün dutub Abdal Paşaya dedi:

– Vay həramzadə, məni on iki min ləşkər ilən qorxudursan? Mənə Cəlali Koroğlu deyəllər ki, təmam məmləkətlərdə mənim adım deyilür və təmam paşalar mənim qılıcımın zərbindən gecə və gündüz aram dutub otura bilməzlər. Bu gün sənə bir zərbi – dəst göstərüm ki, dəryadə nəhəng və meşədə pələng sənün əhvaluva ağlasun.

Abdal Paşa gördü Cəlali Koroğlunun hirsindən gözləri qızarıb, əmma əli qılıcın qəbzəsindədür, yüzün dutub ləşkərə dedi:

– Cəmaət, qoymuyun bu nəmək – bəhəramı.

Pəs on iki min ləşkər birdən əl qılıca eyləyüb istədilər Cəlali Koroğluya həmlə eyləsünlər, Koroğlu dedi:

– Paşa sağ olsun, mənim adətimdir ki, dava günündə türkü oxuram, bir neçə bənd türkü gəlüb sinəmə, qoy, onları deyim, ondan sora dava eyləyək.

Pəs Koroğlu yüzün dutub Abdal Paşaya bu türkünü oxudu:

Abdal Paşa, ucalduram fəqanun,
Öz yerində bircə ləhzə dayan, dur.
Yerdən gögə çıxarduram amanun,
Öz yerində bircə ləhzə dayan, dur.

Tərlan kimin sağdan sola axaram,
Cigərüvü qəm oduna yaxaram,
Başun kəsüb öz yanuma taxaram,
Öz yerində bircə ləhzə dayan, dur.

Qır atın meydan için oynaram,
Qanun içsəm, kasa-kasa, doymaram,

Bəhbəhanda erkək-dişi qoymaram,
Öz yerində bircə ləhzə dayan, dur.

Koroğluyam, dəstələri bükərəm,
Düşmən üstə əgri qılıc çəkərəm,
Pirim haqqı, cigərivü sökərəm,
Öz yerində bircə ləhzə dayan, dur.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, əl atıb qılıcın belindən çəküb özün urdu dərya kimin ləşkərə. Hər tərəfdən küştələrdən püştələr tərtib verürdi, qoşun cəmaəti kəlleyi-rubah kimin o bəbri-dumanun qabağından qaçıb küçələr açardılar. Bir türfətül-eyn içində o ləşkəri tari-ənkəbut (kimin) yırtıb parə eylədi. Hər kimə ki, müqabil olurdu bərati-ömrin möhr eylərdi. Çox pəhləvanlar xaki-xunə yeksan eylədi, çox ələmlər sərnigun edib ələmdarı manəndi-qələm iki parə eylədi. Əlhasil, Abdal Paşa çün bu zərbi-dəsti Koroğludan gördü, büldü ki, onun ömrünün piyaləsi dolub, daşmaqdadur. Bir hiylə eyləyüb kəsdi Koroğlunun bərabərin, dedi:

– Vay anasın satdığım xırsız, sən imdiyə kimin uşaq davasına düşmüsən, hənuz mərd davasın görmüyübsən.

Cəlali Koroğlu Abdal Paşanı meydanda görəndə dedi:

– Həramzadə, mən səni gögdə axtarırdum, hala yerdə əlimə düşmüsən. Bu ləşkərün heç təqsiri yoxdur. Ondan ötrü bunları sən gətürmüsən, bu gün sənə bir qılıc urum ki, dördümcü gögdə Həzrət İsa sənin əhvaluva ağlasun.

Abdal Paşa yüzün dutub ləşkərə, dedi:

– Cəmaət, razı dəgüləm kimsənə meydanə (qədəm) qoysun. Gərək özüm Koroğlu ilən dava eyləyim.

Pəs o iki dilavər bir-birinə müqabil durub. Koroğlu dedi:

– Ey həramzadə, mənim qaydamdur ki, həmişə fürsəti düşmənə verim. Gəl, görüm, nə karəsən?!

Pəs o həramzadə qılıcın çəküb, meydanı bir dolandı, yüzün dutub Cəlali Koroğluya, bu türkünü oxudu:

Mən sövərəm çar yarı dilimdə,
Dar məcalda qalan vəqtə yar olur.

Ağır qiymət misri qılıc belimdə,
Çəksəm əgər düşmənlərim xar olur.

Car eylərəm Bəhbəhanun şəhrinə,
Qərq olur dəmir geyim bəhrinə,
Baturullar səni yerün qərinə,
Gecə-gündüz işün ahu-zar olur.

Yaxşı bülləm bu işlərin çarəsin,
Mərd iyidlər özü bağlar yarəsin,
Ucaldaram Eyvəz xanun naləsin,
Bərhəm olub zülfi tari-mar olur.

Abdal Paşa tib dəstələr qurubdur,
Ac qurd kimin yol üstündə durubdur,
Qəvi düşmənlərin boynun urubdur,
Dalısında kömək çariyar olur.

Çün Abdal Paşa sözin təmam eylədi, qılıcın qovzuyub yuxarı, istədi Cəlali Koroğlunun başından ursun. Koroğlu səkkiz qızıl qübbəli qalxanı çəkib başına, o zalim həramzadə qılıcın belə endirdi Koroğlunun başından ki, xirmən-xirmən atəş qılıcın dəmindən və qalxanun qübbəsindən yerə töküldü. Pəs Cəlali Koroğlu o zalimin qılıcın rədd eləyüb dedi:

– Ey həramzadə, sən öz növbətin təmam eylədün, hala növbət mənümdür, xəbərdar ol.

Pəs Koroğlu qılıcın belindən çəküb Qırata bir məhmizi-tiz yəminü-yəsardan göstərüb o heyvani-bizəban əndaz götürüb ağzın məğara kimin açub bir neçə baş meydanı cövlan edüb. Eylə ki Abdal Paşanun müqabilinə yetişdi, Cəlali Koroğlu bir neçə bənd türkü oxudu:

Tülək tərlan oylağında,
Diyəllər, xeyli sar olur.
Qızılgül açılan vəqtdə,
Bahar fəslində xar olur.

Söyərəm çari-yarıvi,
Sındırram balü-pərivi,

Qıraram hər nə varivi,
Köməgim həştü-çar olur.

İyid meydanda qalmasa,
Düşməndən kamın almasa,
Canan yolunda ölməsə,
Yarasız gəlsə, ar olur.

Qoç Koroğlu nə bak eylər,
Düşmənlərin həlak eylər,
Dəstələr sinə, çak eylər,
Dağıdur, tari-mar olur.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, qılıcun bir dolandırub, Abdal Paşaya müqabil olanda qılıcı belə çaldı ki, qılıc qalxanı iki parə eyləyib əgləndi, kasi-külahi iki parə eyləyüb keçdi başına, başından keçüb sinəsinə, sinəsindən nafına, nafından keçüb atun zininə, atun zinindən keçüb qılıcun boynu atın qarnı altından zahir oldu. Pəs rakib və mərkəb dörd parə olub yerə yıxıldı. Pəs hər iki tərəfdən sədayi-afərin çərxibərinə büləmd oldu.

Pəs Cəlali Koroğlu çün Abdal Paşanın qətlindən fariq oldu, istədi qoşuna həmlə eyləsün, bir vəqt gördü səhra tərəfindən bir gərdi-əzim peyda oldu. Bunları qoy burda qalsun, əmma nəqli-dastan eşit Cəlali Koroğlunun iyidlərindən.

Çün Koroğlu iyidləri vida eyləyüb gəldi Həsən Cəlalinin dalısınca, iyidlər müraciət eyləyüb, Çamlıbelə, o gecəni eyşünuşə məşğul oldular. Eylə ki sübh oldu, Mustafa bəy və Eyvəz balı iyidləri cəm eyləyüb, dedi:

– Cəmaət, Cəlali Koroğlunun yalqız getməgi heç məsləhət dəgildi. Ondan ötrü onun düşməni çoxdur və Rum paşaları həmişə onun sorağında dolanullar. Nəbadə, Cəlali Koroğluya düçar olub, fürsəti qənimət bülüb, onu həlak eyliyələr. Məsləhət odur ki, onun dalınca gedək.

Pəs təmam iyidlər onların sözin təhsin eyləyüb, yekdil və yek cəhətə atların zin edib, səvar oldular. Pəs yüz qoydular Bəhbəhan tərəfinə getmağa. Əmma hər yerdə Həsən Cəlalü-

nün mənzilin soraq eyləyüb, tainki yetişdilər Həsən Cəlalinin qalasına. Əmma bu tərəfdən Həsən Cəlalinin həmşirəsi müntəzir oturmuşdu, bir vəqt gördü qalanun xaricində atlarun şiyhə sədası gəlür. Belə xəyal eylədü ki, qardaşı Həsən Cəlalidür ki, öz namzədi Mərcan xanımu gətürüb. Çün xaricə çıxdı, gördü neçə yüz dilavər təmam mükəmməl və müsəlləh atlarına səvar olub qala bərabərində durublar. Çün Mustafa bəg və Eyvəz balı o nazənin-sənəmü gördülər, xəbər aldılar ki, Həsən Cəlalünün mənzili buradur, qız dedi:

– Bəli.

Xəbər aldılar:

– Pəs özü hardadur?

Dedi:

– Bəhbəhanə gedib ki, öz namzədi, Abdal Paşanun qızın gətürsün.

Mustafa bəg dedi:

– Məgər, Cəlali Koroğlu buraya gəlməyüb?

Qız dedi:

– Gəlmişdi, əmma neçə gündür ki, mənim qardaşım Həsən Cəlalünün dalınca gedib, əmma heç birindən xəbər yoxdur. Bülmürəm ki, onların başında nə var?

Mustafa bəg dəst-paçə olub istədü atının cilovun döndərib Bəhbəhanə rəvan olsun, o qız xəbər aldı:

– Cavan, siz kimsüz? Hardan gəlüb, harıya gedirsüz?

Mustafa bəg dedi:

– Biz Cəlali Koroğlunun iyidlərindən varuq ki, onun dalınca gəlmuşux. Əmma çün Bəhbəhanə gedüblər istərüğ onların dalınca gidax.

O qız dedi:

– Cavan, vəqt təngdür, bu gecə burda mehman olun, sübh vəqti Bəhbəhanə gedün.

Mustafa bəg dedi:

– Nazənün, sən qız tayfasısan, bizim xərcimiz çoxdur, öhdəsindən.....

.....qoşunu təmam iyidlər meydandan qayıdub gəldilər Cəlali Koroğlunun xidmətinə. Koroğlu onlara çox nəvaziş ey-

ləyüb təhsin və afərin dedi. Həsən Cəlali yüzin dutub Koroğluya Mustafa bəgi və Bolı bəg sərdarı nişan verüb ərz eylədi:

– Qurbanun olum,bu iyidlər kimdür ki, şir kimin bu ləşkəri təmam dağıdub pərakəndə eylədi?

Koroğlu sazın götürüb basdı sinəsinə, dedi:

– Qulaq ver, deyim ki, bunlar kimdür.

Pəs bu türkini oxudu:

Qurulanda tib dəstələr səfbəsəf,
Gaziroğlu Mustəfa bəg əllidür.
Ox yağanda yağış kimin havadan,
Düşmən üstə Bolı bəglər əllidür.

Düşmənlərim at gəzdirüb çapanda,
Qaraquş tək iyidləri qapanda,
Sağü-soldan qənim fürsət tapanda,
Gaziroğlu Mustəfa bəg əllidür.

Mərd iyidlər çar tərəfdən yerisə,
Duman basub meydan yerin bürüsə,
Ağ öpgələr qorxusundan ərisə,
Düşmən üstə Bolı bəglər əllidür.

Qoç Koroğlu əl uranda xəncərə,
Girehlənür düşmənlərə pəncərə,
Yığışanda iyidlərim bir yerə,
Gaziroğlu Mustəfa bəg əllidür.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Həsən Cəlali onları tanıyub ayağa durdu, bir qolın saldı Mustafa bəgün boynuna və bir qolın saldı Bolı bəg sərdarın boynuna. Onlardan çox üzrxaxlıq eyləyüb, ərz eylədi:

– Məni bağışlayun ki, sizi tanımadum.

Pəs Mustafa bəg və Bolı bəg ona nəvaziş eyləyüb təarüf əmələ gətürdilər. Bəd əz an Cəlali Koroğlu hökm eylədi ki, Abdal Paşanun ləşkərünün təmam atın və əsbab və əsləhəsin bir yerə cəm eyləyüb iyidlərə qismət eylədi.

Pəs o gecəni qalıb, eylə ki sübh oldu, Koroğlu hökm eylədi ki, həman çəməndə Həsən Cəlalinün toy tədarükü görülüb

ona toy eyləsünlər. Pəs Mustafa bəy və Bolı bəy sərdarı çağırub beş yüz tümən nəqd onlara verüb dedi:

– Gedərsüz Bəhbəhanə, Həsən Cəlalinün toy tədarükün görüb gətürürsüz.

Pəs onlar neçə nəfər atlı götürüb yüz qoydılar Bəhbəhanə. Çün şəhərə daxil oldılar, gördülər şəhərdə bir qiyamətdür ki, eylə əskərdür, atlanub yüz qoyub Abdal Paşanun qapusuna.

Mustafa bəg bir nəfərdən xəbər aldı ki, nə var, dedi:

– Canım, o anasın satdığım Cəlali Koroğlu Abdal Paşanun özin öldürüb və təmam ləşkərün həlak eyləyüb. Əmma Abdal Paşanun oğlu Fərhad Paşa qırq min ləşkər cəm eyləyüb bu gün istər Cəlali Koroğlunun davasına getsün və atasınun qanın alsun.

Çün Mustəfa bəg və Bolı bəg bu sözi eşitdilər, həman saat qayıdub özlərin yetürdilər Koroğlunun xidmətinə. Koroğlu dedi:

– Nə tez toy tədarükü gördüz?

Ərz eylədilər:

– Qurbanun olum, toy tədarükü görməmişux, əmma dava tədarükü görmüşux.

Koroğlu dedi:

– Məgər nə var?

Ərz eylədilər:

– Qurbanun olum, daxi oturmaq vəqti dəgül ki, Abdal Paşanun oğlu Fərhad Paşa qırq min ləşkər cəm eyləyüb atasınun qanın almağa gəlür.

Cəlali Koroğlu çün dava adın eşitdi, bir güldü, sazın götürüb basdı sinəsinə, yüzin dutub iyidlərə tərəf, dedi:

İyidlərim boyu bəstə,
Qurulsun hər tərəf dəstə,
Sizə qulluq gözüm üstə,
Köyül dönməz bu sövdadan.

Yetişsün düşmənim canə,
Bələşsün nəşilər qanə,
Bir od urram Bəhbəhanə,
Tütün qalxsun bu səhradan.

Nədən qəlbüz pərişandır,
Mənə dava çox asandur,
Dövüş bir toydu, bayramdur,
Köyül doymaz bu davadan.

Koroğlu eyləməz pərva,
Əyər yüz min ola qovğa,
Qılıc əldə salır dava,
Həzər etməz bu qovğadan.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, hökm eylədi ki, təmam iyidlər dava əsbabın geysünlər. Pəs iyidlər təmam mükəmməl və müsəlləh qərqü-ahənü-fulad olub, atların zin edüb səvar oldular. Əmma bu tərəfdən Dəli Mehtər Qıratun əyərin qoyub yeddi yerdən onun təngin möhkəm edüb çəkdi Cəlali Koroğlunun rikabına. Eylə bu həngamda gördülər Bəhbəhan tərəfindən təblü-nay səsi fələki-ətləsə bülənd oldu. Cəlali Koroğlu dürüst baxanda gördü qırq pərgari-ələm nişaneyi-qırq min ləşkər nümudar oldı. Əmma qəlbi-ləşkərdə bir ələmi-kuhpeykər gətürüllər. Fərhad Paşa ələm dibində, bir kuhpeykər ata səvar olub, kəmali-izzəti-cəlalilən gəlür.

Cəlali Koroğlu ta bunu görəndə atına bir məhmizi-tiz çəküb keçdi iyidlərün qabağına, Fərhad Paşanun yolun kəsüb durdu. Çün Fərhad Paşa təblü-ələm ilən yetişdi Koroğlunun bərabərinə, gördü vaqiən Cəlali Koroğlu bir iyiddür ki, ruzigarun gözü bir belə iyid görməyüb və ruzigarun anası bir belə cavan doğmuyub. Buğları binaguşindən keçüb, şiri-jəyan kimin yol üstün kəsüb durub.

Fərhad Paşa Koroğlunu görəndə öz gəlmağına peşiman olub dedi, əbəs yerə özümü tora saldım, kaş heç öz mənzilümdən kənara çıxmayaydum. Əmma gördü ki, qayıtmaq daxi fayda verməz, labüd atın sürüb Cəlali Koroğlunun bərabərinə, dedi:

– Vay anasın satdığım xırsız əcəm oğlu, bu qədər Rum paşalarından həlakətə yetürdin, bəs olmadı, axırüləmr mənüm atam Abdal Paşanı öldürdün və hala istərsən mənüm bacım Mərcan xanımı aparasan və bizi təmam vilayətlərdə rüsva ey-

ləyəsən. Əgər çaryar mədəd eyləsə, səni və sənün iyidlərün bir zillətilən öldürüm ki, təmam dastanlarda deyilsün.

Çün Cəlali Koroğlu bu sözləri o napakdan eşitdi, dedi:

– Həramzadə, məgər sən atan Abdal Paşadan artuq olacaqsan? Səbr eylə, bir az zamandan sora səni atan Abdal Paşaya yetürrəm.

Fərhad Paşa Cəlali Koroğlunun bu sözindən mütəğəyyir olub, dedi:

– Ey Koroğlu, sən də öz iyidlərüvə degilən kənara çəkülsün və mən də öz ləşkərimə deyüm kənara çəkülsün, hər ikimiz bir-birilən dava eyləyək, ta görək mərdü– namərd kimdür.

Koroğlu çün bu cürəti Fərhad Paşadan görüb yüzün dutub iyidlərə, dedi:

– Cəmaət, kənar olun ki, bu həramzadənün davası mənümləndür.

Mustafa bəg və Bolı bəg sərdar ərz eylədilər:

– Qurbanun olum, bu həramzadənün nə ərizənəsi var ki, sən ona qılıc çəküb dava eyləyəsən. Qoy, bizlərün biri onun meydanına gedib səzasına yeturağ.

Koroğlu razı olmayub dedi:

– Sizlər kənardan tamaşa eyləyün.

Pəs iyidlər bir qədər kənar olub tamaşaya durdular.

Əmma bu tərəfdən Fərhad Paşa həm öz ləşkərinə hökm eyləyüb ki, bir qədər kənara durdular. Pəs o iki dilavər şiri-jəyan kimin özlərün yetürdilər meydanun vəsətinə. Cəlali Koroğlu meydanı bir dolanub, dedi:

– Paşam, mənim qaidəm budur ki, dava günündə bir neçə bənd türki oxuram, ondan sora dava eylərəm. Qulaq ver, o türküləri oxuyum.

Pəs Koroğlu at üstündə meydan içində bu türkünü oxudu:

Başunda var bu ləşkərün havası,
Koroğluyam, qılıcımdan həzər qıl.
Qəlbündə var Abdal Paşa yarası,
Koroğluyam, qılıcımdan həzər qıl.

İyid odur meydan günü əl açar,
Namərd odur övrət kimin dil açar,
Bir iş görrəm Xondkar ələmdən qaçar,
Koroğluyam, qılıcımdan həzər qıl.

Əgri qılıc götürmüsən dəstüvə,
Çox güvənmə ləşkərüvə, şəstüvə,
Dəli Mehtər saman təpər pustuva,
Koroğluyam, qılıcımdan həzər qıl.

Qoç Koroğlu tez ucaldur fəqanun,
Mələikə eşidüllər amanun,
Əbəs – əbəs tökmə yerə bu qanun,
Koroğluyam, qılıcımdan həzər qıl.

Çün Koroğlu sözin təmam eylədi, Fərhad Paşa atına bir məhmizi-tiz çəküb meydan içində bir neçə baş cövlan eyləyüb gəldi Cəlali Koroğlunun bərabərində nizəsinə təkyə eyləyüb dedi:

– Əcəm oğlu, məni ölümdən qorxudursan? Bir neçə bənd türki mənüm də sinəmə gəlüb, qulaq ver, onları deyüm.

Pəs yüzin dutub Cəlali Koroğluya, bu türkini oxudu:

Şer:

Əzəl gündə çariyarı sevmişəm,
Heç kimsənə qabağımda dayanmaz.
Çari-yardan mədəd alub gəlmişəm,
Rüstəm olsa, qabağımda dayanmaz.

Çox güvənmə uzun-uzun dilüvə,
Neçə nəfər qurt yerüşlü dəlüvə,
Çatqın atsam Çamlıbeldə elüvə,
Təkə – türkman qabağımda dayanmaz.

Aman verməm iyidlərə, bəglərə,
Əfqan səsin ucalduram göglərə,
Fərman versəm dalımdakı ləşkərə,
Pirin gəlsə, qabağımda dayanmaz.

Mən Fərhadam, dağı-daşı çaparam,
Düşmənimi at üstündən qaparam,
Daşa girsön, soraqlaşub taparam,
Aləm gəlsə, qabağımda dayanmaz.

Çün Fərhad Paşa sözin təmam eylədi, Cəlali Koroğlu onun bu sözlərindən qəzəbnak olub, bir nərə çəküb ki, qoşun əhli təmam hərəsan olub. Dedi:

– Vay həramzadə, nə bu qədər kibrü-qürur səni məst eyləyüb, özin tərif eylərsən. Məgər atan Abdal Paşadan artuqsan? Mən həman Cəlali Koroğluyam ki, Rumun paşaları mənüm zərbü-şəstümdən gecələr rəxt-xablarında yata bülməzlər. Əgər əcəl aman versə, Bəhbəhanı belə xərabə eyləyüm ki, daxi asarı o şəhərdən qalmasun.

Fərhad Paşa dedi:

– Ey Cəlali Koroğlu, sən imdiyə kimin mərd meydanına girməyübsən, bu gün sənə bir dəstibord göstərüm ki, təmam dastanlar nəql eyləsünlər.

Pəs o iki dilavər əl nizəyə edüb, bir-birinə həmlə eylədülər və neçə tən nizə onlarun aralığında rəddü-bədəl (oldu). Nizədən murad hasil olmadı. Pəs nizələrin atıb, əl kəmana edüb bir neçə ox bir-birinə atdılar. Pəs oxdan həm murad hasil olmayıb, əl atıb şəmşir çəküb bir-birinə həvalə eylədülər. Hər kəs ki, qılıc həvali eylərdi o birisi qalxan ilən rədd eylərdi. Cəlali Koroğlu gördü Fərhad Paşa çox rəşid cavandur, dedi:

– Paşam, gəl küşti dutaq, ondan ötrü əsbabi-hərbdən murad hasil olmadı.

Pəs o iki dilavər əsbabi-hərbi atub atlarundan aşaqı gəlüb əl bir-birinün kəmərindən salub binayi-küşti qoydular. Zöhr vəqtindən ta əsrə kimin küşti dutub heç biri o birinə faiq olmadı. Cəlali Koroğlu gördü vaqeən yaman hərifdür. Koroğlu təngə gəlüb əlün çəkdü. Fərhad Paşa belə xəyal eylədi ki, Koroğlu bunun davasından ehtiyat eyləyüb qorxar, dedi:

– Əcəm oğlu, niyə əlün çəkdün, məgər ölümündən qorxarsan? Əgər çaryar kömək eyləsə, bu gün səni bir zillət ilən öldürüm ki, təmam iyidlərün sənün əhvaluva ağlasun.

Koroğlu çün o həramzadənün tənəli sözin eşitdi, hirsindən

bədəni titrəyüb, dedi:

– Həramzadə, sən belə xəyal eylərsən ki, mənim səndən bakim var, mən o qədər pəhləvanlar həlak eyləmüşəm ki, sən onlarun şagirdi ola bülməzsən.

Fərhad Paşa dedi:

– Ey Cəlali Koroğlu, bica lafü-gəzaf eyləmə. Əgər ərzön var, göstər.

Koroğlu dedi:

– Bir neçə bənd türki gəlüb sinəmə, qoy onları deyüm, ondan sora genə dava eyləyək.

Pəs bu neçə bənd bu türkini oxudu:

Bir iş görürəm bu səhrada,
Cahan, əhli-cahan titrər.
Neçə bərgi gül üstündə,
Çəkər bülbül fəqan, titrər.

Edər düşmənlərim qovğa,
Düşübdür başıma sövda,
Edəm gər xişmilən dava,
Əlimdən qəhrəman titrər.

Həracım yox bu ləşkərdən,
Mədəd saqiyyi-kövsərdən,
Əgər nərə çəkəm sərdən,
Bu şəhri-Bəhbəhan titrər.

Koroğlu gəldi meydanə,
Yetibdür qüssədən canə,
Dönər meydan qızıl qanə,
Axar sel tək o qan, titrər.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, dübarə atın tənkin möhkəm eyləyüb, ayaq həlqeyi-rikabə qoyub mürği-zərrinbal kimin xaneyi-zində qərar dutdu. Meydanı bir cövlan eyləyüb gəldi vəsəti-meydanda durdu. Əmma bu tərəfdən Fərhad Paşa həm atına səvar olub kəsdi Cəlali Koroğlunun qabağın. Pəs o iki dilavər genə əl nizəyə edüb bir-birinə həmlə eylədülər. Neçə tən nizə onların arasında rəddü-bədəl olun-

du. Bəd əz an nizələri atıb, əl qılıca eyləyüb şəmşiri-atəşbar qılafından çəküb, Koroğlu dedi:

– Əvvəl fürsət sənündür.

Pəs Fərhad Paşa qılıcın yuxarı götürüb. Koroğlu qalxan çəkdi başına, o həramzadə təmam zorilən qılıcı endürdi. Cəlali Koroğlu qalxanun qübbəsin verüb qılıcın dəminə, onun qılıcın rədd eylədi. Çün növbət Koroğluya yetüşdi, atına bir məhmiz çəküb meydanı dolandı. Eylə ki Fərhad Paşaya müqabil olanda, qılıcın çəküb götürdü yuxarı, bir ya Allah deyüb elə urdu qalxanın üstündən ki, qalxanı iki parə eyləyüb keçdi Fərhad Paşanun başına. Çün qılıcın əsəri Fərhad Paşanun başına yetüşdi, o həramzadə istədi başun rədd eyləsün, qılıc başından rədd olub düşdü onun çiyninə, bir qolun qələm eyləyüb irəli saldı. Fərhad Paşa yüzin dutub öz ləşkərinə, fəryad eylədi:

– Cəmaət, qoymayun Cəlali Koroğlunu ki, məni həlak eylədi.

Pəs qırq min qoşun təmam birdən əl qılıca edüb yüz qoydular Cəlali Koroğlunun üstünə. Əmma bu tərəfdən Bolu bəy sərdar və Mustafa bəg və Həsən Cəlali və Eyvəz balı əhvalı belə görəndə birdən nərə çəküb iyidlərə fərman verdilər ki, daxi durmaq vəqti dəgül. Qoymuyun bu ləşkəri zində qurtulub getsünlər. İyidlər təmam qılıcların çəküb özlərin saldular ləşkərün içinə. Koroğlu çün əhvalı belə gördü, yüzin dutub iyidlərə tərəf, bu türkini oxudu:

Mən sevərəm iyidlərin cəngini,
Möhkəm edün bədəvlərin təngini,
Başı sınmış osmanlı sərhəngini,
Dar dibində gözi yaşlı istərəm.

Mustəfa bəg, al qoşunun sağını,
Bərhəm eylə nöh fələkün tağını,
Qolu bağlı Fərhad kimin yağını,
Dar dibində gözü yaşlı istərəm.

Bolu bəglər, aman vermə, çap sola,
İyidləri nizamilən düz yola,

Bu ləşkəri bağlagilən qol-qola,
Dar dibində gözü yaşlı istərəm.

Xəzan vəqti bağlar dolar xəzəldən,
Qoç Koroğlu iqrar verüb əzəldən,
Köyül doymaz Eyvəz kimin gözəldən,
Ala gözlü, qələm qaşlu istərəm.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, iyidlər üryan qılıc əllərində töküldilər ləşkərün üstünə. Mustəfa bəg sağdan, Bolu bəg soldan, Cəlali Koroğlu özi qəlbi-ləşkərdən. Bir dava oldu ki, ruzigarun gözi belə dava görməmişdi. Bəhbəhan ləşkəri iyidlərün zərbü-şəstin görəndə özlərin itirüb məcmui-heyran sərkərdan o biyabanda dolanurdılar, əmma Cəlali Koroğlunun iyidləri onları qoyun sürüsü kimin qatub qabaqlarına, əlli nəfər osmanlu qaldı bir nəfər iyidün əlində. Heç kimsənədə cürət olmadı ki, qılıcın çəküb özin vərtiyi həlakətdən çıxardub sahili-nicata yetürsin. Pəs o əsri-təngdə dərya kimin ləşkər N[illegible]

oldular. Çün iyidlərün atı bir gün bir gecə heç istirahət eyləməmişdi, Cəlali Koroğlu o gün həman çəməndə mənzil eylədi. Əmma iyidlər osmanlı atlarından minüb getdilər şikara. Bir qədər şikar eyləyüb o gün o gecə kəbab edüb şərab içməgə məşğul oldular.

Eylə ki sübh oldu, Cəlali Koroğlu Mustafa bəgi ehzar edüb, dedi:

– Gərək burdan köçüb Bəhbəhan şəhərinə gedək.

Mustəfa bəg ərz eylədi:

– Qurbanun olum, biz Bolu bəyün toy tədarükün görmüşük və iyidlərün bir parəsi Çamlıbeldə müntəzirdür. Gərək gedək Çamlıbelə.

Koroğlu dedi:

– Gərək əvvəl Həsən Cəlalinün toyun dutam və ondan sora Çamlıbelə gedim.

Mustəfa bəg ərz eylədi:

– Qurbanun olum, imdi ki, mənzurun Həsən Cəlalinün toyudur, Bəhbəhanə getmək zərur dəgül. Gedərük onun toy tədarükün Bəhbəhandan gətürux. Bu çəməndə onun toyun eyləyün.

Cəlali Koroğlu dedi:

– Mustafa bəg, mənim Bəhbəhan şəhərinə getməkdə məqsudim var, ondan ötrü gedürəm.

Mustafa bəg ərz eylədi:

– Məqsudin nədür?

Koroğlu sazın götürüb basdı sinəsinə, yüzin dutub Mustafa bəgə dedi:

Mustafa bəg, bir qulaq ver sözümə,
Rum ölkəsin dağıtmağum gərəkdür.
Başdan dibə düşmən gəlür gözümə,
Rum ölkəsin dağıtmağum gərəkdür.

Bəhbəhanda ərkək-dişi qoymaram,
Osmanlınun qanın içsəm, doymaram,
İstanbuldan Xondkar gəlsə, saymaram,
Rum ölkəsin dağıtmağum gərəkdür.

Dağıdaram Bəhbəhanın qalasın,
Qoymam daxi abad ola cölgəsin,
Od uraram, yandıraram ölkəsin,
Rum ölkəsin dağıtmağum gərəkdür.

Koroğluyam, bir od urram cəhanə,
Əfqan səsi dayansın asimanə,
İstanbuldan xondkar gəlsün amanə,
Rum ölkəsin dağıtmağum gərəkdür.

Çün Cəlali Koroğlu sözin təmam eylədi, Mustafa bəg Koroğlunun mətləbindən anladı, ərz eylədi:

– Qurbanın olum, sənin davan Abdal Paşa ilən və Fərhad Paşa ilən var idi. Əlhəmdüllah, onları öz səzalarına yetürdin. Bəhbəhan əhlinin nə təqsiri var, onlar rəiyyəti-biçarədür, gərək onları əfv eyləyüb, bağışlayasan.

Pəs Cəlali Koroğlu Mustafa bəgün iltimasın qəbul edüb, Bəhbəhan əhlinün qətlü-qarətin bağışladı. Bəd əz an hökm eylədi ki, həman çəməndə Həsən Cəlalinin toy tədarükün görülsün. Pəs Mustafa bəg və Bolu bəg sərdar bir qədər nəqd götürüb gəldilər Bəhbəhanə. Həsən Cəlalinin toy tədarükün görüb gəldilər. Pəs Cəlali Koroğlu hökm eylədü, bir böyük çadır bərpa eyləyib, bir ali məclis bina eylədilər. Pəs yeddi gün-yeddi gecə Həsən Cəlaliyə toy dutuldu, iyidlərin başı şərabi-nabdan gərm olub, hər kəs öz rəfiqi ilən güzəran edüb, eyşü-işrətə məşğul oldu. Eylə ki yeddi gün-yeddi gecə təmam oldu, Mərcan xanımı gətirdilər Həsən Cəlalinin mənzilinə. Onları bir-birinə təslim eylədilər. Pəs o iki cavan bir-birindən kami-dil hasil eylədilər.

Eylə ki toy təmam oldu, Cəlali Koroğlu hökm eylədi ki, iyidlər köç tədarükün görüb Bəhbəhandan köç eyləyüb gəldilər Həsən Cəlalinin qalasına. Pəs Həsən Cəlali yeddi gün və yeddi gecə Cəlali Koroğlunu və təmam iyidləri qonaq eylədi. Bəd əz an ərz eylədi:

– Qurbanun olum, mənim yolumda çox zəhmət çəkdün, gərək məni əfv eyləyəsən. Əmma bu zəhmətin əvəzində bir həmşirəm var, gərək onu kənizliyə qəbul eyləyəsən.

Cəlali Koroğlu dedi:
– Gərək həmşirəvi Mustafa bəgə verəsən.
Həsən Cəlali ərz eylədi:
– Qurbanun olum, ixtiyar sənündür.
Pəs Cəlali Koroğlu onun həmşirəsin alıb Mustafa bəgə. Pəs o qızı və Həsən Cəlalini götürüb rəvanə oldular Çamlıbelə ki, orda Bolı bəgə və Mustafa bəgə toy eyləsünlər. Pəs cəlali-şövkət ilən mənzilbəmənzil gəlürdilər, tainki Çamlıbelin həvalisinə yetişdilər. Çün Koroğlunun gözü Çamlıbelin dağlarına düşdü, gördü gül və giyah hər tərəfdən açılıb və elat çadırların yaylaqlarda qurub eyşü-işrətə məşğul olublar. Koroğlu sazın götürüb kök eyləyüb at üstündə basdı sinəsinə, bu türkini oxudu:

Qoç Koroğlu qədəm basdı gülşənə,
Gülşən əhli şadlığından gülər, hey!
Süsən-sünbül, tər bənəfşə açılub,
Şeyda bülbül şadlığından gülər, hey!

Gözüm düşdü Çamlıbelin dağına,
Yaxşı gəldim güllərinün çağına,
Ellər çıxub çiçəkli yaylağına,
Dağdan axan çeşmələri gülər, hey!

Göllərinün ördəgi var, qazı var,
Dilbərinün işvəsi var, nazı var,
Eyvəz xanın əldə xatəm sazı var,
İyidlərim şadlığından gülər, hey!

Qoç Koroğlu yaxşı bilür sayağı,
Aləmdə var Çamlıbelün sorağı,
Qızılgülün bağlar olub yatağı,
Şeyda bülbül şadlığından gülər, hey!

Çün Cəlali Koroğlu sözin təmam eylədi, ordan keçüb yola düşdülər. Bu tərəfdən iyidlər Cəlali Koroğlunun gəlməgindən xəbərdar oldular, təmam çıxdılar istiqbalə. Pəs cəlalü-təmamü-fəthü-zəfərilən gəlüb Çamlıbeldə aramü-qərar dutdılar. Neçə gün istirahətə məşğul olub, tainki səfərin zəhməti iyidlərdən rəf oldı, ondan sora Cəlali Koroğlu Mustəfa bəgi və

iyidləri çağırub hökm eylədi ki, binayi-toy qoyulsun. Eyvəz balı ərz eylədi:

– Qurbanun olum, gərək bu iki toyun ixtiyarın mənə verəsən.

Cəlali Koroğlu Eyvəzün qəlbi şad olmaqdan ötrü o toyların ixtiyarın verdi Eyvəz balıya.

Pəs Eyvəz balı iki min tümən nəqd götürüb və neçə nəfər iyidlərdən götürüb gəldi İrəvana. Mustafa bəgün və Bolı bəg sərdarın toy tədarükün görüb qayıtdı. Əmma qayıdanbaş şikar eyləyə-eyləyə gəlirdi, tainki yetişdi Tuna çayının həvalisinə. Eyvəz gördü bir sürü qoyun çərayə məşğuldur. Eyvəz xəbər aldı şəbandan ki, bu qoyun kimindür, dedi:

– Cavan, bu qoyun Qadir ağanundur.

Eyvəz dedi:

– Cavan, Qadir ağa hara əhlidür və evi harda olur?

Şəban dedi:

– Cavan, Qadir ağa el böyügüdür ki, yeddi min eli var və özi həm bir qəvi heykəl və rəşid pəhləvandur ki, ta imdiyə kimin Xondkari-Rum ondan bacü-xərac ala bülməyüb.

Eyvəz dedi:

– Şəban, hala Qadir ağa hardadur?

Ərz eylədi:

– Qurbanun olum, Qadir ağa neçə gündür ki, gedüb Ərzuluma, öz oğlu Teymur ağaya toy tədarüki görüb gəlsün, ta onun toyun eyləsün və bu qoyunları həm alub ki, oğlunun toyunda zib eyləyüb ziyafət eyləsün.

Eyvəz balı yüzin dutub iyidlərə dedi:

– Yaxşı oldu, bu şəbanı dutub qolların bağlayın və bu süri qoyunı aparub ta toyda məsrəf eyliyax.

Pəs iyidlər o şəbanı dutub, əl-ayağın möhkəm bağlayıb bir dərrədə məhbus eylədilər. Və o sürü qoyunu götürüb Çamlıbelə yola düşdülər. Tainki özlərin yetirdilər Çamlıbelə. Əmma bu tərəfdən Cəlali Koroğlu və iyidlər oturmuşdular, gördülər Eyvəz balı gəlir, əmma bir sürü qoyun gətirür. Çün Eyvəz yetişdi Koroğlu bərabərinə, Koroğlu xəbər aldı ki, bu qoyunları hardan gətürürsən, ərz eylədi:

– Qurbanun olum, bu qoyunlar osmanlu malıdur, Qadir ağanındur.

Koroğlu dedi:

– Eyvəz, bunları pulnan aldun?

Eyvəz ərz eylədi:

– Qurbanun olum, pulnan almamışam, əmma şəbanın əlayağın bağlıyıb gətirmişəm.

Koroğlu dedi:

– Eyvəz, Qadir ağanı tanımamısan. Çox rəşid adamdır və el və qəbilə sahibidür. Yatmış fitnəni bidar eyləyübsən. Əlbəttə, Qadir ağa xəbərdar olsa, bizlərnən dava eylər.

Bəlli Əhməd və Dəmirçioğlu bu sözü Cəlali Koroğludan eşidəndə ərz eylədilər:

– Qurbanun olum, bizi Qadir ağadan qorxudursan?! Onun nə həddi vardur ki, bizlərə müqabil olub dava eyləsün. Eyvəz çox yaxşı eyləyib bu qoyunları gətirməkdə. Ondan ötrü osmanlınun malı bizlərə halaldır.

Pəs Cəlali Koroğlu hökm eylədi bir böyük çadır qurub bir ali məclis bina eylədilər. Bəd əz an toy başlandı. On dörd gün və on dörd gecə xoşavaz müğənnilər oxumağa məşğul oldular və incəbel mütrüblər rəqs eylədilər və saqilər saatbasaat cami-mey əllərində, peydərpey iyidlərə verib. Onların başı şərabi-nabdan gərm olub hər kəs öz rəfiqiylən söhbətə məşğul olub güzəran eylədilər.

Çün on dörd gün təmam oldu, məşşatələr əruslara ziynət verüb birin gətirdilər Mustafa bəgün otağına və birin apardılar Bolı bəg sərdarın otağına.

Pəs onlar bir-biriynən kami-dil hasil eylədilər. Eylə ki sübh oldu, iyidlər cəm oldu, Cəlali Koroğlu gəlüb məclisə, öz yerində aram dutdı. Əmma bu tərəfdən Mustafa bəg və Bolı bəg sərdar öz yerlərində həm aram və qərar dutdılar. Cəlali Koroğlu işarə eylədi saqilərə ki, məclis əhlinə piyalə versünlər.

Pəs saqiyani-siminsaq əllərində cami-büllur şərabi-əqiqrəngdən doldurub min işvə və naznan peydərpey məclis əhlinə verirdilər və iyidlər məsti-layəqil olub hər kəs öz aləmində keyfə məşğul olub, ləzzət aparırdı. Tainki nahar gəlüb ənva-

ənva təamlar sərf olundu. Bəd əz təam qəhvə və qəlyan gəldi. Çün qəhvə və qəlyan məclisdən çıxdı, Cəlali Koroğlu yüzin dutub Eyvəzə dedi:

– Eyvəz, iyidlər neçə vəqtdür ki gecə və gündüz zəhmət çəkəllər, bunlara xələt gətür.

Pəs Eyvəz balı xələtayi-rəngarəng zərbəft və dibacdən hazır eylədi. Cəlali Koroğlu öz əliylə hər kəsün öz rütbəsinə görə xələt və ənam verüb nəvaziş eylədi. Çün iyidlərin xələt və ənamından fariq oldu, onları mürəxxəs eyləyüb ki, hər kəs gedüb öz mənzilində istirahətə məşğul oldu. Əmma Mustafa bəg bir neçə gün qalıb Cəlali Koroğlunun xidmətində. Bir neçə gündən sora ərz eylədi:

– Qurbanun (olum), neçə müddətdür ki, öz mənzilimdən çıxmışam. Hərgah mürəxxəs eyləsön, gedərəm.

Pəs Cəlali Koroğlu onı mürəxxəs eyləyüb, əmma hökm eylədi iyidlərə ki, təmam atlarına səvar olub və özi həm atlanıb iki ağac yol Mustafa bəgi müşayiət eylədilər. Mustəfa bəg ərz eylədi:

– Qurbanun olum, daxi bundan artuq xəcalət vermə.

Pəs Cəlali Koroğlu və iyidlər Mustafa bəgi vida eyləyüb qayıdub Çamlıbeldə hər kəs öz mənzilində qərar və aram dutdu və Mustafa bəg öz ərusin götürüb öz mənzilinə müraciət eyləyüb kəmali-izzət və cəlal ilən daxil oldu.

(Davamı "Azərbaycan folkloru külliyyatı" çoxcildliyinin 16-cı cildindədir)

MÜNDƏRİCAT

Koroğlunun birinci məclisi.....3
Koroğlunun ikinci məclisi.....24
Koroğlunun üçüncü məclisi.....52
Koroğlunun dördüncü məclisi.....69
Koroğlunun beşinci məclisi.....83
Koroğlunun altıncı məclisi.....112
Koroğlunun yeddinci məclisi.....138
Koroğlunun səkkizinci məclisi.....155
Koroğlunun doqquzuncu məclisi.....188
Koroğlunun onuncu məclisi.....213
Koroğlunun on birinci məclisi.....235
Koroğlunun on ikinci məclisi.....266
Koroğlunun on üçüncü məclisi.....286
Koroğlunun on dördüncü məclisi.....318
Koroğlunun on beşinci məclisi.....346
Koroğlunun on altıncı məclisi.....365
Koroğlunun on yeddinci məclisi.....385

Azərbaycan folkloru külliyyatı,
XV cild, Dastanlar (V kitab),
Bakı, "Nurlan" nəşriyyatı, 2010.

Nəşriyyat direktoru:
Nadir Məmmədli

Kompüterdə yığdı:
Aysel Cəfərova
Aygün Balayeva

Korrektoru:
Vüsal Abiyev

Kompüter tərtibçisi və
texniki redaktoru:
Ramin Abdullayev

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 26,75 ç/v
Tirajı: 500
Qiyməti müqavilə ilə.

Kitab AMEA Folklor İnstitutunun
Redaksiya-Nəşriyyat şöbəsində yığılmış, səhifələnmiş,
"Nurlan" nəşriyyatında hazır diapozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.